# ENTROPİK DÜNYA

# ENTROPİK

# DÜNYA

XAOSUN KOSMOS ÜZƏRİNDƏ ZƏFƏRİ

SÜBHAN PADAROV

Bakı – 2019

SÜBHAN PADAROV

ENTROPİK ADÜNYA
XAOSUN KOSMOS ÜZƏRİNDƏ ZƏFƏRİ

Bakı, 2019, 368 səh.

ISBN 978–9952–20–102–4

BÜTÜN HÜQUQLAR QORUNUR!

© Sübhan Padarov, 2019

*"Materializmin fundamental səhvi həyatda canlı olandan daha çox cansız olana, daxili olana deyil, zahiri olana, daxili hakimiyyətə deyil, zahiri rifaha, psixi faktora deyil, iqtisadi faktora, idraka deyil, biliyə daha çox önəm verməsidir"*

Hermann Keyserling

*"Qanunların insanları spiritual və intellektual mükəmməlliyə yönləndirdiyinə inanılırdı. Lakin, bugün "universal insan hüquqlarının" hamisinə transformasiya edilən qanunlar inferiyor insani varlıqların snobizm, apatiya, sinizm və nihilizminin döyüş meydanına çevrilib".*

Con Brus Leonard

# MÜNDƏRİCAT

Proloq .................... 9

*"Allahın Nitzşeist ölümü" və entropik dünya*

Aktiv Nihilizm və onun formaları .................... 19

Tanrıların qəhqəhəsi və Epimetey humanizmi .................... 39

Zaman və Məkan sivilizasiyaları .................... 49

Protean insanın meydana çıxması və Epikür doktrinası .................... 67

Olimpiya idealı və Təbii Hüquq .................... 75

Rasionalizm mifindən İrrasionalizmə .................... 99

Atomist fərdiyyətçilik və Şəxsiyyət – İyerarxiya .................... 111

Modern elmin proseduraları – Biliyin dissolyusiyası .................... 131

Modern İncəsənət və Musiqidə metafizik tənəzzül .................... 159

Modern Aktivizm .................... 193

*Quo Vadis, Ecclesia?* – Xristianlıq və Qərb .................... 201

Cinsiyyətin metafizikası və Seksual İnqilab .................... 229

Silklərin reqressiyası və Beşinci Silkin yüksəlişi .................... 259

Neospiritualizm və onun formaları .................... 275

- *Psixoanaliz* .................... 288
- *Təbii İnqilab və Heyvani İdeal* .................... 298
- *Neomistisizm və Krişnamurti* .................... 307
- *Teosofiya* .................... 313

Modern "iş etikası" və iqtisadiyyatın demonik təbiəti .................... 319

*Mahapralaya* və Moiraların Yer üzünə yenidən çıxışı .................... 331

Epiloq .................... 349

Biblioqrafiya .................... 359

*LA VITA EST MILITAE SUPER TERRAM*

# PROLOQ

## "ALLAHIN NİTZŞEİST ÖLÜMÜ" VƏ ENTROPİK DÜNYA

Əziz Nitzşe, ölümündən 120 il keçsə də, "Xristianlığın Allahının ölü olduğunu", "modern insanın Allahı öldürdüyünü" elan edən fəlsəfən və Zərdüştün məhz bugün dünyanı yıxıcı bir formada dərindən sarsmağa başlayır. Sənin həqiqətlərin nəsillər arasından süzülərək bütün dünyaya öz canlılığı ilə nüfuz edir. Sən soruşurdun: "Biz Yeri öz *günəşindən* ayırmaqla nə edirik? Yerimiz hara gedir? Biz, hara doğru hərəkət edirik? Geriyə, yana, irəliyə - hara doğru hərəkət edirik? Hər hansı bir *yuxarı* və ya *aşağı* var mı? Əziz Nitzşe, mən bildirmək istəyirəm ki, sənin xəbərdarlıq etdiyin kimi, biz bir sonsuz nihilizm içərisində yolumuzu itirmiş və çaşqınlıq ağuşundayıq. Sən bu Allahın, onun Xristianlığının pərəstişkarı deyildin. Lakin, onun itkisinin yaradacağı vakuum və doğuracağı "ən mənhus insan" – sonuncu insan barəsində bizi öncədən xəbərdar edirdin. Sən bildirirdin ki, heç bir insanın öz ali arzusunun oxunu bəşəriyyət üzərinə ata bilməyəcəyi zaman – sonuncu insanın ortaya

çıxdığı zaman olacaq. Əziz Nitzşe, biz məhz sənin dediyin – insanın heç bir ali məqsədinin olmadığı zamanda yaşayırıq. Bir vaxtlar, Allah təbii olaraq Xeyir protaqonisti, Xeyir inisiatoru idi. O, ilahi bir transsendentallıq ilə Yaradılışda və Təbiətdə bu xüsusiyyətini istifadə etdi. Russoçu yanaşmada da, Allah təbiəti etibarilə Xeyiri təmsil edir, dünyanı pozitiv hala gətirmək üçün onu hansısa bir tərəfə çevirməyimizə ehtiyac yox idi və Şər də sadəcə bir təsadüfdən ibarət idi. Lakin, "Allahın ölümündən" sonra dünyanın taleyi ilə bağlı qayğılanmaq bizə qaldı. Allah başqa bir dünyada təsdiqlənə bilməyəcəyinə görə, onu dərhal doğrulamaq, təsdiqləmək zərurəti ortaya çıxdı. Allahın krallığının ekvivalentini – yəni bütünlüklə pozitiv bir dünyanın hər yerdə var olmasını (immanensiya) texnoloji olaraq reallaşdırmaq mühüm oldu. Bu da teoloji olaraq tam bir sapma, abnormallıq idi. Xeyirin hökmranlığını istəmək şeytani bir təşəbbüsdür. Çünki Şərin yolunu açar. Əgər Yaxşılıq bu dünyanı "inhisarına" alırsa, o biri dünya da Pisliyin inhisarına keçəcək. Beləliklə, dəyərlərin total inversiyasından qurtulmaq qeyri-mümkün olacaq və dünya "Allahın ölümünün" metastaziyalarının baş verdiyi bir məkan halına gələcək. Dünya bizə verildi, verilmiş olanı təhvil vermək lazımdır. Bir vaxtlar şükür duyula bilirdi ya da ilahi lütf qarşılığında qurban təqdim edilərək cavab verilirdi. Lakin, artıq şükranlıq duyula biləcək heç kim qalmadı və bizə verilən dünya qarşılığında verə biləcəyimiz heç nə yoxdur. O halda, verilən dünyanı aradan qaldırmaq və onun yerinə ağıla gələ biləcək hər növ müxtəlif parçalardan formalaşmış süni bir dünya qoyaraq onu yox etməli olacağıq və beləcə, heç kimə borcumuz qalmayacaq. Bütün vasitələrdən istifadə edilməklə təbii dünyanı neytrallaşdırmağa yönələn bu nəhəng elmi-texnoloji təşəbbüs də buradan qaynaqlanır. Qeyri-mümkün mübadiləni ehtiva edən bu simvolik qanun adına təbii olan nə varsa bütünlüklə inkar edilir.

Biz dünyanın gördüyü ən aldadıcı və hiyləgər kalvinist-puritan keşişləri ilə üz-üzəyik. Onlar, sənin bəhs etdiyin elm və materializm keşişləri idilər. Qlobal bazarı planlaşdırıb hazırlayan keşişlər. İnsanlar artıq

öz xilasını kütləvi şəkildə məhz burada tapır. Əziz Nitzşe, sən deyirdin ki, aristokratik asketizmin sona çatdığı yer bazarın - zəhərli həşəratların vəlvələsinin başlandığı yerdir[1]. Modern insan əzəmət ideyası – spiritual yaradıcılıq haqqında heç nə bilmir. Çünki o zəhərli həşəratlar hər yerdədir. Bazar və onun boyunduruğu bütün planeti ağuşuna alıb. O aristokratik asketizmə nail olmaq qeyri-mümkündür. Çünki sən harada olursan ol, bazarın içindəsən. O, hər kəsin sahib olduğu texno-cihazlarda bir sığınacaq taparaq özünü işıqlandırır. Sən söyləyirdin ki, bütün böyük məziyyətlər bazar yerindən kənarda baş verir. Lakin, bugün qlobal bazarın nüfuz edə bilmədiyi çox az dəyərli yer var.

Əziz Nitzşe, bildirirdin ki, insan bir uçurum üzərində ali insan ilə heyvan arasında ilməklənərək bağlanmış bir ipdir. İnsanda əzəmətli olan onun bir son deyil, bir körpü olmasıdır. Sən vurğulayırdın ki, insan özlüyündə rəqs edən bir ulduzun doğuşuna səbəb ola biləcək bir *xaosa* sahib olmalıdır[2]. Lakin, gecə-gündüz trivial həzzləri ilə yaşayan bizim əsrin insanı – modern insan sənin vurğuladığın insan deyil. Çünki modern insan böyük bir görünməz arı yuvasındakı arılar kimi hərarətlə işləyir və instinktual olaraq yaşayır. Yoxsa o maşınla birləşəcək və trans-insanmı olacaq? Biz varlığın yeni mərhələsinin ortaya çıxmasına səbəb olmaqla onun ağırlığı altında əziləcəyikmi? Ölümsüzlər gəlir, Nitzşe amma düşünmürəm ki, onlar həqiqətən *yaşayırlar.* Qeyd etdiyin uçurum artıq öz məhvi ilə üzləşir. Çünki həyatın arxetipal tarixinin davamlılığı texno-dünyada – maşında heç bir davamlılığa sahib deyil. Xristianlığın "Allahı ölüdür" və indi hər kəs, gecə-gündüz *süni intellekt* adlandırdıqları “materializmin Allahını” yaratmaq üçün işləyir. Əziz Nitzşe, sənin haqqında bəhs etdiyin sonuncu insan (lar) kölələşdirdiyi öz xırda maşınlarının köləsi olaraq hər yerdə mövcuddur (lar). Onlar öz cihazlarına oxşayır və hətta öz sevgilərini də onlara elan edirlər. Ətrafımız deka-

---

[1] Friedrich Nietzsche – “Thus Spoke Zarathustra”, trans. R. J. Hollingdale (London: Penguin Classics, 1961), 78

[2] Friedrich Nietzsche – “Thus Spoke Zarathustra”, trans. R. J. Hollingdale (London: Penguin Classics, 1961), p, 5

densiya ilə çevrələnib. Qlobal bazarın tələləri ilə bu ölümsüz maşınlar gələcəyimizi əlimizdən alır və hər bir mümkün arzu sensorlu ekran üzərində kənara sürüşən bir barmaqla başlayır və sona çatır. Sən deyirdin ki, "əgər insan əzab və fiziki tətminsizliyi şeytani, nifrətdoğurucu və mövcudiyyətinin çatışmazlığı olaraq təcrübə edirsə, öz mərhəmət dininin yanında, ürəyində başqa bir din bəsləyir. Bu onun sevgi və mərhəmət dininin anası – *konformizm dinidir."*[3] Bütün əzabı aradan qaldırmaq və ani tətmin əldə etmək modern insani sürünün görkəmli səciyyəsidir. Öz simalarını rəqəmsal *books of face-larda* dəfn edən bu insan evindən çıxmadan hər bir bayağı istəyininin reallaşmasını tələb edir. Tərəqqi olaraq adlandırdığımız bu oyun bizi əsla xoşbəxt etməyəcək, Nitzşe. Bütün real təhlükələrin kökünü kəsməklə biz əzabı aradan qaldırmırıq. Biz, kövrək, dekadent insani kütlənin sayını daha da artırırıq.

Bizim iqtisadi tərəqqimiz təhkimliliyin yeni formasının inkişafına doğru istiqamətlənib. Parlamentar institutlarına rəğmən böyük hərbi və administrativ dövlətlər azadlığın ruhunun nə olduğunu bilməkdən uzaqdır. Onların bildiyi sadəcə bərabərlik və bərabər olmayanı belə bərabərləşdirməkdir. Bərabərlik iradəsi bugün dominant iradədir. Nitzşe, sənin qeyd etdiyin kimi yanlış olaraq "azad ruhlular" deyə adlandırılan bu düzləşdirilmişlər demokratik həzzin və onun ideyalarının kölələridir. İnstitutlaşdırılan bərabərlik arzusu azadlıq və təhlükəsizlik kisvətinə bürünüb. Bərabərlik iradəsi Qərbdə və Qərbləşmiş hər yerdə insanı əsir alan güclü bir qüvvədir. Sən tamamilə haqlı şəkildə söyləyirdin ki, "demokratik hərəkat sadəcə siyasi orqanizasiyanın qürub forması deyil, bayağılaşdırmaq və dəyərini aşağılamaqla insanın kastrasiya formasıdır[4]. Bu prosesin sonuncu layihəsi multikulturalizm adlanır. Dünyanın bütün xalqlarının iradəsi birlikdə qarışdırılır və bir palitra üzərində qarışdırılmış rənglərdə olduğu kimi ortaya çıxan sadəcə boz bir rəngdir. Dünya-

[3] Friedrich Nietzsche – " Basic Writings of Nietzsche", trans. Walter Kaufmann (New York: Random House, 2000), p. 338. Taken from Beyond Good and Evil.

[4] Friedrich Nietzsche – "Basic Writings of Nietzsche", trans. Walter Kaufmann (New York: Random House, 2000), p. 307. Taken from Beyond Good and Evil.

nın əzəmətli xalqları konstant güzəştləri ilə özlərinə qəsd edirlər. Hər şey bərabər olmalıdır. Hər kəsə qlobal bazarın əli çatmalıdır. Nadir və özünəməxsus olan hər bir şey ticariləşdirilməli və hər kəs üçün əlçatan olmalıdır. Sən, ümumi olan hər şeyin dəyərsiz olduğunu söyləmirdinmi? Hər şey ümumiləşdirilir və artıq heç nəyin ali dəyəri yoxdur.

Mühafizə edən demokratik və sosial rifah cəmiyyətində durmadan yetişdirilən və qorunan sadəcə Dünya ilə heç bir metafizik əlaqəsi olmayan bayağı, məziyyətsiz və qayəsiz fərdlərdir. Əmr vermək bir yana, sadəcə nizam tələb etmək Qərbdə şeytani bir göstəricidir artıq. Əsrlərlə əmr verən Avropalı bugün artıq öz kimliyindən utanır. Hətta artıq Qərbdə ideoloqların və yazarların kitabları belə hayqırır: "Qərb pis şeylər edib. Bu səbəblə də, onun tarixi pisdir və dekonstruksiyaya uğramalıdır". "Allahın ölümünün" metastaziyaları və ilkin günah Qərbi əsla tərk etmədi. Avropalı kimi doğulmaq sadəcə bir nauzeadır.

Əziz Nitzşe, qadınlar və kişilər öz iradələri əleyhində olsa da, eyni rolların icrasına *məcbur edilir*. Onlar maskulen – kişicə olan hər şeyin *toksik* olduğunu elan edirlər. Qadınlara gəldikdə isə, onlar bu modern reallığın böyük bir səbəbiyyətidir. Qadınsı olan hər şeyin yanlış olduğuna inandırılmaqla, onlar *"kişiləşir",* inferiyor kişilərə bənzəyirlər. Feminizm onlara söyləyir ki, qadın olmaq, uşaq dünyaya gətirmək və ya iffətli geyinmək dəyərsiz həyatın göstəricisidir. Kişiləşmiş qadınlar və qadınsılaşmış kişilər – bu miniatür insanlar *hakimiyyət iradəsinə* total şəkildə yaddır. Onlar mübarizə apara bilməyən, yarada bilməyən infantil varlıqlardır. Onların idealları inferiyor xarakterli, sadiqlikləri kövrək, iradələri zəif, maraqları keçicidir. Sənin söylədiyin kimi, "ən yuxarıda qara kütlə, ən aşağıda qara kütlədir." Lakin Sən, bir Suprahumanizm ideyasını irəli sürür və təkidlə qeyd edirdin: "Cəmiyyətin ali məqsədi demokratiya və Xristianlığın vurğuladığı kimi heç də "ən böyük sayın ən böyük xoşbəxtliyi" və ya "sürünün yaşıl çəmənlik xoşbəxtliyi deyil. Bir cəmiyyətin superiyor məqsədi ali insanların sayını mümkün olduğu qədər artırmaqdır. Böyük insanlar yaradın. Onlar cəmiyyətin sükanını

idarə etsinlər. Onların müdrikliyi cəmiyyəti stabil, davamlı və xoşbəxt edəcək. Sənətkarlar və filosoflar kimi yaradıcı qüvvələr cəmiyyəti daha əzəmətli edəcək və onun şanını yüksəldəcək”. Supra-insan böyük sükunəti, müdrikliyi və xeyirxah sevgisi ilə “bir Epikür Tanrısı”, “mövcudiyyətin transfiquratoru” olaraq gələcək”. Onlar nə amansız fatehlərdir, nə də ki diktatorlar. Onlar, ən ali müqəddəratı dərk etmək və bəşəriyyətin izləməli olduğu yolu müəyyən etmək qüvvəsinə malik insanlar, dəyər yaradıcıları, yol açıcıları və yol göstəricilərdir. Kommunist olmasına baxmayaraq, ingilis siyasi nəzəriyyəçisi və iqtisadçısı Harold Laski qeyd edirdi ki, əzəmətli müdrikliyə və biliyə sahib insanları aşkar etmədikcə, onları kütlə həyatından, kütlənin bayağı zövqlər və aspirasiyalarından ayırmadıqca və nəhayət, onlara ən üstün hakimiyyət verərək dərin reverans göstərmədikcə demokratiya mütləq şəkildə məhvə məhkumdur[5].

Hər kəs eyni şeyi istəyir, çünki hər kəs eynidir. Lakin, insan qurmalı, müdafiə etməli, yaratmalı və ali reallıqlar üçün dünyəvi reallıqlar ilə mübarizə aparmalıdır. Yalnız bu var olduğu zaman sivilizasional zəfərlərə nail oluna bilər. Amma Modernizmin asketik keşişləri insanların asanlıqla tətmin edilə bilən trivial həzzlərini təyin etməklə onların *ressentiment* hisslərini istiqamətləndirir və bu həzzləri insanın var oluş səbəbinə (raison d’être) çevirir. Real həyatdan bütövlükdə qopan modern insan sensorlu ekranlarda sığınacaq tapır. Öz cinsi reallıqlarını rədd edən qadınlar və kişilər cinsiyyətsizləşməyə doğru frenetik sürətlə irəliləyirlər. Getdikcə anomal şəkildə özümləşdirilən *ressentiment* nəticəsində onlar öz vücudlarına baxır və “yox” deyirlər. Onların identiklikləri olduqları ilə deyil, olmadıqları ilə müəyyən edilir. Ali insani məziyyətlərə nifrət, gözəllik və spiritual xoşbəxtlikdən qorxu – bütün bunlar həyatın ikrahı, onun ön şərtlərinə qarşı üsyan olaraq ortaya çıxan *nihilizm iradəsidir*[6]. Özlərini kimyəvi və cərrahi olaraq neytrallaşdıran

[5] William Gayley Simpson – “Which way Western Man?”, (The estate of William and Harriet Simpson, 1978), p, 73

[6] Friedrich Nietzsche - “Basic Writings of Nietzsche”, trans. Walter Kaufmann (New York: Random House, 2000), p 599, Taken from The Genealogy of Morals.

və kastrasiya edən bu insanlar gerçək impulslarından məhrum olmaqla heyranlıq duyduqları bərabərliklərini yalnız öz neytrallıq və sterilliklərində tapırlar. Modern insan nə bu, nə də ki o biri dünyanın insanıdır. Onlar tam şəkildə nihilistdirlər. Əziz Nitzşe, bugün Qərb sadəcə siyasi deyil, həm də etno-kultural və spiritual olaraq da *tərki-silah olunur.* Bütün Allahlar ölü deyil, Nitzşe. Qərbin "Allahı ölüdür". Roma kimi çöküş yaşayan Qərbdir sadəcə. Həyat essensial olaraq bir yiyələnmə, yaralanma, təzyiq, çətinlik və ali insanın öz formasını təlqin etməsidir. Qərb isə zəif, apologetik və dekadentdir.

Nitzşe, bugün modern insan sürüsünü hər şey aşağılayır. Onlar öz incə həssaslıqları ilə uyğunlaşmayan hər şeyi bir *hate crime* olaraq damğalayırlar. Emosiyaları incitmək əsrimizin ən böyük cinayətidir artıq. Aristokratlıq, nəcabət onları incidir, keçmişin bütün ali məziyyətləri eradikasiyaya məhkumdur. Tolerantlıq və bərabərlik adı ilə dünənin bütün qalıqları, bütün abidələri alt-üst edilir. Sən bunu da öncədən xəbər vermirdin mi: "keçmiş tərk edilir. Kütlələr dünyanın "Meister"i ola bilər. Onlar üçün keçmişin hər bir məziyyəti dar nohurlarda boğulub yox olmalıdır"[7].

Sən, "bərabərliyin təməlində dayanan nifrətdir" deyərkən də haqlı idin. Daxilən güclü cəzalandırma impulsuna sahib olan hər kəsə şübhə etməyə çağırırdın. "Modern bərabərlər", yaradan və ayaqları üzərində dura bilən hər kəsi cəzalandırmaq arzusu ilə yaşayırlar. Titrəyən, sarsılmaz şəkildə dikələ bilən ayaqlara sahib olmayan modern insanın istədiyi sadəcə yardımsevər, rifah dövlətidir. Onlar, dövlətlərindən öz mövcudiyyətlərini böyük və genişləndirilmiş bir bətn kimi daşımağı tələb edirlər. Təhlükə nə qədər azdırsa, modern insan o qədər çox təhlükədə hiss edir özünü. Elmdəki proqress ilə paralel olaraq xəstəlik qorxuları da artır. Tibbdəki inkişaf hər növ patologiyaya qarşı irrasional bir qayğı yaradır, nəticədə isə Jorj Dühamel-in söylədiyi kimi, insanlıq "sağlamlıq

---

[7] Friedrich Nietzsche – "Thus Spoke Zarathustra", trans. R.J Hollingdale (London: Penguin Classics, 1961), p.220.

sancısı çəkməyə" başlayıb. Bir kütləvi kataklismik hadisə hər kəsi yox edənə qədər bu sivilizasional spiritual səfalət tsikli davam edəcək. İnsanlıq Burkhardtın eniqmatik üslubda *magnum mare* adlandırdığı xaotik və qaranlıq qeyri-müəyyənlik okeanında dəlicə sakitləşdirici müəyyənlik axtarışına daxil olub. Lakin, bu okeanda müəyyən olan sadəcə insani deqradasiya və köləlikdir.

Əziz Nitzşe, dəyərləndirmədə radikal bir inversiya baş verir. Dünyanın optimal və sərhədsiz performansı ilə bağlı mövcud texnoloji sistemlər paradoksal bir formada bütün biliyi absorbsiya və kondensasiya edərək hər növ teleologiyadan, hər növ "obyektivlikden" xilas edilmiş və öz radikal faydasızlığına tərk edilmiş bir düşüncənin həyata keçməsinə cəhd göstərirlər. Həqiqətən də, bizim sistemimizdə bütünlüklə yararsız hala gəlməkdə olan bir funksiya varsa, o da düşünməkdir. İnsan bütövlükdə qeyri-insaniliyəmi yönləndirilir? İnsanın bütün funksiyaları və reflekslər i maşınların artefaktınamı nəql olunur? Duyğularımızı, toxunuşumuzu, özümüzə aid zehni fəaliyyətləri yenidən çoxaltmaq üçün durmadan göstərdiyimiz bu boşuna texnoloji cəhd bizi öz təbii intellektimizdən xilas etməkdən başqa nəyə xidmət edir? İnsanlar "ağıllı" maşınlar yaratdıqlarına və onların xəyalını qurduqlarına görə deməli, gizlicə öz intellektlərindən ümidi kəsiblər ya da faydasız və iblisanə bir intellektin ağırlığı altında əzilirlər. Buna görə, hər vəchlə onu maşınlara kilidləyir, onunla oyun oynayıb gülürlər. İnsan bütün gücü ilə özündən daha güclü maşın icad etməyi xəyal edir. Amma öz yaratdıqlarının ağası olmamağı ağılına belə gətirmir. Eyni ilə, Allah kimi. Allah özündən daha üstün bir varlıq yarada bilərdimi? Halbuki, əlimizdən çıxan kibernetik vasitələrə bizi məğlubetmə fürsəti veririk. Bizi keçəcəklərini xəyal edirik. Maşınların intellektinə güvənmək əslində bilmə məsuliyyətindən özünü azad etməkdir, idarə etmə məsuliyyətini siyasətçilərə vermənin bizi iqtidar məsuliyyətindən xilas etdiyi kimi. Artıq, qeyri-qanuniliyə yönləndirilən hər növ funksionallıq qarşısında sərbəstləşdirilən düşüncə heç bir yerə yönləndirməmə, Heçin müzəffər icraatı olma, Şər prinsipi-

ni canlandırma azadlığına yenidən qovuşur. Bütün perspektivləri dəyişdirəcək olan budur. Çünki hər zaman belə deyilirdi: Təəssüf ki, Allaha "çatmaq" üçün imanın yolunu qət etmək məcburiyyətindəyik. Təəsüf ki, dünyanın həqiqətini dərk etmək üçün təmsilin yolunu qət etməyə məcburuq. Təəssüf ki, bir şeyin hadisə olması üçün biliyin yolunu qət etməyə məcburuq. Təəssüf ki, mübadilə etmək üçün dəyərin, bir şey söyləmək üçün anlamın yolunu qət etməyə məcburuq. Hamısı sona çatdı. Çünki, modern kölələrin nə biliyə, nə təmsilə, nə dəyərə, nə də imana ehtiyacı var artıq. Modern köləliyin tək bir fərqi var: bu, ağasız köləlikdir. Qədim cəmiyyətlərində ağa və kölə var idi, daha sonra feodal və təhkimli. Ondan sonra isə kapitalist və muzdlu. Ağanın və kölənin kim olduğu bilinirdi. Amma artıq ağa aradan qalxdı, geriyə yalnız təhkimlilər və köləlik ruhu qaldı. Bu kölə öz ağasını udub onu özümləşdirən və nəticədə özünün ağası olan kölədir. Modern kölə öz ağasını öldürmədi, onu udduqdan sonra da kölə olaraq qaldı, hətta kölədən daha kölə, təhkimlidən daha təhkimli oldu. Yaşadığımız bu xidmət cəmiyyəti bir təhkimlilər cəmiyyətidir. Öz istifadəsinə təqdim olunmuş və öz performanslarının köləsi olmuş tam mənası ilə təhkimli insanların cəmiyyətidir.

Modern insanın "Meister"i maşın – texnologiyadır. Onların həyatının hər bir aspekti avtomatlaşdırılıb və qeyri-personal leviatan tərəfindən öz-özünə tənzimlənir. Qadınlıq və kişilik aradan qalxır. Onlar yeni və tamamilə cinsiyyətsiz "Tanrı"larının surətində mövcud olacaqlar. İnsanlar hər bir mübarizənin aradan qalxdığı, hər bir müxtəlifliyin qeyri-leqal, qadınsı-pasifist "xoşbəxtliyin" məcburi olduğu *utopiyaya* (reallıqda isə bir distopiyaya) daxil olublar. Liberalizm və kapitalizmin protestant-kalvinist keşişləri virtual əyləncələrin və saxta həzzlərin bütün formalarını yaradır, alt-şüuri, instinktual həyatın "aliliyini" təlqin edirlər. Mən bu *utopiyadan* daha pis cəhənnəm düşünə bilmirəm, Nitzşe. Bu utopiyada edilməsi dəyərli olan tək bir şey onu kökündən parçalamaqdır. Sənin vurğuladığın kimi: "İnsan, üstün gəlinməli bir varlıqdır". Onun ali və nəcib ideallar uğrunda mübarizəyə, öz-özünə üstün gəlməyə eh-

tiyacı var. Bu isə, müxtəliflik, fərqliləşmə və iyerarxiya təlqin edir. Bu, uğursuzluq yaşaya bilmə, konformizmi rədd edə bilmə azadlığını təlqin edir. Modern utopiya bu dünyaya endirilmiş o biri dünyadır. Sən bunu deyirdin, Nitzşe! Heç kim dinləmədi. Lakin, yenə də, bu müqəddəratdan yayınmaq və modern insan üçün öz varlığına üstün gələrək supra-humanist dəyərlərə yüksəlməyə cəhd etmək üçün çox da gec deyil. Amma zaman sürətlə tükənir!

# AKTİV NİHİLİZM VƏ ONUN FORMALARI

*"Əxlaq sahəsində relativizm heç bir əxlaq normasının olmaması deməkdir"*

F.Nitzşe

Əxlaq və həyata baxış məsələlərində modern böhran situasiyasına səbəbiyyət verən kompleks prosesin simvolik ifadəsi üçün ən yaxşı formulyasiya Nitzşeye məxsudur: "Allah ölüdür". Məqsədimiz üçün başlanğıc nöqtəsi olaraq Nitzşenin bu formulasiyasını seçməyin daha doğru olduğunu düşünürəm. Çünki bu ifadə öz keçərlilik və uyğunluğunu əsla itirməyib. Nitzşe şəxsiyyəti və düşüncəsinin simvolik xarakteri var. Avstriyalı filosof Robert Rayninger qeyd edir: "Bu, metafizik ənənələrin müqəddəs torpağında heç bir kökü olmayan, barbarizmin uçurumları və sivilizasiyanın zirvələri arasında özünə tərk edilmiş mövcudiyyəti üçün tərəddüdlə bir tətminedici dəyər axtarışında olan modern insan üçün mübarizədir."[8] Fridrix Nitzşe, minlərlə işarə və əlamətləri ilə hər yerdə özünü nümayiş etdirən "Avropa nihilizminin" bir gələcək və modern insanın müqəddəratı olacağını öncədən görən ən böyük filosofdur. Böyük hadisə – *Allah ölüdür* – dəyərlərin total kollapsının prinsipidir. Bu perspektivdən, özünü qorumağa qadir olmayan əxlaq öz sanksiyasından məhrumdur, norma və dəyərlərə şamil edilən bütün əvvəlki interpretasiyalar və əsaslandırmalar yox olub. Dostoyevski də "Karamazov Qardaşları" adlı əsərində İvan Karamazovun dili ilə eyni iddianın ifadəçisi idi: "Əgər Allah mövcud deyilsə, hər şeyə icazə verilir". "Allahın ölümü" bütöv tarixi prosesi xarakterizə edən bir təsvirdir. Bu ifadə, inancsızlığın gündəlik reallığa çevilməsini, mövcudiyyətin desakralizasiyasını, İntibah və humanizm dövrlərində Qərbdə başlayan metafizik parçalanmanın daha kəskin və geridönülməz xarakter almasını özündə ehtiva edir. Bu, "ölü Allahın" surroqatları və onun metamorfozalarının rejimidir. Danimarkalı filosof Soren Kierkaqaard Nitzşe ve Dostoyevskidən daha öncə öz əsərlərində bildirirdi ki, həyat estetik, etik və dini pillələrdən ibarət yüksələn iyerarxiya tərəfindən idarə olunur. Kierkeqaard bu iyerarxik düzəni və ahəngi aradan qaldırdığı üçün Modernizmi sərt tənqid edir. Dini domenin itkisi həm estetik, həm də

---

[8] Julius Evola – "Chevaucher le Tigre", traduit de l'italien par Isablle Robinet, La Colombe, Paris, 1964, p,24

etik domenin itkisinə səbəb olmaqla həyatın anlamsız və keçici həzz (komfort) axtarışlarına endirilməsi ilə nəticələndi. Modern sosiologiyanın qurucuları – Maks Veber və Emil Dürkheyim dinin fərdi vicdana endirilməsinin əxlaq prinsipləri və dəyərlərin kollapsına yol açdığı məsələsində həmfikir olsalar da, Marks bunun əksini söylədi. A.Soljenitsin modern-liberal fərdiyyətçilik haqqında qeydlərində bu fikri vurğulayır: "Liberalizmin aldadıcı xoşluqlarından fərqli olaraq, təzyiqin var oldugu cəmiyyətlərdə ənginlikləri aşan insanlar yetişər"[9]. P.Brukner də, bu fikri təsdiq edirmişcəsinə bildirir: "Təzyiq və məcburiyyətlərdən məhrum edin insanı, quruyar, zəifləyər, varlığı mahiyyətsizləşər. Hücum edin ona, qoyun yıxılsın, dikələr, güclənər yenidən. Hanna Arendt "biz, heç bir zaman insanlar, sadəcə insanlar deyilik,. Bir millət, bir siyasi iradə, bir xalq, bir kultural irs olmadan qavranıla bilmərik" – deyirdi. Lakin, bugün ortaya çıxan yeni insan modeli dar, həyatı yalnız özü ilə məhdudlaşdırmaq, gücsüzlüyünə razı olmaq və öz-özünü inkar etməklə xarakterizə olunur. A.Tokvil-dən bəri bilirik ki, fərdiyyətçiliyi eqotizmlə qarışdırmaq çox yalnışdır. Əsrimizdə isə, "Mən"-i öldürən bir eqotizmin ziddiyyətini yaşayırıq, "Mən"-i nəyin bahasına olur, olsun qorumağa çalışan, ən kiçicik tərslikdən belə əsirgəyən bir eqotizmin ziddiyyətini. İnsan yaşamının məqsədi öz-özünə üstün gəlmək deyil artıq, narsissistcə özünü qorumaqdır. Ərköyün böyüdülən, özünü yalnız özünə verə bilsin deyə bütün öhdəlik və məsuliyyətlərindən azad edilən fərd, boşluğa tərk edilmiş fərddir. "Mən yalnız özüm üçünəmsə, hələ də Mənəm mi?" deyə sual verirdi Hillel[10]. Fərdi gücləndirmək onu özbaşına buraxmaq deyil, başqaları ilə yenidən əlaqələndirmək, məsuliyyətin anlamını ona öyrətməkdir. Qurtuluşumuzun vasitələri alçalışımızın vasitələrinə çevrilib. Eqotist fərdiyyətçilik tənbəl və qorunmağa əsaslı ürkək bir miniatür "xoşbəxtlik mədəniyyətinə" çevrilib. Bir vaxtlar özünə və dünyaya ağa

[9] Alexandre Soljénitsyne –"Le Déclin du courage. Le discours visionnaire de Harvard", 1978

[10] Böyük Hillel - e.ə. I əsrdə yaşamış yəhudi dini lideri, eyni zamanda Yəhudi tarixinin ən görkəmli fiqurlarından biridir.

olmaq istəyənlər də qorxularının köləsi olur, yardım istəməkdən başqa çarə tapa bilmirlər”[11].

İlk əvvəl qeyd edilən prosesin müxtəlif mərhələlərini ayırd etməliyik. Aşkar bir fakt ondan ibarətdir ki, ontoloji xarakterin parçalanması ilə insan həyatı transsendentallığa doğru real istinadını itirdi. Nihilizmin bütövlükdə tərəqqisi məhz bu faktda gizlidir. Metafizika və teologiyadan qopardılaraq müstəqil elan edilən və yalnız ağılın mütləq hakimiyyətinə tabe edilən muxtar əxlaq “Allahın ölümündən” sonra formalaşan ilk fenomen olaraq ortaya çıxdı. “Müqəddəslik” səviyyəsinin itkisi ilə mütləq prinsip saf insani əxlaq səviyyəsinə endirildi. Bu, Protestantizmin xarakteristikalarından biri olan “əxlaq fetişizminin” və “dini xidmət stoisizminin” rasionalist mərhələsini müəyyən edir. Bu mərhələnin başlıca simvolu olaraq Kantın kateqorik imperativ, etik rasionalizm və “muxtar əxlaq” nəzəriyyələrini göstərmək olar. İnsanın ali dünya ilə orijinal və effektiv münasibətinin əsasında dayanan əxlaq öz kökündən məhrum olmaqla sarsılmaz bünövrəsini də itirdi. Tamamilə sekulyar və rasional olan “muxtar əxlaq” çərçivəsində təbii impulsa qarşı yeganə müqavimət irrasional və sərt bir əmrdən ibarətdir, *thou shalt* qədim ali hüququn sadəcə bir refleksiyasıdır. Kant etikasında hər bir imperativ yalnız müəyyən bir cəmiyyətdə qəbul edilən tendensiya və şəxsi ekvasiyaya əsaslanan bir neçə izah olunmamış prinsiplərin güman edilən “aksiomatik dəyərinə” bağlıdır. Etik rasionalizmin ardınca gələn dissolyusiya[12] fazası utilitarian və sosial etika ilə müəyyən edilir. “Xeyir” və “Şər” üçün mütləq essensial bazisin yox olmasından sonra təklif edilən əsaslandırma metafizik əxlaq normalarından parçalandı. Nəticədə, bu rasionalist əxlaqın özündə əhatə edə bildiyi yalnız sosial həyatda öz üstünlüyü və maddi rifahı üçün bir fərdə uyğun gələn hər şeydən ibarət oldu. Bu əxlaqın arxasında dayanan aşkar nihilizmdir. Əgər heç

[11] Pascal Bruckner,– “The Temptation of Innocence: Living in the Age of Entitlement”, (Algora Publishing, New-York, USA, 2000), p, 152

[12] Daha çox italyan filosofu Y.Evola tərəfindən istifadə edilən(dissoluzione) və supra-fərdi, transsendental, metafizik prinsip və qüvvələrin yox olmasını təcəssüm etdirən fəlsəfi termin.

bir daxili qadağa yoxdursa və cəmiyyətin qanunlarının sanksiyalarına tabe olmamaq mümkündürsə hər bir fəaliyyət və davranış legitimdir. Heç bir şey imperativ xarakter və konstitutiv normaya sahib deyildir. Əsas məsələ dinin metafizik qanunlarını əvəzləyən cəmiyyət məcəllələrinə özünü uyğunlaşdırmaqdır. Protestant-Kalvinist etik riqorizmi burjua dünyasının konformizm, qorxaqlıq, sinizm və inersiyaya əsaslanan sosial idollara doğru oriyentasiyasını müəyyən etdi. Lakin, XIX əsrin sonunun fərdiyyətçiliyi sürətlə yayılan və gərginləşən anarxik dissolyusiyanın başlanğıcını qoydu. Bu artıq aşkar düzənsizliyin fasadı arxasındakı xaosun hazırlığı idi. Öz intişarında məhdud olan əvvəlki mərhələ isə Romantik qəhrəmanın mərhələsi idi: özünü ilahi apatiya qarşısında yalnız hiss edən insanın ona qadağan edilmiş hər bir şeyə inkarolunmaz hüquqlarını iddia etməsi. Neospiritualist hərəkatın formalarından biri olan Antroposofiyanın banisi Rudolf Ştayner, bütün əxlaq normalarında dağıdılmalı olan ilahi fetişin yekun formasını görürdü. O, insanın daxilində mövcud olan transsendensiya hissini təndiq edərək ona "yeni Səma" olaraq müstəsna hökmranlıq verməyə çalışırdı. Bu, sadəcə metafizik doktrinalar tərəfindən inkar edilən zahiri və teoloji "fövqün" transpozisiyası idi. Nitzşe Avropa nihilizminin sadəcə əxlaq sahəsinə deyil, eyni zamanda həqiqət, dünyabaxışları və məqsədlər domeninə də hücum edən qeyri-sporadik, ümumi bir fenomen olduğunu vurğulayırdı. "Allahın ölümü" həyata istənilən dəyərin, mövcudiyyət üzərində hər bir ali əsaslandırmanın itkisi ilə assosiasiya edilməlidir. Bu qaçış və həyatın təslimi tamamilə yanlış və dəyərsiz olaraq xarakterizə edilən mövcud dünyaya qarşı olaraq başqa bir "həqiqət və dəyərlər dünyasının" kəşfinə yol açdı. Bu yeni dünya *becoming* (qeyri-stabil, kövrək və dəyişkən varlıq üçün istifadə edilən fəlsəfi anlayış), hisslər və yalnız fiziki-maddi reallıq dünyası idi. Onun irrasional mənşəyini və "insani" – həddən çox insani köklərini ilk dəfə dərindən araşdıran məhz Nitzşedir. Bu dekadent və qüvvəsiz həyatın şərtləri daxilində real olaraq qalan hər şey "Allahın" və "həqiqətin" daha ali dünyası tərəfindən inkar və rədd edildi. Başqa

bir sözlə, olmalı olanın dünyası olanın deyil, olmamalı olanın dünyası, Allahsız insanın səfalətinin başlanğıcı idi. Mövcudiyyət bütün dəyər və qayələrdən məhrum oldu. Dostoyevski, Kirilov obrazı vasitəsilə insanın öz yaşamını davam etdirə bilməsi üçün Allahı kəşf etdiyini qeyd edərək, Allahı "Mən"-in yadlaşması olaraq təsvir edir. Bu terminal situasiya Sartr tərəfindən daha drastik formada verilir. O bildirir ki, ekzistensializm Allahın mövcud olmadığını sübut etməyə endirilən ateizm deyildir, ekzistensializm deyir ki, əgər Allah mövcud olsa idi belə, heç nə dəyişməyəcəkdi[13]. Bununla da, öz çılpaq reallığında yalnız özünə endirilən bu essensiyasız mövcudiyyət insan üçün real dəyər daşıyıcısı ola bilməzdi. "Homo Maximus" adlı kitabında Lars Holger Holm bildirir ki, dini prinsiplərin, əxlaq normalarının və estetik standartların tənəzzülündən sonra modern insan solipsist trans mövcudiyyətinə daxil oldu. Sterilləşən hər bir arzunun tətmini yalnız pulla mümkündür[14].

Modern düşüncə və tarixşünaslıq bu nihilist üsyan yaxud dissolyusiyanı müsbət bir şey, bir zəfər olaraq təqdim edir. Bu, əsası "məhv olma eyforiyasının" bir növü olan çağdaş nihilizmin digər aspektidir. Məlumdur ki, illuminizm və liberalizm ilə başlayan, immanentist historisizmə doğru irəliləyən dissolyusiya mərhələləri insanın, ruhun tərəqqisinin, eləcə də "humanizmin" emansipasiyası və təsdiqi olaraq dərk edilib. İnsana heç bir Allah nəzarət etməyib. İlluminist və inqilabi interpretasiyaya görə, İlahi despotizm, onun iyerarxik sistemi, aliliyə doğru istiqamətlənməsi, legitim hakimiyyətinin və müqəddəs gücünün müxtəlif formaları sadəcə bir fantaziyadır. "Allahın geri çəkilməsi" ilə insanın varlığı hər şeyin mövcud olduğu və hər şeyə icazə verildiyi absurdluq sahəsinə daxil oldu. Keçən əsrin ikinci yarısından etibarən bu parçalanma əxlaq sahəsindən ontoloji və ekzistensial sahəyə qədəm qoydu. Metafizik dəyərlər artıq gündəlik həyatın "ümumi şüuru" daxilində

[13] Jean-Paul Sarte – "Existentialism is a Humanism", from a public lecture given in 1946, translated by Philip Mairet, p,11

[14] Lars Holger Holm – "Homo Maximus, Reflections on on the Relationship between Man and the Universe created in his image", Arktos Media Ltd., UK, 2013, p, 265

bütün essensiallığını itirdi. Modern insan artıq "problemlərlə" deyil, dünənin immoralist üsyanlarının getdikcə əhəmiyyətsizləşdiyi tendensiyalarla məşğuldur. Lakin, "Qərb humanizmi insanın varlığında real dəyər çatışmazlığını, ali prinsiplərlə qorunan düzənin yoxluğunu, eləcə də dürüstlük və xarakterin sürətlə gedən dissolyusiyası daxilində formasız, kövrək və anlaşılması çətin konformist həyatın doğuşunu təbii bir şey olaraq qəbul etməyə başladı. Eyni prosesin digər aspekti isə kompensasiyalar və anesteziyalar rejimidir. Heminqueyin bir xarakteri bunu məhz belə izah edir: "Din insanlar üçün tiryəkdir. İndi, patriotizm ilə birlikdə iqtisadiyyat insanlar üçün tiryəkdir. Bəs seksual interkurs haqqında necə? O da insanlar üçün tiryək deyil mi? İçki, insanların suveren tiryəki, necə əla bir tiryək!!"

Lakin, bu requrgitasiya baş qaldırdığı zaman fasad silkələnməyə və dağılmağa başladı, dəyərlərin dissolyusiyasının ardınca burjua həyatının bütöv sistemi arxasında boşluq, ikrah və nauzeanın ekzistensial mövzuları, yeni, materialist sivilizasiyanın absurdluğu müzakirə edilirdi. Bu vəlvələnin daha kəskin olduğu yerlərdə "hadisələrin spektrallığı", "obyektiv reallığın deqradasiyası", "ekzistensial yadlaşma" olaraq adlandırılan ekzistensial travma hallarının müxtəlif formaları özünü göstərirdi. ABŞ-da "hipsterlər", Almaniyada Halbştarke, İtaliyada "generazione delle macerie" nəsli çevrələrinə qarşı dərin yadlaşma nümayiş etdirməklə yanaşı, cəmiyyətdə müəyyən edilmiş bir mövqeyə sahib olmağı rədd etməyi öz mühitlərdə hakim qanuna çevirmişdilər. Onlara nəinki aşağı, bütün sosial siniflərdən fərdlər qoşulurdu. Onların bəziləri köçəri mövcudiyyətin bir formasını, bəziləri isə elementar səviyyədə yaşamağı üstün tuturdular. Güclü sensasiyalar vasitəsilə yaşadıqları ekzistensial boşluğun iztirablarından xilas olmaq istəyən hipsterlər tərəfindən istifadə edilən metodlara ifrat sərxoşluq, seksomaniya, neqro jazz, yüksək sürət və kriminal aktlar daxil idi. Herman Hesse öz xarakterlərindən birinin dili ilə söyləyir: "Belə bir dünyada – ən çox nifrət etdiyim və ikrah hissi duyduğum ruhsuz, hamarlaşmış, qısırlaşmış, qorxaq burjua

optimizinin əsiri olan bayağı insanlarla yaşamaqdansa şeytani bir əzabla yanmağı hiss etmək istərdim". O, "Steppenwolf" adlı əsərində Harri Hallerin mövcudiyyətinin metaforası vasitəsilə modern insanın ruhunu, XX əsrin daxili dislokasiyasını, Qərb sivilizasiyasını ayaqda saxlayan dəyərlər və inancların necə atrofiyaya uğradığını analiz edir[15]. O bildirir ki, bu böhran situasiyasında irəli sürülən panaseyalar problemlərin həllinə deyil, onların daha da kəskinləşməsinə yönəlib. "Absurdun uşaqları" adlı kitabında Pol van den Boş da qeyd edir ki, biz absurdun uşaqları olaraq bu sehri pozulmuş dünyaya – dağıntılar arasına azad olaraq doğulduq. Doğulduğumuz zaman Mammon artıq bu dünyanın ağasına çevrilmişdi[16]. XIX əsr fransız yazarı Stendalın "Modern insanlar niyə xoşbəxt deyillər?" sualına verdiyi cavabında P.Brukner də eyni spiritual vakuumdan bəhs edir: "Çünki hər şeydən xilas oldular və indi azadlığın dözülməz olduğunu dərk edirlər. Bizi sosial hakimiyyət və təzyiqdən xilas edən azadlığın epik və poetik bir böyüklüyü olsa da, hökm altına saldığı və məcbur etdiyi üçün istəkləri ilə qan qusdurur bizə. Bu yüksəliş bir fəlakətdir eyni zamanda. Bu səbəblə, bir çox qadın və kişi yeni tayfaçılıqda, narkomaniyada, siyasi ekstremizmdə, saxta mistisizmdə tapır təsəllini. İnanma ehtiyacı ilə inanclarının haqlı olduğunu göstərmə ehtiyacı arasında parçalanan modern fərd professional bir mürtəd, inanc dezertiri, bitib-tükənmək bilməyən inkarlar köçərisidir. Fərdin tarixi onun ardı-arası kəsilməyən vaz keçmələr və özü olma çağırışlarından yaxa qurtarmaq üçün cəhd etdiyi saysız hiylə tarixidir. Modern cəmiyyətlərdə konformizm monomaniasi var. Çünki, özünəməxsus olmaqla öyünən amma davranışlarını dəqiqliklə hər kəsinkinə uyğunlaşdıran fərdlərdən ibarətdir. Hər bir fərd digərlərinin yanında sadəcə "hər hansı biridir" (pré-quelqu'un). İnsan üçün modern fərdiyyətçilik ən kiçicik hissələrə qədər bölünmə, xaos və köksüzləşmə riskini özündə ehtiva edir. Ra-

[15] Herman Hesse – "Steppenwolf", translated by Basil Creighton, Holt, Rinehart and Winston, USA, 1963

[16] Paul van den Bosch – "Les Enfants de l'absurde", La Table Ronde (1 juin 1958), p, 51

sionalizm, modern texnologiya və pozitiv elmin ortaya çıxmasını təmin edən şey paqan Tanrılarından qopan Yəhudi-Xristian monoteizmi ilə başlayan, təbiəti riyaziyyata vuran Qaliley və Dekart inqilabı ilə davam edən "dünyanın sehrinin" pozulması – *Entzauberung der Welt*(Veberin dili ilə) idi"[17].

Kapitalist cəmiyyətində insanın ekzistensial strukturu maddi və iqtisadi orqanizasiyanın bir nəticəsi olaraq izah edilir. Keçən əsrdən daha şiddətlə söylənilirdi ki, gerçək panaseya kapitalizmin ləğvi, kommunist "fəhlə dövlətinin" yaradılması, müxtəlif sosio-iqtsadi sistemin formasiyası sayəsində "yeni və autentik humanizmin", "insani inteqrallığın", "heç vaxt bilinməyən xoşbəxtliyin" başlanması ilə olacaqdı. Karl Marks bu formulu "insan üçün və insan tərəfindən insani essensiyaya real olaraq yiyələnmək, insanı sosial varlıq, yəni *insani insan* olaraq özünə qaytarmaq" şəklində izah edirdi. Bu, mükəmməl naturalizm və həqiqi humanizm ilə ekvivalent olacaqdı. Lakin, bu mif öz radikal formalarında hərəkat, təşkilatlar, ən əsası insanlar üzərində total nəzarət, müvafiq təhsil mexanizmi, eləcə də bütün ali həssasiyyət və maraqların neytrallaşdırılması və infantilizasiyası ilə təsdiq olunurdu. Maddi, siyasi və spiritual olaraq bir vulkan üzərində yaşadıqlarını dərk etməyən Qərblilər İkinci və Üçüncü Sənaye İnqilabları ilə təşviq edilən texnoloji eyforiyadan həzz alırlar. Faktiki olaraq proletarian insanlığın gələcək sosio-iqtisadi idealı artıq mövcuddur. Marks və Engelsin proqnozisinin əksinə olaraq rifah və komfort təməlli mövcudiyyət forması geniş sosial strataya yayıldı. Marksizm bu mövcudiyyəti homogenləşmiş cəmiyyətin ümumi xarakteristikası olaraq deyil, kapitalist "istismarçıların" yuxarı sinfinin imtiyazı olaraq tənqid edirdi.

Mövcud sosio-iqtisadi böhranın "istəkdən azadlıq", "mövcudiyyətin maddi şərtlərinin təkmilləşdirilməsi" ilə aradan qalxacağına inanılırdı. Lakin, həqiqət ondan ibarətdir ki, maddi və spiritual aqoniya arasında

---

[17] Pascal Bruckner – "The Temptation of Innocence: Living in the Age of Entitlement", (Algora Publishing, New-York, USA, 2000), p, 43

heç bir qarşılıqlı münasibət yoxdur. Cəmiyyətin yalnız ən inferiyor və ən süst təbəqəsi bu həqiqəti inkar edə, bir heyvani ideal olaraq "bütövlükdə insani xoşbəxtlik" formulunu qəbul edə bilər. Hegel qeyd edir ki, tarix xoşbəxtliyin cücərib inkişaf etdiyi bir torpaq deyil. Maddi rifah epoxaları tarixin boş səhifələridir[18]. Böyük tarixçi Arnold Toynbi isə bildirir ki, spiritual böhran şərtlərinin hökm sürdüyü insanlıq qarşısında gerçək meydanoxuma ali sivilizasiyaların yaradıcı enerjisini oyadan insentivdir[19]. Asan həyat şərtləri daxilində bütün ali fəzilətlər gücünü itirir və atrofiyaya uğrayır. Fransız yazarı Andre Breton da vurğulayır ki, biz sosial şərtlərin süni təhlükəliliyinin insani şərtlərin həqiqi təhlükəsini gizləməsinin qarşısını almalıyıq. Digər fransız filosofu, Xristian ekzistensializminin nümayəndəsi olan Qabriel Marsel, modern Qərbin böhranının sosial deyil, metafizik olduğunu bildirirdi[20].

Bugün, sadəcə "lənətlənmiş sub-proletariat" təbəqəsində deyil, eləcə də maddi zənginlik içərisində yaşayan gənclər daxilində də bir növ nifrət, qəzəb və bəzi hallarda üsyan var. Onlar mövcudiyyətlərinin boşluğu hissindən yayınmaq üçün hər şeyin, "qadın, viski, əyləncənin" olduğu utopik bir adaya meyillənirlər.

Həyatın dəyəri və iqtisadi rifahın şərtləri arasında da heç bir qarşılıqlı bağ mövcud deyil. Yulius Evola mövcudiyyətin boşluğunu və yüksək həyat standartı anlayışını sərt tənqid edərək vurğulayır ki, spiritual oyanış aclıq, iqtisadi səfalət qurbanının yaxud da Xristian vaizlərin müraciət edə bildiyi Roma imperiyasının plebeylerinə bənzər sosial stratanın deyil, öz daxili qanunu və əqli-spiritual mərkəzə sahibliyi ilə *spiritual aristokratiya qövmünün* nümayəndəsinə məxsus bir məziyyətdir. İstənilən formasında, modern sosio-iqtisadi mifin həqiqi əhəmiyyəti onun insanı öz mövcudiyyətinin gerçək dəyəri və problemindən yayındırmaq,

---

[18] Georg Wilhelm Hegel – "The Philosophy of History", Batoche Books, Kitchener, Ontario, 2001, p, 41

[19] Arnold Toynbee – "A Study of Histroy", Vol 2,

[20] Gabriel Marcel – "Man against Mass Society", translated by G.S. Fraser, St. Augustine's Press, South Bend, Indiana, 2008

həyatının fundamental əhəmiyyətsizliyini kəskinləşdirməyə yönələn daxili anesteziya və profilaksis vasitəsi olmasındadır. Aktiv nihilizmin bir parçası olaraq asan, konformist həyat Marksistlərin iddia etdiyindən daha real və amansız bir tiryəkdir. Modern insanın asan həyat axtarışları Nitzşenin “Zərdüştün” dili ilə sonuncu insana aid etdiyi sözlərlə xarakterizə oluna bilər: “İnsanların ən mənhuslarının zamanı gəlir, əzmli irqin sonuncu insanı. Sonuncu insanlar göz qırparaq deyirlər: Biz həyatın çətin olduğu torpaqları tərk edərək, xoşbəxtliyi kəşf etdik”. Faktiki olaraq istehlak cəmiyyətinə daxil olan işçi sinfi artıq proletarian deyil, burjua xarakterlidir. Yeganə çatışmayan cəhət inqilabi insentivdir. Marksist və kapitalist sistemlər bir və eyni bir sistemin şərtləndirici gücü kimi bir nöqtədə birləşərək şəxsiyyətin və həyatın ali dəyərlərinin yox edilməsi tendensiyası ilə özünü göstərir. Nitzşenin “sonuncu insan” xarakterizasiyasına uyğun olaraq, modern fərd üçün bu cəmiyyətin ona abstrakt azadlığın simvolu olaraq təklif etdiyi komfort və maddi rifahsız yaşamaq çox absurd olardı. Bugün, bəzi Qərb ölkələrində özünü göstərən və ifrat qəzəblə ifadə olunan sosial hərəkatlar ali, metafizik prinsipin yoxluğuna görə, irrasional, anarxik və instinktivdir. Nişanəsi yalnız “heçlikdən” ibarət olan bu hərəkatlar bir şüşə qabın içinə düşmüş və özlərini frenetik şəkildə divarlara çırparaq qudurmuşca çıxmağa çalışan arıların isterik “inqilabıdır”. Bu, daha geniş miqyasda modern epoxanı ağuşuna alan ümumi nihilist xarakteri bir daha aşkara çıxarır. Superstrukturların dağılması özünü sadəcə burjua həyatının dissimulyasiyasının və riyakarlığının ifşa edilməsinin sosioloji formasında (H.İbsenin əsərində Rellinqin Qreqersə söylədiyi tərzdə: “niyə sən “ideallar” kimi yad sözlərdən istifadə edirsən? Axı daha mükəmməl və bizə doğma sözümüz var: “yalanlar”[21]) yaxud əxlaqi və fəlsəfi nihilizmdə deyil, modern elm və elm sahələrində də özünü göstərir. Modern elm və onun metodları Modernizm əsrindən öncə ali, metafizik və spiritual prinsiplər ilə yaşayan sivilizasiyaların insanına tətbiq edilsəydi nəticə yalnız

[21] Henrik Ibsen – “The Wild Duck”, Blackmask Online, 2001, p,136

dərin yanlışlıq və ruhən zəhərlənmə olardı. Lakin, travmatize edilmiş modern insana tətbiq edilən və psixoanalizdən başqa bir şey olmayan bu elmin inandırıcılıq gücü var. Əxlaq anlayışı özünəməxsus muxtariyyətindən və üstün məziyyətindən qopardılaraq "təbiiləşdirildi"; alt-şüurun tədqiqinin, "dərin psixologiyanın" soyuq, sinik və "elmi" metodları ortaya çıxdı. İnsani mövcudiyyətin irrasional alt təməli ruhun həyatı üçün essensial hesab edildi. Bütün dəyərləri ilə əxlaqi və sosial vicdan, onun bütün qadağaları və isterik idarəetmə iradəsi məhz alt təməldən qaynaqlanırdı. Şüurun bu zonasında isə, həzz və ölüm (*Lustprinzip* və *Todestrieb*) kompulsiyalarının qarışıqlığından başqa heç nə keçərli deyil. Məum olduğu kimi, bu, Freydianizmin essensiyasıdır. Digər psixoanalitik cərəyanlar da substansial olaraq Freydin düşüncələrindən fərqlənmir. Onların hamısı insan şəxsiyyətinin dərin travmatizasiyası ilə psixi alttəmələ doğru reqressiyadır. Bu da özlüyündə modern nihilizmin daha bir aspekti, ruhun inferiyor regionlarına nəzarət edə bilməyən patogenik şüurun simptomudur. Bu reqressiyada xüsusi rola oynayan digər faktor Behaviourism oldu. Qeyd edilən psixoloji məktəbin - "behaviourist psixologiya"nın ən gerçək təsviri onun banisi Con Brodhaus Vatsona məxsusdur. C.B.Vatson: "psixologiyanın şüura olan bütün istinadlarını tərk etməli olduğu zaman gəlib. Psixologiyanın yeganə məqsədi davranışın öncədən müəyyən edilməsi və ona nəzarət edilməsi olmalıdır. İntrospeksiya bu metodun bu metodun heç halda tərkib hissəsi ola bilməz" – deyə qeyd edirdi[22]. Vatsona görə, bütün mental hadisələr başqaları tərəfindən müşahidə edilə bilməyən özəl hadisələrdir və onlar elm domenindən çıxarılmalıdır. Bu doktrinanın izi ilə gedən "behaviourist"lər psixologiyanı bütün qeyri-maddilikdən və müqayisə edilməzlikdən ayırdı. İnsanda "şüur", "ağıl", *telos* və təxəyyül kimi terminlər qeyri-elmi elan edilərək, psixologiyanın lüğətindən çıxarıldı. Vatsonun sözləri ilə desək, bütün "behaviourist"lər qeyd edilənlər ilə birlikdə qavrama, arzu

[22] Arhur Koestler – "The Ghost in the Machine", (Hutchinson & CO (Publishers) Ltd., London, 1967), p, 5

kimi anlayışları da elmi lüğətdən çıxarmalı idilər. Bu, elm sahəsində ilk belə radikal təmizləmə idi. İngiltərəli təhsil psixoloqu Sril Bört qeyd edir ki, Vatsonun manifestini elan etməsinin üzərindən bir əsrə yaxın zaman keçsə də, Amerikada və dünyada psixoloqların əksəriyyəti hələ də onun yolunu izləyirlər. Nəticədə, psixologiya öz ruhunu itirməklə sadəcə bir təbiət elminə çevrildi. Vatsonian Behaviourism öncə Amerikada, daha sonra isə Avropada akademik psixologiyanı öz dominasiyası altına aldı. Elmi lüğətlərdə psixologiya ağılın elmi olaraq təsvir edilirdi, lakin ağıl konseptini rədd edən Behaviorism ağılın yerinə şərtləndirilmiş refleks zəncirini qoydu. Bunun səbəb olduğu katastrofik nəticələr sadəcə eksperimental psixologiyda deyil, eləcə də kiliniki psixiatriyada, sosial elmlərdə, fəlsəfədə və etikada da özünü göstərir.

Vatsonun "şüur" və "ağıl" konseptlərini rədd etdiyi "Behaviourism" adlı kitabında mental hadisələri tamamilə psixologiyanın tədqiqat dairəsindən çıxarır. Bu zaman bir psixoloq üçün tədqiq edilməli nə qalır? Cavab sadədir: siçanlar. Formalaşdığı tarixdən etibarən 50 il boyu Davranışçılıq məktəbinin əsas məşğuliyyəti siçanların davranışlarının müəyyən edilə bilən aspektlərinin tədqiqidir. Öz-özünə təlqin etdiyi məhdudiyyətlərinə görə, bir davranışçıya davranışın yalnız obyektiv və ölçülə bilən aspektlərini tədqiq etmək icazəsi verilir. Davranışçılıq psixologiyanın qədim məktəblərində mövcud olan introspeksiyonist metodlardan həddən ziyadə çox istifadəyə qarşı bir puritan üsyanı kimi ortaya çıxdı. Bu metodlara görə, psixoloqun vəzifəsi şüurun müxtəlif hallarının təsviri və izahından ibarət olmalıdır. Vatsona görə, şüur nə müəyyən oluna, nə də ki istifadə oluna bilən konseptdir. Bu aberrant ideya insanda heyvanlarda olmayan qabiliyyətlərin varlığını rədd etməklə siçanın antropomorfik baxışını insanın ratomorfik baxışı ilə əvəzlədi. O, psixologiya elminin adını dəyişdirməklə, onu "davranış elmi" olaraq yenidən müəyyən etdi. Bu, təhsilin "davranış mühəndisliyi" olduğunu bildirən B.Skinnerin baxışları ilə birlikdə semantik öz-özünü sterilizasiyanın nümayişkəranə aktıdır. Onun elan edilmiş məqsədi fizika alimlə-

rinin təbiət fenomenlərinə nəzarət etdiyi və onları manipulyasiya etdiyi kimi, insan fəaliyyətlərini öncədən müəyyən etmək və onlara nəzarət etməkdən ibarətdir. Halbuki, dünyanın ən böyük fiziklərindən biri hesab edilən Verner Hayzenberq lakonik şəkildə "təbiət öncədən təxmin edilə bilməzdir" deyə bildirmişdi. Kuantum fizikasının təbiətə aid etdiyi öncədən müəyyən edilə bilməzliyin canlı orqanizmlərdə inkar edilməsi Skinnerin və Vatsonun yanaşmalarının absurdluğunu ortaya qoyur. Ümumiyyətlə, Freydianzim və Behaviourism kimi psevdo-elmi doktrinalar psixologiyanı bir virus kimi istila etməklə, eləcə də modern insanda kəskin paroksizmlər və konvulsiya yaratmaqla onu əqli və spiritual olaraq iflic etdi.

Aktiv nihilizmin ən gerçək təzahürlərindən biri olaraq modern liberal-demokratiya siyasi nəzəriyyəçilər və sosioloqlar tərəfindən bayağılıq, triviallıq və maddi hərislik ilə assosiasiya edilir. Qeyd edilən xarakterizasiyalar universal inferiyor burjuaziyanın yeni ilahi vəsfləridir. Bu yeni ilahi vəsflər Qərbin başlatdığı nihilist macəranın nəticəsidir: din ürəyin dərinliklərinə doğru çəkildi, yalnız insanlığın mülkiyyəti olduğu elan edilən planetimiz müqəddəssizləşdirildi və onun rasional və elmi istismarı başladıldı. Lakin, bu nəhəng yenidənqurma layihəsində, kəşflər və ixtiraların ağılasığmaz sürətində texnoloji tərəqqi ilə iç-içə keçmiş şəkildə hər yerə yayılan vulqarlıq insan ruhunu, onun müqəddəratını zəhərləyir. Təlqin edilən absurd heteronomiya artıq Allaha deyil, zamanın ölü parçalarına, axıb gedən zaman daxilindəki spiritual eroziyaya aiddir. Vulqarlıq müqəddəratsız insanların müqəddəratına çevrilib. Cəhənnəm, cənnət və *purgatorium*-u bizə geri qaytarmaqla həyatımızda onların hamısını eyni zamanda yaşamağımıza icazə verən məhz bu reallıqdır.

Güman edilən destruksiyasından xilas olmaqla yanaşı, burjuaziya həm kasıblar, həm də varlılar arasında yeni universal sinfə çevrilib. Tarixin keçmiş messianik subyekti olan proletariatın isə sayı gündən-günə azalmaqda və işləri təhlükəsiz olmayan maaşlaşmış işçilər ilə

əvəz olunmaqdadır. Dolayısı ilə, burjuaziya artıq özünə qarşı olan bir Başqasına sahib deyil və onun sənətkarlar kimi ən alovlu tənqidçiləri belə burjuaziyanın özünün *spektakulyar* variantına çevriliblər. Burjuaziya özünə meydan oxuyan tərzləri absorbsiya etsə də, sinfi ziddiyyətlər vahid bir bütövlük çərçivəsində mövcud olmaqda, vahid bir sfera daxilində inkişaf etməkdədir. Anti-brujua sıxıntıları və problemləri artıq siyasi deyil, kultural, hətta metafizikdir. Hər kəsin bu və ya digər şəkildə burjua olması iqtisadiyyat – həyatın iqtisadiliyi dininin ali spiritual xeyir zirvəsinə qaldırılmasında özünü göstərir. Bir mütləqin rolunu oynamaqla o, insanın məmnuniyyət və əndişələrinin ölçüldüyü kriteriya halına gəlib. Qısacası, iqtisadiyyat varlığımızın bir aləti olmaq əvəzinə, müqəddərartımıza transformasiya olub. Buradan ortaya çıxan – komfort, rifah, xoşbəxtlik və pul kultunun bir nöqtədə birləşməsidir. Maks Veberin qeyd etdiyi Protestantlara çevrilməklə, hər kəs pulun fəzilətlərinə və bir fəzilət olaraq pula inanır. Bu, Amerikada formalaşan və bütün dünyaya yayılan Protestantizmin Puritan versiyasıdır. Pul ilahi bir talismana çevrilib. Bütün dünyaya seçilmişləri lənətlənmişlərdən fərqləndirən ilahi möhür olan dolların buzlaşmış teologiyası aşılanır. Modern sosiologiyanın qurucularından biri olan Georq Zimmel bildirir ki, pul iqtisadiyyatının ortaya çıxardığı praktik həyatın hesablayıcı dəqiqliyi təbiət elminin idealı ilə uyğunluq təşkil edir: dünyanı riyazi formullar vasitəsilə transformasiya etmək. Metropolitan mövcudiyyətin intişarı və kompleksliliyi ilə hesablama məntiqini, ədədi determinasiyalar və keyfiyyət dəyərlərinin kəmiyyət dəyərlərinə endirilməsini insanların yaşam prinsiplərinə çevirən pul iqtisadiyyatı oldu[23].

Aristokratik fəzilətlərin yox olduğu, "demos"un emansipasiya edərək siyasi həyatda əsas aktyora çevrildiyi, orta statistik insanın üstünlüyü ilə *vulqarlıq* haqqında bəhs edilməli olan öncül fenomenə çevrildi. Bu insan adilik, tarazılıq, səthilik, efemerallığa düşkünlük və to-

---

[23] "The Sociology of Georg Simmel" translated, edited and with introduction by Kurt H.Wolff, The Free Press, Illinois, 1950, p,412-413

tal spiritual hamarlıq ilə müəyyən edilə bilər. Ümumi insan təbii olaraq primitivdir. Platon, onları "rolu naviqasiya məsələlərində kar və miopik olan gəmi kapitanı ilə müqayisə edərək, ehtiyatla əhliləşdirilməli olan axmaq heyvan olaraq" analiz edir. Təhkimli və feodal əsrinin sona çatması ilə hər şey dəyişdi. İnsan suverenlik əldə etsə də, onun zövqləri degenerat formada üzə çıxmağa başladı.

Vulqarlıq qeyri-mədəninin geridəqalmışlığı və ya aristokratik ironiyanın klassik obyekti deyil. O, heç vaxt sahib ola bilməyəcəyi aristokratik nəcabəti təqlid edən Molyerin "Burjua Centlmeni" (və ya Orta Sinif Aristokratı)[24] ilə başlayır. Bu dönüş nöqtəsi həm də belə izah olunmalıdır: kütlələrin bütün tərzlər və normalar üzərində dominasiyası, inferiyorun superiyor ilə eyniləşdirilməsi. Eqalitarianizmin nəticəsi olan bu tendensiya iyerarxiyaları aradan qaldırdığını iddia etməklə spiritual-intellektual olaraq ali məziyyətlərə sahib olanı yalnız maddi olaraq zəngin olanla əvəzləyir. Dəyərlər düzləşir, fərqliləşmələr yox olur. Vulqarlıq, Emil Zolanın təbiri ilə desək, bir çılğınca əylənmə, janrların qarışığı, asan həzzlərə, nizam və imtiyaz prinsiplərinin amalqamasiyasına, universal assosiasiyaya doğru bir yürüş, sonradan görmüşlüyün (parvenu) zəfəridir. Vulqarlıq təqlidin sapqınlığı - aberrasiyası, legitimləşmənin xəstəliyidir[25]. Beləliklə, vulqarlıq burjuaziyanın tarixini onun bir qara kölgəsi kimi izləməkdədir. Aristokratiya hər zaman burjuaziyanı cəlb edib, çünki o burjuaziyanın heç vaxt sahib ola bilməyəcəyi əzəmətli tərzə, üsluba sahibdir. Burjua təqlidçisi aristokratik essensiyaya malik olduğunu zənn etsə də, təzahürlər səviyyəsində qalmağa və gülünc təqlid bataqlığına saplanmağa məhkumdur. Sadəlik əvəzinə ifratı, fərqliləşmə əvəzinə küylü nümayişi əks etdirdiyi üçün bir burjua aristokratizm zirvəsinə yüksələ bilmir. Ona görə ki, modern vulqarlıq eleqantizm və məziyyəti pulla almaq tendensiyası ilə birbaşa bağlıdır. Bu perspektivdən,

[24] Fransız ədibi Jan Baptist Molyerin 1670-ci ildə səhnələşdirilən komediya-baleti, "Le Bourgeois Gentilhomme".

[25] Émile Zola – "La Curée", summarized by Jean Borie in his preface to the novel, pp. 21–22.

*Nouveau Riche*[26] emblematik xarakterə sahibdir. Sahibliyin qrammatikasını varlığın dilinə çevirməyə cəhd etdiyi üçün modern vulqar burjua həyatı spiritual ətalət ilə xarakterizə olunmalıdır. Pulu olan və pula çevrilən insanlar var. Parvenu insanı haqqında narahatlıqdoğurucu məqam onun sayğısızlığından daha çox, dəyərlər və məziyyətlər məcəlləsinə qarşı hiyləgər təhrif ediciliyidir. O yalnız heyranlıq duyduğu modelləri kirlədə bilir. Vulqarlığın mütləq paytaxtı Amerikadır – Avropanın günahkar uşağı. XIX əsrdə Şopenhauer qeyd edirdi: "Bir Şimali Amerikalının spesifik xarakteri əxlaqi, estetik, intellektual və sosial formalarında vulqar olmasıdır. Sadəcə özəl deyil, ictimai həyatında da o, Yanki mentalitetinə sadiqdir. Orta Əsrlər ingilis zadəganlığını əxz etməyə çalışan Yankilər bunu çox gülünc və sinik bir şəkildə edirdilər. Tam şəkildə söyləmək olar ki, amerikalılar modern dünyanın plebeyləridir.[27]" Lakin, bu Amerikan plebeyliyi bütün dünyanı spiritual və kultural aşınmaya uğratmaqla özünəməxsus *narrativi* bütün planetə aşılayır. Amerikan vulqarlığının gücü ondan ibarətdir ki, o bütün digər mədəniyyətləri ifrat şəkildə təqlid etməklə heç bir zaman mövcud olmamış bir şeyi – yeni vulqar sivilizasiyanı meydana gətirib. Buna görə də, Modernizm əsri əzəmətli olan üzərində miniatüranın, əsalətli olan üzərində qeyri-essensial və inferiyor olanın, harmoniya üzərində dağınıqlıq və nizamsızlığın üstünlüyünə yol açan estetik uğursuzluq ilə sinonimdir. Gərəksiz obyektlər ilə yüklənmiş modern insan ağılın zərafətini əyləncənin biblo-gizmoları ilə əvəzləyib. Kanon və normaları müəyyən edən nə bir elita var, nə də ki bir sinif. Merkantil və media sub-mədəniyyəti öz bəstiləşdirmələrini, inferiyorizmini hər yerdə təlqin etməkdə azaddır.

Maddi sərvət gözü xoşbəxt edən, iştahanı kəskinləşdirən, hiddət və həsəd hissini daha da alovlandıran bir tamaşadır. Bugün maddi olaraq

[26] Sosioloji olaraq aşağı sosial sinfə və ya stratuma məxsus olan bir şəxsin sərvət əldə etməsi anlamına gələn bir termin. Ailə mirasına bağlı olmayan və "new money" adlandırılan bu sərvət vasitəsilə o, sosial mobillik qazanaraq yuxarı sinfə üzvlüyün simvolu olan mallar və xidmətləri almağa başlayır. Lakin o öz vulqar zövqləri ilə patrisiat, kübar elita və aristokratiyanın dəyərlərini aşındırır.

[27] Arthur Schopenhauer – "Pensées et Fragments", Felix Alcan Editeur, Paris, 1906, p,221

zənginlərin etmək istədikləri – özlərini təcrid etmək, adi insanlardan məsafə saxlamaq, gözlənilməz insanlara qapıları bağlamaq – tediumun kuliminasiya həddidir. Kapital dünyası sönük, solğun dünyadır. Çünki o, mübadilə deyil, qapanıqlıq və autizm dünyasıdır. Təminedilməyən bir ilahilik kimi gecə-gündüz dövr edən pul ona sahib olanları hər gün daha çox dondurur və daşlaşdırır.

İki əsr boyu burjua ən çox nifrət edilən bir fiqur, abstrakt mənhusluq prototipi olub. Anti-burjua mifologiyasının bütöv tarixi anatemaların uzun seriyasıdır – aristokratiyanı təqlid edən tacir, qrotesk tərzdə rəqs edən şartlatan... Nasiranə təbiətinə görə kultural elita, pul ehtirası və tamahkarlığına görə işçi sinfi, hesablama və faydalılığa kölə etdiyi həyatına görə sənətkarlar tərəfindən rədd edilən *burjua* ontoloji inferiyorizmi ilə xarakterizə olunur. Nitzşeyə görə, burjua kosmosu üç konstellasiyadan – bəsitlik, vulqarlıq və maddi hərislikdən ibarətdir. Burjua - tacir mənfəəti "ağılsız davranışları" hesablama ehtiyatlılığı ilə, zövqü və ali impulsları isə maddi qazanc və xüsusi mülkiyyət ilə əvəzləməklə həyatı səthiləşdirir, əxlaq normalarını neytrallaşdırır.

Bu xoşbəxt mediumda proletariatın amansızca istsimarını görən Marksistlər və sosialistlərdən daha əvvəl Romantiklər burjua ağılının pasifize edici prinsipində insanın kəskin kastrasiyasını görürdü. Burjua əxlaqı arzunu maddi zənginliyin ən kibirli dimensiyalarına endirib. Ona görə də, Taleyran qeyd edirdi ki, Qədim Rejimdə (Fransa inqilabından əvvəlki dövrdə) yaşamayanlar şirin həyatın nə olduğunu bilə bilməzlər. Bu o demək idi ki, əksər insanlar XIX əsrə sanki Səmadan xilas olmuşcasına daxil oldular. Maarifçiliyin vəd etdiyi dünyəvi cənnət dünyəviliyin dəhşətlərlə dolu cənnəti şəklində meydana çıxdı. Burjua sinfinin – Üçüncü Silkin xoşbəxtlik formuluna görə, pul və alış-verişdən kənarda heç bir xilas, heç bir ali dəyər olmayacaqdı. Bu yeni sinfin başlıca cinayəti əhliləşmiş, bəsit yeni insani növün ortaya çıxmasında dominant rol oynamasında idi. O, misligörünməmiş antropoloji modelin, standartlaşmış və kütləvi olaraq istehsal edilən fərdin, eyni tapşırıqları icra edən,

eyni arzuları bölüşən, eyni tərzdə düşünən yeni kollektiv subyektin doğuşuna səbəbiyyət verdi. Bu fərqliləşməmiş "çoxluğu" ifadə etmək üçün Nikolay Qoqol mükəmməl bir ifadədən istifadə edirdi, *pallidus* – kül rəngli, solğun. Qoqola görə, bu varlıqlar məhz belə adlandırıla bilərdi. Çünki onların geyimləri, üzləri, saç və gözləri səmada heç bir bulud və günəşin olmadığı bir gün kimi solğun səthə malikdir. Eyni tipin kütləvi istehlakı hər bir fərdin digərlərinin bir surətinə çevrildiyi, miniatür xoşbəxtliyi və təhlükəsizliyi müqabilində bütün ali impuls və maraqlarını tərk edən əhliləşdirilmiş və şərtləndirilmişlərdən ibarət yeni *insani irq* formalaşdırır.

# TANRILARIN QƏHQƏHƏSİ VƏ EPİMETEY HUMANİZMİ

*"Tanrıların dünyanı harmonizə etdiyi, immanent və dərk edilə bilən tərzdə dünyada özlərini nümayiş etdirdiyi düşünülürdü. İlahi iştirak insanların həyatını və cəmiyyətlərinin düzənini idarə edir, tənzimləyirdi. Lakin, ilahi bütövlükdə heç bir spiritual qüvvənin hakimiyyətinə ehtiyac duymayan modern insan özünün kövrək, trivial və keçici arzularına tabe olmaqla bu efemeral "dəyərləri" həyatının ən ali qayəsi və məzmununa çevirib".*

Marsel Qoşe

Məlumdur ki, modern sivilizasiya sosial və siyasi səviyyədə, bütün aspektləri ilə essensial olaraq anti-aristokratikdir. Bu eyni zamanda spiritual və kultural səviyyələrdə də keçərlidir.

Burada qarşıya qoyulan məqsəd "humanizmin" yüksəlişi ilə bağlı situasiyaların fundamental cəhətlərinin işıqlandırılmasıdır. Modern humanizm Renessans humanizmindən fərqləndirilsə də, o, Renessans dövründə baş verən təlatümlərlə bilavasitə bağlıdır. "Humanizm", insani olan hər şeyi bir kult obyektinə – fetişə çevirən, sadəcə insan və insani şərtlər üzərində fokuslanan ümumi bir perspektivdir. Bu kultun, "Marksist humanizm" və ya "əmək humanizmi" kimi degenerat formalarını deyil, "həyatın tragik baxışı" ilə bağlı olan formalarını araşdırmağın zəruri olduğunu düşünürəm. Çünki məhz bu formalar inqilabi, destruktiv tarixi və ya mifik fiqurlara daha çox "insani" dəyər vəsf etməklə dağıdıcı-plebey ideologiyaların ideal və romantik bənzəri rolunu oynayırlar. Bu mentallığa görə, "insani varlıq" (insanilikdən başqa heç nə) özlüyündə bir məziyyət, şərəfdir. İnsani şərtlərin qaranlıq, əzablı, lənətli və dağılmış cəhətləri "tragik" olaraq qeyd olunur və qəbul edilmiş aksiomalar ilə tərənnüm edilir. "Nəcib" insani ruhun prototipi ali dəyərlərə və qüvvələrə üsyan edən hər kəsdə - Titanlarda yaxud Prometeusda aşkar edilir. Buna görə də, artıq "dərin insani fəaliyyətlərdən", "insani fərqindəlikdən" yaxud da "insaniliyin dərin və canlı anlayışından" danışılır. İnsan həyatının "tragik əzəmətinə", "daxili tragediya" ilə aydınladılan bir simaya heyranlıq duyulur. Son nəticədə, insan Prometey ruhunu, "üsyanın ali ruhunu" və ya "Titanların iradəsini" tərənnüm edir. Eyni tendensiya italiyan yazarı Cosue Karduççinin "Şeytana himn" (*Inno a Satana*)[28] adlı əsəri və modern Faustianizmin bəzi formalarında da əks edilir. Nobel laureatlı italyan yazarı C.Karduççi bildirir ki, "Maariflənmiş anti-klerikalizm" tam şəkildə dominantdır, Allahın Səmasının "panoplia"-sı boşaldılıb. Qalan isə anti-Katolik, anti-avtoritar rasionalist humanizmin zəfərinin simvolu olaraq Şeytandır. Faustianizm də Qərb ruhunun və ya insanının yorulmadan cəhd edən, yenidən yeniyə qaçan simvolunu təmsil edir. Bu növ *lingo* ziyalılar, ədiblər, Maarif-

[28] Giosue Carducci (Enotrio Romano) – "Inno a Satana", Libreria Nazionale Centrale Firenze, 1872

çilikdən miras qalmış historisist və proqressivist fəlsəfənin tərəfdarları üçün daha çox xarakterikdir. İstehsalın və heyvani insanın mistikasını elan edən kollektivist və materialist Marksistlərin "inteqral humanizminin" ortaya çıxmasından sonra bu Prometey üsyanının gülünc və ritorik təbiəti özünü aşkar şəkildə göstərməyə başladı. Bu, tipik modern həyat baxışının spiritual olaraq anti-aristokratik xarakterinin açıq göstəricisidir. Bütün bu degenerasiyalar barəsində aydın bir ideyaya sahib olmaq üçün Klassik dünyaya, onun cəhətlərinə, miflərinə və simvollarına müraciət edilməsi mütləqdir. Qeyd edilən perspektivdən, Yunan mifologiyasının nəhəng tədqiqatçısı Karol Kerenyinin Prometeus və Titan ruhunun mahiyyəti ilə bağlı olaraq yazdığı "Fundamental cəhətlərində Qədim Din" kitabı xüsusi əhəmiyyətə malikdir. İlkin addım olaraq, Kerenyi qeyd edir ki, qədim Klassik dünyada, onun ən məğrur və orijinal cəhətlərində modern anlamda "inanc" anlayışı deyə bir şey yox idi. Çünki onun diniliyi essensial olaraq reallığın dərki və ilahi qüvvələrin aktual iştirakına əsaslanırdı. "İnanc" yalnız inanma ilə üstün gəlinən şübhə və qəflətin varlığını önə çəkir. Buna görə də, "inanc" qədim insanların dünyaya baxışında heç bir əsaslı rola sahib deyildi, çünki ilahi qüvvələrin dərki fiziki-sensual dünyadan əldə edilən *data* kimi onların təcrübəsinin və həyatının təbii, birbaşa hissəsi idi. "Respublika" adlı əsərində Platon vurğulayır ki, inanc ağıl və dərkin ali müəyyənliyindən sonra idraki fəaliyyətin üçüncü pilləsində yer alır. İnancın obyekti dərk olunan "realm" deyil, görünən "realm"dır. İnanan insanın əbədi Formalar ilə heç bir bağlılığı ola bilməz[29]. Bu səbəblə də, qeyd olunmalıdır ki, "insan" mərkəzli "din" kəliməsi Xristianlıq perspektivindən yanaşılaraq qədim-primordial spirituallığa tətbiq edildiyi zaman kəskin çaşqınlıq və ziddiyyət yaranır. İkinci əsas məqam isə Tanrılar və insanlar arasındakı primordial birlik ideyası ilə bağlıdır. Heziod bizə söyləyir ki, Tanrılar və insanlar eyni mənşəyə, eyni qana sahib iki *qövmdür*. Tanrılar insanlara baxır və onlar özlərinə həsr edilmiş ritualist ziyafətlərdə iştirak edir, *insanlarla birgə əyləşirlər*. Bunlar bir fantaziya deyil, insanın öz Tanrıları ilə birgə olmaq anlayışının fiqurativ tərzi, spesifik ekzistensial şərtlərin ifadəsidir. Kerenyi yazır: "Homer və Hezioddan başlayaraq, Tanrılarla

[29] Plato – "Republic", idph.net, 18 de maio de 2002, p, 75

birlikdə varlığın mütləq forması belə müəyyən edilə bilər: Tanrıları ilə vəhdət içərisində olan insan həm özünü bilir və idrak edir, həm də qarşılıqlı olaraq mövcudiyyətin təməl halına daxil olur"[30]. Tanrılar ilə insanlar arasındakı bu vəhdət, "Tanrılar ilə assimilyasiya" – Platonun formalaşdırdığı və Plotinus tərəfindən təkrar edilən *homoiosis* doktrinasının təməlidir. İrland teoloqu və neoplatonist filosofu Con Skotus Erigena da bildirir ki, biz Allah və onun yaradılışını separat varlıqlar olaraq düşünə bilmərik, çünki onlar bir və eyni bir şeydir (*unam et id ipsum*). Heraklitusun məşhur deyimini təkrarlayan M.Haydegger də vurğulayır ki, Tanrıların iqamətgahı insanların iqamətgahıdır[31]. Yəhudi-Xristian monoteizminin insan və Allah arasında yaratdığı radikal ziddiyyət və dualizmə "savaş elan edən" Hegel qeyd edir ki, bu dualizm Xristian metafizikasının essensial yanlışıdır.

Tədricən zəifləyən bu metafizik həqiqət xüsusi kultural fəaliyyətlər ilə yenidən oyadılmalı idi. Homer qeyd edir ki, Tanrılarla birgə olmaq hissi "mövcudiyyəti ilahilik və insanilik arasında fluktuasiya edən" spesifik insanlar tərəfindən yaşanıla bilirdi. Burada, heç də mifik antikliyə məxsus qövmlər barəsində düşünməli deyilik. Hətta Qədim Romada da qeyd edilən reallığın spesifik sübutlarına rast gəlmək mümkündür. Olimpiya ilahiliyinin "canlı heykəli" olaraq nəzərə alınan *flamen dialis* fiquru, eləcə də Qalliya işğalı dövründə Livinin insanlardan çox Tanrılara bənzətdiyi fiqurlar – *praeter ornatum habitumque augustiorem maiestate etiam... simillimos dis* (onlar geyimləri və duruşlarının məziyyətində, eyni zamanda görkəmində insandan daha çox Tanrılara bənzəyirlər) – qeyd edilə bilər. Tez-tez və yanlış şəkildə Napoleon tərzi "diktatorluğun" şamil edildiyi Sezar "Tanrıların müqəddəsliyinin və kralların şöhrətinin nümayiş olunduğu" bir nəsilə aid olduğunu iddia edirdi. Hətta Roma İmperiyasının son dövrlərinə aid ideyalar, adətlər və icraatlarda ilahi qüvvələrin təbii dərki müşahidə edilir. "Mövcudiyyəti ilahilik və insanilik arasında fluktuasiya edən insanlar" fundamental bir məqamı təşkil edirlər. Çünki, bu fluktuasiyada hər zaman ilahiliyə və ilahi məziyyətlərə

[30] Karoly Kerenyi – "La religione antica nelle sue linee fondamentali », Libreria Cultonline (1951), p,137

[31] Alain de Benoist, – «On being a Pagan», (translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004),p,174

doğru meyillənən insan tədricən insaniliyi seçməyə və onunla qürurlanmağa başladı. Lakin, o, bu seçimin təlqin etdiyi deqradasiyadan yaxud da *Tanrıların qəhqəhəsindən* xəbərdar deyildi. Kerenyinin bu kontekstdə düşüncələri titan ruhlu Klassik dünyaya aiddir. Heziod Prometeusa şamil etdiyi epitetlər ilə bu ruhu belə müəyyən edir: Zevs *ağılını*[32] – Olimpiya ağılını aldatmağa çalışan aktiv, hiyləgər və *yaradıcı*. Lakin, Olimpiya ağılı nə sarsıdıla, nə də aldadıla bilər. O bir güzgü kimi möhkəm və durğundur. O axtarmadan hər şeyi aşkar edir – hər şey məhz onda aşkar olunur. Titan ruhu isə əksinə, dayanıqsız, zirək və daimi olaraq nə isə axtarışındadır. Olimpiya ağılının obyekti real, həqiqətən olduğu kimi olan varlıqdır. Titan ruhunun obyekti isə hiylə üzərində *yenilikdir.* Olimpiya ağılı (*aleteia*) aydınlıq və aşkarlıq ilə uyğundur, titan ruhu isə daxilən sapqınlığı, qeyri-etikliyi sevdiyi üçün *agkulos* ifadəsi ilə identifikasiya edilir. Olimpiya ağılının yaxud *nous*-un təbii bənzəri varlığın şəffaflığıdır. *Nous* yox olduğu zaman meydana çıxan sadəcə qaranlıq reallığa qərq olmuş varlıqdır. Titan ruhunun əksi isə spiritual səfalətdir: qabiliyyətsizlik, bəsirətsizlik və axmaqlıqdır. Bütün Prometey icadlarından sonra dünyada qalan sadəcə bəşəri "mizeriya"dır. Prometeyin ölülərdən alovu geri alan Zevs tərəfindən öz cəzasına məhkum edilməsindən sonra ölülər qövmünün nümayəndəsi Epimeteus idi. Başqa bir sözlə, hiyləgərin yerində, sadəcə bir axmaq – *anoitos*. Yunan mifologiyasının bu iki fiquru arasındakı yaxınlıq onların qardaş olması faktı ilə ifadə edilir. Yaxud da, həm hiyləgər, həm də axmaq olan primordial bir varlığın iki müxtəlif qardaşa bölündüyünü də söyləmək olar. Heziod Prometeusu hiyləgər və uzaqgörən, Epimeteusu isə yanlışlarını sonradan başa düşə bilən mifik varlıq olaraq təsvir edir. Öz bəsirətsizliyi ilə Epimeteus Tanrıların hədiyyə olaraq verdiyi bir qadını

---

[32] *Nous – İntellekt.* Nəyin doğru və real olduğunun dərk edilməsində insan ağılının zəruri qabiliyyətini ifadə etmək üçün istifadə edilən klassik fəlsəfi termin. Homer ölümlülər və ölümsüzlərin mental fəaliyyətlərini ifadə etmək üçün bu konseptdən istifadə edir. Sokrat öncəsi Yunan fəlsəfəsində *nous* sensual qavrayış və emosiyaların təsirində düşünməyə qarşı olaraq həqiqi bilik, mühakimə və arqumentasiyanın mənbəyi kimi xüsusi fəlsəfi gücə malik olub. "Ali ağıl" – Nous qabiliyyəti bir bütöv kimi kosmosun attributu olaraq dəyərləndirilib. təsirində düşünməyə qarşı olaraq həqiqi bilik, mühakimə və arqumentasiyanın mənbəyi kimi xüsusi fəlsəfi gücə malik olub. "Ali ağıl" – *Nous* qabiliyyəti bir bütöv kimi kosmosun attributu olaraq dəyərləndirilib.

qəbul etməklə insanlığın səfalətinin tükənməz mənbəyinə çevrildi. Hezioda görə, Olimpiya və Titan ruhu arasındakı mübarizədə həlledici məqam məhz bu epizod idi. Bundan sonra, insanların bu hədiyyədən həzz alacaqlarını və öz mənhusluqlarını sevəcəklərini bilən Zevs qəhqəhə ilə gülür. Bu qəhqəhə Titanların yekun məğlubiyyətinə işarə edir. Kerenyi, qədim dünyanı idarə edən fundamental momentum olaraq məhz bu məqamı xüsusilə vurğulayır. Olimpiya qəhqəhəsi ölümcüldür. Lakin, bu qəhqəhədən heç kim fiziki olaraq ölmür, Epimeteus və Prometeus ziddiyyətləri ilə doldurulan insani varlıqda heç nə dəyişmir. Bəs bu qəhqəhə ilə dəyişən nədir? Titan mizeriyasının əhəmiyyəti və onun "tragik xarakteri". Zevsin – qəhqəhə ilə gülən tamaşaçının - qarşısında insanların əbədi qövmü özünün əbədi insani komediyasını oynayır. Hətta qəhrəman elementinin belə oyuna daxil olması təsdiq olunmuş dəyərlərə əsasən situasiyanı dəyişmir. Kerenyi qeyd edir ki, Antik dünyanın konsepsiyasına görə, varlığın primordial titan substratumu və Tanrıların qəhqəhəsi bir-birilə sıx bağlıdır. İnsani mövcudiyyət bu substratumun məhkumu olduqca heç bir dəyərə yaxud essensiyaya malik deyil. İnsani fəaliyyətlər epik xarakter aldığı zaman o bir dəyər yaxud əhəmiyyət kəsb edə bilir[33]. Bu qədim perspektivə görə, miskin insanlar arasındakı narazılıq və gərginlik, mübarizə və ölümün kosmik nəticələri ola bilər. Bu tragediyanın maqnitudasını vurğulamaq üçün Homer möcüzələr vasitəsilə öz qanunlarını pozaraq Təbiətin də iştirakına icazə verir. Hər şey qəhrəmanın tragik əhəmiyyətini yüksəltməyə yönəlir. Lakin, tragik qəhrəmanın spiritual gözü tam açıq olmadığı müddətcə o, ilahi qəhqəhə qarşısında məhv olmalıdır. Bu, bütöv mövcudiyyətin əyar damğası, əbədi formaların qəhqəhəsidir.

Olimpiya oriyentasiyası aristokratik düzəndə həlledici rola sahibdir. Prometeyizm isə plebey xarakterlidir. Həm Klassik, həm də Hind-Avropa dünyasının suveren Tanrıları, İ*mperium*, düzən, qanun və hüquqları Olimpiya xarakterlidir. Prometey oriyentasiyasının tarixi manifestasiyası isə ali spiritual hakimiyyətin bütün formalarına qarşı gələn və onları sosial orqanizmin inferiyor stratasına məxsus dəyərlər və prinsiplər ilə əvəzləyən hər şey ilə

[33] Karoly Kerenyi – "The Gods of Greeks", Pickle Partners Publishing, London, 2016,

sıx bağlıdır. Bu strata fərdin yalnız insani və "fiziki" hissələri ilə uzlaşır. Bu iki azadlıqdan – suverenlik və ya üsyankarlıq azadlığından hansının modern insan tərəfindən seçildiyi sualının cavabı əlbəttə ki, ikincisidir. Bəli, modern insan humanist və Prometeyist üsyan azadlığını seçdi. "Düşüncə azadlığı", "insani şəxsiyyətin və onun mənliyinin təsdiqi", eləcə də ruhun "hüdudsuzluğu" kimi humanist prinsiplər məhz seçilmiş olan Prometeyizm xarakterli üsyan azadlığının nəticələridir. Klassik dünyanın azad insanından köklü şəkildə fərqli olaraq humanizm insanının daşıdığı azadlığın "nəcib ideologiyaları" özünü daha ali olanla deyil, daha inferiyor olanla instinktual olaraq identifikasiya etdi. Bu baxımdan, kultural sahədə də heç bir əsaslı fərqliləşmə mövcud deyil. Humanizm və Prometeyizm düşüncənin sərbəstliyinin, zəncirləri qıraraq "inkaredilməz azadlıqların" ortaya çıxmasını tərənnüm edir. Bu, yaradıcı olaraq Prometey mifinin, "tragik həyat baxışının" təməlinin ziddinə olaraq rasionalizmə, humanizmə və proqressivizmə keçidə səbəb oldu. İnferiyor stratadan yüksələn bu hərəkat Klassik ideallar kimi Qərb sivilizasiyası və tarixində ruhun aristokratik Apollonizmi – özünü sadəcə insanilikdən azad edən suverenlik hissi, "varlıq sivilizasiyası" ilə bağlı olaraq qalan hər şeyin tədricən məhvinə gətirib çıxardı. Arasıkəsilməz texno-iqtisadi inkişafın və dominantlığın təsiri ilə Prometeusdan Epimeteusa yönələn modern humanizm Heraklitus tərəfindən azad edilən və Olimpiya qüvvələri ilə ittifaq *seçimi* edən Prometeusu deyil, zəncirlərindən ayrılmış, öz aqoniyasında və sadəcə insani mövcudiyyətin tragediyasında xoşbəxt olan Prometeusu bilir[34]. Bu səbəblə də, "tragik əzəmətliliyin" *qəhrəmanlığını* itirən modern insan Epimetey humanizminin süst mövcudiyyətinə saplanıb. Epimetey humanizminin bildiyi sadəcə heyvani ideallar və iqtisadiyyatın demonik hakimiyyətidir. "Tarixin mənası" olaraq düşünülən "inteqral humanizm" və "iş humanizmi" Epimetey humanizminin istifadə etdiyi formullardır.

Geniş mənada "Epimetey humanizmi" modern sivilizasiyanın əsas təməlinin və oriyentasiyasının ən uyğun xarakterizasiyasıdır. Həqiqətən, humanizm insanın *bütün dəyərlərin, həyatın və fəaliyyətlərin mərkəzi* olduğunu

[34] Julius Evola, – "l'Arco e la Clava", ("Edizioni Mediterranee, 1968, Roma), trans. by Arktos as "The Bow and the Club", 2018, p, 120

elan edən radikal bir dəyişiklik olaraq qeyd edilməlidir. Bilindiyi kimi, bu oriyentasiya məhz İntibah dövründə Qərbdə başladı; o, dünyəvi təbiət elminin və incəsənət fəaliyyətinin xüsusi növünün ilkin ortaya çıxşı, metafizik prinsiplərin alterasiyası ilə birbaşa əlaqəli idi. Onun ümumi şüarı "Orta Əsrlərin qaranlıq dövrünə" üstün gəlmək, həyatın vəhyi, insanın, onun "dignitas" və "azadlığının" kəşfindən ibarət idi. Rene Genonun bir cümləsi bu hərəkatın bütövlükdə xarakterizasiyası üçün kifayətdir: "İnsan Yeri fəth etmək bəhanəsi ilə özünü Səmadan qopardı". Dolayısı ilə, bu alterasiya özündə transsendentallıq dimensiyasını təmsil edən varlıqdan sadəcə insani varlığa doğru bir yerdəyişmə idi. Bu abnormal, teratoroloji və birtərəfli inkişaf insanın gerçək məziyyətlərini xarakterizə edən transsendentallıq dimensiyasının atrofiyası ilə nəticələndi. Humanizm tendensiyalarına Antik dövrdə rast gəlinsə də, bu, qədim incəsənətin müqəddəs, metafizik və *supra-insani* aspektlərinin dominantlığına heç bir əngəl yarada bilmirdi. Həyata və dünyaya *tradisional*[35] baxış İntibah dövrünün erudit humanizmində real olaraq mövcud deyil. Bu humanizmdə mövcud olan sadəcə "şəxsiyyətin formasiyası" ilə assosiasiya edilən bəsit mədəniyyət ideallarıdır. Məhz bu "insani şəxsiyyət" və "humanist mədəniyyət" səviyyələrində "humanizm" neo-humanizm adı altında yenidən ortaya çıxdı. Prussiyalı böyük dilşünas Vilhem fon Humbolt irəli sürdüyü Maarifçilik tərzi öz-özünü tərbiyələndirmə və azadlıq ideyaları ilə neo-humanizmin ilk carçısı idi. Səbəb və nəticələrin təbii olaraq bir-birilə birləşməsindən sonra "dünyanı fəth etmək bəhanəsi ilə özünü Səmadan qoparan insan" ən ağır bədəli ödəməli oldu – yeni dünyəvi təbiət elmlərininin

---

[35] Tradisional – etimoloji olaraq *trans* (fövqündə) və *dare* (ötürmək) sözlərindən formalaşmış *tradare* felindən gələn Tradisiya nəql edilən bir şey olaraq başa düşülməlidir. Tradisiya zahiri təzahürlərin və ya mahiyyətini itirmiş şeylərin qorunması və ya konsolidasiyasından ibarət deyil. Tradisiya supra-insani və essensial olaraq spiritual olan irsin birbaşa və effektiv transmissiyası deməkdir. Tradisional akt dinamik fəaliyyətdir. Nəsillər boyu bu irs mövcudiyyətin sadəcə maddi və bioloji tərəflərini aşmaqla reallığın bütövlüyünü özündə əhatələyən bir nizamlayıcı güc formasını alır. Bu kontekstdə "İmmanent Transsendensiya"-dan – şeylərin düzənlənməsində supra-fərdi və spiritual dəyərləri öz mehvərinə çevirməklə institutlar, mədəniyyətlər, ənənələr, dinlər və qanunlar vasitəsilə canlı, dinamik və yaradıcı varlığa sahib olan bir spiritual qüvvədən bəhs edilməlidir. Özünü "Tradisiya insanı" olaraq identifikasiya etmək gələcək nəsillərin faydası üçün qəbul edilən irsin transmissiyasına bağlı olmaq deməkdir.

kontekstində formalaşan texnoloji tərəqqi və sənayeləşmə nəticəsində tradisional zənaətlərin qürubu ilə insan produktiv işə kölə edildi. Neo-humanizm bu inqilaba qarşı insanlığı müdafiə etmək üçün cəhd edilən bir reaksiya idi. Onun müdafiə etdiyi "saf humanist mədəniyyət" dəyərləri getdikcə geniş vüsət alan əmək dünyasına qarşı şəxsiyyətin formasiyasının təməli olmalı idi. Lakin, belə dəyərlər zahiri hüdudları yalnız fəlsəfi spekulyasiyalar ilə məhdudlaşan "saf mədəniyyətin" və "düşüncənin" bəsit dünyasından başqa bir şey ola bilmədi. Təbii, texnoloji və sənaye elminə qarşı ədəbiyyat, düşüncə və fəlsəfə - bu, neo-humanizmin mövqeyi idi. "Tarixin mənasına" tabe olan trendlər ilə müqayisədə son dərəcə təhlükəli olan bu yanaşma insanın ağılasığmaz sürətlə və bütöv şəkildə "terrestrializasiyasının" reallaşması, eləcə də sosial, standartlaşdırılmış və birfomalı olaraq birləşdirilmiş kollektiv qarşısında insan şəxsiyyətinin sonuncu qalıqlarının da yekun likvidasiyasından başqa bir şey demək deyildi. Buna görə də, neo-humanist düşüncədə ciddi bir defeksiya özünü göstərirdi. Almaniyada, Humboltun müdafiə etdiyi mövqe "neohumanizm" olaraq deyil, "klassik humanizm" olaraq başa düşüldü. Teodor Litt və Eduard Şranqer kimi yazarlar və pedaqoqlar Humboltian Humanizmin irəli sürdüyü antitezisi aradan qaldırmaq üçün *həqiqi* neo-humanist baxışları təmsil edirdilər. Onlara görə, insanın iş, texnologiya və texnoloji-professional təlimlər dünyasına məhkum edilməsi "humanist insani şəxsiyyətin" zamana uyğunlaşdırılmış versiyalarından başqa heç nə ifadə etmirdi. Lakin, adları qeyd edilən pedaqoqların səsi də "tarixin mənasını" özündə əks etdirən ideologiyaların sərt və konkret formaları ilə müqayisədə çox zəif və effektsiz oldu. Gerçək mahiyyəti ilə "Humanizm" termini *mədəniyyətin aristokratik humanizminin* qayıda biləcəyi hər bir şeyi parazitik forma və fərdi diqressiya olaraq damğalayan Marksizm tərəfindən "inteqral humanizm" formasında təkmilləşdirildi. Əsrimizin başqa bir formulu olan "iş humanizmi" də "İnsanı", "onun mənliyini" və "ruhunun sonsuzluğunu" kəşf etdiyini bəyan edənlərin uğradığı dərin deqradasiyanın aşkar göstəricisi idi. Ritorikadan başqa heç nə olmayan bu bəyanatlar son nəticədə kollektivləşdirilmiş insan olaraq adlandırılan iş heyvanının mədhiyyəsinə çevrildi.

# ZAMAN VƏ MƏKAN SİVİLİZASİYALARI

*"Anri Berqson hər şeydən əvvəl yəhudi identikliyi perspektivindən mənim diqqətimi çəkdi. Bu, essensial olaraq qeyri-fransız, yəhudi xarakteristikasıdır. Mən fizikada Eynşteyn, fəlsəfədə Berqson, musiqidə Şoenberq və psixologiyada Freyd arasında paralellər aparmaqla onlar üçün ümumi xarakteristik elementi aşkar etdim: məkan üzərində zamanın önəmini vurğulamaq"*

Haynrix Berl

Böyük primordial sivilizasiyalar tərəfindən tərk edilmiş izlər nadirən dərk edilən əhəmiyyətə malikdir. Arxaik Yunan-Roma dünyasının, eləcə də qədim Misir, Persiya və Çin sivilizasiyalarının qalıqlarından başlayaraq tradisional dünyanın sonuncu izlərinə qədər hər şey – o möhtəşəm və sirli meqalit abidələr ucsuz-bucaqsız səhralar və meşələr boyu darmadağın və səpələnmiş haldadır. Bütün bunlara nəzər yetirməklə insan təəccüblənə bilər ki, belə əzəmətli sübutların varlığı zahiri şərtlərin uğurlu kombinasiyasının nəticəsindən daha çox, bir simvol olaraq yaşaya bilmir mi? Bu izlərin məxsus olduğu sivilizasiyaların ümumi xarakteri araşdırdırıldığı zaman insan daha dərindən mütəəssir olur. Onların sahib olduğu "tradisional həyat" əsrlərə və nəsillərə tab gətirməklə öz prinsiplərinə, institutlarına və dünya-baxışlarına sadiq qalıb. Fəlakətli hadisələr qarşısında adaptasiya və zahiri dəyişmələrə açıq olsa da, özəyini, həyatverici prinsiplərini, ruhunu, təbiəti etibarilə sabitlik və dəyişməzliyini qoruyub. Belə sivilizasiyalardan bəhs etdikdə ağıla ilk gələn Çin, Hindistan və XIX əsrin ikinci yarısına qədərki Yaponiyadır. Xronoloji olaraq daha uzağa getdiyimiz zaman da, bu növ sivilizasiyanın davamlı və daha mükəmməl inkişafa nail olduğunu müşahidə edə bilərik. Bu sivilizasiyalarda zamanın hakimiyyəti deyil, məkanın hakimiyyəti mövcud idi. Atemporal olaraq nəzərə alınmalı olan bu sivilizasiyalar zamanda deyil, məkanda doğulmuşdular. Modern liberal yanaşmaya görə, qeyd olunan sivilizasiyalar "stasionar", "statik" yaxud "immobilist" sivilizasiyalar olaraq təsvir edilir. Lakin, onlar modern dünyanın idealizmlərini rədd edir; onlara görə, "tərəqqi" və "dinamizm" anlayışları şərtiliyə, arasıkəsilməz dəyişiklik, sürətli yüksəliş və sürətli çöküş impetyusuna tabe olmaqdan başqa heç nə ifadə etmirdi. Bu proseslər heç bir gerçək daxili qanuna itaət etmir və heç bir spiritual məhdudiyyət ilə çərçivələnmir. Buna baxmayaraq, xüsusi bir momentum qazanan bu proseslər onları tətikləyən insanları öz axarında sürükləməyə başladı. Bununla da, bu tendensiya arroqant və aşağılayıcı dəyər mühakimələri daxilində "bir sivilizasiya" kimi təsvir edilməli olan hər şeyin kriteriyasına, yeganə ölçüsünə çevrildi. Bu baxımdan, tradisional oriyentasiyaya sahib olan si-

vilizasiyalardakı *hərəkətsizlik* tamamilə yanlış bir şəkildə "dəyişməzlik" olaraq dərk edildi. Qeyd edilən sivilizasiyalar *varlıq – being* sivilizasiyaları idi. Onlar öz identikliyində, *becoming*, tarix, "dəyişiklik" və şeylərin amorf axını üzərindəki zəfərlərində öz əzəmətlərini nümayiş etdirirdilər. Modern və tradisional sivilizasiyalar arasındakı ziddiyyəti belə ümumiləşdirmək olar: Modern sivilizasiyalar məkanı yox edirlər, amma tradisional sivilizasiyalar zamanı yox edirdilər. Modern sivilizasiyalar məkanın fəthi və hərəkət ehtirası ilə bir vertiqo yaşayırlar. Bu, bütün məsafələri aradan qaldıran, bütün intervalları qısaldan və son nəticədə, eyni anda hər yerdə var olma hissinə qərq olan insanı meydana gətirən mexaniki vasitələrin sonsuz arsenalının yaradılmasına gətirib çıxardı. Bu, çılğınca sahiblənmə ehtiyacı; uzaqda, təcrid olunmuşluqda, dərində olan hər şeyə qarşı qaranlıq bir əndişə; genişlənmək, özünü digərləri ilə assosiasiya etmək və özünü özündən başqa hər yerdə tapmaq impulsudur[36]. Bu irrasional ekzistensial impuls tərəfindən təşviq edilən elm və texnologiya onu gücləndirir, bəsləyir və daha da kəskinləşdirir: kommunikasiya formaları, ultrasonik sürət, televiziya və hiper interaktiv sosial şəbəkələr, standartlaşma, kosmopolitanizm, qloballaşma, qeyri-məhdud istehsal, amerikan dinamizmi, modern "ruh" və s. şəbəkə getdikcə genişləndirilir, gücləndirir və mükəmməlləşdirilir. Terrestrial məkan artıq praktik olaraq özlüyündə heç bir sirrə sahib deyil. Suların, qurunun və göyüzünün yolları total şəkildə aşkara çıxarılıb. İnsan nəzəri ən uzaq Səmaları, sonsuzca böyük və sonsuzca kiçiyi belə detallı şəkildə incələməyə başlayıb. Artıq başqa ərazilərdən deyil, başqa planetlərdən danışılır. Bizim planetimizdə fəaliyyət hər yerdə ani işıltı daxilində reallaşdırılır. Minlərlə səsin vəlvələsi tədricən birformalı, monoton və qeyri-şəxsi ritmdə birləşib. Bütün bunlar degenerat messianizm çərçivəsində formulasiya edilən və texnokratik inqilab mifi ilə birbaşa bağlı olan Qərb "Faustianizminin" effektləridir. Lakin, tradisional sivilizasiyalar zaman və tarix axınının ortasında öz stabilliyində, öz identikliyində, sarsıl-

---

[36] Julius Evola – "The Bow and the Club", p, 3 (translated by Sergio Knipe, Arktos Media Ltd., 2018)

maz və *dəyişməz* formasında mövcud idi. Onlar hətta əbədiliyə maddi və essensial ekspressiya verə bilirdilər. Onlar zamanda bir ada yaxud bastion kimi yaşayırdılar; onların daxilində fəaliyyət göstərən qüvvələr zamanı və tarixi yox edən qüvvələr idi. Əgər bu sivilizasiyaların mifik konturlar qazanan uzaq keçmişə çəkildiyi görünürsə, bu yalnız arasıkəsilməz axın tərəfindən sürüklənilən və spiritual stabillik domenindən getdikcə uzaqlaşan bir kəsə varid olan bir ilğımdır. Bu ideya qədim tradisional doktrina tərəfindən təşviq edilən iki perspektivə uyğun gəlirdi: "hərəkətsiz məkan" sularla birlikdə hərəkət edən hər kəsdən uzaqlaşır, sular hərəkətsiz məkanda möhkəm qərar tutan hər kəsdən uzaqlaşır". Əgər bu doktrinal prinsip fiziki domenə deyil, spiritual domenə uyğun olaraq dərk edilirsə, bu o deməkdir ki, dəyərlərin həqiqi iyerarxiyası başa düşülür. Beləliklə, biz öz nəzərimizi müasirlərimizin məhdud üfüqlərindən daha irəliyə doğru genişləndirə bilərik. Tarixi formaların meta-tarixi məzmunla essensial bağlılığı nəticəsində keçmiş olan indiyə çevrilir. Digələri isə spiritual mərkəzini və daxili qanununu itirən dekadentlərdir. Changeism (dəyişmə düşkünlüyü), historisizm, təkamülçülük və s. yalnız daimi olaraq qaçan, daxili davamlılığı olmayan və spiritual yüksəliş və nailiyyətin nə olduğunu bilməyənlər üçün "fiziki həqiqətlərdir". Fransız ədibi və burjua düşüncəsinin kəskin tənqidçisi Jorj Bernano modernistlər ilə bağlı olaraq "Robotlara qarşı Fransa" adlı əsərində "nədən və hara qaçırsız, axmaqlar? sualını verir və cavablandıraraq bildirir: "Siz yalnız özünüzdən qaçırsız. Modern sivilizasiya hər növ daxili həyata qarşı bir universal konspirasiyadır. Yalnız bu reallıq qəbul edilərək *Modernizm* doğru başa düşülə bilər"[37]. "Becoming" dünyasını təsvir etmək üçün "intellektual axmaqlıq" ifadəsini irəli sürən J.Bernano ilə yanaşı, digər fransız yazarı və novelisti Jan Kokto bildirir ki, "zamanımızın tragediyası axmaqlığın düşünməyə başlamasıdır".

Qeyd edək ki, klassik Avropa düşüncəsindən fərqli olaraq, Yəhudi-Xristianlıqda əsas vurğu məkan deyil, məhz zaman üzərinə qoyulur. Lakin

---

[37] Georges Bernanos–"La France contre les Robots », (Le Castor Astral, Collection « Galaxie », 2017, Paris), p, 69

Yunanlar zamanı məkan perspektivindən dərk edirdilər. Bibliyada zaman özünün məzmunu olaraq sona çatırsa, Paqanizmdə dünyanı formalaşdıran və dünyanın ehtiva etdyi hər şey ilə identifikasiya edilən məhz məkandır. Andre Şuraki qeyd edir ki, Bibliya insanı zaman anlayışının məkan anlayışına üstün gəldiyi və zaman ilə əbədilik arasında hər hansı duallığın olmadığı verbal dünyada yaşayır. Burada modern Historisizm ilə birbaşa bağlı olan özünəməxsus konsepsiya özünü göstərir. Xristianlıqda zaman insani standartlar ilə deyil, Allaha – Yahvehə məxsusluq ilə müəyyən edilib. Çünki Yahvehin “təbiəti” tarixi zamandan daha yüksəkdə dayanır. Zamandan fərqli olaraq məkanda heç nə əvvəlcədən müəyyən edilmir. Hər şey birbaşa insandan və onun öz-özünə üstün gəlməsindən asılı olduğu üçün məkanın aliliyi dolayısı ilə insanın aliliyi deməkdir. Yunan-Roma paqanizmində zaman tsiklik yaxud sferik konsepsiya daxilində düşünülməlidir. Bu da, Nitzşenin qeyd etdiyi kimi Eyninin Əbədi Qayıdışı deməkdir. Lakin, Bibliya monoteizmində qayıdışın mümkünlüyü deyə bir şey yoxdur. Tarix özünə qayıda bilməz. O, özünün kuliminasiyası və sonu olacaq görünməmiş bir hadisəyə doğru – *harasa* gedir. Əgər, qayıdış varsa, bu yalnız mütləq qayıdış olmaqla əvvəl mövcud olmuş mərhələyə doğru qayıdış ilə ekvivalentdir[38]. Bibliya insanı geri qayıda deyil, yalnız tərk edə bilər. Paqan insanı əcdadlarına münasibətdə özünün doğum yerini hiss edə bilir. Onun bir “Vətəni” var. Lakin Bibliya monoteizmində bu motiv köklü şəkildə fərqlidir. Burada doğma torpaq deyil, yalnız son torpaq anlayışı var. Son torpaq bir qurucu mifdən deyil, monoteist finalizmdən qaynaqlanır. İsrail xalqı doğum və irs vasitəsilə İsrail torpaqlarında deyil, əxlaqi və dini akt vasitəsilə Misirdə və səhrada formalaşdı. Sürgün və “qayıdışın” bütöv teologiyası sükut və Yahvehin Sözü ilə birləşdirildi. Peyğəmbərlər də Ana Yerə bağlılığı “bütpərəstlik” mənbəyi olaraq görürlər. Bu, anaya tərəddüdlü və qərarsız bağlılığı nevrozis mənbəyi olaraq analiz edən Freydin Oedipus nəzəriyyəsində də müşahidə edilə bilər.

---

[38] Alain de Benosit – “On being a Pagan”, (translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004), p, 81

Genezisdə Qabilin səciyyəvi cəhətlərindən biri onun sərhədlər arzusu idi. Əgər Qabil Habili öldürdüsə, bu ona görə idi ki, Habil razılaşdırılan şəkildə ərazi bölgüsünə əməl etmədi, "gələcək dünyanı" əldə edən Habil, Qabilin sahib olduğu bu dünyaya da iddia etməyə başladı. Avropalı teoloqlar Qabilin seçimini bir paqan seçimi olaraq dəyərləndirir və onun bir krallığın yaxud imperiyanın əsasını qoymağa çalışmaqla zaman məsələsini məkan məsələsinə transformasiya etdiyini bildirirlər. Öz köklərini tərk etmək davranışını özündə ehtiva edən Bibliya monoteizmi əkinçi həyat tərzinə neqativ dəyər yükləyir. İnsanın Yer ilə fiziki münasibətinə əsaslanan paqan hissi Bibliyada tənqid edilir. Nomadizm sadəcə bir həyat tərzi olaraq deyil, Yahvehin prinsiplərini mühafizə etməyin effektiv vasitəsi olaraq dərk edilir. Kanaan ərazisinə daxil olduqdan sonra Levitlər özlərini "torpaqsız tayfa" olaraq müəyyən etməklə essensial olaraq əkinçi olan Kanaan sivilizasiyasının irisini rədd etmişdilər.

Bütün bunlara görə də, Bibliyada *universum* heç bir məkan sərhədləri olmayan və məhdud zamana malik olan bir dünya olaraq düşünülür[39]. Lakin, zaman baxımından qeyr-məhdud olan paqan insanı özünün məkan sərhədlərini çəkə bildiyi bir yerə malik idi. Məkanda yaradılmış sərhədlər insanı sahib olduğu məkanın "Meister"inə çevririr. Lakin, zamanda sərhədlər, mütləq kaesuralar, yalnız insanın Allahdan fərqliləşdiyini göstərir. Paqan insanı perspektivindən biz yaradılmış köklər və spesifikliyi, ikinci halda isə universalizm və yurdsuzlaşmanı (deterritorializasiya) müşahidə edirik. Emmanuel Levina qeyd edir ki, bir ölkədə məskunlaşma və bir yerə bağlılıq olmadan dünya çox çətinliklə mövcud ola bilər yaxud dəyərsizləşərdi. Bu, insanlığın avtoxton və əcnəbilərə ayrılmasıdır[40]. Norveçli teoloq Torleif Boman qeyd edir ki, sərhədlərin aradan qalxması Bibliya üçün dünyanın normal halıdır[41]. Jill Delöz və Feliks Qutari, "kök" anlayışına qarşı universal nomadizmin simvolu olaraq "köksüz insan" – rizomatik insan anlayışını irəli

---

[39] Alain de Benosit – "On being a Pagan", (translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004), p, 84

[40] Emmanuel Lévinas – "Difficile liberté", Albin Michel, Paris, p,301

[41] Thorleif Boman – "Hebrew Thought Compared with Greek", W.W. Norton Company, London, 1960, p, 158

sürüblər. Onlara görə, səhranın anonimliyinin qeyri-yeri şəhər mühitinin anonimliyinin qeyri-yeri ilə əvəzlənib. Modern dünya şəhərləri Tarixin öz funksiyasını icra etdiyi yerlər deyil, total simulakrum və yox olma məkanlarıdır.

Çinlilər də Xristianlıq öncəsi Avropalılar kimi zamana linear deyil, tsiklik yanaşırdı. Çinin bütün böyük dinləri – Taosizm, Buddizm və Konfusianizm planetar hərəkətlərlə sıx bağlı olmaqla zaman və tarixin sonsuz şəkildə özünü təkrar etdiyinə inanırdı. Tərəqqi anlayışı Çin dünyabaxışından tamamilə uzaqdır. Gələcəyi dünyəvi Edenin davam edəcəyi bir yer olaraq düşünməyə başlamış sənayeləşmiş Qərbdən fərqli olaraq, Yunanlar kimi Çinlilər də bəşəriyyətin Qızıl Əsrinin artıq sona çatdığına inanırdılar. Qərb gələcəyə, Çin isə keçmişə sayğı göstərir. Nəticədə, yeni məsələlər ortaya çıxdığı zaman Çin sivilizasiyası onları presedentlərə, ənənə və dəyərlərə istinad etməklə həll edir. Viliyam Parsons da qeyd edir ki, Çində "Presedent" qədər heç bir imperator əzəmətli gücə sahib olmayıb. Çinlilər gələcəyə keçmişi canlandırmaq və onun yaralarını xəfifləţmək üçün sadəcə bir mümkünlük olaraq yanaşır. Çin dünyabaxışına görə, zaman tsiklik, yavaş hərəkət edən və öncədən müəyyən edilmiş bir fenomendir. Ona görə də, Çinlilər özlərini *proqressiv ideyaların* təşəbbüskarları olaraq deyil, keçmişin mühafizləri olaraq görürlər. Məhz buna görə də, onlar uzun müddət Qərbin sənaye və siyasi gücü qarşısında staqnant və köməksiz qaldılar.

Sadəcə qeyri-maddi və spiritual kuliminasiya ilə deyil, epik əməllər, hadisələr və sivilizasiyaların dövrləri ilə özlərini ifadə edən nailiyyətlər supra-temporal (zamanüstü) və əbədi xarakterə malik idi. Bunlara, elemental qüvvələrin ekstensiyasını təşkil edən və tamamilə subyektivliyə yad olan anonim yaradıcılıq – tradisional, əzəmətli və monolit incəsənət əsərləri əlavə edilə bilər.

Qeyd olunduğu kimi, tradisional sivilizasiyaların sahib olduğu zaman konsepsiyası çevrilə bilməyən linear deyil, tsiklik, periodik zaman konsepsiyası idi. Bu konsepsiyanın konstant məqsədi zamanı öz mənşəyinə qaytarmaq, *becoming*-i təmsil edən hər şeyi yox etmək, onu zəbt etmək

yaxud da onu miflə bağlı olan supra-tarixi, müqəddəs və ya metafizik sturkturların ifadəsinə çevirmək idi. Məhz bu şərtlərə "tarix" olaraq deyil, "əbədiliyin mobil surəti" olaraq zaman bir dəyər və mahiyyət kəsb edirdi. Mənşəyə qayıtmaq öz-özünə üstün gəlmək, əbədi cavanlığın mənbəyindən faydalanmaq, zamandan asılılığa qarşı özünün spiritual stabilliyini təsdiq etmək demək idi. Təbiətin böyük dövrləri də bu yanaşmanı daha da həvəsləndirirdi. Modern sivilizasiyaların situasiyasından ayrılmaz hala gələn "tarixi fərqindəlik" yalnız bir parçalanma, insanın temporallığa məhkum olması deməkdir. Bu, sonuncu insanın – qürub çağını yaşayan bəşəriyyətin başlıca xarakteristikalarından biridir. Elmi obyektivlik daxilindəki kəşflərə nəzər yetirməklə onu qeyd etməliyik ki, Modernizm əsrini inqilabiləşdirən bu kəşflər dekadensiyanın bir simptomudur və onların qeyd edilən əsrdə baş vermələri əsla təsadüf kimi dəyərləndirilə bilməz. Təbiət elmləri, xüsusilə də daha çox məşhur olan Eynşteyn və onun xələflərinin nəzəriyyəsinə görə, Yerin Günəş ətrafında yaxud Günəşin Yer ətrafında hərəkət etdiyini söyləmək çox da əhəmiyyətli deyil. Əsas məsələ relasional sistemləri qurmaq üçün istifadə edilən astrofiziki hesablamalarda daha çox yaxud daha az kompleksliliyi üstün tutmaqdır. Dolayısı ilə, Eynşteyn fizikasına görə, kainatın mərkəzi olaraq istənilən perspektivin seçilməsi (Günəş, Yer, Ay və s.) mümkündür. Yəni, seçimlərdən birinin digərindən daha "doğru" olduğunu söyləmək olmaz. Dəyişən hər bir şey riyazi hesablamaların effektivliyi və şəffaflığıdır. Lakin, bu düşüncə Nikolay Kopernikin də nəzəriyyəsi daxil olmaqla bütün keçmiş astronomik və fiziki nəzəriyyələr ilə diametral ziddiyyət təşkil edir. Kopernik hər zaman *həqiqi* mərkəz, *həqiqi* perspektiv təklif edirdi. Lakin, "Kopernik kəşfi" ilə, Yer artıq səmavi cisimlərin immobil və sarsılmaz mərkəzi deyildi. Fransız filosofu Piyer Tüliye bildirir ki, bu "kəşf" dağınıq və qeyri-müəyyən şəkildə ekspansiya edən kainatın önəmsiz bir hissəsi olaraq Yerin öz qanunu ilə kosmik məkanda səyahət etdiyini elan etdi. Beləliklə, Kopernik inqilabı kainatın mərkəzini Yerdən Günəşə doğru çevirdi, Eynşteyn inqilabı isə kainatın mərkəzi anlayışını

bütövlükdə ortadan qaldırdı[42]. Onu da vurğulamaq lazımdır ki, Kopernik inqilabı Renessans və ya Humanizm əsrində baş verdi. Avropa tarixinin bu dövrü Modern sivilizasiyanın ortaya çıxmasındakı ən həlledici təlatümlərin baş verdiyi period idi. Bu əsrin insanları *becoming*-in, tarixin və transformasiyanın perspektivlərini, "həyatın" nəzarətsiz və öncədən bilinməyən axınını qəbul etməklə reallığın nə olduğundan və spiritual mərkəzliliyin bütün formalarından total şəkildə uzaqlaşmağa başladılar. Bu təlatümün başlanğıcı isə "Humanizmin insanın mədhi" olduğu" illüziyası idi. Lakin, reallıqda Humanizm hər şeyi sadəcə insani həddə endirməklə *insanidən daha ali olana* doğru spiritual inteqrasiya mümkünlüklərini aradan qaldırdı.

Bu kontekstdə qeyd edilə biləcək yeganə simvolik təlatüm bu deyildi. "Kopernik inqilabı" ilə bağlı onu da vurğulamalıyıq ki, tradisional dünya üçün "obyektiv" reallıq yalnız ikincidərəcəli əhəmiyyətə sahib idi. Modern elm perspektivindən, təbiət haqqında tradisional nəzəriyyə "yanlış" olaraq görülə bilər. Lakin onun dəyəri, həqiqət olaraq qəbul edilən bir şeyin daha müxtəlif səviyyədə ifadəsinin vasitəsi ola bilməsindədir. Məsələn, Heliosentrik nəzəriyyədən fərqli olaraq, geosentrik nəzəriyyə "varlıq", spiritual mərkəzlilik və insanın həqiqi essensiyasının idarə edilməsi prinsipi olaraq daha müxtəlif, daha sarsılmaz bir həqiqət rolunda çıxış edən reallığın bir aspektini özündə ehtiva edirdi. Bu, zaman və məkan sivilizasiyası arasındakı antitezisin morfoloji aydınlaşdırılması üçün kifayət edə bilər. Bu antitezisdən çıxış edərək, biz modern (zaman) sivilizasiyaya məxsus insan ilə klassik (məkan) sivilizasiyaya məxsus insan arasındakı tipoloji və ekzistensial antitezisi də anlaya bilərik. İnsanın özünüdə baş vermiş ziddiyyətin daxili dəyişikliyini nəzərə almadan Modernizm əsrinin böhranı problemi üzərində hər hansı bir tənqid yaxud reaksiya irəli sürmək faydasızdır. Varlığın və reallığın dimensiyasına doğru yönələn bu dəyişiklik tradisional dildə – *metanoia* adlanır. Məhz bu dimensiyanın modern insanda total itkisi və

---

[42] Pierre Thuillier– «D'Archiméde à Einstein – Les faces cachées de l'invention scientifique», (Librairie Arthéme Fayard, 1988)

dissolyusiyası nəticəsində, o nə daxili stabilliyin, nə spiritual mərkəzliliyin, nə də təhlükəsizliyin ali anlayışının nə olduğunu bilmir. Bunun əvəzində, o getdikcə ümumiləşən tətminsizlik və boşluq içərisində daimi olaraq spiritual anesteziyalar ilə yaşayır. Spiritual mərkəzliliyin və daxili stabilliyin varlığı anlayışı hətta insanın fiziki-maddi domeni üzərində effektiv prinsipə əsaslanan *bir məhdudiyyət* formalaşdırmağa qadir olmaqla yanaşı, getdikcə güclənən Kali Yuqa[43] prosesləri və qüvvələri üzərində özünü təsdiq etmək vasitəsidir.

Böyük polyak sosioloqu Ziqmunt Bauman bildirir ki, zaman modern istehlakçılar cəmiyyətində nə lineardır nə də ki tsiklik. Bu, bir neçə separat nöqtələrə bölünmüş və qeyri-dimensionallığın həndəsi idealizasiyasına endirilmiş *pointillist* zamandır. Həndəsə elmindən bildiyimiz kimi, nöqtələrin nə uzunluğu, nə genişliyi, nə də ki dərinliyi var. Onlar zaman və məkanın önündə mövcuddurlar. Hər bir nöqtənin sonsuz şəkildə genişlənmə potensialına və partlamağa hazır sonsuz mümkünlüklərə sahib olduğu güman edilir. Pointillist həyatın xəritəsi çəkilsəydi, bu xəritə təxəyyüli və ya icra edilməmiş mümkünlüklərin məzarlığı kimi görünərdi. Məhz bu səbəbə görə, indiyə köklənmiş həyat tələskən həyat olmağa meyillənir. Hər bir zaman nöqtəsinin özündə ehtiva etdiyi şans qəbrinə qədər öz yolunu izləyəcək. Hər bir zaman zərrəciyi "ikinci şans" mümkünlüyünün mövcud olmadığı, özünəməxsus və unikal bir şans daşıyıcısıdır. Hər bir zaman zərrəciyinə yeni bir başlanğıc kimi yanaşılır. Yalnız yeni başlanğıcların dayanmadan genişlənən çoxluğu yanlış başlanğıcların çoxluğunu kompensasiya edə bilər. Yeni başlanğıcların geniş amplitudalarının qarşıda gözlədiyinə və ümidi zamanından öncə baş vermiş sonluqların dağılmış qalıqlarından xilas edə biləcəyinə inanılır. Maddi olaraq həris bir istehlakçının əbədi indiyə məhkum olmuş həyatında

[43] Kali – Hinduizmdə Əsrlərin və ya "Yuqa"ların sonuncusu. Kali Əsri – Kali Yuqa spirituallığı təşviq etməyən idarəedənlərin azğınlaşdığı və ədalətsizcə vergilər təyin etdiyi, maddi hərisliyin ümumiləşdiyi, seksual interkursun həyatın mərkəzi tələbi olaraq qəbul edildiyi, qadınların artıq evlənmədiyi, günah işləmənin sürətlə artdığı, fəzilətliliyin və sosietal dəyərlərin yox olduğu, insanların ərzaq uğrunda sürətlə miqrasiya etməyə başladığı, "Brahmin"lərin şərəfləndirilmədiyi və onların öyrənilmədiyi, "Kşatriyalar"ların cəsarətsizləşdiyi, "Vaişya"ların öz davranışlarında nadürüstləşdiyi bir əsr olaraq xarakterizə edilir.

konstant tələskənliyin səbəbi əldə etmək və ya toplamaq deyil, rədd etmək və əvəzləməkdir. Hər bir ticari məhsulun arxasında yeni və kəşf edilməmiş imkanlar vəd edən gizli bir mesaj var: Big Bang ya indi baş verir ya da bu özünəməxsus nöqtədə ləngiməyin hər hansı bir mahiyyəti yoxdur. Digər bir zaman nöqtəsinə doğru hərəkət etməyin vaxtıdır. İstehsalçılar cəmiyyətində bir uğursuzluq anında veriləcək məsləhət "daha səylə çalış"-dan ibarət olardı. Lakin, istehlakçılar cəmiyyətində qətiyyən belə deyil və ola da bilməz. Bu cəmiyyətdə tam tətmin vədini yerinə yetirə bilməyən alətlər və vasitələr, eləcə də gözlənildiyi qədər "Big" nəticə verməyən "Bang"lər də dərhal tərk edilməlidir. Modern istehlakçı uğursuzluğa düçar olduğu və ya düçar olmağa başladığı bir nöqtədən hələ cəhd etmədiyi başqa bir zaman nöqtəsinə doğru daimi və gərgin qaçış halındadır[44].

Dəyişikliyin ritmi sürətləndikcə sürətlənir. Modern insanın sosial üzvlüklərinin çoxalması, mümkünlüklər və mesajların arasıkəsilmədən artması insanın fenomenləri təcrübə etmək qabiliyyətini üstələyir. Bununla bərabər, ailədən başlayaraq şəxsi identikliyin ənənəvi koordinatları zəifləyir və tədricən aradan qalxır. İnsanın qətiyyətlə kim olduğunu söyləyə bilməsi çətinləşir. Çünki öz tarixiliyindən məhrum olaraq "indi"nin kövrəkliyinə həbs olmuş modern insan durmadan istinad nöqtələri axtarışına məhkum edilir.

Gündəlik zaman davamsız və çoxformalıdır. O qəbul və nəql etdiyimiz müxtəlif informasiyalar tərəfindən təlqin edilən ritmləri izləməyə başlayaraq öz xarakteristik birformalılığını itirib. "İndi"nin köçərisinə çevrilmiş modern insanın erratik miqrasiyalar daxilində qavrama və yadda saxlama qabiliyyətləri kəskin atrofiyaya məruz qalır. Paskal Brukner vurğulayır ki, "əbədi indi" bütün günlərin eyni bir gündə birləşməsi, keçmişin və gələcəyin aradan qalxması ilə formalaşır. Hər şeyin neytrallaşdığı, ziddiyyətlərin aradan qalxdığı, düzləşdiyi və ya jelatinləşdiyi bu eynilik daxilində qəzəb, sevgi və ümid hissləri boğulur. Dərin-emosional cazibənin heç bir şəkildə mövcud olmadığı "əbədi indi"də heç nə gözlənilmir, heç nə həyə-

---

[44] Zygmunt Bauman – "Liquid Modern Challenges to Education", Lecture given at the Coimbra Group, Annual Conference, Padova, 2011, p, 3-7

canlandırmır, çünki hər şey *ad infinitum* olaraq təkrarən baş verir. Yerinə yetirilməli olan əhəmiyyətsiz tapşırıqlar, steril formallıqlar içərisinə məhkum olmuş modern insanın stress adlandırdığı mental situasiya onu hər gün yeyib-bitirən letargiya daxilindəki davamlı korroziyanın nəticəsidir. Sanki mənasızlıq və ya mahiyyətsizlik öz mədhiyyəsini tələb edir. Modern insan həddən çox işləmə və tükənmişliyin doğurduğu qapanıq inersiyanın saysız zərbələrinin qurbanı, ciddi şəkildə yaralanmış veteranıdır. Gözlənilməz heç nə yarada bilməyən bu frenetik inersiyada modern insan sevinc və ya gerçək əzabın nə olduğunu bilmədiyi virtuallıq – mediakratiya şərtləri daxilində durğunlaşır. Bu interlyuda, bir tragediyanın məziyyətinə yüksələ bilməmə, günlərin mexanikləşmiş ardıcıllığı insanın öz həyatını bir incəsənət əsərinə, bir estetikaya, bir simfoniyaya çevirməsinin qarşısını alır[45].

Modernizm əsri müstəsna ətalət nümayiş etdirən, letargiya və süstləşməni mütləq dəyərlər həddinə qaldıran spiritual ölüm və kökü kəsilmənin Oblomov[46] tərzi qəhrəmanları ilə doludur. Nə təcrübə etdiklərini dərk edə bilməyən bu rutin ekstremistləri bir minimal və "infinitezimal"ın (infinitezimal – ölçülə bilməyəcək qədər kiçik) aləmində özlərini yaşadıqlarına – həyatda olduqlarına inandırmağa cəhd edirlər. Onlar aşkar şəkildə bayağı maddi sərvətin ilğımı içərisində bir vertiqo yaşayırlar. Modernizm, zaman olaraq yalnız "əbədi indi"ni bilən insan üçün xoşbəxtliyin yeni bir formasını, "asezis" olaraq qeyri-həyatı və spesifik nevrozisi kəşf etdi. Bir "limbo"-da məskunlaşmağı seçən bu yeni insanın "həyatı" yox olmanın sekulyar mistisizmi və daimi hemorrhagiya üzərində qurulub.

F.Fukuyama tərəfindən "tarixin sonunun" elan edilməsinin çox "qaba və xam" göründüyünü bildirən fransız kultural nəzəriyyəçisi və filosofu P.Virilio, "coğrafiyanın sonundan" böyük bir əminliklə bəhs edilə biləcəyi-

---

[45] Pascal Bruckner– "Perpetual Euphoria: On the duty to be Happy", (Princeton University Press, 2010), p, 78

[46] Rus ədibi İvan Qonçarovun "Oblomov" adlı romanının baş qəhrəmanı. XIX əsr rus mülkədarı və yuxarı sinfin üzvü olan Oblomovun fərqləndirici xüsusiyyəti onun həyata qarşı süstlüyü və miskinliyidir. O öz kiçik biznessini yatağından idarə edərək bu həyatı bir "incəsənət formasına" yüksəldir. İ.Qonçarov bu obraz vasitəsilə dövrünün Rus burjuaziyasını və mülkədar sinfini tənqid edir.

ni bildirmişdi. Aristoteldən bəri fizika və metafizika anlayışları eşidilir və dərk olunur. Bəs geofizika və metageofizika anlayışları necə? Modern dünyanın reallığı telekommunikasiyalar və ani qlobal kommunikasiyaların mənfəəti naminə qitələrin coğrafi bazisi prinsipinin itkisi ilə emblematize edilməlidir. Milli sərhədlər ilə deyil, daha çox bir nöqtədən digər nöqtəyə kommunikasiya distansiyaları ilə bir-birindən ayrılan cəmiyyətlərin tarixi üzərində planetin geofizikasının siyasi əhəmiyyətindən sonra, bizə çağdaş dünyanın kibernetik interaktivliyini təqdim edən metageofizikanın trans-siyasi əhəmiyyəti ortaya çıxıb. Bir virtual reallığın tele-kontinentlərini sıx bir şəkildə düzənləyən metageofiziki reallıq sadəcə fiziki məkanda yerləşən mədəniyyətləri dezinteqrasiyaya uğradır. Böyük qlobal mutasiya məhz budur. "Lokallıq" anlayışı introvert xarakterini tamamilə itirməkdədir. Qlobal delokalizasiya sadəcə milli deyil, həm də sosial identikliyin təbiətini dərindən aşındırır. Lokal olaraq yerləşmiş həqiqi şəhər territoriallıqdan məhrum olan "virtual şəhər" (meta-şəhər) ilə əvəzlənib. Qlobalitar deyil, totalitar xarakterli bu meta-şəhərdən heç kim qaça bilməyəcək. Bu meta-şəhərin mərkəzi hər yerdə, sirkumferensiyası isə heç yerdədir. Virtual hiper-mərkəz fenomeni sürətləndikcə pastoral-rural məkanlar dezertifikasiyaya (səhralaşmaya) uğrayır, ortaölçülü şəhərlər tənəzzül edir. Aktiv optika Qalileyin teleskop erasının passiv (geometrik) optikasını aradan qaldırır və bununla da, coğrafi perspektiv üfüqünün trans-üfüqi optika ilə əvəzlənməsi imperativ şəkildə tələb edilir. Bu nəhəng trans-üfüqi optika hər növ virtualizasiya (strateji, iqtisadi və ya siyasi) *yeridir.* Trans-üfüqi optika və virtuallaşma olmadan dünənin totalitarizmini əvəzləyən modern qlobalitarizm qeyri-effektiv olardı. Ümumiləşdirilmiş vizualizasiya "virtuallaşma" olaraq adlandırdığımız fenomenin ən nəzərəçarpan aspektidir. "Virtual reallıq" kiberməkan şəbəkələrində ənənəvi naviqasiya deyil. Bu, real-dünya təzahürlərinin optik sıxlığının amplifikasiyasıdır. Bu amplifikasiya ani telekommunikasiyaların temporal sıxışdırmasının səbəb olduğu terrestrial məsafə qısalmalarını kompensasiya etməyə yönəlir.[47]

[47] Paul Virilio, "Un monde surexposé: fin de l'histoire, ou fin de la géographie?", Le monde

Bir coğrafi hüdud fikrini "həqiqi dünyada" irəli sürmək getdikcə çətinləşir və məsafələr bir problem olma xarakteristikasını tədricən itirir. Əslində "uzaqlıq" obyektiv, fərdilikdən ayrılmış fizki bir "data" olmaqdan daha çox sosial bir məhsuldur; məsafə qət ediliş sürətinə uyğun olaraq dəyişir. Kollektiv identikliklərin formalaşdırılması, ayrılması və davam etdirilməsinin digər bütün sosial səbəbləri (ölkə hüdudları və ya kultural sərhədlər) bu sürətin sadəcə ikincidərəcəli təsirləri olaraq görülür.

Bir yerdə sabitləşmiş hər bir sosial və kultural "bütövlüklərin" aşınması və zəifləməsi tipik olaraq modern bir prosesdir və bunu təhrik edən hər şeydən əvvəl sürətli nəqliyyat vasitələrinin istifadəyə qoyulması idi. Hərəkət qabiliyyətinin bütün texniki faktorları arasında informasiya nəqli xüsusilə böyük bir rol oynayıb. Bu fiziki bədənlərin hərəkətini zəruri etməyən, etsə də bu zərurətin çox kiçik və önəm kəsb etmədiyi bir kommunikasiya növüdür. Texnoloji vasitələrin mütəmadi və qərarlı olaraq inkişaf etdirilməsi informasiyanın öz bədən daşıyıcılarından müstəqil olaraq bir yol almasını təmin edib. Bunlar "göstərən"-i "göstərilən"-in təsirindən xilas edən vasitələr idi. İnformasiya daşıyıcıları və obyektlərinin hərəkətinin informasiyanın hərəkətindən ayrılması hərəkətin sürətindəki fərqliləşmələrə də yol açdı. İnformasiyanın hərəkəti bədənlərin bir yerdən digər bir yerə daşınmasında çatılan sürətdən daha çox sürət qazandı. Nəticədə, kompüterlər vasitəsilə qurulan "World Wide Web"in ortaya çıxması ilə informasiya məsələsində səyahət anlayışı keçərliliyini itirdi və informasiya (həm nəzəriyyədə, həm praktikada) hər yerdə eyni anda istifadə edilə bilmə xarakteri aldı. Kiçikmiqyaslı cəmiyyətlər içindəki ünsiyyət tamamilə üz-üzə ünisyyət xarakteristikasına sahib idi. İnformasiyanın daxili hərəkəti – gedib-gəlməsi – üçün zəruri olan zaman nəhəng böyüklükdə idi. Artıq başa düşürük ki, "sıx bir şəkildə bir-birini qucaqlamış" o toplumları var edən məhz bu uçurum idi. Modernizm əsrində bu toplumların kövrəkləşməsi və qısaömürlü olmaları isə hər şeydən əvvəl bu uçurumun daralması

---

diplomatique, August 1997, p. 17. Lakin, "coğrafiyanın sonu" fikri ilk dəfə "Global Financial Integration:The End of Geography" adlı kitabında Richard O'Brien tərəfindən irəli sürülüb.

və ya tamamilə aradan qalxması nəticəsində ortaya çıxdı. Bu kontekstdə, toplumlararası mübadilə qarşısında toplumdaxili ünsiyyətin heç bir əhəmiyyəti qalmır. Maykl Benedikt retrospektiv olaraq kəşf etdiyimiz şeyi və səyahət sürəti ilə sosietal bağlılıq arasındakı yaxın münasibətə dair yeni anlayışı belə xülasələndirir: "Hər miqyasda sosietal bağlılıq konsensusun və ortaq biliyin nəticəsidir. Əgər davamlı bir aktuallaşdırma yoxdursa, bu uyğunluq əsasən, ciddi bir mədəni təhsillə - mədəniyyətin hafizələrdə buraxdığı izlə bağlıdır. Bunun əksinə, sosietal elastiklik isə ucuz ünsiyyət və unutma ilə əlaqəlidir[48]. Unutmanın asanlığı və ünsiyyətin ucuzluğu eyni şərtin iki aspektindən başqa bir şey deyildir və bir-birilərindən ayrı olaraq düşünülə bilməz. Ucuz kommunikasiya yeni informasiyanın sürətlə öz yerinə çatması anlamına gəldiyi qədər, əvvəlki informasiyanı sıxışdırması və özünə yer etməsi anlamına da gəlir. "Wetware" qabiliyyətləri Paleolit dövrlərindən bəri dəyişmədən qalmaqla öz essensiyasını qoruyub, ucuz informasiya isə hafizəni bəsləyib sağlamlaşdırmaqdan daha çox hafizənin üzərinə axın edərək onu boğmaqdadır. İnformasiyanı lokal miqyasda yaymanın maliyyəti ilə planetar miqyasda yaymanın maliyyəti arasındakı fərqin azalması modern əsrin ən nəzərəçarpan yeniliyidir. Bu, diqqət çəkmək, hafizəyə girmək və hafizədə qalmaq üçün hər növ hay-küyü qaldıran informasiyanın çox fərqli və muxtar mövqelərdən gələ biləcəyi, dolayısı ilə bir-birilə uzlaşmayan və ya bir-birini yox edən mesajlar verə biləcəyi deməkdir. Bu mesajlar hardware və "software"dən yoxsul, yalnız "wetware"-ə inanan cəmiyyətlər içərisində sərbəst bir şəkildə dövr edən, bir-birini təkrarlayaraq konsolidasiya edilən və seçici əzbərləmə prosesinə yardım edə bilən mesajlarla daban-dabana ziddir. Timoti Lyuk vurğulayır ki, ənənəvi məkan sivilizasiyları adi insan bədənlərinin əsasən mediyasiyasız ola bilmələri ətrafında formalaşıb. "Ənənəvi fəaliyyət anlayışında fəaliyyətləri təsvir etmək üçün orqanik metaforalara müraciət edilir: toqquş-

[48] Michael Benedikt – "On Cyberspace and Virtual Reality", *Man and Information Technology*. İsveç Kral Akademiyası, Mühəndislik Elmləri (IVA) Komitəsinin 1994-cü ildə təşkiıl etdiyi "İnsan, Texnologiya və Cəmiyyət" mövzusunda beynəlxalq simpozium, Stockholm, 1995, p,41

ma burun-buruna, mübarizə çiyin-çiyinə, ədalət gözə-göz və dişə-dişdir. Həmrəylik və dostluq qol-qola hərəkət edir, insanlar üz-üzə, dəyişiklik addım-addım və yavaş-yavaşdır[49]. Lakin bu reallıq, toqquşmaların, həmrəyliklərin, mübarizələrin, görüşlərin insan gözü və qol gücünün əsla kifayət etməyəcəyi həddlərə qalxmasına icazə verən vasitələrin müdaxiləsi ilə ağılasığmaz bir şəkildə dəyişdi. Məkan işlənmiş, mərkəzləşdirilmiş, təşkil olunmuş, normallaşdırılmış hala gətirildi və hər şeydən daha mühümü, insan bədəninin məhdudiyyətlərindən qoparıldı. Dolayısı ilə, artıq "məkanı düzənləyən" şey texnoloji həcm, texnoloji sürət və texnoloji istifadə xərci oldu. Bu cür texnologiyaların əks etdirdiyi məkan təməl şəkildə fərqlidir: bu məkan Allahın bir möcüzəsi deyil, insan əli ilə inşa edilib, təbii deyil, sünidir, və rasionallaşdırılıb. İnşa edilmiş modern məkan sərt, qatı, qalıcı və müzakirəedilməz xarakterə sahibdir. Onun əti polad və sementdən, damarları isə dəmiryolları və avtomobil yolları şəbəkəsindən ibarətdir.

Qlobal informasiya şəbəkəsinin gəlişi ilə birlikdə bir yurda əsaslanan və şəhər planlaşdırıcıları tərəfindən planlaşdırılmış məkan üzərinə üçüncü – kibernetik məkan yerləşdirildi. Bu məkanın komponentləri məkan dimensiyalarından yoxsuldur və anlıq yayılmanın fərdi temporallığı (temporal – zaman əsaslı) içinə qazınıb. Bundan sonra insanları fiziki əngəllər və ya zaman uzaqlıqları ayıra bilməz. Kompüter terminalları ilə video monitorlarının bir-birinə bağlanması sayəsində "bura" ilə "ora" arasındakı təzad öz mahiyyətini tamamilə itirib[50]. Lakin, hələ də bəzi insanlar fiziki əngəllər və zaman uzaqlıqları ilə bir-birindən ayrılır. Bu ayrılma daha amansız və psixoloji təsirləri baxımından daha dərindir.

Zaman-məkan məsafələrinin texnologiya vasitəsilə sıfırlanması insanlığın mövcud şərtlərini homogenləşdirməkdən daha çox qütbləşdirməyə doğru meyillənib. Bəzi insanlar üçün mövcud situasiya fiziki əngəllərdən misligörünməmiş dərəcədə bir qurtuluş, qeyri-məhdud hərəkət qabiliyyəti-

---

[49] Timothy W. Luke – "Identity, Meaning and Globalization: Detraditionalization in Postmodern Space-Time Compression", Detraditionalization, der. Paul Heelas, Scott Lash ve Paul Morris, Blackwell, Oxford, 1996, s. 123,125

[50] Paul Virilio – "The Lost Dimension", Semiotext(e), New-York, 1991, p,13

nin müjdəçisidir. Heç bir şey ifadə etməyən məsafələr ilə bir-birindən ayrılmış lokallıqlar da öz anlamını itirib. Bəziləri lokallıqdan ürəyi istədiyi zaman qopub gedə bildikləri halda, digərləri, üzərində oturduqları yeganə torpağın ayaqları altından necə sürüşüb getdiyini ümidsizcə seyr edirlər.

İnformasiya öz daşıyıcılarından müstəqil şəkildə hərəkət edir. Anlamları və insani münasibətləri yenidən düzənləmək üçün bədənlərin fiziki məkan içərisində yer dəyişdirməsi heç olmadığı qədər qeyri-zəruridir. Bu, fiziki olmaqdan çıxarılmış gücün yeni ağırlıqsızlığıdır. Seçilmişlər daha böyük sürətlə məkanda səyahət edər amma ördükləri güc şəbəkəsinin uzunluğu və sıxlığı bu səyahətdən asılı deyil. Gücün xüsusilə də maliyyə formasının yeni "bədənsizliyi" sayəsində güc sahibləri fiziki olaraq "bir yerdə" dayansalar belə, tamamilə yurdsuzlaşıblar (deterritorializasiya). Kiberməkanda meydana çıxan "yeni azadlıq" üçün deyilən ortaq mədhiyyələrdə bu yeni gücün dünyəvi olmadığı bildiririlir. Xristianlıqdakı cənnət anlayışı ilə kiberməkan arasında bir əlaqə quran Marqaret Verthaymın fikirlərinə diqqət yetirək: "Xristianlar cənnəti maddi dünyanın xaosu və çürümüşlüyündən kənarda ideallaşdırılmış bir məkan olaraq xəyal edirdilərsə, bu total sosial dağılma əsrində də kiberməkanın missionerləri öz aləmlərini maddi dünyanın problemləri "üzərində" və bu dünyadan "kənarda" bir yer olaraq təqdim edirlər. İlk Xristianlar cənnəti insan ruhunun bədənin zəiflikləri və yanlışlıqlarından xilas olacağı bir yer olaraq tanıdarkən, bugünün kiberməkan müdafiəçiləri də kiberməkanı mənliyin fiziki bədənin sərhədlərindən xilas olacağı bir yer olaraq alqışlayırlar"[51].

Modern sivilizasiyanı bir bütöv olaraq nəzərə alaraq, belə kəskin entropiya qarşısında onu müşahidə edə bilərik ki, misligörünməmiş dərəcədə zaman mərkəzli olan bu sivilizasiyada sarsılmaz bir istinad nöqtəsi tapmaq çox çətindir. Məhz buna görə də, spritual və intellektual oyanışı ilə fərqliləşmiş insan üçün spesifik sahələrdə oriyentasiya dəyişikliyi bir qayə olmalıdır.

---

[51] Margaret Wertheim – "The Pearly Gates of Cyberspace: A History of Space from Dante to Internet", W.W.Norton and Company, NY, 2000, p,296

# PROTEAN[52]

# İNSANIN MEYDANA ÇIXMASI VƏ EPİKÜR DOKTRİNASI

[52] Protean – Yunan mifologiyasında "anlaşılması çətin dəniz Tanrısı" olaraq vurğulanan Proteusun adı ilə bağlıdır. Mifik olaraq Proteus suyun axıcı keyfiyyəti və dənizin daimi olaraq dəyişkən təbiəti ilə assosiasiya edilir. Proteus-dan qaynaqlanan "protean" sözü isə dəyişkənlik, elastiklik, müxtəlif formalar ala bilmə kimi konnotasiyalara sahibdir.

Qədim zamanlardan bəri, daha böyük orqanizm olaraq Dövlət ilə fərdi varlıq arasında analogiya aparılıb. Dövlətin tradisional (həm orqanik, həm də kompleks) konsepsiyası bütövlükdə insani varlığı fərqliləşdirən qabiliyyətlərin təbii iyerarxiyasını əks etdirirdi. Burada, sadəcə fiziki və korporeal element *spiritus* və xarakter tərəfindən idarə edilən həyat qüvvələrinə bağlı idi. Lakin, Stoisistlərin daxili suverenlik ifadəsi olaraq istifadə etdikləri *hegemonikon* adlandırılan spiritual və intellektual prinsip daha ali mövqeyə sahibdir. Bu perspektivdən, liberal demokratiya hər bir normal münasibətin inversiyaya uğradığı bir sistem olaraq yalnız reqressiv bir fenomen şəklində üzə çıxır. *Hegemonikon* və real mərkəz belə bir sistemdə mövcud deyil. Daha inferiyorun – insanların sadəcə maddi, iqtisadi, "sosial" və kvantitativ aspektinin nəzarətində olan bu ləğv edilə bilən psevdo-hakimiyyət yalnız bədəni ehtiyaclar üçün mövcud olan fərdi varlığın situasiyası ilə uzlaşır. Ona görə də, liberal demokratiyanın yüksəlişi, siyasi prizmadan müşahidə edilənə nisbətən daha ciddi bir şeydən xəbər verir. Modern demokratiya, öz qəbrini qazan bir cəmiyyətin yanlışı və nakam sevdasıdır. Daha böyük orqanizm olaraq Dövlət və daha kiçik orqanizm olaraq fərd arasında yuxarıda qeyd edilən uyğunluqlara əsaslanmaqla onu söyləyə bilərik ki, demokratik iqlim hətta ekzistensial baxımdan insan şəxsiyyəti üzərində reqressiv təsirə malikdir. İnsanın "azadlığı" və cəmiyyətin "demokratik tərəqqisi" bəzən zorakılıqla, ali suverenlik və yuxarıdan iyerarxik hakimiyyət prinsiplərini, eləcə də daxili forma, dürüstlük və bir xarakter anlayışlarının aradan qalxması ilə baş verdi. Nəticədə isə, *hegemonikon* anlayışının klassik denominasiyası ilə birbaşa bağlı olan mərkəzi spiritual-iyerarxik hakimiyyətin modern fərd daxilində yoxluğunu müşahidə edə bilirik. Bu sadəcə etik sferaya deyil, eləcə də ümumi davranış, fərdi psixologiya və insanın ekzistensial strukturu sahələrinə də aid edilməlidir. Bu ekzistensial şərtlər daxilində "protean insan" yaxud *L'homme evasif* – sivrişkən insan olaraq da adlandıra biləcəyimiz yeni, formasız və qeyri-stabil insani növ ortaya çıxdı. *Protean insan,* daxili intizamlılığa davam gətirməyən, özü ilə üzləşməkdən nifrət edən, hər hansı ciddi məsuliyyət götürməyə, qətiyyətlə müəyyən edilmiş davranışlar sisteminə riayət etməyə və ən əsası bir xarakter nümayiş etdirməyə qadir olmayan bir insan tipidir. Maraqlıdır ki, bu zəiflik

heç də hər zaman vicdansız eqosentrizmin nəticəsi deyildir. Əksər hallarda söylənilir ki, "əsrimizdə bir xarakter nümayiş etdirməyə insanın qüvvəsi kifayət etmir". Bəzi hallarda, insanlar özlərinə zərər verəcək – detrimental davranışlar icra edirlər. Bu, fərdi varlığın getdikcə parçalanmış növünün geniş yayılması və aşkar üstünlüyü deməkdir.

Daxili azadlıq insanın öz iradəsi, mühakimə və sağlam inancına uyğun şəkildə fəaliyyət göstərməsidir. Bu azadlıq özünü insanın nəyin doğru və nəyin yanlış olmasını mühakimə etmə və onun bu mühakiməsinə uyğun şəkildə davranması, həm də yaşamasına əngəl ola biləcək təsirləri aradan qaldırmaq qabiliyyətində təcəssüm etdirir. Daxili azadlıq fərdin eqosunun fikir və din kimi həyatın müxtəlif areallarına bölünən domeni olaraq deyil, idraki funksiya, düşüncə və qərar qəbul etmə xarakteristikası olaraq başa düşülməlidir. Daxili azadlıq özünü ən çox insanların preferensiyalarında (üstün tutulan seçim, tərcih) göstərir. İnsanlar birinci və ikincidərəcəli preferensiyalara sahib olmaqda unikal varlıqlardır. Birincidərəcəli preferensiyalar modern iqtisadiyyatın tanıdığı, bazar yerində insanların davranışları tərəfindən ortaya çıxan preferensiyalardır. İkincidərəcəli preferensiyalar isə özümüz haqqında sahib olduğumuz və daxili azadlığımızı icra etmək gücündən qaynaqlanan preferensiyalardır. Kəskin və gözlənilməz qərarlar birincidərəcəli preferensiyaların, daha bəsirətli və uzaqgörən mühakimələr isə ikincidərəcəli preferensiyaların nəticəsidir. Birincidərəcəli preferensiyalara uyğun şəkildə fəaliyyət fiziki hedonizm əldə etməyə çalışan insanların, ikincidərəcəli preferensiyalara uyğun fəaliyyət isə doğru həyat axtarışında olanların xarakterik cəhətidir. Modern *affluent* cəmiyyətində istehlak malları istehsalçılarının insanların birincidərəcəli preferensiyaları üzərində güclü təsiri var. Onlar daimi olaraq şirnikləndirmə və manipulyasiya metodları ilə birincidərəcli preferensiyalarımızın daha dərin ikincidərəcəli preferensiyalarımızı neytrallaşdırmasına və modern insanın psixi-ruhi zəifliyindən faydalanmaqla ani, keçici məmnuniyyət imkanları təmin etməyə çalışırlar. İnsanın birinci və ikincidərəcəli tərcihlərini tədqiq edən Devid Corc bildirir ki, yalnız heyvanlar davamlı şəkildə birincidərəcəli tərcihlərinə əsaslanmaqla hərəkət edirlər. Bir heyvan yemək istəyir və yeyir. Kovensional iqtisadiyyatın sahib olmaq istədiyi heyvanlardan fərqsiz insan-

lardır. Rasionallığın insanları digər canlılardan fərqləndirdiyinə inanan Kant üçün də ikincidərəcəli preferensiyaların mövcudluğu insanın insaniliyində mühüm amildir. Çünki bu preferensiyalar bizim ani və refleksiyasız impulslarımızdan deyil, azad iradəmizdən törəyir. Neoliberal iqtisadi nəzəriyyələrin ilkin aspirasiya olaraq irəli sürdükləri seçim azadlığının gerçək azadlıqla hər hansı bağlılığı yoxdur. Pişik altı müxtəlif pişik yeməyindən birisini seçə bilər lakin bu onu azad etmir. Bu sadəcə onun bir seçimi olduğu deməkdir. Mən yalnız öz-özümə nəzarət gücünə, azad iradəyə, əqli-ruhi sağlamlığa və öz tərcihlərimi seçməyin intellektual qabiliyyətinə sahib olduğum təqdirdə həqiqətən azadam. Ağıl "sakit arzuları" və "aramlı ehtirasları" da özündə ehtiva edir. Ehtiraslarımız və arzularımız dərin düşüncə və mühakimə edə bilmək qabiliyyətimizə üstün gəldiyi zaman "akrasia" (öz-özünə nəzarət çatışmazlığı) ortaya çıxır. Öz-özünü aldatma dərin mühakimənin, *akrasia* (iradə zəifliyi) isə azad iradə ilə düşündüyümüz kimi fəaliyyət göstərmə qətiyyətinin düşmənidir[53].

"Peşəkarlıq ləyaqətinin" tənəzzülü də dezinteqrasiyanın eyni səciyyəsini əks etdirir. Praktik sahədə bu ləyaqət nəcabət dərəcəsi ilə yanaşı, insanın əxlaq və vicdanının dəyərli ekspressiyasını təmsil edirdi. Əlindən gələni edərək, ağırbaşlı bir formada, öz incəsənətinə uyğun olaraq bir şeylər yaratmaq zövqü hətta saxtakarlıq və hiylədən belə çəkinməyən inferiyor maraqlar ilə əvəzləndi. Bu sadəcə kriminal qeyri-məsuliyyətlilik deyil, həmçinin bir dekadentizm, insanın daxili formasiyasının çöküşü, hətta ən təvazökar gildiyalarda belə mövcud olmuş şərəf anlayışının yox olması məsələsidir. Sənayeləşmə prosesində bu ali məziyyət proletarian "xarakter" və tred-yunionizm ilə əvəzləndi.

*L'homme evasif* fenomeni sadəcə əxlaqi sfera ilə məhdudlaşdırıla bilməz. Zəiflik, formasızlıq, qayğısız məsuliyyətsizlik, kazual ədalətsizlik həyatın gündəlik, trivial məsələləri kontekstində də özünü aşkar şəkildə nümayiş etdirir. Qeyri-punktuallıq nəticəsində, insanlar vəd verir, lakin onu yerinə yetirmirlər. Burada ən çox təsirlənən yaddaşdır: unutqanlıq və fikri konsentrasiya çətinliyi. Mütəxəssislər gənc nəslin çox məhdud yaddaşa sahib olduqlarını qeyd etsələr də, bu faktı izah etmək üçün son dərəcə natamam və bəzən də

[53] Clive Hamilton – "The Freedom Paradox: Towards a post-secular ethics", Allen and Unwin, Australia, 2008, p, 34

ekssentrik səbəblər göstərirlər. Real səbəb isə, hakim demokratik iqlimin dəyişkənliyinin insanların psixoloji formasiyasında təhrik etdiyi de-stabilizasiya ilə bağlıdır. Bu baxımdan, Avstriyalı filosof Otto Vayningerin etika, məntiq və yaddaş arasındakı münasibət üzərində müşahidələrinə nəzər yetirməklə bu fenomenin daha dərin implikasiyalarını dərk edə bilərik. O.Vayninger bildirir ki, insan şəxsiyyətinin bölünməzliyi, zamanın dağınıq axınına qarşı onun müqaviməti ilə birbaşa assosiasiya olan yaddaş etik və ontoloji dəyərə malikdir[54]. Fransız tarixçisi Alan Besanson da qeyd edir ki, yaddaşsız insan sadəcə (və mütləq şəkildə) yoğrulabilən plastik bir maddədir. Özündən arxaya diqqət yetirə, özü daxilində bir davamlılıq hiss edə və öz identikliyini qoruya bilməyən bu *insani* maddə hər an yenidən yaradılır[55]. Buna görə də, Buddizm də daxil olmaqla, klassik-tradisional ali düzənlərin asketik nizamlılıq prinsiplərində yaddaşın gücləndirilməsinə xüsusi önəm verilirdi.

İnsanın *protean* formasının ortaya çıxması, heç bir səbəb olmadan və əksər hallarda istəyərək yalan danışma tendensiyasını doğurdu. Hinduizmə məxsus Tantra mətnlərində qeyd olunur ki, qeyd olunan tendensiya spesifik olaraq "Kali Yuqa" əsrinin xarakterini bir göstəricisidir. Eyni zamanda həm təəccüb, həm də qəzəb doğuran *protean* insan "canının sıxılmasını" arzulamır. Kiçik bir diqqət ilə onu müşahidə edə bilərik ki, əksər insanların sosial münasibətləri çevrəsində bu növ nevrozis mövcuddur. Dünən dostca, "daxilən sükutverici" olaraq görülən insanları bugün tanımaq olmur. Parlamentar demokratiyaların xarakteri halına gələn korrupsiyaya bulaşmış fəzilətsiz siyasətçilər də məhz bu perspektivdən dəyərləndirilməlidir. Təsniflərinə və partiyalarına görə müxtəlif olsa da, *protean* insan daxilən hər zaman eynidir. "Sweet life" idealı ilə yaşayan "sərbəstləşmiş" gənc nəsil arasında, xüsusən də seksual sahədə bu bəsit aberrantlıq geniş yayılıb. "Sweet life" fenomeni də eyni səbəb ilə əlaqələndirilə bilər: daxili zəiflik və dayanıqsızlıq. Bu, intellektual və spiritual passivliyin bayağı formasında özünü axına qurban verməyin yaratdığı fəsaddır. Bütün zahiri qanunlara, riyakarlığa və yalanlara qarşı olaraq insanın öz varlığının daxili suverenliyi – *hegemonikon* ilə doldurmalı olduğu məkan

---

[54] Otto Weininger – "Sex and Character", William Heinemann, London, p, 88
[55] Alain Besançon – «La falsification du Bien», (Paris, Commentaire/Julliard, 1985), p. 183.

boşdur. Günü-gününə, axmaqca yaşayan insanlar şüurun nadir anlarında bezginlik və darıxma hiss edirlər.

Epikür doktrinası bir-birinə sıx bağlı olan iki hissədən ibarətdir – fizika və etika. Epikürə görə, Fizika etikaya giriş və başlanğıc deməkdir. Onun doktrinasının məqsədi insanda ölüm əndişəsinə son qoymaq, onu öz fiziki reallıqlarından daha aliliyə – transsendentallığa doğru yüksəltmək, eləcə də qəhrəman Olimpiya spirituallığının dekadensiya yaşadığı dövrə aid olan şiddətli istək, ümid etmə və yalvarış kimi alt-insani "patos"u[56] aradan qaldırmaqdan ibarətdir. Epikür fizikasının qayəsi insanı nizamsız və abstrakt xülyalardan qoparmaq, onda daxili sükut və realizm formalaşdırmaqla onu özünə qaytarmaqdır. Digər Stoisistlər kimi, Epikür üçün də daxili intizamlılıq üçün başlıca şərt *avtargiya* – insanın öz ruhunun hegemoniyası, onun impulziv və irrasional hərəkətlərdən, təəssüratların dolayılığından uzaqlaşmasıdır. Lakin, digər Stoisistlərin əksinə olaraq Epikür burada "həzz"dən bəhs edir. O bildirir ki, sarsılmaz həzz, intim xoşbəxtlik, sevinc və sükutverici aydınlıq yalnız öz-özünə hakim ola bilən insan ruhu üçün xarakterikdir. Nə şəhvət düşkünlüyü, nə də keçici və səthi xoşbəxtliyə vulqar meyillilik qarşısında bele bir ruha malik insan özünü itirə bilməz. Bu, Epikürün "neqativ həzzdən" fərqləndirərək bir telos olaraq irəli sürdüyü və hər növ təlaş, təşviş səbəbindən, bədəni və ruhi əziyyətdən azad olunduğu zaman reallaşdırılan "pozitiv həzzdir". Epikürə görə, "pozitiv həzzin" manifestasiyasına əngəl olmadığı müddətcə "neqativ həzz" sadəcə bir vasitədir. O əlavə edir ki, "pozitiv həzzi" idrak edə və onu öz həyatında reallaşdıra bilən hər kəs ən ağır əzablar qarşısında dik durmağı bacaran insanlardır.

"Epikürizm və Epikür etikası" haqqında kitablarında Robert Şarples və Ceyms Vorren bildirirlər ki, Epikür həzzləri kinetik və katastematik həzzlərə ayırır. Kinetik həzzlər fəaliyyət və dəyişkənlik nəticəsində əldə olunan həzzlərdir. Katastematik həzzə isə yalnız əzab və distressdən azad olmaqla nail oluna bilər. Bu növ həzz həm mental, həm də fiziki xarakterlidir. Fizi-

[56] Pathos – yunan dilində *pathea* sözündən gəlir. "Əzab çəkmə", "həyəcanlanma", "entuziazm və emosiyalara qapılma" mənasında işlədilir – *pathetikos*. Aristotel "Ritorika" adlı əsərində inandırmanın üç forması olaraq *etos* və *loqos* ilə birlikdə auditoriyada hisslər oyatma və duyğulandırma qabiliyyəti olaraq *pathos*-u da qeyd edir.

ki katastematik həzz fiziki agitasiyalardan (buna *aponia* da deyilir), mental katastematik həzz isə mental təlatümlərdən azad olunduğu zaman mümkündür. Epikürə görə, katastematik həzzlər kinetik həzzlərdən daha üstündür və xoşbəxtliyin ən ali formasını yaşayan insan həm *aponia*, həm də *ataraksia* halında olmalıdır[57].

Epikür eyni zamanda, Tanrıların dünya hadisələrinə ixtiyari müdaxilələrini rədd edir və bildirir ki, bu yalnız zəif insan ruhunun əsassız qorxusunun nəticəsidir. O, Tanrıları etik rolda, qədim Ellin-Olimpiya konsepsiyasının təcəssüm etdirdiyi və hər bir aqilin dərk etdiyi kimi, uzaqda, mükəmməl, coşğusuz essensiyalar olaraq qəbul edir. Epikürizmin ehtiva etdiyi essensial aspektlər məhz belədir. Epikür insanı mistisizmlərdən və sentimental effuziyalardan yayınmalı, müqəddəsliyin supra-rasional intuisiyasına malik olmalı, həyatını spiritual fəaliyyət normalarına və simvolları, *mos autem fas* ilə[58] əlaqələndirməli, özünəməxsus realizmə sahib olmalıdır. O, ölüm qorxusu olmayan, qaçış nədir bilməyən, həyatında immanent dəyəri olan şəxsdir. O, öz spiritual liderlərini və ilahiləşdirdiyi qəhrəmanları özünü Hadesin oyanışından qoruyacaq xilaskarlar olaraq dərk edir. Epikürizm ruhun səthilikdən azadlığını özündə əks etdirir. Fizika – dünyanın aydın və realist təsəvvürü, etika – "insanın özünü Olimpiyalılara bənzətməsi" ilə ruhunun sükutundan, *avtargiya*-dan, bəsirətlilikdən əldə etdiyi və hər zaman dəyişməz olaraq var olan xoşbəxtliyin və həyatın immanent nizamlılığıdır[59]. Metafizik və ya elmi olmaqla bütün biliyin ümdə qayəsi insanın irrasional əndişə və qorxulardan azad olaraq Epikürün vurğuladığı "ataraksia" halına nail olmasıdır. Vulqar hedonizm və materializm, formasızlıq, daimi təşviş və mistisizmlər içərisində qıvrılan modern insan üçün Epikürizm gerçək bir spiritual və intellektual panaseyadır.

---

[57] R.W.Sharples – "Stoics, Epicureans, and Sceptics: An Introduction to Hellenistic Philosophy", New York, NY: Routledge, 1996 pp. 91-92. James Warren – "Epicurus and Democritean Ethics: An Archaeology of Ataraxia", New York, NY: University of Cambridge, 2002 p, 4

[58] Latınca: *Mos* – ənənə və tərz, *Fas* – ilahi qanun və iradə deməkdir

[59] Julius Evola – "Recognitions: Studies on Men and Problems", (chapter "The twin face of Epicureanism), Arktos, London, 2019, Kindle edition.

# OLİMPİYA İDEALI VƏ TƏBİİ HÜQUQ

*"İnsan hüquqları yalnız hüquqların universallığı ehkamına inanmamaq hüququnu ehtiva etdiyi zaman universaldır"*

Culiano Ferrara

*"Summum ius, summa injuria"*

Sisero

Modernizm əsrinin fenomenləri haqqında aydın bir ideyaya sahib olmaq üçün ondan əvvəlki dünyanın – Tradisional dünyanın - ideallar və prinsiplərini öyrənməliyik. Bu həm sosial, həm də siyasi domen üçün keçərlidir. Modern insan bugün Qərbdə üstünlük qazanan miflər və qüvvələrin təsiri ilə necə bir degenerat səviyyəyə enildiyini çətinliklə başa düşür. İnsanlar bir çox strukturların və konsepsiyaların daxili dimensiyasını və dərin mənasını dərk edə bilmirlər. Çünki onlar hər bir aydın təsəvvür üçün ön şərt olan adekvat distansiya və istinad nöqtələrinə sahib deyillər. Kütlə fenomenləri olaraq Dövlət ideyasının dekadensiyası, demokratiyanın yüksəlişi, sosial-iqtisadi ideallar eləcə də millətçilik və anarxizm məhz bu kompleks daxilindədir. Tradisional mövqeyi ortaya qoymaq üçün başlamalı olduğumuz ümumi baxış "forma" və "maddə" arasındakı dualizmdən olmalıdır. Forma klassik olaraq *spiritus* dəyərinə sahib olmaqla patriarxal, *virilem,* solyar və Olimpiyan elementi ilə, maddə isə qadınsı, material və sadəcə vitalist elementlə bağlıdır. Dövlət "forma" ilə, xalq, demos və kütlələr isə "maddə" ilə uyğunluq təşkil edir[60]. Transsendental, iyerarxik düzən və prinsiplər məhz "Forma"nın təcəssümüdür. Geniş mənada, demokratiya yalnız sosial orqanizasiyanın bütün ali formalarının xarakterizasiyası olan bu iki prinsip arasındakı sintezisin parçalanması deyil, eyni zamanda ağırlıq mərkəzi kimi muxtariyyət və dominantlıq qazanan material prinsipin – xalq, kütlələr, cəmiyyət – formalaşması deməkdir. Modernizm əsrində Dövlətin yalnız kölgəsi mövcuddur. Daxili formasını itirən və demokratik rejimin nümayəndəli və administrativ strukturuna endirilən Dövlət klassik-tradisional dəyərindən məhrum edilib. Bu destruksiya prosesi təməl materializmin və sosial orqanizasiyanın modern formalarının "fiziki" xarakterinin mənşəyidir. Biz hər bir fəaliyyətə ali dəyər və mahiyyət verə biləcək təməl əsasların yoxluğu içindəyik. Çünki həyat (essensial olaraq) yalnız *həyatın fövqünə yüksəlməklə* mövcud ola bilər. Əgər bugün bir fərddən özünün eqotist maraqlarına deyil, digərlərinə xidmət etmək tələb edilirsə, bu sadəcə "cəmiyyət" və "kollektivlik" adlı modern abstraktsiyalar adına edilir. Materializm fərdi səviyyə-

[60] Julius Evola–"the Bow and the Club",(translated by Sergio Knipe, 2018, Arktos Media Ltd.,),p, 83

dən cəmiyyət və ya kollektivlik səviyyəsinə keçid zamanı yox olmur, əksinə məhz bu dəyişiklik ilə o öz varlığını daha da möhkəmləndirir. Burada artıq spesifik bir məqam, destruktiv modern ideologiyalar tarixində əhəmiyyətli rol oynayan "təbii hüquq" üzərində fokuslanmaq mühümdür. Bu ideyanın təməl əsası insan təbiətinin utopik və optimistik konsepsiyasıdır. Təbii hüquq nəzəriyyəsinə əsasən, ədalətli və ədalətsiz, qanuni və qanunsuz ilə bağlı olaraq insan təbiətində doğuşdan gələn müəyyən dəyişməz, universal prinsiplər mövcuddur. Bu prinsiplərin cəmi ümumilikdə əxlaq fenomeni kimi eyni xarakteristikaların daşıyıcısı olan təbii hüququn təməlini təşkil edir. Təbii hüquq dövlət tərəfindən yaradılan pozitiv hüququn sahib ola bilmədiyi hakimiyyət, dəyər və essensial qüvvəyə malikdir. Məhz buna səbəbə görə də, "təbii hüquq" əsasında Dövlət ideyasına qarşı gəlmək və onun hakimiyyətini silkələmək mütləq əhəmiyyət kəsb edirdi. Katolik kilsəsi də bu düşüncəni "insanın təbii hüquqları" adı ilə qəbul edərək onu polemikal məqsədlər – siyasi suverenlik prinsipinə qarşı istifadə etməyə başladı. Bu hüquqlar da öz modern versiyasında az və ya çox dərəcədə 1789-cu il Yakobinlərin "ölümsüz prinsipləri" ilə üst-üstə düşür. Kilsə dövlət qarşısında yüksək mövqeyə iddia etmək üçün tez-tez təbii hüququn vəkili və mühafizi olaraq fəaliyyət göstərir.

Əsrlər boyu davam edən ziddiyyətlərə rəğmən indiyə qədər heç kəs dəqiq və birmənalı şəkildə insan təbiətini – *naturalis ratio* və ya bu təbiət ilə uzlaşa biləcək bir şeyi qiymətləndirmək gücündə olan obyektiv kriteriyanı müəyyən edilə bilməyib. Essensial olaraq, insan həyatını təmin etməkdə vacib olan bəzi təməl prinsiplərə istinad edilib. Yanlış düşüncə məhz burada başlayır. Sosial birliklərin müxtəlif formaları mövcuddur və bir qrupun yanaşmaları yaxud dünyabaxışları digər qruplarınkı ilə üst-üstə düşmür. Bundan əlavə, ümumi formulu tərk etmək və təbii hüququ müəyyən etmək üçün edilən cəhdlərdə müəllifdən və dövrdən asılı olaraq bu və ya digər prinsip əlavə edilir yaxud rədd edilir. Məsələn, XVII-XVIII əsrlərin təbii hüquq nəzəriyyəçiləri Antik müəlliflər tərəfindən təbii hüquqa daxil edilən ideyalara məhəl qoymadılar. Klassik dünyada təbii hüquq quldarlıq

institutunu istisna etmirdi (Aristotel "Siyasət" adlı əsərində təbii quldarlığı müdafiə edir). Mübahisəedilməz fakt ondan ibarətdir ki, biz təbii hüquqdan danışarkən hər yerdə ümumilikdə insan təbiəti ilə deyil, yalnız *müəyyən* bir insan təbiəti ilə uyğunluq təşkil edə bilən ümumi bir denominatora, fərqli cəhətlərə sahib nukleusa rast gələ bilirik. "Cəmiyyət" məhz bu müəyyən denominator vasitəsilə özünəməxsus forma və mahiyyətini qazanır. Təbii hüquq qətiyyən hər yerdə və hər kəs üçün keçərli olan vahid bir hüquq deyil. O sadəcə bir növ hüquq, müəyyən bir tip insan yaxud müəyyən bir tip sivilizasiya tərəfindən inkişaf etdirilən spesifik hüquq konsepsiyasıdır. Təbii hüquq nəzəriyyəçilərinə görə, siyasi hüquqdan fərqli olaraq, bu növ hüquq özlüyündə bir normativ olmaqla və ya rasional varlıq olaraq insanın vicdanında kök salmaqla ilahi iradə ilə uyğunluq təşkil edir[61]. Lakin, bu sadəcə içiboş bir mif, modern cəmiyyət idealını özündə əks etdirən baxışı təsdiq və müdafiə etmək üçün qurulan süni bir illüziyadır. Müqəddəs olmasa da, təbii hüquqa şamil edilən etik xarakter zorakılıqdan qaynaqlandığı düşünüldüyü üçün pozitiv hüquqa şamil edilmir. Çünki, pozitiv siyasi hüquq institutları əsasən *magis violentiae qua leges* – hüquqi deyil, zorakılıq aktları olaraq nəzərə alınır. Reallıq ondan ibarətdir ki, bu yanaşma sekulyar və rasionalist mərhələyə daxil olan bir sivilizasiyanı əks etdirir. Primordial olaraq bütün hüquqlar *ius sacrum* – normativ hakimiyyəti supra-insani sferadan qaynaqlanan müqəddəs hüquq idi. Bu, Antik dövrün modern tarixçilərinin də qeyd etdiyi kimi, Dövlətlərin, şəhər-dövlətlərin və İmperiyaların müxtəlif siyasi konstitusiyaları üçün doğru idi. Lakin, involyusiya prosesi ilə təbii hüquq və pozitiv hüquq arasında ziddiyyət formalaşdırıldığı zaman insanların ağlında situasiya daha qarışıq hala gəldi. Çünki təbii hüquqa aid edilən etik və spiritual dəyər pozitiv hüquqa əsla şamil edilmədi. Onu da qeyd etməliyik ki, biz dəyərlərin paradoksal inversiyası ilə üz-üzəyik: naturalist, *more barbarorum* – barbarların adətlərinə uyğun, hər bir ali sivilizasiyanın təsirindən kənar yaşayanlar ilə Dövlət ideyası üzərində mərkəzləşmiş və struk-

[61] Kant özünün "kateqorik imperativində" qeyd edir ki, insan iradəsi vasitəsilə təbiətin universal qanunu olan maksimaya uyğun fəaliyyət göstərməlidir. Bu, onun fəlsəfəsinin mərkəzi əxlaq konseptini təşkil edir

turlaşmış iyerarxik düzən daxilində yaşayanlar arasındakı fərq onu göstərir ki, birincilər ikincilər üzərində üstünlüyə malikdir. Yəni, birincilər *naturalis ratio*-a – insanlığın nüvəsinə həkk edildiyi düşünülən *Allah qanununa* uyğun yaşayır, ikincilər isə "məcburiyyətdən doğan və insan tərəfindən təlqin edilən normalara tabe olur". Bu "məntiqi nəticə" Russonun irəli sürdüyü "bon sauvage" düşüncəsindən qaynaqlanır. Müəyyən bir cəmiyyət üçün nəzərdə tutulan təbii hüquq heç bir ali məziyyətə sahib deyil.

İndi, biz bütün təbii qanun nəzəriyyələrinin təkrarlanan xarakteristikasını - eqalitarianizmi araşdıra bilərik: eqalitarianizm. Təbii qanuna görə, bütün insanlar bərabərdir və bərabərlik konsepti sadəcə insani deyil, həmçinin digər bütün canlı varlıqlara da aid edilir. Təbii hüquq hər bir fərdin qeyri-maddi, doğuşdan gələn və fərq gözləməyən azadlığını elan edir. Təbii hüquq daha mötedil formalarında hər kəsin eyni hüquqlara malik olduğu ideyasından gələn mülkiyyətin kommunal konsepsiyası – *communis omnium possessio* – ilə birbaşa bağlıdır. Qədim, xüsusən də matriarxal cəmiyyətlərin təbii hüquq ideyasına əsasən, bir izdivacdan doğulan hər bir kəs atanın deyil, yalnız ananın övladı olaraq nəzərə alınırdı. Bu şərtlər daxilində uşağın paternallığını formalaşdırmaq qeyri-mümkün idi. Antik dövrün Modernist sivilizasiya tərəfindən tamamilə unudulan parlaq tədqiqatçısı Yakob İohan Baxofen bütün bu dünyagörüşün – mövcudiyyətin "fiziki-maddi" konsepsiyasının hansı ideyadan qaynaqlandığını ortaya çıxaran ilk antropoloq idi. Burada istinad nöqtəsi *Magna Mater* (Böyük Ana) və maternal tanrıçalar tərəfindən təcəssüm etdirilən, generasiya və təbii məhsuldarlıq kimi fiziki prinsiplərdən daha ali heç nə idrak edə bilməyən spesifik bir növ sivilizasiyadır. Yaradıcı Ana qarşısında bütün varlıqlar bərabərdir. Onun hüququ heç bir istisnailik və yaxud fərqlilik tanımır, onun sevgisi bütün məhdudiyyətlərdən uzaqdır, onun suverenliyi qarşısında "təbiətən" kollektiv şəkildə bütün varlıqlara məxsus olan bir şey üzərində heç bir fərd xüsusi hüquqa malik ola bilməz. "Ananın övladı olmaq məziyyəti" qeyri-maddi, müqəddəs və hər kəsə eyni bərabər hüquqlar deməkdir. Bərabərlik fiziki qeyri-maddilik ilə birlikdədir və ümumi həyatın fraternal-sosial idealı təbiətlə uyğunluq

içərisində müəyyən edilib. Matriarxata məxsus olan stonik (stonik – yeraltı dünyaya aid) xarakter burada tam şəkildə əks olunmasa da, onun daxili xarakterində, ruh və patosunda, təbii hüququn rasionalist səviyyədə tətbiq edilməsində matriarxal cəhətləri aydın şəkildə müşahidə edə bilərik. Jozef Kempbel qeyd edir ki, Romalı hüquqşünas Ulpianın pozitiv patriarxal hüququn sanksiyası olmadan uşaqların analarına aid edilməsinə bəraət qazandırması arxaik matriarxal baxışın (bu baxış həm də Etrusklar arasında çox güclü olub) təzahürü idi[62].

Lakin, Yunan-Roma hüququnun səciyyəvi aspektləri bu dünyabaxışına əsla endirilə bilməz. Çünki bu siviliziya üçün artıq *patria potetas* (atanın gücü), virilem, aristokratik, senatorial və konsulyar hakimiyyət, Dövlət konsepsiyası və İmperium teologiyası xarakterikdir. Leqal və sosial hakimiyyət *pater familias* – ailənin atasına məxsus idi[63]. Roman dünyası bu antitezis ilə vurğulanmalıdır. Bu dominant institutlar və qanunlar ilə birlikdə əsasən Pelasqlar olaraq təsvir edilən qədim Aralıq dənizi sivilizasiyasını əks etdirən xüsusi kultlara bağlı fərdi elementlər də var idi[64]. Roma İmperiyasının leqal təməlini təşkil edən prinsiplərə qayıtsaq bu cəmiyyətin ali təbəqəsinin dini konsept ilə formalaşdığını müşahidə edə bilərik. Bu, Roma öncəsi Avropa cəmiyyətlərinin stonik-dini xarakteri ilə diametral ziddiyyət təşkil edir. Yerin maternal tanrıçalarına qarşı olaraq, Roma Dövləti və onun qanunu qədim Hind-Avropa insanının *Günəş* və Aydın Səmanın paternal qüvvələrinə şamil etdiyi eyni suverenliyi əks etdirir. Alman tarixçisi Kristof Ştedinq də özünün “Avropa mədəniyyətinin imperiyası və xəstəliyi” adlı kitabında “siyasi dünyanın işıqlı – solyar Tanrılardan” bəhs edir. Səmavi və Olimpiyan Tanrıları dünyanı *cosmos* və *ordo* (ordo – iyerarxik düzən) olaraq

---

[62] Joseph Campbelle – “Myth, Religion and Mother Right”, Selected Writings of J.J.Bachofen, Princeton University Press, 1967

[63] Yunan mifologiyasına görə, Pleasqusun törəmələri olan Pelasqlar Egey dənizinin Roma İmperiyasının yaranmasından öncəki sakinləri idilər. Onlar Zevs və Hefaesteusdan daha çox Ana Tanrıçaya sitayiş edirdilər. Onların həyatının mərkəzində təbiət, həyat və məhsuldarlığın Böyük Ana kultu dayanırdı

[64] Julius Evola, – Julius Evola – “the Bow and the Club”, (translated by Sergio Knipe, 2018, Arktos Media Ltd.,), p, 91

idarə edirdilər. *Cosmos* – düzənli formada artikulyasiya edilmiş bütövlüyün ali Ellin konsepsiyası, Hind-Avropalıların *rta* dünyabaxışı, eləcə də Roman Dövlət və hüquq idealı ilə ekvivalentdir[65]. Buradakı etimoloji uyğunluq (rta, ritus) Roman patrisiat hüququnun əsasını təşkil edən stabil və spesifik ritualizmin ən dərin mənasını aşkara çıxarır. Təbii hüquqa zidd olaraq fərqliləşə bilən bu hüquq iyerarxiya prinsipini özündə ehtiva edirdi. Böyük Ana qarşısında fərdlərin bərabərliyi əvəzinə, burada tətbiq edilən insanın öz mənşəyinə, müəyyən bir xalq və ya klan (gens) daxilində malik olduğu mövqeyinə, res publica ilə münasibətlərinə, spesifik məşğuliyyətlərinə əsasən məziyyətlərin müxtəlif dərəcələrinin prinsipi idi. Plebeylər isə fərdin və yaxud onun aid olduğu bir klanın daha ağır çəkiyə malik ola bilmədiyi communitas ideyasının xüsusi qanununa itaət edirdilər. Mənşəyi etibarilə bu *communitas* intiqamçı Tanrçılar və İlahələrin himayəsi altında yaşayırdılar. Hətta daha qədim zamanlarda qədim Roma dövlətinin plebeylərinin sitayiş etdiyi əsasən bu növ İlahi qüvvələr idi. Leqal sahədəki qədim xarakteristikaya əsasən, plebeylər "Yerin uşaqları" idilər. Bu kultların özünəməxsus cəhətləri və onlarla assosiasiya edilən təbii qanun atmosferi arasındakı münasibət xüsusilə əhəmiyyətlidir. Romada da, bu Tanrıçalara həsr edilmiş mərasimlər pozitiv hüquq kriteriyasının müvəqqəti ləğvi ilə birlikdə ibtidai təbii hüquqda vurğulanan "dünyəvi ədalət" fazasına qayıdışı zəruriləşdirirdi. İştirakçılar klan, qan, cins və yaxud silk şərtləri daxilində hər hansı imtiyaz yaxud fərqliləşmənin mövcud olmadığı universal bərabərliyə qayıdışı qeyd edirdilər. Bu Tanrıça Analardan birinin – tanrıça Feroniya (Feronia – azad olunmuş qulların və cəmiyyətin aşağı siniflərinin Tanrıçası idi) *manumissio* mərasimi zamanı öz daş taxtı üzərində qullarla birlikdə *əyləşirdi*. Baxofen qeyd edir ki, Fides və Fidoniya da plebeyləri "qısqanc" pozitiv siyasi və patrisiat qanunlarından – *invida iura və malignae leges* maternal olaraq (bir ana kimi) himayə edən digər Tanrıçalar idi. Bu Tanrıçalar və mifik fiqurlar plebeylərin tələbləri və onlar üçün çox əziz olan Aventin kultları ilə assosi-

[65] Johann Jakob Bachofen,– «Il Matriarcato: Ricerca sulla Ginecocrazia del Mondo Antico nei suoi aspetti Religiosi e Giuridici", (Tradizione di Furio Jesi e Giulio Schiavoni, Giulio Einaudi editore, Torino, Italia, 1988), p, 293

asiya edilirdilər (Aventin – Romada Yeddi Təpədən biri, ictimai mülkiyyət olduğu üçün plebeylər öz kult mərasimləri zamanı bura toplanırdılar).

İmperiyanın sonrakı, dekadent zamanlarında "təbii hüquq" elementlərinin getdikcə xüsusi güc qazanması aşağı sosial strata tərəfindən qazanılan üstünlüklər ilə düz mütənasibdir. Xüsusi vacib məqam odur ki, biz müəyyən bir qanun məktəbinin baxışı ilə deyil, İmperiyanın universalist çöküşü dövründə yenidən güc qazanan bir sivilizasiyanın və etnosun spesifik qanununun tədqiqi ilə məşğuluq. Finikiya mənşəli Ulpian fiquru bu baxımdan çox əhəmiyyətlidir. İddia edilən təbii qanun Roma İmperiyasına qarşı Asiya-Pelasq Aralıq dənizi dünyası tərəfindən başladılan əks-hücumun bir epizodu olaraq dəyərləndirilməlidir. Bu əks-hücum İmperiyanın son dövrlərində ekzotik kultlar və adətlərin onun daxilində yayılmasını özündə ehtiva edirdi. Xristianlıq da, bütün insanların İsanın ruhunda bərabərliyi prinsipini müqəddəsləşdirməklə öz teologiyasında bu kursu davam etdirdi.

Təbii hüquq prinsipləri bütün cəmiyyətlərin ekzistensiyası üçün deyil, yalnız müəyyən bir tip cəmiyyəti müqəddəsləşdirmək üçün istifadə edilən vazkeçilməz normalardır. Modern şərtlər daxilində, onlar "siyasi etikaya" deyil, "sosial etikaya" uyğun gəlir. Lakin, insanın daxili imperativini təşkil edən azadlıq, bərabərlik və ya qardaşlıqdan deyil, qeyri-bərabərlik, fərqliləşmə və *suum cuique* ("hər kəsəs özününkünü ver") prinsipindən ibarətdir. Bu klassik prinsipə əsasən, hər kəs öz təbiəti və məziyyətləri etibarilə özününkünə malik olmalıdır. "Suum cuique" konsepti, Siseronun "De Rerum Natura", Platonun "Respublika" və Aristotelin "Nikomax etikası" adlı əsərlərində xüsusilə vurğulanır. Aristotelin qeyd etdiyi distributiv ədalətə görə, "bərabər olan bərabərlərə, qeyri-bərabər olan qeyri-bərabərlərə verilməlidir" prinsipinə əsaslı ədalət, fraternal-kommunitarian və naturalist deyil, aristokratik şərəf və qəhrəmanlıq doktrinalarına bağlı iyerarxik düzəndir. Modernizm əsrində təbii hüquq real xarizmadan məhrum olan formasız hakimiyyət tərəfindən təlqin olunan "sosial məcəlləni" özündə əks etdirir. Başqa bir sözlə, adıçəkilən qanun administrativ "dövlətin" rutin fəaliyyətləri vasitəsilə burjua cəmiyyətini tənzimləyən bir növ ümumi qanuna transformasiya edi-

lib. "Qanunun idarəsinə əsaslanan Dövlət" üçün bu qanun fetişləşdirilib və ona müəyyən sosial-siyasi situasiyanın kristallaşması yaxud müəyyən tarixi insan qrupuna məxsus bir anlayış olaraq deyil, sanki Səmadan enmişcəsinə yanaşılaraq sarsılmaz xarakter və mütləq keçərlilik verilir. Bütün bunların hamısı yan-məhsullar və sapmadır. "Təbii hüququn" belə geniş vüsətlə yayılmasının Dövlətin siyasi və etik ideyasına qarşı olaraq demokratiya, sosial həyat ideologiyası və Xristianlıq kontekstində təşviq edildiyi inkaredilməz faktdır. Bu da, özünəməxsus daxili qanuna malik insanın reqressiyası, öz simvolları ilə birlikdə ali insanın tənəzzülü deməkdir. Tradisional dünyanın böhranı "İlahi hüquq" ilə idarə edən Avropanın sivilizasiyasının sülalə imperiyalarının hər zaman qarşı gəldiyi matriarxal və naturalist substratanın yenidən meydana çıxmasına yol açdı. "Formadan" ayrılan "Maddə" suverenləşdi. Bu inversiya demokratiya, xalqların kütləleşməsi və homogenləşməsi daxilində müxtəlif formalar aldı. Siyasət və insani bağların idarəedici prinsipləri artıq paternal və spiritual prinsiplər deyil, essensial olaraq naturalist substansiyaya, kəmiyyət dünyasına və tərəqqi "mifləri" tərəfindən təşviq edilən kollektiv hisslərin irrasionallığına bağlı "normalar"-dır. Kristof Ştedinq qeyd edir ki, demokratiyanı tarixinin zirvəsi hesab etməklə spiritual olaraq feminen və "matriarxal" təbiət "xalq" və "cəmiyyət" anlayışlarının təməlini təşkil edir.

Keçən əsrin 70-ci illərinin sonunda qloballaşmanın ikinci dalğasının başlanması ilə fransız filosofu Marsel Qoşe, insan hüquqlarının müdafiəsinin bir transmutasiya siyasətinə məruz qaldığını müşahidə edirdi. Bu metamorfozis siyasətdən dinə qədər bugünə kimi davam edib. Alen de Benua vurğulayır ki, insan hüquqlarını tənqid etmək bir vaxt Allahın mövcudluğuna şübhə etmək kimi uyğunsuz, həqarətedici və sarsıcıdır.

Antik dövr Avropası fundamental hüquqlar ideyasını rədd edirdi. Nə Yunanlar, nə də Romalılar insan hüquqları adlandırılan bir şeyin olduğuna inanırdılar. Norbert Elias qeyd edir ki, Antik dövrdə belə bir anlayışın heç bir ekvialenti olmayıb[66]. İnsan hüquqlarının mümkün olması üçün fərd

[66] Norbert Elias – "The Society of Individuals" (Oxford: Basil Blackwell, 1991)

anlayışı kəşf olunmalı idi. Alen de Benua fərd ideyasının doğuşunda Xristianlığın oynadığı mühüm rolu qeyd edir. Ancaq, bu o demək deyil ki, Xristianlıqdan əvvəl fərdlər mövcud olmayıb (belə düşünmək absurd olardı). İnsan hüquqlarının doğuşunun ön şərti kimi fərd kateqoriyasının özünü ortaya qoyması üçün hər bir insani varlığa yeganə dəyər və onu Allah ilə əlaqələndirəcək ruh vermək vacib idi. Fərd anlayışının doğuşundan sonra subyektlər baxımından, subyektlərdən sonra subyektiv hüquqlar baxımından, subyektiv hüquqlar anlayışından sonra isə insan hüquqları perspektivindən düşünmək mümkün oldu. Əlbəttə ki, qətiyyən linear proqress olmayan bu inkişaf Avqustin Avreliusdan C.Lok və İ.Kanta qədər uzanan bir mehvərdir. Məhz bu proqress XVI əsrdən bugünə qədər əsas nümayəndələrini Hüqo Qrosius, Samuel fon Pufendorf, Con Lok və Kristian Volff-da tapan modern təbii hüququn inkişafına əvəzsiz töhfə verməklə yanaşı, həm Amerikanın Qurucu Atalarının, həm də Fransız İnqilabçılarının düşüncəsi üzərində ciddi təsirə malik olub. İnsanın fərd olaraq düşünülməsini mümkün edən antropoloji inqilab inkarolunmaz subyektiv hüquqlara malik fərdlərin qanun qarşısında bərabər olduğunu təlqin edən hüquqi inqilab ilə bərabər irəliləyib. İnsanlar arasındakı fərqlər təsadüfi, ikincidərəcəli, sosial və ümumiyyətlə ədalətsizcə olaraq qavranılmağa başlandı. Rene Jirar qeyd edir ki, qarşılıqlı müxtəliflik deyil, insanlar arasında konfliktin əsas səbəbi yaratdığı mimetik rəqabət ilə bərabərlikdir. Fransız sosio-antropoloqları modernizmi formalaşdıran üçlü inqilabı belə izah edirlər: iradə anlayışı düzən anlayışı ilə əvəzlənir, fərd hər şeyin mərkəzinə doğru hərəkət edir və *hüquq* onun attributu olur, ən sonda isə essensial olaraq əxlaqi xarakterə malik olan hüquq ədalətlə identifikasiya olunur. Bu üçqatlı inqilab açıq bir şəkildə insan hüquqlarının əbədi olmaqdan uzaq olduğunu, eləcə də dünyanı və insanın dünyada yerini təmsil edən bir sistem kimi onun universallığının bariz bir formada bir ideologiya ifadəsi olduğunu ortaya qoyur. Modern formasında subyektlər antropologiyası yeni bir kəşfdir. O, kombinasiyalarının fəaliyyətlərimizi standartlaşdırdığı bir neçə konstitutiv elementlərə endirilən fərdin abstrakt konsepsiyasına əsaslanır. İnsan hüquqları özünün tarixiliyi perspektivindən

deyil (çünki bu nisbiləşdirməklə onun hakimiyyətini zəiflədə bilərdi), öz təməlinin fəlsəfi narrativi prizmasından təqdim olunur. Onun köklərinin tarixi sualını təməlinin fəlsəfi sualından ayırmaq çox böyük əhəmiyyətə malikdir.

İnsan hüquqlarının təməlində duran fikirlər sosial kontrakt nəzəriyyələrindən başlayaraq formulə edilib. Modern təbii hüquq məktəbinin pionerlərindən olan Hüqo Grosiusun 1625-ci ildə çap edilən "Müharibə və Sülh hüquqları" adlı əsəri Maarifçilik dövrünə qədər öz vacibiyyətini qoruyub saxladı. Sosial kontrakt nəzəriyyələri əhəmiyyətli dərəcədə bir-birindən fərqlənsələr də, onlar ümumilikdə aşağıdakı kimi xarakterizə oluna biləcək düşüncə xəttini izləyirlər: azad fərdlər təbii halda mövcuddurlar. Öz azadlığı və mülkiyyətini qorumaq üçün onlar fundamental hüquqlarının təhlükəsizliyini təmin edə biləcək ümumi hakimiyyətə ehtiyacı dərk etdilər. Dövlət, bir assosiasiya formalaşdırmaq üçün yenidən qruplaşan azad fərdlər arasındakı razılaşmadır. Onlar üçün qanun kimi xidmət edən siyasi konstitusiya əslində onları bir yerə toplayan kontraktdır. İnsan , təbii halında *Homo Oeconomicus*, azad bir fərd və öz mənfəətlərini müdafiə etməkdə maraqlı olan sahibkardır. Rasional planlaşdırma vasitəsi ilə o anlayır ki, mənfəətlərinin müdafiəsi üçün dövlətin yaradılması zəruridir. Fərdlər essensial olaraq rasional olduqları üçün, kollektiv seçim yalnız kontrakta gətirib çıxara bilər. Beynəlxalq cəmiyyətin yaradılmasına bəraət qazandırmaq üçün eyni məntiq dövlətlər səviyyəsində tətbiq olunur. XVII əsrin fəlsəfi əsərlərindən başlayan bu məntiqi mühakimə istiqamətinin artıq keçərsiz olduğunu söyləmək absurd olardı. Çünki o hələ də ən təkmilləşmiş çağdaş nəzəriyyələrin özəyini təşkil edir. Sosial kontrakt nəzəriyyələrinin daha da detallara ayrılmış yeni formulundan başqa heç nə olmayan Con Rovls-un "Ədalət Nəzəriyyəsi" adlı kitabı XX əsr siyasi fəlsəfəsinin şah əsəri olaraq görülür. F.Fukuyamanın "Tarixin sonu" yaxud James Rosenau-un *qlobal hökumət* ideyaları də eyni fərziyyələrə əsaslanır. Sosial kontrakt nəzəriyyəsi siyasi fəlsəfənin tarixinə məxsus qədim nəzəriyyə deyil, beynəlxalq hüquq nəzəriyyələrinin təməli olaraq xidmət edən, daimi

olaraq yenilənən və ekspansiya edən Qərb məntiqidir[67].

İnsan hüquqlarının universallığı bazar iqtisadiyyatı və kütləvi istehlakı izləyən sekulyarlaşmış və fərdiyyətçi cəmiyyətlərin universallığıdır. Bütövlükdə insanlığa bir model olaraq təklif edilən məhz bu universallıqdır. İnsan hüquqları üzərində bütün əcnəbi deklarasiyalar, xartiyalar və konvesiyalar spesifik etno-kultural və siyasi birliklər tərəfindən fundamental hüquqlara doğru spontan hərəkat deyil, bir natamam akkulturasiya prosesinin və insan vicdanının kolonizasiyasının nəticəsidir. İnsan hüquqlarına münasibətdə "Ləyaqət" ideyasının da irəli sürülməsi substansialist dönüşə səbəb oldu. İnsan hüquqları sadəcə subyektiv deyil, substansialdır və o deməkdir ki, insanın essensiyasını təqdim etdiyi üçün insan hüquqları nə fərdlərin, nə də xalqların vaz keçə biləcəyi hüquqlardır.

Avropanın dünyaya gətirdiyi və əsas olaraq onu xarakterizə edən nədir sualına ən yaxşı cavab bu olardı: obyektivlik anlayışı. Hər şey məhz bu anlayışdan ortaya çıxır: fərd və fərdin azadlığı ideyası, xüsusi maraqlardan fərqləndirilən ümumi xeyir ideyası, bərabərlik üçün ədalət ideyası, elm etikası və empirik *data*-ya hörmət ideyası, inancdan sərbəst fəlsəfi düşüncə, dünyanı düşünmək və onu öz həqiqətləri tərəfindən sorğu-sual etmək azadlığı ideyası, qadağa ruhu və özünü tənqidin mümkünlüyü, dialoq qabiliyyəti və hətta həqiqət anlayışı. Universalizm obyektivliyin tənəzzülüdür. O, vicdanı insani varlıqdan deduksiya etmək əvəzinə, insani varlığı öz vicdan mühakiməsindən deduksiya edir. Xeyir anlayışını mənim üçün yaxud bizim üçün xeyir olana, həqiqət anlayışını isə birisinin öz vicdanının yaxud şəxsinin mühakiməsinə buraxır. Avropa ənənəsi hər zaman insanın öz subyektivliyinə qarşı gəlmək vacibiyyətini təsdiq edib. M.Haydegger bildirir ki, modernizmin bütöv tarixi subyektivliyin hökmran metafizikasıdır. Səbəb olduğu relativizm ilə birlikdə subyektivlik ədalət və ümumi xeyir anlayışının aradan qalxmasında həlledici rol oynadı[68].

İnsan hüquqları ideologiyasının yol verdiyi iki yanlışlıq ondan ibarətdir

---

[67] Alain de Benoist – "Beyond Human Rights", Arktos Media Ltd., 2011, London, 14

[68] Alain de Benoist – "Beyond Human Rights", Arktos Media Ltd., 2011, London, p, 21

ki, o, ənənələr və kontekstlərə məhəl qoymadan hər yerə özünü təlqin etməyi arzuladıqca universalist, hüquqları tək bir fərdin subyektiv attributları olaraq müəyyən etdikcə subyektivistdir. 2002-ci ildə Marsel Qoşe yazırdı ki, insan hüquqlarının taxta oturuşu son iyirmi ilin başlıca siyasi və ideoloji faktıdır. O iddia edir ki, bu hüquqlar artıq iştirakçısı olduğumuz hər şeyin "ideoloji ağırlıq mərkəzinə" çevrilib[69]. İnsan hüquqları hegemon bir tərzdə əvvəllər ənənə, millət, inqilab anlayışları prizmasından artikulyasiya edilən bütün siyasi və sosial diskursları əvəzləmək, eləcə də istiqamətini itirmiş bir dünyanın kompassı olmaq və bu dünyanı minimal əxlaq ilə təmin etmək üzrədir. Koffi Annan, insan hüquqlarının "bütün cəmiyyətlərin təməli olduğunu", Jan Daniel isə "həqiqi dünya hökuməti konsepsiyasını ehtiva etdiyini" bəyan edirdilər. Yəhudi əsilli Cənubi Afrikalı yazar Nadine Qordimer, insan hüquqlarının artıq "insanlıq kredosu" olaraq müəyyən edilə bildiyini, Elie Vizel isə, onun "dünyanın sekulyar dini" halına gəldiyini yazırdı. Reji Debra isə, insan hüquqlarının "sivil dinlərimizin sonuncusu" və "ruhsuz dünyanın ruhu" olduğunu qeyd edirdi. Bugün, insan hüquqları "dininin" möminləri özlərini bu prinsiplərin qlobal təlqini missiyası ilə yükləyərək "imansız" və vicdansızları insan hüquqları kredosuna konversiya etmək vəzifəsinə sahib olduqlarını düşünürlər. Nəzəri olaraq toleranslıq prinsipi üzərində qurulsa da, insan hüquqları ideologiyası özünü mütləq inkarın və ifrat dözümsüzlüyün təcəssümü olaraq nümayiş etdirir. Bütün dünya xalqları üzərinə əxlaq norması təlqin etməyə çalışan bu ideologiya Qərbə *good conscience* verməklə bu modeli rədd edənləri "barbarlar" olaraq vəsifləndirməyə icazə verir. Bazarın ekspansiyası ilə birləşərək insan hüquqları kredosu qloballaşmanın ideoloji zirehini təşkil edir. Bu ideologiya hər şeydən əvvəl hegemonluq alətidir və bu şəkildə də xarakterizə olunmalıdır. Karl Şmitt vurğulayır ki, "insanlıq" konsepti imperialist ekspansiya üçün xüsusilə faydalı alətdir və öz etik-humanitar forması ilə bu konsept eyni zamanda iqtisadi imperializm vasitəsidir[70].

Azadliq kardinal fəzilətdir. O, həqiqətin dərin essensiyasıdır. Ona görə

[69] Marcel Gauchet – "La démocratie contre elle- même », (Paris, Gallimard, 2002), p, 326
[70] Karl Schmitt – "The concept of Political", Chicago University Press, 2007, p, 54

də, bu fəzilət universalizm və subyektivlikdən ayrılmalıdır. İnsan hüquqları, insanların özlərinin obyekt olduğu, sosial münasibətlərin kommersializasiyalaşmasının yeni yadlaşma fenomenini yaratdığı yerdə - sürətlə dehumanizasiya olan cəmiyyətdə güc yolu ilə elan edilir. İnsanlara hörmət və həmrəylik göstərilməsi üçün bir çox yol vardır. Azadlıqlar məsələsi qanun yaxud əxlaq perspektivindən həll edilə bilməz. Bu hər şeydən əvvəl siyasi məsələdir və siyasi olaraq həll olunmalıdır.

Klassik təbii hüquq konseptində nə universalizmə, nə subyektivizmə, nə də ki kontraktualizmə yer var. sosial həyatdan bütünlüklə kənar bir şəxsin attributu ola biləcək subyektiv hüquq bu konsept üçün düşünülməz idi. Təcrid edilmiş fərd ilə heç bir bağlılığı olmayan klassik təbii hüquqlar üçün ümumi insan anlayışı boş bir kateqoriya olaraq qalırdı. Jan Piyer Vernan qeyd edir ki, bizim tərəfimizdən etirazsız qəbul edilən "universal və inkarolunmaz hüquqların daşıyıcısı" olan tək bir fərd ideyası Yunanlarda qətiyyən mövcud deyildi. Lakin, bu onlara orqanik demokratiyanı kəşf etməyə və azadlıq anlayışını şərəfləndirməyə əngəl olmadı[71].

Birinci böyük parçalanma Xristianlıq ilə başladı. İnsanı özlüyündə bir dəyər olaraq fərz edən bu din hər bir insani varlığın özünəməxsus dəyərini elan edirdi. Özünü birbaşa olaraq Allah ilə əlaqələndirə biləcək bir ruha sahib olduqda insan mütləq dəyərin daşıyıcısına çevrildi. Bu dəyər nə onun şəxsi keyfiyyətləri, nə də ki xüsusi kollektiv qrupa məxsusluğu ilə qarışdırıla bilməzdi. Azadlığı tamamilə fərdiləşdirən Xristianlıq, onu bir şəxsin əxlaq və ağıl ilə seçim bacarığına transformasiya etdi. Bu antropoloji innovasiyalar ilə, Xristianlıq insanın mənşəyi və onun dünyəvi mövcudiyyəti arasında dərin bir çat yaratdı. İnsanlar arasında münasibətlər əlbəttə ki həmişə mühümdür, amma bundan sonra onlar ikincidərəcəli rola malik olmalı idilər. Çünki, insanların ümumi kollektiv həyatı onların varlığı ilə identifikasiya edilə bilməzdi. Məhz buna görə də, Hegel bildirir ki, Xristianlığın gəlişi subyektivizm doğuşu ilə üst-üstə düşür. "Bir siyasi orqanizmin parçası olmayan Xristian bir totallıq, sonsuzluq və özlüyündə bir dəyərdir" – deyə Mişel Vil-

[71] Le monde, l'entretien avec Jean Pierre Vernan, 8 june, 1993, p, 2

le qeyd edir. Müqəddəs Avqustin ənənənəsinə görə, aliliyə yüksəliş daxilə qayıdışdan keçir. "Kənara getmə, özünə qayıt, həqiqət insanın daxilindədir". Bununla da, həqiqətin lokusu olaraq *daxili vicdan* dünyanı əvəz edir. Məhz bu şəkildə Qərb düşüncəsinə daxil edilən refleksivliyə meyillilik daha sonralar saf subyektivliyə transformasiya olundu. Avqustinin əsasını qoyduğu *daxililik* məsələsini yeniləyən Dekart öz "cogito"sunda əxlaqın mənbələrini yerləşdirməklə onu yeni istiqamətə yönləndirdi. Özəlləşmə, özəl sahənin təşviqi vicdanın təşviqi ilə başlayır. Tək bir Allaha inanc heç bir fərqliləşmə olmadan bütün insanları bu Allahın bərabər uşaqları olaraq təqdim etməyə icazə verir. Eyni şəkildə insanlıq da əxlaqi əhəmiyyət qazanmağa başlayır. Bəşəriyyətin əxlaqi birliyini elan edən Xristianlığın rolu inkarolunmazdır. Olivie Monjen vurğulayır ki, "insani birliyə məxsusluğun təbii hüququnun təməlini təşkil edən eqalitarianizm Yəhudi-Xristian kontekstindən, Evangelikal dəyərlərdən ayrıla bilməz". İnsanların Allah qarşısında bərabərliyi və İsanın ruhunda universal qardaşlığını elan edən Kilsə həmin insanlığın sosial orqanizasiyası barəsində heç nə söyləmir. Subyektiv qanun ilə fərd bəşəriyyətin mərkəzi və mənşəyinə çevrilir. Françisko de Vitoria qeyd edir ki, xalqın hüququ təbii ağılın digər xalqlar arasında yaratdığı hüquqdur. Bu təkamül bizə klassik təbii hüquq ilə modern təbii hüquq arasındakı fundamental fərqi başa düşməyə imkan verir. Kosmoloji naturalizm kimi də dərk oluna bilən klassik təbii qanun obyektiv perspektiv yaradan essensial bir prinsip idi. Lakin, modern təbii qanun bütövlükdə yalnız subeyktdən deduksiya edilən subyektiv qanundur. Onun açıqca ifadə etdiyi və insanın rasional təbiətindən deduksiya olunan bu prinsiplərə uyğun şəkildə insan bir cəmiyyətin mövcudluğundan kənar şəkildə müstəqil olaraq yaşaya bilər.

İnsan hüquqları nəzəriyyəsi, universal bir nəzəriyyə olaraq bütün zaman və məkanlar üçün keçərli olan əxlaqi konsept kimi dərk olunur. Hər bir fərdə məxsus olduğu iddia edilən bu universallıq özlüyündə bütün empirik reallığa tətbiq oluna bilən standart olaraq düşünülür. Bu baxımdan da, hüquqlar universaldır demək, hüquqlar mütləq şəkildə doğrudur deməyin başqa bir formasıdır. Hər kəs bilir ki, insan hüquqları ideologiyası Maarifçilik düşüncəsi-

nin bir məhsuludur və Qərb modernizminin spesifik kontekstinə məxsusdur. Universallıq anlayışı özündə bir neçə problemlər yaradır. Hüquqların universallığından danışan bir kəs hansı növ universallıqdan bəhs etməyi arzulayır? Coğrafi, fəlsəfi yoxsa əxlaqi nizamın universallığından? Bütün universalizmlər müxtəlifliklərin inkarına və təməlindən dağıdılmasına meyillənir. Kanonikal quruluşuna görə hüquqlar nəzəriyyəsinin özü də kultural müxtəlifliyi tanımağı rədd edir. Bu iki səbəbə görədir: bir tərəfdən fundamental fərdiyyətçiliyi və hüquqlarını elan etdiyi subyektin yüksək dərəcədə abstrakt xarakteri, digər tərəfdən isə, onun Qərb modernist mədəniyyəti və ya bu mədəniyyətin köklü ənənələri ilə tarixi bağlılığıdır. Fransa inqilabından bu yana insan hüquqları diskursu siyasi-dini sistemlərin, kultural dəyərlərin "pluriversum"unda ifadə edilən insani müxtəlifliyi əsla diqqətə almır. Bu diskurs onların ləğvinəmi köklənib? O, müxtəlifliklərlə uzlaşa bilirmi yoxsa ancaq onların yox edilməsinəmi çalışır? İnsan hüquqları ideologiyasını təşkil edən konseptlər tamamilə universal konseptlərdir. Əgər onların universallığından imtina edilsə, bu bütöv sistemin məhvi anlamına gələr. İnsan hüquqları tam şəkildə bir Qərb anlayışıdırsa, deməli onun planetar səviyyədə universallığı açıqca kənardan təlqini, hegemonluq tərzi olaraq kolonial sindromun davamını nümayiş etdirir. Orta Əsrlərə qədər, heç bir Avropa dilində şəxsin subyektiv attributu olaraq *bir* hüququ ifadə edən terminin varlığı düşünülə bilməzdi. Başqa sözlə, yalnız insanlıq fəzilətlərinə görə insanlara məxsus olduğu güman edilən hüquqlar anlayışı qətiyyən mövcud deyildi. Şotland filosofu Alesdeyir Makintayr, vurğulayır ki, məhz bu fakt insan hüquqlarının reallığına şübhə etməyə səbəb verir[72]. Hüquq anlayışının dərki dünya mədəniyyətləri perspektivindən qətiyyən universal deyil: Hind dili bu sözü ifadə etmək üçün *yukita* və *ucita* sözlərinin birliyindən, *nyayata* (ədalətli) yaxud *dharma* təbirlərindən istifadə edilir. Çin dilində hüquq sözü iki digər sözün – *quan li* (hakimiyyət və maraq) birliyindən törəyir. Hüquq sözünün ərəbcəyə tərcüməsi isə *haqq* – hər şeydən əvvəl "həqiqət" deməkdir.

---

[72] Alasdair MacIntyre – "After Virtue: A Study in Moral Theory", (Notre Dame: University of Notre Dame Press, 1981), pp. 69-70

Eyni zamanda, insan hüquqları ideologiyası epoxalar və məkandan müstəqil olmaqla yalnız ağıl qanunları ilə tanına bilən başqa bir universal insan təbiətinin mövcudluğunu bəyan edir. Bununla o, üçqatlı separasiyasını ortaya çıxarır: insan və digər canlı varlıqlar arasında (insan təbii hüquqların yeganə sahibidir), insan və cəmiyyət arasında (insani varlıq fundamental olaraq fərddir və sosial fakt onun təbiətinə uyğun deyil), insan və kosmik bütövlük arasında (insan təbiəti obyektlərin ümumi düzəni qarşısında məsuliyyətli deyil). Bu üçqatlı separasiya insan təbiətinin mövcudluğunu qəbul edən qeyri-Qərb mədəniyyətlərinin əksəriyyətində mövcud deyil. Bu mədəniyyətlərin çoxunda, fərd sosiallığı olmayan sadə bir varlıq yaxud onu sosio-kultural kollektivə bağlayan dəyərlərdən qopmuş bir monad deyil. O, bütün bəşəriyyətə və yaşayan varlıqların birliyinə bağlı bir varlıqdır. Düzən, ədalət və harmoniya anlayışları ondan deyil, bir qrupdan, ənənədən, sosial münasibətlərdən yaxud reallığın totallığından doğur. İnsani varlığı öz-özünə kifayət edən bir atom olaraq düşünməyi rədd edən bu fundamental olaraq holist kulturalarda özlüyündə fərdin azadlığı heç bir məna kəsb etmir. Subyektiv hüquqlar anlayışının mövcud olmadığı bu mədəniyyətlərdə qarşılıqlılıq və qarşılıqlı məsuliyyət anlayışları hökmrandır. Fərd öz hüquqlarına bəraət qazandırmamalıdır, əksinə dünyada və hər şeydən əvvəl mənsub olduğu cəmiyyətdə öz təbiətinin və varlığının mükəmməlliyinin realizasiyasına nail olmaq üçün ən uyğun şərtləri tapmaq naminə daima çalışmalıdır. Uzaq Şərq düşüncəsi hər şeydən əvvəl vəzifələr və öhdəliklər dilində ifadə olunur. Çin düşüncəsinin əsas əxlaqi anlayışı birisinin digərləri üzərində olan vəzifələridir. Bu bir-birinə qarşı qoyulan hüquqlar düşüncəsi deyil, çünki məntiqi olaraq vəzifələr dünyası hüquqlar dünyasından öndədir. Təbiət və varlıqlar arasında ahəngi biçimləndirən Konfusian ənənəsinə görə, fərd məxsus olduğu sosio-tarixi və kultural birlikdən daha üstün olan hüquqlara sahib ola bilməz. İnsanlar vəzifələr və qarşılıqlı öhdəliklər vasitəsi ilə bir-birinə bağlıdır. Vəzifələr dünyası hüquqlar dünyasından qat-qat daha genişdir. Vəzifə və hüquq arasında nəzəri olaraq bir uyğunluq var olsa da, hər bir vəzifə üçün münasib bir hüququn var olduğunu söyləmək çox yanlışdır. Çünki, bizim əvəzində heç nə gözləmədiyimiz insanlara qarşı və bizə heç nə borclu

olmayan təbiət və heyvanlara qarşı öhdəlik və vəzifələrimiz vardır. Qərb cəmiyyətlərində *communitas*-ın qürubunun ortaya çıxardığı patoloji nəticələrə ilk diqqət çəkən Emil Dürkheym oldu. Fransız sosioloqunun ən təsirli konsepti olan "anomiya" insanları bir-birinə bağlayan gücün (kollektiv vicdan və ya qrup ağılı) zəifləməsinin sosial dezinteqrasiya halı olaraq təsvir edir. Dürkheyimə görə. kollektiv vicdanın zəifləməsi nəzarətsiz və aqressiv fərdiyyətçiliyin yüksəlişi ilə dərin şəkildə bağlıdır. Dürkheyimin anti-humanist düşüncəsində modern fərdiyyətçilik patoloji bir hal olaraq dərk edilir[73].

Hinduizm görə, bəşəriyyət varlıqların mövcudiyyətinin müxtəlif formalı tsikllərdən keçdiyi bir məkandır. Taosizmdə isə, Tao varlıqların və obyektlərin axınını idarə edən universal fakt olaraq dərk olunur. Qara Afrikada, sosial münasibətlər canlı varlıqlarla yanaşı ölüləri də özündə ehtiva edir. Orta Şərqdə, geniş ailə və klan daxilində hörmət və şərəf anlayışları vəzifələri müəyyən edir. Bütün bu faktlar insan hüquqları ilə barışmaz mövqeyə sahibdir. Yunan əsilli fransız tarixçisi Sofia Mappa qeyd edir ki, "İddia edilən universallığına rəğmən, Qərb dəyərləri olan insan hüquqları digər cəmiyyətlərin qətiyyən paylaşmadığı dəyərlərdir". Öncə qrupun sonra fərdin gəldiyini söyləmək heç də fərdin qrup daxilinə "həbs edilməsi" anlamına gəlmir əksinə, bu o deməkdir ki, fərd öz fərdiliyini varlığının tərkib hissəsi olan sosial münasibət kontekstində əldə edir. Bu, həm də despotizm yaxud zorakılıqdan qaçmaq arzusunu da inkar etmir. Fərd və aid olduğu kollektiv arasında gərginlik üzə çıxa bilər. Bu fakt doğrudan da universaldır. Lakin, azadlığını qorumağın ən yaxşı yeganə yolunun bütün təbii və kultural mənsubiyyətlərindən qopardılmış, konkret xarakteristikalarından məhrum edilmiş bir fərd olduğuna inam qətiyyən universal ola bilməz. Bütün mədəniyyətlərdə konfliktlər vardır, ancaq onların əksəriyyətində üstün olan dünyabaxışı konfliktual baxış (fərdin qrupa qarşı) deyil, nizam və şeylərin təbii ahənginə uyğun olaraq təşkil olunan "kosmik" baxışdır. Hər bir fərd içərisində doğulduğu sosial bütövlükdə oynaya bildiyi bir rola sahibdir və siyasi hakimiyyətin funksiyası əbədiliyin təminatı olan bu birgəmövcudiyyəti və

[73] John Carroll – "Ego and Soul: The Modern West in search of Meaning", (Counterpoint, Berkeley, California, USA, 2008), p,121

harmoniyanı bacardığı qədər yaxşı təmin etməkdir. Hakimiyyətin universal amma hakimiyyət formalarının universal olmaması kimi, azadlıq arzusu da universaldır, amma bu arzuya verilən cavablar fərqliləşmiş xarakterə sahib ola bilir. Kataloniyalı Katolik keşişi Raimundo Panikkar qeyd edir ki, "insan hüquqlarına universal keçərlilik xarakterini vermək o deməkdir ki, dünya xalqlarının əksəriyyəti praktiki olaraq Qərb millətləri kimi az və ya çox mifik *Gemeinschaft*-dan kontraktual və rasional tərzdə təşkil olunmuş modernizmə keçid prosesinə daxil edilir"[74]. İnsan hüquqlarının universallığı konseptini elan etmək, dünyanın digər sivilizasiyalarının nüvəsinə nüfuz edən və onları mövcudluğun, düşüncə və hisslərin təlqin edilən tərzlərini qəbul etdirmək məqsədi daşıyan Troya atıdır. Kultural müxtəlifliyi qəbul etmək Başqasının bütöv şəkildə tanınmasını tələb edir. İnsan hüquqlarının təlqini açıqcasına fərdi identikliklərin təşkilində xüsusi rol oynayan kollektiv identikliklərin eradikasiya və dislokasiyası riskini daşıyan akkulturasiya prosesini təmsil edir. İnsan hüquqlarının bu və ya digər formada pozulmasını tənqid edənlər müşahidə etdikləri mədəniyyətin həyatında tənqid etdikləri praktikanın əhəmiyyətini dərk edə bilirlər mi? Pol Pikkone bildirir ki, İnsan hüquqları essensial olaraq bir sosio-etno-kultural birliyin özünəməxsus leqal sistemində kök saldığı və insanlar həqiqətən ona inandıqları zaman fərdlər mühafizə olunur[75]. Bu qeyd çox doğrudur. Təbiəti etibarı ilə, insan hüquqları tanındığı və özümləşdirildiyi mədəniyyətlər və ölkələrdə qanuni qüvvəyə yüksələ bilər. İnsan hüquqlarının paradoksu ondan ibarətdir ki, bu nəzəriyyə öz icrasını mümkün edə biləcək şərtlərin (dəyərlər və ənənələr) total destruksiyası və eroziyasına kilidlənib.

İkinci Dünya Müharibəsindən sonra dekolonizasiya və millətçi hərəkatlar kontekstində hüquqlar ideyasının kultural müxtəliflik ilə barışdırılması üçün səylər göstərilməyə başlandı. Lakin, Levis Morqan kimi sosial təkamül fanatiklərinə reaksiya olaraq Klod Levi Ştrauss akkulturasiyanın dağıntılarını ifşa edərək etnik azlıqların xüsusi hüquqlarının tanınması ehti-

[74] Alain de Benoist – "Beyond Human Rights", Arktos Media Ltd., 2011, London, p, 68

[75] Ten Counter-Theses on New Class Ideology: Yet Another Reply to Rich Johnstone', in Telos 119, 2001, p. 146.

yacını və kultural spesifiklikləri vurğulayırdı. Xalqların öz-müqəddəratına olan hüquqlarının böyük müdafiəçisi olan Leilo Basso "tarixin həqiqi subyektləri hüququn bərabər şəkildə subyektləri olan xalqlardır" – deyirdi.

Öz Kantian mənşəyindən uzaqlaşdırılan "insan hüquqları" ideologiyası daxilində ortaya çıxan yeni tendensiya hər növ tələbləri, arzuları və maraqları "hüquqlara" çevirir. Bugün, hüquqlara iddia etmək öz maraqlarını və mənfəətlərini maksimallaşdırmağa çalışmanın bir yoludur. Hüquqların istehlakçısının gələcəyi yalnız maddi üstünlüklər axtarışı ilə özünü məşğul edən insanın iqtisadi idealıdır. Fransız iqtisadçısı və sosioloqu Gi Rustanq bildirir ki, maraqları və arzularının tətmininə çalışan "Homo Oeconomicus" siyasətin iqtisadiyyat tərəfindən əzildiyi dünyada hər yerdə öz homoloquna – hüquqları tərəfindən müəyyən edilən fərdlərə sahibdir. Ona görə də, "siyasi olaraq" öz-özünü tənzimləyən bazar modeli üzərində dərk edilən cəmiyyətdə bir vətəndaş kimi öz yerini tapmaq çox çətindir. Ehtiyaclar tərəfindən yaradılan arzuların sadəcə bir kataloquna endirilən hüquqlar həqiqi bir "raison d'etre" olmadan özünü davamlı şəkildə çoxaldır. Bu tendensiyanı "hüquqların inflyasiyası" ifadəsi ilə xarakterizə edən M.Sandel bu terminin "prosedural respublika" və "asılı fərdiyyətçi" idolunun müqəddəsləşdirilməsi ilə uyğunluq təşkil etdiyini bildirir[76].

Hüquqların bu şəkildə vulqarizasiyası onların dəyərsizləşməsi ilə nəticələnir. Simone Qoyard-Fabre vurğulayır ki, hüdudsuz plüralizm tragik bir kavitasiya doğurur. Bu, sonu olmayan tələblərin nəzarətsiz hərəkatında dissolyusiyaya uğrayan hüquq konsepti – hüquqi kavitasiyadır[77]. Hüquqların konstant şəkildə istehsalında özünü göstərən total permissivizm aksioloji kavitasiya, fərdlərin məxsus olduqları kollektiv qarşısındakı məsuliyyətsizliyi isə ontoloji kavitasiyaya səbəb olur. Fərd və onun "inkarolunmaz hüquqları"nın təsdiqi ilə birbaşa bağlı olan digər nəticə isə siyasi həyatı tənzimləmək

[76] Sandel bu termindən ilk dəfə, 'The Political Theory of the Procedural Republic', adlı məqaləsində istifadə edib, Revue de metaphysique et de morale 93, January/March 1988, p. 61, daha sonra isə "Liberalism and the Limits of Justice" (Cambridge: Cambridge University Press, 1982) adlı kitabında.

[77] Boşluqların ortaya çıxması. Bir mayedə ona təsir edən qüvvələrin təzyiqi nəticəsində buxar boşluqlarının formalaşması prosesi.

və sosial həyatda təhlükəsizliyi təmin etmək iqtidarında olduğuna inanılan leqal – hüquqi sferanın müstəsna güc qazanmasıdır. Aleksis de Tokvil qeyd edirdi ki, ABŞ-da gec və ya tez hüquqi məsələyə çevrilməyən çox az siyasi məsələ var. Bu situasiyanın bütün Qərb ölkələrinə doğru genişlənməsi nəticəsində hakimlərin gücü misligörünməmiş şəkildə artıb və sosial münasibətlər "hüquqlar" perspektivi daxilində müəyyən edilməyə başlanıb. Bununla da, siyasi "realm" rasional aktyorlar olaraq fərdlərin özlərini müxtəlif proseduralara tabe edikləri bir məkana çevrilib. A.Soljenitsin də vurğulayır ki, bütövlükdə həyat leqal münasibətlər tərəfindən absorbsiya edildiyi zaman yaranan əxlaqi *bayağılıq* atmosferi insanın ən ali impulslarını boğur[78].

1648-ci ildə imzalanan Vestfaliya sülhünün yaratdığı beynəlxalq qanun "humanitar müdaxilənin", yəni preventiv – önləyici müharibənin elan edilməsi hüququna bəraət qazandıran insan hüquqları ideologiyası tərəfindən alt-üst edilib. BMT-in Xartiyasını pozan humanitar müdaxilə hüququnun beynəlxalq qanunda heç bir presedenti yoxdur. Bu hüquq təlqin edir ki, "insan hüquqlarına hücumun" qarşısını almaq üçün digər bir dövlətin daxili məsələlərinə müdaxilə edilə bilər. Bununla da, nəzəri olaraq dekolonizasiyaya son qoyulur. Çünki tamamilə qeyri-müəyyən "beynəlxalq birlik" adı ilə dövlətlərin kultural preferensiyaları, eləcə də sosial və siyasi praktikalarını nəzərə almadan bir və ya bir neçə dövlətin öz baxışlarını onlara təlqin etməsi kolonizasiya məntiqinin triumfal qayıdışına işarə edir. Bu həm də, müharibə qanununun ("jus in bello") müharibə etmək qanunu ("jus ad bellum") ilə əvəzlənməsidir[79]. İnsanın "inkar edilməz hüquqlarını" elan edən inqilabdan sonra Fransanın işğallar və anneksasiyalar siyasətinə başlaması məhz bu kontekstdə dəyərləndirilməlidir. Humanitar müdaxilə hüququ sadəcə preventiv müdaxiləyə bəraət qazandırmır. Bu hüquq müharibələri əxlaqi olaraq xarakterizə etməklə və onları "ədalətli müharibə" kimi təqdim edərək düşməni kriminallaşdırır və onu Şərin simvoluna çevirir. İnsanlıq adına edilən müharibə öz düşmənlərini insanlıqdan kənarlaşdırmaq məqsədi güdür. Buna görə də, tərifi etibarilə "ədalətli müharibə" bir total müharibədir.

---

[78] Alexander Soljénitsyne – "Le déclin du courage. Le discours visionnaire de Harvard", 1978
[79] Alain de Benoist – "Beyond Human Rights", Arktos Media Ltd., 2011, London, p, 88

Modern humanizm sadəcə abstrakt bir subyektivizmdir. O, insanları öncədən təşkil edilmiş fərdlər, universal olaraq eyni attributların daşıyıcıları olan substansiyalar olaraq təsəvvür edir. Bu fərdiyyətçilik və ya atomlaşma eyni zamanda kontraktualizm deməkdir. Hər şeyin bir-birindən təcrid edilmiş fərdlərdən başlandığını güman etmək cəmiyyətlərin formasiyasının yalnız sosial kontrakt əsasında dərkinə səbəb olur. Lakin, insan hüquqları doktrinasında sosial kontrakt fərdlərin təbiətini dəyişmir. Cəmiyyət rasional seçimləri və suveren iradələri ilə hərəkət edən fərdi atomların total cəmindən ibarət olaraq qalır. Öz məqsədlərini özü müəyyən edən hər bir atom cəmiyyətə yalnız instrumental əsaslarla bağlana bilər. Başqa bir sözlə, həqiqi olaraq yalnız fərdlər mövcuddur, cəmiyyət və ya kollektivlik sadəcə bir abstraktsiya və ya bir illüziyadır.

İnsan hüquqları doktrinası sadəcə spesifik bir siyasi formaya – despotizmə qarşı elan edilsə də, reallıqda bu doktrina hər bir siyasət formasına qarşı istifadə edilən tənqidi diskursdur. Dolayısı ilə, bu hüquqların bəyan edilməsi tamamilə anti-siyasi xarakterlidir. Karl Şmitt qeyd edir ki, bu hüquqlar prinsip etibarilə "fərdin azadlığı sferasının qeyri-məhdud, dövlətin siyasi gücünün isə məhdud olduğu" anlamına gəlir[80]. K.Şmitt həm də onu vurğulayır ki, aid olduğu siyasi birliyin azadlığından qoparılmış fərdin azadlığı ideyası Antik dünyanın azad insan ideyasında absurd, əxlaqsız və dəyərsiz olaraq nəzərə alınardı. Çünki, belə aberrant fərdiyyətçilik daxilində bir siyasi orqanizm yaratmağı düşünmək qeyri-mümkündür. O.Kont cəmiyyətin fərdlərə dekompozisiya prosesini "geometrik səthin xəttlərə, xəttlərin isə nöqtələrə parçalanması" olaraq təsvir edir. R.Panikkar da qeyd edir ki, fərd təcrid edilmiş bir düyün, cəmiyyət isə bir teksturadır. Düyünlər olmadan bütöv tekstura açıla və aradan qalxa bilər, lakin tekstura olmadan düyünlər əsla mövcud ola bilməz. Ona görə də, hər bir siyasi layihə müəyyən bir holizm forması təlqin edir. Holist cəmiyyətdə bütövlük öz hissələrindən öncə gəlir[81].

---

[80] Carl Schmitt – "Constitutional Theory", p. 197-198

[81] La notion de droits de l'homme est-elle un concept occidental?', in Diogène, October-December 1982, p. 100

İnsan hüquqlarının ilkin nəzəriyyəçiləri insan təbiətinə istinad etməkdə yanlışlığa yol vermirdilər. Lakin bugün, onların irəli sürdükləri anlayışın qeyri-konsistent olduğu aşkara çıxır. Çünki bio-sosial və ya bio-kultural varlıq olaraq insanın mövcudiyyəti onun birgə mövcudiyyətindən üstün ola bilməz. İnkarnasiya etməyən heç bir ruhun olmadığı kimi, müəyyən sosial-tarixi kontekstə məxsus olmayan heç bir fərd yoxdur. İnsanın insanlığa məxsusluğu yalnız spesifik bir kollektivlik və ya mədəniyyət vasitəsilə mümkündür. Dəyərlər, normalar, bölüşülən prinsiplər, sosial münasibətlər və praktikaların totallığı insanın nəinki çevrəsinin, həm də onun varlığının konstitutividir. Qədim Yunan düşüncəsində vurğulandığı kimi, insanın yaşamaq və ən əsası, doğru yaşamaq üçün bir siyasi "koinotita"ya ehtiyacı var. "İnsan siyasi heyvandır" insanın təbii olaraq bir cəmiyyətdə yaşamaq üçün yaradıldığı demək deyil sadəcə, bu anlayış həm də o deməkdir ki, insan təbii olaraq bir siyasi "koinotita"nın həyatında aktiv şəkildə iştirak etməyə meyillidir. Aristotel bildirir ki, biz yalnız bir siyasi cəmiyyətin komponentlərini formalaşdıran və bir ümumi xeyir – "koinon agathon" üzərində onların xoşbəxtliyini qorumağa çalışan fəaliyyətləri doğru fəaliyyətlər adlandıra bilərik".

# RASİONALİZM MİFİNDƏN İRRASİONALİZMƏ

Ağılın gücünə *ibadət* XVIII-XIX əsrlərin əyar damğası idi. Lakin, XX əsrdən etibarən Modernizm çoxaspektli irrasionalizm ilə qeyd olunmağa başladı. Artıq rasional və intellektual olan deyil, *ratio* və intellektə endirilə bilməyən önəm kəsb edirdi. "Həyatın", vital impulsun və saf immanensiyanın mistikliyi elan edildi. Bütün formalarında üfüqi (horizontal) mövcudiyyət və fəaliyyət təşviq edilməyə başlandı. Aşkar düşüncənin suverenliyinə qarşı olaraq, insani varlığın ən dərinliyində var olan və düşüncə ilə əlaqəli olmayan hər şey təsbit edilməli və onlara üstünlük verilməli idi. Lüdviq Klages və K.Q.Yunqun mövqeləri bu baxımdan xüsusi əhəmiyyətə malikdir. Onlar ruhu – *Geist* bir mücərrəd intellekt olaraq qəbul etməklə, onu "həyata", qan, torpaq və mövcudiyyətin ilkin təməli ilə bağlı olan hər şeyə qarşı qoyurdular[82]. Ekzistensiyanın essensiyadan daha öncül olduğunu elan edən Ekzistensialistlər də eyni yanlışlıq içərisində idilər. Bu oriyentasiyanı essensial olaraq qəbul edən Psixoanaliz idi. Bu psixoloji təlim alt-şüur və önşüur dünyasına məxsus olan hər şeyə öncüllük verməklə insani varlıqda hərəkətverici qüvvələrin məhz bu dünyada yerləşdiyinə inanır. XX əsr, həmçinin də bu baxımdan – qədim dünyanın miflər və simvollarının *ratio*-ya endirilə bilməyən, ilkin psixo-vital substratanın (substrata – alt-qat) ifadəsi olduğu düşüncələrinin üstünlüyü ilə spesifikdir. Karl Qustav Yunqun irəli sürdüyü "kollektiv arxetiplər" qədim metafizika tərəfindən önə sürülən konseptin irrasionalist kontaminasiyasına əsaslanır.

Bəzi perspektivlərdən, modern irrasionalizmin polemikal xarakteri aqressivliyə əsaslıdır. O, XVIII-XIX əsrlərin burjua dünyasında nizamlayıcı olaraq qəbul edilən, ixtiyari, impulziv və təsadüfi şeyləri aradan qaldırmaq gücünə malik olduğu düşünülən rasionallığa qarşı üsyan olaraq ortaya çıxdı. Dünyanın ruhsuz və mexanikləşmiş baxışını rədd edən irrasioanalizm heç də həqiqətən pozitiv olan bir şey irəli sürə bilmədi. Birincisi, ona görə ki, abstrakt düşüncə və rasionalizmin müstəqil mövcudiyyətə sahib olduğunu bildirdiyi müddətcə irrasioanlizm də rasionalizm kimi eyni yanlışlığın

---

[82] Julius Evola, - Julius Evola – "the Bow and the Club", (translated by Sergio Knipe, 2018, Arktos Media Ltd.,) p, 66

qurbanı olur. Beləliklə, irrasional rasionala, mövcudiyyət, "həyat", instinkt və alt-şüur isə intellektə qarşı qoyulur. Bu düşüncəyə əsasən, insanlar qeyd olunan məhdudlaşdırıcı ziddiyyətlərdən kənarda və onların üzərində hər hansı bir şey təxəyyül etmək qabiliyyətindən məhrumdur. İlk əvvəl onu vurğulamaq lazımdır ki, "ratio" (modern intellektualist şüurun bütün formaları ilə birgə) və onun irrasional qarşılığı təməl bir şeyi deyil, bir dissosiasiyanın parçalarını təşkil edir, yəni müstəqil mövcudluğu olmayan bir-birilə əlaqəli fenomenlər. Rasional və irrasional arasındakı ziddiyyət yalnız onların hər ikisinin daha ali bir reallıqdan dissosiasiya edildiyini güman etdiyimiz zaman mümkündür. Bu birlik normal halında (ali mənada) insani varlığın həqiqi mərkəzidir. Bu mərkəz, Yunqun qeyd etdiyi kimi, insanın şəxsi şüurunda sıfır nöqtəsinə yanaşmaqla varid olunan qürub zonasına enmir. Bu mərkəz legitim mənasında spiritual *realm* olaraq müəyyən edilməlidir. Sivilizasiyaların tarixinə dair mövcud olan modern fəlsəfi inanca görə, aydın düşüncə domeni primordial zamanlarda miflər yaradan təxəyyüli fəaliyyət tərəfindən istila edilmişdi. Lakin, sonrakı dövrlərdə (historisist-maarifçi düşüncəyə əsasən) intellektual düşüncə özünü mifik təcrübənin miazmasından fərqliləşdirdi və essensial olaraq fəlsəfi konseptlərin aydın formalarını dərk etməyə başladı Lakin, tradisional sivilizasiyalarda metafizik aydınlıq idealı kimi dəyərləndirilən biliyin essensial olaraq spiritual və supra-rasional idealı mövcud idi. Bu, bütün ali Hind-Avropa cəmiyyətlərinin tsiklində mərkəzi rol oynayırdı. Qədim dünyada, bu ideal ali "realm"ın regionları və varlıqları, eləcə də spiritual oyanış və selestial aydınlığın simvolizmi ilə identifikasiya olunurdu. Ona görə də, bu idealın heç bir halda saf *ratio,* irrasionallıq, sadəcə təxəyyül və ya "kollektiv alt-şüurun proyeksiyaları" ilə bağlılığı yox idi. Bu kontekstdə, bütün ali sivilizasiyaların və onların mifologiyalarının (və hətta institutlarının) təməl elementinin sahib olduğu Olimpiya nukleusunu vurğulamaq mütləqdir. Yunan sivilizasiyasına nəzər yetirdiyimiz zaman görə bilərik ki, *logos* və *nous* ifadələri yalnız qeyri-adekvat şəkildə "ağıl" və "İntellekt" olaraq tərcümə edilə bilər. Essensial olaraq bu ifadələr metafizik səviyyəyə aiddir, lakin

onların intellektualist anlamı və dəyəri daha sonrakı dövrlərə aid olmaqla, refleksiyanın yaxud transpozisiyanın bir növü olaraq nəzərə alınmalıdır. Bu, xüsusilə aydın şəkildə *kosmos noetos* adlı Yunan konsepsiyasında meydana çıxır (kosmos noetos – Yunq anlamında deyil, klassik Yunan *arxetipləri* ilə assosiasiya olunan dərk edilə bilən dünya deməkdir. Kosmos – mövcudiyyətin nizamlı bütövlüyü, *noetos* isə birbaşa olaraq insan ağılı tərəfindən dərk edilən və hər yerdə var olan artikulyasiya edilmiş düzən anlamına gəlir). *Kosmos noetos* konseptinə görə, fundamental unitar təcrübə daxilində idrak edilən aspekt ontoloji və metafizik aspekt ilə birbaşa bağlıdır. Burada, irrasional və təxəyyüli olanın rasional aydınlanması və fəlsəfi spekulyasiyası baxımından deyil, essensial olaraq miflərin və simvolların "idrak edilən məzmunu" perspektivindən konsensus var. Bu konsensus prinsiplər və *arxai* dünyasında, tarix üzərində bir məkanda kosmik şüurun[83] intişarını (ekstensiya), ali və obyektiv dəyərləri özündə təcəssüm etdirir. Burada, aktual təcrübədə hər hansı təsdiqi olmayan bəzi modern bilik nəzəriyyələrindən fərqli olaraq, intellektin fəaliyyəti varlığın fəaliyyəti ilə konsubstansialdır. Bu kontekstdə, özünəməxsus gücə sahib olan miflər və simvollar özlərini həm də ruhu yüksəldən və insani varlığın müxtəlif funksiyalarını inteqrasiya edən qüvvələr olaraq çıxış edirlər. Ciambattista Viko, bunu "mifik əsrlərlə" sinonim olan "qəhrəman əsrlər" olaraq başa düşürdü. Bu o deməkdir ki, miflər və simvollar "irrasionala" şamil edilən gücü də özündə ehtiva edirdi. O, daha ali mahiyyətə uyğun olaraq hisslərdə özünü göstərən *suprasensual* və hər şeyi qavrayan bir təcrübə idi.

[83] Kosmik şüur – insanın spiritual inkişafı yolunda keçdiyi yeddi şüur mərhələlərindən beşincisi. İlk üç mərhələ - oyaq şüur, yatma və dərin yuxu – funksional sinir sistemi ilə hər bir yetkin insani varlığa məlumdur. Lakin, növbəti mərhələlərə insani varlıq yalnız ağılbədən sistemini nizamli tərzdə təkmilləşdirməklə daxil ola bilər. Transsendental şüur fazasında ağıl və hissləri sükuta qərq olan insan növbəti – kosmik mərhələdə özündə sarsılmaz bir daxili sükut formalaşdıra bilməklə, eyni zamanda daxili reallığına qovuşur. "Tanrı şüuru" adlanan altıncı mərhələdə isə, insan universal brahman – "Atman"-a inteqrasiya olur. "Vəhdət şüur"u adlanan yeddinci mərhələdə isə daxili və zahiri, real və qeyri-real, Mən və qeyri-Mən, mütləq və nisbi, əbədi və qeyri-əbədi bir "Mən"də bütövləşir. Öz hər şeyin "öz"ünə çevrilir. Daxili olan Atman hər şeyi özündə təsəccüm etdirir. Spiritual inkişafın əsası olan bu şüur mərhələləri Upanişadlar və Vedalarda, Zen Buddizmində, Plotinusun yazılarında və Sufizmə məxsus ənənələrdə özünü göstərir.

Bu, bulanıq və mistik bir təcrübə deyil, infrasensual (hissləraltı) və alt-şüuri olan hər şeyin destruksiyasını şərtləndirən essensial olaraq ali – "supra-şüuri" bir fəalliyyət anlamına gəlirdi. Burada bəhs edilən "transsendental şüurun intişarları" irrasionallıq və alt-şüur şərtləri daxilində miflər və simvolların izah edilməsinin aberrant xarakterini ifşa edir. Tradisional dünyada miflərin yalnız emosional və irrasional olması qənaətinə gəlinməməlidir. Miflərdə təxəyyül formaları və obrazlar yalnız ikinci dərəcəli rol oynayırdı. Onların essensial nukleusu metafizik və transsendental müstəvidə dəyərləndirilməlidir. Oxucular tərəfindən bu reallığın idrakının çətin ola biləcəyini güman edirəm, çünki qeyd edilən perspektivlər artıq unudulub və bugünün modernist "mədəniyyətinə" tamamilə yaddır. Lakin, bu perspektivlər çağdaş irrasionalizmin gerçək mahiyyətinin başa düşülməsində essensial rol oynayır. Sivilizasiyalar tarixində "Mifik era"[84] nəzəriyyəsinin irrasional olaraq primordial zamana aid olduğunu düşünmək köklü şəkildə yanlışdır. Bu, C.Vikonun fəlsəfəsini "şərh etməyə" çalışan Benedetto Kroçenin fikirləri və Darvinizm üçün xarakterikdir. Ancaq, onu vurğulamalıyıq ki, bir qədim sivilizasiyanın dövrlərində yaxud müəyyən mərhələlərində miflər yalnız təxəyyüli, emosional və sub-rasional şərtlər daxilində təcrübə edildiyi zaman praktiki olaraq ikincidərəcəli olan fenomen (lər) bəzən öncül rol oynaya bilirdi. Bu hallarda, biz təcrübənin orijinal formasının və mifik biliyin müəyyən qapalı elitlər arasında qorunan gerçək və normal xarakterinin degenerasiyasını müşahidə edə bilərik. Bu yalnız çox qədim və kökü kəsilmiş mədəniyyətlərin degenerat qalıqları olan primitiv xalqlar dünyasına tətbiq edilə bilər. Nəticədə, *sofos* və inisiasiyanın aliliyinin təbiblər, qəbilə sehirbazları və şamanlar ilə əvəzlənməsinə, simvollar və miflərin demonizasiyasına, eləcə də bir növ noktürnal şüurun ortaya çıxmasına səbəbiyyət verdi. Bu xalqlara məxsus miflər və simvollardan sağ qalanlar yalnız dərk edilən və aydınladıcı spiritual nukleusunu itirməklə qaranlıq ekstaziyalar yaradan dinamik-emosional komplekslər formasında onların

---

[84] Giambattista Vico – "The New Science", Cornell University Pres, NY, 1948, P, 212, Chapter VI, begining (Altıncı Fəsil, Başlanğıc)

psixi və magikal karkassları oldu. Bu, primitiv tayfalardan əldə edilmiş materialları ali sivilizasiyalardan toplanmış materiallar ilə eyni səviyyədə dəyərləndirən etnoloq və din tarixçilərinin yaratdığı çaşqınlıqdır. Bir obyekt və onun kölgəsi arasındakı korrelyasiyaya bənzər olan bu uyğunluqlar onları belə acınacaqlı yanlışlığa sövq edib. Sivilləşmiş insanın alt-şüurunda meydana gələn və onun böhranlarında, sinir kollapslarında ortaya çıxan hər şey qeyd edilən *residuum*-lar ilə eyni xarakterə sahibdir. Dolayısı ilə, həm qədim-primitiv, həm də modern-sivilləşmiş insanın dünyası ilə psixopatologiyanın dünyası arasında paralel aparmaq mümkündür. Belə bənzərliklər yalnız bu çərçivədə - residual reqressiv və degenerat formaların bölüşülən səviyyəsində tətbiq edilə bilər. Onların ali sivilizasiyalara məxsus simvollar və miflər ilə heç bir bağlılığı yoxdur. Bu həqiqəti daha da aydınlaşdımaq üçün tarixi dövrlərdə baş verən *descensus* (qürub, çöküş) prosesinin mərhələlərini ana xəttləri ilə bildirmək mümkündür. Tarixi dövrlərin spiritual yüksəlişinin mənşəyində supra-sensualın, supra-rasionalın Olimpiya idealı dayanır. Bilindiyi kimi, müqayisəli filologiya eyni kökdən qaynaqlanan və bir-birilə bağlı olan bu idealı müxtəlif adlarda qeyd edir. İlahiliyin təsvirində Hind-Avropa sivilizasiyalarının istifadə etdiyi adlar bir-birinə çox bənzəyir: *Dyaus* (Vedik panteonunda səma Tanrısı), *Deus*, *Zeus*, *Thiuz* (yaxud Tivaz – qədim Şimal mifologiyasında qeyd edilən Tanrı – Tyr-a məxsus protoadlardan biridir), *Tian* (Çin mifologiyasının başlıca konsepti və kosmosun Səmavi aspekti). Biliyin ən ali obyekti, miflərin və simvolların metafizik “contentus”u məhz bu mərhələyə məxsusdur. Növbəti mərhələdə isə, bu “contentus”a sahib miflər və simvollar nisbətən daha görkəmli və müstəqil olmağa başlayırlar. Bu mərhələdə daxili dəyəri və anlaşıla bilən məzmunu getdikcə azalan mifik təcəssümlərin özünü dini, mifoloji və hətta estetikləşdirici təcrübəyə transformasiya etməsi müşahidə edilir. Qeyd edilən mərhələ Yunan-Roma dünyasının qürub fazalarında özünü göstərib. Bu ilkin dissosiasiyanın nəticələrindən biri faydasız, sadəcə incəsənət subyektivizminə doğru yönələrək obyektiv (supra-rasional) məzmundan məhrum şəkildə fəaliyyət göstərən təxəyyül fəaliyyətidir. Onu da vurğulamalı

Qərb üçün dönüm nöqtəsi Yunan düşüncəsindəki bu aspektlər ilə təmsil edilir: metafizik reallıq və *arxai* prinsipləri olaraq dərk edilən *kosmos noetos*-un müqəddəs biliyə məxsus simvollarını itirməklə spekulyativ və konseptual strukturlara çevriləsi oldu Bu struktural eniqma ilk öncə Platonda özünü göstərsə də, Neoplatonistlər tərəfindən nisbətən aradan qaldırılıb. Eyni proses Orta Əsrlər Sxolastizmində də özünü göstərir. Bu dövr Sxolastizminə məxsus rasionalizm teologiyanın müxtəlif hipostazislərinin təməlində dayanan supra-rasional təcrübənin məzmununu ifadə etmək üçün çox steril konseptlər sistemindən istifadə edirdi. Bu istiqamətdə davam etməklə aktual rasionalizmə yaxınlaşa bilərik; supra-rasional aydınlığın tradisional ideyası "təbii aydınlığın" və rasional sübutun ideyası ilə əvəzləndi. Dekart Sxolastizmdən rasionalizmə keçiddə ən mühüm və təsirli fiqur hesab olunur. Bu tendensiya ilə, ağıl həm bilik, həm praktiki davranışlar məcəlləsi, həm də sosial-siyasi sahədə tələb olunan prinsipləri özündə ehtiva edən müstəqil bir *facultas* olaraq düşünülməyə başlandı.

Bu ardıcıl proseslər ilə bağlı olaraq üç ümumi istiqamət ayırd edilə bilər. Birincisi, spekulyativ və dialektik mücərrədliklər *spiritus* və konkret reallıqdan ayrıldı. Bu, modern fəlsəfə domeni ilə uyğunluq təşkil edən istiqamətdir. İkinci istiqamət isə, pozitiv elmi bilik əldə etmə vasitələrinə və müxtəlif tətbiqatlara endirilməklə praktik və praqmatik istifadəyə tabe edilən intellektin deqradasiyası ilə qeyd olunur. Bu deqradasiya prosesində sensorial təcrübədən qaynaqlanan "data"nın koordinasiyası və riyazilşməsi, eləcə də texniki və texnoloji orqanizasiya da mühüm rol oynadı. Nəhayət, üçüncü istiqamət isə Maarifçilik və onun qolları, həmçinin də "modern tənqidi düşüncənin" ortaya çıxmasından ibarətdir. Bu aqressiv istiqamət fərdiyyətçilik, müxtəlif inqilabi və anti-tradisional hərəkatlar, eləcə də sientizm ilə birləşən "intellektualist düşüncə" insanı və insan ruhunu "obskyurantizmdən" azad etdiyini irəli sürərək mövcudiyyətin destruksiyası və de-sakralizasiyasında (müqəddəssizləşdilmə) bir alət rolunu oynadı. Üçüncü istiqamət ilə bağlı olan digər mühüm məsələ "maariflənmə" məfhumnun sahib olduğu dəyər və mahiyyətin

uğradığı aşınmadır. “Maariflənmə” nə bir fəlsəfə, nə də bir sosial ideologiyadır. “Maariflənmişlər” adi insani qabiliyyətləri aşan transsendental biliyin yaranmasında iştirak edə bilən, spiritual metanoyaya - entelexiya nail olmuş *ali* insanlardır. Sxolastizmə aid olan *intuitio intellectualis*, Hinduizmə məxsus *vidya,* Buddizmə məxsus olan *prajna* ya da *bodhi* bu perspektivdən xüsusi olaraq vurğulanmalıdır. Sxolastiklərə görə, *intuitio* bir növ öncədən sezmə yaxud instinktiv dərketmə deyil, Yunanların *nous* konseptinə daha uyğun olmaqla ağılın biliyi birbaşa idrak etmək qabiliyyətinə vurğu edir. Bu konsept alman mistiki Nikolas de Kuza tərəfindən fəlsəfəyə daxil edilib. Xristian Sxolastiklərə görə, saf formasında bu qabiliyyət mələklər və Allahın özündə də mövcuddur. *Vidya*, “aydın və düzgün bilik”, *prajna*, “idrak və müdriklik”, mənşəyi Buddanın adı ilə əlaqəli olan *bodhi* isə “oyanış” deməkdir. Öz təbiəti etibarilə bu təcrübə forması yalnız seçilmişlərin imtiyazı və “pronomio”su ola bilər. Klassik-tradisional dünyada “maariflənmə” doktrinası iyerarxik və aristokratik çərçivə daxilində öz doğru yerinə sahib idi. “Maariflənmə” məfhumunun uğradığı inversiya konkret olaraq doqma ilə illuminasiya arasındakı münasibət kontekstində ifadə edilir. Pozitiv dinlərdə, xüsusilə də Katolisizmdə doqma (ehkam) mif ilə identikdir. Onun dərkoluna bilən məzmunu birbaşa olaraq verilmir. O, biliyin deyil, “vəhy”ə münasibətdə inancın obyekti olaraq təqdim edilir. Klerikal hakimiyyət onu hər növ tənqidçilik və müzakirədən kənar saxlayır. Bu forma essensiallıqdan məhrumdur. Çünki, eyni növ bilik müxtəlif sivilizasiyalarda başqa yollar ilə açıqlanılır. Qərbdə, Antik dövrün sonunda doqmatik formaların ortaya çıxmasına səbəb olan özünəməxsus situasiya Avropa insanının spiritual deqradasiyasında, onun fərdiyyətçilik və intellektual anarxiyaya doğru meyilliliyində aşkar edilə bilər. Müəyyən bir tarixi dövrdən başlayaraq biliyin aşkar olan formaları konvensional düşüncəli bir şəxsin intellektual hüdudlarını aşmağa başladı. Beləliklə, bu “bilik” formalarını dünyəvi hücumlardan qorumağın yeganə yolu onları ehkamlar formasında təqdim etməkdən ibarət oldu. Rene Genon tamamilə doğru şəkildə müşahidə edir ki, “yolundan sapma-

ması (sözün etimoloji mənasında – divaqasiya) üçün bəzi insanların sərt nəzarət altında saxlanılmasına ehtiyac var. Digərlərinin isə belə bir ehtiyacı yoxdur. Doqma, yalnız "Müqəddəsin" qavranılmasında təbii olaraq bir növ antropomorfizmə yönələnlər üçün təxəyyül və surətlərin qadağan edilməsində birincidərəcəli rol oynayır. Spiritual maariflənmə prinsipial olaraq xüsusi vəsflərə malik varlığın heç bir ciddi nəzarət və ya ehkamlar olmadan azadlığına icazə verir. Bir şeyi birbaşa təcrübə etməklə bilən bir insanın "inanmağa" ehtiyacı yoxdur, çünki o bilir və azaddır. O özünü ehkam qarşısında deyil, ehkamlar üzərində hiss edəcək. O, eyni bir şeyi müxtəlif tərzlərdə və istiqamətlərdə qəbul edəcək. Daxili formaya sahib olduğu üçün onun "ortodoksluğu" digərlərinin inancından daha möhkəm və sarsılmazdır. Hətta o istəsə belə, onu öz yolundan və tərzindən sapdırmaq (divagare) qeyri-mümkün olacaq. Maariflənmə və doqma arasında mövcud olan münasibətlər məhz belə xarakterizə olunur[85].

Doqmaya üstün gəlmək ehtiyacının ağıl əsasında, özlüyündə heç bir transsendentallığa yönələ bilməyən sadəcə insani qabiliyyət əsasında təsdiq olunması ciddi bir aberrasiyadır. Bu eyni zamanda doqmaya üstün gəlmə mümkünlüyünün hamıya intişar edilməsidir. Bu mərhələdə spiritual bənd dağılır və "maariflənmə" yalnız fərdiyyətçilik domeninə aid olan rasionalist, tənqidi düşüncə vasitəsilə "azad mütəfəkkirlərin" fərqləndirici cəhətinə çevrilir. Məhz bunun qarşısını almaq üçün klassik-tradisional dünyada *metafizik ehkamlar* qəbul edilirdi. İdeyalar tarixində "Maariflənmə" məfhumunun düçar olduğu distorsiya məhz belədir. Bütün bunların kontekstində, modern mənada "maariflənmişlərin – hüdudsuz insani ağılın "təbii aydınlığını" birbaşa olaraq "doqmatik obskyurantizmə" qarşı qoyanların – niyə inqilabçılarla, liberallarla, intellektual və sosial *destruktorlarla,* ateist anti-Katoliklərlə, anti-metafizik qüvvələrlə birləşdiyini dərk edə bilərik. Bu tendensiya Fransa inqilabı ərəfəsində, Volter, Didero, Dalamber və digər Ensiklopedistlərə özünü "supratəbiiliyin" apostolları elan

---

[85] Rene Guénon – "Initiation and Spiritual Realization", trans. Henry D. Fohr, Sophia Perennis, Hillsdale, NY, 2001, p, 90

edən qüvvələrin qoşulması ilə xüsusi bir fazaya qədəm qoydu.

Bu diqressiyanı aydınlaşdırdıqdan sonra, əvvəl qeyd edilən refleksiyalarımıza qayıda bilərik. Sekulyarlaşmış intellektin, rasionalizmin, Qərb düşüncəsinə məxsus texniki və texnoloji tendensiyaların qüvvətlənməsi (aksentuasiya) və üstünlüyü ali referensiya nöqtələrindən qoparılmış mövcudiyyət qüvvələrinin üsyankar yüksəlişinə gətirib çıxardı. Bu qüvvələr artıq rasional prinsiplər tərəfindən ehtiva edilə bilməzdi. Ən həlledici məqam məhz buradadır. Belə ki, "rasionallıq reallığın yalnız qeyri-real refleksiyası və surroqatıdır" düşüncəsindən sonra insanlar supra-rasional deyil, intellektin təmin edə bilmədiyi bir şeyin axtarışında sub-rasionala doğru yönəldi. Yekun nəticə, bir növ yanlışlıqdan daha acınacaqlı yanlışlığa keçid idi. *Ratio*-ya batil inanc "həyat", "becoming" və "alt-şüur"-a sitayiş ilə əvəzləndi. Bundan daha pisi də odur ki, *ruh* insani varlığın naturalist və şəxsi bir hissəsi ilə eyniləşdirildi. R.Genon son dərəcə doğru bir şəkildə vurğulayır ki, XIX əsrin materializmi, rasionalizmi və elmi pozitivizminin insanı *sadəcə insanidən* daha üstün olandan qoparmasından sonra, XX əsrin yeni psixoloji və sosio-kultural cərəyanları onu insandan daha aşağı olana tabe etdi. Alt-şüur hər bir şeyin *deposuna* çevrildi. Bugün, alt-şüur ilə supra-şüur arasındakı fundamental metodoloji fərqliləşmə aradan qalxıb. Ona görə də, simvolizm və miflərin, tradisional təlimlərin müxtəlif cəhətləri və dimensiyalarının, bütövlükdə primordial dünyanın izah edilməsində kəskin patologiya hökm sürür.

Yekun olaraq, irrasionalist reqressiyanın ən son nəticəsi kimi "aparıcı ideya" mifini qeyd etməliyik. Spiritual prinsipləri köklü şəkildə essensiyasız mücərrədliklərə tərk edən Modern insan yalnız müəyyən emosional hallar oyandıran ideyalara dəyər şamil edir. Bu, modern insanın "Mif" anlayışına yüklədiyi məna və dəyərdir. Modernizm əsrində, "mif" nəinki həqiqət və ya obyektiv məzmun, heç rasional şərtlər daxilində belə izah edilə bilməz. Modern mif fərdlərin və kütlələrin irrasional və emosional qüvvələrini kristallaşdıran bir mərkəz olaraq "əməliyyat aparmaq" gücü əsasında müəyyən edilir. Bu fəaliyyət perspektivindən, aparıcı rol qədim

və gerçək miflərin "ölü cəsədləri" üzərində icra edilir (Yunqun "arxetipləri" kimi). Bu halda, miflər siyasətin, partiyaların, demokratiya və demaqogiyanın şüarları ilə assimilyasiya edilir. Burada, özünəməxsus bir inversiya ilə qarşılaşırıq: qədim insanlıq mifik olmaqla, yəni uydurma və təsəvvüri komplekslərə uyğun yaşamaqda ittiham edilir. Lakin, məsələnin həqiqəti ondan ibarətdir ki, əgər təbirin neqativ mənasında "mifik" insanlıq mövcud olubsa, bu yalnız modern insanlıq və onun simvollarıdır: Tərəqqi, Cəmiyyət, İnsanlıq, Azadlıq və s. kimi "mifik və simvolik təbiətə" malik olan bu şüarların təhrik etdiyi ağılasığmaz kütləvi hərəkatlar fərd daxilində aydın mühakimə və təndiq qabiliyyətini paralize etməklə ən destruktiv nəticələri ilə özünü nümayiş etdirdi. Ona görə də, Modernizmin qeyd edilən şüuarlarını "mif" olaraq deyil, *fari* – boş sözlərdən ibarət fiksiya olaraq təsvir etmək daha doğrudur. Əsrimizin maariflənmiş və tərəqqi etmiş insanlığının nail olduğu hədd budur.

Dissosiasiya prosesləri tərəfindən yaradılan yanlış antitezislərə üstün gəlmək üçün doğru və mərkəzi istiqamətə sahib olmaq son dərəcə mühümdür. Bu baxımdan, insanda parlaq və aktiv iştiraka sahib, "həyat" və "ratio"-dan daha üstün olana doğru yönələn klassik-tradisional yol yenidən kəşf edilməlidir. Metafizik perspektivdən, bu prinsip bütün həyati enerjilər üzərində hərəkətləndirici fəaliyyət icra etməklə formaverici və idarəedici gücə sahibdir. Məhz bu əsasda, "qəhrəman əsrlərində" biz Müqəddəslik, etika, qanun və yaradıcı təxəyyül sahələrində vahid bir formaverici qüvvənin iştirakını müşahidə edə bilirik. Son qayə isə, insanın müstəqil mühakimə kriteriyası və dəyər biçmələri ilə özünün həqiqi, aydın və idarəedici mərkəzini tapa bildiyi daxili regionuna doğru yenidən istiqamətlənmədir.

# ATOMİST FƏRDİYYƏTÇİLİK VƏ ŞƏXSİYYƏT – İYERARXİYA

*“Materializm istər bir şəxsin, istərsə də kütlələrin rəhbərliyində hər bir tiraniyanın yardımçı doktrinasıdır. Spiritual varlıq olaraq insanı məhv etməklə onu köksüz bir monada çevirmək, əqlən və ruhən yetkin insani varlıqlar deyil, nəhəng sosial maşının çarxlarını yaratmaq, onlara vicdan deyil, bir mərkəz olaraq cəmiyyət vermək, ruhu maddi şərtlərə tabe etmək və insani şəxssizləşdirmək Modernizm epoxasının hakim tendensiyasıdır. Əxlaqi atomizm, konvensional–orta statistik insan prinsipi, birformalılıq daxilində «sosial vəhdət», keyfiyyət əvəzinə hər zaman kəmiyyət, daxili qanunları olmayan neqativ azadlıq determinist bir təbiətə yiyələnən Materialist düşüncənin tərkib hissələridir”.*

Henri Frederik Amiel

*“Aristokratiya kəndlidən başlayıb krala qədər bütün vətəndaşlardan ibarət bir zəncir yaratmışdı. Demokratiya bu zənciri qırdı və hər həlqəni ayrı yerə qoydu.”*

Aleksis de Tokvil

Tradisional sosio-siyasi strukturların dezinteqrasiyası liberalizmin gəlişi ilə başladı. Fransa inqilabının şiddətli və demonik dövründən sonra bu inqilab tərəfindən dəstəklənilən prinsiplər ilk öncə liberalizm pərdəsi altında fəaliyyət göstərməyə başladı, bununla da, liberalizm qlobal subversiyanın müxtəlif və bir-birilə əlaqəli formalarının mənşəyinə çevrildi. Əsas məsələ, bu ideologiyanın əsaslandığı və ruhlandırıldığı "ölümsüz prinsiplərin" yanlışlarını sadəcə doktrinal deyil, praktik prizmadan ifşa etməkdir. Bugün intellektual miopiya o həddə çatıb ki, qədim rejimlərə və hətta Kilsəyə görə anti-Tradisiya və destruktiv inqilab ilə sinonim olan liberalizm əksəriyyət tərəfindən Marksizm və totalitarizmə qarşı insan ləyaqətini, hüquqlarını və azadlığını qoruyan "sağyönlü" hərəkat olaraq təsvir edilir. Liberalizmin essensiyası individualizmdir(fərdiyyətçilik). Onun yanlışlığının bazisi şəxs anlayışını fərd anlayışı ilə qarışdırmaq və eqalitarian aksiomalara əsaslanmaqla fərdə qeyd-şərtsiz, şəxsə isə yalnız şərti dəyərlər şamil etməkdən ibarətdir. Bu transpozisiya nəticəsində liberal dəyərlər yanlışlıqlara və ya absurd yaxud zərərli bir şeyə transformasiya edilməkdədir. Hər şeydən öncə onu vurğulamaq lazımdır ki, bərabərliyin "ölümsüz prinsipi" aşkar bir səfsətədir. Naturalist perspektivdən insani varlıqların bərabərliyi üzərində şərh bildirməyə ehtiyac yoxdur. Eqalitarianizmin dəstəkçiləri bərabərliyi bir prinsip məsələsinə çevirərək insani varlıqların de-fakto olmasa da, de-yure bərabər olduğunu iddia edirlər. Bərabərsizlik ədalətsizlikdir; liberal ideyanın aliliyi bu bərabərsizliyi nəzərə almaqdan deyil, ona üstün gəlmək və hər kəsə eyni bərabərliyi şamil etməkdən ibarətdir. Modern liberal-demokratiya da həmçinin, insani olan hər şeyin fundamental bərabərliyi inancına sahibdir. Bu məntiqi absurdluğun hakim trend olması yalnız reqressiya və dekadensiya ilə nəticələnir.

"Çoxlu" anlayışı məntiqi olaraq "çoxlu bərabərlər" anlayışına ziddir. Ontoloji yanaşsaq, bu "fərq edilə, görülə bilməyənlər" prinsipi ilə bağlıdır. Bu prinsipə görə, mütləq şəkildə digəri ilə identik olan bir varlıq hər bir perspektivdən biri və eyni biridir. Belə ki, bərabər yaxud tamamilə bərabər olan "çoxlu" varlıqlar çox deyil, yalnız *bir* ola bilər. Çoxun bərabərliyi anlayışı

ruhsuz kütləvi istehsal obyektlərinin strukturuna şamil edilə bilər[86]. Q.V.Leyibnitsin fərqedilməyənlərin identiklik prinsipinə görə, mütləq şəkildə digəri ilə identik olan bir varlıq bir və eyni bir şeydir. Eqalitarian ideologiyanın ədalətin zəfəri olaraq təsvir etdiyi humanitar və demokratik ritorikalarından kənara çıxdığımız zaman yalnız ədalətsizliyin zəfərini müşahidə edə bilirik.

Modern cəmiyyətlərdə fərd sözün həqiqi mənasında ən güclü sosial aktyordur. Lakin, tradisional cəmiyyətlərdə fərdi davranışın mahiyyəti və dəyəri fərdin üzərində mövcud olan reallığa bağlı idi. Bu reallığa Tanrılar, təbiət, qohumluq sistemi, dövlət, silk və metafizik birlik olaraq Cəmiyyət daxil idi. Bugün, fərdlər öz fərdiliklərini formalaşdıra biləcəkləri nəhəng resurslara sahibdir. Buna görə də, fərdi subyektin metafizik anlayışının yox olmasından sonra biz, fərdləri abstrakt şəkildə fərdiləşdirməklə onları atomlara çevirən proseslərə diqqət yetirməliyik.

Xalqları mexanikləşdirilə bilən kütlə olaraq dərk edən Bolşevizm və Amerikanizm eyni bir medalyonun iki tərəfidir – deyə qeyd edən Y.Evola tamamilə haqlı idi. Bolşevizmin ruhunu ən doğru xarakterizə edən epizodlardan biri "Vavilov məsələsi"-dir. Böüyk rus botaniki və genetiki olan Nikolay Vavilov bütün həyatını bitki yetişdirilməsinə həsr etmiş və dünyanın ən böyük toxum kolleksiyasını toplamışdı. Lakin, genetikanın qeyri-Mendelian konsepsiyasını təşviq edən (və Sovet hakimiyyəti tərəfindən dəstəklənən) Trofim Lisenkoya qarşı gəldiyi üçün Sibirə sürgün edilmiş və orada ölmüşdü. N.Vavilov Mendelin genetika nəzəriyyəsinin proponenti olmaqla bir pre-formasiyanı – insanda doğuşdan gələn xarakteristikalar və özünəməxsus insani təbiətin var olduğunu qəbul edirdi. Bu nəzəriyyə isə bolşeviklər tərəfindən əks-inqilabi adlandırıldı. Çünki Marksizm insanda hər şeyin onun çevrəsinin, sosial-iqtisadi qüvvələr və şərtlərin nəticəsi olduğunu bildirir. Bu perspektiv əsasında bolşevizm "burjua erasının fərdiyyətçi təsadüflərindən" azad edilən kollektiv proletariata – yeni insani varlığa həyat verə bilmək gücünə inanırdı. İnsanın bir daxili formaya malik olduğu və

---

[86] Julius Evola – "Men among Ruines: Post-War Reflections of a Radical Tradistionalist", translated by Guido Stucco, İinner Traditions, Rochester, Vermont, 1953, p, 134

ya istənilən zahiri mexaniki fəaliyyətə tabe olmağa hazır bir kütlə atomları olaraq deyil, öz müqəddəratı və öz məziyyətlərinin dərkində olan şəxslərin var olduğu qəbul edilsəydi, bu marksist-bolşevik fərziyyə alt-üst olardı.

Amerikalı psixoloq Burrhus Frederik Skinner ilə əlaqələndirilən və "behaviourism" olaraq adlandırılan psixoloji nəzəriyyəyə görə də, daxili və zahiri olmaqla bütün insani fəaliyyətlər onun ətraf mühitindən gələn stimulilərə verilən mexaniki cavablara endirilə bilər. Bu nəzəriyyə təklif edir ki, insani davranış (lar) təbii olaraq nəzarət edilə və manipüle edilə bilər[87].

Behaviourism, Con Devey-in baxışları ilə birlikdə Şimali Amerika mentallığının ən ekspressiv nəzəriyyələrindən biridir. "Behaviourism"ə görə, insan uyğun pedaqoji və texniki proses vasitəsilə istədiyi kimi ola bilər. Bu, praktik uğur və sosial "yüksəlişləri" ilə hər bir sahəyə intişar edə bilən, bununla da demokratiyanın eqalitarian ehkamını doğrulayan "öz-özünü yaradan" (self-made man) insanın həqiqətidir. Bu nəzəriyyənin doğruluğunun qəbul edilməsi insani varlıqlar arasında real müxtəlifliklərdən danışmağı qeyri-mümkün etməklə, diversitarian düşüncəni tədricən aradan qaldırdı. Beləliklə, insani məziyyətlər kontekstində *superiyor* və *inferiyor* ifadələri öz əhəmiyyətini itirdi. Hər bir məsafə və sayğı anlayışları qeyri-legitim elan edildi. F.Şuonun bildirdiyi kimi, "bütün yollar hər kəsə açıqdır, biz "azadlıq" rejimində yaşayırıq". İnsanda daxili formanı, bir xarakteri və yalnız özününkü olan, təqlidedilməz səciyyəni rədd edən Bolşevizm və Amerikanizm orqanik konsepsiyaya qarşı mexanist konsepsiyanı qoydular. İnsan süni olaraq yaradılmış və asanlıqla modifikasiya edilə bilən bir xarakterdən başqa heç nəyə sahib ola bilməz.

İnfantil, təbii və vegetativ psixikası ilə Amerikalını sadəcə formasızlıq – hər növ standartlaşdırmaya, manipüle edilmiş ictimai fikirə, eləcə də demokratiyanın təyin olunmuş ideyasına açıqlıq – xarakterizə edə bilər. Eqalitar funksionallığı ilə liberal pedaqogika insanı daxilən formasızlaşdıran və onu məziyyətsizliyə və spesifiksizliyə məhkum edən reqressiyadır. Böyük

---

[87] J.Evola – "Recognitions: A Study on Men and Problems", Chapter, 22 – "Faces and Mush", Kindle edition

psixoloq Hans Yürgen Eysenk "İnsanın bərabərsizliyi" əsərində qeyd edir: "İnsanların qeyri-bərabər yaradılması haqqında heç bir şübhə yoxdur. Onların genləri qeyri-bərabər inkişaf və görünüşü özündə ehtiva edir. Bərabərlik ideyası azadlıq ideyası ilə zidiyyət təşkil edir, ona görə də, qeyri-eqalitarian bioloji substratuma bərabərliyi təlqin etmək üçün fərdlərin azadlığı məhdudlaşdırılmalı və onlar birformalı qəlibə daxil edilməlidir"[88]. "Afrikada insanın təkamülü və tərəqqisi" adlı kitabında böyük arxeoloq Luis Bazet Likiy-in qeyd etdiyi fikirlərə nəzər yetirək: "bir sosio-antropoloq kimi elan edirəm və vurğulayıram ki, bəşəriyyəti müxtəlif irqlərə ayıran mental və psixoloji fərqliliklər vardır. Həqiqətən, bir Avropoid ilə Neqroid arasındakı mental və psixoloji fərqliliklər ən azı fiziki müxtəlifliklər qədər əhəmiyyətlidir"[89].

Bərabərsizliyi fəlsəfi olaraq təsbit etmək kəmiyyətə üstün gəlmək və keyfiyyəti qəbul etməkdir. Məhz burada fərd və şəxs anlayışları fərqliləşir. Fərd yalnız atomik vahid və ya kəmiyyətin krallığında sadəcə bir say olaraq dərk edilə bilər. Çünki o, sadəcə bir fiksiya və abstraktsiyadır. Fərdi varlıqlar arasındakı müxtəliflikləri minimallaşdırmaq, qarışıq və birformalı "məziyyətlərin" əhəmiyyətini vurğulamaq ideal və arzuolunan şərt kimi düşünülə bilsə də, standartlaşma, kütləłəşdirmə, fərdlərin hüquqlarının, azadlıqlarının və bərabərliyinin birformalılığı təbiətin kursunu dəyişmək və onu deqradasiyaya uğratmaq deməkdir. Bütün praktiki məqsədlər baxımından saf fərd orqanik deyil, qeyri-orqanik dimensiyaya məxsusdur. Ontoloji reallıqda proqressiv differensiasiya qanunu hökmrandır. Bu qanuna əsasən, reallığın daha aşağı dərəcələri yuxarı dərəcələrindən fərqlənir, çünki aşağı dərəcələrdə bütövlük bir neçə hissələrə parçalana və bu hissələr eyni keyfiyyətə sahiblənə bilər (partogenesis vasitəsilə özlərini yenidən yaradan bitkilər və heyvanlar kimi). Reallığın daha yuxarı dərəcələrində isə bu mümkün deyil, ona görə ki, ali orqanik birlik yalnız hissələri öz keyfiyyət, dəyər və funksiyasını itirdiyi zaman parçalana bilər. Məhz bu baxımdan da, atomik, qa-

---

[88] Hans Jurgen Eysenck – "The inequality of Man", William Collins Sons, Co Ltd., Great Britain, 1975, p, 23

[89] L.S.B.Leakey – "The progress and evolution of Man in Africa", Oxford University Press, 1961, p,15

dağasız (solutus) və "azad" fərd qeyri-orqanik maddənin hegemoniyasında analoji olaraq reallığın ən aşağı dərəcələrinə məxsusdur. Bərabərlik, yalnız sosial aqqreqat və ya primordial, heyvani *diataraksia* səviyyəsində mövcud ola bilər. Biz fərdə deyil, bütöv dimensiyaya, "şəxs"ə deyil, insani növlərə, formaya deyil maddəyə *primaria factum* olaraq önəm verdiyimiz zaman "bərabərlik" mümkündür. İnsani varlıqların bəzi aspektlər prizmasından bərabər olduqlarını inkar etmək olmaz. Lakin, bu aspektlər normal və tradisional sivilizasiyalar üçün bir "sin" deyil, "meion"-dur. Bu aspektlərə xüsusi dəyər yükləmək nəhəng tunc heykəllərə eyni yanaşmaq kimidir. Çünki ikinci halda da, heykəllərə tuncun sadəcə iş materialı olduğu özünəməxsus şəxsi ideyaların ifadəsi olaraq deyil, hamısında eyni maddənin varlığı perspektivindən yanaşılır. Bu referensiyalar sadəcə fərd, kütlə və yaxud sosial aqqlomerata qarşı olaraq şəxs və şəxsi dəyəri aydınlaşdırır. Şəxs öz keyfiyyələri ilə fərqliləşən, özünəməxsus simaya, təbiətə və onu digələrindən fundamental olaraq fərqliləşdirən attributlara malik olan fərddir. Şəxs, ümumi xarakteristikalarının özünü formalaşdırdığı, fərdiləşdirdiyi və differensiasiya olmuş özünüifadə formasına malik bir insandır. Bu istiqamətdə gedən və şəxsin öz təbiətinə uyğun olaraq özünü tamamlamasına səbəb olan istənilən vital, sosial, fərdi və əxlaqi proses yüksəliş deməkdir. Əksinə, hər bir insani varlığın bərabər olduğuna önəm və prioritet vermək reqressiya deməkdir. Bərabərlik iradəsi formasızlıq iradəsi ilə eyni bir şeydir. Hər bir eqalitarian ideologiya degenerasiya iqliminin barometrik indeksi, eləcə də degenerasiyaya gətirib çıxaran qüvvələrin bariz bir xüsusiyyətidir. Biz məhz bu şəkildə bərabərliyin "ölümsüz prinsipləri" və "nəcib idealı" haqqında düşünməliyik. Bu fəlsəfi müddəaları qeyd etməklə, liberal və inqilabçı prinsiplərlə sıx bağlı olan yanlışlıqları bir-bir ayırd edə bilərik.

"Təbii hüququn" şamil edildiyi fenomen ya ən qeyri-təbii bir şeydir ya da yalnız primitiv cəmiyyətlər üçün xarakterikdir. Bütün insanların bərabər olduğu və "təbiəti" etibarilə eyni hüquqlardan istifadə etdikləri yaxud zövq aldıqları tamamilə absurddur. Çünki, faktiki olaraq "təbiəti etibarilə" onlar eyni deyillər. Eyni zamanda, biz sadəcə naturalist olmayan düzənə baxsaq

görərik ki, "şəxs" nə birformalı keyfiyyət, nə birformalı şəkildə bölüşdürülən keyfiyyət, nə də ki hər kəsdə bərabər olan "dignitas"dır. Çünki şəxs "insanlıq" adlandırılan bioloji növlərdə tək bir fərdin sadəcə üzvlüyündən əldə oluna bilməz. Liberalların təbii hüquq doktrinasının dəstəkçilərinin vahid bir dillə ifadə etdikləri "insani şəxsin ləyaqəti" və bu ifadənin zəruri etdiyi hər şey onun həqiqətən mövcud olduğu yerdə vurğulanmalıdır, hər yerdə və yaxud hər kəsdə deyil. *Dignitas* anlayışı müxtəlif dərəcələrin varlığını qəbul edir. Belə ki, klassik ədalət konsepsiyası bu dərəcələrin hər birinə müxtəlif hüquq və müxtəlif azadlıqlar şamil edir. Hüququn fərqliləşməsi, iyerarxik ideya şəxs anlayışından qaynaqlanır. Çünki, bu anlayış müxtəlifliyə, formaya və fərqliləşən fərdiləşməyə istinad etmədən düşünülə bilməz. Bu prizumpsiyalar olmadan ümumiyyətlə insani şəxsə hörmət anlayışı yalnız irrasional və boş bir kazuistikadır. Şəxs domenində universal hüquq ideyasının əsaslana biləcəyi heç nə yoxdur və yalnız diskriminasiya vasitəsilə təbii hüquq iddiaları doktrinası hər kəs tərəfindən istifadə edilə bilər. Şüurlu və şəxsi "dignitas"ına malik olan hər kəs Kantın "kateqorikal imperativi" və onun deontoloji əxlaq sisteminə əsaslanan "insanlığın" qəbul edilməsinin yalnız dərin bir dekadensiya simvolu olduğunu dərk edə bilər. Antik müdriklik isə *suum cuique tribuere* – hər kəs özününkünü ver prinsipinə inanırdı. Platonun baxışına görə, spiritual Aristokratiyanın ən ali məsuliyyəti məhz bu prinsipdən doğan ədaləti təmin etmək idi[90]. "Respublika" əsərində o vurğulayır ki, bu Aristokratiyanın nümayəndələri spiritual formasızlıqdan uzaq durmalı, sağlamlıq və gözəllik məkanında yetişməlidirlər. Onlar vətəndaşların zövqlərinin aşınmasının qarşısını almalıdırlar[91]. Bərabərlik ideyasını dəstəkləyənlərin üzləşdiyi eniqma ondan ibarətdir ki, bərabərlik yalnız bərabərlər arasında, yəni obyektiv olaraq eyni səviyyədə olan və şəxsiyyətin analoji dərəcələrinə sahib olanlar arasında mövcud ola bilər. Ona görə ki, daha ali və ya daha aşağı dərəcələr ilə xarakterizə olunan-

[90] Platon "Respublika" adlı əsərində *Kallipolis* - ədalətli şəhər cəmiyyətini üç sinfə bölür: istehsalçılar, şəhəri işğalçılardan qorumaqda məsul olan savaşçılar və *Kidemenos* – spiritual Aristokratiya yaxud filosof-krallar.

[91] Plato – "Republic", www.idph.net, 18 de maio de 2002, p, 37

lar üçün azadlıq, hüquq və məsuliyyətlilik əsla eyni deyildir. Bu iki (azadlıq və bərabərlik) abstrakt prinsipə bir tamamlayıcı olaraq əlavə edilən digər bir "ölümsüz prinsip" – universal qardaşlıq da eyni məhdudiyyətlərə tabedir. Bu prinsipi fərq gözləmədən bir norma yaxud universal vəzifə olaraq təlqin etmək əsassız bir "ideya", içiboş səfsətədir. Qədim Yunanıstanda iyerarxiya ideyasının mütləq təsdiqinə görə "əsilzadəlik" və "bərabərlik" aristokratik konseptlər olaraq istifadə edilirdi. Spartada *homoioi* titulu yalnız hakimiyyətdəki müstəsna aristokratik elitaya məxsus idi. Analoji ideyaya qədim Romada, Nordik Alman xalqları arasında, Karolinqlər və Müqəddəs Roma imperiyaları dövründə, eləcə də Orta Əsrlərdə İngilis lordlarına verilən "zadəganlıq" titulunda rast gəlinə bilər.

Xüsusən də, XX əsrin ikinci yarısından sonra universal identitarianizm daxilində dünya xalqlarının sürətlə birformalılaşdırılması prosesi başlandı. Onlar arasında diversitarian instinkt tədricən aradan qaldırıldı. Mütləq identitarian instinkt insanın heyvani, diversitarian instinkt isə onun insani təbiəti ilə uyğunluq təşkil edir. Modern sivilizasiya qərarlı şəkildə universal identitarianizm yolunu təşviq edir. Birformalılığa doğru bu gedişatı hələ öz yaşadığı əsrində görən ingilis filosofu Con Stüart Mill "On Liberty" adlı əsərində Bentam utilitarianizmini rədd edərək bu tendensiyanın inkişafının maddi qurbanlar bahasına dayandırılmalı olduğunu vurğulayır. "Əgər həyat birformalı tipə endirilsə bu tipdən sapmalar qeyri-əxlaqi, qeyri-təbii və qorxuducu olaraq qəbul ediləcək. Bəşəriyyət müxtəlifliyin dərkindən sürətlə uzaqlaşmaqdadır"[92]. Birformalılığa doğru dəlicə yürüş yüz il əvvəl Monteskiyö tərəfindən də tənqid edilir. "Qanunların ruhu" adlı əsərində o vurğulayır ki, birformalılıq ideyaları böyük ağıllar tərəfindən irəli sürülsə də, daha çox kiçik ağılları öz təsiri altına ala bilir. XX əsrin digər bir nümayəndəsi Benjamin de Konstan da birformalılığın iflic edici məziyyətlərini bu şəkildə qeyd edir: "müxtəliflik orqanizasiya, birformalılıq mexanizmdir. Müxtə-

[92] Erik von KUENHELDT-LEDDIHN,– "Liberty or Equality", The Challenge of ou Time", (The Caxton Printers Ltd., Caldwell, Idaho, 2014), p, 15

liflik həyat, birformalılıq ölümdür"[93]. Konstana görə, Fransa inqilabından sonra demokratiyanın tam şəkildə totalitar qiyafədə ortaya çıxması ilə birformalılıq simptomu özünü dominant şəkildə nümayiş etdirməyə başladı. "Birformalılıq insan azadlıqları və hüquqları şüuarı ilə edilən bir inqilabda daha çox rəğbətə sahib ola bilər. Fransa inqilabı və bu inqilabdan doğan hərbi diktatorluq tərəfindən aparılan imperial metodlar birformalılıq prinsipinin daha da güclənməsi ilə nəticələndi." – deyə B.Konstan qeyd edir. Aristotelə məlum olan diktatorluq ilə bərabərlik arasındakı qarşılıqlı əlaqə ingilis esseisti Valter Bajehoya da sirr deyildi. Fransanın İkinci İmperiya dövrü haqqında qeydlərində Bajeho qeyd edir ki, "Fransa III Napoelon rejiminin asılı olduğu égalité siyasi prinsipi tərk edilsə imperiyanın bütöv fabriki tamamilə aradan qalxacaq. Fransada artıq heç kim heç nə etməyə qadi deyil - nə bir qraf, nə də ki bir proletariat". "Demonlar" adlı əsərində keçmişə deyil, gələcəyə dönən Dostoyevski də eqalitarian dəlilikdə tiraniyanın nəticəsini deyil, səbəbini görürdü: "Şiqalev "bərabərliyi" kəşf edən dahi bir insandır. O, cəmiyyətin bütün üzvlərinin bir-birinə nəzarət etməsini və öz qonşularını çuğullamaq vəzifəsinə bağlı olmalarını istəyirdi. Bu cəmiyyətdə hər kəs hər kəsə məxsusdur. Bu qullar yalnız öz köləliyində bərabərdirlər. Lakin, əhəmiyyətli olan odur ki, bərabərlik hələ də dominantdır". Yakob Burkhardt da vurğulayır ki, "modern dövlət kütlə ağılını əsas ölçü meyarı olaraq qəbul etməklə digər hər kəsi disiplinar tərzdə bu meyara tabe edir. Demokratiya *superiyor* entuziazmından məhrumdur. O inkar edə və ya aradan qaldıra bilmədiyinə təməlindən nifrət edir. Konvensional beyinlərin qorxunc məhsulu olan demokratiya yalnız bayağı və orta statistik insanlardan öz aləti kimi istifadə edə bilir. Bununla da, aşağıdan qaynaqlanan yeni inferiyor ruh qara instinktləri ilə idarə edilən və *superiyor* müstəsnalığa kin bəsələyən kütlələri ağuşuna almaqdadır". "Köləlikdə bərabərlik" ideyası ilə modern dikatorluqlar kultural-intellektual elitlərə və ya aristokratiyalara deyil, eqalitarian sistem və kütlələrin dəstəyinə arxalanırlar.

Eyni fəlsəfi dekonstruksiya inqilabi triadanın ilk termini olan azadlığa

---

[93] İbid., p,15

aid edilməlidir. "Şəxs" anlayışında olduğu kimi azadlıq anlayışı da eyni keyfiyyət və fərqliləşmə tərzində dərk olunmalı, müdafiə edilməlidir. Hər kəs insani varlıq və ya vətəndaş olmağın abstrakt, elementar faktı ilə deyil, öz funksiyası və şəxsi *dignitas-ı* ilə ölçülən layiq olduğu azadlıqdan faydalanmalıdır. Antik Avropanın Klassik düşüncəsində qeyd olunduğu kimi: *libertas summis infimisque aequanda* – azadlıq yuxarıya və aşağıya doğru bölüşdürülməlidir[94]. Bu şəkildə doğru qeyd olunduğu kimi, bir azadlıq yox, azadlıqlar var, eləcə də ümumi, mücərrəd azadlıq deyil, insanın öz təbiəti ilə uzlaşan artikulyasiya edilmiş azadlıqlar var. İnsan öz daxilində homogen azadlıq ideyasını deyil, klassik və antik prinsiplərə uyğun olaraq fərqliləşmiş və vəsfləndirilmiş *liberties* – azadlıqlar bütövlüyü ideyasını özündə yaratmalıdır. Libertarianizm və təbii hüquq tərəfindən iddia edilən azadlıq "bərabərlik ideyası" kimi sadəcə bir illüziyadır. Praktiki olaraq, bu sadəcə inqilabi bir silahdır: azadlıq və bərabərlik digər sinifləri aradan qaldırmaq və üstünlük qazamaq üçün müəyyən sosial strata və qrupların vaz keçmədikləri şüarlardır. Bu məqsədə nail olunduqda isə onlar kənara atılır. İngilis filosofları Con Stüart Mill və Frensis Bredli *freedom to do something* və *freedom for doing something* arasındakı fərqi aşkara çıxarmağın əhəmiyyətini qeyd edirlər. Siyasi sahədə birinci qeyd olunan azadlıq heç bir sosio-kultural bağın olmadığı formasız və neqativ azadlıqdır. Bu azadlıq sonda anomiya ilə nəticələnir. Eqalitarian və demokratik tərzdə hər kəsə verilməsi ilə azadlıq özü qeyri-mümkünlüyə çevrilir. Bərabərliyin olduğu yerdə azadlıq ola bilməz. Mütləq bərabərliyin hökm sürdüyü yerdə mövcud olan yalnız qarşılıqlı limitasiya daxilində çoxlu, fərdi, mexanikləşmiş və əhliləşmiş azadlıqlardır. Paradoks ondan ibarətdir ki, bu növ azadlıq liberal preferensiyalara zidd olan, yəni kiçik bir qrupa xüsusi imtiyazlar verməklə və nəticədə başqa hər kəsin total şəkildə boyun əydirilməsi ilə sosial məsələlərin həll olunduğu sistemlərdə reallaşdırıla bilər. Bu azadlıq növü daha da ifrat forma aldıqca tiran fiquru formasız azadlıq idealının yaxud konseptinin ən mükəmməl konkretləşməsi olur. *Freedom for doing something* isə hər kəsin öz təbiəti

[94] J.Evola – "Men among Ruines", p, 137

və funksiyası ilə bağlı olaraq tamamilə başqa bir xarakterizasiyaya malikdir. Bu azadlığın məzmunu insanın öz potensialını aktuallaşdırmaq və müəyyən sosio-siyasi kontekstdə özünəməxsus mükəmməlliyə nail olmaq gücünü özündə təcəssüm etdirməsindədir. İnsanın yalnız ali məziyyətlər və fəzilətli həyat uğrunda mübarizəsi ilə sahib ola biləcəyi bu azadlıq Qədim Yunanlarda *eleftheria* adlanırdı. Funksional və orqanik xarakterli bu azadlıq immanent və aşkar məqsəddən ayrıla bilməz. Bu növ azadlıq Klassik düşüncədə qeyd olunan "Özünü bil" (yunanca – *qnozi seauton.* Apollon Delfi məbədininin girişində qeyd edilən maksimadır. Pindar bu maksimanı *qenoi oios essi mason* – özün olmaq üçün özünü bil – formasında işlədir) prinsipi, keyfiyyət ilə fərqliləşən ədalət və hüquqa əsaslı gerçək azadlıqdır. Aristotel, Plato və Plotinus tərəfindən də qeyd edildiyi kimi ədalətlə uzlaşan yeganə institut hər kəsin özünəməxsus olana sahib olması və özünəməxsus olanı reallaşdırmasını təmin edən institutdur. Sxolastizmin "Qızıl Əsri" adlanan dövrdə də Katolisizm eyni həqiqət və etikanı özündə var edə bilmişdi. Orta Əsrlər Katolisizminin sosial doktrinasının təməllərindən birini sosial olaraq orqanik sistem daxilində hər bir varlıqda fərqliləşən "özünəməxsus təbiət" ideyası təşkil edir. Böyük rus filosofu N.Berdyaev də qeyd edir ki, azadlıq, hər şeydən öncə bərabərsizlik hüququdur. Canlı bir varlığın azadlığı kvalitativ bir fərqliləşmədə, bir yüksəlişdə, həyatına dəyər və essensiya qazandırmaq hüququnda reallaşdırılır[95].

Aydınlaşdırmalı olduğumuz digər məsələ isə insanın cəmiyyətdən yoxsa cəmiyyətin insandan öncə gəldiyi məsələsidir. Tradisional perspektivdən yanaşdıqda bu məsələ cəmiyyətə deyil, insana öncəlik verilməsi ilə həll olunurdu. Hər bir "sosial" tezis eyni kütlələşdirmə və reqressiv tendensiya ilə bağlı olan bir sapma - aberrasiyadır. Bu baxımdan, individualizm və anarxizm eyni məqsədlərin və eyni dekadent xarakterin ehtivasıdır. Sosial olan hər şey məqsədlər düzəninə deyil, yalnız vasitələr düzəninə məhkumdur. Özlüyündə bir varlıq olaraq cəmiyyət yalnız bir fetiş, canlandırılmış bir mücərrədlik –

[95] Nicolas Berdyaev – "The Philosophy of Inequality: Letters to my contemners concerning social philosophy", (Translated by Fr.S. Janos, frsj Publications, Fr. Stephen J. Janos, Pennsylvania, 2015), p, 147

abstraktsiyadır. Reallıqda, cəmiyyətə məxsus olan səviyyə bütövlükdə maddi, fiziki və infeiyor səviyyədir. “Cəmiyyət” və “kollektivlik” sinonimdir. Əgər biz, hipotetik kontrakt əsasında bir yerə toplanmış atomların cəmi olaraq ortaya çıxan fərdiyyətçi cəmiyyət interpretasiyasını rədd etsək görə bilərik ki, pozitiv, üstün və gerçək şəxs qarşısında cəmiyyət sadəcə bir fondur. Eyni zamanda, liberal-demokratik “dövlət” qarşısında şəxsin öncüllüyü də vurğulanmalıdır. Modernizm əsrinin heç bir tradisional və klassik kökü olmayan “dövlətçiliyi” qeyri-şəxsi “Dövlətdən”, kəskin hüquqi və bürokratik varlıqdan (Nitzşenin dili ilə “soyuq monster”) başqa heç nə olmayan bir aberrasiyadır. Hər bir cəmiyyət və Dövlət bir xalqdan ibarətdir. Fərdi insani varlıqlar onların ilkin elementidir. Hansı növ insani varlıqlar? Əlbəttə ki, atomlar və ya atomlar kütləsi olaraq fərdiyyətçilik tərəfindən düşünülən xalq deyil, yaratmaq, qurmaq, tabe olmaq və əmr etmək dəyərlərinə əsaslanan bir sosial iyerarxiya daxilində hər biri müxtəlif statuslara, müxtəlif hüquq və azadlıqlara sahib şəxslər və fərqliləşmiş varlıqlar olaraq düşünülən bir xalq... Yalnız bu şərtlər daxilində anti-liberal, anti-demokratik – orqanik Dövlət yaratmaq mümkündür. Tradisional Dövlət konseptinin arxasındakı ideya şəxsin abstrakt, sosial, siyasi və hüquqi varlıq üzərində üstünlüyüdür. Burada şəxs əsla ümumi bərabər səsvermə hüququ ilə kəmiyyət dünyasında mövcud olan neytral, düzləşdirilmiş bir say olaraq çıxış etmir. İnsani varlığın mükəmməlləşməsi hər bir sağlam sosial institutun tabe olduğu ümdə məqsəddir. Bu mükəmməlləşmə isə yalnız spiritual fərdiləşmə və proqressiv fərqliləşmə prosesi daxilində düşünülə bilər. Alman şərqşünası Pol de Laqard qeyd edir ki, humanitarianizm, “təbii hüquq” doktrinası və kollektivlik egidasına tabe olan hər şey *superior d*eyil, inferiyor dimensiyaya uyğun gəlir[96]. Bir cəmiyyətə və millətə məxsus insan yaxud bir şəxs, bir məziyyət ilə müqayisədə sadəcə naturalist və sosial xarakterli “bir insan” (modern fərd) olmaq inferiyor xarakteristikanın göstəricisidir. Şəxs olmaq sosial və horizontal müstəviyə üstün gəlməklə dərəcələrə, funksiyalara və məziyyətlərə doğru fərqliləşməklə piramidaya bənzər struktura uyğun olaraq vertikal şəkildə öz qurumlarında, funksional siniflərində,

[96] J.Evola, “Men among Ruines”, p, 139

korporasiyalarında yaxud xüsusi birliklərində müəyyən edilən siyasi dünyaya ehtiyac duyan bir fenomendir. Bu strukturun zirvəsində dayananlar isə özlərində "Mütləq Şəxs" fenomenini ehtiva edirlər. Mütləq Şəxs deyildikdə bir məqsədi, ağırlığın və bütöv sistemin təbii mərkəzini təmsil edən ali müstəvidə reallaşdırılan şəxs nəzərdə tutulur. Mütləq şəxs fərdə aşkar bir şəkildə ziddir. Fərdin məxsus olduğu vəsflǝndirilməmiş, sosiallaşmış, standartlaşmış və atomik birlik fundamental mümkünlüklərinin aktual sintezisinə malik olan şəxs ilə diametral ziddiyyət təşkil edən bir kollektivlikdir. Eqalitarian humanizmdən, "cəmiyyətdən", təbii qanun və millət ideyasına əsaslanan kollektivlikdən keçərək müxtəlif formalarda öz-özünə inteqrasiya edən şəxsiyyətə və nəhayət supra-şəxsiyyətə doğru yönəlmə aşağı dərəcələrdən varlıq və dəyər ilə dolu ali dərəcələrə yüksəliş deməkdir. İnsanın cəmiyyətin ilkin məqsədi olması prinsipi məhz bu cür başa düşülməlidir.

Nikolay Berdyaevə görə, fərd təbii, bioloji və sosioloji kateqoriyaya aiddir. O, bütövlüyün bir parçasından başqa heç nə olaraq düşünülməlidir. O yalnız bütövlüyə olan subordinasiyasında müəyyən edilə bilər. Fərd terminindən gələn fərdiyyətçilik nə bir bütövlüyə, nə də sosio-bioloji proseslərə münasibətdə müstəqillik anlamı daşıya bilər. Öz bioloji mənşəyi ilə fərd öz irsinin, eləcə də cəmiyyətinin determinasiyalarını özündə ehtiva edir. Fərdsiz heç bir insani növ, insani növsüz heç bir fərd yoxdur. Fərd, bioloji və sosial proseslərdə mövcudiyyət uğrunda mübarizəsi ilə təkamül edir. Ekzistensial olaraq fərd bütövlükdən müstəqil deyil və o, bütövlüyə münasibətdə qeyri-essensial şəkildə müəyyən olunur. Berdyaevə görə, fərd yalnız öz-özünə üstün gəldiyi və özünə təqdim edilən dünyadan özünü ayıra bildiyi – fərqliləşdirdiyi - zaman şəxsə çevrilir. Şəxs fərdin əksi olmaqla, mövcudiyyətin başqa – daha ali bir dimensiyasına məxsusdur. Şəxs olaraq insan bir *universum*, bir *mikrokosmos*-dur və sosial və ya bioloji deyil, spiritual kateqoriyaya aiddir. Şəxsin mənşəyi maddi dünyada deyil, tamamilə başqa – Tanrı və ya Tanrılar dünyasına məxsusdur. Universal mahiyyəti ilə özlüyündə bir bütöv olan Şəxsin kollektiv reallıqlar qarşısında aliliyi ondan ibarətdir ki, o, fərdin bir bütövlüyə tabe olması kimi kollektiv reallıqlara

tabe edilə bilməz. Şəxs olaraq insan isə özlüyündə bir *universum*-dur[97].

Millət anlayışına gəldikdə isə o, inqilabi deyil, pozitiv, konstruktiv və iyerarxik dəyərə sahib olmalıdır. Millət bir mistik orqanizm, tarixi prosesin fenomeni deyil, numenidir. Millət sadəcə bugün yaşayan canlı nəsil və ya bütün nəsillərin cəmi deyil. Millət primordial bir numen, tarixi prosesdə əbədiyyən canlı bir subyektdir. Onun daxilində sadəcə indiki deyil, bütün keçmiş və gələcək nəsillər yaşayır. Məhz bu perspektivdən "millət" özlüyündə "insanlığa" nəzərən daha müsbət xarakterli anlayışdır. Fərdiyyətçi dezinteqrasiyanın, internasional panmiksia və kapitalist-istehlakçı proletarianlaşmanın, eləcə də kütlələr və sadəcə iqtisadiyyat dünyasının bütün formalarına qarşı olaraq hər bir insani qrupun təbii müxtəlifliyi prinsipini təsdiq etmək üçün millət hüququnu hər vəchlə dəstəkləmək qanuni bir haqqdır. Qoruyucu sədd olaraq bu demarkasiyanı qoymaqla disiplinalar, strukturlar və iyerarxiyalar sistemində icra edilməsinə ehtiyac duyan fərqliləşmə dərəcələrini onun daxilində aktualizasiya etmək mütləqdir. Anti-tradisional ideologiyaların sahib olduğu azadlıq fərqliləşməmiş, qeyri-funksional və destruktiv xarakterli olmaqla yalnız zahiri və fiziki əhəmiyyətlidir. Bir fərdin emansipasiyasına əsla məhəl qoymayan bu ideologiyalar insanın "naturalist Mən"-indən azad olmasının əhəmiyyətini vurğulamadan sadəcə zahiri azadlıqdan bəhs edirlər. Keyfiyyət – məziyyət iyerarxiyaları daxilində hər bir *insani dignitas* məhz bu azadlıq ilə legitimləşdirilməlidir. Bu prizumpsiya ilə siyasi domen "etik" (əxlaqi deyil, spiritual mənada etik) domenə müdaxil olur. Həqiqi şəxsiyyət (personalità autentica) yalnız daxili azadlığın və fiziki "Mən" üzərində tam nəzarət tərəfindən şərtləndirilən xüsusi asketizm ilə realizə oluna və möhkəmləndirilə bilər. Bu təməllərin ilki odur ki, insanın başqalarından tələb etdiyi meyar onun özündən tələb edə bildiyi meyar tərəfindən diktə olunmalıdır. Özünə hökm edə və öz daxili dünyasına riayət edəcəyi bir məcəllə vermək qabiliyyətində olmayanlar əsla digərlərinə üstün gələ və öz spritual qanununu digərləri qarşısında təsdiq edə bil-

[97] Nicolas Berdyaev – "The Philosophy of Inequality: Letters to my contemners concerning social philosophy", (Translated by Fr.S. Janos, frsj Publications, Fr. Stephen J. Janos, Pennsylvania, 2015), p, 71

məzlər. Platonun söylədiyi kimi, öz daxilində bir *kirios*-a (kirios – spiritual lider) sahib ola bilməyənlər onu özlərindən kənarda axtarmalı olacaqlar. *Tabe olma* nizamı insanlara fiziki və maddi "Mən"lərinə" hökm edən bir *kirios* formalaşdırmağı öyrədir. Özlərini aristokratik ideyanın nümayəndələri olaraq təmsil edən ali insanlara loyallıq vasitəsilə Antik dövrün insanı öz gerçək təbiətinə yaxınlaşırdı. Spontan və təbii yolla təsdiqlənilən bu qanun dar rasionalizm egidasının diktəsi altına düşməzdən çox əvvəl tradisional sivilizasiyalarda xüsusi *fluidum,* orqanik və iyerarxik strukturların həyati substansiyasını yaratmışdı.

Sosial iyerarxiya daxilində ən ali mövqelərə yiyələnməyin yeganə yolunun fiziki güc, zorakılıq və ya terror vasitəsilə olduğunu söyləmək absurddur (arqument: insanlar yalnız qorxudan və köləlikdən itaət edirlər). Belə düşünmək insan təbiətini deniqrasiyaya uğratmaq, eləcə də ali həssaslıqların düçar olduğu kəskin atrofiyanın istinasız hər yerdə hökm sürdüyünü güman etməkdir. Alilik və hakimiyyət əl-ələ yürüyən fenomenlər olsa da, alilik hakimiyyətə deyil, hakimiyyət aliliyə (spiritual və metafizik mənada) əsaslanmalıdır. Belə liderlərdən *asılı olmaq* bir tabellik deyil, spiritual hakimiyyət və iyerarxik məziyyətlərin təsdiqidir. Bu tradisional və metafizik prinsiplər eqalitarian liberalizmin "ölümsüz prinsiplərinin" küt dəstəkçiləri üçün heç bir məna kəsb etmir. Qeyd olunan prinsiplər maddi həyat sisteminə və bütövlükdə insani varlıqlar üzərinə bir dəyər, nizam və haqlılıq bəxş edə bilən ali fərdlərin mövcudluğudur. *Superior-a e*htiyac duyan *inferior*-dur, inferiyora ehtiyac duyan *superior* deyildir. Mövcudiyyəti daha geniş bir düzən daxilində bir spiritual mərkəz tərəfindən ehtiva olunmadığı üçün bir inferiyor natamam həyat yaşamaqla kifayətlənir. İnsan təbiətinin irəli sürə bildiyi nəcib məziyyətlər anodin, dar demokratik və sosial ideologiyalarda mümkün deyildir.

İndi isə, utilitarian sosiologiyanın irrasionalizminə toxunaraq onu qeyd edə bilərik ki, bu doktrinada "faydalı" olan şey hər bir sosio-siyasi institutun pozitiv təməli olaraq görülür. Lakin, "faydalılıq" konseptindən daha nisbi bir şey tapmaq qeyri-mümkündür. Nə üçün və hansı baxımdan "faydalı"?

Əgər bu faydalılıq ən amansız, maddi, hesablayıcı, *trivial* forma ilə məhdudlaşırsa onu deməliyik ki, insani varlıqlar nadir hallarda dar mənada başa düşülən faydalını izləyərək düşünür və hərəkət edirlər. Önəmsiz faydalılıq deyil, emosional və irrasional motivasiyaya sahib olan hər şey insani davranışlarda daha böyük rol oynayıb və oynayacaq. Bu faktı qəbul etməmək insan tarixinin böyük bir hissəsini idrak edilə bilməz hala gətirəcək. Daha ali imkanları, qəhrəman-fədakar xarakteri özündə əks etdirən bir azadlıq hər zaman var. Bütün iyerarxik strukturları canlandıran məhz bu aristokratik-spiritual azadlıqdır. İnsanın deqradasiyaya uğramış və mütiləşmiş obrazından başlamaq və tarixi iyerarxiyalarda birbaşa və məğrur alilik prinsipinə inferiyorun tabe olmadığına inanmaq kəskin bir distorsiyadır. Həqiqi siyasi düzənin, yəni Dövlətin daha ali və daha gerçək legitimləşməsi anaqoji funksiyada – fərdləri fəaliyyət göstərmək, düşünmək, yaşamaq, öz-özünə üstün gəlmək və nəhayət öz fərdiliyindən daha ümdə olan bir şey üçün fədakarlıq etməyə sövq edən funksiyada gizlidir. Beləliklə, fərdə özü deyil, özündən daha üstün olan spiritual-metafizik bir qüvvə rəhbərlik edir. Lakin, modernizm əsrində, fərdin ekstaziyalarını təşviq edərək "özündən kənarda varlığı" ortaya çıxaran demonik elementlərin iştirakını müşahidə edə bilərik. Burada mövcud olan anaqoji deyil, kataqoji – inqilabi fenomendə fəaliyyət göstərən və hər bir kollektivist ideologiyada konkretləşdirilən – gücdür.

Bütün orqanik doktrinaların anti-tezisi olan liberalizmdə öncül element şəxs olaraq deyil, formasız azadlıqda mövcud olan fərd olaraq nəzərə alınan insani varlıqdır. Bu "fəlsəfə", cəmiyyəti də düzən və dəyərin ali qanununu əks etdirməyən və bir-birinə münasibətdə aksiya və reaksiya göstərən qüvvələr və varlıqların mexaniki "interplay"i olaraq dərk edir. Liberalizm düşüncəsindəki "dövlət" subyektlərinə münasibətdə qeyri-essensial xarakteri olan parodik dövlətdir. Hakimiyyət dövlətə suveren fərdlər tərəfindən əmanət edildiyinə görə, "dövlət" yalnız onların azadlıqlarının təhlükəsizliyini təmin etmək üçün və bu azadlıqlar bir-birilə toqquşduğu zaman müdaxilə edə bilər. Başqa bir sözlə, siyasi düzən keyfiyyət və spesifik funksiya ilə bağlı olan azadlığın özünü daxildən ifadə edə bildiyi bir forma deyil,

sadəcə bir limitasiya, fiziki-maddi azadlıqların tənzimləməsidir.

Liberalizmin kabusuna çevrilən ən böyük reallıq totalitarizmdir. Lakin, totalitarizmin orqanik Dövlətin deyil, məhz liberalizmin prizumpsiyalarından ortaya çıxdığını söyləməliyik. Çünki, öz qanunu və forması olmayan fərdlər üzərinə birformalı düzən konseptinin təlqin edilməsini məhz totalitarizmdə müşahidə edə bilərik. Partizan qüvvələrinin və xaotik nizamsızlığın ortaya çıxmasının qarşısını almaq üçün fərdləri mexaniki, hər şeyi içində absorbsiya edən bir sistemə daxil edən liberal *totalitarizmdir.* Hanna Arent qeyd edir ki, kəskin sosial yadlaşma, yalnızlıq və təcridolma modern Qərb cəmiyyətlərindən əsla yox olmayacaq totalitar fenomenin ilk müjdəçisidir[98]. Yerusalem Universitetinin Modern Tarix üzrə professoru Yakob Talmon "Totalitar Demokratiyanın Kökləri" adlı kitabında modern totalitarizmləri millennial utopiyalar, dini və xiliastik inanclar, eləcə də onların XVIII əsrdə ortaya çıxan sekulyar törəmələri ilə əlaqələndirir. "Totalitar demokratiya Qərb dəyərlərindən kənarda deyil, XVIII əsr ideyalarının ümumi irsində inkişaf edən bir fenomendir. Fransa inqilabının gedişində separat bir trend olaraq ortaya çıxan totalitarizm o zamandan bəri qırılmaz davamlılığa sahibdir". Totalitarizmi ortaya çıxaran modern sekulyar dinlər Markiz de Kondorse və Qabriel Bono de Mablinin əsərlərində, habelə Russonun "Ümumi İradə" nəzəriyyəsində aşkar şəkildə müşahidə edilə bilər. Y.Talmon qeyd edir ki, "Ümumi İradə" konseptini xalq suverenliyi və xalqın özünü ifadə etməsi prinsipi ilə çulğalaşdıran Russo totalitar demokratiyanın doğuşuna səbəb oldu[99].

Təkcə ideal olaraq deyil, həmçinin tarixi olaraq da liberalizm və liberal fərdiyyətçilik modern subversiyanın müxtəlif amma bir-birilə əlaqəli formalarının kökündə dayanır. Orqanik dəyərə sahibliyini itirməklə və ali spiritual hakimiyyət prinsipini qəbul etməməklə fərdə çevrilən şəxs sadəcə bir say, kütlə daxilində bir vahid, təsirsiz elementdir. Liberalizmdən demokratiyaya

---

[98] Hannah Arendt – "The Origins of Totalitarianism", (New York: Meridian Books, 1958), p,311

[99] Jacob Leib Talmon – "The Origins of Totalitarian Democracy", Mercury Books, London, 1919, Chapter III (38-50) – Totalitarian Democracy (Rousseau), General Will, Popular Sovereignity and Dictatorship

və demokratiyadan sosialist formalara keçid bütövlükdə kollektivizmə əsaslanır. Üçüncü Silkin inqilabı tradisional sosio-siyasi dünyanın eroziyasının başlanğıcını qoymaqla yanaşı, liberalizmin yüksəlişinə yol açdı. Dezinteqrasiya və dezorqanizasiyanın ilkin vəzifəsini icra edən liberalizmin epiqonu (epiqon – xələf) daha destruktv Marksizm oldu. Tasitus qeyd edir: *Ut imperium evertant, libertatem praeferunt, si perverterint, libertatem ipsam adgredientur* – "onlar Dövləti (İmperium hakimiyyəti və suverenliyi) yıxmaq üçün azadlığı dəstəklədilər. Azadlığa nail olduqdan sonra onun özünə qarşı çıxacaqlar". Platon isə vurğulayır: "Tiraniya demokratiyadan – köləliyin ən kəskin formasından – başqa heç bir konstitusiyadan qaynaqlanmır". Liberalizm və individualizm total qlobal subversiya planında yalnız alət rolunu oynadılar. Liberalizm, konstitusionalizm, parlamentar demokratiya, sosializm, radikalizm, kommunizm tarixdə eyni xəstəliyin bir-birilə bağlı mərhələləri olaraq ortaya çıxdı. Fransa inqilabı və liberalizm olmasaydı konstitusionalizm və klassik-aristokratik köklərindən qopmuş demokratiya mövcud ola bilməzdi. Demokratiya və Üçüncü Silkin burjua-kapitalist sinfi olmasaydı sosializm və demoqojik nasionalizm ortaya çıxmazdı. Sosializmin qoyduğu əsas olmasaydı, biz millətçi və proletarian-internasionalist formalarında radikalizm yaxud kommunizmin yüksəlişinə şahidlik etməzdik. Bütün bu formalar ya birlikdə mövcuddur ya da bir-biriləri ilə rəqabət içərisindədir. Lakin bu, bəsirətli gözün onların bir-birini möhkəmləndirdiyi və qarşılıqlı olaraq şərtləndirdiyini reallığını görməsinə əngəl olmamalıdır. Onlar eyni qlobal kollapsın müxtəlif dərəcələrinin ifadəsidir. Onlar bir-birilə toqquşduğu zaman ortaya çıxan daha dağıdıcı və subversiv ideologiya olur. Qərbdə, öz spiritual və metafizik köklərindən ayrılan atomlaşmış fərdin sahib olduğu yalnız boş və illüziyonar azadlıqdır. Platonun da qeyd etdiyi kimi, formasız azadlıqdan ortaya çıxan sadəcə ən böyük və ən vəhşi köləlikdir.

Kapitalist istismarın və sinik anti-sosial plütokratiyanın müxtəlif formalarını yaradan iqtisadi liberalizm dəyərlərin təbii iyerarxiyasında və orqanik sistemin ümumi mühitində var olan daxili qanundan, öz-özünə təlqin edilən funksiya və məhdudiyyətdən məhrum olan fərdi *solutus* halına gəti-

rən intellektual emansipasiyanın yekun nəticələrindən biridir.

Yuxarıda qeyd olunan analoji reallıqlar xüsusi mülkiyyət sektorunda da müşahidə edilə bilər (xüsusən də Fransa inqilabının yaratdığı institutlardan sonra). İqtisadi dünyada Orta Əsrlər - feodal idealları tərəfindən təlqin edilən hər şeyi imtiyazlara əsaslı “drakonik rejim” olmaqda ittiham edilməsi ilə şəxsiyyət və mülkiyyət, sosial funksiya və sərvət, spiritual zadəganlıq və malların legitim, hüquqi sahibliyi arasındakı fərqlər tam olaraq aradan qaldırıldı. Sözün ən fərdiyyətçi və inferiyor mənasında mülkiyyəti neytrallaşdıran və xüsusiləşdirən Napoleon məcəlləsi oldu. Bu məcəllə ilə mülkiyyət artıq siyasi funksiya və *desmos* olmayacaqdı. Üstəlik, bundan sonra mülkiyyət nə “eminent hüquqa”, nə spesifik məsuliyyətliliyə, nə sosial rütbəyə, nə də ali hüquqa tabe olmamalı idi. Mülkiyyət və sərvətin maliyyə münasibətləri xaricində dövlət qarşısında hər hansı öhdəliyi də olmayacaqdı. Mülkiyyətin subyekti dominant marağı heç bir vicdani prinsip və heç bir qan, ailə, *Volk* ənənəsinə məhəl qoymadan mülkiyyəti istismar edən sadə bir “vətəndaş” olmalı idi. Sərvət və mülkiyyət neytrallaşdıqca, qeyri-siyasiləşdikcə müxtəliflik və mənsəbin, şəxsiyyət və hakimiyyətin ali dəyəri ya bütövlükdə inkar edildi ya da degenerasiya və materializasiya prosesləri ilə təməlindən sarsıdıldı; siyasi sfera da özlüyündə köklü *dignitas-d*an məhrum edildi. Bir daha, biz burada onu müşahidə edə bilirik ki, modern sosial və siyasi xaosun fərqli aspektləri tamamilə bir-birinə bağlıdır. Onlar Avropanın spiritual və metafizik köklərinə qayıtmaqdan başqa hər şeyə *açıqdırlar.* Bu köklərə qayıtmaq isə sosio-etno-kultural və siyasi-iqtisadi sahələrdə Fransa inqilabının doğurduğu eqalitarian düşüncə, libertarianizm və fərdiyyətçilik kimi “ölümsüz prinsiplərə” qarşı çıxaraq insanın fərd olaraq deyil, şəxs olaraq həqiqi azadlığı və dəyərinin hakim olduğu iyerarxik ideyalara yenidən sahiblənməkdir.

# MODERN ELMİN PROSEDURALARI VƏ BİLİYİN DİSSOLYUSİYASI

*"Science sans conscience n'est que la ruine de la âme"*

F.Rabelais

Sosialistləşən, pul və kapitalın əsarətinə keçən spiritual *auctoritas* kimi elm də şəxssizləşdi, sosialistləşdi və sadəcə “psevdo-konseptə”, “rasionallığa” çevrildi[100]. Həm fəlsəfə, həm də Qərb pozitiv elmi essensiyası etibarilə fundamental olaraq sosialist, demokratik və anti-iyerarxikdir. Onlar yalnız universal olaraq tanınan, hər kəsin razılaşa və öz həyatına uyğunlaşdıra biləcəyi bir şeyin “həqiqət” olduğunu güman edirlər. Siyasi demokratizmin çoxluq kriteriyasında olduğu kimi onlar kəmiyyətin kriteriyasına əsasən bərabərliyi ön şərt olaraq irəli sürür və məziyyət imtiyazını eləcə də məziyyətin bərabərsizliyi prinsipini rədd edirlər. Artıq sekulyar fəlsəfənin konseptual tərzində bir elm adamı özünü bu fəlsəfənin təməlini təşkil edən demokratik, şəxssiz və kollektivist prinsplərə tabe edib. Özünü iyerarxiya vasitəsilə yuxarıdan aşağıya doğru təlqin etmək əvəzinə modern elm haqlılıq qazanmaq üçün populyar tanınmalara müraciət edir. Pul, ona sahib olan fərdlərin keyfiyyətini tanımadığı kimi, müasir insanların “biliyi” də onlarda keyfiyyət baxımından heç nə formalaşdırmır. Daha dəqiq desək, bərabərlik iradəsi, anti-iyerarxik dözümsüzlük və sosialist xürafatın sayəsində Avropalıların biliyi elə bir aberrasiyaya çevrildi ki, fərdi müxtəlifliklər və bilik vasitəsilə aktiv fərdi differensiasiya şərtləri minimuma endirildi. Bununla da, fiziki təcrübəyə və yalnız fiziki-bioloji şərtlər daxilində insanların bərabərliyinə inanan pozitiv elmi “bilik” mücərrədlik və verbal konvensiyalar (rasionalizm və modern fəlsəfə) dünyasından ayrılmaz bir hala gəldi. Biliyin sosialistləşməsi ehtiyacı onun mücərrədləşməsinə səbəb olmaqla yanaşı, biliyin özü ilə həyat, bilik ilə varlıq, eləcə də fenomenlərin keyfiyyəti ilə metafizik reallıq arasında nəhəng bir uçurum yaratdı. Qərbdə, maddi şeylərin ən zahiri, ən kuantitativ və ən birformalı aspektlərinə endirilə bilməyən düşüncə “qeyri-reallığa”, boş məntiqi sxematikalara tərk edilərək intellektual idmana çevrildi. Ona görə də, P.Tüyer modern elmi tərəqqini “mücərrədləşməyə və kəmiyyətləşməyə doğru tərəqqi” olaraq xarakterizə edir[101]. Modern ruhun

[100] Julius Evola–“Imperialismo Pagano”,(Edizioni Mediterranee, Via Falminia, Roma, 2004), p, 110
[101] Pierre Thuillier–“D’Archiméde à Einstein. Les faces cachées de l'invention scientifique”, (Librairie Arthéme Fayard, 1988), p,117

bütövlükdə *batil inancı* məhz buradan gəlir: küy və qaynaşma içərisində vurnuxan insan mücərrədliyi mücərrədlik üzərinə toplayan elmdən özünü asılı edərək həyata və reallığın özünə hökm etmək qabiliyyətində olmayan, mexaniklik və zahirilik içərisində özünü tükədən, daxili varlığı və qanunundan məhrum bir kölədir.

Platonun qeyd etdiyi "Müdrik olanlar idarə etməlidir" prinsipi şeylərin hər bir rasional düzəni üçün mərkəzi və mütləq əhəmiyyətə malikdir. Lakin, biliyi texnoloji rəqabət, pozitiv elm və ya fəlsəfiləşən spekulyasiya ilə assosiasiya etməkdən daha gülünc bir şey yoxdur. Bilik, klassik Qərb və Şərq ənənələrində açıqca göstərildiyi kimi Sapiensia ilə üst-üstə düşməlidir. Sapiensia aristokratik, fərdi, real, substansial, orqanik və kvalitativdir. "Sivilləşmiş" modern insanın biliyi isə demokratik, sosial, universalist, abstrakt, düzləşdirici və kvantitativdir. Burada, bir-birinə zidd iki müxtəlif dünya, iki müxtəlif görüş və ya təsəvvür var. "Sapiensia"ya görə, bilmək düşünmək deyil, bilinəni yaşamaq, onu daxilən reallaşdırmaqdır. İnsan bir şeyi yalnız öz şüurunu aktiv şəkildə ona transformasiya etdiyi zaman bilir. Ona görə də, yalnız birbaşa fərdi təcrübədən qaynaqlanan şey bilik olaraq nəzərə alınır. Lakin modernist düşüncəyə görə, fərd üçün birbaşa özünü göstərən hər bir şey "fenomena" yaxud "subyektiv" adlandırılır və onun arxasında güman edilən yaxud təsəvvür edilən bir şeyin "həqiqi reallıq" olduğu irəli sürülür. Mütləq pozitivizm olaraq, Sapiensia yalnız birbaşa təcrübə ilə əldə olunanın real, qalan hər şeyin isə illüziyonar, mücərrəd və qeyri-real olduğunu vurğulayır. Modern bilik isə yalnız fiziki hisslərin təmsil etdiyi sonlu və şərti şeylərə endirilib. Bu, yalnız sonluluğa və şərtiliyə iddia edə bilən böyük insan kütlələri üçün məhz belə olmalıdır. Lakin, tradisional, metafizik xarakterli elm daxili transformasiyanın müəyyən aktiv prosesləri ilə nail olunan təcrübə formalarının mümkünlüyünü özündə ehtiva edirdi. Belə transsendental təcrübələrin özünəməxsusluğu onların birbaşa, konkret və supra-fərdi olmasında, həmçinin sensoral olan hər şeyin şərti və zaman-məkan aspektlərinə üstün gələn reallığı görə bilməsindədir. Tradisional biliyi yox etmək istəyən elm bunu sadəcə ehtimallar,

anlaşılmaz birformalılıqlar və mücərrəd interpretasiya prinsipləri daxilində edir.

Metafizik reallığın tradisional prinsipinə görə nə sonlu, nə də mütləq reallıq var. Var olan yalnız reallığı təcrübə etmənin sonlu və mütləq tərzidir[102]. “Bilik problemi” bir mədəniyyətdən deyil, hər bir varlığın özünü insani olandan – sensoral, rasional və emosional olandan azad etməsi, özünü metafizik təcrübənin bu və ya digər forması ilə eyniləşdirməsindən və spiritual təxəyyül, eləcə də bilinən bir şeyin “Mən”-də, “Mən”-in isə bilinən bir şeydə suprasensual və supra-rasional tamamlanmasından asılıdır. Bu, metafizik təlimlər və spiritual elmin təməlini təşkil edən “Sapiensia”nın mahiyyəti və dəyəridir. Məhz onun inisiasiya ritualı bilik və metafizik təsəvvür üçün əhəmiyyətli olan şüurun transformasiyası ilə nəticələnirdi. Bu dəyər hətta Semitləşmədən sonra belə Qərbdə uzun müddət öz ənənəsini gizli formada da olsa saxlayırdı. Sekulyar elmdən fərqli olaraq müqəddəs və sapiensial elmdə əhəmiyyət kəsb edən varlıq və onun spiritual transfiqurasiyasıdır. Bu elm kitablarla yaxud universitetlər ilə öyrədilə və ya sözlərlə nəql oluna bilməz. Onu qazanmaq üçün şüurun transformasiyası və ali həyat uğrunda ümumi həyata üstün gəlmək mütləqdir. O, fərdin həyatının reallığını və keyfiyyətini ölçməklə yanaşı, onun orqanik bir hissəsinə, toxunulmaz imtiyazına çevrilir. Dolayısı ilə, müqəddəs və sapiensial elm bir konsept və ya bir anlayış olaraq insanın beyninə yerləşdirilə bilməz. “Sapiensia”nın təbii aristokratiyası populyarlığı və kommunikativliyi rədd edir. Birformalılığın olmadığı, kvalitativ fərqliləşmənin təsdiq olunduğu yerdə bir kriteriya kimi diskursiv kommunikativlik mövcud ola bilməz. Sosialistləşməyə, şəxssizləşməyə, biliyin konseptualizasiyasına, demokratik populyarlaşma meyilliliyinə, inferiyorun məqsədləri üçün superiyoru zəiflətməyə, spiritual transformasiya – *metanoia* olmadan çoxluğun “bilik qazanmada” iştirakına qarşı dayanan aristokratik mövqedir. Bu düşüncəyə görə, biliyin özündə iyerarxiyalar, bir-birindən dərin, keçilməz körpülər vasitəsilə ayrılmış həyatın və gücün

[102] Edgar Morin – “Science avec conscience”, (Librairie Arthème Fayard, 1982)

keyfiyyətlər, idiosinkratik fərdiliklər ilə uzlaşan çoxsaylı həqiqətlər mövcud olmalı, bilik aristokratiyası daxilində kommunikativ, demokratik və birformalı tərzdə dərk olunan “universallıq” bir kriteriya kimi var olmamalıdır. Sosiallaşmış bilikdə hər zaman gizli bir “sən etməlisən”, gizli bir qeyri-tolerant və moralist - əxlaqçı qadağalar mövcuddur: “elmi və ya fəlsəfi həqiqət” hər kəs tərəfindən *həqiqət* olaraq qəbul edilməli olduğu üçün onun qarşısında insana müxtəlif mövqe sərgiləməyə icazə verilmir. Kollektiv despotizmin bir ifadəsi olaraq onun məqsədi hər kəsi bərabərləşdirməklə onların üzərində despotik krallığa nail olmaqdır. Sosiallaşmış elm öz silahını və zorakılığını bu əsaslarla qurdu. Aristokratik “Sapiensia”ya görə isə fiziki-bioloji fərdiyyətçilik aradan qaldırılır və spiritual fərdiyyətçilik bərpa olunmaqla fərd özünə qaytarılır. O, həyatını daha dəqiq və dərindən ifadə edən *sui-generis* həqiqətinə sahib olur. Bu, yalnız Sapiensia iyerarxiyasının əsaslandığı differensiasiya ilə mümkün olan, başqasını inkar etmədən reallığı yaşamanın və onu ifadə etmənin xüsusi tərzidir. Sapiensia düzənində bilik iyerarxiyası əzəmət və fərdlərin aliliyi iyerarxiyası ilə eyni zamanda və birlikdə mövcuddur. Bilmək var olmaq və daxili hakimiyyət deməkdir. Məhz bununla o, *İmperium* ləyaqətini spontan şəkildə özünə doğru çəkir. Biliyi yalnız metafizik olaraq dəyərləndirən tradisional doktrinaların təməli elə budur.

Modernizm əsrində onu söyləməliyik ki, bilik imtiyazına sahib olduqlarını iddia edən gözlərsiz eynəkli intellektuallar və “professorlar”, universitet dünyası və elit-akademik çevrələr yalnız modern insanın mücərrədləşməsi və onun metafizik qürubunu sürətləndirə biliblər.

Modern elm tarixən etinasızca yanaşılmış və ya tədqiq edilməmiş sahələrdə fenomenlər haqqında kəskin informasiya artımına səbəb olmaqla insanı reallığın dərinliklərinə yaxınlaşdırdığını iddia etsə də, insan reallığın gerçək mahiyyətindən uzaqlaşdırıldı. Elmə görə, təbiətin “həqiqətən” nə olduğunu “bilmək” üçün konkret intuisiyadan xilas olunmalıdır. Bu baxımdan, modern elm özündən əvvəlki – materialist elm üzərində heç bir üstünlüyə sahib deyildir. Bəşəriyyətin mexanist konsepsiyası insana

primitiv formada da olsa bir şey təmsil etməyə icazə verirdi, lakin riyazi fizikanın varlıqları insanın heç nə təmsil edə bilməməsinə xidmət edir. Onlar konkret, intuitiv, canlı və real anlamda bilmək naminə deyil, dərinlikləri insana həmişəkindən daha sirli və qapalı olan təbiət üzərində zahiri güc qazanmaq üçün hazırlanılan və mükəmmələşdirilən bir şəbəkənin parçalarıdır. Təbiətin sirrlərinin üzəri qapadılması və texno-sənayenin gözqamaşdıran uğurları ilə diqqət dünyanı dərk etməyə çalışmağa deyil, onu insanlığın dünyəvi məqsədləri üçün dəyişdirməyə yönəldildi. Modern elmdə spiritual dəyərdən danışmaq yalnız bir falsifikasiya ola bilər. Çünki o, maddə əvəzinə enerjidən bəhs edir, "kütləni" sadəcə olaraq "koaqulyasiya tərəfindən formalaşmış radiasiyalar" olaraq görür, məkanların üçdən daha çox dimensiyalara sahib olduğunu güman edir. Mücərrəd riyazi anlayışlar və mütəxəssislərin nəzəriyyələrindən kənarda onların heç birinin mövcudiyyəti yoxdur. Erkən fizikanın prinsiplərini əvəz edən bu anlayışlar dünyanın modern insan tərəfindən effektiv təcrübəsində heç bir dəyişikliyə səbəb olmadı. Bir hipotezisin digəri ilə əvəzlənilməsinin real ekzistensiya ilə heç bir əlaqəsi yoxdur, bu əvəzlənilmə yalnız içiboş divaqasiyalara yönəlmiş maraqlar üçündür. Maddənin deyil, enerjinin mövcud olduğu, Evklidian – üçdimensiyalı məkanda deyil, dörd və ya daha çox dimensiyalı qövsvari məkanda yaşadığımızın elan edilməsi ilə şeylər olduğu kimi qaldı, insanın aktual təcrübəsi zərrə qədər də dəyişmədi, onun gördüyü hər bir prosesin və ya fenomenin yekun əhəmiyyəti ona daha çox şəffaf ola bilmədi. Buna görə də, spiritual və həqiqi intellektual şərtlərdə nə transsendentallıqdan, nə də dərinləşən bilikdən danışmaq mümkündür[103]. Modern insan yalnız zahiri dünyanın digər sektorları barəsində anlayışların kəmiyyətə əsaslanan ekstensiyasından danışa bilər. Praktik faydalılıqdan kənarda bu anlayışlar sadəcə kurioz dəyərə sahibdir. Modern elm materializm və klassik fizika eralarına nisbətən insanı reallıqdan daha da uzaqlaşdırmaqla reallığı onun üçün əlçatmaz hala gətirdi. Modern insan üçün reallıq digər sivilizasiyaların insanlarına nisbətən daha uzaq və

---

[103] J.Evola – "Chevaucher le tigre", p, 170

daha əlçatmazdır. Modern elmi təsəvvürün dünyanı müqəddəsizləşdirməsi və dünyanın "elmi bilik" tərəfindən desakralizasiyası müasir insanı ortaya çıxaran və onu "sivilləşdirən" ekzistensial elementlərdən biridir. Məcburi təhsilə tabe edilən və beyni "pozitiv" elmi anlayışlarla doldurulan insan öz çevrəsindəki ruhsuz dünyanı görərək destruktiv "fəaliyyət göstərir".

İnkişafı nə olur olsun, modern elmin həddlərini müəyyən edən sərhədin konstant başlanğıc nöqtəsi bəsit duyğu-biliyi ilə bağlı olan "Mən" və "qeyri-Mən" arasındakı dualist, zahiriləşmiş münasibətə əsaslanıb. Bu münasibət bütün modern elm məbədlərinin dəyişməz və sabit əsasıdır. Onun bütün alətləri fiziki hisslərin intişarı, təkmilləşməsi və ya "saflaşması" kimidir. Onlar başqa bir biliyin – həqiqi biliyin alətləri deyillər. Modern elmin təqdim etdiyi dördüncü dimensiya fiziki təcrübənin fövqündə idrakın dimensiyası deyil, fiziki dünyada başqa bir dimensiyadır. Bütün elmi və texnoloji tərəqqinin nəticəsi daxili staqnasiya və hətta barbarlığa qayıdışdır. Daxili tərəqqi ilə müşayiət olunmayan belə proqress insanın konkret və essensial situasiyası ilə heç bir bağlılğa sahib deyil. Həqiqət budur ki, insan nə bilik, nə özünün gerçək gücü, nə də davranışların ali qanunu haqqında texno-elmi tərəqqidən heç nə əldə edə bilməyib. Tarixən yanaşsaq, nə hidrogen bombasının gücü, nə nüvə enerjisinin əldə edilməsi və istifadəsi, nə də ki rəqəmsal texnologiyaların sürətli tərəqqisi tək bir insanın belə spiritual olaraq güclənməsinə və ya konkret fiziki varlığına üstün gəlməsinə səbəbiyyət verməyib. Mexaniki, zahiri və qeyri-essensial gücün bu formaları insanı toxunulmaz saxlayır. Əlində olan ən modern texno-elmi vasitələr ilə o nə daha alidir, nə də ki daha güclü, əksinə instinktlərinə, ehtiraslarına və qeyri-adekvatlıqlarına daha çox məhkum edilən modern insan zəif və aberrant formada dəyişkəndir. Moderin elmin "fəaliyyət qanunları" və onun insana verdiyi zəngin vasitələr sistemi bütövlükdə məqsədlər probleminin qeyri-müəyyən olaraq qalmasına gətirib çıxarıb. Ona görə də, modern dünyanın surətini belə təsvir etmək daha məqbuldur: "Mərkəzində xaos olan daşlaşmış bir meşə". Bəziləri atom əsrində enerjinin misligörünməmiş akkumulyasiyasının finalist baxışını

irəli sürməyə çalışırdılar. Teodor Litt bildirirdi ki, insan bu və ya digər istiqamətdə risk almaqla, məsuliyyətliyi öz üzərinə götürməklə və azad iradəsindən istifadə etməklə böhran situasiyası qarşısında öz təbiətini reallaşdıra bilər. Bu qərar atom enerjisinin hərbi və destruktiv məqsədlər üçün istifadəsinə qarşı yönəldilməli idi. Lakin, mütləq dissolyusiya əsrində bu ideya reallıq anlayışından məhrum intellektuallara məxsus, tamamilə mücərrəd və fantastik görünür. Çünki, hələ də bir daxili qanuna və hansı kursun izlənilməsi barəsində əmin ideyalara sahib olan insanların varlığını öncədən bir şərt olaraq zəruriləşdirir. Digər tərəfdən, bugünün texno-iqtisadi liderləri hər bir real spiritual nəzarətdən yayınan aksiyaların və reaksiyaların torundan kənara çıxa bilmirlər. Yalnız irrasional və kollektiv təsirlərə boyun əyməklə onlar həqiqi intellektual azadlıq və "mütləq şəxsiyyətə" əsaslanan heç bir qərara yer verməyən xüsusi maraqların, ambisiyaların, maddi və iqtisadi rəqabətlərin xidmətindədir.

Qərb elminin spesifik cəhətlərindən biri onun özünün tamamilə müstəqil və muxtar olduğunu iddia etməsidir. Biliyin zəruri iyerarxiyasında elmin üzərində dayanan metafizika – transsendental bilikdir. Metafizika essensial olaraq supra-rasionaldır[104]. Tamamilə rasionalist olan modernist filosoflarda mövcud olan yalnız sentimentalizm və voluntarizm-dir. Bu, modern elmin bütövlükdə anti-metafizik xarakterinin göstəricisidir. Həqiqi intellektualizm rasionalizmdən olduğu qədər, modern intuisionizmdən də uzaqdır. Metafizika hər şeyin birbaşa və ya dolayısı ilə asılı olduğu universal prinsiplərin biliyidir. Metafizikanın yoxluğunda istənilən növ bilik dərinlik dimensiyasından yoxsuldur. Biliyin saysız fraqmentləri arasında öz enerjisini tükədən və faktların həddən ziyadə çox detalları arasında öz yolunu itirən Qərb elmi şeylərin həqiqi təbiəti haqqında heç nə öyrənə bilmir[105]. Tradisiya ideyasında bütün elmlər tradisional doktrinanın sadəcə intişarı, inferiyor biliyi təşkil edən ikincidərəcəli və qeyri-essensial tət-

---

[104] Rene Guenon – "East and West", translated by Martin Lings, Sophia Perennis, NY, 2001, p, 34
[105] Pierre Thuillier–"D'Archiméde à Einstein–Les faces cachées de l'invention scientifique", (Librairie Arthéme Fayard, 1988), p,117

biqatlardan biridir. Bu konsepsiya Qərb elminin özünü həbs etdiyi praktik naturalizm ilə əsla uzlaşa bilməz. Buna görə də, R.Genon, Qərb elmini biliksiz bilik olaraq xarakterizə edir.

Heç bir baxımdan dünyanın essensiyasını aşkara çıxara bilməyən və həqiqi biliklə bir əlaqəsi olmayan modern elm yalnız dünyanın dissolyusiyasına diqqət çəkir. Aydın təsəvvürü olan hər bir kəs modern elm adamının formasiyasında irrasional elementlərin oynadığı mühüm rolu asanlıqla görə bilər. Elm adamının xəbərdar olmadığı bir substratum mövcuddur. Bu substratum xüsusunda o, passiv və Qərb sivilizasiyasını formalaşdıran qüvvələrin aşkar təsirinə tabedir. Bu, Qərb tsiklinin terminal və qürub fazasıdır. Elmin və onun "fakt idolizminin" tənqidi baxımından bu substratumun məlumluğu çox əhəmiyyətlidir. Bu "idolist inanc" modern elm adamında aydınlıq və obyektivlik idealını kəskin şəkildə atrofiyaya uğradır. Fakt özlüyündə çox kiçik bir dəyərə sahibdir, essensial olan faktorun uyğunlaşdığı sistem və üzərində şərh edildiyi əsasdır. "Mən"-in şeylərə qarşı obyektivliyi və distansiya davranışı qədər "Mən"-in zahiri dünyanın, təbiətin və fenomenlərin "qeyri-Mən"-inə yaxınlaşdırılmaması mühüm əhəmiyyət kəsb edir. "Mən" yalnız həqiqi biliyin əsas məsələ olmadığı modern elm sistemi daxilində zahiri dünyanın və fenomenlərin "qeyri-Mən"inə yaxınlaşdırıla bilər. İnsan yalnız öz daxili formasiyasına, davranışına və mümkünlüklərinə doğru açıldığı, eləcə də öz hisslərini, subyektiv, emosional və illüziyonar xoşnudluğunu təbiət və şeylər üzərinə proyeksiya etməyə son qoyduğu zaman bu ziddiyyət aradan qaldırıla bilər. Lakin, modern elm adamında daxili varlığın kökü kəsilməsi və sadəcə fiziki sezgilər, mücərrəd riyazi intellekt ilə üz-üzə qalması nəticəsində "Mən" və "qeyri-Mən" arasındakı ziddiyyət daha kəskin şəkildə böyüyərək obyektivliyi yalnız neqativ olan "fəaliyyətə" çevrilib. Bu elm dünyanı idrak etmək və onun haqqında biliyi dərinləşdirmək üçün deyil, dünyanı manipulyasiya etmək üçündür. Bütövləşmiş insan üçün isə çılpaq reallığın təsəvvürü ona heç bir məhdudiyyət təlqin etmir. O, neqativ modern elmi mənasız, abstrakt, tamamilə praqmatik və dünyanın "elmi" nəzəriyyəsindən yaxud marağından məhrum bir şey kimi dərk edərək onu

kənara qoyacaq. O, modern elmi, Otmar Şpannın sözləri desək, "bilmək zəhmətinə dəyməyən bir şeyin biliyi" olaraq mühakimə edəcək[106].

XIX əsrdən bu yana Qərb sivilizasiyasının *par excellence* sivilizasiya olduğu inancının əsas haqlılıq səbəblərindən biri olaraq təbiət elmləri göstərilir. Bu elm mifinə əsaslanmaqla, metafizik və dini "səfsətələrinə" görə tradisional sivilizasiyalar "infantil" və "obskyurantist" olaraq damğalanır. Həqiqi biliyin nə olduğunu bilməyən modern elm biliyi ancaq pozitiv, riyazi-eksperimental metodlarla əldə edə bilər. Elm və bilik pozitiv, eksperimental elm ilə sinonim edilərkən, öncəki bütün elmi prinsiplər və metodlar diskvalifikasiya edildi. Fiziki elm mifinin apoteozisi burjua erası, həmçinin pozitivist və materialist sientizm ilə üst-üstə düşürdü. Artur Eddinqton, Maks Plank və Albert Eynşteyn modern elmin metafizik prinsiplər və fəlsəfi doktrinalar ilə uzlaşdığını elan etməyə başladılar. Bu eyforiya, çıxış nöqtəsi modern fizika olan "atom erası" və "ikinci sənaye inqilabı" ilə təsdiqlənirdi. Bütün bunlar, modern dünyanın böyük illüziyalarından, həm də bilik sahəsinin "öz-özünü dissolyusiya" prosesləri ilə mühasirəyə alındığı dövrün ilğımlarından biridir. Modern elmin klassik-tradisional bilik olaraq heç bir dəyəri yoxdur. Çünki o, gerçək mənada biliyin inkarına əsaslanır. Modern elmin arxasındakı hərəkətləndirici və təşkilatlandırıcı güc bilik idealından deyil, praktik vacibiyyətdən qaynaqlanır. Hərçənd, modern elmin texnoloji və sənaye tətbiqatları kütlələri özünə daha çox cəlb etsə də, yalnız ən yaxşı təxminlə fenomenlərin kursunu öncədən görə bilən hipotezalar və formullarla məşğul olan bu "yeni elm"ə tradisional mənada həqiqət konsepti tamamilə yaddır. "Həqiqətin" bir məsələ olmadığı modern elmdə mühüm olan görmək deyil, toxunmaqdır. Modern elmdə müəyyənlik konsepti "maksimum ehtimala" endirilib. Bütün elmi müəyyənliyin statistiki xarakteri vardır və onlar bütün elm adamları tərəfindən tanınır. Bir şeyin ətrafında getdikcə sıxlaşdırılan bir şəbəkəyə bənzəyən modern elm özünü yalnız praktiki məqsədlərə həsr etdiyi üçün anlaşılmaz olaraq qalır. Modern elmin başlıca məqsədi daha

[106] Julius Evola – "Chevaucher le Tigre", La Colombe, Paris, 1964, p, 176

bəsit və idarə edilə bilən formada fenomenləri sxemləşdirmək və onları nizamlamaqdır. Sensorial təcrübəyə aid “data”ya münasibətdə daha rahat ideyalar və nəzəriyyələr daha “ali həqiqət” statusu qazandı. Belə “data” arasında seçim riyaziləşməyən, təkrar edilməyən və keyfiyyətə əsaslanan hər şeyi kənara atmaqla şüuri yaxud instinktiv şəkildə edilir. Elmi “obyektivlik” mövcud bütün nəzəriyyələri və hipotezaları istənilən an bütövlükdə tərk etməyə hazır olmaqdan ibarətdir. Məsələn, Eynşteyn öz nisbilik nəzəriyyəsi ilə Pirandellinin “belə düşünürsənsə, belədir” formulunu müqəddəsləşdirməklə biliyin dissolyusiyasının yekun formasını ortaya qoymuş oldu[107]. Halbuki, fizikanın koherant sistemi bütün nisbilikləri nəzarət altında saxlamaq, hər bir dəyişiklik və variasiyaları nəzərə almaq üçün qurulmuşdu. Amma, bu sistem həddən ziyadə riyazi və cəbri təbiəti ilə ona verilən “elastiklik” sayəsində “mütləqləşib”. Fəlsəfi relativizmdən uzaq olan bu nəzəriyyə ehtimal daxilində olmayan nisbilikləri qəbul etməyə hazır olsa da, ən başdan özünü onlara qarşı silahlandırır. Onun irəli sürdüyü müəyyənliklərə reallıq üsyan etsə, dimensiyaların uyğun şəkildə nizamlanılması ilə həmin müəyyənliklər bərpa ediləcək. Kosmik konstant tamamilə riyazi bir konseptdir və ondan istifadə edərək işığın sürətindən danışan insan nə işığı, nə sürəti, nə də propaqasiyanı təsəvvür edə bilən, ağılında yalnız rəqəmlər və simvollar olan insandır. Egər bir elm adamından işıq nədir soruşulsa, o yalnız riyazi simvollar ilə cavab verə biləcək. Modern fizikada baş verən hər şey məhz buradan, onun tamamilə cəbriləşmiş təbiətindən qaynaqlanır. “Çoxdimensiyalı kontinuum” konseptinin daxil edilməsi ilə geometrik məkanın kateqoriyalarında sağ qalan intuitiv bazis riyazi formullara tabe edildi. Məkan və zaman artıq eyni bir şeydir və onlar cəbri funksiyalar tərəfindən ifadə edilən bir “kontinuum” formalaşdırırlar. Məhz bu konsept ilə, zaman və məkanın, qüvvə, enerji və hərəkətin intuitiv anlayışı aradan qalxdı. Qüvvənin yaratdığı hərəkət ideyası “ən qısa geodetik xətti” izləyən mücərrəd hərəkətin təməl ünsürlərinə endirildi. Maddə ideyasının yox oluşu və kütlə konseptinin enerji kon-

[107] J.Evola – “Chevaucher le Tigre”, La Colombe, Paris, 1964, p, 164

septinə endirilməsi sayəsində modern fizikanın populyarlaşdırıcılarının iddia etdiyi "spiritualizasiya" tam bir absurdluqdur, çünki kütlə və enerji abstrakt formullar vasitəsilə bir-birilə əvəzoluna bilən dəyərlərə çevrildi. Nəticədə, radikal eksperimentalizm ilə birləşmiş cəbri mücərrədləşmənin alovundan kənarda heç nə qalmadı.

Modern təbiət elmi tradisional dünyada əxlaq sferasından inisiasiya və intellekt sahələrinə qədər uzanan katarsis konseptinin inversiyasını özündə ehtiva edir. Tradisional katarsis heyvani hisslərdən doğan və fiziki "Mən"-in reaksiyaları ilə birləşmiş sezgilərə üstün gələrək daha ali və həqiqi biliyə çatmaq demək idi. Lakin, tamamilə cəbriləşmiş modern fizika özünü sadəcə sensual təcrübənin birbaşa "datum"undan deyil, onu dəstəkləyə biləcək təxəyyül gücündən də azad etdi. Zaman, məkan, hərəkət və kauzallığın bütün konseptləri bir-bir aradan qalxmağa başladı. Statistiki hesablamalar ilə əvəzlənən kauzallıq qanunundan bütövlükdə vaz keçildi. Müşahidəçinin müşahidə edilən ilə birbaşa və canlı münasibəti tərəfindən təklif edilə biləcək hər şey qeyri-real və uyğunsuz adlandırılaraq inkar edildi. Bütün sensoral təcrübəni içində əridən modern katarsisin məqsədi qədim Sapiensia məktəblərində olduğu kimi "daha ali ideyalar dünyasına yüksəlmək" deyil, keyfiyyətin, canlı qüvvələrin və substantiv formaların dünyasına qarşı olaraq hər şeyi fərqliləşməmiş kəmiyyətin, rəqəmlərin və riyazi düşüncənin dünyasına endirmək idi. Bu spektral və kabalist dünyada, mücərrəd intellektin ekstrim intensifikasiyası nəticəsində şeylər və ya fenomenlərin məsələsi deyil, onların fərqliləşməyən ümumi denominatora endirilmiş kölgələri mövcuddur. Alman nəzəri fiziki, kuantum mexanikasının pionerlərindən biri Verner Hayzenberq bildirir ki, modern formal bilik özünəqapalı və praktiki nəticələrində son dərəcə dəqiq olsa da, real olanın biliyindən danışmaq qeyri-mümkündür. Modern elm üçün tədqiqat obyekti özlüyündə bir obyekt deyildir. Belə bir elmdə, insan yalnız özü ilə qarşılaşır[108].

Modern elmin köklərini Antik dövrdə axtarmaq onunla Klassik elm arasındakı kateqorikal müxtəlifliklərə məhəl qoymamaqdır. Evklid yaxud

[108] J.Evola – "Chevaucher le Tigre", La Colombe, Paris, 1964, p, 168

Arximed həndəsəsi ilə Dekart cəbri yaxud Nyuton *calculus*-u (və ya "postmodernist" istiqamətin təmsilçiləri olan Rixard Dedekind, Covanni Sakkerini) arasında demək olar ki, heç bir ümumi prinsip mövcud deyil. Digər bir diametral fərq isə Ptolomey astronomiyası ilə Kopernik, Kepler yaxud Qaliley astronomiyası arasındadır. Ptolomey göy cisimlərinin hərəkəti nəzəriyyəsində əxlaqi, dini və siyasi implikasiyaları inkar etməyi rədd edirdi[109]. Platon və Aristotel də bu implikasiyaların əhəmiyyətini vurğulayırdılar[110]. Buna görə də, böyük alman filosofu Osvald Şpenqler təkidlə vurğulayır ki, modern dünya Antik Avropanın, Yunan-Roma "Weltanschauung"unun ekstensiyası olaraq deyil, özlüyündə spesifik bir sivilizasiya, spesifik bir mədəniyyət olaraq dərk edilməlidir.

Bizim tənqid etdiyimiz elm deyil, elmiçilik, yəni sientizmdir. Mövcudiyyətin bütövlüyünü riyazi-elmi dərkə endirən elmiçilik atomdan insana, maddədən həyata, enerjidən şüura, daşdan ürəyə və ruha qədər hər şeyin, istisnasız olaraq bütün fenomenlərin dərk olunmasında elmin, yalnız elmin ən yaxşı metod olduğunu bildirir. "Elm" anlayışı Qərb fəlsəfəsindən ayrılmazdır və tarixən onunla identikdir. Bu anlayış Tomas Akvinatdan XIX əsrin görkəmli alimlərinə qədər hər bir filosof tərəfindən "fəlsəfə" və "təbii fəlsəfə" ilə identik – bir-birilə əvəz edilə bilən anlayışlar olaraq istifadə edilib. Frensis Beykon ("Novum Organum Scientarum" əsəri), Dekart (özünün yeni fəlsəfi metodu haqqında yekunlaşmamış "Opuscula Posthuma Physica et Mathematica" əsəri), İ.Nyuton ("Philosophiae Naturalis Principia" əsəri) "yeni elm"i irəli sürən erkən modernist filosoflar idilər. Halbuki, onlar bu elmi fəlsəfədən parçalanma olaraq deyil, *fəlsəfənin total inqilabı* olaraq düşünürdülər. Reallıqda isə, Modern elmin fəlsəfədən ayrılması bu layihənin uğuru deyil, katastrofik uğursuzluğu idi.

Dolayısı ilə, Modern elmin mənşəyi İntibah və Erkən Maarifçilik dövrlərində axtarılmalıdır. Kopernikdən Qalileyə, Beykondan Lavuazi-

[109] Ptolemy – "Centiloquium", translated and annotated by Deborah Houlding, 2006. "Centiloquium", astrologiya və astroloji qanunlar haqqında Ptolomeyin yüz aformizmindən ibarətdir.

[110] Plato – "Laws", Book VII, 820e-822d; Aristotle – "Physics", 199a 3-5

yeyə, Hüygensdən Nyutona, Dekartdan Hobbsa modern elm nəzəriyyəçiləri və praktikləri dünyaya iki fundamental element əsasında yanaşılmasını təklif edirdilər: *riyaziyyat və eskperimentasiya*[111]. Dünyanın öyrənilməsinə bu şəkildə yanaşan elm *universal elm* olmalı idi. Onun aksiomlarına görə, dünya əsasən heterogen deyil, homogendir. Yalnız bir doğru metod bütövlük haqqında total biliyin əldə edilməsinə səbəb ola bilər. Dünyanı təşkil edən homogen maddə isə riyazidir və ya bütün hissələrində riyazi tənzimləməyə tabedir. Belə ki, bu doğru metod özlüyündə riyazi olmalı yaxud da riyazi medium vasitəsilə işləməlidir. Müəyyən bir şərt yaxud hadisə və ya şərtlər ilə hadisələr arasındakı kauzal münasibətlər zaman xüsusunda biristiqamətli şəkildə axır. İnsanın özünü və insani dünyanı idarə edən qanunlar maddəni yaxud riyaziləşən dünyanı idarə edən qanunlara endirilir. Beləcə, insan maddəyə və riyaziləşən elementlərə əsasən reduktiv olaraq başa düşülür. Bu qanunları aşıb keçən yaxud onları yenidən nizamlayaraq bir düzənə yerləşdirə biləcək hər hansı bir supra-təbii (təbiətüstü) qüvvə mövcud deyil. Bütün bu aksiomalar fəlsəfi perspektivdən son dərəcə mübahisəli olduğu üçün onlar modern elmin doğuşunun ilk illərində heç vaxt sübuta yetirilmədi. Lakin, modern elmin sürətli və oriyentasiyasız texnoloji uğurları sayəsində onların essensial olaraq de-fakto sübut olunduğu qəbul edildi. Texno-iqtisadi və tibb sahəsindəki uğurlar ona əxlaqi, leqal, siyasi və iqtisadi baxımdan insan cəmiyyətində güclü bir *carte blanche* verdi.

İnsanı Göy üzü və Yer haqqında universal bilik ilə təmin edəcəyi iddiasında olsa da, modern elm mövcudiyyətin mərkəzi hissələrinin, yəni insani dünyanın – antropoloji və antroposentrik sferanın dərkindən çox uzaqdır. Modern elm maddi dünyanı başa düşdüyü dəqiqliyin onda biri həddində belə insani dünyanı dərk edə bilmir. Ona görə də, elmin bizi apardığı istiqamətin yaratdığı situasiyaların hətta insani mövcudiyyəti total şəkildə yox etmək potensialı var. Qədim dünyada da odun əldə edilməsindən başlayaraq texnoloji inkişafın ikili aspekti olub. Lakin, bizim dün-

[111] Pierre Thuillier–"D'Archiméde à Einstein–Les faces cachées de l'invention scientifique", (Librairie Arthéme Fayard, 1988), p,153-158

yamızda spiritual hakimiyyət və məsuliyyətlilikdən qoparılaraq özbaşına buraxılmış texno-tərəqqidən fərqli olaraq, orada texnoloji inkişafa nəzarət edilir, idarə edilir və istiqamətləndirilirdi.

Eksperimentasiya metoduna əsaslanan modern elm yenidən təkralanabilmə (yenidən çoxaldılabilmə) olmadan mövcud ola bilməz. Əgər insan kəskin şəkildə nəzarət edilən bir mühitdə istəyərək bir fenomenin yüksəlişinə səbəb olan şərtləri təkrar edə bilmirsə empirik olaraq həmin fenomeni təsdiq etmək faydasızdır. Aristotelə əsasən onu vurğulamalıyıq ki, Modernizm əsrindən öncəki elmi fəlsəfədə kauzallıq dörd formada təsdiqlənirdi: formal, maddi, effektiv və yekun kauzallıq. Lakin, modern elmi inqilab bu dördhissəli kauzallığı yalnız bir növ kauzallığa endirdi. Bu kontekstdə yaranan sual ondan ibarətdir ki, yalnız bir növ kauzallıq şərtlərinə endirilən dünya və fenomenlər hansı dərəcədə adekvat şəkildə başa düşülə bilər? Devid Hyum qeyd edir ki, temporal, yəni maddi kauzallığın bir gün "işləyə bilməyəcəyini" rədd edən heç bir dəlilə sahib deyilik[112] (bu, Kantın doqmatik *oyanışına* rəğmən modern elmin heç vaxt üzərində düşünə bilmədiyi arqumentdir). Öz metodunun, empirik data əldə etmək qabiliyyətinin tələbinə görə modern elm fiziki - temporal kauzallıqdan başqa hər hansı digər bir növ kauzallığa əsaslana bilməz. Maddi (qeyri-spiritual) kauzallığa endirilə bilməyən hər şey modern elmin araşdırma sahəsindən kənardadır. Kainatı homogen şəkildə xarakterizə etmək və onun bir hissəsində əldə olunan metodoloji uğuru digər hissəsinə şamil etmək kökündən yanlışdır. Çünki kainatın bir fiziki regionunda qazanılan elmi uğurlar onun digər regionuna tətbiq edilə bilməz

Makroskopik səviyyədə elm adamı aydın və aşkar kauzallıq ilə deyil, "təsadüfilik" – xaos və küy ilə qarşılaşır. Kainatın emansipasiyası elmin təklif etdiyi qanunlara zidd şəkildə özünü göstərir. Bu halda, "qaranlıq maddə", "fantom enerji" kimi hipotetik və üçüncüdərəcəli izahlar irəli sürülür. Eyni zamanda, yalnız temporal kauzallığa endirilə bilməyən insani dünya elmin

---

112 David Hume – "A Treatise of Human Nature", ISN, ETHZurich, Reprinted from the original edition (Oxford Clarendon Press, 1896, Part III, Section XI – Of the probability of Chances

dərk çərçivələrini aşıb keçir. Fəlsəfənin bir hissəsində insan və cəmiyyətin riyazi elmini yaratmağa cəhd edən Hobbs, Marks, Dekart, Kant, Husserl və s. kimi filosofların yaşadığı uğursuzluq bunun aşkar sübutudur. Bu isə, Modernizmin ilk əsrlərində elm və fəlsəfə arasında kəskin parçalanmaya səbəb oldu. Bu da bəşər elmləri ilə elm arasındakı (yaxud da *hard* elmlər ilə *soft* psevdo-elmlər arasında) bölünmədə özünü göstərməyə başladı.

Əsrimizdə elmin üzləşdiyi ən böyük problem şüurun elmi dərki ilə bağlıdır. Şüurun dərkinə yalnız riyazi kauzallıq daxilində nail olmağa çalışan modern elm onu yalnız bilavasitə elmi metodlar ilə şüura vara bilən elementlər və faktorlara (nevral funksiya, fizioloji dəyişmələr və s.) endirir.

Modern elm teleologiyanın bütövlükdə inkarı ilə izah edilməlidir. Bu inkarın səbəbləri artıq aşkardır: yekun (telikos) kauzallıq temporal – maddi kauzallıq sərhədlərini aşmaqla eksperimentalizm və emprisizmin əksinə olaraq effektləri qeyri-temporal, qeyri-linear və fundamental olaraq "öncədən təxmin edilmə"yə əsaslanmadan müəyyənləşdirə bilər. Bunu sadə bir misal ilə təhlil edə bilərik. Modern elmin prinsiplərinə görə, ac insan qarşısındakı çatılmalı və əldə edilməli olan bir alma tərəfindən deyil (yəni, bir nəticəyə istiqamətlənmə yaxud şüuri halı üçün bir reallıq kəsb edən meyvənin istehlakı ilə aclığını tətmin etmə tərəfindən deyil), ona qaranlıq və sirrli olan səbəblər tərəfindən - bədəninin kimyəvi quruluşu, vəzilərinin sakit işləyişi, orqanizminin təkamül tərəfindən müəyyən edilmiş strukturu tərəfindən hərəkətə gətirilir. Ona görə də, modern elm insanı ancaq robotun işləmə mexanizmi ilə eyni olan (lakin min dəfə daha kompleks) mürəkkəb bir avtomaton olaraq başa düşür. Modern elm köklü başlanğıcından maddənin və bəşəriyyətin özü üçün spesifik olan teleologiyanın mövcudluğunu rədd edir. Linear-temporal çərçivə daxilində teleoloji reallığı başa düşməyə çalışmaq onu ümumiyyətlə başa düşməmək anlamına gəlir. İnsani dünya cəhdlər, məqsədlər, qayələr və istəklərdən – yekun kauzallıqdan ayrılmazdır. Onları temporal səbəblərə endirmək insanın daxilində canlı, insani və ən ali səviyyədə ilahi olan hər şeyi aradan qaldırmaq deməkdir. Modern elmə qarşı yönəldilən "reduksiyonizm" ittihamları məhz bu kontekstdə aydın

şəkildə dərk edilir. Sevgiləri və nifrətləri, ümidləri və niyyətləri ilə insanı cansız dünyaya endirmək onu öz insaniliyindən məhrum etmək deməkdir. Bu, insanı insani varlıqdan tamamilə başqa bir şey olaraq başa düşməkdir. Bununla da, insanda ən inferiyor olan hər şey insani varlıq üçün fundamental olaraq qəbul edilir. Onda ən ali olan hər bir şey isə sadəcə bir illüziya, bir "epifenomen" və insanın insani təməllərinin subyektiv olaraq yalnış izahı olaraq dəyərləndirilir[113].

Modern elmin qərəzsizliyinin fundamental elementi olduğu iddia edilən "neytral dəyər" yaxud "neytrallıq dəyəri" onun absurdluğunun digər bir göstəricisidir. Çünki, dəyərlər toplusunun aşılandığı insani dünya bu dəyərlərdən qoparıla bilməz. Onun bədənindən qanını sormaq daha asandır, nəinki dəyərindən qoparmaq. Ona görə də, insani dəyərlərə etinasız yanaşa bilməyən modern elm, insani varlıqları dəyərlərinə istinad etmədən başa düşməyə məcburdur. "Faktlar və "dəyərlər" arasında bir fərqlilik ayırd edən modern elm bu dixotomiyanın yalnız biri üzərində ("faktlar") üzərində işləməlidir. "Faktlar" bəşəriyyətin elmi metod üçün həssas olan elementləridir, lakin "dəyərlər" yox. Bu, elmin təbii limitlərini etiraf etmək deməkdir. Başqa bir sözlə, modern elm üçün faktlar *real*, dəyərlər isə *fiqmentar* və *fantastikdir*. İnsani varlıq total illüziya dünyasında yaşayır və elmin məqsədi bu illüziyanı təməlindən dağıtmaq və insanı *real* dünyaya qaytarmaqdır. O, insanı insani varlıqların diskurslarında və özünüdərkində əsla istifadə etmədikləri sözlər və deskriptorlardan istifadə etməklə onları təsvir edir. Sevgi sevgi deyil, "Darvinist təkamülün" qanunları ilə istəksiz nəticəsi "reproduksiya" və DNA replikasiyası olan bir prosesdə essensial olaraq "mexaniki kombinasiyalar" tərəfindən bir yerə gətirilən orqanizmin fiziologiyası yaxud beynində müəyyən kimyəvi maddələrin interaksiyasıdır. Ədalət, ali və metafizik konseptinə uyğun olaraq Ədalət deyil, "sosial-iqtisadi" rifah aktivliyinə, "qrup həmrəyliyinə" təsir edən sosial kapitalın müxtəlif "düzəlişlərinin" və sosial mexanizmlərin nəticəsidir. Yalnız elmin sahib olduğu

---

[113] Edgar Morin – "Method: Towards a Study of Humankind, Volume1, The Nature of Nature", (translated by Roland Bélanger, American University Studies, New-York 1992)

"faktlar" əsasında yenidən qurulan və başa düşülən insani varlıq insanın özü üçün tanınmazdır. Elmin insana bir dəyər və məqsəd bəxş etdiyi düşünülsə də, dünyanın elmi izahı elmin dəyər və məqsədini bütövlükdə inkar etməklə onu gündəlik praktikada və elmin inkişafında nisbi rol oynayan faktorlara endirir. Özünü dolaylı və materialist tərzdə başa düşən elm, insani varlığı da eyni tərzdə dərk edir. Elmin öz metodu vasitəsilə özündən deduksiya etdiyi nəzəri düşüncə onun öz praktikasında özünü necə başa düşməsilə identik deyil. Yəni, elm öz işləyişində olduğu kimi öz nəticələrində özünü başa düşə bilməz. Bu ziddiyət, elmin ekümenik – universal bir *studium* ola bilmə iddialarının əsassızlığını ortaya qoyur.

Digər tərəfdən, fərdi insani varlıqları laborator şəraitdə öyrənməyə çalışmaqla və "nümunələndirmə xətalarını" minimuma endirmək üçün liberal könüllülərə əsaslanmaqla, Modern elm özünü insan cəmiyyətlərinin yalnız spesifik qatına endirir. Çağdaş liberal cəmiyyətlərin fərdləri elmə, əsasən də "datanın kolleksiyasına" və "elmi araşdırmaların" ortaya çıxarılmasında istəkli və meyillidir. Buna görə də, açıq bir şəkildə söyləyə bilərik ki, müasir elmi tədqiqatlar modern insanlığın sadəcə kiçik bir seqmenti ilə çərçivələnir. Onun metodları mövcud olan özünəməxsus insani qruplar ilə "bütövləşə" bilsə də, o əsla istər keçmiş olsun, istər gələcək – digər zamanların insanlarına öz paradiqmalarını tətbiq edə bilməz. Bu metodlar ilə əldə edilən *bilik* radikal şəkildə məhdud olduğu üçün ən yaxşı halda insanlığın nisbi bir temporal keçid kateqoriyasının nisbi nümunəsinin nisbi biliyi olaraq dəyərləndirilməlidir. Çünki spiritual olaraq oyanmış və ali metafizik prinsiplər ilə yaşayan insani varlıqlar laborator şərtlərdə özlərini elmi təhrikə qurban vermirlər. Dolayısı ilə, Modern elm ali insani varlıqlar haqqında hətta ən səthi və nisbi determinasiyaya belə malik deyil. İnsanların daha yaxşıları və daha pisləri arasında fərqliləşmə apara bilməyən elm, insanın öz məziyyətlərinə, onun özünəməxsus tarixi xarakteristikalarına, hər şeydən əvvəl onun əxlaqi çatışmazlıq və qeyri-adekvatlıqlarına heç bir məhəl qoymadan onu bir sürü, kütlə və ya *qara kütlə* kontekstində dərk edir. Öz dəyər-neytrallığında *Superiyor və inferiyor* anlayışlarını tanımayan elm

üçün normal olan "orta statistik" olandır. Müstəsna olanı adinin işığında, superiyor olanı "orta statistikin" işığında mühakimə etməklə, modern elm metafizikadan yoxsul bir aqil və daha pis qanunverici olaraq özünü sübut edir. Buna görə də, C.B.Leonard bildirir ki, insani biliyin əksər sahələrində təbii və həqiqi kral elm deyil, fəlsəfədir.

Essensial olaraq dekadensiya və insanın dəyərsizləşdirilməsi ilə xarakterizə olunan əsrimizdə öz irrasional metodlarına tərk edilən elm qavramağa çalışdığı bir cəngəlliyin exosuna çevrilməklə və hissiyyatsızlaşmış, karlaşmış insanın qulaqlarına bağırmaqla onu inferiyor təbiətə, inferiyor mənşəyə malik olduğu, bir müqəddərata sahib olmadığı, kosmos daxilində fərqliləməmiş məziyyət və hüquqların daşıyıcısı olduğuna inandırmaq məqsədi güdür. Çünki o, insanı orqanik deyil, qeyri-orqanik, supra-insani deyil, alt-insani, spiritual deyil, maddi - inferiyor şərtlər daxilində dərk edir. Ona görə də, modern elm insanın dərki deyil, onun kiçildilməsi və təhrifidir. O, insanı insani varlıq olmadığı müddətcə başa düşməyə qadirdir. İnsanı cəmiyyətlərin təbiəti və ruhu kontekstində dərk edə bilməyən elm, onu yalnız qeyri-insan, abstrakt, ətraf mühit tərəfdən şərtləndirilərək "formalaşan" kreatura, sadəcə bir heyvan, kimyəvi maddələrin kompleksi və ya molekulların hiper-kompleks düyünü olaraq dərk edir. Bu, insanın dehumanizasiyası, onun elmin Prokrustean[114] təlqinlərinə açıq olan ruhsuz və ölü bir maddəyə transformasiyasıdır.

İnsani dəyərləri "insani faktlar" əsasında başa düşən modern elm insani dünyanı bütövlükdə dərk edə bilməz. Ruhu insanın fiziologiyasına endirən (yaxud identikləşdirən) modern elmin nəticələri son dərəcə şübhəli olmağa məhkumdur. O.Şpenqler bildirir ki, heyvanlar üçün həqiqətlər deyil, yalnız faktlar mövcuddur. Faktlarla yaşayan sadəcə zooloji varlıqlardır[115].

Elm, mexanikləşməyə və de-spiritualizasiyaya uğramış Modernizmin dibə doğru reqressiv yürüşündə bir mühərrik olmaqla essensial olaraq

[114] Prokrustean – təbii variasiyalar və fərqliləşən fərdiləşməyə qarşı olaraq mütləq birformalılıq təlqin edən sistem
[115] O.Spengler – "Aphorisms", Henry Regnery Company, 1967

qorxuducu və təhlükəli bir yol alıb. Akultural, essensial olaraq miyopik və məsuliyyətsiz Modernizmin əlində elm ölümcül bir təhdid, spiritual korrupsiya və potensial eradikasiya alətidir. Ali nailiyyətlər və mövqeyə yiyələnmək üçün elm dəyər-neytrallığını və öz metodları tərəfindən təlqin edilən məhdudiyyətləri tərk etməlidir. Modern elm öz rolu ilə yalnız qeyri-elmi xarakterə malikdir. Sağlam və ali cəmiyyətdə modern elmin doğurduğu implikasiyalar sadəcə elm adamlarının deyil, spiritual və siyasi hakimiyyətin nəzarətinə tabe edilməlidir. Anti-texnokratik aristokratiya bu böhranın həllində yeganə vasitədir.

İtaliyan idealist filosofu Uqo Spirito bildirir ki, özünün tamamilə elmi xarakterə malik *yeni humanizmi* etik və spiritual dəyərlərə sahibdir[116]. Başqa bir sözlə, elm və texnologiyanın bilmədiyi dəyərlər dünyası yoxdur, Spiritonun yeni elmi humanizmi bütün dəyərləri özündə ehtiva edir. İtalyan filosofuna görə, modern elm ilə "metafizika" arasında sintezis axtarmağa da heç bir lüzum yoxdur. Çünki modern elm özlüyündə bir metafizikaya sahibdir. Nə ola bilər bu metafizika? Modern elmin metafizikası yalnız aşağıdakından ibarət ola bilər: "Faktlar" və "reallıqlar" daxilində tam şəkildə yerləşdirildikdən sonra elm adamı bu şeylərin təcrübədən öncə (a priori) dərk oluna bilirliyinə inanır və öz elmini onun qanunları, eləcə də determinizmləri ilə təkmilləşdirməklə, immanentist Hegel metafizikasının effektiv realizasiyası kimi "realın rasionallığını" nümayiş etdirir. Bu məşhur prinsipin arxasındakı metafizikaya görə, "Real olan hər şey rasional, rasional olan hər şey realdır". Bu isə, elmi epistemologiyanın prinsiplərinə – modern elmin həm proseduralarına, həm də modern elmi "biliyin" təbiətinə məhəl qoymamaq anlamına gəlir. "İdealın realdan meydana gəldiyini" söyləyən "təbiət fəlsəfəsinin" (*Naturphilosophie*, əsas nümayəndəsi Fridrix Şellinq və Hegel idi) uğursuzluğundan sonra, modern elmdə "rasionallıqdan" danışmaq bütövlükdə bu sözün mənasını təhrif etmək (distorsiyaya uğratmaq) demək idi. İlkin olaraq, hətta ən mücərrəd və teorik olan elmi proseduralar belə praktik və praqmatik xarakterə sahib olmalı idilər. Bu baxımdan, Spiritonun

---

[116] Ugo Spirito – "Nuovo Umanesimo", Armando Armando, Roma, 1973

özündən əvvəlki nəzəriyyəçi və filosofların (əsasən fransız riyaziyyatçıları Piyer Dühem, Anri Puankare, Emil Meyerson) yazdıqlarına zərrə qədər də şübhə etmirdi. Elm təbii fenomenlərin "rasionallığını" deyil, yalnız onların riyaziliyini (yaxud riyaziləşə bilirliyini) – yəni, bu fenomenlərin digər aspektlərinə ("ikincidərəcəli xarakterlər") məhəl qoyulmayaraq onların yalnız riyazi formullara əsasən düzənlənə bilirliyini əks etdirirdi. Fenomenlərin öncül və "ikincidərəcəli" xarakterləri anlayışına Qaliley, Dekart və Con Lokda rast gələ bilərik. Loka görə, fenomenlərin birincidərəcəli xarakteri (yaxud aspektləri) obyektivdir və müşahidəçinin müşahidəsindən müstəqil şəkildə mövcuddur, məsələn onların intişarı və çəkisi. İkincidərəcəli olanlar isə, subyektivdir və duyğulara əsaslanır, məsələn rəng və dad. Lakin, modern elmi metoda görə, ikincidərəcəli aspektlərə yalnız birincidərəcəli olanlar vasitəsilə yanaşıla bilər. Modern elmin bu yeni sistemi hipotetik-deduktiv xarakterlidir. Modern təbiət elmindən yalnız bir formul götürüldükdə (məsələn, Eynşteynin enerji və maddə ilə bağlı ekvasiyası yaxud "kuantanın" davamsız istehsalı qanunu), bir kəs sual verə bilər. Niyə digər yolla deyil, məhz *bu* yol ilə? Tamamilə "müəyyən edilmiş", irrasional bir şeylə üz-üzə qalan elm adamının bu suala cavab yoxdur.

Modern elmi konsepsiyaları "psevdo-konsepsiyalar" adlandıran italiyan filosofu Benedetto Kroçe hər perspektivdən haqlı idi. Çünki bu "konsepsiyalar" koqnitiv – noetik xarakterdən məhrumdur. Yunan dilində ağıl və intellekt mənasına gələn *nous* sözündən qaynaqlanan "noetik" konsepsiya klassik Yunan fəlsəfəsində xüsusi əhəmiyyətə malik olaraq *Sapiensia* üçün fundamental rol oynayırdı. Platon, duyğu qavrayışından müstəqil şəkildə həqiqəti dərk etmək qabiliyyəti olaraq "nous"-dan istifadə edirdi. "Noetik", bu kontekstdə, insani varlığı həqiqəti idrak etməyə qadir edən xüsusi intellektual məziyyət olaraq vəsfləndirilə bilər. Metafizikadan fərqli olaraq, modern elm öncül prinsiplər axtarışında deyildir; onun prinsipləri əsasında fenomenlərin "noetik" izahı deyil, yalnız praktik və improvizasiya edilmiş izahı verilə bilər. Düşüncənin ali üslublarına qarşı olaraq, niyə digər üsulla deyil, məhz bu üsulla? – sualını cavablandıra

bilməz. Sadəcə praktik alətlər olan modern elmi psevdo-konsepsiyalar və elmi vicdan istənilən anda tərk edilməyə və dəyişdirilməyə məhkumdur. Yeganə məqsəd fenomenal reallığın maksimum şəkildə praktik *dərkidir*. Elmin bütün qanunlarına "statistiki" xarakter şamil edildikdə, onlar yalnız "ehtimallıq" xarakterinə sahib ola bilərlər. Məntiqi və rasional *nexus* əsasında müəyyən edilməyən modern elm Reallığın daha dərin qatlarına daxil ola bilmir. Buna görə də, modern elmin heç bir "metafizikası" yoxdur. Yeni elmi humanizm ilə "özünü bilməyin" Delfik prinsipi elmi tədqiqatın obyekti olmuş subyekt şüuruna transformasiya edilib. Bu səbəblə də, modern insan artıq bizi ali asezis, qnozis yaxud kontemplasiya dünyasına yönləndirə biləcək spiritual müəllimə deyil, bir fizioloqa, bioloqa, nevroloqa yaxud psixoanalitikə yönəlir. Bununla bərabər, yeni humanizm çərçivəsində yalnız müqəddəs inisiator mərkəzinə əmanət edilən bu ali şüur fərdi vəzifəsini itirməklə kollektiv xarakterli bir şeyə çevrilib. Özünü "tarix" və "tərəqqinin" ağuşuna atmaqla özündə "varlığı" və transsendentallıq dimensiyalarını sistematik şəkildə anlamsızlaşdırmağa çalışan modern insan özünü yalnız Uqo Spiritonun qeyd etdiyi dünyəvi elmlərin adekvat şəkildə başa düşə bildiyi varlığa endirib. Texno-elm dünyasının hətta etik-spiritual ehtiyacları təmin edə bildiyi güman edilir. Yeni humanizmin apostolunun sözlərinə diqqət yetirək: "Müxtəlif siyasi ideologiyalar, dinlər, fəlsəfələr indiyədək insanları və xalqları bir-birinə qarşı qoymaqla onları böldü. Elm və texnologiya isə hər yerdə birlik və konsensus yaradır. Yeni kommunikasiya vasitələri, sürət, media, televiziya, radio, kino və s. bizi öz qapalı dünyamızdan çıxarır və ağlımızı, adətlərimizi birləşdirməklə geniş üfüqlər açır". Texno-elmin etik və ali insani idealı olaraq vurğulanan "birlik və unifikasiya" messajı qarşısında insan yalnız təəccüblənə bilər. Çünki qeyd edilən sadəcə zahiri texno-elmi unifikasiyadır və ona paralel olaraq baş verən isə daxili atrofiya, köksüzləşmə, keyfiyyət və xarakterə sahib hər bir şeyə, müxtəliflik və şəxsiyyətə qarşı amansız hücum, eyni zamanda standartlaşma, bütün ali maraqlardan qopmuş kütlələrin formasız kəmiyyət dünyası və modern fərdin daxilindəki

vakuumu, eləcə də mövcudiyyətinin gerçək anlamının yoxluğunu gizlətmək və kompensasiya etmək üçün anesteziyalar və narkotik vasitələrinin ortaya çıxması oldu. U.Spiritonun iddialarına qarşı bir antipod olaraq "İnformasiya bombası" adlı kitabında P.Virilio vurğulayır ki, bir vaxtlar intellektual macəralar üzərində təkamül edən elm, bugün texnoloji macəraçılıq bataqlığına gömülüb. Kopernik və Qalileyin "appearance" elmi bütün obyektiv reallığı inkar edən qeyri-ensiklopedik və kibernetik biliyə əsaslanan *texno-elm* – "disappearance" elmi ilə əvəzlənib. Dünyanın təmsili üçün optika, elektro-optika və virtual reallıq məkanının yaradılmasına töhvə verdikdən sonra, modern elm reallığın obskyurasiyasına və elmi "diappearance" estetikasına transformasiya edilib[117].

Egər birlik öz zirvəsində iyerarxik olaraq, dəqiq müəyyən edilmiş artikulyasiyalar və differensiasiyalar vasitəsilə reallaşdırılmırsa, bu, insanlığın həqiqi və klassik-tradisional idealının total inversiyasıdır. XIX əsrin Sent-Simon, Şarl Furiye və Edvard Bellamiyə məxsus elmi utopiyaları yenidən canlandırmaqla, Spirito insan fəaliyyətinin hər bir ali və rasional motivasiyasını aradan qaldırır və bizi hər şeyin harmoniyada mövcud olduğu bir dünyaya daxil edəcək gücü modern elmə şamil edirdi. Lakin, bu, insan ağılının və ruhunun disfunksionallaşdırılması olmadan mümkün olmayacaqdı. Spirito özü də bu reallığı qəbul edərək bildirir ki,"ideal şərtlərin doğuşu üçün əngəllər mövcuddur və əgər sabaha inam mümkünlüyü yoxdursa, bunun səbəbini elm dünyasında deyil, "tarix, dəyərlər ziddiyyətinin hökm sürdüyü" din, siyasət və metafizika dünyasında" axtarılmalıdır. Bununla da, Uqo Spirito, insanın bir *tabula rasa* olduğunu aşkar şəkildə etiraf edirdi. Beləliklə də, yeni humanizmin üfüqləri olaraq vəsf edilən şey insanlığın içiboş, solğun, eyni zamanda düzləşdirilmiş unifikasiyasından ibarət oldu. Onun fikrincə, gələcəyin sxolastik təşkilatı və təhsili məhz bu yeni insani ideala uyğun olaraq formalaşdırılmalıdır.

Yekun olaraq onu vurğulamalıyıq ki, materialist elmin ön şərti ondan ibarətdir ki, real, pozitiv və empirik anlamında *elm* yalnız fiziki olanda

---

[117] Paul Virilio – "The Information Bomb", translated by Chris Turner, Verso, UK, 2005, p,3

mövcud ola bilər. Sekulyar fəlsəfənin donuq və ziddiyyətli abstraktsiyalarının, Xristian əxlaqının tələblərinə görə, qeyri-fiziki olan bir şeydə elmin varlığı qeyri-mümkündür. Oxşar şəkildə, yalnız inanca fokuslanan monoteist din də kütlələr üzərinə təlqin edilən dünyəvi dindən daha üstün ezoterik-inisiator təlimlərini, eləcə də "mömin inanclılığa" əsaslanaraq qnozisi inkar edir. İnsan yalnız bilmədiyi və bilə bilmədiyini düşündüyü zaman inanır. Maddi olmayan reallıq ilə münasibətdə "pozitivistlər" də eyni aqnostisizmi nümayiş etdirirlər. Sapiensia isə daha qədim, klassik və tradisional doktrinalara söykənərək metafizik sahədə pozitiv, birbaşa, metodik və empirik biliyin mümkünlüyünü önə sürür. Avropanın köklü paqanist kultural, spiritual tarixi ilə ziddiyyət təşkil edən bu Anti-Aryan, Anti-Roman, feminist, romantik ehkamlar və simvollar sistemi ali, solyar, transsendental, virilem, Olimpiyan-Uran ruhunun yenidən doğuşunun qarşısında başlıca *impedimentum*-dur.

Qərbin illüziyalarından biri də dünyəvi elmin texnoloji tətbiqatlarından qaynaqlanan mexaniki gücdür. Qərb elminin "universallıq" ideyası ilə bağlı olaraq yeni Semitik doktrinanın ümumi ruhu onun sosialist və eqalitarian tələblərində əks olunsa da, bu ruhun Sokratik metoddakı və sonrakı Yunan intellektualizmindəki bəzi presedentlərinin mövcudluğunu da qeyd etməliyik. Nitzşenin ideyasını bölüşərək bildirməliyik ki, Xristianlığın ruhu olan universalizm və eqalitarianizm məhz Qərb elmində özünü ən birmənalı və konkret şəkildə nümayiş etdirir. Biliyin daha çox aristokratik konseptini əks etdirən Yunan mədəniyyətinə görə, aktual bilik aktiv fərdi təşəbbüs tərəfindən istiqamətləndirilən real daxili "saflaşma" və öz-özünü transformasiya prosesi ilə şərtləndirilirdi. Bu doktrina Neoplatonizmə qədər klassik dünyanın təməlini təşkil edib. Lakin, passiv Xristian-Semit doktrinası "qnozisə", aktual spiritual təcrübəyə bir yol olaraq fərdin ontoloji təməlini təşkil edən spiritual və intellektual muxtariyyətinə qarşı kəskin qeyri-toleranslıq ("Vəhy" və "Lütf" üzərində inanclarda olduğu kimi) nümayiş etdirirdi. Xristianlığın biliyi sosiallaşdırması, populyarlaşdırması, qeyri-orqanikləşdirməsi və şəxssizləşdirməsində demokratik və eqalitarian patos mühüm

rol oynadı. Modern elmdə, təhlükəli universalizmdən başqa Xristianlıqdan qaynaqlanan təməl nüans onun dualist ön şərtidir. Bu elmdə təbiət faktiki olaraq ruhsuz, zahiri, insandan, onu bilənlər və onu bilənlərin spiritual dünyasından tamamilə qopardılıb. Bu qeyri-realist dini mövqeyin xarakteristikası dünyanın paqan-Aryan *Weltanschaung*-u ilə diametral ziddiyyət təşkil edir. Bu, ruhun subyektivliyinin təbiətin obyektivliyinə qarşı olması, həmçinin spiritual obyektivlik anlayışının itkisidir. Nəticədə, qeyri-essensial statusa endirilən təbii reallıq ruhsuzlaşdırıldı, maddiləşdi, zahiriləşdi və susqunluğa qərq oldu. Məhz bu şəkildə, təbiət yeni elmin – dünyəvi Qərb elminin obyektini təşkil etməyə başladı. Naturalizm və Xristian falsifikasiyalardan tamamilə fərqli bir perspektivdə paqan-Aryan konsepsiyası dünyanı sirli, ilahi və demonik qüvvələr, dəyərlər və simvollar ilə bürünmüş canlı bir bədən olaraq (Olimpiodorusun qeyd etdiyi kimi – görünməyənin müdrik və duyarlı ifadəsi olaraq) görürdü. Dünyanın və supra-dünyanın qüvvələri ilə orqanik və essensial əlaqədə yaşayan insan, Hermetik bir ifadə ilə söyləsək, "bütün qüvvələrdən təşkil edilən Bütövlük daxilində bir bütöv idi". Hinduizmin Vedanta məktəbində universal brahmanın bir hissəsi olan "Atman"ın[118] aryan-aristokratik doktrinası da bu baxımdan eyni idi. Lakin, Xristianlıq bu sintezisi qıraraq tragik bir uçurum yaratdı. Bir tərəfdən, ruh "o bir dünyaya", subyektivliyə və qeyri-reallığa tərk edildi (Qərb fəlsəfi abstraktsionizminin – mücərrədliyinin kökü məhz buradadır), digər tərəfdən isə təbiət özlüyündə zahiri bir görüntüyə, maddəyə, eniqmatik fenomenə çevrildi. Avropa paqanizmi və Şərq metafizikasında müşahidə edilən dualizm Xristian dualizmindən köklü surətdə fərqlidir. Hətta Platon belə, "digər"-i özlüyündə bir reallıq olaraq deyil, qeyri-varlıq, anlaşıla bilməyən və illüziyonar bir şey olaraq başa düşürdü. Yalnız son dövr Stoisizmi ilə Yunan ruhuna maddə ideyası daxil edildi. Hindo-İran doktrinası da iki kosmik qüvvənin bir-birilə mübarizədə olduğunu bilirdi. Bu səbəblə də, onla-

[118] Atman – sanskrit dilində "daxili Mən" və "ruh" anlamına gələn fəlsəfi anlayış. Atman ilk prinsip, fərdin fenomenlərlə identifikasiyasının üzərində onun gerçək "Mən"i, bir fərdin essensiyasıdır. Fərd, azadlığa nail olmaq və "transsendental Mən" – Brahman ilə birləşmək üçün öncə özünü tanımalı, gerçək "Mən"ini reallaşdırmalıdır.

ra eyni səviyyədə, "Sapiensa"nın verdiyi yekun inteqral sintezis daxilində yanaşılırdı. Lakin, Modernizm əsrində bu sapiensal-inteqral biliyin yerini diskursiv-elmi və dünyəvi bilik aldı. İnsanın dərin dünyanın qüvvələri ilə orqanik və essensial əlaqəsi (məhz bu bağlılıq tradisional ritualların əsasını təşkil edirdi) texnologiya və maşının dolaylı, qeyri-essensial və amansız bir münasibəti ilə əvəzləndi. Beləliklə, semit inqilabının həyatın mexanikləşməsinin rüşeymlərini özündə ehtiva etdiyini söyləmək yanlış olmaz.

Məhz maşında onu istehsal edən elmin şəxssiz və eqalitarian ruhunun əks olunduğunu müşahidə edə bilərik. Hamı üçün "faydalı" olan, qeyri-orqanik və nəql oluna bilən universalist mədəniyyət ortaya çıxdı. İnsanlıq, avtomatizmlərə əsaslı şəxssiz və qeyri-orqanik maşın dünyası ilə üz-üzə qaldı. Hamıya və heç kimə məxsus olan, nə bir dəyər, nə də ədalət təcəssümü olmayan, insanı ruhən aliləşdirmədən onu yalnız heyvaniləşdirərək "gücləndirən" maşının ölümsüzlüyü şübhəedilməz xarakter aldı. Həqiqi spiritual fəaliyyəttin mövcud olmadığı texnologiya və maşın dünyasında insan fiziki "Mən"inə tabe edilir. Bu asılılıq effektvlik, şərti determinizmlər sistemi və birformalı qanunlar tərəfindən daha da gücləndirilir. Fərdin və onun birbaşa gücünün nə olduğu barəsində elmi texnologiya heç nə demir. Fenomenlər və saysız diabolik maşınlar haqqında "biliyinin" ortasında lənətlənən və gücsüzləşdirilən fərd şərtləndirmir amma şərtləndirilir, onun iradəsinin zərurəti minimuma, fiziki "Mən" hissinin tətmininə endirilir. Beləliklə, fərdi varlığın nəzarət edilə bilməyən alovu tərkedilmişlik, tükənmişlik və degenerasiya içində sönür. "Mən"-ə qarşı olaraq tamamilə maddi və cansız təbiət ruhun mütləq o biri dünyaya sürgün edilməsi ilə ortaya çıxa bilərdi, bu da Xristianlığın gəlişi ilə reallaşdı. Xristianlığın bu humanitarian zehniyyətinə üstün gəlmək, öz-özünə inteqrasiya olmaq, spiritual fəaliyyəti hiss etmək və onu təbii determinizmlərdən aşağıya deyil, yuxarıya doğru yönləndirmək, fenomenlər deyil, fenomenlərin səbəblərini idrak etmək Sapiensia yolu ilə eyniləşən gerçək gücə doğru gedən yoldur. Bu yolda ilk *katikon* Xristian dualizminə üstün gəlmək, təbiətin və onun canlı konsepsiyasının paqan-Aryan idealını və bütün əzəmətli sivili-

zasiyalara məxsus olan sapiensial biliyi bərpa etməkdir.

# MODERN İNCƏSƏNƏT VƏ MUSİQİDƏ METAFİZİK TƏNƏZZÜL

*"Dünya yalnız estetik bir məhsul olaraq əbədilik qazana bilər"*

F.Nietzsche

*"İncəsənət cəmiyyətin ən gözəl və perennial bəzəyi olaraq nəzərə alınır, ən yetkin, ən ali zövqlərə sahib olanlar – spiritual Aristokratiya hakimiyyəti tərəfindən himayə edilirdi. Lakin, bugün reklam və əyləncə formasında nəzərə alınan incəsənətin hamisi gözəlliyi dərk etməyən və kübarlığa nifrət edən, hər şeyi yalnız sensual həzz əsasında mühakimə edən kütlədir".*

Brendan Hird

Klassik incəsənət və mədəniyyət ilə bütövlükdə modern dissolyusiya prosesləri arasındakı münasibət haqqında bəhs edərkən Avropa sivilizasiyasının tradisional və metafizik vəhdətinin tənəzzülündən sonra ortaya çıxan kultural xarakteristikaların genezisinin öyrənilməsində əvəzsiz yerə malik olan və Alman tarixçisi Kristof Ştedinq tərəfindən yazılan "Avropa Mədəniyyətinin İmperiyası və Xəstəliyi" adlı əsərə diqqət yetirməyin vacib olduğunu düşünürəm. K.Ştediqin irəli srüdüyü tezislərə görə, modern mədəniyyətin əsas xarakteristikaları orqanik bütövlükdən dissosiasiya, neytralizasiya, xaotik emansipasiya və mütləqləşdirmədir. O xüsusilə də, həyata bir məna bəxş edən və mədəniyyətin orqanik xarakterini qoruyan bir formativ mərkəzə istinad edir. Siyasi müstəvidə bu mərkəzin pozitiv və zəruri manifestasiyasının spiritual əhəmiyyəti Gibellinizmin[119] siyasi teologiyası tərəfindən qorunub, eləcə də Dante Aligieri, Brunetto Latini və Marsilio Fiçino kimi filosoflar tərəfindən dəstəklənib.

Avropada ali istinadgahın yox olması ilə başlayan bu dissolyusiya prosesinin bir-birilə bağlı iki səbəbi var: birincisi, bir ağırlıq mərkəzi olaraq "Avropa tradisiyası" ideyasının paralizisi (bu eyni zamanda Avrope ekümeni və onun hakimiyyətinin süqutuna səbəb oldu), ikincisi isə, bütövlükdən ayrılmış hissələrin sentrifuqal anlayışı, onların bir-birindən dissosiasiyası və separat şəkildə muxtarlaşması. Qeyd edilən ağırlıq mərkəzinin təməlini təşkil edən gücün zəifləməsi və atrofiyası bu dissosiasiya və muxtarlaşma prosesini şərtləndirən amildir[120]. Siyasi perspektivdən, bu prosesin yekun nəticəsi Avropa ekümeni kompleksinə orqanik şəkildə daxil edilən ərazilərin "İsveçrələşməsi" oldu. İntellektual səviyyədə isə bu "təkamülün" nəticəsi obyektiv xarakterindən məhrum, bölünmüş, neytral mədəniyyətin formalaşmasından ibarətdir. Bu, modern erada üstünlük qazanan incəsənət ideyaları, mədəniyyət və elmin dominant xarakteri və genezisidir. Əgər biz modern elm və onun texnoloji tətbiqatları haqqında mülahizələrimizi da-

[119] Gibellinizm – Orta Əsrlərdə İtalyanın mərkəzi və şimali şəhər-dövlətlərində Papaya qarşı spiritual hakimiyyət olaraq Müqəddəs Roma İmperiyasını dəstəkləyən fraksiya – Gibellinlər. Onlara müxalif olan Quelfizm – Quelflər isə Roma Papasına sadiq idilər.

[120] J.Evola – "Chevaucher le Tigre", Fəsil V, 21. La maladie de la culture européenne, p, 184-186

vam etdirsək, getdikcə daha geniş muxtar status qazanan texno-elmə heç bir ali məhdudiyyət tərəfindən nəzarət edilmədiyini və texno-elmi inkişafın insanı qeyri-müəyyənliklərlə dolu gözlənilməz, mürəkkəb situasiyalar ilə üz-üzə qoyduğunu asanlıqla aydınlaşdıra bilərik. Qeyd edilənlər proqressiv düşüncənin özündə ehtiva etdiyi ehkamların, texno-elmin və onun tətbiqatının şübhə doğurmayan "azadlığının" nəticələridir.

Modern neytral və neytrallaşdırıcı mədəniyyətin ən tipik ekspressiyalarından biri mədəniyyət və siyasət arasında antitezis yaratmasıdır. Bu düşüncəyə görə, saf incəsənət və ya saf mədəniyyətin siyasət ilə heç bir bağlılığı yoxdur. Modern liberal-humanist çevrələrin dövlət idealları və hakimiyyət, sərt nizam, müharibə və dominasiya kimi prinsipləri özündə təcəssüm etdirən siyasi dünyaya qarşı isterik bir dözümsüzlük nümayiş etdirdiyini, eləcə də siyasi dünyanın kultural və spiritual dəyər daşıdığını inkar etdiyini bilirik. Məhz bu yanaşma kultural tarixi özlüyündə bir domenə çevirməklə onu siyasi tarixdən ayırdı. Təbii olaraq anti-siyasi patos, neytral incəsənət və mədəniyyətin yadlaşması siyasi sferanın deqradasiyası və siyasi dəyərlərin yaşadığı kəskin qürub kontekstində izah edilməlidir. Onu da vurğulamaq mütləqdir ki, yaradıcı və əzəmətli mədəniyyət heç də siyasətin və ya dövlətin xidmətində olan bir mədəniyyət deyil. Bu mədəniyyət siyasi, fəlsəfi və incəsənət sahələrində öz pozitiv fəaliyyətini icra edən unikal bir ideya, müəyyən bir sivilizasiyanın mərkəzi essensial simvoludur. Bu ideya siyasət və mədəniyyət arasındakı hər hansı bir antaqonizmi və ya parçalanmanı rədd edir.

Bugün, sahib olduğumuz toksik xarakterli neytral incəsənət liberal-demokratiya kimi kütlələrə arxalanan dekadent siyasi qüvvələrin əmrindədir. Neytral mədəniyyət və incəsənət düşüncələri subyektivizmin, obyektiv tərzlərin yox olmasının və dərinlik dimensiyasının çatışmazlığının birbaşa nəticəsidir.

Modern incəsənətdən danışdığımız zaman ilk olaraq "qadın spirituallığının" səciyyəsi kimi, onun xəstə emosionallıqdan başqa, böyük tarixi və siyasi qüvvələr də daxil olmaqla heç nə ilə əlaqəsi olmayan "intim" keyfiyyəti vurğulanmalıdır. Sənətkarın şəxsi subyektivliyinin dünyasına doğru

geri çəkilən modern incəsənət yalnız psixoloji və "estetik" olaraq maraq kəsb edəni dəyərləndirir. Bəzi hallarda, bir şüar kimi istifadə edilən "saf incəsənət" eskpressiv mükəmməlləşmənin saf formalizmi çərçivəsində başa düşülür. Bugün, tradisional incəsənət arzusundan danışmaq qeyri mümkündür, çünki incəsənətin metafizik – ali dərkinin nə olduğu barəsində heç bir ideya mövcud deyil. Qarşımıza çıxan orijinal kreativ qüvvədən məhrum olan akademisizm və modellərin solğun reproduksiyasıdır. Avanqard trendi, onun dəyəri və mahiyyəti ümumi dissolyusiya prosesinin nümayişinə və bir üsyan formasına endirilib. Avanqard əsərlər incəsənət perspektivindən deyil, modern həyatın alt-simvolları olaraq maraq kəsb edir. Onların əks etdirdiyi tənqidi situasiya daha çox Qərb nihilizminə aid edilsə də, konstruktiv və davamlı olan heç bir şeyin ortaya çıxmasına səbəb ola bilmirlər. Bir ekzistensial situasiyada ən inqilabi xarakterə bürünən avanqardistlər öz əsərlərində yeni akademisizmi, yeni konvensionallığı və yeni ticariləşməni həvəslə qəbul etdilər. Sadəcə bir qaçış anlamına gələn bu mücərrəd, formal və neo-klassik istiqamət onların əvvəlki, inqilabi fazasına son qoydu. Nitzşenin incəsənət Dionisianizmi bu halın təsvir edilməsində adekvat ifadə olaraq işlədilə bilər. Dissosiasiya edilmiş psixi məzmunların formasız püskürməsi olaraq ekspressionizmin, dadaizmin və sürrealizmin enerjisinin tükənməsindən sonra modern incəsənət daxilində "öz-özünü dissolyusiya etmə" prosesinin baş verdiyini söyləməliyik. Lakin, bu boş spiritual məkan daxilində əzəmətli incəsənət tərzləri yaratmaq qeyri-mümkündür. Nitzşe qeyd edir ki, sənətkarın əzəmətliliyi onun oyatdığı gözəl hisslərdə deyil, onun əzəmətli incəsənət üslubuna yanaşma dərəcəsindədir. Onun qayəsi xaosun bir parçası deyil, tamamilə əksinə, xaosun *Meister*-i olmaq və xaos üzərinə öz *riyaziyyatını*, qanununu və formasını təlqin etməkdir[121]. Lakin, modern dünyada bu düşüncəyə sahib bir sənətkarın varlığını güman etmək belə absurd səslənir. Çünki bu dünya bir nəhəng incəsənət tərzinə ruh, qüvvə və məzmun verə biləcək supra-insani və spiritual mərkəzdən, obyektiv simvollardan total şəkildə məhrumdur.

Bir xalqın incəsənəti onun dünya-ruhunu simvolizə edir. Onların

[121] J.Evola – "Chevaucher le Tigre", La Colombe, Paris, 1964, p, 190

sənət əsərləri ansestral motivasiyaları, dünyabaxışını, spirituallığı və gələcək arzuları özündə təcəssüm etdirir. Yaradıcı prinsiplərdə çiçəklənən bu məziyyətlər eyni zamanda onların bizim üçün qoyub getdiyi və sirli bir şəkildə nəsillərdən nəsillərə ötürülən, miflərdə gizlənmiş və zamanda saflaşmış dəyərlərdir. Bu gizli və bölünməz incəsənət ruhu spesifik özünəinamı və dünyaya təsir etmək iradəsini təmsil etməklə ən kiçik ümumi istifadə obyektlərinə qədər hər şeyin dizaynını özündə əhatələyir. Qanda və tarixi landşaftda kök salan bu dizaynın nizamlılığı qeyri-maddi və əsla yanlış anlaşılmayacaq dərəcədə aşkardır. Yunan-Ellin sivilizasiyası bizə öyrədir ki, aristokratik-spiritual incəsənət konsepsiyası bir cəmiyyətin sağlam halının başlıca göstəricisidir. İncəsənətin gözəllik dəyərlərinin üstünlüyü kultural sağlamlıq və sarsılmazlığın refleksiyasıdır. Heç şübhəsiz ki, Modern incəsənət bir terminal xəstəliyin simptomlarını əks etdirir.

Öz tarixi faktlarında Yunan mifləri bir amansız münaqişə zamanı ən məşəqqətli çətinliyə və tragediyaya üstün gəlmə və təbii həyat üzərində əbədi şanı seçmədən ibarətdir. Bu miflər Yunanların cəsarət, şərəf və qəhrəmanlıq fəzilətlərinə necə böyük şövqlə bağlılıqları ilə yanaşı, Hind-Avropa solyar ruhunun Apollonian əzəmətini nümayiş etdirir. Qorxaqlıq və şübhəyə üstün gələn qəhrəmanların fiziki cəsarəti heyvani və ya kor-koranə deyil, tamamilə spiritual və intellektual xarakterli idi. Supra-insani şəxsiyyətlərin bu vulkanik partlayışı onların öz Tanrılarına bənzəmək qətiyyəti və iradəsindən qaynaqlanırdı. Yunanlar tarixi qarşılarında mövcud olan, gələcəyi isə arxadan gələrək onları qucaqlayacaq fenomenlər olaraq dərk edirdilər. Poetik oral ənənə Periklin zamanından geriyə Troya divarlarına, əzəmətli Mikenadan Hiperborean[122] miflərinə qədər uzanan ansestral benediksiya körpüsü idi. Ən ali – superiyor və məziyyətli daxili həyatın miflərə həkk edilməsi insanların mübarizə aparmaqla əldə edə bildikləri bir *standarta* çevrildi. Fəzilətlilik uğrunda transsendental axtarışları ilə Yunanlar gözəllik dəyərlərini inkişaf etdirməklə yanaşı onları aristokratik

[122] Hiperboreios – Yunan mifologiyasına görə, Uzaq Şimalda, Şimal Yelindən daha uzaqda yaşamış olan bir qövm. Hiperboreiosların Apollon kultlarının mənşəyini formalaşdırdıqları və Delfi məbədini qurduqlarına inanılır.

nəcabət və Olimpiya həqiqəti ilə əlaqələndirdilər və öz incəsənətlərinin ilkin ekspressiyasına transformasiya etdilər. Onların kultural yaradıcılıq qabiliyyətləri realizm və idealizmin mükəmməl mifik kombinasiyasından doğurdu. Bu ideyalara spiritual fəzilətin aliliyi, fəlsəfi maraq, şərəfli, mübariz və nizamlı həyat, təbiətə bağlı teologiya daxil idi. Avropanın rəssamlığını, memarlığını, ədəbiyyat və fəlsəfəsini ilhamlandıran bu ali nailiyyətlər ilə Yunanlar insanlığa bəşəri gözəllik formulasını bəxş etmişdilər.

Bu gözəllik formulu *Qızıl Orta* və ya *Qızıl hissə* olaraq adlandırılan *Qızıl Nisbət* ilə birbaşa bağlıdır. Estetik olaraq mükəmməl proporsiya və köklü prinsip olmaqla *Qızıl Nisbət* Avropanın memarlıq, heykəltəraşlıq, rəssamlıq və musiqi ənənələrində ən ali dəyərə sahibdir. Yunanlara görə, Qızıl Nisbət təbiətdə hər şeydə özünü göstərir: yarpaqların spiral formalarında, palıd ağacının qozalağında, balıqqularında və bütövlükdə insan bədənində öz əksini tapır. Bu, hər bir hissənin digər hissələrin ümumi cəmi ilə uyğun gələn bir nisbətdir. Ellin filosofları həm fiziki, həm də metafiziki olan hər şeyin təməlində bir aritmetik dəyər görürdülər. Filolaus və Arhitas kimi Pifaqorçu filosoflar bu aritemtik dəyərlərdə harmoniya və proporsiyanı kəşf etməklə əzəmətli gözəllik formulunu yaratmışdılar. Onlara görə, həndəsə məkanda, musiqi zamanda, astronomiya isə məkanda və zamanda bir aritmetik dəyər idi. Pifaqorçular incəsənət və elmi qarşılıqlı olaraq inkişaf edən bir kultural ekspressiya olaraq dərk edirdilər. Modern insan "texnologiya" deyildiyi zaman sənət və zənaət ilə əlaqəli heç nə eşidə bilməsə də, "texnologiya" sənət, bacarıq, əlin və zənaətkarın zirəkliyi mənasını verən *tekne* sözündən gəlir. Qızıl Nisbət maddi və təxəyyüli, fiziki və metafiziki dünya arasındakı sıx bağlılığı nümayiş etdirir. O, aritemtik dəyərlərə və proporsiyaya endirilə bilən bir sistem olaraq incəsənətin rasional summasiyasıdır. Proporsiya gözəlliyə açıqlıq gətirən başlıca konsept, simmetriya isə vital klassik konsept üçün ümumi olaraq istifadə edilən bir anlayışdır. Fundamental dizayn prinsipi olaraq simmetriya musiqi də daxil olmaqla bütün incəsənət növlərində özünü göstərən prinsipdir. İncəsənətdə arzu olunan proporsiyanın gözəlliyi həm hiper-rasional,

həm də hiper-spiritual olmaqla təbiətdə də özünü göstərir. "Symposium" adlı əsərində Platon bildirir ki, gözəllik Forması insanı spiritual axtarışa və elmlərə yönləndirən biliyin əldə edilməsi ilə bağlıdır.

Neoplatonist Plotinusa görə, intellekt (*nous*) gözəlliyin səbəbidir. Passiv maddə üzərinə Forma təlqin edərək gözəlliyi yaradan intellektdir. Gözəllik Formalarında və intellektdə iştirak etməyən bütün varlıqlar çirkin olaraq nəzərə alınır. Plotinus bildirir ki, bəşəriyyətdə xaotik bir maddədən düzən və struktur yaradan İntellektin bir vasitəsi olmasından dolayı Forma gözəlliyin yaradıcısıdır. Makrokosmik anlamda, Fidias və Polikleitos kimi Yunan heykəltəraşları zamana üstün gələn əsərlərində eyni formuldan istifadə edirdilər. *Kanon* adlı traktatında Polikleitos gözəlliyin simmetriyadan qaynaqlandığını bildirir. *Kanon* əsəri sadəcə olaraq digər bir insana münasibətdə bir insan bədəninin hissələri üçün ideal proporsiyaları deyil, İnsan fiquru heykəlinin yüngülləşmiş və gərilmiş hissələri arasında dinamik bir balansa necə nail olmağı təhlil edir. Onun öz əsərində praktikaya qoyduğu bu prinsiplər Avropa memarlığının təməl sütununa çevrilir. Bu incəsənətin əsası nəciblik, ağıl və həqiqətin mədhində gözəllik dəyərlərini ifadə edən fəlsəfə və spirituallıqdır. Bir aksioma olaraq insani forma ilə idealizasiya transsendental olaraq inqilabi sivilizasional nailiyyətdir. Bu, həm subyekt, həm də gözəllik Formalarını özündə ehtiva edən transsendental mükəmməlləşmə səviyyəsi idi. Dəyərsiz, nihilist, heç bir spiritual idealizmi olmayan və çirkinlik kultu üzərində dayanan Modernizmdən fərqli olaraq, Yunan heykəltəraşlığı görüldüyü zaman dərhal onun aid olduğu təməl sivilizasiya və fəlsəfənin əzəməti dərk olunur. Bu incəsənətin supra-insani zirvəsi, transsendentallığa, qeyri-mümkünlüyə cəhd iradəsidir.

Polikleitosun *Kanon* əsəri qəhrəman çılpaqlığının Ellin idealizmini əks etdirir. Yunanlarda çılpaq bir fiqur bütün detalları ilə uşaqsı və şəhvətli bir formada təsvir edilmirdi. Bu aşkar realizmdən yayınmaq çılpaq formanı nəcibləşdirmək üçün bir stratagem idi. Ellin kişi fiqurları energetik canlılıq və uyğunluğunda, eyni zamanda sanki bir müharibəyə hazır imiş kimi təsvir edilir, onu vizual nəcabətindən ayıra biləcək zövqsüz seksual aspek-

tindən yayınılırdı. Bu bizə onu dərk etməyə imkan verir ki, həmin fiqurların ümumi insanlardan daha çox demi-Tanrılara və Titanlara yaxınlıqları ilə dünyəvi həzzlərdən və heyvani distraksiyalardan uzaqlığına eyham vurulur. Buna görə də, onların cinsi orqanları ciddi şəkildə qabardılmır, onların jestikulyasiyası və ekspressiyasında sensuallıq və maddi həzzə bənzəyən heç nə mövcud deyil (çılpaqlıq və atletik olaraq qabardılmaya rəğmən). Onlar ilahi nəcibliyi təlqin etmək üçün seksual arzunun heç bir invokasiyası (invokasiya – çağırış) olmadan çılpaqlığın bütöv dürüstlüyünü, energetik-həyati canlılığın ehtişamını nümayiş etdirirdilər.

Eyni şey çılpaq qadın heykəlləri üçün də söylənilməlidir. Bu məsələ daha çox mühümdür, çünki hər hansı seksual konnotasiya olmadan qadın fiqurlarını təsvir etmək çox çətindir. Lakin əzəmətli Ellin memarlığı qadını nə şəhvani seksual, nə də realist-çirkin olaraq deyil, gözəl fəzilətlər ilə nəcibləşdirilmiş qadınlıq formasında təsvir edirdilər. Bu elə bir sibaritik çılpaqlıq idi ki, orada seksual düşkünlüyün heç bir nümayişi mövcud deyil. Uzun torsoslar, Roma burunları, daha kiçik konusvari sinə, zərif formada qoyulmuş əllər və ayaqlar, qadınsı bir formada ləyaqətli bir duruş – bunların hamısı Evklid proporsiyalarında balanslaşdırılırdı. İncəsənətdə gözəllik baxışı erotik arzunu rədd etmədən onun fövqünə yüksəlməyin əhəmiyyəti üzərində dururdu. Daha çox dünyəvi elementlər üzərində fokuslanmaq subyekti ali incəsənətin ilahiliyinə doğru yüksəldir. Barmağın mövqeyi, mükəmməl bədən forması, duruşun ağırlığı ideallaşdırılmış qadınların məziyyətli və bir Tanrıçaya bənzər şəkildə nümayişinə səbəb olur. Onlar bir metakosmiada – sonlu məkanın ucsuz-bucaqsızlığında yerləşən dünyalararası məkanlarda yaşayırlar. Çünki Ellin heykəltəraşlığının hər bir kiçik hissəsi digər hissələr və bütövlük ilə müqayisəli uyğunluqda – Qızıl Nisbətdə yaradılırdı. Bu əzəmət anlayışı həmin əsərlərin zədələnməsi və fraqmentlərinin sağ qalması halında belə onların daxilində yaşayırdı. Təbiət və təbiətə sədaqət ilə ruhlandırılan bu əsərlər zamansızdır. Bu, Qızıl Nisbətdə mövcud olan *harmoniya və ritmosun* gücü ilə bağlıdır. Hətta musiqidə Motsart sonatalarına qədər bu Qızıl Nisbət, bu müqəddəs həndəsə hər zaman tətbiq

olunub. İncəsənət məşəqqətli, keçici bir hobbi deyil, gündəlik reallıqlarla bağlı olmayan, tamamilə dini-transsendental və əbədi olmaqla bütün mülahizə, müzakirələrdən üstün idi. Yunanlara görə, həqiqi incəsənətin sonu deyil, yalnız daha mükəmməlləşmiş forması ola bilərdi[123].

Roma memarı Vitruvius da özünün seminal "De Architectura" adlı əsərində Yunanlara məxsus simmetriya konseptindən istifadə edir. Simmetriyanı spesifik ədədi nisbətlər daxilində izah edən Vitruvius harmoniyal dizaynı formalaşdırmaq üçün proporsiyalar sistemindən istifadə edirdi[124]. Romalıların Ellin gözəlliyinə bağlılıqları onların bugün sağ qalan monumental akveduktalarında, körpülərində və ictimai binalarında özünü bariz bir formada göstərir. Modernizmdən fərqli olaraq onlar cah-cəlallığa və bayağılığa deyil, transsendentallığa, instinktual və intellektual idealizmə, asketik monumentallığa meyillənirdilər. Onlar çox yaxşı dərk edirdilər ki, həyatda yalnız iki şey var: *zəiflik və əzəmət.*

Xristianlıq öncəsi Avropada, əsasən də Yunan-Roma paqanizmində nəcib olan gözəllikdən ayrıla bilməz. Nəciblik bir formadır, dünyəvi şeylərin mükəmməl forması. İncəsənət müqəddəsdir və əsla dindən ayrıla bilməz. Tanrılar nəinki simvolizə oluna bilər, incəsənət onların necə simvolizə oluna bilməsinin əsas meyarıdır. Antik Avropa spirituallığı görünə bilən və görünə bilməyən dünya arasında *vasitəçi* kimi simvolizasiyaya əsaslanır. Gözəllik nəcib olanın, çirkinlik isə formasızlığın və ya ruhi kontaminasiyanın görünən simvoludur. Karol Kerenyi bildirir ki, qədim Yunanlar üçün ehtişam vizual və maddi simvolizasiyanın inteqral bir parçasıdır. Yalnız estetikliyin və müqəddəsliyin birləşməsi ilə dini duyğular öz zirvəsinə çatırdı. Hegel bildirir ki, Yunanlar arasında incəsənət Tanrılarını simvolizə edə və onların həqiqətlərini dərk edə bilmələrinin ən ali forması idi. Bütün varlıqlar – Tanrılar və insanlar özlərini öz fəaliyyətləri ilə maddi formada – simvollar dünyasında nümayiş etdirirdilər. Vaqner kimi estetikaya ən ali mövqe verən Nitzşe də, "Xristianlığın dramatik incəsənət ilə

[123] M.P. Brendan Heard – « The Decline & Fall of Western Art », (CreateSapce Indepenedent Publishing Platform, South Carolina, USA, 2018)

[124] "The Architecture of Marcus Vitruvius Pollio", translated by Joseph Gwilt, London, 1874

əvəzlənə biləcəyini" qeyd edərək vurğulayırdı: "Biz Avropalılar incəsənət dünyasının həqiqi yaradıcısının estetik proyeksiyalarıyıq. Yalnız estetik fenomenlər olmaqla dünya və mövcudiyyət əbədiyyən doğruluq və alilik qazana bilər[125]." Adıçəkilən alman filosofuna görə, incəsənət insanın ən ali davranışı və spiritual vəzifəsidir. Nitzşeyə görə, estetika domeni etika və bilik üzərində aliliyə sahibdir. Bu, Modernizm əsrinin hiper-sivil insanları üçün qorxunc səslənsə də, incəsənət, fəlsəfə və elm insani fəaliyyətin (drasi antropini) bir-birindən ayrılmaz simalarıdır. İncəsənət vasitəsilə, Nitzşe qeyd edir, insan öz eqosunun sərhədlərinə üstün gələrək bəşəriyyətlə vəhdət qazana bilir. İncəsənətin başlıca rolu insanın öz-özünə üstün gəlməsində ən ali vasitə olmaq qüdrətindədir.

İncəsənətsiz dünya hər birisinin özünəməxsus xaos motivasiyasına malik olduğu üçbaşlı mutanta bənzəyir. Onlar bir-birilə əlaqəsiz şəkildə görülsə də, incəsənət dəyərlərinin yox olmasında və onun industrial istismarında birləşirlər. Bu qüvvələr: 1) "incəsənətin tənqidinin" kəşfi və abstrakt incəsənətin meydana çıxması ilə xarakterizə olunan Modernizm fəlsəfəsi. 2) İdealizm və spiritual əxlaq üzərində materializmin yüksəlişi – populist ateizm (nihilizm), istehlakçılıq, korporatizm, feminizm, multikulturalizm, relativizm ilə birlikdə senzura və mediyanın gizli anlaşması vasitəsilə qəribə bir korporat kommunizmə doğru meyillənib. 3) Sənayeləşmə və kütləvi istehsal – hər ikisi texnoloji tərəqqinin siması olmaqla bərabər, kapitalist qlobalizmin xidmətində lokal incəsənətə və sənətkarlıq (zənaət) müxtəlifliyinə qarşı materialist merkantil sinfin bir alətinə çevrilib[126]. Bu dekulturasiya təhdidlərinin hər biri müstəqil olsa da, onlar tandem şəkildə işləyir. Modernizm fəlsəfəsi kontekstində incəsənətin "tənqid" edildiyi dil "Artspeak" adlandılır. Lakin, əslində intellektual kitç linqo-su olmaqla Artspeak modern incəsənət qalereyalarında ucuz intellektualizm iddiası ilə birlikdə ortaya çıxan emosional cəfəngiyyatı şərh edən psevdo-intellektual

[125] Alain de Benoist, – «On being a Pagan», (translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004), p, 96

[126] M.P. Brendan Heard – «The Decline & Fall of Western Art», (CreateSapce Indepenedent Publishing Platform, South Carolina, USA, 2018)

kazuistikadır. Artspeak dilini icad edən isə Amerikalı rəssam və Mücərrəd Ekpressionizmin nümayəndəsi Klement Qrinberq hesab olunsa da, ondan daha əvvəl Yunan keramikasını, Misir relyef oyma metodlarını, Ellin heykətəraşlıq prinsiplərini rədd etməkdə və incəsənəti mücərrədləşdirməkdə Ekspressionizmin banisi Vasili Kandinskinin rolu xüsusi qeyd olunmalıdır[127]. "Du spirituel dans l'art" adlı fəlsəfi-incəsənət manifestində Kandinski abstrakt rəssamlıq vasitəsilə Yer üzündə insana "cənnətin və yeni spiritual Krallığın" qapılarını açdığını qeyd edir. XX əsrin əvvəllərində əsasən Amerikada V.Kandinski "yeni spiritual inqilabın bələdçisi" olaraq qəbul edilirdi[128]. V.Kandinski elan edir ki, məqsədləri üçün zəruri olduğu zaman sənətkarın istədiyi formaları aradan qaldırmaq və ya onları əsərlərinə daxil etmək hüququ var: "Vasitələr seçimində sənətkarın azadlığı total şəkildə qeyri-məhduddur"[129]. Abstraktsiyanın mistik-millenarist nəzəriyyələşdirilməsini təmsil edən K.Maleviç, V.Kandinski və P.Mondrian Teosofiya və digər neospiritualist düşüncələr vasitəsilə messianizm və millenarizmə istiqamətlənmişdilər. Mücərrəd incəsənətin adları qeyd olunan baniləri inanırdılar ki, onların piktorial praktikaları "daha yaxşı" bir dünyanın doğuşuna səbəb olacaq. Cekson Pollok və Mark Rotko kimi amerikalı rəssamlar da V.Kandinski başda olmaqla, mücərrəd incəsənətin pionerlərindən bəhrələnərək incəsənətin ruhunu öldürməklə, onu psevdo-rasional standartlara daxil etdilər.

İncəsənət artıq bizi məğrur yüksəkliklərə doğru ruhlandırmağa deyil, keçmişin qeyri-real yanlışlarını xatırlatmağa köklənib. Yalnız bir primitivlik, bir qabalıq, bir dekadentlik modern incəsənətdə mədh edilə bilər. Çünki onlar nihilist heyvani mövcudiyyətin təməl həqiqətini təmsil edirlər. Essensiyası etibarilə şarlatanlara həqiqi sənətkar adını şamil edən Artspeak incəsənət iyerarxiyası ideyasına təməldən düşməndir. Çünki Modernizm bir ali həqiqəti dərk etməyə qadir deyil: Gözəllik və Nəcabət maddi gəlir,

[127] Jean-Louis Harouel–"La grande falsification: L'art contemporain", Jean-Cyrille Godefroy, 2009, Paris, p, 80

[128] Wassily Kandinsky–"Du spirituel dans l'art, et dans dans la peinture en particulier", Paris, 2007, p, 73

[129] Ibid., p, 68, 92, 101

şöhrət və tanınma xatirinə deyil, millətlərin spiritual, tarixi və mifik məziyyətlərini ali zirvəyə yüksəldən transsendental qüvvə olaraq dünyaya gəldi.

Psixoloji xəstəlik olaraq təsvir edilməli olan Modernist incəsənətin məqsədi klassik-tradisional incəsənətin total destruksiyasıdır. Modernizm bizi bədii, spiritual, siyasi və sosial olaraq qaranlığa qərq edən akultural fəlsəfənin dominasiyasıdır. Demək olar ki, heç nə onun infeksion absurdluğundan azad deyil. Memarlığımızdan dəblərimizə, nitq tərzimizdən özümüzü ifadə etdiyimiz ideyalara qədər qeyri-mühakiməçiliyin simvolu olaraq Modernizmin zəfəri hökm sürür. Daha pisi ondan ibarətdir ki, bu düşüncə yalanlar, konformizm və bulanıq nisbiliyə əsaslanır.

Yaradıcılıq perspektivindən, Modernizm təklif etdiyinin tamamilə əksini nümayiş etdirir. O, insan ağılını sonsuz potensiallığa doğru yönləndirdiyini iddia etsə də, reallıqda illüziyonar və bəhrəsiz mümkünlüklər yaratmaqla insanı da onlara kölə edir. Bununla bərabər, bu atrofik düşüncə saxtakarlıq labirintində həqiqi yaradıcılığı boğmaqla, həqiqət və gözəlliyin aydınlığının qarşısını alır. İnsanlıq klassik dəyərləri və gözəlliyi bu mücərrəd *Allaha* qurban verib və qarşılığında aldığı mükafat sadəcə ən hedonist tərzdə istehlakçılıq və identikliyin yox oluşudur. Essensial həqiqət olaraq təbii gözəllik qeyri-təbii və şeytani olaraq yenidən formulə edilir. Modernizm keçici bir trend deyil, öz-özünü kultural olaraq aradan qaldırma ilə müşaiyət olunan sürünən ölümün katalist simptomudur. Kitablar sadəcə basmaqəlib və ya fiksiya, musiqi inferiyor və ruhsuz, vizual incəsənət faktiki olaraq qeyri-mövcud, şəhər göydələnləri isə mahiyyətsiz nəhəng şüşə qutuların gözəbatan çirkinliyidir. Qadağasız bir dünya xəyallarında öz klassik dəyərləri ilə qumar oynayan modern Qərb gözəllik dəyərlərindən total şəkildə qoparaq özünün köklü sosietal və kultural istiqamətini tirib. Modernizm düşüncəsi üçün saf yaradıcılıq təhlükəli, sosial olaraq xaotik, nəzarətedilməsi və kəmiyyətləşdirilməsi qeyri-mümkündür. Öz-özünə üstün gəlmənin bütün potensiallıqları aradan qaldırılıb və reduksiyonist, destruktiv və krass materializmin manipulyativ "fəlsəfələrindən" bütövlükdə imtina edilməyənə qədər yeni "Mikelancelo"lar və ya "Be-

ethoven-lər", "Çaykovski-lər", *kəşf edilməyəcək.* Kütləvi istehlak üçün hazırlanan "incəsənət" məhsulları və təriflərə sığmayan qraffiti insan ağılının köksüz iqtisadiyyata kölə edilməsinin nəticəsidir. Klassik-tradisional dəyərlərin vertikal alt-üst olması və *superiyorun inferiyor* ilə əvəzlənməsi nəticəsində vulqarlıq "ali fəlsəfi paradiqmaya", gözəllik isə bir pastişə çevrilib. Modern incəsənətə tolerans göstərmək kultural olaraq öz-özünə nifrətin bir simptomudur. Onillərlə davam edən propaqandanın nəticəsində ortaya çıxan permissiv (permissivizm – hər şeyə icazə vermə) dəlilik və ya inferiyor olandan təlqin edilən degenerasiya yalnız kultural parazitlər və aberrantlar arasında geniş dəstək bazasını yarada bildi.

İndi isə Ekspressionizm ilə başlayaraq Modernist incəsənət hərəkatlarını təməl cəhətləri ilə təhlil edə bilərik:

Ekspressionizm – psevdo-fəlsəfi "prinsiplər" ilə mücərrədləşdirmə və emosiyanın forma üzərində hakimiyyəti. Dünyanı sadəcə subyektiv perspektivdən təqdim etməyə çalışan bu hərəkat fiziki reallığın deyil, sadəcə "emosional təcrübənin" ifadəsidir. Fovizm Ekspressionizm ilə sıx bağlı olan digər bir hərəkatdır və aralarında hər hansı bir təməl differensiasiya yoxdur. Üfüqi səth üzərinə rəng sıçratma metodunu ali incəsənət olaraq qəbullanmaq xaosa doğru nəhəng bir addım oldu. Bu metod incəsənətdə Ekspressionizmin mücərrədliyinin nümayişidir. Qısacası, bu hərəkat bəsit emotiv şok dəyəri üçün klassik-tradisional incəsənət texnikalarının total şəkildə rəddini özündə ehtiva edir.

Dadaizm - bütün modern incəsənət hərəkatlarının ən irrasional və ən melodramatik formasıdır. Y.Evolanın Dadaizmi avanqard incəsənət müxtəlif hərəkatlarını qidalandıran ən dərin impulsların son nəticəsi olaraq təsvir edir. Bütün incəsənət kateqoriyalarını rədd edən Dadaizm rasionallıq, qadağa və ahəngdən tamamilə məhrum olmuş həyatın xaotik formalarına keçidi reallaşdırdı. Dadaizm ziddiyət və absurdluğun mədhi, mütləq abstraktlaşmanın qəbuludur. Postmodernizmdən daha antaqonist olsa da, hər iki hərəkat eyni putrefaksiyanı əks etdirir. Dada, əsasən rəssamlıqda özünü göstərən və 1916-cı ildə Avropada ortaya çıxan və gözəl-

liyin qəbul edilmiş dəyərlərinin inkarına, irrasionallığa əsaslanan nihilist bir incəsənət hərəkatıdır. Marsel Düşamp Parisin bir qalereyasında idrar qutusunu incəsənət obyekti olaraq təqdim etməklə və incəsənət gözəlliyi yaxud həqiqətinin izləyicinin baxışından asılı bir məsələ olduğunu bildirməklə incəsənət prinsiplərini nisbiləşdirdi. Okkultizmin aşkara çıxardığı gizli reallıq ideyası və "paranormal manifestasiyaların" kəskin təsiri altında qalan M.Düşamp əsərlərində "metarealizm"i və "möcüzəvini" nümayiş etdirdiyini iddia edirdi[130]. M.Düşampa görə, bir obyektin incəsənət və ya tullantı parçası olduğu məsələsi sosial kontekstdən və bizim bu konteksti incəsənət nümunəsi olaraq qəbul etmək hazırlığımızdan asılıdır. "Dada, İncəsənət və anti-incəsənət" adlı kitabında alman rəssamı Hans Rihter vurğulayır ki, Düşamp üçün həqiqi incəsənət ya ölüdür ya da ölmək üzrədir. "Düşamp incəsənəti" incəsənətdən sonrakı dünyaya məxsusdur[131]. Aydın bir şəkildə söyləyə bilərik ki, çağdaş incəsənət tarixi məhz Dada düşüncəsi – M.Düşamp ilə başlayır. İlk populist anti-incəsənət hərəkatı olmaqla Dadaizm xüsusən də vulqar bohemianistlər arasında dəstəkçilər tapmağa başladı. M.Düşamp incəsənətdə şok taktikalarının məkrli nümayişi ilə məşhurlaşan bir opportunist və bir şarlatan idi. "Mona Liza" əsərinin kopyası üzərində bığ çəkməklə o özünün bu xarakteristikasını ortaya qoymuşdu. Etiyen Kalinesku Dadaizmi anti-incəsənətin anti-incəsənət xatirinə suisidal – intihar xarakterli estetikası olaraq şərh edir[132].

Kubizm–subyektləri bir dəfədə müxtəlif perspektivlərdən təsvir edən abstrakt incəsənət hərəkatlarından biridir. Kubizm – alilik və əzəmət çatışmazlığı, "proletarian məzlumlara" olan sevgisi, inkluziv bayağılığı və heç bir elitist intellektual tələbinin olmaması ilə modern incəsənətin primitivizmə olan heyranlığının aşkar göstəricisidir. Jorj Brak və Pablo Pikasso Kubizmin ən görkəmli nümayəndələri hesab olunur. Sadəcə Kubist olaraq deyil, eyni zamanda ən tanınmış Modernist olaraq da bilinən P.Pikasso

130 Jean-Louis Harouel – "La grande falsification", p, 88

131 Hans Richter – "Dada, Art and anti-Art", Thames and Hudson Ltd., London, 1964, p, 96

132 Matei Calinescu – «Five Faces of Modernity: Modernism, Avant-garde Decadence, Kitsch Postmodernism», (Duke University Press, Durham, 1987), p, 96

öz əsərlərində Trotiskist Solun mücərəddlik ibadətini əks etdirir. 1944-cü ildə Fransa Kommunist Partiyasına qoşulan və 50-ci illərdə Stalin Sülh Mükafatına layiq görülən P.Pikasso 1945-ci ildə verdiyi müsahibəsində "Mən bir kommunistəm və mənim rəssamlığım bir Kommunist rəssamlığıdır" – deyə bildirmişdi. Müsahibələrinin birində Pikasso qeyd edir: "Mən yalnız qaldığım zaman özümü sözün klassik və əzəmətli mənasında bir sənətkar olaraq düşünməyə cəsarət edə bilmirəm. Rembrandt, Fransisko Qoya, Cotto di Bondone və Titian (Titsiano Veçelli) həqiqi rəssamlar idilər. Mən sadəcə öz dövrünün axmaqlığını və içiboş göstərişini doğru başa düşən bir ictimai əyləndiriciyəm". Ümumiyyətlə, Kubizmlə bağlı yeganə müsbət cəhət 50-60-cı illərdə bir cizgi film və animasiya tərzinin ortaya çıxmasından ibarətdir.

Mücərrəd Ekspressionizm – Modern qalereyalarda və mediyada müşahidə etdiyimiz, eləcə də çağdaş incəsənətin "ruhunu" ən yaxşı şəkildə özündə ehtiva edən hərəkatdır. Mücərrəd Ekspressionizm qeyd edilən epistemologiyalar və onların narsissist dekonstruksiyasının yekun xülasəsidir. Konseptualizm ilə birləşərək Mücərrəd Ekspressionizm vizual incəsənətdə ölü sonun əsasını təşkil edir. Ona görə də, bu hərəkat ən doğru şəkildə belə ifadə olunmalıdır: "*Qeyri-tradisional və qeyri-simvolik vasitələr ilə bir sənətkarın öz davranışlar və emosiyalarını nəql etmək azadlığını özündə ehtiva edən bir hərəkat"*. Başqa bir sözlə, Mücərrəd Ekspressionizm bir irrasional etos və həqiqətən fəlakətli bir sentimentallıqdır. Modern "sənətkar" etdiyi heç bir şeydən asılı olmayaraq gerçək bir sənətkar kimi tanınmaq, qəbul edilmək istəyir. Onun nəql etdiyi davranışlar və emosiyaları qarışıq və narsissist sentimentalizmdən başqa bir şey deyil. Bu destruktiv üsyankar hərəkata görə incəsənət – heykəltəraşlıq, rəssamlıq, dizayn – bütövlükdə essensial olaraq tradisional və simvolik dəyərlərindən, prinsiplərindən "azad edilməlidir". Bir akademik dinozavr olaraq meydana çıxan Modernizm vizual incəsənətlərin hakim mücərrəd tiranı mövqeyindədir. Klassizm və tradisionalizmə qayıdışdan dəlicə qorxan Modernizm və onun ilhamlandırdığı mücərrəd incəsənət hərəkatları bir

şok terapiyasının, seksual innuendonun, uşaqsılığın, anti-estetikanın, sinizmin, çirkin, asimmetrik və kultural olaraq isterik incəsənətin təcəssümüdür. Hərfi olaraq, çağdaş incəsənət hərəkatlarındakı təkamülün gizli kredosu *aberrantlığın yüksəlişi* kimi vurğulana bilər. Bu aşkar yalanların və saxtakarlıqların sivilizasional dəyərlərin içərisinə daxil olmasına icazə vermək suisidal bir maniyadır. Bu, şanlı tarixini ört-basa etməyə çalışan Avropa insanının yaratdığı və Amerikanın arasıkəsilməz ideoloji təlqinlər ilə bütün dünyaya injeksiya etməyə çalışdığı nəhəng bir kultural virusdur. Kerri Bolton Mücərrəd Ekspressionizmi Amerikanın "rəsmi incəsənəti" olaraq analiz edir[133]. Abstrakt Ekspressionizm heç bir tərəqqisi olmayan əbədi "üsyan halı" olaraq mövcuddur. Bütün simvolik və tradisional incəsənət metodlarını "illustrasiya" kimi xarakterizə edən bu hərəkat həqiqi incəsənət ruhunun ölümüdür.

Mücərrəd Ekspressionizmin qəbul edilmiş tabularına etiraz edən klassik ruhlu rəssamların sayı çox azdır. Əsərlərinə istinadən bir ayağı ənənədə, digər ayağı Modernizmdə - olaraq təsvir edilən Salvador Dali Modern incəsənəti heybətli bir tragediya kimi xarakterizə edir. Tam şəkildə konvensional və ya tam şəkildə tradisional bir rəssam olmayan S.Dalinin əsərləri böyük incəsənət "Meister"ləri və onların istifadə etdikləri texnikalarına aid olan klassik bacarıq nümayiş etdirir. O, Fransada Post-İmpressionizmin nümayəndəsi olan Pol Sezan və Pablo Pikassonun neqativ dəyərləndirməsini aparmaqla fikrindəndönməz və sarkastik formada Modern incəsənət normalarını tənqid edir. Əsərlərində isə daha çox Rafael və holland rəssamı Yan Vermeeri tərənnüm edir.

Biz dərk etməliyik ki, Modernizmin və başlıca olaraq da, Mücərrəd Ekpressionizmin manifestosu incəsənəti qeyri-incəsənətə çevirməkdən ibarətdir. Bu Allahsız dərinlik və çirkinliyə ibadət ehtirası artıq substansial qiymətlərlə "İncəsənət əsərləri" satan heyvanların ortaya çıxması ilə nəticələnib. 1964-cü ildə İsveçin Boras Dyorpark zooparkına məxsus Pi-

---

[133] Kerry Bolton – "Stalin; the Enduring Legacy", Part II – Stalinism and the Art of Rootless Cosmopolitanism, p, 25

yerr Brassau adı verilən bir şimpanzenin çəkdiyi rəsimlər sərgilənir və ən aşağı qiyməti yeddi yüz dollar olmaqla satılmağa başlanılır. Brassau "güclü ştrixlərlə və dəqiq müəyyənliklə rəsm çəkərək bir balerina incəliyi nümayiş etdirən "sənətkar" olaraq" təsvir edilir. Beləcə, Modern Artspeak-in bizi gətirdiyi hədd – bir meymunun rəssam olaraq elanı ilə biz absurdluğun ən ironik formasına daxil oluruq[134].

Konseptualizm – Tradisional estetika və materialın üzərində konseptlərin aliliyi. Konseptualizm və Minimalizm kimi hərəkatların nümayəndəsi olan Amerikalı rəssam Sol Levitt qeyd edir ki, bugün əhəmiyyət qazanan bütün incəsənət formaları Konseptual incəsənətdən qaynaqlanır. Bura siyasi, sosial və feminist istiqamətli incəsənət daxildir. İtalyan əsilli, Amerikan bəstəkarı Cian Karlo Menotti isə bildirir ki, mən konseptual incəsənətin bir zarafat olduğunu düşünmüşdüm. Konseptualizmin tərifi Mücərrəd Ekspressionizmin tərifi ilə demək olar ki, eynidir və aşağıdakı kimi qeyd edilə bilər: "Universal olan hər şey yalnız insan ağılında yerləşməklə heç bir zahiri və ya substansial reallığa sahib deyil. İncəsənət izləyicisinin intellektual müdaxiləsi sadəcə öz ideyasının ötürülməsi və incəsənət obyektinin mühümlüyünün inkarı ilə baş verir". Bu aşkar relativizmə görə, insanın düşüncələrindən kənarda heç nə mövcud deyil. Essensial olaraq solipsizm fəlsəfəsindən qidalanan Konseptualizm narsissist və məzmunsuz modern incəsənətin arxasındakı güclü impetyusdur. Solipsizm isə insan ağılından kənarda hər şeyin və hər kəsin şübhəli və nisbi olduğunu, həyatın psixotik oyun, fərdin isə özlüyündə bir "Tanrı" olduğu ideyalarına dayanan "fəlsəfi" görüşdür. Buna görə də, incəsənət akademiyaları və universitetlərində sonsuz şərhləndirmələrə və yenidən şərhləndirmələrə açıq olmaqla, ruhən zəhərləyici apatiyası ilə Konseptualizm istehlakçı saxta fərdiyyətçiliyin ana xəttlərindən birini təşkil edir.

Pop İncəsənət – Pul qazanmağı "incəsənətləşdirən" bu ironiyanın kralı heç şübhəsiz ki, amerikalı prodüser Endi Vorholdur. O qeyd edir:

---

[134] M.P. Brendan Heard – « The Decline & Fall of Western Art », (CreateSapce Indepenedent Publishing Platform, South Carolina, USA, 2018)

“Mən tamamilə səthi bir insanam. Hansı yolla olur olsun, pul qazanmaq fəaliyyəti bir incəsənətdir, işləmək incəsənətdir və yaxşı bizness ən yaxşı incəsənətdir”. Beləliklə, Dadaizm, Kubizm, Mücərrəd Ekspressionizm, Konseptualizm – dərin kultural və incəsənət dəyərlərini, simvollarını, texnikalarını, tərzlərini darmadağın etməyə köklənmiş, həqiqi, klassik incəsənəti anlaşılmaz və irrasional bir şeyə çevirən Modernizmin – vizual incəsənət fəlsəfəsinin derivativləridir.

Modernist akademik çevrələr Romantizmi Modernizmin başlanğıcı olduğunu bəyan edərək və Romantizm ilə İmpressionizmi Ekspressionizm və Kubizm ilə assosiasiya etməyə cəhd göstərərək Romantik, İmpressionist, eləcə də Jugendstil (Art Nouveau) rəssamlarını özünə absorbsiya etməyə çalışması opportunist iddiadan başqa bir şey deyil. Çünki onlar tradisionalizmin, çətin əməyin, müqəddəs həndəsənin mental çərçivəsində yaradıcı fəaliyyətlərini nümayiş etdirirdilər. Sənaye inqilabına qarşı bir reaksiya olaraq ortaya çıxan Romantizm Təbiətin və Mifin, eləcə də təxəyyül və spiritual fərdiyyətçiliyin mədhidir. Modernizmə və Viktorian İngiltərəsinin (kraliça Viktoriyanın adı ilə) hakim trendinə qarşı yüksələn digər hərəkat Pre-Rafaelitlər Qardaşlığı adlanırdı. Onlar XV əsr – Quattrocento dövrünün İtaliyan incəsənətinin rəng və kompozisiyalarına qayıtmağa çalışırdılar. Onların incəsənət baxışları Orta Əsrlərə aid olsa da, Romantiklərin üslublarından geniş şəkildə istifadə edirdilər. Bu hərəkat Romatizm və Ekspressionizm arasındakı dövrdə mövcud olub.

İmpressionizm öz baxışlarında radikal olan rəssamlar qrupunun Parisdə əsasını qoyduqları və nümayəndələrinin romantik rəssamlar Jozef Mallor Törner və Öjen Delakruanın yolunu davam etdirdikləri hərəkatdır. Onların əsərlərində xəttlər və konturlar üzərində azad şəkildə fırçalanmış rənglərin üstünlüyü müşahidə edilir. Onlar həm innovativ, həm də tradisional xarakteristikaları daşıyırdılar.

Təbii formalar və sturkturlardan bəhrələnən Art Nouveau (Jugendstil) Modernizm və Avropada sənaye inqilabına qarşı əks-reaksiya olaraq ortaya çıxan “total” bir incəsənət tərzidir. Onların fəlsəfəsinə görə, incəsənət

bir həyat yolu olmalı və təbiəti tərənnüm etməlidir. Bu hərəkatın durğunlaşmış əksi isə Art Deco adlanır. Qlamur sənaye neoklassizmi olaraq da adlandırılan Art Deco müəyyən qədər ali estetik səciyyələri olsa da, daha sonralar alman reduksionist Bauhaus memarlıq hərəkatı tərəfindən istismar edilməsi onu gerçək xarakterindən qopardı. Bugün, Bauhaus bütünlüklə steril memarlıq metodlarından ibarət hərəkat kimi özünü göstərir və modern şəhər memarlığında başlıca rol oynayır. Yalnız Neo-İmpressionizm, Post-İmpressionizm, Fovizm, Kubizm, Ekspressionizm və Dadaizm tam şəkildə degenerat Modernizm fəlsəfəsi ilə assosiasiya edilə bilər.

Oxşar dekadentiv situasiya daha çox sənədli üsluba məxsus olan və bizi çağdaş mövcudiyyət halından xəbərdar edən belletristika sahəsində də hökm sürür. Burada da, subyektivizmin üstünlüyü aşkar şəkildə görülür. Lakin, bədii əsərlərin, dramaların və novellaların çoxunda subyektiv dissosiasiyanın tipik formaları ilə *bədii qalıqlar rejimi* özünü göstərir. Onun daimi olaraq təməlini formalaşdıran "insani münasibətlərin fetişizmi" amerikan ruhuna xas bayağılıq və bromidik donuqluğa qədər uzanan paroxial fərdlərin əhəmiyyətsiz, sentimental, sosial və seksual problemlərindən ibarətdir. Marksizm burjua romanlarını əcnəbiləşmə fenomeni kimi tənqid etsə də, siniflərin dialektik təkamülü və proletarian impulsu əks etdirdiyi güman edilən narrativə "sosial məzmun" vermək realizmin simian parodiyası, bölünmüş və neytral mədəniyyətin orqanik inteqrasiyasıdır. Burada, bir növ dissosiasiya daha kəskin başqa bir dissosiasiya ilə əvəzlənir: sosio-iqtisadi element digər elementlərdən qopardılır və mütləqləşdirilir. Bu "sosial" problemlər şəxsi münasibətlərin və fetişist sentimentallıqların problemləri qədər əhəmiyyətsizdir. Tamamilə essensiyasız olan bu problemlər orqanik bir sivilzasiyada ali incəsənətin və ədəbiyyatın obyekti rolunu oynaya bilməz. Bu yeni belletristik əsərlər Marksist təbliğat və "maarifləndirmənin" tələbləri əsasında ortaya çıxdı. Burada nə estetik tənqiddən, nə də incəsənətdən deyil, yalnız sosial-iqtisadi yaxud siyasi ajiotajdan danışmaq mümkündür. Modern dünyanın tələbi "funksional incəsənət" və ya "istehlak incəsənətidir". Georq Lukaş bu barədə yazır: "son zamanlarda incəsənət nadan pa-

razitlər üçün bir lüks obyekti olub, nəticədə, incəsənət fəaliyyəti bu lüks ehtiyaclarını tətmin etmə tapşırığı ilə separat bir peşə sahəsinə transformasiya edilib[135]. Bütün orqanik kontekstlərindən çıxarılmış modern incəsənətin *reductio ad absurdum* (absurdluğa endirilmə) prosesi daxilində hökm sürən burjua-istehlakçı incəsənətin fetişləşdirilməsi, eləcə də "yaradıcı şəxsiyyət" kultu tradisional-anonim incəsənət üçün tamamilə yaddır. Hər bir sahədə olduğu kimi, incəsənət domenində də mövcud olan "sadəcə insanilik" onun patos və tragediyasının konstant əsasını təşkil edir. İncəsənətin neytrallaşdırılmasının yekun nəticələrindən biri olan bu dəyərsizləşməyə Antik dövrün sonlarına yaxın ortaya çıxan incəsənət əsərlərində də rast gəlinə bilər. Lakin, Yunan-Roma dünyası da daxil, bütün tradisional sivilizasiyalarda humanist və burjua "mədəniyyətindən" fərqli olaraq incəsənət əsla mərkəzi spiritual mövqeyə sahib deyildi. Modernizm öncəsi əsrlərdə incəsənətin sahib olduğu gerçək və ali dəyər incəsənətin özü tərəfindən deyil, ondan daha üstün və daha əvvəl mövcud olan metafizik prinsiplər tərəfindən yaradılırdı. Həyata və dünyaya bir essensiya qazandıran bu dəyərlər hətta incəsənətin zahiri qeyri-mövcudluğunda belə var ola, fəaliyyət göstərə bilirdi.

Modernizmin təhrik etdiyi reqressiv proseslər özünü sosial normalar və zövqlər sahəsində də açıq şəkildə nümayiş etdirir. Bunun ən tipik göstəricilərindən biri deqradasiya və öz-özünü ruhən kirlətmə olaraq (self-contamination) qeyd edilən vulqarlıq zövqü və onun alt-şüuri təməlidir. Çirkinlik və deformasiya zövqünə meyillənmiş tendensiya məhz bununla bağlıdır. Ədəbi realizmin əksər formalarında özünü göstərən bu tendensiya sosial və ya fərdi "reallıq" ilə deyil, onun ən vulqar, ən çirkin və ən mənhus cəhətləri ilə məşğuldur. *Littérature engagée* ifadəsi ilə xarakterizə edilən modern ədəbiyyata daxil olan müəlliflər spesifik sosio-siyasi ajiotaj məqsədləri ilə öz subyekt seçimlərini edirlər. Lakin, bu tendensiyanın nümayəndələri onların xəstəcə diqqət cəmlədikləri dünyanın deyil, intellektual iddiaları ilə "haute bourgioisie"nin (yuxarı orta sinif) nümayəndələridir. Buna görə də, onlar yalnız daha inferiyor olanı kəşf

[135] Georg Lukacs – "Soul and Form", The MIT Press Edition, USA, 1974,

etməkdə və ondan ruhən qeyri-sağlam şəkildə zövq duymaqdadırlar. Eyni dekadent formalar, daha geniş sahələrdə, məsələn vulqar nitq üslublarında da özünü göstərir. İnsanlar sadəcə ədəbi əsərlərdə deyil, eləcə də radio-televiziya və sosial şəbəkələrdə də tez-tez vulqar danışıq üslubuna müraciət edirlər. Bu nitq tərzinin bir sinfə və ya sosial çevrəyə aid olmadığı nəzərə alındıqda, insanların bu tərzdən "açıq-düşüncəlilik", "azadlıq" və "modernləşmə" göstəricisi olaraq nümayişkəranə bir şəkildə istifadə etmələri öz-özünü deqradasiyadan, inferiyorizm və mənəvi kontaminasiyadan duyulan bir zövq olaraq özünü göstərir. Konvensional adətlər və normalara məhəl qoymamaq bütün məhdudiyyətlər və hüdudları dağıtmaq və özünü inferiyor olana düçar etmək deməkdir. XIX əsrə qədər hakim tendensiya ondan ibarət idi ki, aşağı silklərdən olan qadın və kişi fərdlər yuxarı siniflərin mannerizmini – davranış və nitq tərzlərini təqlid edirdilər. Buna əks-tendensiyanın hökm sürdüyü modern dünyada kultural olaraq "aristokratik yuxarı sinif" mövcud olmadığı üçün hər hansı oturuşmuş normaya əməl etmək qeyri-konvensional olaraq görülür. Bu kontekstdə, insanların geyimində müşahidə edilən bayağı, çirkin və cırıq-yırtıqlığın əskik olmadığı nimdaş tərzlərdən duyulan zövq də xüsusi olaraq vurğulanmalıdır. Onlar əsasən bir tərz halına gətirdikləri dağınıq saçları, qaba geyim tərzlərini Amerikan filmlərindən öyrənmiş dekadent və degenerat gənclərdir. H.Y.Ziberberq bildirir ki, inferiyor olan hər şey ruha xitab edə bilməkdən uzaqdır və yalnız sensual maraq oyadır[136]. Böyük alman ədibi Fridrix Şiller "İnsanın estetik tərbiyəsi" adlı essesində isə bunları vurğulayır: "utilitarian reallıq deqradasiyaya uğramış insanlığı tiranik boyunduruğu altına alır. Faydalılıq bütün insani qüvvələrin tabe edildiyi böyük idoldur. İncəsənətin spiritual xidmətinin heç bir ağırlığı yoxdur. Elm öz sərhədlərini aşdıqca incəsənətin sərhədləri daralır[137].

Digər bir sahədə, sadəcə "ulayan" və ya bağıran müğənnilərin ab-

---

[136] Hans-Jürgen Syberberg – "On the Fortunes and Misfortunes of Art in post-war Germany", (translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017), p,45

[137] Friedrich Von Schiller – "On the Aesthetical education of Man", BlackMask Online, 2002, p,3, Second Letter

normal çılğınlığı vulqarlığa olan zövqün digər göstəricisidir. Onları dinləyərkən qaba səsin primitivizmini, küçə səviyyəsinə enmişliyi, eləcə də emosiyalar və özünü ifadədə heyvani instinktivliyi müşahidə etmək mümkündür. Boğuq səsli və zərafətsiz neqro mahnılarından doğan ekstaziyanın Ağ İrqin qadın və kişilərinə sirayət etməsi və onları coşdurması eyni tendensiyanın əksidir. *Beatles* olaraq bilinən və gəncləri dəlicə entuziazmlarla yükləyən mahnı qrupu bu baxımdan xüsusi bir haldır. Onların simvolları olaraq ən nifrətdoğurucu həşəratlardan birini (beetle) seçmələri də son dərəcə anlamlı olmaqla bayağı dekadent zövqün gerçək bir nümayişidir. Onların kraliça Yelizaveta tərəfindən Britaniya İmperiyası Ordenin üzvləri olaraq təltif edilməsi bu bayağılığın içiboş qalıqlardan başqa bir şey ifadə etməyən kral saraylarına da nüfuz etməsinin aşkar göstəricisidir.

Seksoloji sahədə də müşahidə edilən bu vulqarlıq zövqü öz-özünə qarşı sadizm və mazoxizm ilə fərqlənir. Biz, qeyd olunan sahədə insanın özünə qarşı yönəlmiş destruktiv tendensiya ilə qarşılaşırıq. Bu fenomendə əsas rol oynayan faktor alt-şüuri, aktiv "günahkar" kompleksidir. Modern insan öz-özünü deqradasiyadan, öz-özünü ruhən zədələmədən və kontaminasiyadan aşkar zövq alır. Bununla belə, bu destruktiv impulsun daxilə (yəni insanın özünə) deyil, xaricə istiqamətləndiyi hallar da vardır. Bu baxımdan, trivial həyatdan mədəniyyət səviyyəsinə qədər uzanan tipik olaraq modern fenomenlərin fərqli bir silsiləsi üzə çıxır. Bu sadist tendensiya tam şəkildə dağılmış, parçalanmış və dekadent insanlığı əks etdirən situasiyaları işıqlandırmaqdan zövq duyan bədii ədəbiyyat və incəsənət sahələrində özünü biruzə verir. Burada dominant formada ortaya çıxan, Almanların "iblis zövqü" olaraq adlandırdıqları *Schadenfreude*-dir, yəni sadizm və ya sadistik həzzin bir növü. Modern insan daha aliliyə doğru yüksələn deyil, çöküş yaşayan, inferiyor insana yaxud "insani şərtlərə" yönəlir. Analoji təmələ sahib fenomen eyni zamanda musiqi və fiqurativ incəsənət sahəsində də hökmrandır. Əvvəllər, bu fenomenin gedişatına bəraət qazandırmaq üçün Solyönlü intellektuallar burjua sosio-siyasi sisteminin motivlərinə qarşı "ekzistensial üsyandan" bəhs edirdilər.

Saxta incəsənətin istehsalçı rolunu nəzərə almadan "kitç" fenomenini adekvat şəkildə başa düşmək qeyri-mümkündür. Bu da, bizdən "kitç insanının" daxili problemini araşdırmağı tələb edir. Hermann Brox, Lüdviq Giez, Gillo Dorfles və Rixard Egenter kimi müxtəlif sahələrə (fenomenologiya, teologiya və incəsənət tarixinə) aid olan filosoflar "kitç insanı" (almanca "kitsch" sözü ilə bağlıdır. Dəyərsiz və ucuz "incəsənət" mənasında işlədilir) fenomeninə xüsusi diqqət yönəldiblər. Bu insanı xarakterizə edən başlıca cəhət onun incəsənət baxımından gözəl olan hər bir şey barəsində hedonist ideyaya sahib olmasıdır. O hətta qeyri-kitç əsərləri və situasiyaları da kitçləşdirməyə meyillidir. Kitç insanı öz asudə zamanını minimum cəhd daxilində maksimum həyəcanlama ilə keçirmək istəyir. Kitç insanı sadəcə olaraq estetik, etik perspektivdən düşünülməməlidir. Çünki, kitç insanı (eləcə də, sənətkarı) eyni zamanda əxlaqi inferiyorizm və nasiranəliyin əsiridir. İtalyan ədəbi tənqidçisi, semiotiki və filosofu Umberto Eko bildirir ki, kitç estetik yalan deməkdir. Bu estetik yalan kontekstində kitç sənətkarı ilə kitç insanı arasında sıx əlaqə var. Birincisi maddi qazanc müqabilində incəsənət oyunu oynamağa hazırdır, ikincisi isə, özünə gözəl şəkildə yalan danışılmasını istəyir. Kitçin estetik yalanlarına inanmaq tendensiyası spiritual qeyri-yetkinliyin və atrofiyaya uğramış tənqidi düşüncənin simvolizasiyasıdır[138]. Mental passivlik və spiritual tedium kitç incəsənətinə olan aramsız sevginin təməlini təşkil edir. R.Egenter "kitç"-i misginliyin günahı olaraq xarakterizə edir[139]. Həm sənətkardan, həm də onun bədii mesajını qəbul edən insandan cəhd və qətiyyət tələb edilir, əks halda incəsənət fəaliyyəti reallıqdan uzaqlaşaraq reallığın qondarma refleksiyasına çevrilməklə yanaşı, "incəsənət iblisinə" doğru yönəlir. Kitç və şeytandan birlikdə bəhs etmək heç də xüsusiləşmiş teoloji yanaşma deyil. Əsasən də, Nikolay Qoqoldan etibarən Rus ədəbiyyatında axmaqlıq və burjua bayağılığının simvolik təcəssümü olaraq qarşımıza çıxır. Bu,

---

[138] Matei Calinescu – « Five Faces of Modernity: Modernism, Avant-garde Decadence, Kitsch Postmodernism », (Duke University Press, Durham, 1987), p, 260

[139] Matei Calinescu – « Five Faces of Modernity: Modernism, Avant-garde Decadence, Kitsch Postmodernism », (Duke University Press, Durham, 1987), p, 260

Vladimir Nabokovun *poshlost* nəzəriyyəsində ümumiləşdirilir. Nabokov düşüncəsində *poshlost* kitç üçün mükəmməl bir sinonimdir.

Kitç fenomeninin dərki yalnız tarixi-sosioloji yanaşma ilə estetik-əxlaqi yanaşmanı birləşdirməklə mümkündür. Tarixi-sosioloji yanaşmaya görə, kitç birbaşa olaraq modern kultural sənayeləşmə, ticariləşmə və cəmiyyətdə artan asudə zaman ilə, estetik-əxlaqi yanaşmaya görə isə bu fenomen estetik yalanların böyük miqyasda istehsalını özündə ehtiva edən saxta incəsənətdir. Kitç daha geniş kütlələrin səthi estetik ehtiyaclarının tətmini üçün təklif edilən bir vasitədir. Başqa bir sözlə, kitç dünyası estetik olaraq inandırma və öz-özünü aldatma dünyasıdır. Kitç əsaslı modern incəsənət haqqında H.Y. Ziberberqin dili ilə onu vurğulamayıq ki, estetik zövqün fundamental dislokasiyasının hədəfi spiritual destruksiya və parçalanmadır. Vulqarlıq biznessinin administratorlarının səbəb olduğu bu dislokasiya nəticəsində, həyat gülünc təqlid, bayağılıq və triviallıq tərəfindən işğal edilir[140].

Kitç əsaslı "istehlak incəsənətinin" dünyəvi uğuru Qərb cəmiyyətlərini dərin dekulturasiyaya sürükləyən və heç bir spiritual dəyəri yaxud ideyası olmayan modern incəsənətdə "ersatz"ın aberrant zəfəridir.

Məhz bu şəkildə, modern incəsənətdə hakim olan dissosiasiya prosesləri "öz-özünü dissolyusiya" (self-dissolving) ilə üzləşən musiqidə də mövcuddur. Hər şeydən öncə onu qeyd etməliyik ki, Bəşəriyyətin başlanğıcından bəri musiqi digər incəsənət formaları arasında ilk yerə sahib olmaqla *alt-şüuri* və ya şüuri şəkildə insani dünyanın fövqündə kosmik dünyanın tərcüməsi və ekspressiyası olaraq düşünülüb. Digər incəsənət növlərinin isə insanın daxilindən qaynaqlandığına inanılıb. Bütün dünya konsepsiyaları daxilində musiqinin imtiyazlı mövqeyi metafizik interpretasiyalar ilə zəngin olub. Ezoterik doktrinalara görə, ali reallığa məxsus müəyyən domenlərin fenomenallığı musiqi tonlarından ibarətdir. Arfa üzərində mahnılar və rəqs ilahi varlıqların dili olaraq dərk olunub.

[140] Hans-Jürgen Syberberg – "On the Fortunes and Misfortunes of Art in post-war Germany", translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017, p,172

Pifoqorçular səmavi sferaların harmoniyasından bəhs edir və planetar sistemin sadəcə simvolik və mifik deyil, eyni zamanda harmonik və melodik mahiyyət kəsb etdiyini vurğulayırdılar[141]. Musiqinin spesifik xarakterinə ədaləti bəxş etmək üçün ilk cəhdi göstərən alman filosofu Artur Şopenhauer oldu. Şopenhauerin dünya-essensiya sistemində musiqi İradənin birbaşa ifadəsi olmaqla onun ideyaları və obyektivləşdirmələri olan digər incəsənət formalarından essensial şəkildə fərqlənir. Bu ali dəyərləndirmə ilə Şopenhauer memarlığı "donmuş musiqi" olaraq xarakterizə edir. Bəşəriyyətin essensiyası anlaşılmaz və dərk edilməsi çox çətindir. Musiqi həyatın emosional və impulziv dərinliklərinə birbaşa ekspressiya verməklə bütün digər incəsənət növlərindən daha dərin essensiyanı özündə ehtiva edir. Digər həyat fenomenlərinə qarşı olaraq, bu dərinlik özlüyündə bir *fövqə - transsendensiyaya* sahibdir. Musiqi həyat fenomenlərinin bətni olmaqla bütün fərqliləşmələrin üzərində, daha ali mövqeyə sahibdir. İmpulziv üzərindəki bütün həyat qüvvələri həyatın nisbi ifadələri olmaqla separat varlıqlar kimi zahiriləşdirilə - maddiləşdirilə bilər. Lakin, yaradıcı təkamül olaraq Həyat bölünməz bir bütövlük, qeyd edilən bətndən ortaya çıxan identiklik dərki və ilkin şüurdur. Bu, digər incəsənət növlərindən daha dərin formada musiqinin niyə insan hissələrini coşdura bilməsinin izahıdır. Çünki bütövlükdə hisslər və impulslardan kənarda insan yoxdur. Primitiv insan üzərində onun effekti mütləq magiya, fərqliləşmiş insan üzərində onun effekti isə daha böyük olmaqla onu öz müstəvisində əbədilik zirvəsinə yüksəldir. Musiqinin bu effekti iki qeyri-maddi şərt ilə qüvvətləndirilir. Birincisi, bütün digər incəsənət formalarına qarşı olaraq yalnız musiqidə forma və məzmun, mahiyyət və ifadə həm ideal, həm də texniki mənada bir-birindən ayrılmazdır. İkincisi, həyatın özü kimi musiqi də, dolayısız subyektiv təcrübə formasında özünü nümayiş etdirir. Subyektsiz, daxildən kənara doğru fəaliyyət göstərən prinsip olmadan heç bir həyat mövcud deyil. İnsan perspektivindən əsas nüans subyektivlik (me-

---

141 Count Hermann Keyserling – "The Recovery of Truth", (Translated by Paul Fohr, Harper Brothers Publishers, USA, New-York, 1929), p, 105

tafizik mənada) üzərindədir. Eyni ilə də, musiqinin mövcudiyyəti onun səs və ya səslərə çevrilməsindən asılıdır. Musiqi öz yazılı halında qeyri-mövcuddur. Buna görə də, konkret və birbaşa təcrübə olmaqla musiqi insan üçün həyatın mükəmməl bir surətidir. Eyni zamanda o, öz spesifik dimensiyasında müxtəlif mənaların daşıyıcısıdır. Məhz bu səbəblə də, həyatın ümumi problemi yalnız musiqinin simvolunun yardımı ilə dərkolunan şəkildə izah edilə bilər. İntellekt yalnız Həyatın spesifik aspektlərini, ekspressiyalarını və tendensiyalarını asanlıqla dərk edə bilər amma Həyatın öz axınının sabit və bölünməz vəhdəti açıqlamalar və ya təriflər ilə başa düşülə bilməz. Həyatın tərifinin ən çətin və anlaşılmaz aspekti özünü aşkar şəkildə musiqidə göstərir. Həyat kimi musiqi də öz faniliyində mövcuddur. Beləliklə, *Musiqinin reallığı var olmanın və yox olmanın arasıkəsilməyən tarazılığı daxilində zaman vasitəsilə və zamanda bir axından ibarətdir*[142].

Modern Qərb musiqisi həm melodramatik, melodik, qəhrəman-romantist (Vaqnerizm xətti ilə təmsil edilən), həm də tragik *pathos* (Beethoven ideyalarına əsasən) mənşəyindən bir separasiya yaşamaqdadır. Bu separasiya prosesi iki növ inkişaf ilə reallaşıb. Birincisi, serebral elementin üstünlüyü ilə tez-tez texnoloji radikalizmə səbəbiyyət verən harmoniyaya kəskin maraq göstərilməsi nəticəsində özlüyündə bir son olaraq düşünülən abstrakt ritmik-harmonik konstruksiyaları meydana gətirən *intellektualizasiya*-dır. Bu halın ifrat forması on iki tonlu musiqi və sərt serializmdir. İkinci inkişaf isə fiziki xarakterlidir. Bu xarakter özünü "patos"un subyektiv dünyasından ayırmaqla təbiətə qayıdan və ilhamlanma mənbəyini şeylərin, fəaliyyətlərin və elementar impulsların dünyasından alan simfonik və deskriptiv musiqiyə şamil edilə bilər. Burada da, erkən impressionizmin yüksəlişi zamanı müşahidə edilən intimist və akademik studiya rəssamlığına qarşı duyulan eyni dözümsüzlük özünü göstərir. İkinci musiqi tendensiyası Rus məktəbi (Aleksander Mossolovun "Dəmir

---

[142] Count Hermann Keyserling - "The Recovery of Truth", (Translated by Paul Fohr, Harper Brothers Publishers, USA, New-York, 1929), p, 107

Tökməxana" adlı əsəri) və Fransız impressionistləri (Artur Honeggerin "Pasifik 231" əsəri) ilə ortaya çıxmağa başladı. Fiziki xarakterin daha sonralar intellektual xarakter ilə birləşməsi nəticəsində tradisional harmonik musiqi bütöv şəkildə aradan qalxdı. İqor Stravinski saf və qarışıq ritmik konstruksiyaların intellektualizmi nə psixoloji, nə romantik, nə də ekspressionist dünyaya deyil, təbii qüvvələrin substratumuna (substratum – alt-qat) aid olan bir şeyin evokasiyasına transformasiya etdi. Bu mərhələnin yekun nəticəsini Stravinskiyə məxsus olan "Yaz Ayini" adlı əsərində müşahidə etmək mümkündür. XIX əsrin burjua musiqisi üzərində total zəfər anlamına gələn bu əsər ilə musiqi bir ritmə, dolğun səsli və dinamik intensivliyə çevrildi. Dionisian elementinin əlavə edildiyi bu saf musiqi sadəcə primitiv rəqsə dəvətdir. Rəqs musiqisinin vokal və emosional musiqi üzərində üstünlüyü bu axını xarakterizə edən cəhətlərdən biridir. Rəqs musiqisi bəzən parodistik, bəzən də neoklassik formalı formal musiqiyə yol açdı. Formal musiqi isə dissosiasiya olmuş, gur səslərin zamansız məkanlaşması ilə xarakterizə olunur. Atonal musiqidən daha irəli gedərək ekzistensial ekspressionizmi ilə Avstriya əsilli amerikalı bəstəkar və musiqi nəzəriyyəçisi Arnold Şoenberq musiqiyə dodekafoniya (on iki tonlu musiqi) mərhələsini gətirdi. Modern musiqinin terminal böhranı baxımından bu çox əhəmiyyətli bir hadisə idi. Bununla da, post-Vaqnerianizmdən Rixard Ştrauss və Aleksander Skriabinə doğru yavaş-yavaş atonal musiqi tradisional tonal sistemi aradan qaldırdı. Musiqinin saf və azad insani hala transformasiyası eyni zamanda aktiv musiqi nihilizmini doğurdu. Heç bir iyerarxik fərqliləşmə olmadan qəbul edilən Şoenberqin on iki tonlu musiqi sistemi yeni mücərrəd qanun təlqin etməyə başladı. Modern musiqinin fəlsəfəsi üzərində məşhur araşdırması ilə də tanınan freydo-marksist məktəbin nümayəndəsi, filosof Teodor Adorno tradisional harmoniya və klassik tonallığa qarşı olaraq yüksələn atonal musiqini belə təsvir edir: "tradisional harmoniyanı və harmonik triadanı darmadağın edən səslərin ani boşalması". "Qərb incəsənətinin tənəzzülü və çöküşü" adlı əsərində Brendon Hird vurğulayır ki, Arnold Şoenberq avanqard küy-musiqisinin –

diskordant küy incəsənətinin kakofoniyasının əsasını qoydu. A.Şoenberq, Maks Brod və Qustav Mahler tradisional Avropa musiqisini semitləşdirməklə və musiqini triadaya əsaslanan harmoniyadan azad etməklə yeni *polifoniya* vasitəsilə harmoniyasız melodiyanın ortaya çıxmasına səbəb oldular. Şərq-Semit musiqisi klassik Avropa musiqisindən fərqli olaraq homofonik deyil, heterofonik-dir. Bu heterofoniya Şoenberqin polifoniyası ilə uyğunluq təşkil edir. İntensiv ritmi ilə yəhudi musiqi identikliyi harmonik deyil, melodikdir və tez-tez uşaqsı, demonik emosional ifratlıqları özündə ehtiva edir[143].

Bundan sonra, musiqi elektron texnologiya vasitəsilə yaradılan səslər ilə təcrübə edilməyə başlandı. Dodekafoniyanı "müqəddəratımız" adlandıran T.Adornodan fərqli olaraq, onun ekstrim formalarının hegemoniyası bəzən musiqinin "buz əsri" olaraq da adlandırılır. Tradisional strukturlardan qopardılmış bu səslər formasız, skeletal və atomik olaraq dissosiasiya edilmiş timbrlara çevrilən mütləq dissolyusiyanın ümumi qıvraq sisteminə daxil edildi. Maşın texnologiyasının yaratdığı dünyada olduğu kimi bu yeni musiqi resurslarının qüvvəsi və texnoloji mükəmməlləşdirilməsi eyni ruhsuzluq, boşluq, xaos və spektrallıq ilə müşaiyət olunurdu. Kəskin daxili zədələnməyə yol açan dodekofoniya yalnız ekzistensial ekspressionist dil ilə ifadə edilə bilər. Küyün orqanizasiyası, çevrə və orkestral səslərin montajı ilə yaratdığı "Konkret musiqi"sində Piyer Şafer musiqinin baş alıb gedən reqressiyasındakı bütün limitləri darmadağın etdi. Ardınca digər amerikalı Con Keyc, öz kompozisiyalarının musiqi olmadığını elan etdi. Keyc musiqini sadəcə küy, elektron səs effektləri, uzun pauzalar, təsadüfi insersiyalar (insersiya - əlavə) və radio transmissiyaları ilə qarışdırmaqla musiqinin tradisional strukturlarının hiper-dezinteqrasiyasına səbəb oldu. Onun məqsədi dadaizmdə olduğu kimi dinləyicidə kəskin dezoriyentasiya yaratmaqla onu musiqi aləmindən çıxarmaq və gözlənilməz üfüqlərə doğru atmaqdan ibarət idi.

---

143 Karen Painter – "Polyphony and Racial identity: Schoenberg, Heinrich Berl and R.Eichenauer, Vol, V, issue 2, 2011

Rəqs musiqisinin davam edən roluna baxsaq görərik ki, klassik simfonik janrda deyil, məhz modern musiqidə, əsasən də jazz-da rəqs musiqisi başlıca rol oynayır. Əsrimiz, "kütlələrin ortaya çıxışı", "iqtisadiyyat", "hər şeyə qadir texnologiya" əsrləri ilə yanaşı "Jazz əsri" kimi də xarakterizə olunur. Bu onu göstərir ki, hakim trendin intişarı ezoterik musiqi çevrələrini də aşaraq modern insanın ümumi dinləmə tərzini təşkil edir. Stravinskidə olduğu kimi, ritmik və sinkopasiya ilə dəyişdirilən Jazz insan ruhunda dayanmayan yalnız bədəni qaldıran və hərəkətləndirən "fiziki" musiqidir. Hərəkət, sensuallıq, impetyus və incəliyin daxil olduğu erkən Avropa rəqs musiqilərindən (Viyana və İngilis valsları) kəskin şəkildə fərqlənən bu rəqs musiqisi konstant təkrardan istifadə ilə mexaniki, qopuq, primitiv olmaqla ekstatik və paroksismal musiqidir. Avropanın və Amerikanın böyük metropolitan rəqs zallarında musiqinin hərəkətləndirici enerjisi və sinkopasiyasının təsiri altında ani olaraq ikiyə qatlanma (konvulsiya) və sıçrama ilə gənclərin necə əcaib bir formada – epileptik və meymunca rəqs etdiklərini görmək musiqinin haradan haraya yuvarlanması haqqında insana dəhşət təəssüratı verir. Tembral müxtəlifliyin aradan qalxması nəticəsində mahnılar getdikcə homogenləşir və pop musiqisi bütövlükdə eyniləşir. Bir akkorddan və ya bir notdan digərinə hərəkət edə bilməyən modern musiqiçilər yalnız öz xələflərinin yolunu gedə bilirlər. Öz transsendentallığını bütöv şəkildə itirən musiqi "hisslərin talismanı" olaraq izah edilir və dünyada, xüsusən də Qərbdə musiqi ilə yalnız hisslər səviyyəsində məşğul olunur. Halbuki, musiqi öz transsendentallığı ilə hər zaman riyaziyyat, memarlıq, simvolizm və fəlsəfə ilə birbaşa bağlı olub. Modern rəqəmsal "mədəniyyətdə" eşidilən "klassik" və ya bəstələnmiş instrumental musiqi konsert zallarından deyil, video oyunlardan və ya film saundtrek-lərindən gəlir. Eyni zamanda hər yerdə var olan media saundtrekinin ən detrimental təsiri ondan ibarətdir ki, musiqi ideyaları və motivlərinin bütöv qalaktikası essensial olaraq işğal edilir və klişeləşdirilir. Bir müharibə oyunun saundtrekinin saxta "Şostakoviç gurlamasına" qərq olan gənc gerçək Şostakoviçi necə eşidə və ya daxilən duya bilər? Spiritual

kontekstin yox olması, mediyatizasiya, ticariləşmə və s. proseslər nəticəsində Kreyq Heviqhörstün bildirdiyi kimi, musiqinin dəyərsizləşməsi düşündüyümüzdən daha dərin dimensiyalarda baş verir[144].

Musiqinin dəyərsizləşməsinin ən mühüm simvolu heç şübhəsiz ki, Jazz-dır. Modern dünyada sürətlə və spontan şəkildə yayılan "Jazz"ın XIX əsrdə burjua melodrama və "patos"una üstün gələrək gənc nəslin həyatına daxil olan fiziko-serebral "klassik" musiqidən heç bir fərqi yoxdur. Bir zamanlar melodramanın patosunda dəlicə coşan insan, indi də "Jazz"-ın konvulziv-mexaniki və mücərrəd ritmləri ilə əhatələnib. Hər ikisinin sapqın və səthi dəb olmaqdan daha çox, "hot" və "cool" olaraq adlandırılması daha məqsədəuyğundur. Jazz əsrində qarşılaşdığımız odur ki, indinin təbiətinin müəyyən edilməsində inteqral rol oynayan dinləmə üslubunun sürətli transformasiyası baş verir. Jazz, burjua epoxasını özünün yekun dissolyusiyasına gətirməklə modern dünyada elementar-ekstatik qüvvələrin üzə çıxmasının inkarolunmaz bir aspektidir. Modernizm əsrinin insanı praktik, quru və mexaniki mövcudiyyətinin iztirablı şərtlərini kompensasiya etmək üçün musiqiyə deyil, "Jazz"ın bəsit ritmlərinə yönəlir. Öz folk musiqisinin elementlərini və autentik dinamikalarını tərk etmiş Qərb sivilizasiyası musiqi üçün ilhamlanma mənbəyini tropik və subtropik zonaların Neqro, mulat tayfalarının ekzotik irsində tapır. Afro-Kuban musiqisinin tədqiqatçılarından biri olan Fernando Ortizə görə, modern rəqs musiqisinin ilkin elementləri Afrikanın Neqro və mulat tayfalarının irsi ilə bağlıdır. Modern insan, xüsusilə də Amerika insanı ekstaziyanın qaranlıq formaları ilə birbaşa assosiasiya edilən primitiv Neqro musiqsini seçməklə, assimilyasiya etməklə və onu təkmilləşdirməklə daha dərin spiritual reqressiyaya məruz qalıb. Faktiki olaraq, modern rəqslərin başlıca ritmlərinin əsasını təşkil edən Afrika musiqisi insanları ekstaziyaya yönəltməkdə istifadə edilən öncül texno-vasitələrdən biridir. Alfons Dauer və Fernando Ortiz bu musiqinin xarakteristikasını belə görürdülər: Ritmi

[144] https://medium.com/cuepoint/the-devaluation-of-music-it-s-worse-than-you-think-f4cf5f26a888

müəyyən edən statik (on-beat) aksentlər konstant şəkildə ekstatik (off-beat) aksentlər şəklində fəaliyyət göstərirlər. Nəticədə, xüsusi ritmik fiqurlar arasıkəsilməz ekstaziyanı bəsləyən bir gərginlik meydana gətirir. Qeyd edilən struktur eyni şəkildə bütün sinkopasiyalı Jazz növlərində qorunub saxlanılır. Bu sinkopasiyalar enerjini bədəndən azad etməyə və bir impuls meydana gətirməyə meyillənir. Afrika ritullarında istifadə edilən bu üsula Yoruba Orişada və Haitinin Voodoo Loa-ya həsr edilmiş rituallarında da rast gəlinir. Jazz-da sadəcə ekstatik potensial deyil, dinləyicini aid olduğu bütövlükdən qoparan mücərrəd ritm formalarının dissosiativ inkişaf prosesini də müşahidə etmək olar. Ətraf mühitin müqəddəssizləşdirilməsi, hər hansı institusional çərçivənin və ya ritual ənənəsinin olmamasına görə Afrika musiqisi evokativ effektləri olmadan düşünülə bilməz.

Sadəcə "Jazz"da deyil, eyni zamanda modern dünyanın *beat* qruplarında da biz performansçılarda paroksismal bədən bükülmələrinə səbəb olan, dinləyicilər kütləsini qışqırdaraq onları öz ətraflarında çılğınca hərəkətlərə sövq edən ritmlərin obsessiv təkrarını (Afrikan tom-tomunun istifadəsində, Makumba və Neqro rituallarında olduğu kimi) müşahidə edə bilirik. Həm musiqinin performansçıları, həm də onun vertiqo yaşayan dinləyiciləri tərəfindən həblərin istifadəsi frenetik "kütlə zehniyyəti" yaratmaqda xüsusi rol oynayır. Ona görə də, modern ekstatik, sinkopasiyalı musiqidə biz spesifik kompensasiyadan daha çox onun meydana gətirdiyi formasız, semi-ekstatik, isterik formada insanın özündən qaçışını diqqətə almalıyıq.

"Jazz"dan təsirlənən digər geniş yayılmış musiqi janrı isə rock-dur. Edqar Morin qeyd edir ki, rock musiqi çılğınlığı deyil, ekzistensial çılğınlıqdır. Onun fikrincə, bu şiddətli və frenetik musiqidə dionisian fermenti, bir panika var. Güclü stimulyasiya yeniyetmələrdə üsyan fermentinin yüksəlişinə yönəldilir. Hərəkətin təzyiqi ya zorakılığa ya da dandizmə doğrudur. Morin vurğulayır ki, sinkopasiya edən ritmlərlə birləşmiş davamlı təkrarı ilə xarakterizə olunan rock *beating*-ə əsaslanır[145]. Psixoana-

[145] Jacques Ellul – "The technological bluff", Pasadena, Pentercost, USA, 1989, p, 378

litiklərə görə də, hard rock seksual instinktləri həyəcanlandırır. ABŞ-in Klivlend şəhərində aparılan araşdırma rock musiqisinin əsəb və endokrinal sistemlərdə kəskin travmatizmlərə - nəfəsalma tezliyinin dəyişməsinə, qlandyular sekresiyalara, qırtlağın kontraksiyasına və nizamsız ürək döyüntülərinə yol açdığını ortaya qoyub. Lazerli şüanlanmalarla təchiz edilmiş böyük zallarda retinanın disfunskional hala gəlməsi nəticəsində dinləyicilərdə baş fırlanma, nauzea və hallusinasiya özünü göstərməyə başlayır. Eşitmə dərki sıradan çıxarılan dinləyici artıq qulaq asmır və şiddətli küyün içərisinə qərq olur. Hard rock desibeli insan qulağının tab gətirəcəyi həddən çox yuxarıdır. Bu konsertlər zamanı ötürülən subliminal mesajlar üçün aşağı yaxud yuxarı tezliklərdən istifadə edilir (hər saniyəyə 14 tsikl və ya hər saniyəyə 17 min tsikl). Beləcə, yalnız getdikcə şiddətlənən küy ilə birləşmiş sinkopasiyaya əsaslanan rock-un ağuşunda insanın öz-özünə nəzarəti, bütün refleksiya gücü və şəxsi iradəsi aradan qalxır. Jazz ilə birlikdə rock şəxsiyyətin gerçək destruksiyasıdır. Bir zalda görüşən rock həvəskarları əzici musiqinin təzyiqi altında bir-birindən təcrid olmaqla və koredici işıq effektlərinə məruz qalmaqla bir-birinə baxmadan danışır, bəzən isə "Me, Me, Me" deyə qışqırırlar. Nəticədə, refleksiya gücü üzərində nəzarət itir, intellektual qabliyyətin həcmi azalır, həyəcanlanma, hipnotik və depressiv hal üzərində nevrosensoral funksiyalar işləyişini dayandırır. Nəhayət, kəskin yaddaş çətinlikləri və nevromuskulyar (həm sinirlər həm də əzələlərlə əlaqəli olan) koordinasiyanın itkisi üzə çıxır. Kəskin küy 80 desibeli keçdiyi zaman insan fiziologiyasında ciddi dəyişmələr özünü göstərir. 120 desibel ətrafında isə qanın kompazisiyasında dəyişiliklərlə yanaşı arterial təzyiqin, xolesterol dərəcisinin və eyni zamanda stress hormonlarının istehsalında artış başlayır. Küy effektlərini kəskinləşdirən rok ritmləri – vibrasiya nəticəsində dinləyicinin serebral (beyinlə bağlı olan) fakültələri də zəifləyir. Nəticədə, səslə dolan və titrəyən beyin düşünə bilmək qabiliyyətini itirir[146].

Modern musiqidə müşahidə edilən və xüsusən də gəncləri ekstrim,

[146] Jacques Ellul – "The technological Bluff", Pasadena, Pentercost, USA, 1989, p, 379

primitiv-fiziki həyəcanlanmalara daxil edən bu proseslər onlarda hisslərin donuqlaşması, düşüncə və davranışlarının mexanikləşməsi ilə nəticələnir.

# MODERN AKTİVİZM

Həyatın aktivist, təkamülçü (evolusiyonar) və "Faustian" konsepti Qərb dünyasına texnologiyanın imperativliyinin gəlişi ilə sıx bağlıdır. Gərginlik, axtarış, tragediya və həyat üzərində superstisiyann romantik mədhiyyəsi özünü əbədi qeyri-tətminlikdə, dayanmadan formadan formaya, sensasiyadan sensasiyaya, ixtiradan ixtiraya, yenidən yeniyə qaçmaqda ifadə edir. Bu, Evolanın ifadəsi ilə desək, Avropada doğan və Qərb sivilizasiyasının fizioqnomiyasını xarakterizə edən böyük kataklizmlərdən biridir. Bu dekadentlizmin kökü Semitizm ilə bağlıdır. Messianizmin ruhu eyni zamanda onun ruhu və orijinal maddəsidir. Başqa dünyaların və messianik həll yolunun hallüsinayası öz reallıqlarını əzm edə və yiyələnə bilməyənlərin, uğursuzların, parialarin, lənətlənmişlərin bu dünyadan qaçmaq ehtiyacından doğur. Bu, əzab çəkən, varlığı arzu, ehtiras və ümidsizlikdən ibarət olanlarınspiritual gücsüzlüyüdür. Semit irqi daxilində doğan və seçilmiş xalqın səndələyən siyasi hakimiyyətini cəsurlaşdıran bu qaranlıq reallıq *İmperium*-un qalıntılarından yüksələrək öncə qulların böyük üsyanına çevrildi və ardınca paqan Romasının çöküşünə gətirib çıxardı. Bu millennial maniyanın yayılması ilə gözləmə və vədin aldadıcı olduğu, məqsədin sonsuzluğa doğru çəkildiyi, eyni zamanda ehtiyac və ümidsizliyin davam edərək daha da kəskinləşdiyi sübut olunduqca geridə qalan yalnız sonu olmayan *becoming,* bir gərginlik və boşluğa doğru qravitasiya oldu. Bu dünyadan qaçış və başqa dünyanın sonsuz şəkildə mücərrədliyə doğru çəkilməsi (modern həyatın sirri olan bu *dünya üzərində narahatlıq* insanın özündən qaçış impulsunu təcəssüm etdirir) eskatologiyasının uğursuzluğundan sonra Xristianlığın ən dərində gizlənmiş misteriyasıdır. Adıçəkilən dinin özündə daşıdığı bu immanentist lənət Olimpiyan, Aryan və Klassik idealları tərk edərək ona konversiya edən xalqlar tərəfindən də əxz edilib. Bunun nəticəsidə, biz bugünün cəmiyyəti və bütövlükdə sivilizasiyası üzərində hökmran olan qanunu təsbit edirik: aşagi pillədə sənaye coşğusu, mexanikləşmə, məqsədlərə çevrilən vasitələr, iqtisadi və materialist determinizmlərlə birləşmiş sientizm, "özlüyündə bir məqsədə" və universal vəzifəyə çevrilmiş iş və "sosial xidmət" kultu, ən yeni və sonsuz "tərəqqi" mifləri yerləşir. Daha yuxarı pillədə isə, universalizmin, pozitiv elmi biliyin və sosiallaşmış "həqiqətin" əsası, Faustian, təkamülçü və Berqsonian doktrinalar dayanır. Qeyd edilən analiz bütövlükdə

eyni bir şeyi – Qərbdə dəyər və fərdiyyətçiliyin dekadensiyasının təsdiqi və sübutudur. Yaşayanlar yalnız daimi olaraq qeyri-tətmin, özləri olmağa deyil, "başqası" olmaq üçün həyat sürən atomlardır. Onların kollektiv qanunlara, bir cəmiyyətə, qarşılıqlı dəstək sistemlərinə kəskin ehtiyacları var. Çünki, onlar varlıq – *being* deyil, əbədi axtarışa, qeyri-tətminliyə və gələcəkdən asılılığa məhkum olmuş *becoming*-dir. İnsanın təbii mühitindən, sükunətdən, yalnızlıqdan, qeyri-funksional zamandan, əbədi olandan dəhşətə gələn bu yeni tip insanlar özlərindən başqa hər şeylə məşğul olaraq dayanmadan ora-bura çevrilirlər. Onlar özlərini hiss etmək, mövcud olduqlarını sübut etmək üçün "fəaliyyət göstərirlər". Etdikləri hər şeydən və hər bir "fəaliyyətdən" özlərinin təsdiq olunmasını tələb edirlər. Onlar fəaliyyət göstərmirlər, təhrikedici fəaliyyətə tabe olublar. Bu, modern dünya aktivizminin mahiyyətidir. Bu, fəaliyyət deyil, fəaliyyət həyəcanıdır. Bu, çarxın mehvərindən qoparılmışların dəli yürüşüdür. Mərkəzdən məsafə nə qədər uzaqdırsa, bu yürüş də o qədər aberrant formadadır. İqtisadi, sənaye, kultural və elmi sahədə sosial qanunun tiraniyası kimi bu yürüş, bu "sürət" ölümcül xarakterlidir. Özündən, mərkəzlilik, stabillik və daxili tətminlik dərkindən uzaqlaşdırılan fərd gerçək, spiritual fərdiyyətçiliyin dəyərini təşkil edən hər şeyin anlayışını itirir. Əlbəttə ki, Qərbin qürubu həm də fərdin deqradasiyasi və köksüz monada reduksiyasının nəticəsidir.

Həqiqət budur ki, modern insan fəaliyyətin nə olduğunu bilmir. Tradisional Hind doktrinalarına, eləcə də onların klassik Yunan-Roma metafizikasına nəzər salan hər kəs hərəkət, aktivlik, *becoming* və dəyişikliyin passiv, qadın prinsipinin (şakti), *hərəkətsizlik və stabilliyin* isə solyar, pozitiv kişi prinsipinin (şiva) xarakteristikası olduğunu müşahidə edə bilər. Baqavad-Gitada[147] da qeyd olunur ki, müdrik insan qeyri-fəaliyyəti fəaliyyətdən, fəaliyyəti qeyri-fəaliyyətdən fərqləndirə bilən insandır. Burada vurğulanmaq istənilən nə mistik durğunluq, nə də ki kontemplativ (dalğın) nirvanadır. Əksinə, qeyd olunmaq istənilən həqiqi fəaliyyət şüurunun nə olduğudur. Bu konsept Aristotelin "hərəkətsiz hərəkətli" (*ou kinoumenos kinei* – Aristotel tərəfindən kosmosun öncül səbəbi olaraq dərk edilir. O, kauzallığa tabe deyil amma kauzallığın yaradıcısıdır. Aristotel öz *Metafizikasında* "hərəkətsiz hərəkətlini" öz üzərində

[147] Beş min il yaşı olan Baqavad-Gita Hind fəlsəfəsi tarixində ən müqəddəs mətnlərdən biridir.

dərindən düşünən ilahilik ilə identifkasiya edir) ifadəsi ilə identikdir. Hərəkətin səbəbi olan və ona nəzarət edə bilən insan hərəkətsizdir. O, hərəkəti canlandırır, ona nəzarət edir və istiqamətləndirir. O, hərəkət etmir, lakin hərəkətə səbəbiyyət verir. Başqa sözlə, o nə hərəkətə cəlb olur, nə də ona tabe olur. O, fəaliyyət deyil, fəaliyyətin qaynaqlandığı və asılı olduğu aşılmaz, sakit və aramlı alilikdir. Ona görə də, onun güclü və görülməz nəzarəti, Lao Tzu-un təbiri ilə "fəaliyyətsiz fəaliyyət" (wei-wu-wei) olaraq adlandırıla bilər. Onun əksi isə, modern fəaliyyət yalnız aktivləşdirilmədir. "İradə", entuziazm, coşğu, şövq içərisində fəaliyyət tərəfindən zəbt olunan fərd stimulyativ fəaliyyətin köləsidir. Bu doktrinalara əsasən o, şakti prinsipinin məhkumu və hərəkətin hərəkətsiz, ali, transsendental və Olimpiyan *Kirios*-un inkarıdır. Bugün, Qərbdə mədh edilən tamamilə neqativ, mərkəzsiz, ruhən aşağıya yönəlmiş, özünü müşahidə edə və özü üçün bir mərkəz yaratmağa qadir olmayan sərxoş spontanlıq, daxili qanununu özündən kənarda tapan və funksiyası yalnız zahiri fəaliyyət burulğanı ilə ayaqlaşmaqdan ibarət olan fəaliyyətdir. Öz kökünə qarşı yadlaşmış Qərb dünyası Tanrılarını qüdrətləndirən, ali məziyyətlərə sahib insani varlıqları formalaşdıran daxili-spiritual fəaliyyəti maşınlar, banklar, korporasiyalar, və s. yaradan mexaniki güc ilə əvəzləyib.

Modernizm əsrində "hakimiyyət" zorakılıq ilə sinonim olub, iradə insanın ifrat gərginliyə və yorğunluğa qarşı üzərinə götürdüyü bir heyvani müqavimət və anti-tezis ilə identifikasiya edilib. Gərginlik, mübarizə, cəhd, *nisus* bu aktivizmin şifrələridir. Lakin, fəaliyyət özlüyündə təməl, sadə və eyni zamanda qarşısıalınmaz bir şeydir. Nə coşğuya, nə hər hansı bir cəhdə, nə də ki onun qarşı tezisinə yer var. O, heç bir nifrət və şiddətli istək olmadan özünün mütləq mərkəzindən, "hərəkətsizləşdirən" sükunətindən, hər bir ziddiyyətə üstün gələn yaradıcı müxtəlifliyindən başlayır. Bu bir əmr, Kayzerlərin nəzarətedici hakimiyyəti, Uzaq Şərq imperatorlarının aksiyasıdır. O, qəhrəmanlıq, fədakarlıq və sədaqət yoluna cəsarətlə qədəm qoyan insanlarda doğan (xoşbəxtlik, qorxu, lütf, xeyir və şər kimi primitiv instinktlərdən daha qüdrətli olaraq) və parıldayan qüvvədir[148].

Fizikada sürtünmə nəticəsində ortaya çıxan enerji itkisi bugün Qərbin ya-

[148] J.Evola–"Imperialismo Pagano", p, 123 (Edizioni Mediterranee, Via Falminia, Roma, 2004)

şadığı və uşaq kimi qürur duyduqları "heroism – qəhrəmanlıq" ilə müqayisə edilə bilər. Xristian dualizmi, "günahkar şüuru", insanın özünə nifrəti və qəzəbi onun ruhunda böyüdükcə parçalanmış ruhların iztirabı, özünə nəzarət edə və özünə bir sükut, mütləq iradə təlqin edə bilməyənlərin sadəlövh və bəsit "patos"u "həyatın tragik mənası" adına Qərbdə mədh edilən "qəhrəmanlığa" çevrilib. İnsanın özünüdərki üçün mütləq bir şərtə çevrilən müqavimət, cəhd göstərmə ehtiyacı, zorakılığın romantik mədhiyyəsi, eləcə də dəyəri nail olma deyil, daimi olaraq arzulama, enantiodromia və öz-özündən qaçmadan, "Meisterung" və özünə nəzarət deyil, məşəqqət və mübarizlikdən, açıqlıq, spiritual entelexiya və tamlıq deyil, sonsuz vəzifələrdən ibarət olan *deisidaimonia*[149] arxasında tradisional-klassik fəaliyyət yox olub. Klassik harmoniyanı, spiritual muxtariyyət və avtargiya anlayışını, Olimpiya aliliyi və Dorian sadəliyini, eləcə də aktiv, pozitiv və immanent qüvvəni inkar edən Xristianlıq "əbədi indi"də yaşayan zəncirlənmişlərin və frustrasiyaya uğramışların dünyası üçün zəmin hazırladı. Zəncirlərin və qaranlığın hər kəs tərəfindən bilindiyi Qərbdə, heç kəs gerçək azadlığın nə olduğunu bilmir. Hər tərəfdə eşidilən azadlıq hayqırışı sadəcə olaraq məhbusların hayqırışı, vəhşi heyvanlar kimi zəncirlənmişlərin hay-küyü və superiyor məziyyətlərin nə olduğunu bilməyənlərdən gələn bir küydür. Modern iradəçilik (voluntarism – bəşəriyyətdəki təməl və yeganə gücün azad iradə olduğu doktrinası) bir iradə deyil, iradə ilə əvəzlənən çarəsiz bir ritorika, insanda onu bir *iradəyə* sahib olduğuna inandırmağa xidmət edən mental effuziyadır. Obsessiya halına gələn özünütəsdiq və narahatlığın oxşar işarələri və simptomları "fərdiyyətçilik" və "hakimiyyətin" modern eksalasiyası, həmçinin "ciddilik" və "öhdəliyin" sərt qanunu altında Qərb dekadensiyasının ümidsiz aspektləridir. Qərbdə hər şey irrasional, şiddətli, tragik və ən əsası qeyri-azaddır. İnsanda daxili nizam və təzyiq qanununu inkar edən hər şey ifrat dərəcədə sərtlik, qadağaçılıq (prohibisionizm), imperativizm, əxlaqçı və ya rasionalist qeyri-dözümlülükdə, romantik impulsda yaxud "insani patos"da özünü göstərir. Büllur aydınlığı, fəal və çevik sadəlik, azadlığın spiritual sevinci, aristokratik alilik – yalnız bir mif olaraq başa düşülür. Bunun əvəzində,

[149] Deisidaimonia – qorxu üzərində qurulmuş "inanc". Qədim Yunanlarda Tanrılara ancaq onların səbəb ola biləcəyi dəhşətlərdən qorxaraq inanma.

hər şeydə hökmranlıq edən yalnız spiritual kollaps və maddi-iqtisadi imperativlərdir. Qəhrəmanlıq və "universallıq" ilə bəzədilən bu dünya C.Bentamın təsvir etdiyi panoptikonların dünyasıdır. Nitzşenin "Zərdüştünün qəhqəhəsində" qeyd etdiyi kimi, çarmıxa çəkilmiş Allahın lənəti hər yerə yayılaraq bütün Qərbi alt-üst edib.

Müasir Qərb üçün tipik olan həyatın "insani" düşüncəsi və dərki onun plebey və degenerat aspektini təsdiq edir. Fərdi Allaha doğru yüksəldən tradisional dünya ehtiras və nəfsdən azad etmək, həm fəaliyyət, həm də dərin düşüncədə onu spiritual əzəmətə və transsendensiyaya adaptasiya etmək üçün hər bir səyi göstərirdi. Bu dünya üçün xarakterik olan qeyri-insani qəhrəmanlar və ilahi qanın daşıyıcısı olan insanlar idi. Semitləşmiş dünya yaradılışı ilahilikdən məhrum etməklə yanaşı, Allahı bir insan fiquruna endirdi. Pelasq substratumuna məxsus demonizmi həyata geri qaytarmaqla, Semitizm Olimpiya mükəmməliyi və kamilliyini öz apokalipsislərinin, lənətlərinin və cəhənnəmlərinin terrorist dünyabaxışları ilə əvəzlədi. Allah artıq insanın ayaqüstə, alov işığında dua etdiyi Romalıların aristokratik, patirisiat Allahı deyildi. O artıq Himirin kökünü kəsən, güclü silahı – Myolnir çəkici ilə "güclülərin güclüsü", qarşısıalınmaz Donar-Thor deyildi. O, Arilərin ilahi krallarını təqdis edən Vacra Şiva deyildi. Yəhudi-Xristian Allahı qələbələrin aydınladıcı gücünü özündə ehtiva edən, döyüş meydanında həlak olaraq fədakarlığın ən ali kultunu qeyd etməklə ölümsüzlərin falanksına transformasiya olan Odin-Votan deyildi. Lakin o, Lui Rujiyenin ifadəsi ilə desək, çarəsizlərin və lənətlənmişlərin rəhbəri, tar-mar olmuş, acı çəkən insanın ekstaziya göz yaşlarında yalvardıqları bir təsəlli idi[150]. Ona görə də, *spiritus* maddiləşdi, metafizik həqiqətlər "obskyurantist qalıqlar" adlandırıldı. Bundan sonra, yalnız ehtiras, cəhd və hisslər ilə yaşanılacaqdı. Bu ümumi degenerasiyada, Xristian "cəfası" və "tragik həyat" dünyasında yalnız dünyaüstü Olimpiya spirituallığı deyil, həm də *virilem* (kişi əzəmətinə məxsus) Nordik-Roman şərəfi də məhvə sürükləndi. Epik və Dorian dünyası "insani" dünya ilə əvəzləndi.... "Humanizm" – Yerdən yüksələn, Səmanın və Tanrıların təsəvvür edilməsini əngəlləyən bir miazmadır. Müxtəlif formalarda və çox sürətlə yayıla bilən bu miazma bütün yeni romantizmlərin,

[150] J.Evola–"Imperialismo Pagano", p, 125 (Edizioni Mediterranee, Via Falminia, Roma, 2004)

sentimentalizmlərin, "iradə" və "fəaliyyətin" modern entuziazmlarının kökündə dayanır. Modern insanın bu putrefaksiyadan özünü təmizləməsi Avropa dekadensiyasını kanonlaşdıran digər elementlərin eradikasiyası qədər məşəqqətli bir ontoloji-essensial vəzifədir. Bunun üçün insanın daxili azadlığına yenidən qovuşmalı və öz şüurunu yenidən qazanmalıdır. Məhz bununla o, sonsuz sükutu hiss edə, keçmiş və amansız təlaşını unuda bilər. Modern insan nə bir sükut, nə bir dinclik, nə də öz-özü ilə qala biləcəyi məkanı dərk edir. Onun ruhu sakitləşdirilməli və o özünə qaytarılmalı, öz daxilində həyat qayəsini və dəyərini tapmağa məcbur edilməlidir. O öz daxilində "Mütləq Şəxsiyyət" oyanana qədər özünü yalnız hiss etməyi öyrənməlidir. Bununla o, özündən kənara getməməli olduğunu, eləcə də təlaşla axtaracaq, ümid edəcək və ya qorxacaq heç nəyin olmadığını dərk edə bilər. Beləcə o, nifrətin, romantik və sentimentalist "sevginin" zəifliyini qəbul edə, modern həyatın ağırlığından xilas ola və yenidən amma daha dərindən nəfəs almağa başlayaraq özünü sadəcə "insani" deyil, supra-insani varlıq kimi hiss edə bilər. Kəskinlik, cəhd və amansız "*sən etməlisən*" anlayışları sadəcə absurd maniyanın qalığından başqa heç bir rol oynamayacaq. Öz ayaqları üzərində yeriyə bilməyənlər üçün mövcudiyyət "məqsədləri" və "səbəblərini" təşkil edən "Təkamülçüyülün", "providensial planların", historisizmlərin bütün illüziyalarını rədd etməklə insan hərəkət etdirilməyəcək amma öz ayaqları üzərində hərəkət edə biləcək. Onun "Mən"i özünün mərkəzinə çevrildikcə insan fantazmal mövcudiyyətini tərk edəcək və "Mütləq Şəxsiyyətin" xarakteri olan fəaliyyət onun daxilindən qaynaqlanacaq. Məhz bu şəkildə, insanları simasız sosial amalqama tabe edən, onları maşının parçalarına çevirən, kollektiv despotizm və humanitarian ideologiyaların qeyri-personal sementində onları daşlar yığını kimi bir-birinə yapışdıran, onları bəsirətsizliklərinə və dekadent mövcudiyyətlərinə həbs edən modern "insani qanunlara", universal-xristian "qardaşlığının" patosuna üstün gəlinəcək.

# QUO VADİS, ECCLESİA?
# XRİSTİANLIQ Və QƏRB

*“Bir Xristianı və bir anarxisti hər bir aspektdən müqayisə etmək olar. Çünki onların hər ikisinin impulsu destruksiyaya doğrudur. Onların hər ikisi dekadent olduqları üçün yalnız dezinteqrasiya etmək və deqradasiyaya uğratmaq məqsədi üçün fəaliyyət göstərə bilir. Onların hər ikisi əzəmətli və davamlı olan, eləcə də dik dura bilən hər şeyə qarşı ölümcül bir nifrət impulsuna sahibdir”.*

Y.Evola

Tradisional dünyanın uğradığı böhranı və Qərbin yaşadığı qürubu anlamaq üçün bir təməl həqiqəti bilmək mütləqdir ki, tradisional dünyanın insanına görə dünya və supradünya vahid bir reallığı özündə birləşdirirdi, onlar arasında effektiv və obyektiv bağın yaradılması sivilizasiya və həyatın bütün ali formaları üçün ön şərt idi. Bu "contactus"un aradan qalxması, bütün mümkünlüklərin bu dünyaların yalnız birində–insani və temporal dünyada mərkəzləşməsi, supra-dünya təcrübəsi və həyatın sadəcə insani təbiətin yan məhsulları və efemeral təzahürləri ilə əvəzlənməsi–ümumilikdə modern sivilizasiyanın xarakteristikalarıdır. Müxtəlif dekadensiya formaları qədim dövrlərdə də özünü göstərsə də qarşı prinsiplər və reaksiyalar ilə onlara uğurla üstün gəlinib. Lakin, modern sivilizasional dekadensiya qorxuducu və destruktiv effektivlik həddinə çatıb. "Orta Əsrlərin qaranlığından" azad olduğunu iddia edən humanizm yeni sivilizasiyanın başlıca səciyyəsi və şifrəsi olaraq nəzərə alınır. Yalnız insani dimensiya ilə məhdudlaşan bu sivilizasiyada hər şey–səmalar, cəhənnəmlər, qlorifikasiyalar və lənətlər insanla başlayıb, insanla sona çatır. Arzulu və hərarətli yaradılışları, incəsənət dəyərsizlikləri və "dahiləri", saysız-hesabsız maşınları, sənaye mərkəzləri və menecerial liderləri ilə insani yaşam və təcrübə real olmayan bu dünya ilə məhdudlaşır.

Humanizmin ən erkən versiyası individualizm (fərdiyyətçilik) idi. Fərdiyyətçiliyə, real mərkəz xaricində bir xəyali mərkəzin konstitusiyası, yalnız bir bədənə sahib olduğunu düşünən ölümlü eqoya məxsus "Mən"-in qeyri-real və paroksismal iddiası, bəsit təbii bacarıqların yan məhsulu olaraq yanaşılmalıdır. O, sekulyar elmin də köməyi ilə bu içiboş və saxta mərkəzdən kənarda heç bir davamlılığı olmayan müxtəlif təzahürlər yarada bilir. Bütün modern fenomenlər üzərində radikal qeyri-realizm və qeyri-orqanik xarakter hakimdir. Artıq sanki heç nəyə həqiqi həyat bəxş olunmayıb. Hər şey yan məhsuldur. Hər bir sahədə kastrasiya edilmiş Varlıq bir ölü cəsədin mexaniki və rasionalist dəstəyi olan "iradə" və fiziki-naturalist "Mən" ilə əvəzlənib. Bu yeni insan tipinin saysız "fəthləri" və onun yaratdığı hər şey putrefaksiya prosesində baş verən *soxulcanların sürünməsi* kimi üzə çıxır. Nəticədə, bütün paroksizmlərə, innovativ və ikonoklastik manialara, eləcə də ruhun özü-

nün solğun görüntüsü ilə əvəzlənməsi nəticəsində insanın din, fəlsəfə, incəsənət, elm və siyasət formasında insestual fornikasiyasının heç bir sərhəd tanımayacağı dünyaya yol açıldı. Dini müstəvidə qeyri-realizm essensial olaraq inisiasiya ənənəsinin yox olması ilə bağlıdır. Tradisional cəmiyyətlərdə insanın dünyaüstü "regionda" obyektiv iştirakını yalnız inisiasiya təmin edirdi. Xristianlığın yüksəlişi ilə artıq bu ali istinadı – inisiasiya reallığını təşkil etmək üçün mühüm şərtlər mövcud deyildi. Bu baxımdan, "spiritualizm" ən mənfi yöndə fəaliyyət göstərən faktorlardan biri oldu. Hər bir kəsin təbii imtiyazı olaraq nəzərə alınan "ruhun ölümsüzlüyü" adlı abnormal ideyanın yayılması insanı bu dünyanın şərtləndirmələrindən xilas edə və ölümlü təbiəti yox edə bilən inisiasiyanın dəyəri və vacibiyyətinin dərkində ciddi boşluğun ortaya çıxmasına səbəb oldu. Bir surroqat olaraq ortaya çıxan isə İsanın misteriyaları və İsada xilas ideyası oldu. Bu kontekstdə Misteriyalar doktrinasından (ölüm və yenidən diriliş) alınan bu motif sadəcə inancın dini səviyyəsinə tətbiq edildi. Xüsusi "əxlaqdan" ibarət olan bu surroqat o biri dünyada "ölümsüz ruhun" onu gözlədiyi həyatın yaranmasına səbəb oldu. Bir tərəfdə, imperial Orta Əsr ideyası inisiator elementinin nəzarətində olarkən, digər tərəfdən Kilsə müqəddəslər doktrinası formalaşdırır, regenerasiyadan bəhs edir və "pontifikal" simvolizmi canlandırırdı. Nəticədə isə, Xristianlığın ruhuna zidd olan inisiasiya ideyası ona yad olaraq qalmaqda davam etdi və hər bir müfəssəl tradisional forma ilə müqayisədə ciddi yetərsizliyi olan anomaliya üzə çıxdı. Spesifik xarakteri ilə subyektivizmə güclü impuls verən Xristian dualizmi "Müqəddəs" problemində qeyri-realizmin meydana çıxması ilə nəticələndi. "Müqəddəslik" reallıq və transsendental təcrübə məsələsindən yalnız teoloji spekulyasiya obyekti və ya hisslərə əsaslanan inanc məsələsinə transformasiya edildi. Öz miflərinin intellektual essensiyasını itirən Xristianlaşmış Qərb supra-rasional təcrübələrin, mövcudiyyətin supra-fərdi şərtlərinin və inteqral varlığın dərin dimensiyalarının mifik biliyini itirdi. Bu formada Qərb dünyasında müşahidə edilən simvolizmin mifologiyaya doğru degenerasiyası onun süstləşməsi və mücərrədləşməsinə, son nəticədə isə incəsənət fantaziyalarının obyekti kimi yenidən üzə çıxmasına səbəb oldu.

"Müqəddəslik" təcrübəsinin inanc, hiss və əxlaqa, *intuitio intellectuale*-nin isə sadəcə bir Sxolastik fəlsəfə konseptinə endirilməsi nəticəsində bu qeyri-realizm ruhu supra-təbii (təbiətüstü) domenə üstün gəldi. Bu proses, Protestantizm və onunla paralel olaraq humanizm və İntibahın ortaya çıxması ilə daha geniş vüsət aldı. Sivilizasiya tarixində yekun mahiyyətinə, Orta Əsrlərdə oynadığı antaqonist rola, inisiasiya və ezoterik dimensiya çatışmazlığına rəğmən etiraf etməliyik ki, Kilsənin özündə ehtiva etdiyi bəzi tradisional xarakterlər onu sadəcə Xristianlıqdan ibarət olmaqdan daha yüksəyə qaldıra bildi. Çünki o, bilavasitə də olsa transsendental bilik elementlərinin qorunub saxlanıldığı ehkamlar, simvollar, miflər və rituallar sistemi və müqəddəs institutlar yaratmaq iqtidarında idi. Hakimiyyət və ehkam prinsipini sərtliklə mühafizə etməklə, bilik sahəsində vəhyin transsendental və supra-rasional xarakterini, eləcə də fəaliyyət sahəsində Allahın lütfünün transsendentallığı prinsipini müdafiə etməklə Kilsə özünün qeyri-insani xarakterini bidətçilikdən qorumağa çalışırdı. Katolisizmin bu drastik cəhdləri təbii olaraq məhdudiyyətlər ilə üzləşdi. Sadəcə dini kontekstdə doğruldulan formalar transsendentallığa məxsus olan mütləqiyyət xarakterini özündə qoruya bilmədi. Bu sadəcə ali – metafizik biliyin yetərsizliyinə görə deyil, həm də Kilsənin özünün sekulyarlaşması, spiritual tənəzzülü və onun daxilində qazanılmış siyasi ambisiyaların aşkar şəkildə ortaya çıxması ilə bağlı idi. Beləliklə, Xristianlığa əlavə edilən tradisional elementlərə sarsıdıcı zərbə vurmaq, qeyri-realist subyektivizmi daha da təhrik etmək və fərdiyyətçiliyi yalnız dini kontekstdə müdafiə etmək üçün başlanılacaq reaksiyaya zəmin hazırlandı. Lüterin Papalığa - Romadakı "şeytani yaradılışa", "Babilin krallığı Romaya", eləcə də Xristian ruhuna müxalif olan radikal paqan-politeist reallığına qarşı invektivlərinin (invektiv – dini həqarət və küfür) Erkən Xristianlar və Yəhudi apokaliptik mətnləri tərəfindən Roman-German "Qartal Şəhərinə" qarşı işlədilən invektivlərlə oxşarlığı əsla təsadüfi deyildi[151]. Katolisizmdə Bibliya reallıqlarına zidd, klassik Yunan-Roma ənənələrinə məxsus hər şeyi rədd etməklə, Lüter Olimpiya metafizik prinsiplərinin Semitist-Cənub substratumuna və ya

[151] J.Evola – "Revolt against modern World", p, 314

əsrlər boyu Kilsə daxilində inkişaf etdirilən *teoloji sədaqətə* endirilə bilməyəcəyi barəsində fundamental yanlışlıq nümayiş etdirdi. Gibellin imperatorları Katolik Kilsəsinin sadəcə dini spirituallığına və onun hegemonluq iddialarının əleyhinə çıxaraq və "Sacrum İmperium"un ali ideyasına sadiq qalaraq Papa Romasına qarşı mübarizə aparırdılar. Lakin, Lüter Katolik uzlaşmasında pozitiv aspektdən mövcud olan bütün tradisional, iyerarxik və ritualistik komponentlərə qarşı kəskin nifrətlə Papa Romasının nüfuzunu sarsıtmaq istəyirdi. Bütün perspektivlərdən, Lüter hətta siyasi sahədə belə destruktiv emansipasiyanı asanlaşdırdı. Reformasiyanı dəstəkləməklə, Alman knyazları II Fridrix Barbarossanın irsinə sahib çıxmaq əvəzinə anti-imperial koalisiyada birləşdilər. Onlar hakimiyyətin imperial prinsipinə qarşı öz üsyanlarını legitimləşdirən və anti-Roma yürüşlərini pərdələməyə icazə verən Lüterin "doktrinalarını" böyük həvəslə qəbul etdilər. Artıq, hər növ supra-nasional (millətlərüstü) iyerarxik sədaqətdən qopardılan Alman knyazları azad olmalı idilər. Lüter, bu reqressiv (involyutiv) prosesin digər sahələrə sirayət etməsinə zəmin yaratdı. Din, istənilən növ konkret təzahüründə dövlətə tabe edildi. Çünki, knyazlıqların idarəsi sekulyar idarəçilərin məsuliyyəti idi. Bununla da, Lüter daha sonra Kalvin tərəfindən mükəmməlləşdiriləcək demokratik konseptin (idarəçilər öz təbiətinə görə deyil, *communitas*-ın nümayəndələri olaraq idarə edirlər) öncədən xəbərçisi oldu. Reformasiyanın əsas xarakteristikası Olimpiya-qəhrəman idealını, eləcə də insanın asketizm vasitəsilə öz hüdudlarına üstün gəlmək və ali transsendental hüququnu icra etmək mümkünlüyünü radikal şəkildə rədd edirdi. Lüterin sekulyar hakimiyyət baxışları reqalian-imperial üstünlük ilə bağlı olan tradisional doktrinanın inversiyasının başlanğıcını qoymaqla, spiritual hakimiyyətin dünyəvi (temporal) hakimiyyət tərəfindən istismar edilməsinə səbəb oldu. Katolisizmin "doğuşdan gələn günah" mifini daha da kəskinləşdirən Lüterian Protestantizm insanın öz cəhdləri ilə əbədi qurtuluşa nail ola bilmək gücsüzlüyünü elan etdi. Başqa sözlə, o, bütün insanlığa şeytani əməl törətməyə məhkum, lənətlənmiş kütlə olaraq yanaşırdı. Bununla da, Protestantizm daha üsyankar for-

mada gerçək Suriya mazoxizminin tipik ehkamlarını öz "doktrinasına" əlavə etdi. İyerarxik sistemi və asketizmi bütövlükdə rədd edən Lüterin düşüncəsi ehtirasları, sensuallığı və qəzəbinin əsiri olan bir uğursuz rahibin daxili həyatının qaranlıq xarakteri ilə sıx bağlı idi. Onun şəxsi həyatının belə aberrantlığı özünəməxsus "doktrinasında" da əks olunur. Lüterian təlimlərə görə, On Əmr[152] insanlara bu dünyada yerinə yetirmələri üçün verilməyib. Çünki, şəhvəti arzusuna üstün gələ bilməyən, daxili tendensiyası yalnız günah işləməkdən ibarət olan insan onları həyata keçirmək iqtidarında deyildi. Buna görə də, o özünü yalnız şəxsi Allaha (Yahveh) təslim etməli və onun lütfünə inanmalı idi. Monastik və asketik həyatı "boş və ümidsiz" həyat olaraq damğlayan Lüter Katolisizmin özündə qoruduğu kontemplativ həyatın residual mümkünlüklərinə Qərb insanın reinteqrasiyasının qarşısını aldı. Digər tərəfdən, Reformasiya Müqəddəslik dimensiyasında hakimiyyət və iyerarxiya prinsipini kökündən inkar edirdi. *Pontifex* olaraq insani varlığın müqəddəs doktrina məsələlərində yanılmaz ola bildiyi ideyasının aberrant və absurd olduğu elan edildi. Reformatorlara görə, İsa heç bir Kilsəyə, hətta Protestant kilsəsinə belə yanılmazlıq imtiyazı verməyib. Bu, iyerarxiya prinsipinin aradan qalxması və ilahi əzəmətin insan azadlığı qarşısında geri çəkilməsi anlamına gəlirdi. M.Qoşe bu reallığı "Allahı uzaqlaşdırmaqla dünyanı dərk etmək" kimi vurğulayır[153]. Heç bir tradisional nəzarət olmadan azad və fərdi tədqiqi ilə hər kəs müqəddəs mətnləri və doktrinaları şərh edə bilərdi. Bununla da, bilik sahəsində dini təbəqədən olmayanlar ilə klerikal institut arasındakı əsaslı fərq ləğv edildi. Tradisional prinsiplərdə təbiətüstü krizmin bəxş olunduğu, müqəddəs ritualları aktivləşdirmək hüququna və *indoles indelebilis*-ə sahib olan klerikal institutu və klerikal ləyaqəti "boş bir attribut" olaraq dəyərləndirildi. Bununla da, sadəcə ehkamlar və simvolların deyil, eləcə də rituallar və dini ayinlər sisteminin özündə ehtiva edə biləcəyi obyektiv, sup-

[152] "Dekaloq" kimi də adlandırılan və Sinai dağında Allah (Yahveh) tərəfindən Musaya verdiliyi güman edilən "On Əmr" İbrahimi dinlərdə fundamental rola sahib olan etika və ibadət prinsipləridir.

[153] Marcel Gauchet – "The Disenchantment of the World: A Political History of Religion", (Translated by Oscar Burge, Princeton University Press, Princeton, New Jersey, 1997), p, 51-57

ra-insani mahiyyət və dəyər total şəkildə inkar edildi. Bu şəkildə, alman teoloqu Ernst Troelşin bildirdiyi kimi, Protestantizm ekkleziastik mədəniyyəti təməlindən dağıtdı. Ekkleziastizmin atrofiyası etikamızın dini əsaslarını bütövlükdə dəyərsizləşdirməklə gələcək böyük faciələrə yol açan katastrofa oldu". Amerikalı yazar Herman Melvill də "Clarel" adlı əsərində bildirir ki, dünya dinləri arasında önəmli mərkəzi mövqeyə sahib Roma Kilsəsi qeyri-dini qüvvələrin əsas hədəfi halına gəlib. Katolisizmin zəifləməsi və tənəzzülü "Demokratiyanın Qaranlıq Əsrlərinin" yüksəlişini sürətləndirdi[154].

Metafizik prinsiplərin artıq Katolisizmdə mövcud olmadığı yaxud mövcuddursa da, bunun yalnız dolaylı və formal mövcudiyyət olduğunu iddia etmək olar. (Katolisizmdə rahiblər sinfi əsla real silk ola bilmədi. Evlənməmə andı və prinsipinə görə, Katolisizm özünü pozucu və sapdırıcı təsirlərdən qoruya biləcək qan irsinin dərinə kök salmış qüvvələri ilə sarsılmaz spiritual bağ yaratmaq mümkünlüyünü əbədiyyən itirdi. Aristokratik sinifdən fərqli olaraq, rahiblər sinfi bütün sosial stratalardan özünə üzvlər cəlb etdiyi üçün qarışaraq "köklərinin itməsi" tendensiyasına məruz qaldı. Bununla da, spiritual təsirlər üçün "orqanik"–bioloji və irsi bazisin yoxluğundan əziyyət çəkdi). Bu halda gerçək Reformasiya spiritual və tradisional ehkamların dəyərsiz nümayəndələrinin daha dəyərli və layiq olanları ilə əvəzlənməsindən ibarət olmalı idi. Lakin, Protestantizmin səbəb olduğu destruksiya və inkar həqiqi konstruktiv prinsip ilə deyil, yalnız bir illüziya, saf inanc ilə tarazlanırdı. Protestantizmə görə, müqəddəs qurtuluş İsaya olan inanc və ilahi lütf tərəfindən "seçilmişlik" ilə xilas olunanlar sırasında yer almaqdan və onun subyektiv təminatından ibarətdir. Bununla da, bəşəriyyət spiritual qeyri-realizm yoluna daxil oldu. Materialist reperkussiya (yan təsir) da öz *zührunu* gözlətməyəcəkdi.

Dünyəvi mövcudiyyətdən daha ali bir reallıq olan spirituallığın obyektiv anlayışını rədd etməklə Protestantizm ehkamı həyatın bütün aspektlərində insanın özünü eyni zamanda həm spiritual, həm də dünyəvi, həm günahkar, həm də bəraət qazanmış bir varlıq olaraq hiss etməsinə icazə verdi. Bu da, sonda bütün ali vokasiyaların radikal sekulyarizasiyasına, müqəddəsləşməyə

[154] Herman Melville – "Clarel", London, 1922, p,276

deyil, moralizm (əxlaqçılıq) və puritanizmin doğuşuna gətirib çıxardı. Protestanizmin, xüsusilə də Anqlo-Sakson Kalvinizmin və Puritanizmin tarixi inkişafı prosesində bütün transsendental maraqlardan dissosiasiya edilən dini ideya sosial xidmət, iş, "tərəqqi" və gəlir mistisizmi formalaşdırılana qədər dünyəvi nailiyyətləri təqdis etməyə tabe edildi. Anqlo-Sakson Protestanizminin formaları hakimiyyətin transsendental prinsipini təmsil edən heç bir liderin olmadığı "inanclılar birliyi" olaraq xarakterizə olundu. Nəticədə, dövlət idealı sadəcə "azad" Xristian vətədaşların "cəmiyyətinə" endirildi. Bu növ cəmiyyətdə gəlir ilahi seçilmişliyin (eleksiya) rəmzi oldu. Hökmran kriteriya isə sərvət və rifah ilə birbaşa bağlı olan iqtisadi kriteriya olmalı idi. Burada, biz yuxarıda qeyd edilən degenerativ reqressiyanın aspektlərini ayırd edə bilərik: Tamamilə materialist olan bu Kalvinist nəzəriyyə qələbənin qədim mistik doktrinasını saxtalaşdırdı. Uzun müddət ərzində, modern demokratiyalar və kapitalizm dövründə tacirlər sinfinin – Üçüncü Silkin hakimiyyətə yüksəlişinə dini və etik bəraət qazandırmaq üçün məhz bu nəzəriyyədən istifadə edildi. Müqəddəs kitabın şəxsi interpretasiyası nəzəriyyəsində (Protestant Kalvinizm ilə bağlıdır) mövcud olan essensial fərdiyyətçilik modern humanizmin digər bir aspekti – rasionalizm ilə əlaqələndirildi. Özündə idrak və doğru mühakimə qabiliyyətinin olduğunu iddia etməklə spiritual hakimiyyətdən və tradisional ehkamlardan xilas olmuş fərd (insani varlıq olaraq) mühakimə etmək qabiliyyəti kultunu təşviq etməyə və onu bütün həqiqətlər və normaların kriteryumuna çevirməyə başladı. Reformasiyadan sonra Qərbdə baş verən məhz bu idi. Təbii olaraq, Rasionalizmin bəzi "rüşeymlərinə" qədim Hellasda (Sokratın "reallığı" reallığın özü ilə əvəzləməsi konsepti kimi) və Orta Əsrlərdə (fəlsəfinin təsirində qalan teoloji axınlarda) rast gəlmək olar. Lakin, Renessans ilə birləşən Rasionalizm fərqliləşərək ən mühüm cərəyana çevrilməklə yeni xarakter aldı. Təbiəti etibarilə spekulyativ və aqressiv olmaqla Rasionalizm öz inkişaf mərhələsində Maarifçilik, Ensiklopedizm, qeyri-dini və inqilabi tənqidçiliyi ortaya çıxardı. Fransa inqilabı ilə onu müşahidə etmək mümkün oldu ki, Rasionalizmin sonrakı involyusiya və inversiya prosesləri daha məşum və təhdidkar xarakterə sahibdir. Spiritual

maariflənmə prosesi ilə yalnız inisiasiyaya verilən alilik artıq sekulyar ağılın suveren hakimiyyətinə şamil edilməyə başlandı. Tarixi inkişafında qeyri-realist xəttlərə məhkum olan Rasionalizm Mütləq İdealizm və panlogizmin inkişafına yol açdı. Ruhun və düşüncənin, reallıq və konseptin identikliyi ideyası davam etdirildi. Hegelian eqo özündə supra-təbii prinsipin daşıyıcısı olan real eqonu əvəzlədi. Ortaya çıxan “tənqidi düşüncə” real olan hər şeyin rasional, rasional olan hər şeyin real olduğunu elan etdi. Bu, qeyri-reallığın detrimental formasını təmsil edirdi. Oxşar fəlsəfi abstraksiyalarına nisbətən Rasionalizm emprisizmlə və sientizm (elmiçilik) kontekstində eksperimentalizm ilə birləşərək modern dünyanın qurulmasında daha mühüm praktik rol oynadı. Modern təbiət və elmi düşüncə Reformasiya və İntibah ilə üst-üstə düşürdü. Çünki, bu fenomenlər eyni qlobal təlatümün digər təzahürləri idi. Fərdiyyətçilik naturalizm ilə assosiasiya olundu. İndividualizmin üsyanı ilə, bütün supra-dünya şüuru aradan qalxdı. Hər şeyi özündə əhatə edən yeganə şey dünyanın material – maddi baxışı yaxud fenomenlər yığını və ya zahirilik olaraq görülən təbiət oldu. Beləliklə, dünyaya yeni baxış – *weltanschauung* üzə çıxdı. Keçmişdə də, bu təlatümün formaları mövcud olsa da, onlar heç vaxt sivilizasiyaları formalaşdıracaq qüvvələrə transformasiya ola bilməyən sporadik (nadirən ortaya çıxan) kimeralar olaraq qalırdı. Hər zaman tradisional-metafizik doktrinalar tərəfindən əngəllənilən bu kimeralar sivilizasional gücə modern əsrdə - reallığın materiallıq ilə əvəzləndiyi dövrdə sahib olmağa başladı. Tənqidi və ya epistemoloji idealizm bütün digər fəlsəfi sistemlərin dərkində olduğunu iddia edirdi. Real “rasional” ilə, dünya “konsept” ilə, “Mən” isə “Mən”in illüziyonar düşüncəsi” ilə identifikasiya olundu. Elmin yeni idealı ifrat şəkildə fiziki dimensiya ilə bağlı olaraq *konstruksiyaya* tabe edildi. Bu ideal artıq intellektual intuisiyanın sintezisini təmsil etmirdi. Modern elmin fəthləri yalnız riyazi münasibətlərin kəşfindən, davamlılıq və birformalı ardıcıllıq qanunundan, dəyəri yalnız öncədən görə bilmə qabilliyindən və “yekun nəticədən” ibarət olmaqla, reallıqda heç bir essensial bilik yarada bilməyən, insanın daxil azadlığına və onun öz-özünə üstün gəlməsinə səbəb ola biləcək məzmun və dəyərlərdən məhrum olan hipotezalar yaxud

mücərrəd prinsiplər kolleksiyasını özündə ehtiva edirdi. Ölü obyektlərin ölü biliyi süni, avtomatik və anlaşılmaz şəkildə demonik varlıqların istehsalının məşum incəsənətinə gətirib çıxardı. Rasionalizm və sientizmin yüksəlişi yeni insani dünyanın mərkəzi və apoteozisi halına gələn texnologiya və maşınların nəzarətsiz inkişafını da qaçılmaz etdi. Bundan əlavə, fəaliyyət və dərin düşüncə (kontemplasiya) sahələrinin sistematik dünyəviləşməsində, eləcə də Avropa dövlətlərində (daha sonra bütün dünyada) plebeylərin hakimiyyətə yüksəlişində birbaşa məsuliyyətli məhz modern elmdir. Empirik data-da essensial və simvolik olan hər şeyi inkar edən sayların ruhsuz dünyasına və "pozitivist" metodun təmsil etdiyi *irrasional inanca* əsaslanan birformalı həqiqət və müəyyənlik meyarı yaratmaqla dərin bilik anlayışını deqradasiyaya uğradan və demokratikləşdirən məhz elm idi. Din və metafizikanın "qaranlığını" yox edərək təbii zərurət surətini təlqin etməklə insanın şeylərin gizli gücü ilə incə münasibətini aradan qaldıran məhz elm idi. İnsanı dənizlərin, Yerin və Səmaların səsindən qoparmaqla "Tərəqqinin Yeni Əsri" mifini yaradan, eləcə də qapıları hər kəs üçün açaraq qulların böyük üsyanını təhrik edən elm idi. Demonik fəthin ideallarına uyğun olaraq təbiətin hər bir gücünü işlətmək və ona nəzarət etmək üçün zəruri alətləri təmin etməklə insanın qarşılaşdığı ən qorxunc şirnikləndirməni vücuda gətirən məhz modern elmdir.

Supra-dünyanın, metafizik ənənələrin itkisi, bölünmə, laisizm, naturalizm və qalib rasionalizm prosesləri insan və reallıq arasındakı münasibətlərdə olduğu kimi, cəmiyyət, dövlət və əxlaq domenlərində də indentikdir. Tradisional institutlar və onların ehtiva etdiyi iyerarxik münasibətlər aradan qalxdığı zaman ortaya çıxan nəticə sterilləşən aristokratiya və spiritual olaraq daşlaşmaya uğrayan demos olur. İyerarxik düzənin və stabilliyin, transsendental dimensiyanın çatışmadığı dünyanın yox olması – tradisional dəyər, institut və hakimiyyətin rəddi sayəsində sadəcə dini məsələlərdə deyil, eləcə də siyasi sahədə fərdin radikal atomlaşma mərhələsinə qədər degenerasiyası - mütləqdir. Total sekulyarlaşma nəticəsində spiritual hakimiyyətə qarşı üsyanı dünyəvi hakimiyyətə qarşı üsyan izlədi. "İnsan hüquqları" və bütün in-

sani varlıqların azadlıq və bərabərliyi iddiası, silk ideyasının mütləq şəkildə ləğvi (silk artıq sosio-iqtsiadi şərtlərdə "funksional sinif" olaraq düşünülməli idi), libertarianizmin təhriki ilə tradisional sosial strukturların parçalanması – bu prosesə daxildir. Silksiz, sərbəstləşdirilmiş (emansipasiya) qul və mədh edilən *paria* (modern "azad insan") qarşısında digər silksizlərin formalaşdırdığı kütlə və bu kollektivliyin amansız hakimiyyəti var idi. Bu dezinteqrasiya prosesi davam etdikcə ortaya çıxan – şəxsdən anonimliyə, sürüyə, saf, xaotik və qeyri-orqanik kəmiyyətin səltənətinə doğru reqressiya oldu. Elmi təşəbbüsün ən başdan bəri xüsusi fenomenlərin müxtəlifliyi və çoxqatlılığını yaratmağa çalışması kimi, (yalnız metafizik bilik kontekstində mövcud olan daxili və həqiqi birliyi itirməklə) Modernizm də yaşayan ənənələrdən və müqəddəs qanunlardan ibarət olan qədim cəmiyyətlərə məxsus transsendental birliyi fərdlər arasında heç bir orqanik bağın və ya ali prinsip yaxud fiqurun olmadığı zahiri, anodin və mexaniki birlik ilə əvəzlədi. Son nəticədə isə, "ictimai güclərin" qeyri-şəxsi və düzləşdirici sisteminin hökmranlığında essensial olaraq maddi mövcudiyyət şərtlərinə və sadəcə sosial həyatın müxtəlif faktorlarına əsaslanan yeni kollektiv formalar ortaya çıxdı. Bu kollektiv formalar tezliklə fərdiyyətçiliyi də aradan qaldıraraq özlərini ya demokratiyalar, milli dövlətlər, respublikalar kisvətində ya da açıq diktatorluqlar şəklində təqdim edərək müstəqil, alt-insani (subhuman) qüvvələr tərəfindən dəstəklənməyə başladılar. Modern Avropa plebeylərinin ortaya çıxışının həlledici epizodu Fransa İnqilabı oldu. Bu inqilabı öyrənərkən plebey qüvvələrinin onları təhrik edənlərin nəzarətindən necə qaçdığını aydın görmək mümkündür. İnqilab başlar-başlamaz öz liderlərini bir-bir məhv etdi. Real şəxsiyyətlərdən məhrum olan bu inqilabi ruh özünün təcəssümü olan liderləri avtomatlaşmış obyektlər kimi irəli sürürdü. Onlar inqilab tərəfindən qarşıya qoyulmuş məqsədlərə xidmət etdikcə kütləni izləyir və onları hərəkətə gətirirdilər. Lakin, bu liderlər kütləyə rəhbərlik etmək və onları dayandırmaq istədiyi zaman kütlənin yıxıcı gücü dərhal onları hədəfə alırdı. Fransa inqilabının spesifik cəhətləri onun yayılma sürətində və bu sürət daxilində qarşıdakı əngəlləri bir-bir və amansızca aradan qaldırmasında gizlidir. Bu cəhətlərdə aydın görünən,

insanları sadəcə alətlər kimi işlədən qeyri-insani elementin və *sub-personal* reallığın mövcudiyyətidir[155]. Eyni fenomenə modern cəmiyyətin dominant aspektlərində, müxtəlif forma və dərəcələrdə rast gəlmək mümkündür. Siyasi olaraq strukturların anonim xarakterləri qədim populyar tiraniyalarla bənzərlik təşkil edir. Şəxsiyyətlərin populyarlıq qazanması üçün *demos* daxilində irrasional qüvvələri oyatmaq kifayətdir. Autentik, ali spiritual prinsiplərdən məhrum olan bu liderlər oyatdıqları kütlə üzərində yalnız illüziyonar dominiona sahib ola bilirlər. Total çöküşə səbəb olan bu akselerasiya prosesi fərdiyyətçilik və rasionalizmin mistik hipertonlarla xarakterizə olunan irrasional və elemental qüvvələr tərəfindən boğulması ilə nəticələnir. Kultural sahədə də bu reqressiya "ziyalıların xəyanəti"[156] ilə ifadə olunan təlatüm ilə xarakterizə olunur. Plebey realizmini mədh edən bu liderlər ona mistisizm, əxlaqi və dini don geydirmişdilər. İnsan daxilindəki inferiyor elementlər onun bütün mümkünlüklərinin mənbəyinə çevrildi. İnsan əxlaqi və spiritual həyatının tamlığını məhz bu elementlərdən ala bilərdi. Beləcə, kütlələrin instinktləri və ehtirasları güclü doktrinal, fəlsəfi və dini haqlılıq qazanmağa başladı. Bütün transsendental prinsiplər insani və sosio-siyasi prinsiplər ilə əvəzləndi. Bütün insani qabiliyyətlərin sistematik formada naturalistik araşdırmaya tətbiq edilməsi ilə ortaya çıxan dünyəvi elm özünü gerçək elm olaraq təqdim edirdi. Transsendental dəyərlər və ənənələrə qarşı rasionalizmin yanında yer alan bu elm özünü həyatın, iqtisadiyyatın, sənayenin, istehsalın və rifah ehtirasının material ehtiyaclarının xidmətinə qoydu.

Qanun və əxlaq sistemləri sekulyarlaşdıqca onlar hər bir spiritual səbəb və məqsədlərini itirməklə yalnız sosial və insani mahiyyət "qazandıqları" üçün artıq "yuxarıdan aşağıya doğru" deyil, "aşağıdan yuxarıya doğru yönləndirilir. Modernizm əsrində əxlaq normaları və qanunlar yalnız kollektivin üzvü olan fərddə öz ilkin dəyərini tapır. Bu asefal fərd öz xoşbəxtlik və müqəddəratını kollektivin müqəddəratı ilə eyniləşdirərək sosial olaraq "uyğun olmayan" hər bir fəaliyyət formasını "yadlaşma" və ya "dekadensiya" olaraq pisləməlidir.

155 Joseph de Maistre – "Considérations sur la France", Librairie de la Société bibliographique, Paris, 1880, p, 18-23

156 Juılien Benda – "The treason of the Intellectuals", Transaction Publishers, New Jersey, 2007

Təşkilatlanmış plebeylərin xidmətində olan bu kollektivlər planetar işğal yolundadır. Buna görə də, total dezinteqrasiya prosesində mütləq çöküş yaşayan fərdiyyətçilik artıq yalnız burjua ədəbiyyatının solğun və gücsüz "humanizminin" qalıqlarında mövcuddur. Bu prinsipə əsasən insan özünü bir qrupun, fraksiyanın, partiyanın və yaxud kollektivliyin bir parçası olaraq hiss etməli və yalnız birliklər ilə münasibətdə müəyyən dəyərə sahib olmalıdır. Biz burada primitiv insanın öz tayfasının toteminə olan münasibətinin – fetişizmin ən pis formasının reproduksiyasını görə bilirik.

Ümumiyyətlə, modern insan "being" sivilizasiyasından "becoming" sivilizasiyasına keçidin tərəqqiyə doğru real addım olduğunu düşünür. Tarix adından (historisizm) reallığın sadəcə dünyəvi aspektinin valorizasiyası bu dəyişikliyin nəticələrindən biri oldu. Metafizik kökləri ilə bağlığını itirən modern insan "təkamül" və "tərəqqi" adı ilə "irəliyə doğru qaçışın" anlamsız, qeyri-müəyyən və daima sürətlənən hərəkəti modern sivilizasiyanın əsas xarakterik cəhətinə çevrildi. Zamana tətbiq edilən bu batil mifologiyanın rüşeymlərinə Yəhudi-Xristian eskotologiyasında, eləcə də Xristian Vəhyinin "yeniliyini" valorizasiya edən Katolik apologetiklərində rast gəlmək mümkündür. (Məsələn, IV əsrdə yaşamış tanınmış ekkleziastik fiqurlardan biri olan Aurelius Ambrosisusun Roma ənənəsinə qarşı tənqidində tərəqqi nəzəriyyəsinin erkən formulasiyasını görə bilərik). Renessans tərəfindən təşviq edilən "insanın yenidən kəşfi" Maarifçilik və sientizmə qədər bu rüşeymlərin inkişafı üçün "məhsuldar təbii ekosistem" hazırladı. O zamandan bəri, təbiət elmləri, texnologiyanın və ixtiraların təlqinedici inkişafı əslində insan ağılını distraksiyaya məruz qoymaqla onun bütöv hərəkatın təməl və essensial mənasını dərk etməyinin qarşısını alan opium kimi fəaliyyət göstərdi. "Özündə varlıq" tərk edildi və spiritual mərkəzin aradan qalxmasından sonra o özündən daha güclü *becoming* axını ilə eyniləşdirildi. Proqressivizmin ən sərt formasının qeyri-real ideyalarının gerçəkliyi ortaya çıxdığı zaman həyatın və "élan vital"-ın yeni dinləri, Faustian fəaliyyət və mifi özünü göstərməyə başladı. Bu "yeni dinlər" və miflər həm insan, həm də bütöv mövcudiyyət üçün özlüyündə bir dəyər qazanan tərəqqiyə doğru hərəkatın dayandırıla bilməyə-

cəyi və yalnız təşviq ediləcəyini təmin edən yeni intellektual "həblər" funksiyasını icra edirdi. "Being" sivilizasiyasının aradan qalxması özünü burada aşkarca göstərir. Bu kataklizm nəticəsində sivilizasional mərkəz tradisional dünyada hər zaman inimikal qüvvə olaraq dərk olunan inferiyor regionun elemental hakimiyyətinə doğru dəyişdi. Tradisional dünyada daha ali mövcudiyyət istəyində olan insanın başlıca vəzifəsi (Olimpiya-qəhrəman miflərində olduğu kimi) gücü bir formaya, dominion-a və ruhun tərbiyəsinə tabe etmək idi. Transsendental bilik və spiritual azadlıq istiqamətində yönələn tradisional insani enerji iyerarxik iştirak sistemini yaratmaqla, ali ləyaqət və məziyyət anlayışlarını təsdiq edirdi. Lakin, modern dünyada *yeni* sivilizasiyaya keçid ilə bu enerji *becoming* qüvvələrinin ritmini dəstəkləməyə, təşviq etməyə və sürətləndirməyə başladı. Bu əsasla, biz modern dünyada supra-individuala (fərdüstü, Olimpiya asketizminin qədim mümkünlüklərində olduğu kimi) doğru deyil, sub-individuala (alt-fərdə) doğru yolun mövcud olduğunu müşahidə edə bilərik. İrrasional və kollektiv element tərəfindən insan şəxsiyyətinin sarsılan strukturlarının istilası daha geniş vüsət qazandı. Müqəddəsə və Müqəddəsliyə doğru istinadların total şəkildə yox oluşu və elemental-irrasional qüvvələrin insanlar tərəfindən absorbsiyası ilə qədim Dionisizm ilə analoji olan frenetik elementin mövcud olmadığı hər hansı bir sahə qalmadı. Əbədi olana yüksəliş ilə əldə edilən *zamana spiritual olaraq üstün gəlmə* bugün modern texnologiyada işlədilən sürət, anilik və eyni zamanda baş vermə (simultaneity) tərəfindən istehsal olunan zamana mexaniki və illüziyonar "üstün gəlmə" ilə əvəz olundu. Özlərini şərtləndirən zamanın bir hissəsi olaraq görməyənlər "*becoming*"in axınında boğulanları aydın müşahidə edə bilirlər. "Becoming"in içərisinə qərq olanların bildiyi yalnız həyəcanlanma, vertigo, konvulziv sürətlənmə, təlaş və hay-küyün əsarətində bir "həyat yaşama", ifratların ifratlaşmasıdır. Onlar sürəti sürətləndirməklə, zaman müddətini və intervalları dağıtmaqla məsafələri aradan qaldıraraq aniliyə daxil olur və beləcə daxili vəhdətin real dezinteqrasiyasına məruz qalırlar. Varlıq və stabillik müasirlərimiz tərəfindən ölümə bərabər olan fenomenlər kimi görülür. Onlar *hərəkətsiz*, özlərini bu və yaxud digər bir şeylə məşğul etmədən - konstant

yayındırma olmadan yaşaya bilmirlər. Onların ruhu qaranlıq qüvvələrin reinkarnasiyası üçün bir vasitə olmaqla yalnız dinamizm və hay-küylə qidalanır.

Modern dünyanın Cənubun ginekokratik[157] sivilizasiyalarının dəyərlərinə qayıtdığını qeyd etmək mütləqdir. Sosializm və liberalizm Ana Yerdəki bütün varlıqların bərabərliyə və onların qeyri-orqanik, iyerarxiyasız "strukturuna" əsaslanan qədim terrestrial-Cənub prinsipinin materiallaşmış və texnolojiləşmiş dirçəlişidir. Afrodistik ginekokratiyada olduğu kimi modern dünyada da spiritual kişiliyin predominant idealı sadəcə fiziki və fallik komponentlərə endirilib. Fransa inqilabı ilə zəfər qazanan və millətçi ideologiyalar ilə daha da rəvac tapan hər şeyə qadir Ana Vətənin plebey hissi ümumi xalqın mistisizmi olaraq qədim qadın totemizminin bir formasının oyanışından başqa bir şey deyildi. Demokratik rejimlərdə kralların və dövlət başçılarının real muxtariyyətdən məhrum olmaları Ata suverenliyinin mütləq prinsipinin itkisinin və Anada – demosun substansiyasında var olan "prinsipin" qayıdışının sübutudur. Hetaerizm və Amazonizm yeni formalarda – ailənin dezinteqrasiyasında, modern sensuallıqda, qadın və ani seksual tətmin üçün arasıkəsilməz və bulanıq axtarışda, qadının kişiləşməsində, onların emansipasiyasında və hissələrinin köləsi olan kişilər üzərindəki üstünlüyündə özünü göstərir. Dionisus maskası ilə əlaqədar olaraq əvvəl də dayanmadan hərəkətlilik və *becoming* fəlsəfəsi ilə bağlı qeyd olunduğu kimi, bugün biz qədim Aralıq dənizi sivilizasiyasında baş verən dekadensiyanı eyni şəkildə amma daha inferiyor formalarda modern dünyada müşahidə edirik. Dünyanın məhrumiyyət çəkdiyi sükunətli və iffətli Demetrian mümkünlüyüdür. Pozitiv dinin üstünlüyü əvəzində, bugün Qərbdə görülən yalnız təhtəlşüurun önəmini vurğulayan və panteist, materialist mistisizmlərlə xarakterizə edilən mediumist, neo-spiritualist və neoteosofikal cərəyanlara məxsus qaranlıq evokasiyaların (evokasiya – ruh çağırma, zehində oyandırma) simptomlarıdır. Bu axınlar epidemik yolla dünyəvi və inferiyor mövcudiyyətin pik həddə çatdığı, Protestantizmin dini idealları sekulyarlaşdırdığı və sterilləşdirdiyi hər yerdə (əsasən də Anqlo-Sakson ölkələrində) sürətlə böyüyür və çoxalır.

[157] Gineokokratiya və ya ginarxiya – despotik qadın hakimiyyəti

Keçən əsrin ikinci yarısından etibarən gerçək transsendensiya və ali asezis dəyərlərini bir kənara qoyan Katolisizm siyasiləşməyə və "proqressivizm" yoluna qədəm qoymağa başladı. İkinci Dünya müharibəsindən sonra Avropada Xristian Demokrat hərəkatlarının Kilsə tərəfindən gizli konsekrasiyası tamamilə sekulyar ideologiyalara məxsus materialist və immanentist şərtlərdə başa düşülən "sosial tərəqqiyə" böyük aspirasiya nümayiş etdirən Papa Ronkallinin (Papa XXIII İohann, 1958-1963) zamanında zirvə nöqtəsinə çatdı. Papa Ronkalli Konsilium planında "rifah və maddi-sosial tərəqqinin əxlaqi və spiritual tərəqiyə yol açdığını" təsdiq edirdi. Sürətlə sosialistləşən Xristianlıq klassik dünya və sivilizasiyalara münasibətdə eqalitar inqilabi fermenti təmsil etməyə başladı. Özünü plebeylərin, kütlələrin bayağı emosiyaları və ehtiyaclarına endirən Xristianlığın "yaxşı xəbəri" köhnə qitənin bütün sivilizasional dəyərlərinin inversiyasından ibarət oldu[158]. Nəticədə, Katolisizmin determinativ superstrukturu aradan qalxdı və primitiv Xristianlığın qarışıq, anti-iyerarxik, "sosial" və anti-aristokratik substratası ortaya çıxdı. Bu substrataya doğru reqressiya "zamanla ayaqlaşmaq", "modern sivilizasiyanın tələblərinə uyğun özünü yeniləmək" üçün ən yaxşı vasitə idi. Bu kontekstdə, Jak Mariten[159] və Emmanuel Munie kimi fransız filosoflarının "Xristian ruhu "sosial" hərəkatlarda və sosialist əməkçilərdə yaşayır" sözləri təəccüb doğurmamalıdır. Adları qeyd edilən filosoflar Katolisizmi sientizm (elmiçilik), təkamülçülük və tərəqqi mifi ilə barışdırmağa çalışan və kitablarının nəşrinə Kilsə tərəfindən heç vaxt icazə verilməyən yezuit Teyard de Şardenin davamçıları idilər.

Xristianlıq və Qərb arasındakı sintezisin ifadə etdiyi mahiyyəti və məzmununa diqqət yetirilməlidir. Burada bəhs edilən Xristianlıq və Qərb arasında sinonim (sive) deyil, alternativ (aut aut) münasibətdən bəhs edilir. Xristianlığın Qərblə münasibəti bir *aut aut*-dur. Bu münasibətin təməlində isə Katolik neofundamentalizmi dayanır. Qərb sivilizasiyası istehlak kultu,

---

[158] J.Evola – "Recognitions: Studies on Men and Problems", chapter XIV, Arktos Media Ltd., 2017

[159] "İnsan hüquqlarının universal bəyannaməsinin" həmmüəlliflərindən biri olan J.Mariten humanizmin aksiomlarını bütövlükdə Kilsənin Xristian doktrinalarından əldə etməyə çalışırdı. O həmçinin Xristian-Denokratik hərəkatının öncül üzvlərindən biri idi.

hedonizm, mədəniyyətlərin qeyri-plüralist plüralizmi və spiritual mərkəzin yoxluğu ilə sinonimdir. Bu tezisi qəbul etməklə, paradoksal olaraq, Katolik neofundamentalizmi Xristian ənənəsi perspektivindən Modernizmin real muxtariyyətini müdafiə edir. Bu tezisin ən məşhur formulasiyalarından biri "Modern əsrin legitimliyi" əsərində Hans Blümenberq tərəfindən verilir. Modernizmi Yəhudi-Xristianlığın sekulyarlaşmış divaqasiyası olaraq dərk edən Karl Lövit kimi Blümenberq də qeyd edir ki, Modernizm metafizik və spiritual perspektivdən özünü tamamilə yeni dəyərlər əsasında müəyyən edir. Bu dəyərlər, dünya üzərində insani varlığın yeni xarakteri (Maarifçilik, XIX əsr historisizminə aid baxışlar və Hegelin Fenomenologiyası) olaraq cəmləşdirilə bilər[160]. Bu yeni insani xarakter hər hansı utopiyadan müstəqil şəkildə reallığın rasionallığa uyğun olaraq orqanizasiyası iradəsində özünü əks etdirir. Bu perspektivdən, Ptolomey insanı Eynşteyn insanı ilə qarşılaşdırılır: Ptolomey özünü kainatın mərkəzinə yerləşdirsə də, onun mövqeyi bir *Yaradıcının* hakimiyyəti ilə dəstəklənirdi. Heliosentrik nəzəriyyəni belə darmadağın etməklə mərkəz anlayışından tamamilə qopan Eynşteyn insanı üçün elmi ağıldan daha ali nə metafizik, nə də spiritual hakimiyyət var.

Modernizmin yeni və muxtar legitimliyi ilə bağlı tezis insanın mütləq şəkildə azadlığına, onun orijinallığı və yaradıcılığına əsaslanan yeni, radikal baxışı özündə ehtiva edir. Qərb sekulyarlaşmış Xristianlıqdan başqa bir şey deyil. Əgər biz dəqiq müəyyən edilmiş tarixi-kultural varlıqlar olaraq modern Avropa, Modernizm yaxud Qərb anlayışlarından sinonim olaraq bəhs ediriksə onların yalnız Yəhudi-Xristian irsinin sekulyarlaşmasından doğan anlayışlar olduğunu qəbul etməliyik. Qərb və Xristianlığın ekvivalentliyi iki xüsusda özünü göstərir: Öz kultural identikliyini təsdiq və təsbit etmək tələbini hiss edən Qərb sekulyarlaşmış formada ümumi Xristian mənşəyindən başqa heç bir birləşdirici və ya identifikasiyaedici elementlərə sahib deyil. İkincisi isə, epoxamızın dini oyanışında özünü əks etdirən Xristian vitalizminin Xristianlığın Qərb olaraq yenidən canlanmasından başqa bir şey olmamasıdır. Bu baxımdan Avropada milli sərhədlərin siyasi olaraq

[160] Gianni Vattimo–"Dopo la Cristianita. Per un Cristianesimo non religioso", Garzanti, Italia, 2002, p, 76

aradan qaldırılması məhz sekulyarlaşmış Xristian dünyabaxışının əksidir. Kommunizmin çöküşündən sonra "vahid Avropa" düşüncəsinin yüksəlməsi ilə Xristianlıq da xüsusi bir impetyus qazandı. Avropanın Kommunizmdən azadlığında və bərpasında Papanın həlledici iştirakı bu geniş və ümumiləşmiş fenomenin bir simptomudur.

Bugün, Qərb yaxud Modernizm yalnız elmi, iqtisadi və texnoloji rasionallıq sivilizasiyasıdır. Veberin bizə öyrətdiyi və a*d infinitum* olaraq təkrar edilən bu rasionallıq planetin heç bir mədəniyyətində mövcud olmayıb (hətta eyni maddi şərtlərə sahib olunsa belə). Çünki Yəhudi-Xristian ənənəsi məhz Qərbdə "fəaliyyətdə" idi. Monoteizm təbiət üzərində texnoloji dominasiyasının *sine quo non* bazisidir. Xristian etikası, hər şeydən əvvəl Protestant etikasına görə, iş, qənaət və iqtisadi uğur dini imperativlər olaraq düşünülür və onların dərin, total təəhhüd yaratmaq qabiliyyəti vurğulanır. Veberin, kapitalizmi Kalvinist etikadan doğan bir nəticə olaraq qeyd etməsi kimi, Kolin Kempbel də öz kitabında bildirir ki, modern istehlakçılıq Xristian özəyinin sekulyarlaşmasının nəticəsidir. Kempbellə görə, istehlak maniası sadəcə reklam vasitəsilə zövqlərin və gözləntilərin manipulyasiyası arqumenti perspektivindən izah edilə bilməz. Konsyumerizmi izah etmək üçün yeniliyə doğru gərgin arzu və fantaziya tendensiyası ilə xarakterizə olunan Avropa mentalitetinin dərin transformasiyasını tədqiq etmək mütləqdir. Onun tezisinə görə, bu mentalitetin səciyyəvi cəhətləri Romantizmdə təsdiq olunmaqla Veberin kapitalistinin, Xristian dininin sekulyarlaşmasının effektlərinə uyğun şəkildə özünü göstərir[161]. Reformasiyanın ortaya çıxması və Modernizmin doğuşu Xristian həqiqətlərinə olan *həqiqi* inancı zəiflətməklə görünəbilən gündəlik reallıqlar ilə identik olmayan *digər dünyalara* doğru meyilliliyin formalaşmasına səbəbiyyət verdi. Dolayısı ilə, Modernizm və modern kapitalist istehlakçılıq "Romantik" təfəkkürün (hətta bayağı anlamda) doğuşu ilə sıx bağlıdır. Buna görə də, tarixinin mahiyyəti "metafizik varlığın qürubunu", obyektivliyin dissolyusiyası prosedurаları vasitəsilə reallığın təməlliliyinin

---

[161] Colin Campbelle–"The Romantic Ethic and the Spirit of Modern Consumerism", (Alcuin Academics, Great Britain, 2005)

azalmasını təmsil etdikcə Qərb essensial olaraq Xristiandır[162].

Batan günəşin Avropası nə Heraklitian Yunan, nə İmperial Roman, nə Faustian Alman, nə Druidist Kelt, nə də ki monist Slavyan mənşəyini təcəssüm etdirir. Eqalitarian ideologiyanın katastrofik inkişafında bir neçə müasir teoloqların Yəhudi-Xristianlığı təmizə çıxarmaq və onun məsuliyyətliliyini minimallaşdırmaq cəhdləri heç bir faktı dəyişdirə bilməz. Universalizmin həm intellektual, həm tarixi, həm də siyasi və sosial inkişafında Yəhudi-Xristianlığın oynadığı rol onun Avropada irq və aristokratik tərbiyəyə qarşı əsl anti-Aryan hərəkatı olduğunu ortaya qoydu. Yəhudi-Xristian Avropası paqan politeist toleranslığına, orqanik fəlsəfə və orqanik demokratiyaya, qeyri-eqalitarian mentalitetinə, şərəf etikasına, Xalqlarının Hüququnun, tarix və müqəddəratın etno-kultural şüuruna məxsusluğa qarşı kəskin antipatiyası ilə Yunan, Romalı, Alman, Kelt yaxud Slavyan ola biləcək "Homo Europeus"un Hind-Avropasının əks dünyasıdır. Bir xalqın matriksi olan *Avropa* Avropalıların düşüncə modellərində yenidən yaradıla və onların tarixinə əzəməti və ehtişamı yenidən qaytara bilər. Qərb nə bir xalqdır, nə də ki bir mədəniyyətdir. Qərb sadəcə bir texno-iqtisadi sistem, Yer kürəsinin coğrafi və mental işğalının *status-kvo*-sudur. Fransız sosioloqu Gilyom Faye bildirir ki, "Qərb" ABŞ tərzi liberal kapitalizmin transmilli sisteminə bağlanmış ideoloji konseptdir. Onun ümumi Yəhudi-Xristian mənşəyinə əsaslanaraq qurulan sivilizasiyası universalizm və eqalitarianizmi idarə edən bütün ideoloji xəttlərin ifadəsidir. Dominik Venner də vurğulayır ki, "Homo Europeus"un paytaxtı Afina, Qərb insani - "Homo Occidentalis"in paytaxtı Yerusəlimdir. Afina, təbii düzənin əbədi qanunlarına tabe olan ilahi iradəni, Yerusəlim isə bu düzəni yaradan Allahın mütləq iradəsini təmsil edir[163].

Modernizm əsrində formalaşan ideoloji cərəyanların tərəqqisi kolonializm və kapitalizmdən süzülərək *Homo Oeconomicus*-un libertarian və atomist fərdiyyətçiliyindən (identitarian mənsubiyyətlərindən ayrılmış fərdin antropomorfik inkişafının sekulyar proyeksiyaları) Marksizm və kollektivizm

[162] Gianni Vattimo – "Dopo la Cristianita. Per un Cristianesimo non religioso", Garzanti, Italia, 2002, p, 82

[163] Dominique Venner – "Un samouraï d'Occident", Le Bréviaire des insoumis », Pierre-Guillaume de Roux, Paris, 2013, p,91

modellərinə (Kommunizmin cəmiyyət modeli öz replikasını məhz Xristianlığın ruhundakı sinifsiz cəmiyyət modelində tapdı) qədər izlənilə bilər. Yəhudi-Xristianlıq ilə Qərb sivilizasiyası arasındakı spiritual yaxınlıq ənənəvi Bibliya mif-temlərini ideyalar və dəyərlərin ideologemlərinə transpozisiya etdi. İlahi qüvvənin polimorfik və polisemik fiquralarını yalnız bir Allahın, avtokratik varlığın və bəşəriyyətin mütləq "Mən"inin təkmənalı fiqurasına tabe edən Yəhudi iradəsi ilə eyni iradədən ilham alan və dünyanın bütün irqi, kultural polimorfizmini "Homo Occidentalis"in təkanlamlı fiquruna reduksiya edən insan hüquqlarının sekulyarlaşmış monoteizmi bu spiritual yaxınlığı bariz bir şəkildə ortaya qoyur. Yulis Evolanın təbiri ilə desək, *Homo Occidentalis* "atomlar və kütlələr aləminə qərq olmuş amorf, kolloid, qeyri-spiritual və ontologiyasız bir *varlıqdır*". Öz despotizmində tayı-bərabəri olmayan, yaradılışı etibarilə ən qısqanc, hakimiyyət və qanunlarında inadkar, istədiyi güc icrasında insan üçün əlçatmaz olan Bibliya ehkamının mütləqiyyəti və öz hakimiyyətində eyni dərəcədə inadkar, qanunlarının despotik tətbiqatında eyni dərəcədə dözümsüz və aqqressiv insan hüquqları ideologiyası ilə Yeni Dünya Düzənin silahlı totalitarizmi arasında kəskin bənzərlik mövcuddur. Bu, Yəhudi-Xristianlığı və Qərb sivilizasiyasının eyni spiritual kökə məxsus olduğunu göstərir. Bibliya monoteizminin universalist çağırışı və fundamental olaraq bundan qaynaqlanan messianik təbiəti öz intişarını Qərbin yüksələn etnosentrizmində tapdı. Çünki, Yəhudi monoteizminin eskatoloji messianizmini insan hüquqları və eqalitarian universalizmin sekulyarlaşmış messianizminə transpozisiya edən məhz Qərb etnosentrizmidir. Yeni Dünya Nizamının emissarları fərdlərin özəl sferasına (media, televiziya kanalları, reklamçılıq, proqramlar, dəb və s.) daxil olmaqdan ibarət olan "soft" metodlardan, bəzən də leqal məcburiyyət, polis zorakılığı və hərbi təcavüz də daxil olmaqla "hard" metodlardan istifadə edərək məhz bu sekulyarlaşmış messianizmi və eqalitarian universalizmi bütün dünya xalqlarına təlqin etməkdə qərarlıdırlar. ABŞ himayəsi altında Yeni Dünya Nizamı essensial olaraq təbii müxtəliflikləri qətl edən beynəlxalq sivilizasiyaya – qlobal supra-cəmiyyətə siyasi və kultural olaraq boyun əyməyi rədd edən istənilən xalqın müqavimə-

tini tarixdə misligörülməmiş bir sistematik formada məhv etməyə fokuslanıb. Onlar, başqa bir müqəddərat, tamamilə başqa həyat konsepsiyası, İlahi varlığın, dəyərlərin və insanın başqa bir formada qavrayışı ilə xoşbəxt olan xalqlardır. Beləcə, insan hüquqları doktrinası dünyanın bütün xalqları üzərinə elan etdiyi ölümünə mübarizədə Qərbin ideoloji *alibi* funksiyasını icra edir.

Qərb, başlanğıcından sonuna qədər Avropa ruhunun daşıdığı bütün siyasi və kultural ifadələrə əzmlə nifrət duyan tarixi-dini ənənənin davamının bir parçasıdır. Xüsusən də, *Sibylline Kitablarında*[164] Avropa mədəniyyətinin lənətlənməsi kulminasiya həddinə yüksəlir. "Sənə İtaliya, xarici müharibə gəlməyəcək, acınacaqlı qəbilə müharibələrinin tükənməyən qanı səni gücsüz və viran qoyacaq. Hələ də isti küllərin arasında qalaraq, sən özünü ölümə təslim edəcəksən. Sən, Tanrısız insanların anası olacaqsan". Yəhudi messianizmi bütün insanların həyat bələdçisi olmağa çağırdığı peyğəmbərləri üzərinə sanki bir imperialist arzu diktə edir. *Talmud*-da qeyd olunur: "Öz oğluna Yunan müdrikliyini öyrədən insan lənətlənsin". Monoteizmin "pruritus"u Qərbin "pruritus"una transformasiya edilib. Müxtəlifliyi və müxtəlif düşüncələri qadağan etməklə homogenləşdirici məntiqin mental strukturları tərəfindən absorbsiya edilən Avropa Afinanın aydın təsəvvüründə ehtiva olunan intellekt vasitəsilə nə varlıqların işıldayan canlılığını, nə də ki planetar etno-kultural reallıqları görə bilir, çünki o, yaradıcı üslubda varlıqları orqanik olaraq görə bilməyin Yunan məziyyətini itirib. Onun təbiətə verdiyi baxış artıq özünü dünyanın partnyoru olaraq kəşf edən və bunu hiss edən insanın canlı baxışı deyildir. Bu, özünü bəşəriyyət və onun elementləri ilə birləşdirən sinir lifini sakralizasiya edən ruh və qanın "Weltanschauung"u, dünyaya baxışı deyildir. Çünki məhz Bibliyanın Allahı bu sinir lifini qıraraq onu aradan qaldırdı. İ.V.Höte bildirir ki, Allah və təbiət ilə separat şəkildə məşğul olmaq çətin və

---

[164] *Oraculum* kimi istifadə edilən və müxtəlif müəlliflər tərəfindən yazılan Sibillin kitabları arasında Üçüncü və Beşinci Kitab İsgəndəriyyədəki yəhudi müəlliflər tərəfindən yazıldığı üçün Yəhudi Sibillin Kitabları adlanır. "Roma Allahın mühakiməsi ilə məhv ediləcək, çünki o, ədalətin düşməni kimi Allahın məsum xalqının övladlarını qətl etdi. Bununla, onlar səmavi Allahın lənətini tanıyacaqlar". Bu Kitablar Aryan-Roman dünyasının Asiya-Semit elementləri tərəfindən spiritual eroziyası və dezinteqrasiyasını özündə əks etdirən çox mühüm mənbə hesab edilir.

təhlükəlidir. Bu, bədənimiz və ruhumuzu separat varlıqlar kimi düşünməklə eynidir. Biz, ruhumuzu bədənimiz, Allahı isə təbiət vasitəsilə dərk edirik[165].

Bu, venal, texnomorfik, anonim və texno-elmi inspeksiyanın soyuq *dünyabaxışıdır*. Yəhudi-Xristianlaşmadan bəri bu faydalılıq (utilitarian) baxışı dünyanı artıq insanın məskunlaşa biləcəyi bir məskən olaraq deyil, Yehova tərəfindən verilən yiyələnmək gücü ilə insanların istismar etməli olduğu bir obyekt olaraq dərk edir: "Faydalı ol, dünyanı böyüt, yenidən doldur və tabe et"[166]. Yehovanın Nuh və onun oğullarına təkrar etdiyi bu əmr Avropa mentaliteti üçün dərk olunmazdır: "Sənin dəhşətin və qorxun Yer üzünün bütün heyvanları, bütün səma quşları, dənizin bütün balıqları üzərində olacaq. Onlar sənə veriləcək" (Genesis 9:2, King James version). Amerikalı tarixçi Linn Tovnsend Vayt özünün çox təsirli və bir o qədər də ziddiyyətli "Ekoloji böhranımızın tarixi kökləri" adlı məqaləsində vurğulayır ki, qədim paqanizmə və Zərdüştlük istisna olmaqla Asiyanın dinlərinə diametral paradoks təşkil edən Xristianlıq təbiət və insan arasında dualizm yaratmaqla yanaşı, insanın məhz Allahın iradəsi ilə öz məqsədləri üçün təbiəti istismar etməli olduğunu özündə ehtiva edir. Bu din insanın effektiv monopoliyasını təsdiq edərək təbiətin istismarına qarşı qədim qadağaları darmadağın etdi. Xristianlıq, təbii obyektlərin varlığının dəyəri hissinə etinasız qalaraq və qədim paqan animizmini (*animizm* – təbii fenomenə, cansız obyektlərə və bitkilərə ruhun verilməsi, maddi aləmi canlandıran və təşkil edən təbiətüstü qüvvəyə inanc) yox edərək təbii dünyanın belə sürətlə istismarını normallaşdırdı[167]. Qərb Xristianlığı dünyanın gördüyü ən antroposentrik (insan mərkəzli) dindir. O, Allahın surətində yaradılan insan ilə digər yaradılışlar arasında kəskin uçurum formalaşdıran və spirituallığı (paqan Avropa düşüncəsində mövcud olan) olmayan bir dindir. L.T.Vayt əlavə edir ki, insanların ekologiya haqqında etdikləri onların ətrafında mövcud olan təbii varlıqlar üzərində müna-

---

165 Alain de Benoist,– "On being a Pagan", translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004, p,173

166 Genesis 1:28, King James version

167 Lynn White Jr., – "Historical Roots of our Ecological Crisis", in Science, 10 March, 1967, p, 1203-1207

sibətlərindən asılıdır və yeni bir post-Xristian din tapmadan yaxud qədim dinimizi yenidən düşünmədən sadəcə daha çox elmi tətbiqat və texnoloji istifadə ilə ekoloji böhran həll edilməyəcək. "Çünki dəyişməli olan təbiət üzərində fundamental ideyalarımızdır. Keçici həvəslərimiz üçün dünyadan istədiyimiz kimi istifadə etməyə bizi qadir edən aşağılayıcı davranışları tərk etməliyik" – deyə amerikalı tarixçi qeyd edir. O, bütün yaradılışlara hörmət edildiyi və yaradılış üzərində insan hakimiyyətinin məhdudlaşdırıldığı "yaradılış demokratiyasının" təsəvvüründə bir model olaraq "ətraf mühitin qorunması üçün müqəddəs hamilik" yaradılması ideyasını irəli sürən XIII əsrin italyan katolik keşişi Assisili San-Françeskonu (Covanni di Pietro di Bernardone) dəstəkləyir. Bu himayə yaradılış birliyində insani varlığın digər bütün yaradılışlar ilə birlikdə spiritual yaxınlığına fokuslanmalı idi. Fransız sosioloqu Jak Ellül də qeyd edir ki, Xristianlıq təbiəti deyil, təbiətdən istifadəni müqəddəsləşdirdi: "İnsanın sakralizasiyaya doğru hərəkatının mənbəyi onun təbiət ilə münasibətlərində özünü göstərir. İnsan özünü təhdid edənə, özünü qoruyana, daha dəqiq söyləsək, özünü təbiət ilə ahəng içərisində mövcudluğa sövq edən qüvvələrə alt-şüuri və ya spontan şəkildə müqəddəs dəyər şamil edir. Təhdidedici və eyni zamanda güvənverici bir toallığa inteqrasiya edə bilən insanın bu toallıqdan separasiyası Modernizm əsrində baş verdi. İnsanın mövcud spiritual böhranının dərinliyi məhz bununla bağlıdır. Bu perspektivdən, tarixən Qərbdə iki cəhdi qeyd etməliyik. Paqan müqəddəsliyini müqəddəssizləşdirən Xristianlıq və Orta Əsrlər Xristian müqəddəsliyini müqəddəssizləşdirən Reformasiya. Yaradıcı Allah perspektivindən, Allahın sevgisinin inkarnasiyası və Tarixin Lord-u olan İsanın timsalında artıq müqəddəs dünya düzəni zəruri deyildi. Bibliya Vəhyində müqəddəsə nə yer var, nə də onun mövcudluğu üçün bir səbəb. Buna görə də, primitiv Xristianlıq Aralıq dənizi sivilizasiylarında həm hakimiyyətin, həm də təbiətin müqəddəsliyini tamamilə yox etdi[168]. Amerikalı teoloq Harviy Koks da "Sekulyar Şəhər" adlı kitabında bildirir ki, Yaradılışın Yəhudi-Xristian baxışı təbiəti Allahdan, insanı isə təbiətdən ayırdı. Bu, "dünyanın sehrinin pozul-

[168] Jacques Ellul – "New Demons", (Seabury Press Inc., New-York, 1975), p,58-59

ması" prosesinin başlanğıcı oldu. Lakin, qədim Orta-Şərq, xüsusilə də, Babil miflərində Günəş, Ay və ulduzlar Tanrıların ilahiliyini bölüşən yarı-ilahi varlıqlar olaraq dərk edilirdi. Lakin, Genesis Günəş və Ayın Yahveh tərəfindən yaradıldığını, onların Tanrılar yaxud yarı-ilahi varlıqlar olmadığını elan etdi. Təbii dünyanın bu *Entzauberung*-u təbiət elminin inkişafı üçün mütləq ön şərti təmsil edirdi. Bugünün texnopolisi məhz qeyd olunan *Entzauberung*-un və modern elmin nəticəsidir. İnsanın təbiətlə qorxmadan üzləşməsinə qədər heç bir inqilabi elmi nailiyyət mümkün ola bilməzdi. H.Koks onu da vurğulayır ki, fərqliliklərinə rəğmən, həm Xristianlıq, həm Liberalizm, həm də Kommunizm Təbiət üzərində bu qədim – tradisional baxışları rədd edərək onu texno-elmə tabe etməkdə identik rol oynadılar[169].

Dünyanın tabe edilməsi barəsində Bibliya əmri Yunan Tanrılarının Yerin mərkəzinə həbs etdiyi Titanları azad etdi. Bugün, onlar instrumental ağıl və faydalılıq ideologiyasının təbii nəticəsi olan istehsal çılğınlığının apokaliptik həyəcanı ilə ifrat sənayə yüksəlişi və tərəqqisinin "sənətkarları" olublar. Bu instrumental ağıl və faydalılıq ideologiyası insandan sarsılmaz sahibkar və istismarçı olmağı tələb edən bir Allah tərəfindən dəstəklənir. Bu kontekstdə, təbiətin insana qarşı çevrilməsi ilə nüvə holokostunun prenatal vibrasiyaları haqqında danışmaq mümkündür. Ekoloji fəlakətlər ilə bunun işarələrinin sürətlə artdığını göstərən Gerd Bergflet, "Təbiətin artıq cana doyduğunu və insan Titanından qurtulmağa meyilləndiyini" vurğulayır[170]. Yehovanın Titan həyəcanından radikal şəkildə fərqlənən Yunan Tanrılarının nəbzi Təbiətin varlığından impuls alırdı. Ən müqəddəs titrəyiş fövqəladə və sonsuz gücdən deyil, qarşılıqlılıq vasitəsi ilə insan və Tanrıları essensial, orijinal birlikdə birləşdirən dünyada təbii təcrübənin dərinliyindən qaynaqlanırdı. Yəhudi kosmoqonik konsepsiyasına, onun insan və təbiət arasındakı ittifaqı yox edən hər şeyə qadir Allahına tamamilə zidd olan Homerik poemalar insanlar, Tanrılar, heyvanlar və dünya arasındakı dostluq paktını təsdiq edirdilər. Əsas funksiyası insanı Yehovanın inkarolunmaz qanununa tabe etmək olan Yəhu-

[169] Harvey Cox – "The Secular City", Princeton University Press, 2013, p,29-30
[170] Pierre Krebs – "Fighting for the Essence", p, 46

di "logos"una qarşı olaraq, Homerin poemaları nə bir doqmanın, nə hər hansı vəhyin nə də bir fanatisizmin elçisi oldu. Yerə ağa olmaq və onun bütün canlı varlıqlarına qorxu və dəhşət saçmaq əsla Yunan dini perspektivində mövcud deyildi. Yunan baxışı insanlar və Tanrıların, dünyanın və Səmanın, suyun və havanın, ağaclar və heyvanların bütün zənginliklərini özündə ehtiva edirdi. Dünya, təbiət və insanlar arasındakı nəhəng bir parçalanma yaradan Bibliya Allahına köklü şəkildə müxalif olan Yunan dini ideyası öz məbədini canlılığı və hərəkətindən ilahi biliyin doğduğu dünyada yerləşdirirdi. Volter Otto qeyd edir ki, Yunanlar üçün günahsız və mütləq ədalətli vicdan mühakiminin qorxuducu aliliyi deyil, toxunulmamış təbii elementin təmizliyi və saflığı ən müqəddəs idi. İlahi qüvvə dağ çəmənliklərini qaplayan görkəmində, çay və dənizlərdə, hər şeyin üzərinə yayılan gülümsəyən şəffaflıqda nəfəs alırdı. Bu ruh hər zaman gerçək Avropa mentalitetində inkişaf edirdi[171]. Yalnız "Şərq ruhuna" və praqmatik hesablamaya tabe olması ilə Avropa düşüncəsi dünya ilə dostluq paktına məqsədli olaraq son qoydu. Qərbin "hubris"ində darmadağın olan bu Avropa Apollon və Afina, Dionisus və Artemis fiqurlarından qoparaq öz-özünə qarşı yadlaşdı.

*Entgötterung*-un (Entgötterung – Tanrısızlaşma, Tanrıların bu dünyadan köçü. Haydegger, Tanrısızlaşmanı modern əsrin beş müəyyənedici xarakteristikasından biri olaraq müəyyən edirdi) Haydeggerian qaranlığında daha ciddi bir şey var: hafizə itkisi ilə üzləşən Xristianomorfik Avropa öz *Verzauberung*-nu itirərək Xristianlaşmazdan əvvəl varlıqların və hadisələrin, obyektlərin və həqiqətlərin ana mənşəyi olaraq hiss etdiyi təbiətin dərin dəyərindən – bu dünyada bütün həyatın alfa və omeqasından məhrum olub. "Təbiət" ideyası Yunan fəlsəfi *logos*-u ilə birlikdə doğub. Ancaq, Yəhudi Bibliyası üçün "təbiət" termini məchul bir şeydir. Məhz bu reallığın vurğulanmasından sonra tərəqqi və modernizmin daim təkrar olunan ideyasına saplanan Qərb diskursunun Yəhudi mental arxaizmlərinin bir refleksiyası kimi hansı həddə intellektual və spiritual olaraq fosilləşdiyini dərk etmək olar. Linn T. Vayt bildirir ki, təxminən 1700 il yaşadığımız kimi, bugün də Xristian ak-

[171] Walter Friedrich Otto – "The Homeric Gods", NY, Pantheon, 1954, p, 81

sioması kontekstində yaşamağa davam edirik. Müasir dövrdə, Avropalıların gündəlik fəaliyyət vərdişləri Yunan-Roma və Şərq antikliyinə tamamilə zidd və yad olan, Yəhudi-Xristian teologiyasında kök salmış əbədi tərəqqi inancının hökmranlığı altındadır. Marksizm sadəcə bu ideyalar sisteminin daha da genişlənməsinə səbəb oldu. Bir Allahın dini mütləqiyyətini iqtisadiyyatın dünyəvi-maddi mütləqiyyətinə, eqalitarianizm ehkamını sinifsiz cəmiyyətin ideoloji postulatına və Tarixdən Xristian "çıxışını" tarixin sonunun sosial modelinə transpozsiya etməklə düşüncə modellərini hər zaman Yəhudi-Xristian matriksindən alan Marksizm onun bütün sekulyar attributlarını sintezisləşdirdi. Təbiətin dəyərini özünə qaytara, onu müqəddəs ilə yenidən birləşdirə, varlıqları həyatın hərtərəfli axınına cəlb edə biləcək olan yalnız Hind-Avropa intellektual modelləri və Təbiətin Hind-Avropa kosmik baxışı – "Indo-Europäische Weltanschauung"dur.

Eqalitarian dəliliyin tiskli nəticə etibarı ilə başladağı yerdə sona çatır: demokratiyanın orijinal Yunan dərkini alt-üst edərək *demos* dəyərlərinin siyasi eradikasiyasından onun *bioloji* eradikasiyasına. İnstitutlarının hüquqi devrilməsi ilə hazırlanan demokratiyanın siyasi olaraq təbiətsizləşməsi prosesi özlüyündə xalqları öldürmək üçün incə və kəskin bir maşın olan çoxirqli cəmiyyət planında identitarian sui-qəsdin konstitusiyalar tərəfindən təşviq olunacağı, qorunacağı və leqallaşdırılacağını müjdələyir. Çoxirqli olaraq xarakterizə olunan cəmiyyətlər irqlər yaxud etnik qruplar barəsində heç də tolerant deyillər, əksinə məhz bu cəmiyyətlərdə etnik qruplar və irqlərin bioloji eradikasiyası himayə ilə təşviq edilir. Çoxirqli cəmiyyət üçün səciyyəvi olan panmiksia vasitəsi ilə müxtəlif kultural paradiqmalar identitarian köksüzləşdirmənin eqalitarian və birformalılaşdırıcı qəlibi içərisində əridilib yox edilir. Çünki bu cəmiyyət reallıqda təbiəti etibarilə rasiofobik (irqlərdən qorxan) və kulturisidal (kulturaların qətli) cəmiyyətdir.

Xalqları və mədəniyyətləri illüziyonar "insanlıq" konsepsiyası ilə abstraktlaşdırmaq prosesi dayandırılmalıdır. Bayağı intellektin məhsulu olan bu konsepsiya xalqların ümumiləşdirilməsi və bəsitləşdirilməsində həlledici rol oynayır. Lakin, bilməliyik ki, planetimiz ziddiyyətli və çoxrəngli et-

no-kultural *insanlıqların* vücud inkarnasiyalarının, irqlərin, xalqların yaxud millətlərin orqanik sosial və kultural həyat reallıqlarında müşahidə olunan özünəməxsus, spesifik insanlarla qaynayır. Fransız Əks-Maarifçilik filosofu və demokratiyaya qarşı monarxiya hakimiyyətinin dəstəkiçisi olan Jozef de Mestr bu barədə bildirir: "Dünyada *insan* kimi bir şey yoxdur. Mən həyatımda fransızlar, italiyanlar, ruslar və s. görmüşəm. Monteskiyö ilə bildik ki, birisi fars ola bilər, ancaq mən elan edirəm ki, həyatımda heç vaxt *bir insan* ilə qarşılaşmamışam. Antik dövrdə də, "insan" anlayışı mövcud deyildi, Yalnız insanlar var idi: Yunalar, Romalılar, Barbarlar, Suriyalılar və s. Ağılımızda saxlamalıyıq ki, insan növlərinin qorunması onları təşkil edən essensial olaraq müxtəlif xalqların müxtəlifliyinin müdafiəsindən asılıdır. Etnik *thanatos*-u təşviq edən ideologiyalar planetar rəngarəngliyin məhvinə köklənib.

Xristianlığı "insanlıq üzərində ölümcül qara ləkə" adlandıran Nitzşenin hədəfində Avropanı alt-üst edən təlatümün əsas hissəsini təşkil edən bir dinin eqalitarian, monosentrik və monoteist aksioması idi. *The Gay Science* adlı əsərində də o, Xristianlığı insanlığın indiyə qədər üzləşdiyi ən böyük təhlükə adlandırır. Bugün, bu vəba son illərdə gerçək dekadensiyaya transformasiya olan bir böhranın getdikcə artan qorxunc nəticələri ilə Yəhudi-Xristianlığın, "Qərb sivilizasiyasının" *monstrum*-u tərəfindən transmissiya olunur. Monoteist *Singularis* və eqalitarian *Eyni* əslində eyni eqalitarianizmin, xalqların ruhunun eyni dəyərsizləşdirilməsinin və onların kulturasının kütlə kollektivində varlığının, tək və spesifik şəxsin eyni və əvəz oluna bilir fərdə deqradasiyasının, heterogen müxtəlifliyin standart və birformalı "Birinə" reduksiyasının müxtəlif formalarıdır .

# CİNSİYYƏTİN METAFİZİKASI VƏ SEKSUAL İNQİLAB

Tradisional təlimlərdə hər bir orijinal duallıq mövzusu cinslərin ziddiyyəti ilə bağlıdır və özünü hər yerdə təkrar edir. Bu bəzən özünü tam şəkildə metafizik şərtlərdə, bəzən isə ilahi və mifoloji fiqurların, kosmik elementlərin, prinsiplərin, Tanrılar və Tanrıçaların duallığı olaraq ifadə edir. Tradisional insan öz cinsiyyətinin sirri və essensiyasını ilahiliyin özündə tapmağa çalışırdı. Fiziki təcəssüm qarşısında cinslər supra-fərdi qüvvələr və transsendental prinsiplər olaraq kosmik, spiritual və müqəddəs *realm*-da mövcud idilər. Tanrılar və Tanrıçalar olaraq fərqliləşən ilahi fiqurların çoxformalı müxtəlifliyində kişi əbədi kişiliyin essensiyasını, qadın isə əbədi qadınlığın essensiyasını dərk etməyə çalışırdı. Çünki məhz bu, insani varlıqların əsk etdirdiyi və nümayiş etdirdiyi cinsi təbiət idi.

Cinsiyyətin metafizik dyadasının vurğuladığı fundamental ideya ondan ibarətdir ki, *universal yaradılış* və ya manifestasiya ali vəhdət daxilində prinsiplərin ikiqatlı şərti vasitəsilə baş verir. Prokreasiya (artma, çoxalma) ilə bağlı olaraq Aristotel qeyd edir: "Kişi spesifik formanı, qadın isə maddəni təmsil edir. İnsani varlıq qadın olduqda metafizik olaraq passiv, kişi olduqca isə aktivdir. Bu ziddiyyət bugün orijinal mənasında dərk edilə bilməyən Qədim Yunan fəlsəfəsinin konsepsiyalarında əks olunur. Kişi formadır, qadın isə maddə. Burada "forma" hərəkət və inkişaf prinsiplərini oyadan və müəyyən edən güc olaraq başa düşülməlidir. "Maddə" isə bütün inkişafın maddi və instrumental səbəbi, özlüyündə "formadan" məhrum qeyri-müəyyən bir qüvvə və substansiya, hər şeyə çevrilə bilən heç nədir[172]. "Maddə" üçün istifadə edilən yunan sözü *ile* nə bir orqanizmin, nə də fiziki təbiətin maddəsi olaraq başa düşülməməlidir. Qədim Yunanlar, varlığı olmayan və anlaşılmaz, sirrli və eniqmatik bir mövcudiyyəti təsvir etmək üçün bu anlayışdan istifadə edirdilər. Daha aydın müəyyənləşdirmə üçün, kişi ali mənada özlüyündə bir prinsipə malik olan varlıq, qadın isə özündən kənarda bir prinsipə sahib olan varlıq ilə uyğunluq təşkil edirdi. Dolayısı ilə, kişi metafizik hərəkətlilik və fi-

[172] Julius Evola – "The Metaphysics of Sex", (Inner Traditions, Park Avenue South, New-York, 1983), p, 118

ziki stabillik, qadın isə dəyişkənlik, canlandırıcı maternal substansiya ilə identifikasiya edilirdi. Bu perspektivdən Plotinus da, varlıq (*ousa* və *on*), əbədi kişinin (*ousia*) qadın tamamlayıcısı haqqında qeyd edir. O, əbədi kişi varlığını Olimpiya prinsipi olaraq dərk edilən intellektual prinsip - *nous* kimi dəyişməz metafizik mövcudiyyət və saf aydınlıq ilə eyniləşdirir. Plotinusa görə, bu *Logos* fiquru fəaliyyətə keçərkən maddəni və kosmik qüvvəni hərəkətləndirir. Qadın isə bir həyat qüvvəsi, əbədi varlığın həyatı və ondan qaynaqlanan bir təzahür olmaqla zamanda, özündən kənarda və şərtlər daxilində inkişaf edir. Kişi – *Logos*, özü olaraq özünü hər şeydə qoruyan aşkar bir forma prinsipidir (*enas*). Ellin fəlsəfəsində və onun tradisional simvolizmində qadın "təbiət" – *physis* prinsipi, kişi isə supra-təbiət, metafiziki prinsip ilə identifikasiya edilir. Aristotel də, *hərəkətsiz nous*-a, "hərəkətsiz hərəkətliliyə" (kişi) qarşı bir "təbiəti", bir funksiyanı (qadın) qoyur. Bu "hərəkətsiz hərəkətli" effektiv bir hərəkəti doğurmaqla formasız potensiallıqdan (qadın), bir formaya və ya fərdi mövcudiyyətə (kişi) keçidə səbəb olur[173]. Bu duallıq əbədi kişi və əbədi qadının kosmik-simvolik surətləri olaraq Səmanın və Yerin dyadası, uranian-səmavi və dünyəvi prinsiplər arasındakı ziddiyyəti təmsil edir. Aristotel qadını simvolik olaraq horizontal – üfüqi axın, (*keisthai*), kişini isə vertikal – şaquli axın (*ekhein*) kateqoriyasına aid edir.

Şərq ənənələrində də bu simvolik aspektlərin təsdiqini tapa bilirik. Uzaq Şərq prinsipləri də Səma-Yer dyadasını bilir: Səma "aktiv təkamül" (*ch'ien*), Yer isə "passiv təkamül" (*k'un*) ilə identifikasiya edilir. Kişi yaradıcı, qadın isə reseptiv-akseptiv tərzdə fəaliyyət göstərir. Yer Səma tərəfindən *mayalandırılır* və doğru zamanda fəaliyyət göstərir. Səmanı izləyərək o öz sahibini tapır və kosmik düzən daxilində öz yolunu izləyir.

*Yin* və *Yang* tərəfindən xarakterizə edilən metafizik dyada da varlığın bütün mərhələlərində fəaliyyət göstərən real qüvvələr – determinasiyalar olaraq dərk edilir. *Yanq* hər şeyin Səma, pozitiv, aktiv və kişi təbiətinə,

---

[173] Julius Evola–"The Metaphysics of Sex",(Inner Traditions, Park Avenue South, New-York, 1983), p, 118 p, 119

*yin* isə hər şeyin qadınsı və metafizik olaraq passiv təbiətinə sahibdir. Qrafik simvolizmdə də, davamlı-vertikal xətt *yanq*, qırılmış xətt isə *yin* ilə identifikasiya edilir. Bütün formalar, fenomenlər, varlıqlar və dəyişikliklər *yin* və *yanqın* müxtəlif kombinasiyaları müstəvisində nəzərə alınır – dəyərləndirilir. Dinamik perspektivdən onlar bir-birinə zidd olsalar da, bir-birilərini tamamlayan qüvvələrdir. İşıq və Günəş *yanq* essensiyasına, külək və Ay isə *yin* essensiyasına sahibdir, alov *yanq*, su isə *yin*; dağ zirvələri *yanq*, düzənliklər isə *yin*; transsendensiya *yanq*, ruh və həyati qüvvə *yin* xarakterlidir. Qadında *yin*-in, kişidə *yanq*-ın üstünlüyü onların "o" olmasının səbəbidir. Burada, *saf yin* və *saf yanq* mütləq qadınlıq və mütləq kişiliyin substansiyası olaraq təzahür edir. Varlığın aşkar və aydın – diurnal tərəfləri *yanq*-a, şüur-altı və noktürnal tərəfləri isə *yin*-ə məxsudur. *yin* və *yang* kosmik duallığında *yang* "Səmanın fəziləti" ilə assosiasiya edilən kişi prinsipi, *yin* isə Yer ilə assosiasiya edilən qadın prinsipidir. (Çin metafizikasına görə, kişiləri "yaradan" Səma, qadınları "yaradan" isə Yerdir və Yerin Səmaya tabe olması, qadının (maddənin) kişiyə (formaya) *tabeliyinin* metafizik simvoludur). Tradisional Hind prinsiplərinə (xüsusən də, *Samxya darsana*) görə, saf aydınlıq olaraq *impassiv* və dəyişməz "Olimpiya" xarakteri (*puruşa*) maskulen, hər bir şərtləndirilmiş formanın aktiv matriksi isə feminen olaraq qəbul edilirdi. Şiva Samxyanın *puruşa* xarakteri, Şakti isə Şivanın "qadını" və gücü olaraq *prakriti* və ya "təbiət" ilə uyğunluq təşkil edir.

Cinsiyyət millətlərin təməli olmaqla onların reproduksiyasını müəyyən edir. Cinsiyyət cəmiyyətlərin analizində mərkəzi dimensiyadır. Bugün, Qərbdə və ideoloji olaraq "Qərbləşmiş" dünya ölkələrində ən təməl təbii normaların fundamental inversiyasına bərabər olan dərin mental və sosial patologiya özünü nümayiş etdirir. Biz müxtəlif mədəniyyətlərdə əsrlər boyu müxtəlif formalarda baş vermiş (amma həmişə müəyyən təbiilik sərhədlərində qalmış) və cinsiyyəti istiqamətləndirən, ona rəhbərlik edən sadəcə bir ideologiya ilə deyil, patoloji transqressiya ilə qarşı-qarşıyayıq. Bu transqressiya özünü tərəqqi, libertarianizm və bərabərlik əxlaqı

kisvətində göstərir. Artıq homoseksuallıq sadəcə etik və antropoloji səviyyədə deyil, sosial bağ müstəvisində də heteroseksuallıq ilə ekvivalentdir. Bununla bərabər, qlobal eqalitarian xərçəngin metasiyasi inkişafı nəticəsində normativ bio-antropoloji standartlar yox olur. Digər diqqətçəkən məqam isə pornoqrafiyanın intensivləşdirilməsi və real seksin virtual seks ilə əvəzlənməsidir[174]. Artıq Qərbdə cinsiyyət məsələsinin reproduksiya məsələsindən tamamilə ayrılması nəticəsində cəmiyyətin seksualizasiyası onun sterilliyi və inferiyorluğu ilə proporsionallaşıb. Seksuallıqdan ayrılan və sonuncu təbii köklərindən qopardılan reproduksiya bir sosial əmtəəyə çevrilib. Homofiliya, feminizm, etnomazoxizm və anti-irqçi katekizm adı ilə irqi qarışmanın sistematik müdafiəsi sosio-etno-kultural xaosa gətirib çıxarmaqdadır.

İnsani davranışın digər bütün sahələrində olduğu kimi, cinsiyyət məsələsində də, insanlığın bütövlüyü üçün xarakteristik olan heç bir universal seksual və ya matrimonial (evlilik, qadın-kişi münasibəti ilə bağlı) davranış forması mövcud deyil. Cinsiyyət hər şeydən öncə sivilizasional bölgələrə görə kəskin şəkildə fərqliləşən etno-kultural təmələ əsaslanır. Bu bölgələrdə cinsiyyət zaman ərzində və dominant ideologiyalar, dünyabaxışlarına uyğun olaraq fərqliləşir. Həmişə olduğu kimi insan etologiyasında biz həm doğuşdan gələn (irsi etno-psixologiya ilə bağlı olan) təməli, həm də kultural, dini və ideoloji superstrukturları aşkar edə bilərik. Hər iki element interaktiv şəkildə fəaliyyət göstərir. Heyvani və vegetativ krallıqlarda seksual reproduksiya növlərin sağ qalmasının təməlidir. Əlbəttə, ekoloji mühit və epidemik patologiyalar da burada öz sözünü deyir. Ancaq sonda, bir *ultima ratio* olaraq bir növün kifayət qədər reproduksiyası olmadığı zaman nəsil xətti yox olur. Lakin, Konrad Lorenz və Arnold Gehlenin göstərdiyi kimi, insani növlər (xüsusən də sivilləşmiş) məsələsində cinsiyyət heyvanlar arasında olduğu kimi avtomatik deyil, daha tamdır. Çünki insan kultural, plastik bir heyvandır[175]. Onun seksuallığı doğuşdan

---

[174] Guillaume Faye – "Sex and Deviance", Arktos Ltd., London, 2014, p, 5
[175] Guillaume Faye – "Sex and Deviance", Arktos Media Ltd., London, 2014, p, 6

gələn sxemalardan, reproduktiv və sadəcə bioloji davranışdan nisbi olaraq ayrılıb. Bu, xüsusən də kultural olaraq ali millətlərdə genetik reproduksiya ilə birlikdə sosio-iqtisadi, ideoloji və affektiv imperativlərin (məsələn, sevgi) necə kompleks bir şəkildə məsələyə müdaxil olduğunu göstərir. Özünəməxsus bir mədəniyyətə və ya dinə görə kultural təzyiq seksual reproduksiyanın normaların sonlu variasiyasından asılılığına səbəb ola və ya onu daha da davamsızlaşdıra bilər. Öz etno-sosial bənzəri ilə reproduksiya üçün doğuşdan gələn imperativ insani paleokorteksin dərinliklərindədir. Lakin o, kultural normaları özündə ehtiva edən neokorteks tərəfindən süzülür və yenidən formulə edilir. Təbiət ilə mədəniyyət, reproduksiyanın seksuallığı ilə sosial seksuallıq arasında parçalanma (dis-konneksiya) çox təhlükəlidir.

Burada mənim yanaşmam humanist və ya antroposentrik ənənə ilə bağlı olmayacaq. Filogenezis prosesində və ya planet üzərində yaşayan varlıqlar tarixində Homo Sapiens misligörünməmiş şəkildə təkamül etsə də, bu onun parlaq amma qısaömürlü komet olması ilə nəticələnə bilər. Bu səbəbə görə də, "İnsanın" ideallaşdırılması və ya modernist humanist idolatriyadan uzaq durmağa çalışmalıyıq. Çünki insanlar arasındakı fərqlər sadəcə formal və ya təsadüfi deyil, essensialdır, kvalitativdir – məziyyətlərə əsaslıdır. İnsani varlıqlar bir-biriləri ilə nə formada, nə də dəyərdə (*neque forma, neque valore*) bərabərdir.

Yaşadığımız əsrin ən xarakteristik cəhətlərindən biri də onun cinsiyyət domeninin əsaslarını reqressiv şəkildə dərk etməsidir. Bir tərəfdən, seksual həyat üzərində sabit, əxlaqçı burjua məhdudiyyətlərinə qarşı mübarizə və bir növ cinsiyyət kultuna meyil etməklə psixologiya, sosiologiya və fəlsəfədə cinsiyyətə yönəlmiş misligörünməmiş diqqət müşahidə edilir, digər tərəfdən isə demokratiya, xəfifməşrəblik və geniş dekadensiya mühitində bu hərəkat cinsiyyət məsələsinə onun ən trivial, qaranlıq və eniqmatik aspektlərindən yanaşır[176]. Cinsiyyət məsələsinin önəmini bu şəkildə

---

[176] Julius Evola, – "– "the Bow and the Club", (translated by Sergio Knipe, 2018, Arktos Media Ltd.,) p, 152

vurğulamaq çirkinlik (asemnos) maniası və vulqarlıq həzzi ilə sıx bağlıdır. Bu tendensiyanı sosiologiya və psixologiya sahələrində seksologiya üzərində dərin təsirləri olan bir neçə tanınmış müəllifin əsərlərini analiz etməklə təhlil etməyə çalışacağıq. Bu tədqiqatda məqsəd panseksualizm və seksual azadlıq uğrunda başladılan bir növ *Xaç Yürüşü* və cinsiyyətin modern konsepsiyasının total şəkildə degenerat xarakteri arasındakı paradoksal paraleli. aydınlaşdırmaqdır.

Bu araşdırmanın dərinliyi üçün sivilizasiyaların morfologiyasının və tarixşünaslığın seksuallıq əsasında ana xəttləri ilə dəyərləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Tarix hər zaman materialist və spiritualist perspektivlərdən şərh olunduğu üçün irəli sürülən sadəcə iqtisadi imperativliyə və ya böyük şəxsiyyətlərə imtiyaz qazandıran sosioloji, dialektik və ya siyasi interpretasiyalar olub. Bu araşdırmalar və ya interpretasiyalarda unudulan bir şey seksual və ya sekso-psixoloji təməldir. Bu boşluq ingilis tədqiqatçısı Rettrey Teylor tərəfindən nisbətən aradan qaldırılsa da, "Tarixdə cinsiyyət" adlı əsərinin təktərəfliliyi onun əhəmiyyətini çox azaldır. Çünki hər şeydən öncə, R.Teylor bir Freydianistdir. Freydianizmə görə, insani varlıqların həyatında cinsiyyət dominant və hərəkətverici qüvvəni təşkil edir. Onun irəli sürdüyü ideyaya əsasən tarixin dərin şəkildə öyrənilməsi yalnız cinsiyyət və insanların seksual məsələlərə yanaşmasına əsaslanmaqla mümkündür. Buna görə də, R.Teylor bir tərəfdən, tarixdə mövcud olmuş öncül sosial, dini və kultural hərəkatlar arasındakı sıx bağlılığı, digər tərəfdən isə, cinsiyyət məsələsi üzərində davranışların əhəmiyyətini işıqlandırmağa cəhd edir. Bu baxımdan, Teylorun tarixşünaslıq interpretasiyası "matristlər" və "patristlər" arasındakı ziddiyyəti əsas götürür. Psixoanalitiklər və Freydianistlər kimi, Teylor da inanır ki, seksual impuls ən erkən – uşaqlıq yaşlarından etibarən mövcuddur və o, anasını və ya atasını öz obyekti olaraq seçə bilər. Bu sadəcə bir erotizm deyil, varlığı obyektlə identifikasiya etmək tendensiyasıdır. Nəticədə, qarşımıza çıxan *insani növ* ya anasına qarşı qısqanc, inamsız və antaqonist olmaqla özünü seksual olaraq atası ilə ya da atasına qarşı neqativ

hisslər bəsləməklə özünü anası ilə identifikasiya etmə tendensiyasını nümayiş etdirir. "Patrizm" və "matrizm" konsepti məhz bu əsasda müəyyən edilir və bu primordial komplekslərin tarix boyu fəaliyyətdə olduğu ideyası irəli sürülür. R.Teylora görə, tarix iki müxtəlif sivilizasiyanın, əxlaq normalarının, həyat üzərində baxışların bir-birilə toqquşduğu və ya birləşdiyi bir səhnədir. Bu iki həyat konsepsiyası "matristlər" və "patristlərin" fundamental dünyabaxışlarından qaynaqlanır. Teylor bildirir ki, "Patrizm" atanın dini, patriarxal hüquqlar, siyasi sahədə avtoritarianizm, sosial-siyasi sahədə mühafizəkarlıq, tədqiqat və araşdırma üzərində "inamsızlıq", seksual məsələlərdə *dözümsüzlük*, qadın azadlığının "məhdudlaşdırılması", "inferiyorizm ideyası", asketizm və seksual həzzin tənqidi, spontanlıq qorxusu və bəşəriyyətin təbiəti etibarilə "şeytani" olduğu ideyası ilə assosiasiya edilir. "Matrizm" isə ananın dini, sosial interaksiya tendensiyası, siyasi domendə demokratiya, seksual məsələlərdə dözümlülük, cinslər arasındakı fərqliləşmənin rəddi, hedonizm və fiziki həzzlərə meyillilik tendensiyası, spontanlıq və bəşəriyyətin təbiətən "fəzilətliliyi" ilə assosiasiya edilir. Bu yanaşmada əvvəlki fəsildə qeyd edilən təbii hüquq və Russoçu ideyaların təsirini aşkar şəkildə müşahidə etmək olar. Teylora görə, Orta Əsrlər "patrizmin" repressiv partlayışının baş verdiyi mərhələ idi – "sapqınlıq, nevrozis, hallüsinasiya, isteriya, keyfilik və qəddarlıq". Lakin, Teylor unudur ki, adıçəkilən dövr eyni zamanda "matrist" oriyentasiyasının nümayişi ilə də vurğulanmalıdır. XIV əsrdə ortaya çıxan və Protestantizm gəlişini öncədən xəbər verən və Katolik teologiyasından kənarda dini praktikalarını formulə edərək bir növ reinkarnasiyaya və ruhun cinsiyyətsiz olduğuna inanan Katarlar, eləcə də Trubadurlar bu perspektivdən mütləq qeyd edilməlidir. R.Teylora görə, yaradıcı və şəhvətli İntibah və Reformasiya matrist, Əks-Reformasiya isə Kilsənin "matrifikasiyasına" qarşı başladılan "patrist" reaksiya idi[177]. Romantizmi də "matrizm" ilə əlaqələndirən Teylor, ABŞ-ın essensial olaraq matrizmin beşiyi olduğunu qeyd edir. Lakin, Teylordan fərqli olaraq

---

[177] Gordon Rattray Taylor – "Sex in History", Vanguard Press, NY, 1954

Y.Baxofen, bu problemə psixoanalitik şərtlər və ya iddia edilən komplekslər çərçivəsində deyil, metafizik paradiqamalardan yanaşmaqla digər dyadalar ilə birlikdə, Səma və Yeri, Forma və Maddəni, Ruh və Təbiəti, Varlıq və *Bios*-u, əbədi olaraq maskulen və əbədi olaraq qadınsı – feminen olanı insandan daha ali, transsendental prinsiplər olaraq dərk edir[178]. Məhz Baxofen prinsiplərindən çıxış etməklə və superiyor olanı inferiyor olanın işığında dəyərləndirən Teylorun təktərəfli, absurd və sapdırıcı "analizlərini" kənara qoymaqla seksuallığa əsaslı daha dərin və genişəhatəli bir tarixşünaslıq və ya sivilizasiyaların morfoloji təhlili üzərində düşünmək olar. Ana və Ata sivilizasiyaları, androkratik və gineokokratik (yaxud ginarxik) cəmiyyətlər arasında, eləcə də, müxtəlif kultlar, miflər, etika normaları, siyasi rejimlər, leqal sistemlər, incəsənət formaları arasında bu iki əks prinsip ilə birbaşa bağlı olan ziddiyyət həqiqətən mövcuddur. Bu ziddiyyət dinamik hərəkatlarında, təməl gərginliklərində və sahib olduğu formalarda tarix boyu özünü göstərib. Lakin, cinsiyyətin əks etdirdiyi dərin mahiyyəti, bəşəriyyətdə və insan ruhunda mövcud olan primordial qüvvələrin misteriyası ilə cinsiyyətin misteriyası arasındakı essensial əlaqəni dərk etmədən cinsiyyəti sadəcə *saf insani* – fiziki fakta endirməklə Rettrey Teylor Freydianizmdən kəskin şəkildə asılılığını ortaya qoyur.

İndi isə, Z.Freydin tələbəsi olsa da, özünü Freyddən ayırmaqla onun fundamental ehkamlarını "heterodoksal" şəkildə yenidən dəyərləndirərək dünya və sosio-siyasi domen üzərində öz baxışlarını irəli sürən avstriyalı psixoanalitik Vilhelm Reyxin nəzəriyyəsini ana xəttləri ilə təhlil edək. Reyxin ideyaları *orqon və orqon enerji* konseptləri ətrafında dönür. Bu ideyalara görə, seksuallıqda və seksual təcrübədə bir supra-fərdi enerji, universal qüvvə özünü nümayiş etdirir. Prinsip etibarilə bu yanlış deyil və bizi psixoanaliz çərçivəsindən daha ali müstəviyə yüksəldə bilər. Çünki hər şeydən öncə, oxşar anlayış ən ali ehtivasını Hind *kundalini* doktrinasın-

[178] Johann Jakob Bachofen,– « Il Matriarcato: Ricerca sulla Ginecocrazia del Mondo Antico nei suoi aspetti Religiosi e Giuridici", (Tradizione di Furio Jesi e Giulio Schiavoni, Giulio Einaudi editore, Torino, Italia, 1988)

da tapan fundamental, tradisional təlim tərəfindən də ifadə edilir. Sadəcə bioloji qüvvə olmamaqla *kundalini* insanda universal şaktinin immanent manifestasiyası olaraq insan orqanizminin mənşəyində yer alan, xüsusilə də cinsiyyət və reproduksiya ilə bağlı olan bir qüvvədir. Şakti, yuxarıda qeyd edilən "metafizik dyadadan" (yaxud "ilahi dyada") biri kimi bir Tanrının yaradıcı gücünü və fiqurativ şəkildə onun "qadınını" simvolizə edir. Şakti "İlahi Kişiyə" həyat enerjisi bəxş edən qadın gücüdür. Tradisional metafizikaya edilən istinad son dərəcə mühümdür. Çünki biz görəcəyik ki, metafizik olaraq doğru olan bir şeyin dolaşıq intuisiyası Reyxdə abstrakt deformasiyalar ilə assosiasiya edilir. Hər şeydən əvvəl, vurğulanmalıdır ki, V.Reyx hakim psixologiya və psixoanalizin prinsiplərindən daha irəli getməyə cəhd etsə də, o "kosmik enerjidən" metafizik deyil, insani müstəvidə bəhs edir. Dolayısı ilə, o, bu qüvvəni sanki bir növ "elektrik" imişcəsinə sadəcə fiziki aləmdə, təbiətdə axtarmağa çalışır (O həqiqətən orqanik və qeyri-orqanik maddə arasında ara forma olaraq "bion"-dan və "bioelektrikdən" bəhs edir). Fiziki substansiyalar üzərində labarotor şəraitdə apardığı araşdırmalardan sonra Reyx "orqon enerji" kondensatorlarını və terapevtik tətbiqatlı "orqon qutularını" yarada biləcəyinə inanırdı. V.Reyx repressiyanın psixoanalitik nəzəriyyəsini daha da genişləndirməklə iddia edirdi ki, nevrozislər, psixozislər və digər psixi nizamsızlıqların səbəbi fərddəki "zirehlərdən" dolayı orqon enerjisinin bloklanması (stasis) və ya dayandırılmasıdır. Bunlar essensial olaraq psixoloji və xarakteroloji əngəllər olsa da, fizioloji fenomenlərdə də özünü göstərir. Reyxə görə, hətta əzələ revmatizmi və xərçəng kimi xəstəliklərin ortaya çıxışı da məhz eyni səbəblə bağlıdır[179].

Repressiya nəzəriyyəsinin ümumiləşdirilməsi repressiyanın sadəcə seksual abstinensiya və zahiri (ətraf mühit) şərtlər ilə deyil, "orqastik impotensiya" ilə bağlı olduğu ideyası yayılmağa başlandı. Orqastik impotensiyanın səbəbi tam seksual orqazm həzzini yaşaya bilmənin qarşısını alan

[179] Wilhelm Reich – "The Function of the Orgasm", Sex-Economic Problems of Biological Energy", translated by Vincent F.Carfagno, A Condor Book, Souvenir Press, (E & A, Ltd), p, 348

və qoruyucu xarakterli "zireh" və ya "Mən"in müdafiə səddini yaradan qorxu və əndişədir. Bu prizumpsiyalar əsasında Reyx sivilləşmiş insanlığın bütöv tarixinin *ad hoc* interpretasiyasını inkişaf etdirməyə başladı. Onun fikirləri təməl olaraq həqiqi həyatın bizi sövq etdiyi tam "orqastik boşalmaya" qarşı qeyd edilən zirehlərin və səddlərin xarakterizasiyası üzərindədir. O, zirehlənmiş insani heyvan tərəfindən törədilən "həyatın qətlindən" bəhs edərək "cənnətin itkisini" (tam seksual orqazm həzzinə bağlı olan "cənnət") insanda həyatın bütöv şəkildə funksiyasını itirməsi ilə identifikasiya edir. "Sonuncu minillikdə bütün sosial həyat spesifik səbəblərə görə xoşbəxtliyi (yəni, seksual xoşbəxtliyi) rədd edən qeyri-essensial zirehli həyatın bir növü olub. Bu növ həyat gerçək həyatın bütün ilkin formalarını deqradasiyaya uğratmaqla yer üzərindən silməyə çalışıb. Primordial həyat bio-seksual səhnəyə öz qayıdışını reallaşdırdığı zaman bu növ zirehli həyat da total kollapsa məhkum olacaq" – deyə V.Reyx bildirir. *Həyata* və orqon enerjiyə qarşı bu nifrət, bu yaxşı planlaşdırılmış mübarizə basdırılmış və frustrasiyaya məruz qalmış bütün nizamsız ekspressiyaların, eləcə də psixozis, cinayətkarlıq və alkoqolizmin kökündə dayanır. Reyxə görə, orqastik boşalmanın bloklanması seksual tətmin tərəfindən təmin edilən azadlığın surroqatı olaraq dözülməz həzzə və qaçışa doğru destruktiv impulsun meydana gəlməsi ilə nəticələnir. Bu bloklanma – insanın xarakteroloji zirehlənməsi təcridolmanın, hakimiyyət arzusunun, seksual mizeriyanın, nevrotik olaraq impotent üsyankarlığın, həm də patoloji toleranslığın əsasını təşkil edir[180].

Seksuallıq üzərində mərkəzləşən bir növ həyat dininə və bu dinə mütləq təslimiyyətə varan V.Reyx bütün ali sivilizasiyalar və cəmiyyətlərin strukturlarını isterik və nevropatik müdafiə zirehləri olaraq damğalayır. Bu dinin digər adı isə "seksual inqilaba" çağırışdır. Düzdür, tradisional təlimlər də seksuallığın mənşəyi olaraq bir primordial qüvvəni qəbul edir, lakin metafizik dyadanın zidd qütblərindən biri olaraq, saf həyat və təbiətin "qa-

[180] Wilhelm Reich – "The Function of the Orgasm", Sex-Economic Problems of Biological Energy", translated by Vincent F.Carfagno, A Condor Book, Souvenir Press, (E&A, Ltd), p,7

dınsı" prinsipi – şakti və ya prakrti "Varlıq" prinsipində bir qarşı tərəfə Şivaya və ya *puruşaya* sahibdir. Məhz bu səbəblə də, V.Reyxin nəzəriyyələri dünyanın bu iki prinsipindən yalnız birisinin təktərəfli, anarxik qəbulu və onun mütləqləşdirilməsini təmsil edir. Bunun nəticəsi isə, tam və sərhədsiz seksual azadlığın və qətiyyən "nevropatik zirehin" nəticəsində ortaya çıxan hər şeyə deyil, insani səviyyədə dyadanın maskulen qütbünün fəaliyyəti ilə uyğunluq təşkil edən hər şeyə qarşı mübarizənin təşviqidir. Şaktinin sahibi olan kişi Tanrının mifik surətinə əsasən primordial həyat qüvvəsi superiyor mənada bir Formaya malik olan hər şeydə özünü nümayiş etdirməklə təbii səviyyədən ali spiritual düzənə və mərkəzliliyə doğru yüksəlir.

V.Reyxin uğursuzluğunun nəticələrindən biri onun hermetik misteriya ilə qarşı-qarşıya qalmasıdır. Əgər biz bütün etik, sosial, siyasi və dini formalarını "həyata" və kosmik orqonik impulsa qarşı səddlər olaraq düşünsək, bəs o zaman bu "həyatın" (yaxud kosmik orqon impulsunun) həqiqi və dərin mənşəyi nədir və ya nədən ibarətdir? – sualını verməliyik. V.Reyx özünün bu məsələdə çatışmazlığını etiraf edərək bildirir: "İnsani növlərin öz zirehlənməsini necə inkişaf etdirdiyi problemi həllolunmaz olaraq qalır". Onun fikrincə, bu problematik məsələdə konkret həll yolları təklif edə biləcək faktlar çox uzaq keçmişdə gizlidir. Lakin, heç bir empirik tarixi izahat verməyə ehtiyac yoxdur. Çünki bu məsələnin həqiqi mahiyyəti kosmik dyadanın digər bir qütbünün, qadın ilahəsindən daha ali mövqeyə sahib olan kişi ilahiliyi mifində təcəssüm edilən prinsipdir. Bu prinsip Reyxin sadəcə "həyatın qətlini" və "orqastik zəiflikdən əziyyət çəkən zirehlənmiş insanı" gördüyü bütün tradisional sivilizasiyalar və cəmiyyətlərdə hakim olub. Reyxin patoloji psixologiyasının mahiyyəti insanın cinsiyyətə tam, passiv və naturalist şəkildə təslimiyyətindən ibarətdir. Bu isə, insan şəxsiyyətinin retroqressiyası və dissolyusiyasıdır. O bildirir ki, "orqastik arzu "insanın öz-özünə üstün gəlməsinin" bir ifadəsidir". Ölüm ideyasının orqazm ideyası ilə əlaqələndirilməsinin kökü məhz buradadır. Reyxə görə, ölümdə də bioloji enerji onu həbs edən maddi örtüyün sərhədlərini tərk edir. Məhz bu şəkildə "azadedi-

ci ölümün" dini ideyası bir obyektiv bazis qazanır. Normal orqanizmdə orqazm tərəfindən yerinə yetirilən funksiya zirehlənmiş orqanizmdə nirvana prinsipi və ya xilasın mistik ideyası olaraq yenidən üzə çıxır. Bu, tipik yanlış dərkin digər bir nümunəsidir. Erotizm üçün essensial olan transsendental baxış doğrudur. Lakin, bu transsendensiya qeyd olunan müəlliflərin primitiv seksuallıq konsepsiyasında mövcud deyil. V.Reyx passiv transsendensiya ilə gerçək, spiritual olaraq aktiv və insani olandan daha ali olana doğru yönəlmiş transsendensiya arasındakı radikal fərqliləşmənin dərkindən uzaqdır. Reyxin həyat və etika baxışları məhz bu iki paradiqma ilə məhdudlaşır: "Mən"-in primitiv seksuallığa tam təslimiyyəti və total orqazm vasitəsilə fərddə kosmik orqon enerjinin boşalması. Reyx, Freyd tərəfindən irəli sürülən hərəkətvericilərin duallığını (həzz prinspi – *Lustprinzip* və ölüm, destruksiya impulsu – *Todestrieb*) rədd edərək yeganə hərəkətvericinin orqastik həzz və primordial orqon enerjinin boşalması olduğunu bildirir. Onun fikrincə, destruksiya impulsu *Lustprinzipin* basdırılması – repressiyasından ortaya çıxan ikiqatlı aspektə malik sadist və mazoxist impulsdur. Bu sosiopatik formaların transpozisiyası müəyyən bir cəmiyyətin əsas cəhətlərini formalaşdırır. V.Reyxə görə, sadist impulslar öz düşmənlərini əzməklə nəzarət altında saxladığı insanlar üzərində dominasiya arzusu ilə birləşən avtoritar şəxsiyyət tendensiyasını yaradır. Mazoxist impulslar isə sürü təfəkküründən, tabeçilikdən, "şəxsiyyətə pərəstişdən", nizamlılıq və özün fəda etməkdən duyulan həzz tendensiyasının ortaya çıxmasına səbəbiyyət verir. Ona görə, bütün iyerarxik sistemlərin, savaşçı tendensiyaların və aqressiv davranışların kökündə dayanan fenomen seksopatiya mənşəlidir. Yəni, patriarxat, hərbi rejimlər, Faşizm, Kapitalizm və Sovet Kommunizmi məhz bu əsasla izah edilməlidir[181]. V.Reyx burada R.Teylorun yolunu gedərək "patrizm" kateqoriyasına daxil etdiyi sosial, siyasi və kultural reallıqları eyni şəkildə təhrif edir[182].

---

[181] W.Reich – "The mass psychology of Fascism", translated by Theodore Wolfe, NY, 1946
[182] J.Evola–"The Bow and the Club", p,164

Digər tədqiqatçılar isə öz nəzəriyyələrinin təsdiqini etnologiyada axtarmağa çalışıblar. Polyak antropoloqu Bronislav Malinovski və amerikalı kultural-antropoloq Marqaret Mid oxşar ətraf mühit şərtlərində yaşayan iki xalqı müqayisə edirlər: bunlardan biri ən erkən yaşdan etibarən seksual azadlığa icazə verməklə "sülhsevər, nevrozislər və digər düzənsizliklərdən azad" həyatı təşviq edən matriarxal toplumlar, digəri isə "avtoritar ailə orqanizasiyası", məhdud seksual azadlıq ilə xarakterizə olunan patriarxal toplumlardır. Adları qeyd edilən bu iki antropoloqa görə, Avropa sivilizasiyası məhz patriarxal mədəniyyətin – "aqressivlik", iyerarxik fərdiyyətçilik və savaçşı impulsun  ehtivasıdır. Samoada və Melaneziyada primitivlərin seksual həyatını araşdırmaqla öyrəndikləri *faktları* ali sivilizasiyalara da tətbiq edən B.Malinovki və M.Mid superiyor məziyyətləri ən inferiyor reallıqlar daxilində təhlil edirlər.

Üstəlik, Reyxə əsasən patriarxal ailə və "zirehli" cəmiyyətdən kənarda adekvat, qeyri-məhdud seksual təhsil alsaydılar Makedoniyalı İsgəndərin, Əmir Teymurun, Sezarın, Napoleonun və ya Böyük Fridrixin heç vaxt mövcud ola bilməyəcəyini düşünmək son dərəcə gülünc olardı. Halbuki, Reyxin iddiasına əsasən bütün böyük fatehlər orqastik impotensiyadan əziyyət çəkiblər. Bu sadəcə içiboş bir cəfəngiyyat, cəmiyyətlər və sivilizasiyalara tətbiq olunan Reyx seksologiyasının reqressiv ekzistensial bünövrəsidir. O da qeyd edilməlidir ki, Vilhelm Reyx bu düşüncələri ilə Avropa və Amerikan feminizminin konseptual təməlini hazırladı[183].

Böyük ideoloji və siyasi hərəkatlardan biri olaraq seksual azadlıq xüsusilə də 1960-cı illərdən etibarən "həddsiz həzz", "bütün qadağaları qadağan etmək" kimi şüarlar altında libertarian anarxizm, eqoist fərdiyyətçilik ilə birləşərək bir partlayış kimi ortaya çıxdı. Bu degenerat partlayışın hazırlanmasında R.Teylor, V.Reyx, H.Markuze və digər Freydianistlər ilə birlikdə Solçu intellektualların da böyük rolu qeyd olunmalıdır. Seksual inqilab eyni zamanda Xristian seksual əxlaqının

[183] J.Evola–"the Bow and the Club",(translated by Sergio Knipe, 2018,Arktos Media Ltd.,) p, 167

dəli köyünəyindən özünü azad etmək istəyən *petty* burjuaziyanın vulqar hedonizminin intensifikasiyasının nəticəsi idi. Bu ideologiyanın əsasən Puritan-Amerikan və Portestant-Skandinav mənşəli olduğu reallığı da unudulmamalıdır. Burada, Xristianlığın cinsiyyət üzərində yüzillər boyu təlqin etdiyi ehkamların yaratdığı kəskin psixo-patoloji situasiya mütləq vurğulanmalıdır. Kilsə Atalarının təlqin etdiyi inanca görə, Cinsiyyət bir diabolik xarakteri, Eros isə zülmətə doğru şinikləndirməni təmsil edirdi. Daha çox Şərq-Levant ruhundan idxal edilən bu davranış Xristianlıq öncəsi Avropanın kultural dəyərlərinə diametral ziddiyyət təşkil edir. Xristian Kilsəsinin ilkin fundamental ehkamına görə iffətlilik seksuallıqdan üstün tutulmalıdır. Lakin, Yunan-Roma ənənələrində, Pifaqorianizm və Neoplatonizm doktrinalarında, eləcə də Buddizmdə göstərilir ki, iffətlilik "şeytani impulsun" repressiyası ilə deyil, ruhu bədəni-fiziki şərtləndirmələrdən azad etmək üçün düşünülmüş müstəqil iradəli bir seçim olaraq yaşanılmalıdır. İffətlilik, evlənməyən və cinsi münasibətdə olmayanlar tərəfindən cinsiyyətə qarşı nifrət yaxud puritanizm məsələsi deyil, *asezis* məsələsidir. Dolayısı ilə, qeyd edilən doktrinal prinsiplərə görə, iffətlilik təlqin olunmamalı, inisiatlar tərəfindən özləri üçün qorunub saxlanılmalıdır. Cinsiyyətin cəzalandırılmalı olan bir günaha çevrilməsi rahiblər və rahibələr arasında ciddi psixoloji aberrasiyalara gətirib çıxardı. İstər Katolik, istərsə də, Protestant-Puritan formalarında Xristian seksual əxlaqı özünü Avropa təfəkkürünə tam şəkildə təlqin edə bilmədiyi üçün bu əxlaq ilə tradisional Avropanın seksual dəyərləri arasında kəskin ziddiyyət hökm sürüb. Xüsusilə də, İtaliyan və daha sonra Fransız İntibahından sonra sərt Bibliya ənənələri və Yunan-Roma mifologiyasının incəsənət dəyərlərinə sarılan sənətkarlar (rəssamlar, şairlər və heykəltəraşlar) arasında frontal antinomiya özünü göstərməyə başladı. Ruhani sinfi iki düşərgəyə - bu sənətkarları dəstəkləyənlərə və onları qınayanlara – bölündü. XVII əsrdən etibarən isə Kilsə özü daxilində libertin ideologiya ilə üzləşməli oldu. Sonrakı əsrlərdə isə vəziyyət daha da kəskinləşdi: ədəbiyyat, incəsənət və ideologiyada aşkar erotisizm

partlayış şəklində ortaya çıxdı, Kilsə seksual əxlaq üzərində nəzarətini tədricən itirdi[184].

Xristianlığın bu seksofobik sərtliyi və puritanizminin ən acınacaqlı nəticəsi reaksional formada əks-hərəkatın – sekso manianın ortaya çıxması, "seksual ideologiyanın" doğuşu və Qərb cəmiyyətlərinin sürətlə pornoqrafik seksualizasiyası oldu. Bununla bərabər, Protestant ölkələrinin ən puritan formalarında pornoqrafiya özünü göstərməyə başladı. Paradoksal məqam ondan ibarətdir ki, seksofobik olmadıqları üçün Katolik dövlətlər Protestant dövlətlərdən seksual prinsiplər baxımından daha azad idi. Öz puritanizminin nevrotik inversiyasının qurbanı olan Protestant dövlətlər üçün onu demək olar ki, seksofobia və seksomania eyni bir medalyonun iki tərəfidir. Xristianlığın reqressiv seksual obsessiyası seksual azadlığın partlaması, cütlüklərin "psixiatrlara" və uğurlu, mexaniki olaraq normallaşmış seksə tabe olması (nəticədə isə cütlüklərin münasibətinin kövrəkləşməsi), primitiv erotik məcəllənin heyvaniləşməsi, Freyd sxolastizmi tərəfindən təməli hazırlanan seksual terapiya kultu, bəsitləşdirilmiş virtual pronoqrafik tamaşlara yol tapmaqla yeniyetmələrin destruktiv seksual oyanışı ilə nəticələndi. Meydana çıxan panseksual cəmiyyətin təhrik etdiyi frustrasiyalar və nevrozislər nəzarətedilməz bir ataksiya kimi Qərb cəmiyyətlərini ağuşuna alıb. Sanki Eros Xristianlığın onu daxil etdiyi "sığınacaqdan" dəlicə bir formada ayrılıb. Dolayısı ilə, Erosun deqradasiyası, universal pornoqrafiya, ailə məcəllələri və qanunlarının parçalanması, panmiksia ideologiyası məhz "cinsiyyəti zəruri günaha" çevirən Xristianlığın doğurduğu əks-reaksiya ilə bağlıdır[185].

Bununla belə, bir məqama diqqət yetirilməlidir ki, həm Xristian puritanizmi, həm də modern seksual deviasiyada (deviasiya – doğru yoldan sapma) dərin şəkildə seksual qeyri-yetkinliyi, tradisional Avropa cəmiyyətləri üçün spesifik olan nizamlılıq və azadlıq, qadağa və tolerans, öz-özünə üstün gəlmə və fiziki həzz, sosioloji normalar və libidinal incəsənət

[184] Alain de Benoist–«I Demoni del Bene: Dal nuovo ordine morale all'ideologia del genere», (traduzione di Giuseppe Giaccio, Controcorrente edizioni, Napoli, Italia, 2015), p, 210
[185] Guillaume Faye,– «Sex and Deviance», (Arktos Media Ltd., London, 2014), p, 317

arasındakı harmoniyanı dərk edə bilmək qabiliyyətsizliyini müşahidə etmək mümkündür.

Bütün bu arasıkəsilməz ideoloji dalğalanmalar nəticəsində Qərb cəmiyyətininin universal seksualizasiyası başlandı. Cinsiyyət ya şeytanilәşdirilmək, ya xaotikləşdirilmək, ya da deqradasiyaya uğradılmaq üçün hər şeyin mərkəzinə yerləşdirildi. Pornoqrafiya sənayesi leqallaşdırıldı. Ailə normalarının kollapsı, həya və utanma mədəniyyətinin geri çəkilməsi, sosial münasibət forması olaraq məhrəmiyyətin tənəzzülü seksual çaşqınlıq və seksin hazırlıqsız yeniyetmələrin nəzarətinə keçməsi ilə pornoqrafik nümayiş kütləsi tamaşaya çevrildi. Herbert Markuze "seksual impulsu rədd etmənin" ölümcül xarakterini tənqid etməklə xoşbəxtlik və şəxsi mükəmməllik yolunda əsas olaraq bir növ seksual anarxiyanın vacibiyyətindən bəhs edirdi. Jill Delöz və psixiatr Feliks Qutari "Anti-Oedipus" adlı əsərində opressiv dəli köynəyi olaraq ailənin çöküşü və qaçılmaz şəkildə aradan qalxmasını müdafiə edirdilər. Səthilik, dərin sosioloji reallıqların inkarına əsaslanan bu müəlliflər və onların əsərlərindəki proseduralar Lisenko və Lisenkoizm - reallıqdan qopmuş və "natura rerum"a qatı düşmən olan doqmatik bir diskurs – ilə tam şəkildə identikdir. Qərb cəmiyyətini və tədricən dünyanın Qərbləşmiş hissələrini xarakterizə edən psixo-seksual obsessiya bizi seksual kastrasiya əsrinə yuvarladı. Seksual patologiya və öz-özünü yox etmə faktoru olaraq seksual hiper-atrofiyanın mütləq hegemoniyası daxilində seksuallığın təbii olaraq təcrübə edilən formaları seksual artifis ilə əvəzləndi. Cinsiyyətin hər yerdə varlığı, seksual hiper-göstərişin təhrik etdiyi ümumi seksual obsessiya cinsiyyətin və cinsi münasibətin təbiətinin dəyişməsinə, onun bölünməz davranış statusundan tamaşa statusuna transformasiyasına səbəb oldu. Səsvermə hüququ, ailə və maliyyə qanunlarında qadınlar üçün əlverişsiz olan qanunların ləğv edilməsi tələbləri ilə ilk dəfə Avropada ortaya çıxan feminizm məqsədli şəkildə ilkin mahiyyətindən qoparaq qadınlığın rəddi və qadınları kişiləşdirmə kimi şizofrenik simptomları ehtiva etməyə başladı. Qadın və kişi arasında qadınlığın rəddi ilə birləşmiş mütləq bərabərlik bu hərəkatın in-

feriyor xislətini ortaya qoydu. Bir ailənin anası və bir prokreator olaraq qadın “patriarxal boyunduruğun” arxetipləri olaraq stiqmatizasiya edildi. Azad edilmiş qadının mütləq şəkildə kişiyə bənzəməsi XX əsrin əvvəllərindən başlayaraq bütün feminist hərəkatların proqramının mərkəzinə yerləşdirildi. Gerçək məqsəd qadınları kişiləşdirmək və kişiləri qadınsılaşdırmaq ilə androginik utopiyanın “realizasiyası” idi. Bu antropoloji xaosun doktrinar partizanları həm feminizmin, həm də maskulenizmin abnormal bir formasını təmsil edirlər. Sadəcə sosial olaraq deyil, seksual olaraq da kişiləri təqlid etmək, kişiyə çevrilmək. Dolayısı ilə, feministlərin şizofrenik *unisex androgini* arzuları feminen deyil, daha çox maskulen xarakterlidir. Qadınların öz bədənlərinə yadlaşdırıldığını iddia edən feministlər erotizm, pronoqrafiya, “kişiləri həyəcanlandırmaq” və kişilər tərəfindən qadın bədəninin ruhsuz bir obyekt kimi istehlakını təşviq etmək üçün çılpaqlığın konstant vitrini tərəfindən qadın bədəninin alətləşdirilməsi, istismar edilməsi və yadlaşdırılması qarşısında susurlar. Qadınlar üçün bədəni nümayiş azadlığı tələb edən feminizm təhşirçilik və erotik cəzbetməni iffətlilik tələbinin “zülmkarlığından” azadlıq olaraq qəbul edirlər. Hamiləliyi bir qadağa, məhdudiyyət və sosial yadlaşma forması olaraq “dərk edən” feminizm qadınları da kişilərlə eyni seksuallığa malik olmasını tələb edir. Marksizmin “yeni insanına” bənzəyən yeni qadının utopik modeli sadəcə kişilərin fotokopiyası oldu. Qadın bədəni kişiləri cəlb etmək və onları seksual olaraq gicəlləndirmək üçün minlərlə formada hər yerdə təqdim edilir[186]. Striptiz nümayişləri, aktrisalar, məşhurlar və modellər medianın arasıkəsilməyən salvosu ilə qlobal sensualizmin alovlu fokusuna çevrilib. Modern qadın real seksual təcrübədən əldə edə bildiyi seksual həzzi təşhirçilik və striptiz nümayişindən ortaya çıxan xəyali-surroqat həzz ilə əvəzləyib. Anti-seksofobik düşüncəsi ilə tanınsa da, italyan psixoloqu Luici de Marki etiraf edir ki, qadının azadlığı və onun bədəninin məsumiyyəti üzərində fokuslanan “reformist hərəkatlar” bunu qadın

[186] Julius Evola – “Revolt against the Modern World”, (trans, Guido Stucco, Inner Traditions International, 1995), p, 165

bədənini cinsiyyətsizləşdirməklə, onu bütövlükdə cinsi əhəmiyyətindən və dəyərindən məhruk etməklə edirlər.

İtalyan sosioloqu Alberto Meluççi bildirir ki, qadınların "yeni mədəniyyəti" seksuallıq anlayışının mahiyyətini kökündən dəyişdirdi. Qadın seksuallığı yeni bir şüur kimi muxtariyyəti qazandı. Matrimonial rollarını və ana olaraq özünəməxsus müqəddəratını rədd edən qadın öz seksuallığını xoşladığı kimi seçməyə başladı: həzz mənbəyi, ünsiyyət vasitəsi və ya reproduksiya tərəfindən məhdudlaşdırılmayan eros kimi. Nəticədə, reproduktiv funksiyasını itirən cinsiyyət getdikcə sosiallaşaraq kommunikativ xarakter aldı. Reproduksiyasız seksuallıq sonda "eros"suz seksuallığa transformasiya oldu. Erotik gücündən məhrum edilən cinsiyyət sadəcə orqazmın gimnastikasına endirildi. Seksuallığın tibbi və elmi vulqarizasiyası "effektivlik" modellərini yaratmaqla yanaşı, "məmnunedici cinsi həyat" kriteriyası və tələblərini formalaşdıran davranış standartlarını müəyyən etdi. Media və bazar tərəfindən konstant şəkildə təlqin edilən modellərdə qadın bədəni bir seksual nümayiş maşınından başqa heç nədir[187].

2006-cı ildə Fransada Erik Zemmur müəllifliyində çıxan "Birinci Cins" adlı kitab feministlər üçün tamamilə bir skandal mənbəyinə çevrildi. E.Zemmur feminizmin neqativ xarakteristikasını ortaya qoymaqla sağlam bir cəmiyyətin patriarxal düzənə əsaslanmalı olduğunu bildirir. O bildirir ki, cinslərin mütləq bərabərliyi və spiritual kişiliyin itkisi, buna paralel olaraq qadınlarda kişiləşmə tendensiyasının geniş vüsət alması böyük mənəvi, sosial və kultural katastrofalar doğuracaq bir yanlışlıqdır. O sadəcə devirilizasiyaya uğradıcı və androgini ideologiyasını deyil, eləcə də Avropanın qorxaq və kişiliksiz cəmiyyətini tənqid edir. Zemmura görə, təhlükəsizlik, "analıq", daimi yardım və humanitarizm üzərində fokuslanan sosial dəyərlərin effeminizasiyası yeni pauperizm, sürətlə artan kriminalizm, qeyri-təhlükəsizlik, barbarlıq və neo-primitivizm tərəfindən silkələnən modern Qərb cəmiyyətlərinin reallığının kompensasiyasıdır[188].

[187] Alberto Melucci – "The Playing Self: Person and Meaning in Planetary Society", (Cambridge University Press, Great Britain, 1996), p, 123

[188] Eric Zemmour – "Le Premiere Sex", Editions Denoel, Paris, 2004

E.Zemmur onu da əlavə edir ki, feministlərin və militant homoseksualların ideoloji fəaliyyəti cinslər arasındakı müxtəlifliyi təbiətsizləşdirməyə (denaturalizasiya) və metafizik reallıqları rədd edərək kişilik və qadınlığa süni attributlar verməyə yönəlib[189]. "Zəifliyin tiraniyası: Dünyanın qadınsılaşması və ya Savaşçının tənəzzülü " adlı əsərində Pol Fransua Paoli dəyərlərin feminizasiyası vasitəsilə ilə qadınsılaşmış cəmiyyətlərin zəifliyi və dayanıqsızlığını, hər növ manipulyasiyalara və deqradasiyaya açıqlığını tənqid edir. Paoliyə görə, Kişilərin spiritual olaraq kişiliksizləşməsi (eləcə də kişiliyin sadəcə təxəyyüli və virtual bir simulakruma çevrilməsi) və sosial normaların ikicinsliliyi, *menecment vasitəsilə* pasifizm və kübarlığın feminen dəyərlərinin müdafiəsi, siyasətdə döyüşkən və özünü fəda edən kişi fiqurunun dəyərsizləşdiriməsi və rəddi, konflikt ideyasının legitimsizləşdirilməsi və s. öz-özünü aradan qaldıran degenerat bir cəmiyyətin simptomlarıdır[190].

Bu şəkildə bütün sosio-kultural, əxlaqi, spiritual, siyasi və kultural prinsiplərin effeminizasiyası və ya qadınlara uyğunlaşdırılması tendensiyaları özünü göstərməyə başladı. Bunun sayəsində Avropada ali spiritual, estetik dəyərlər, simvollar və məziyyətlər "patriarxatın" qalıqları olaraq stiqmatizasiyaya uğradı. Bununla bərabər, dərin fəlsəfi və metafizik dəyərlərin əhəmiyyəti də aradan qalxdı. Ona görə də, modern populist media, musiqisiz musiqi və istehlakçı mədəniyyətin başlıca hədəfi qadınlar və qadınsılaşmış kişilərdir. Öncül istehlakçılar olaraq qadınlar marketerlər və manipulyatorlar üçün ən böyük hədəf auditoriyasını təşkil edirlər. Onlar iqtisadi olaraq bu psevdo-kultural ideyaları dəstələməklə yanaşı, marketinqi idarə edən konseptlər irəli sürürlər. Hələ XX əsrin 70-ci illərində böyük fransız sosioloqu Jak Ellül vurğulayırdı ki, reklamçılığın 90 faizinin hədəfi qadınlardır. Onlar bir tökməxanada və ya bir kömür mədənində deyil, menecerial mediada və marketinq rollarında üstünlük qazanmağa cəhd edərək digər qadınlara psevdo-kultural trinketlər satışını təşviq edir-

[189] Eric Zemmour – "Le Premiere Sex", Editions Denoel, Paris, 2004, p,26
[190] Paul-François Paoli – "La tyrannie de la faiblesse : La féminisation du monde ou l'éclipse du guerrier", François Bourin Editeur (23 septembre 2010)

lər. Nitzşenin təkidlə bildirdiyi kimi, bu qadınsı Modernizm əsrində qadınlar iddia edildiyi kimi təbiətən daha yardıcı cins olmadıqlarını, əksinə, kultural həyatda, incəsənət sahəsində bütün gözəllik dəyərləri, simvolları və standartlarını aradan qaldıran modernist praktikalara meyilli və istəkli olduqlarını isbat edirlər. Habelə, gerçək-pozitiv dini prinsiplərin yox olmasından sonra onların "boşluğunu doldurmaq" məqsədilə yarandığı elan edilən və bütövlükdə demokratik-liberal prinsiplərdən asılı olan Teosofizm, Antroposofiya, Krişnamurtinin əsasını qoyduğu Neo-Mistisizm kimi neospiritual hərəkatların da üzvlərinin əsasən qadınlardan ibarət olması qeyd edilən perspektivdən qətiyyən təəccüblü olmamalıdır. Qadının təhlükəsizlik tendensiyası heç vaxt bədii və incəsənət məziyyətlərinin kəşfinə yol açmır. Eləcə də, onun dünyanı emosional şəkildə şərh etmə tərzi bir elmi prinsipi və reallığı ortaya çıxarmaq gücündə deyil. Bu, qadınların təbii limitasiyasıdır və kişilərin uşaq dünyaya gətirə bilməməsi qədər təbiidir. Bir mədəniyyəti yaradan kişi, onun maddi vücudunu təşkil edən isə qadındır. Onların bu rolu dərinə kök salmış və essensialdır, bu cinsi rolları öz balansından çıxarmağa cəhd etmək təbiətə qarşı gəlmək, entropiyanı cəmiyyətin və insanlığın həyatına dəvət etmək deməkdir. İrrasional hiper-eqalitarianizmə meyilli olan qadın təbiəti üçün kultural marşalların həyatı və ya aristokratik dəyərlər anlaşılmazdır. Onlar üçün Həyatın spiritual və transsendental deyil, yalnız fiziki-bioloji və sosial aspektləri daha çox mühümdür. Bu reallıq onların doğuşdan gələn təbii xarakteristikası ilə düz mütənasibdir: evin analığı və *matriarxatı*. Alan de Benua da qeyd edir ki, klassik patriarxal cəmiyyətdə kişi ictimai domenin, qadın isə özəl domenin dominant elementidir[191].

"Qadınlar və Ümumi Həyat" adlı kitabında böyük amerikalı tarixçi və sosial tənqidçi Kristofer Laş vurğulayır ki, cinsiyyət, cütlük və ailə məsələlərində erkən burjuaziya normalarına zərbə vuran ən başlıca faktor qadınların yanlış emansipasiyası oldu. Tradisional Qərb cəmiyyətlərində

---

[191] Alain DE BENOIST–«I Demoni del Bene: Dal nuovo ordine morale all'ideologia del genere», (traduzione di Giuseppe Giaccio, Controcorrente edizioni, Napoli, Italia, 2015), p, 201

evlilik seksual cəzbetmə, qarşılıqlı hörmət, sədaqət və ailə formasiyası üzərində uzunmüddətli razılığa əsaslanırdı. Bu evlilik və matrimonial sevgi konsepsiyası libertarian kapitalizmin zərbələri altında dağıldı. Patriarxal (və ya semi-patriarxal) ailə daxilində özünəməxsus üstün mövqeyindən emansipasiya edən qadın reklamlar, böyük bizness və fetişləşdirdiyi istehlak mallarının yeni paternalizminə tabe oldu. Ailə hakimiyyətindən azad olaraq gerçək istehlakçılara çevrilmiş uşaqlar sosial cəngəllik qarşısında istiqamətsiz və təcrid edilmiş halda qaldılar. Əxlaq normalarındakı bu dəyişiklik azadlıq adı altında gizlədilən bir yadlaşma formasıdır. Əvvəllər Kilsə və digər sosial normalar tərəfindən tənzimlənən qadın seksuallığı yaşadığımız əsrdə tibbi vasitələr ilə tənzimlənərək təşkil edilən və öncədən müəyyən edilən bir mexanikaya çevrilib[192]. K.Laş matrimonial bağlılığı təşviq etdiyi və boşanmanı qadağan etdiyi üçün Kilsəni müdafiə etsə də, Xristianlığın əxlaq teologiyasındakı fərdiyyətçiliyin sekulyarizasiyası adıçəkilən dinin üzləşdiyi kəskin bir paradoksdur. Məhz bu sekulyarizasiya və narsissist fərdiləşmə nəticəsində matrimonial sədaqət, sevgi üçün evlənmək və seksual cəzbetmə arasındakı ahəng tədricən ortadan qalxdı. Böyük fransız sosioloqu Gilyom Faye də vurğulayır ki, Xristianlığın sevgi ideologiyasının vurduğu zərbə özünü ən çox ailə prinsiplərində göstərdi. Öncə sevgi üçün evlilik, daha sonra isə nigahsız birlikdə olma çox kompleks sosioloji proses daxilində ailənin və stabil cütlük anlayışının qəbrinə çevrildi.

Asketik və *bellator* fiqurunun artıq mövcud olmadığı bir cəmiyyətdə aristokratik məziyyətli, spiritual kişilik bir boksyor, kino ulduzu və ya bir intellektual, universitet professoru, daimi olaraq məşğul, pul qazanan bankir ilə əvəzlənib. Belə bir cəmiyyətdə ən qatı anarxizm və narsissizm formasında qadının özünə "şəxsiyyət" və "azadlıq" tələb etməsi labüddür. Tradisional doktrinalar həm qadınlardan, həm də kişilərdən gerçək "öz"-lərini, cinsiyyətləri ilə xarakteristik olan radikal cəhətlər və qabi-

---

[192] Christopher Lasch – "Women and the Common Life. Love, Marriage and Feminism", W.W. Worton and Company, NY, 1997

liyyətlərini nümayiş etdirməyi tələb edirdisə, formasızlığın mədhi olan Modernizm sivilizasiyası bu prinsipləri inversiyaya uğratdı. Feminizm qadına kişi şəxsiyyətini təlqin etməkdən başqa heç nə öyrədə bilməyərək onu həqiqi qadın kimi öz qabiliyyətlərinə və özü olaraq dəyərliliyinə qarşı yadlaşdırdı[193]. Bugün qadınların kişilər qarşısında bir "mənlik" qazanaraq intiqam aldıqlarını iddia etmələri sadəcə içi boş bir hədyandır. Çünki onların məğlub etdiklərini düşündükləri kişilər əsla asketik və spiritual fəzilətli kişilər deyil, həqiqi cinsi fərqliləşmə və fəzilətin nə olduğunu bilməyən standartlaşmış və rasionallaşmış bir qlobal cəmiyyətin kuklalarıdır. Ancaq, materialist modern kişinin spiritual degenerasiyası qədim ginoekokratik cəmiyyətlərdə müşahidə edildiyi kimi, heç də *hetaera* olaraq qadının fiziki hissələrinin köləsi olan kişilər üzərində üstünlüyünə yol açmadı. Bu degenerasiya və sterilizasiya qadının ən somatik xarakteristikalarının, onun təbii mümkünlüklərinin atrofiyasına səbəb olmaqla yanaşı, onu öz bədəninin narsissist kultuna, idman və formada qalma fetişizminə, maddi sərvət axtarışına məhkum etdi.

Seksual inqilabın ən parazitik nəticələrindən biri olan "Gender" nəzəriyyəsinin təməlində iki psixiatr və psixoanalist Con Money and Robert Ştollerin tədqiqatları dayanır. Onlar 1954-cü ildə Gender İdentikliyi Tədqiqat Klinikasını – insan seksuallığı üzərində tədqiqat laboratoriyasını yaratmaqla maskulen və feminen olaraq fərqliləşmiş anatomik orqanizasiyanı müəyyən edən cinsiyyətə qarşı olaraq ilk dəfə "gender" anlayışını konseptuallaşdırdılar. C.Money subyektin özünü qadın, kişi və ya *başqa bir cins* olaraq müəyyən edə bilməsi üçün "gender identikliyi" terminini irəli sürdü[194]. C.Money və R.Ştollerin "dekonstruksiya" fəaliyyətlərindən bəhrələnən Amerikalı militant feminist Cudit Batler 1980-ci illərdə irəli sürdüyü hipotezisində bildirirdi ki, cinsiyyətə görə fərdlər arasındakı fərqliləşmə sadəcə sosial, tarixi və ixtiyari konstruksiyanın nəticəsidir. Bioloji cinsiyyət fərdlərin kişi və qadın xarakterini müəyyən etmir, bu identifikasi-

[193] Alain de Benoist–«I Demoni del Bene: Dal nuovo ordine morale all'ideologia del genere», (traduzione di Giuseppe Giaccio, Controcorrente edizioni, Napoli, Italia, 2015), p, 59
[194] Philippe Darantier – «Le techno-nihilism», (Presses de la Délivrance, 2016), p, 78

yanı yaradan dominant sosial strukturdur. Bununla da, "gender" doktrinası "abstrakt kateqoriyalar" olaraq bütün maskulen və feminen referensiyaları qadağan edərək cəmiyyətin seksual strukturasiyasının keçərsiz olduğunu elan etdi. "Gender" doktrinası seksuallığa tamamilə yeni bir dimensiya verdi. Bundan sonra, kişi və qadın "genderləri" bioloji və fizioloji "datum"lara uyğun olaraq müəyyən edilməməli, eləcə də tənasül orqanların funksiyası "gender"in funksiyasından tamamilə parçalanmalı idi. Bu yeni dimensiyaya əsasən, bir fərdin seksuallığı heteroseksual, homoseksual, trans, bi və panseksual praktikalara oriyentasiya edə bilər. Cinsiyyət Təbiətin ona əbədi olaraq verdiyi çərçivədən "azad edildi". Bioloji cinsiyyət legitimliyini tamamilə itirdi. Heteroseksuallığı müqəddəsləşdirən, fərdləri ana və ata funksiyalarına bağlayan, maskulen və feminen rollar arasındakı ziddiyyətli tamamlayıcılığa əsaslanan antropologiyaya qarşı mübarizə başlandı[195]. "Gender" ideologiyası bu təməl antropologiyaya əsaslanan cəmiyyətlərin dekonstruksiyasını qarşıya məqsəd qoydu. Bütün "heteroseksual diskriminasiyalar", habelə maskulen və feminen attributlar aradan qaldırılmalıdır. Zamanı keçmiş "seksual identiklik" əvəzinə "seksual oriyentasiya" ifadəsi işlədilməlidir. Fərd öz "gender identikliyini" təbii, bioloji, psixoloji və fizioloji determinasiyalara əsasən deyil, "seksual oriyentasiyaya" əsasən seçməlidir. Bu heç də Marksist utopiyada olduğu kimi sinifsiz cəmiyyətin deyil, identikliksiz bir cəmiyyətin yüksəlişinin müjdəçisi oldu. Bu cəmiyyətdə transseksuallıq yeni insani gender olmalıdır. Bu ontoloji transformizm "transhumanizm" adlandırılan utopiyanın kökündə dayanır. Gender ideologiyası bizi bu prometey proqramına daxil edən ilk etapdır. Mütləq subyektivizm təbii strukturasiyanın insan arzusu və preferensiyasına müqavimət göstərə bilmədiyini bəyan edir. Seksual reallıq "Eros"un arxasında tam şəkildə aradan qalxmalıdır. "Gender" seksual azadlığın metamorfozası deyil, insanın təbiət, iradənin determinizm, arzunun müqəddəslik üzərində aliliyidir. Libertarian relativizmi ilə "gender" ideologiyasının təməl prinsiplərindən biri həqiqi insanı aradan qaldır-

195 Ibid., p, 80

maqla onu bazar qanunları tərəfindən yaradılan "insan" ilə əvəzləməkdir. Filipp Darantiye qeyd edir ki, bu, arzusu texnoloji olaraq əmtəələşdirilən və iqtisadi olaraq müqəddəsləşdirilən, cinsiyyətsiz, valideynsiz, köksüz və sadəcə "öz iradəsinə" tabe olan qeyri-insani insandır[196].

Cinsi rolların bu misligörünməmiş inversiyası, ailə ehkamlarının dağılması uşaqlar, onların yetkinliyi və gələcəyi üzərində də ağır nəticələr doğurdu. XX əsrin ortalarından bəri Uşaqların sağlamlığı və gigyenası sürətlə təkmilləşsə də, öz kökünü ailə strukturunun dağılmasında tapan yeni patologiyalar ortaya çıxıb. Uşaqların çox gec yaşda yeriməyə və danışmağa başlamaları, yuxu və qida rejimindəki nizamsızlıqlar (həddən ziyadə köklük), emosional balansın itkisi, kultural və intellektual inkişafın ləngiməsi və digər davranış patologiyaları bura daxildir. Doğuma nəzarət vasitələrinin orta sinfin həyatına daxil olmasından sonra uşaq bir istehlak məhsulu, bir canlı olaraq arzu edilir və nəzərə alınır. Uşaqlar üzərində məsuliyyətlilikdən sıxılan valideynlər onlar üzərinə bir ciddi intizamlılıq təlqin etməkdən boyun qaçıraraq onlara balaca şahzadə olaraq yanaşırlar. Bugün dominant bir tendensiya halına gələn *infantolatriya* sadəcə valideynlərin deyil, eyni zamanda ictimai institutların (ictimai təhsil, hüquq sistemi və s.) təqsiridir. Bu düşüncə tərzinə görə, uşaqlar cəzalandırıla və signifikativ qadağalara tabe edilə bilməz. Onların küyü və şıltaqlığına hörmət edilməlidir. Anti-spankinq sindromuna görə, təhsil əsla avtoritar xarakterli olmamalıdır. Yeniyetmələrə qədər intişar edilən bu abnormal düşüncə "yeniyetməlik kultunun" doğuşu ilə nəticələndi. Yeniyetmələr artıq hər şeyin bağışlandığı və icazə verildiyi "kiçik Tanrılara" çevrilib. Essensial olaraq ən yaxşı məziyyətlərə sahib olduqları düşünülən uşaqlar və yeniyetmələrə qarşı kiçicik bir nizamlılıq tələbi dərhal zorakılıq şəklində başa düşülür. Müqəddəsləşdirilən və ya heç bir parental, institusional iyerarxiyaya tabe tutulmayan uşaq kiçik tiran xarakterini alır. Valideynlər uşaqları tərəfindən sevilməyi arzulayır. Rolların katastrofik inversiyası məhz budur. Uşaqlarını şirnikləndirmək strategiyalarından istifadə edən

[196] Philippe Darantier – «Le techno-nihilism», (Presses de la Délivrance, 2016), p, 84

valideynlər dərk etmirlər ki, hər bir perspektivdən keyfiyyətli yetişmək, sosietal dəyər qazanmaq üçün uşaqlar öz ailələri və içərisində böyüdükləri sosial iyerarxiyanı sevməlidirlər. Lakin, parental və sosietal hakimiyyətin aradan qalxmasının uşaqlar (eləcə də, yeniyetmələr) üzərində dekadent təsirləri oldu. Özünə və əlindəki köləsi olduğu texno-cihazlara tərk edilən uşağın emosional, etik və ya intellektual inkişafı güzəştə gedilir və onun psixi-mənəvi gələcəyinə heç bir məhəl qoyulmur. Bütöv nəsillər bu xeyirxah amma degenerat utopik infantolatriyanın qurbanı olub. Bu dekadensiyanın nəticələrinə müxtəlif psixopatologiyalar, narkomaniyaya aludəçilik, artan intihar halları, kultural dekadentizm, istiqamətin itkisi və məşəqqətli yetkinlik daxildir. Biz həmişə unuduruq ki, əbədi indi cəmiyyətində, *carpe diem,* uşaqlar "yetkinləşir", yetkinlər "uşaqlaşır".

İndi isə Fransada "Yeni Filosoflar" cərəyanının nümayəndəsi, sosioloq Paskal Bruknerin "Məsumiyyətin Şirnikləndiriciliyi" adlı əsərində modern-liberal-demokratik cəmiyyətlərdə *uşaq siyasəti* haqqında fikirlərinə diqqət yetirək: "Dostoyevski, günahsız uşaqların ürəyimizə işləmək və onu paklaşdırmaq üçün var olduqlarını söyləyirdi. Bugün artıq, belə düşümürük. Onların, düşüncəsizlik, başıboş həvəslər və dəlicə davranışlar ilə bizə yol göstərdiklərini söyləyirik. Gücsüzlüyünə rəğmən ya da daha çox gücsüzlüyü səbəbindən hər şeyi bizdən daha yaxşı bilir, ana atasının ana atası olacaq bacarıqdadır – deyirik. Liberal pedaqogikanın "tanrı elmi" olduğu bu əsrdə yetişkini yetişdirmə vəzifəsini az qala ona veririk. Uşaq oluşuna elə bir dəyər veririk ki, uşaqlığı aliliyə çevrilir. Onların söylədiyi ağılsızca bir söz bitib-tükənməyən sənət xəzinəsi, içdən bir şeir dəryası kimi ucaldılır. Çizdikləri hər bir şeyə bir şahəsər imiş kimi sevgi göstəririk. Bu qısa corablı Vandallar hər şeyi öyrədə bilərlər bizə. Onlarda ən çox iki şeyi sevirik: arsızlığın, cidiyyətsizliyin səltənəti və kaprizin ağırlığı. Xəstəlik, ölüm, zövqlərdən vaz keçmə və ya istəmə haqqı üzərinə qoyulan qadağalar uşaqlara gəlindiyi zaman keçərli olmamalıdır, cəmiyyət qanunları kimi, təbiət qanunları da onun qarşısına gəlincə dayanmalı, o yenidən dünyanın mərkəzi, nukleusu – *His Majesty The Baby* olmalıdır. Uşaq haq-

larından çox, hər kəs üçün uşaq olmaq haqqı yüksəldilir. Heç kəsin qundaq körpəsi olmaq istəyi yoxdur əslində. Gəncliyin xoş başıboşluğu ilə yetkinliyin muxtariyyətinə eyni anda sahib olmaq istənilir sadəcə. Deməli, uşağa xass olandan daha çox, uşaqsı olan mədh edilir. Müqəddəratın sərtliklərinə qarşı bir təsəlli olaraq yaşam formasına yüksəldilir uşaqlıq. Uşaqlıq yalnız "Mən"in şüursuzluğunda var olduğuna görə, "biliksizlik" (nescience), özünə uşaq bəzəyi vermək, bilik ilə saflığı, güc ilə düşüncəsizliyi əlində toplamaq istəyən yetkinlərin klounluğu, şarlatanlığı sadəcə uşaqlıq ilə sinonim ola bilər. Ona görə də, bugün modern Qərb cəmiyyətlərində təkidlə istənilən şey özünəməxsus subyekt olaraq tanınmadan daha çox, hər kəs üçün yaşların bir-birilə qarışması, bir insanın eyni anda bütün yaşlarda olması haqqıdır. Psixoanalitik Liliana Lürsa qeyd edir ki, uşaqlar televiziyada, ya da virtual dünyada gördükləri yetkin cinayətləri işləyirlər. XXI əsr uşaqların əsri deyil, yaşların bir-birinə qarışdığı əsrdir. Bu qarşılıqlı bir-birinin yerinə keçmə prosesində qanadsız "müdriklərin" üzərinə onları əzən bir məsuliyyət yükləməklə onlara qarşı öhdəliklərimizdən xilas edirik özümüzü. "Yaşlanmaq görünür olmaqdan çəkilməkdir" – deyirdi Höte. Lakin, müasir dövrümüzdə bir çox kişi və qadın xüsusi sağlamlıq içərisində, imtiyazlarını itirmədən görünür olmaqda ayaq dirəyirlər. Uşaqlar bizim dünyamızın modeli kiçildilmiş "Tanrılarıdır", bu kiçikbəylər və kiçikxanımlar istədikləri kimi çəkib çevirirlər bizi. Əksər vaxtı, uşağın yanında bacarıqsız və qüsurlu hala düşən "yetkin valideynlərdir". Madam ki, böyümək dəyər itirmək və gənclik illərinin gözləntilərinə xəyanət etməkdir, o zaman içində yatan və yenidən doğmaqdan başqa bir şey istəməyən o ilksiz və sonsuz uşağı göylərə qaldırmaq, müqəddəsləşdirmək mütləqdir. Oscar Vayld, "yaşlanmaq bir günah, bir cinayətdir hətta. Üzün qırışıqlığı ruhun yaşlanmasını əks etdirir" – deyə yazırdı. Bir sözlə, yetkin olmaq, püxtələşmək – ölməkdir də eyni zamanda. 1989-cu il 20 noyabr BMT qərarına əsasən uşaq tam bir insan, bütün haqqlara sahib bir vətəndaş olaraq vurğulanmaqla yanaşı, onu yetişkin olmayan kiçik yerinə qoymaq "qaradərililərə, yəhudilərə yaxud qadınlara qarşı təbiq

edilən diskriminasiya ilə eyni şey" olduğu elan edildi. Bu bəyannamə ilə "vətəndaş uşaqdan uşaq vətəndaşa" keçidin təməli qoyuldu. Modernizm əsri "kompraxikos" təriqətlərinə son qoydu. Nə ilə məşğul idi bu gizli təriqətlər? Onlar Papalar, Krallar və Sultanlar üçün uşaq ticarəti ilə məşğul idilər. Səfalət içindəki ailələrdən uşaqları alır, qorxunc bir ortopediya elmi ilə onları cılızlaşdıraraq kütlələri qəhqəhəyə boğacaq klounlara çevirmək üçün küp qabların içinə salırdılar. Əlbəttə ki, artıq bu vicdansız sənayedən söhbət belə gedə bilməz. Lakin, bugün yetkinləri uşaqlaşdırma, uşaqları yetkinləşdirmə, onların böyümələrini əngəlləyib infantilizmə məhkum etməyə qərar vermişik. Amma bilməliyik ki, bu uşaqsılıq heç bir halda uşağa duyulan böyük bir sevgi deyildir. Əksinə, içində özünü unutmaq, sərxoş olmaq üçün bu yaşın bütün simvollarının bayraq edildiyi - zamandan kənar bir zaman axtarışıdır. Xüsusən də, Qərbdə gördüyümüz o *babyish-ism* yetişkənliyi ayaqlar altına aldığı qədər, uşaqlığı da açaldır və uşaqsı olanla uşaq arasında zərərli bir paradoks yaradır. İnsan nə dünyanın, nə də özünün məsuliyyətini üzərinə almaq istəmədikcə, uşaq insanın gələcəyi olur"[197].

Bugün Qərb cəmiyyətlərində sevginin seksuallaşması cütlüklərin qurduğu münasibətləri kəskin dərəcədə zəiflədən amildir. Onların ehtirasa əsaslanan sevgisi gərgin və şiddətli, eyni zamanda eqoizm ilə çulğalaşmış, keçici, efemeral və kövrəkdir. Qurulan münasibətlərdə tərəflərin bir-birini seçməsində fərdi kaprizlər, dəblər, snobizm, konformizm və medianın təsirlər həlledici rol oynayır. G.Faye bildirir ki, ABŞ-dan daha çox Qərbi Avropada ideoloji diskurs, reklamlar və televiziya şouları stabil cütlüklər və böyük ailələrin deniqrasiyasına köklənib. Halbuki, strukturlaşmış və patriarxal şəkildə nizamlanan ailə Avropa sivilizasiyasının təməl sütunlarından biri idi. Monoqam və semi-patriarxal ailənin tənəzzülü yeni matrimonial modelin ortaya çıxmasına səbəb olmadı. Stabil və dayanıqılı ailə institutunun sonu boşluq, xaos və nizamsızlıq ilə nəticələndi. So-

---

[197] Pascal Bruckner – "The Temptation of Innocence: Living in the Age of Entitlement", (Algora Publishing, New-York, USA, 2000), p, 96-97

sio-seksual partlayışın ortaya çıxardığı bu qeyri-stabil ailə və xaotik qeyri-yetkinlik dekadensiyanın bütün simptomlarını nümayiş etdirən çağdaş Qərb psixologiyasının nüvəsini təşkil edir. "İndi"yə ibadət və gələcəyin neqasiyası (presentism), emosional qeyri-yetkinlik, narsissist və hedonist "Mən"in libertarian kultu bu simptomlara daxildir. Bu patoloji situasiya fərdləri təcrid etmək və onları bir-birindən uzaqlaşdırmaqla yanaşı, insani münasibətlərin efemerallaşması və səthiləşməsinə səbəb olur.

# SİLKLƏRİN REQRESSİYASI VƏ BEŞİNCİ SİLKİN YÜKSƏLİŞİ

Sivilizasiyanın və tradisional hakimiyyətin proqressiv dəyişməsi tarixöncəsi zamanlardan bəri bir silkdən[198] digərinə, vertikal formada, yuxarıdan aşağıya doğru baş verdi. Müqəddəs liderlərdən (Sapientes) savaşçı aristokratiyasına, ardınca isə tacirlər və nəhayət təhkimlilərə doğru. Tradisional sivilizasiyalarda bu kastalar əsas insani mümkünlüklərin məziyyət əsasında fərqliləşməsinə uyğun gəlirdi. Bu ümumi retroqressiya qarşısında xalqlar arasındakı müxtəlif münaqişələr, xalqların həyatı, yaxud digər hadisələr yalnız ikincidərəcəli, şərtlərə bağlı rol oynayırlar. Tradisional Avropa metafizikasında ilahi krallığın nümayəndələri və həm spiritual, həm də dünyəvi hakimiyyəti özündə ehtiva edən liderlər (Spiritual kişilik və Olimpiya suverenliyi) çox uzaq, eyni zamanda mifik keçmişə məxsus idilər. Bu "apex"in aradan qalxması ilə hakimiyyət daha aşağı savaşçılar silkinə endi. Hərbi liderlər və dünyəvi ədalətin hakimləri olan monarxlar daha sonralar siyasətən mütləq suverenlər idilər. Başqa sözlə, qan reqalianizmi ruh reqalianizmi ilə əvəzləndi. Buna rəğmən, hələ də əksər institutlarda real məzmunu olmayan bir formul olaraq "ilahi hüquq" ideyasını tapmaq mümkün idi. Bu qədim və müqəddəs rejimin başlıca cəhətlərini yalnız formal tərzdə qoruyub saxlayan institutlar arxasındakı belə idarəçilərə Antik dövrdə rast gəlmək mümkündür. Bütün perspektivlərdən, Qərb dünyasında Orta Əsrlər ekümeninin aradan qalxması və ikinci fazaya keçid mütləq xarakter aldı. Bu mərhələ dövlətin möhürünü saxlayan bağların dini deyil, savaşçı – rıtsar xarakterə malik olması, həmçinin də sadiqlik, şərəf və dürüstlük prinsiplərinin üstünlüyü anlamına gəlirdi. Bu əsr essensial olaraq böyük Avropa monarxlarının əsri yaxud tsikli kimi vurğulana bilər.

Bundan sonra isə, aristokratiyaların qürubu və monarxiyaların təməlinin sarsılması ilə ikinci kollaps baş verdi: inqilablar və konstitusiyalar ilə onlar faydasız institutlara çevrilərək "millətin iradəsinə" tabe oldu-

---

[198] Silk – Orta Əslər dövründə Avropada cəmiyyətin bütövlüyünə tətbiq edilən sosial sinifləndirmə və ya kateqorizasiya. Birinci Silk ruhanilərdən, İkinci Silk savaşçı zadəganlardan, Üçüncü Silk isə əsasən tacirlərdən ibarət idi. Tradisional Hind sivilizasiyasında isə sosial-siyasi orqanizasiyanın strukturu Kastalara əsaslanırdı

lar. Bəzi hallarda isə, onlar müxtəlif rejimlər tərəfindən devrildilər. Bu tendensiyanı xarakterizə edən prinsip belə idi: "Kral krallıq edir amma idarə etmir". Parlament respublikaları ilə birlikdə, kapitalist oliqarxiyaların formasiyası hakimiyyət mehvərinin ikinci silkdən (cəngavər - rıtsarlar) üçüncü silkin modern ekvivalentinə (merkantil sinif – ticarətçilər) doğru dəyişməsinə gətirib çıxardı. Kömür, qızıl və dəmir sənayelərinin kralları qan və ruh krallarını əvəzlədi. Bu, kommunaların üsyanı və ticari gücün müxtəlif formasiyalarının yüksəlişi idi. Fransada Üçüncü Silkin hüquqlarının nümayişkəranə bir şəkildə bəyan edilməsinin ardınca bütün Avropada liberal-demokratik ideologiyaları öz məqsədləri üçün istismar edən üçüncü silkin "burjua inqilabları" baş verdi. Bu era əsasən sosial kontrakt nəzəriyyəsi ilə xarakterizə olunur. Sosial bağ bundan sonra sədaqət və şərəf münasibətlərinə əsaslanan bir rıtsar - cəngavər xarakterli deyil, yalnız iqtisadi və utalitarian xarakterli ola bilərdi. O, yalnız bir tacirin düşünə biləcəyi komfort və maddi marağa əsaslı razılaşmadan ibarət idi. Aristokratiya plütokratiya ilə, rıtsarlıq institutu isə bankir və sənayeçilərin korporasiyaları, trestləri ilə əvəzləndi. Verner Sombart qeyd edir ki, Protestant puritanizminin vəd olunmuş torpağında Amerikanizm, kapitalizm və distillə edilmiş yəhudi ruhu birlikdə mövcuddur. Karl Marks vurğulayır ki, yəhudliyin dünyəvi prinsipləri praktik zərurət və insanın yalnız öz marağı üçün çalışması üzərində qurulub. Yer Allahı nədir? Pul. Fransa inqilabından sonra emansipasiya etməyə başlayan yəhudilər pulun hakimiyyətinə nəzarəti ələ keçirməklə yanaşı, onu dünya hakimiyyətinin rəmzinə çevirdilər. Bununla da, praktik yəhudi ruhu Xristian xalqlarının ruhu oldu. Xristianlıq yəhudiləşdikcə yəhudilər də sürətlə emansipasiya edirdilər[199].

Nəhayət, burjua cəmiyyətinin böhranı, sinfi mübarizə, kapitalizmə qarşı proletariat üsyanı, 1919-cı ildə "Üçüncü İnternasionalda" (Komintern) rəsmi olaraq elan edilən manifest və buna uyğun olaraq "əməyin sosialist sivilizasiyasına" müvafiq şəkildə kütlələrin və qrupların təşkilatlanması – bütün bunlar üçüncü kollapsdan, hakimiyyətin tradisional silk-

[199] Karl Marx – "German-French Annals", Paris, 1844, 209-212

lərdə ən aşağıda yer alanlara, təhkimlilərə və standartlaşmış fərdlərə doğru dəyişməsindən xəbər verirdi. Bu hakimiyyət transferinin nəticəsi ali dəyər və istinadların maddəyə, maşına və kəmiyyətin krallığına reduksiyası oldu. Rusiya inqilabı buna bir növ giriş xarakterli idi. Yeni ideal universal və kommunist sivilizasiyasının "proletarian" (Dimitri Merejkovski qeyd edir ki, "proletarian" sözü latınca proles – nəsil, generasiya sözündən gəlir. Proletarianlar yalnız öz bədənləri ilə istehsal edir və "yaradırlar", lakin onlar spiritual olaraq sterildirlər. Onlar kişilər yaxud qadınlar deyillər, sadəcə anonim yoldaşlar, insani qarışqa yuvasının bir hissəsi olan şəxssiz qarışqalardır[200]) idealı idi. Biz modern dünyanın strukturları daxilində elemental alt-insani (subhuman) qüvvələrin partlayaraq oyanışını "ruhunun (birinci silk), eləcə də azad qüvvə olaraq bədənini canlandıran iradənin (ikinci silk) gərginliyinə tab gətirə bilməyən və nəticədə, orqanik sistemin sub-insani qüvvələrinə təslim olaraq öz real həyatını əvəzləyən başqa bir *həyatın* impulsu altında maqnetik şəkildə reaksiya verən insan" ilə müqayisə edə bilərik. Demosun nəzarətdən çıxan "ehtirasları və ideyaları" sanki öz-özünə muxtar bir həyat əldə etmişcəsinə fəaliyyət göstərməyə başladı.

Millətləri və kollektivlikləri bir çuxura sürükləyən bu ehtiraslar sonda misligörünməmiş münaqişələr və böhranların üzə çıxması ilə nəticələndi. Total kollapsın baş verdiyi bu prosesin sonunda insanlığı gözləyən oraq və çəkicin barbar simvolları, insanı dehumanizasiya edən texnokratiyanın hakimiyyəti altında yaranacaq beynəlxalq sistem olacaqdı.

İnsan praktiki və utilitarian məqsədlərə, iqtisadi nailiyyətlərə, yəni inferiyor silklərin müstəsna domeninə özünü adamaqla yalnız özündən uzaqlaşa, parçalana, özünün spiritual mərkəzini itirə və şüuraltı aləti olmağa məhkum olduğu infernal qüvvələrin dominantlığına səbəb ola bilər. Modern cəmiyyət insani növdən hər bir fəaliyyət və reaksiyanın sadəcə fiziki həyatın diktələri və ehtiyacları tərəfindən müəyyən edildiyi alt-insani növə doğru yönələn bir orqanizmə bənzəyir. İnsanın hökmran prinsipləri tradisional iyerarxiyaların material hissəsinin prinsipləridir – pul

[200] Dmitry Merezhkovsky – "Les Mystères de l'Orient », p, 24

və iş. Şeylərin necə olmasını müəyyən edən məhz bu iki faktordur. Bu iki element mövcudiyyətin hər bir mümkünlüyünə təsir etməklə bərabər, bütün ali dəyərlərin dekadensiyasının kəskinliyini sübut edən ideologiyalar və mifləri də formalaşdırır. Bu dördmərhələli reqressiya sosio-siyasi miqyasa sahib olmaqla yanaşı, sivilizasiyanın bütün sahələrini də ağuşuna alıb. Memarlıqda bu reqressiya belə simvolizə olunur – dominant tikili olaraq məbəddən (birinci silk), qala və qəsrlərə (ikinci silk), müdafiə divarları ilə əhatələnmiş şəhər dövlətlərə (tacirlər əsri) və nəhayət kütlə insanın yuvası olan fabriklərə, rasional və donuq yaşayış binalarına. Kökü etibarı ilə müqəddəs təməlləri olan ailədə bu inversiya belə baş verdi – *avtoritar* modeldən (patria potetas), müvafiq olaraq burjuaziya, konvensional və atomist ailəyə doğru. Əhəmiyyət və ləyaqət baxımından partiya, xalq və cəmiyyət ailənin yerinə keçdikcə o tamamilə aradan qalxmağa başladı. Analoji reqressiv mərhələlər müharibə anlayışından da yan keçmədi – öncə "müqəddəs müharibə" və *mors triumphalis – triumfal ölüm*[201] doktrinasından bir "lord"un hüquq və şərəfinin qorunması uğrunda edilən müharibəyə keçildi. Növbəti mərhələdə isə artıq müharibələr milli ambisiyalar və üstünlükçü (supremacist) iqtisadi və sənaye maraqları naminə (tacirlər əsri) edilməyə başlandı. Və nəhayət, millətlər arasında müharibəni burjua qalıntısı adlandıran Kommunist ideologiyası üçün yalnız "ədalətli müharibə" - imperialist və kapitalist dünyaya qarşı proletarian sinfinin başladacağı dünya inqilabı olmalı idi (təhkimlilər silki)[202]. Estetik dimensiyada isə reqressiya, simvolik və müqəddəs incəsənətdən (ali bilik və suverenliyin mühafizi olan müdriklər silki), epik incəsənət və poemaların üstünlüyünə (aristokratik rıtsarlıq silki), daha sonra isə burjua sinfinin istehlakı üçün istehsal olunan romantik, konvensional, sentimentalist, erotik və psixoloji incəsənətə və ən sonda, kütlələrin istifadəsi və istehlakı üçün mövcud olduğu iddia edilən yeni "sosial" və "sosial olaraq cəlb olunmuş"

---

201 J.Evola – "Metaphysics of War", Battle, Victory and Death in the World of Tradition, Arktos, 2011, p, 18

202 Liberalizm isə bugün "Ədalətli müharibə" konseptini "insan hüquqları" ideologiyasını qəbul etməyən dövlətlərə qarşı total müharibə vasitəsi kimi istifadə edir.

kitç incəsənət baxışlarının yekun dominantlığına doğru baş verdi. Tradisional dünya yalnız supra-fərdi birliyi xarakterizə edən düzəni bilirdi. Qərbdə, ilk olaraq asketik və monastik düzən cəngavər – rıtsarlıq düzəni ilə əvəzləndi. Əsasən, Fransa İnqilabından sonra ciddi üstünlük qazanmağa başlayan Üçüncü Silk və demokratiya tədricən hakim sosio-siyasi nizamı məhv etməyə fokuslanmış Kommunist İnternasionalının inqilabçı və aktivist kadrlar şəbəkəsi tərəfindən təhdid edilməyə başlandı.

Etika sahəsində də deqradasiya prosesi xüsusilə aşkardır. Birinci əsr "spiritual kişilik", inisiasiya və bütün insani bağlara üstün gəlməyə köklənmiş etika ilə xarakterizə olunurdusa, rıtsarlıq əsri qəhrəmanlıq, qələbə, eləcə də şərəf, sadiqlik və cəngavərliyin aristokratik etikası ilə simvolizə olunurdu. Tacirlər əsrində isə, sadəcə iqtisadiyyat, gəlir, tərəqqi və istehlak cəmiyyətində istehsal qüvvələrini təşviq edən texno-industrial inkişafın başlıca aləti kimi elm idealları hökmran rol oynamağa başladı. Nəhayət, təhkimlilərin yüksəlişi təhkimli prinsipinin – işin dini status əldə etməsi ilə nəticələndi. Qulların böyük nifrətlə özlərində qoruyub saxladığı prinsip hər zaman belə olub: "işləməyən yeməyəcək". Təhkimlinin öz-özünü alqışlayan axmaqlığı insan tərinin eksalasiyası ilə birlikdə insani nifrəti daha da təhrik edirdi. İş, "insanı ucaldan yeni bir din", "etik və sosial vəzifə" olacaqdı.

Biz bilirik ki, tradisional dünya spiritual fəaliyyəti bildiyi üçün işə nifrətlə yanaşırdı. Metanoyaya istiqamətlənmiş *fəaliyyət* anlayışının "iş"ilə ziddiyyəti insanda spirtual, saf və azad qütbün sadəcə insani mümkünlükləri əks etdirən qeyri-saf və maddi qütb ilə ziddiyyətinə bağlıdır. Bu ziddiyyət anlayışının aradan qalxması və azad fəaliyyətin işə heyvani subordinasiyası son əsrlərimizi xarakterizə edən əsas cəhətlərdən biridir. Tradisional dünyada hər bir iş öz saflığı, bir spiritual dəyəri və daxili transfiqurasiya vasitəsi olmasından dolayı bir fəaliyyət simvoluna çevrilirdi. Lakin, modernist ideologiyaların başlatdığı və əks istiqamətdə baş verən təlatüm nəticəsində (xüsusən də təhkimlilər əsrində baş verən) spiritual fəaliyyətin hər bir qalığı bir iş formasına deqradasiya edildi. Tradisional aristokratik və müqəddəs etikanın modern plebey və materialist əxlaqa

degenerasiyası məhz fəaliyyət düzənindən iş düzəninə doğru yönəlmiş reqressiv dəyişiklik ilə xarakterizə olunur. Çox da uzaq keçmişdə yaşamayan ali insan ya fəaliyyət göstərir ya da fəaliyyətlərini istiqamətləndirirdi. Modern insan isə işləyir. Yeganə fərq yalnız işin müxtəlif növləri arasında mövcud olan fərqdir. "İntellektual işçilər", ayaqlarını və maşınları istifadə edən işçilər var. İstənilən halda "mütləq şəxsiyyət" anlayışı ilə birlikdə gerçək spiritual fəaliyyət də yox olub. Antik dövr üçün həzz və maddi məmnuniyyət axtarışında olanlar nasiranə həyat sürən, ən mənhus fərdlər idi (minimaeque artes eas probandae, quae ministrae sunt voluptatum). Hər şeydən əvvəl, məhz bu növ iş Modernizm əsrində ən çox sayğı duyulan iş hesab edilir. Elm adamı, texnoloq, siyasətçi və istehsal təşkilatının rasionallaşmış sistemi ilə birlikdə "iş" daha mükəmməl bir idealın realizasiyasına səbəb olub. Daha asan həyat bu əhliləşmiş varlığın rifahı və fiziki komfortu ilə birgə daha hedonist və daha təhlükəsizdir. Modern sənətkarların və burjuaziyanın "kreativ ağlının" ortaya çıxması Roman patrisiatının və daha sonralar feodalların həzz və distraksiyalarını təmin edən "cah-cəlal xidmətçiləri" ilə ekvivalentdir. Bu deqradasiyaya aid olan cəhətlər nəinki sosial səviyyədə, eləcə də modern həyatın ideal və spekulyativ-nəzəri səviyyəsində də özünü göstərir. Məhz humanizm əsrində, autentik axmaqlıq ilə mazoxist formada Qızıl Əsrin tradisional dəyərlərini tərsinə çevirərək "insani cəhd" və "iş əsrini" mədh edən Cordano Brunoda bu anti-tradisional və plebey əxlaqı ortaya çıxdı. Bruno insani ehtiyacın amansız instinktini ilahiləşdirdi. Ona görə, insanlığı süst və animalist Qızıl Əsrdən xilas edərək, onu "möhtəşəm əsərlərə və ixtiralara" yönləndirən məhz bu impulsdur[203]. Biz burada tərəqqi mədhiyyələri oxumaqla yanaşı, iş və maşın baxımından messianik mövzuları canlandıran və işə sosial mifin əsas elementi olaraq yanaşan ideologiyaların (daha çox Fransa inqilabından sonra doğan) öncədən ortaya çıxmasını müşahidə edə bilərik. Modern insan şüuri və alt-şüuri formada iş yerlərində, fabrik və zavodlarda yetişdirdiyi "təcrübələri" ideal səviyyəyə qaldırmağa və onları

[203] Giordano Bruno – "Spaccio della bestia trionfante", Milano, 2000, dialoq 3 (terzo dialogo)

bəşəriyyətə tətbiq etməyə başladı. *Elan vital* - həyati impetyusu yüksəldən A.Berqson yalnız modern insanın praktiki prinsiplər və intellektual üsullardan ilhamlana bildiyini qeyd edərək, tradisional biliyin dərin düşüncə ideyasını "inersiya" adlandırır. İtalyan filosofu Adriano Tilger vurğulayır ki, "ən radikal trayektoriyalarında modern epistemologiyanın bütün cəhdi "Bilmək etməkdir", "insan yalnız etdiyini həqiqətən bilə bilər" postulatları ilə biliyi produktiv işə assimilyasiya etməkdir[204]."

"Olmaq bilmək deməkdir", "spiritus ideya ilə, produktiv və immanent bilmə prosesi isə reallıq ilə identifikasiya edilməlidir" – kimi postulatlar dördüncü silkin həyat yolunun ən ali sahələrdə əks olunması və özünü təməl həqiqət olaraq önə sürməsi anlamına gəlirdi. Oxşar şəkildə də, fəlsəfi nəzəriyyələr sahəsindəki aktivizm sonuncu silkin və onun "iş sivilizasiyasının" yüksəlişi sayəsində yaranan dünya ilə birbaşa bağlı idi. "Təkamül" və "tərəqqi" ideologiyalarında əks olunan bu yüksəliş "elmi" məsuliyyətsizliklə birləşərək Tarixin bütün ali məziyyətlərini gerçək anlamından sapdırmaqla və tradisional həqiqətlərin mütləq reqressiyasını təşviq etməklə yanaşı, modern insanın qlorifikasiyası üçün ən yanıldıcı "səbəblər" yaratdı. Təkamülçü mif *parvenu* mədəniyyətindən başqa bir şey deyil. Bugün, əgər Qərb özünün transsendental köklərinə deyil, təhkimlilər silkinin prinsipinə, öz dəyərlərinin aliliyinə deyil, sivilizasiyanın barbarlıqdan, dinin batil inanclardan, insanın primatdan, düşüncənin maddədən, hər bir spiritual formanın "kollektiv şüuraltının" libidosu, instinkti və komplekslərini meydana gətirən "sublimasiyadan" törədiyinə qəbul edirsə, tradisional aristokratik cəmiyyətə qarşı parialar və təhkimlilərin inqilabı nəticəsində yaranan dünyanın doğru olduğuna inanmış olmalı idi. Bu və yaxud digər formada ele bir dimensiya yoxdur ki, təkamülçü mif destruktiv nəticələri ilə infiltrasiya edə bilməsin. Nəticə isə, hər bir dəyər və həqiqət anlayışının devrilməsi, aldadılmış və dinsizləşdirilmiş insanlığın məskunlaşdığı dünyanın formalaşması və birləşməsindən (bir qırılmaz

204 Adriano Tilgher – «Homo Faber: Storia del concetto di lavoro nella civiltà occidentale, analisi filosofica di concetti affini», (Libreria di Scienze e Lettere, Roma, 1929), p, 120-121

sehrli dairədə olduğu kimi) ibarət oldu. Historisizm ilə birlikdə post-Hegel İdealizmi “Mütləq Ruhun” essensiyasını onun “becoming”i və öz-özünü yaratması ilə eyniləşdirdi. Artıq, Ruh özünə hökm edə və özünə sahib olan Varlıq olaraq düşünülmürdü. Çünki, öz-özünü yaradan insan (self-made man) yeni metafizik model olmuşdu.

Tacirlər əsrini ortaya çıxaran reqressiyanı təhkimlilər əsrinin doğuşuna səbəb olan reqressiyadan ayırmaq heç bir halda mümkün deyil. Çünki hər ikisi bir-birindən asılıdır. Bütün praktiki məqsədlər üçün universal vəzifə olaraq dəyərləndirilən iş tradisional cəmiyyətlərdə olduğu kimi inferiyor, absurd və qeyri-təbii olaraq qəbul edilmir, əksinə tamamilə maaşlaşmış “fəaliyyət” təbii və normal olaraq dərk edilir. Pul toxunduğu insanı axmaqlaşdırmır, o daha pis və daha əxlaqsız quldarlığın görünməz bağıdır. Fəaliyyətin hər bir növü bir iş formasına çevrilərək ödənişlə assosiasiya edilir. Bir tərəfdən, fəaliyyət öz faydalılığı ilə mühakimə edilən işə endirilir, digər tərəfdən isə insan yalnız praktik uğur və gəlir ilə dəyərləndirilir. Sərvət və gəliri İlahi eleksiya mistisizmi ilə örtən məhz Kalvin oldu. Aclıq və işsizliyin spektri qədim zamanlardakı qamçılanma təhdidindən daha qorxuducu təhdid xarakteri daşıyır. Sərvət və güc axtarışında olan fərdlərin mərkəzi motiv təşkil etdiyi fazadan (bu, üçüncü kastanın yüksəlişi ilə bağlı olan mərhələdir) müstəqilləşmiş və kollektivləşmiş suveren iqtisadiyyatların dominant olduğu fazanı (bu isə sonuncu – dördüncü kastanın yüksəlişi ilə birbaşa bağlıdır) ayırmaq mümkündür. Fəaliyyət prinsipinin tradisional dünyanın inferiyor silklərinə uyğun gələn iş və istehsal formalarına reqressiyası “asketizm” prinsipi baxımından da aydın görülən analoji reqressiya tərəfindən müşaiyət edilir. Modern dünyada özünü göstərən yalnız pul və iş asketizmidir. İşləmək və sərvət toplamaq sanki bir ilahi vokasiya kimi icra edilir. Sadəcə öz var-dövlətinin menecerləri olan Amerikalı güclü kapitalistlər qədim aristokratiyalarda olduğu kimi işçilərinin keyfiyyəti, spiritual əzəməti və həssaslıqlarından deyil, öz sərvətlərindən həzz alırlar. Onların yerinə yetirdiyi “fəaliyyətlər” sanki qeyri-şəxsi və “asketik” alətlər olaraq yalnız pul və istehsalın simasız qüvvələrini top-

lamağa, çoxaltmağa və onları daha geniş şəbəkələrə yönləndirməyə həsr edilib. İnsanın "homo oeconomicus" və böyük kapitalist mütəşəbbüs olduqdan sonra öz ətrafında yaratdığı spiritual xarabalıq və boşluğu təsvir etmək üçün Alman sosioloqu V.Sombart son dərəcə doğru şəkildə: "Fiat productio, pereat homo – insan yox olsa da, qoy istehsal olsun" – hökmran modern formulu qeyd edir[205]. Bu yolla hər bir aktivliyi özlüyündə bir məqsədə çevirən insan total şəkildə dəyərsiz bir həyatın abismal dəhşətinin vertiqosuna özünü qurban verib. Ali və transsendental maraqlar aradan qalxdığı zaman əsas referensiya sadəcə maddi və heyvani anlamda insanın ehtiyacına doğru yönəlir. Qədim Yunanlar, məqsədi insanın ehtiyaclarını təmin etməkdən ibarət olan *oikonomika* ilə son məqsədi istehsal və pul qazanmaqdan ibarət olan *xrematistika* arasında differensiasiya yaradırdılar. Normal iqtisadiyyat daxilində insani ehtiyacın limitasiyasının bu tradisional prinsipi Sənaye İnqilabı və maşınlar əsrinin yüksəlişi ilə paralel inkişaf edən süni ehtiyacların qəbulu və daha da artırılması prinsipi ilə əvəzləndi. Sənaye kapitalizminin *ali* məqsədi ən qısa zamanda maksimum gəlir əldə etməkdən ibarət olan maliyyə kapitalizmi tərəfindən devrilməsi milli iqtisadiyyatlar və xalqların uzunmüddətli maraqlarına detrimental şəkildə təsir etdi. Bu metamorfozis genişmiqyaslı spekulyasiyalar, kreditlərin asan əldə olunması, beynəlxalq investorların dominant rolu, fərdlərin misligörünməmiş dərəcədə borclandırılması ilə mümkün oldu. Yalnız riyazi formuallar ilə ifadə olunan bu iqtisadi düşüncə kəmiyyətləşdirilə bilməyən hər bir faktoru istisna edir. Ona görə də, ÜDM, ÜMM və s.kimi makroiqtisadi indekslər bir cəmiyyətin aktual reallıqlarını aşkara çıxarmağa qadir deyil.

Texnoloji innovasiyalar bəşəriyyəti istehsaldan ifrat istehsala (overproduction) doğru sürüklədi. Aktivist dəlilik oyandırıldıqdan və kapitalın çılğın (frenetik) dövriyyəsi (produktiv investisiyalar vasitəsilə yenidən dövriyyəyə qoyulmaq üçün istehsal yolu ilə artırılan kapital) başlan-

---

[205] Werner Sombart – "The Quintessence of Capitalism: A Study of the History and Psychology of the Modern Business Man", Hardpress, Miami USA, 2017

dıqdan sonra insani ehtiyac ilə maşın arasındakı münasibət bütöv şəkildə tərsinə çevrildi: artıq, mexaniki işi tələb edən ehtiyac deyil, yeni ehtiyaclar yaradan mexaniki işdir (yaxud istehsal). "Super-production" rejimində məhsulların satılması üçün fərdlərin ehtiyaclarının azaldılması deyil, bu ehtiyacların saxlanılması və daha da artırılması (multiplikasiya) mütləqdir. Bununla qlobal kapitalistlərin məqsədi iki mühüm nəticəsi ola biləcək fatalitik staqnasiyadan yayınmaqdır. Əks halda, ya "kifayət qədər məkana " sahib olmadığını iddia edilərək daha böyük iqtisadi və istehsal gücü əldə etmək vasitəsi kimi müharibələr baş verə ya da iş bazarındakı böhranlara cavab olaraq sənaye durğunluqlarının səbəb ola biləcəyi işsizlik tüğyan edə bilər. Nəticədə isə, Dördüncü Silkin üsyanını sürətləndirən böhranlar və sosial gərginliklər ortaya çıxar. Alovun bütövlükdə bir ərazini ağuşuna alana qədər digər alova qığılcım verdiyi kimi, modern insanın yaratdığı dünya da onun daxili essensiyasını sarsıdır. Qərbin spiritual bataqlıqlarından törəyən modern sivilizasiya yolxucu xəstəliyini dünyanın hələ də mental və spiritual baxımdan sağlam olan bütün hissələrinə yaymaqla xalqların və cəmiyyətlərin hər bir stratasına aşağıdakı "hədiyyələri" bəxş edib: daimi hərəkətlilik, tətminsizlik, qəzəb, daha irəliyə doğru daha sürətli getmək ehtiyacı, sadəlik, balans və müstəqilliyə məxsus bir həyata sahib ola bilmək qabiliyyətsizliyi. Modern sivilizasiya insanda tərəqqi illüziyası yaratmaqla onu daha çox şeylərə sahiblənməyin arasıkəsilməz ehtiyacına tabe etdi. Moderin insan gücüz və özü üçün belə natamam, kifayətsizdir. Hiss edilməyən və çevrilə bilməyən şərtləndirmələr sistemində durmadan sürətlənən insanlıq üçün hər bir yeni ixtira və texnoloji kəşf sadəcə bir məğlubiyyət, şiddətli travmadır. Beləcə, müxtəlif yollar bir nöqtədə kəsişir: texnoloji sivilizasiya, iqtisadiyyatın dominant rolu və istehsal-istehlak sivilizasiyası *becoming* və tərəqqinin mədhiyyəsini tamamlayır. Başqa sözlə, onlar modern dünyada demonik elementin triumfal nümayişinə zəmin yaradır.

Asketizmin degenerat formalarından biri olaraq "iş" sahəsi ilə əlaqəli olan digər bir fenomenin adını da qeyd etməliyik. Modern dünya "maraq-

sızlaşmış", iqtisadi, istehsal-istehlak ideallarından qopmuş işin sublimasiyalaşdırılmış bir versiyasını təlqin edir. Asketik forma almış bu versiya İdmandır. İdman, produktiv məqsədin heç bir rol oynamadığı işləmə tərzidir. İdman, sadəcə bir "fəaliyyət" kimi idman xatirinə arzu edilir və yerinə yetirilir. Adriano Tilgerin "Homo Faber" adlı kitabında qeyd etdiyi kimi, idman modern işçinin dininə çevrilib[206]. Modern idman fetişi tradisional mənada fəaliyyətin yalnız saxta təqlididir. Modern plebeyliyin yoluxduğu hər yerdə yayılan və eyni triviallıq ilə xarakterizə olunan bu dəyərsiz fəaliyyət fiziki və ruhsuz xarakterli digər fəaliyyətlər qrupuna daxildir. Heç bir fədakarlıq anlayışı, ali və spiritual yüksəliş, transfiqurasiyaedici referensiyası olmadığı üçün modern idman praktikası yalnız hay-küylərin və vertiqo hissinin həzzindən, qalib olma enerjisinin doğurduğu həyəcandan ibarətdir. Fiziki fərdiyyətçilik məhz idman ilə bəslənilir və gücləndirilir. Daxili-ruhi həssaslığın hər bir qalığı boğulduqca reflekslər yığınına endirilən insan orqanik varlığa deyil, bir mexanizmə çevrilir. Cəmiyyətin daha aşağı təbəqəsindəkilərin idmana daha çox həvəs göstərdikləri və bu entuziazmı böyük kollektiv formalarda nümayiş etdirdikləri aşkar bir reallıqdır. İdman, Dostoyevskinin "Şiqalev" obrazında öncədən xəbərdarlıq etdiyi cəmiyyətin bir simvolu olaraq müəyyən edilə bilər. Modern Şiqalev-lər məsumiyyəti və yeni Eden-in xoşbəxtliyini yaşamaq üçün qayıdıblar sanki. Lakin, bu "Eden" yalnız işin hökmran universal qanun olmasına görə Bibliya Edenindən fərqlənir. İdman olaraq iş və iş olaraq idman tarixi dövrlər və gerçək şəxsiyyət hissini itirmiş bir dünyada messianik idealı icra etmək üçün ən yaxşı yoldur. Heç də təəccüblü deyil ki, əksər cəmiyyətlərdə spontan şəkildə və yaxud dövlətlərin təşviqi ilə böyük idman təşkilatları müxtəlif işçi siniflərinin appendiksi olaraq (və ya əksinə) ortaya çıxır.

Qeyd olunduğu kimi, Kommunizm və Sovietizm ilə nəticələnən sosialist və proletarian hərəkatlar sonuncu qatın – Dördüncə Silkin meydana gəlməsinin prelyudası oldu. Üçüncü Silkin sivilizasiyasını sarsıtmaq istəyən bu silk ümumdünya hegemoniyası qazanmağa çalışırdı. Silklər

206 Adriano Tilgher – "Homo Faber", p, 162

piramidasının bu şəkildə inversiyası və dağılması "tarixin mənası" olaraq deyil, *tarixin mənasızlığı* olaraq dərk edilməlidir. Lakin bu reqressiv proses Dördüncü Silkin ortaya çıxması ilə dayanır mı? İki dünya müharibəsi arasındakı dövrdə müəllifi Haynrix Berl olan bir kitab ortaya çıxdı. Kitab, *Beşinci Silkin yüksəlişi* (Die Heraufkunst des Fünsten Standes) olaraq adlanırdı. Teoretik məzmunları və tarixin reqressiv şəkildə şərhindan əlavə, kitab kəskin emosionallığı ilə də fərqlənir. H.Berl bir sanatoriyada yazdığı bu kitab barəsində "hər səhifəsində hərarət var" deyə qeyd edir. İstənilən halda, onun irəli sürdüyü tezis Modernizm əsrinin müəyyən aspektlərinin dərindən dərkini arzulayan hər bir kəs üçün maraq kəsb edir.

Berlə görə, Tarixdə bu reqressiya Dördüncü Silk (kollektivləşdirilmiş Marksizm) ilə dayanmayacaq. Bu proses Beçinci Silkin meydana çıxması ilə özünü əbədiləşdirməyə doğru meyillənəcək[207]. Beşinci Silk nə ola bilərdi? Burada, hər şeydən öncə biz hər bir orqanizasiyanın iki başlıca elementdən ibarət olması ideyasından bəhs etməliyik. Bir tərəfdə düzən (*cosmos*), digər tərəfdə isə xaos qüvvələri. Orqanizasiya determinat strukturlar daxilində xaos qüvvələrini rəbt edən və onları cilovlayan formativ aktdan meydana çıxır. Lakin, sivilizasional tsikl öz terminusuna yaxınlaşdığı zaman onun tradisional sivilizasiyalar, onların spiritual, aristokratik dəyərləri və institutları tərəfindən nəzarət edilərək ali qanuna tabe edilən elemental alt-qatı (substratum), sub-personal təməli azad halına qayıtmağa, destrukiv tərzdə fəaliyyət göstərməyə və üstünlük qazanmağa meyillənir. Bu, Beşinci Silkin yüksəlişi ilə uyğunluq təşkil edən hüduddur. Hər bir "inqilabi" fenomendə bu amorf substratanın ortaya çıxması qaçılmazdır. O, ilkin mərhələdə hər zaman primitivlik, destruktiv və dekadent həzzlər, fərdin kollektivə - "kollektivin iblislərinə doğru" reqressiyası ilə xarakterizə olunur. Fransa İnqilabı haqqında Jozef de Mestr tərəfindən yazılmış səhifələr bu baxımdan perennial dəyərə sahibdir. Əgər biz "Dövlət" anlayışından bəhs etdiyimiz zaman ali düzənin hakimiyyəti ideyasının inkarnasiyasını nəzərdə tuturuqsa, Dördüncü Silk qəti şəkildə anti-Dövlət ola-

207 J.Evola – "Recognitions, Studies on Men and Problems", Chapter III (Üçüncü Fəsil)

raq dərk edilməlidir. Berl vurğulayır ki, Modernizm fenomeni özlüyündə təşkilatlanmış və endemik sui-istifadənin, tipik Amerikan qanqsterizminin simptomlarını özündə ehtiva edir. Son zamanlarda onun xarakteristik səciyyəsi "orqanizasiya" səciyyəsinə transformasiya olub. Paradoksal şəkildə, burada "xaosun təşkil etdiyini" söyləmək mümkündür. Eyni qüvvələr özünü Dördüncü Silk tərəfindən yaradılan marksist və kommunist sistemlərdə də göstərdi. Çünki qravitasiyanın təbii qanununa görə çöküş prosesində müəyyən bir mərhələ daha inferiyor olana doğru özünü yönləndirməklə sona çatır. Bu kontekstdə, biz sadəcə sosial və siyasi müstəvilərdə özünü göstərən fenomenləri deyil, şəxsiyyət və onun deqradasiyasını da nəzərə almalıyıq. Tarix boyu hər zaman qəddarlıq və zülm halları mövcud olub. Lakin, Modernizm əsrində bu fenomenləri xarakterizə edən başlıca cəhət insani varlıqları onların gözləri qarşısında avtomatlaşdırılmış kuklalara qədər degenerasiyaya uğradan rasional olaraq öyrənilmiş, məşum və məkrli metodlardır. Dəmir Pərdə səhnələri arxasındakı müəyyən proseslər, konsentrasiya və "yenidən təhsilləndirmə düşərgələri" bu metodların Tarixdə əyani sübutları idi. Bu hücumların başlıca hədəfi insani forma və şəxsiyyətə amansız hücum üzərində qurulurdu.

H.Berl-in kitabının ortaya çıxmasından bəri baş verənlərin spesifik cəhətlərinə diqqət yetirək. Məsələn, xüsusən də, İkinci Dünya Müharibəsindən sonra baş qaldıran "üsyan nəsli" bu perspektivdən qeyd edilməlidir. Üsyan, hər hansı bir ali haqlılığa malik olmayan, getdikcə daxilən boşalan və absurdlaşan, standartlaşan və mexanikləşən, eləcə də kəmiyyətin amorf dünyasının alt-şəxsiyyətinə doğru meyillənən bir sivilizasiyaya qarşı olduğu zaman gerçək legitimliyə sahibdir. Lakin, "bayraqsız üsyançıların" paroxiallığı nəticəsində üsyan özlüyündə və özünün son məqsədi olduğu və zəncirindən qopmuş heyvan kimi ortaya çıxma, primitivizm, seksomania, neqro-jazz, vulqar, anarxik, kriminal zorakılıq və sərxoşluq ilə müşaiyət olunduğu zaman inferiyor elementlərin ağuşunda bütün ali meyarlar və prinsiplər bütövlükdə aradan qalxır. Bu xaotik qüvvələrin fəaliyyəti mövcud düzəndə çat yaratmaqla travmatizasiyaya məruz qalan modern

insanlar arasında şüur-altı dominasiya əldə edirlər. Digər tərəfdən, Psixoanaliz alt-insani təməli bağlayan diafraqmanı bütövlükdə açmaqdan başqa nəyi təmsil edir? Və ya, qeyd edilən psevdo-elmi hərəkat bu alt təməlin insan psixikasının həqiqi motivi və insanın insaniliyinin başlıca elementi olduğunu bildirməklə insan ruhu və şəxsiyyəti üzərində total inversiyaya səbəb olmadan başqa nəyi təmsil edir? Bu fenomenlər ilə Sol ideologiyanın sosial və tarixi müstəvidə "yüksəliş" olaraq xarakterizə etdiyi hər şey arasındakı kəskin oxşarlığı müşahidə edilə bilər. Bu "yüksəliş" bütün ali siyasi strukturların öz gücündən məhrum edilməsi və onların tam şəkildə aradan qalxması deməkdir. Bu kontekstdə, qeyd edilən fenomenlər eyni zamanda bugün sadəcə bir superstruktura endirilən insanda suverenliyin simvolu olan *hegemonikon* (ruhun və bəşəriyyətin, idarəedici, dominant hissəsi) üzərinə bir hücum olaraq da dəyərləndirilməlidir.

*Tarixin həqiqi mənası* və onun məntiqi ilə bağlı olmaqla H.Berl tərəfindən təhlil edilən fenomenlərin sosial və ekzistensial aspektləri qarşıda bizi gözləyən dekadensiya simptomlarını ehtiva etdiyinə görə bizim üçün böyük maraq doğurmaq gücündədir. Hər şeydən əvvəl, dünyanın "apokaliptik" baxışlarına qarşı diqqətli olunmalı, bu kontekstdə hakim olan ekzistensial fenomenlər hər kəsi (hətta proqressivist demokratiya mifləri tərəfindən uyudulanları belə) refleksiyaya məcbur etməlidir. Sivilizasiya və sosial orqanizasiya müstəvilərində dördmərhələli çöküş bir reallıqdır. Oxşar şəkildə də, bu dekadensiyasının xaotik inferiyor qüvvələrin üstünlüyünə doğru davam etməsi də mütləq vurğulanmalıdır. Beşinci Silkin yüksəlişi olaraq H.Berlin çox doğru şəkildə formulə etdiyi bu mərhələ artıq insani deyil, alt-insani dünyanı meydana gətirən misligörünməmiş reqressiyadır.

# NEOSPİRİTUALİZM və ONUN FORMALARI

Fizika elminin son nailiyyətlərinin erkən materializmə üstün gəlməklə reallığın yeni, spiritual *dərkinə* doğru yönəldiyi barəsində irəli sürülən əsassız ideya "Neospiritualizm" olaraq adlandırılan anlayışın da təməlini təşkil edir[208]. Bəzi çevrələrdə ortaya atılan düşüncələrə inansaq, müxtəlif hərəkatlar, məzhəblər, lojalar və dini konventikllər tərəfindən supra-təbii və supra-sensual dünyaya doğru yönəlməni təmin edən tendensiyaların getdikcə artan varlığını müşahidə edə bilərik. Onları ümumiləşdirən ambisiya pozitiv, doqmatik, boş, qeyri-effektiv, həmçinin qeyri-adekvat din formalarından fərqlənməklə Qərb insanını materializmə üstün gəlməyə qadir edən daha *ali* bir şey təmin etmək məqsədidir. Bu, Modernizm üçün tipik olan prinsiplər çatışmazlığının səbəb olduğu daha bir illüziyadır. Həqiqət ondan ibarətdir ki, bəhs edilən fenomen əsrimizin səbəb olduğu dissolyusiya proseslərindən biri olmaqla Qərb materializmi ilə ittifaq içərisindədir. Neospiritualizmin əhəmiyyəti və həqiqi yerini dərk edə bilmək üçün O.Şpenqlerin "Qərbin qürubu" adlı əsərinin ikinci cildində qeyd etdiyi "ikinci dindarlıq" ideyasına nəzər yetirməliyik. Adıçəkilən əsərində sivilizasiyalar tarixini təhlil edən O.Şpenqler bildirir ki, hər bir sivilizasiya həyatın orqanik formalarının, spirituallığın, yaradıcı keyfiyyətin, yaşayan ənənənin və irqin hakim olduğu mərhələlərdən sonra şəhərləşmiş ruhsuz formaların, mücərrəd intellektin, iqtisadiyyat-maliyyə-praqmatizm öncəliyinin üstün olduğu tənəzzül fazasına daxil olur. Bu faza daxilində əzəmətli, aristokratik *ruh* kütlələrin dominasiyası ilə əvəzlənir. Bu terminal mərhələ Rene Genon tərəfindən belə analiz edilir: "Orqanizmlərin de-kompozisiyası ikimərhələlidir: Birinci mərhələ *rigor mortis* (bir sivilizasiyada materializmin mütləq üstünlüyü) və ikincisi isə, cəsədin yekun dezinteqrasiyasının baş verdiyi yekun mərhələ. Şpenqlerə görə, sivilizasiyaların terminal fazasını müşaiyət edən fenomenlərdən biri də "ikinci dindarlıq"dır. Rasionalizm, praktiki ateizm və materializmi özündə ehtiva edən barbarca əzəmətin strukturları üzərində ortaya çıxan spirituallıq və mistisizmin sporadik formaları yenidən yüksəliş deyil, çöküş simptomla-

[208] J.Evola – "Chevaucher le tigre", p, 257

rıdır. Onların ekspressiyaları öz təməllərini gerçək dini mənşədən və ya məziyyətli, orqanik bir sivilizasiyanın mərkəzində duran aristokratik elitalara məxsus formalardan götürmür. Çünki artıq bu mərhələdə pozitiv dinlər ali dimensiyalarını itirməklə sekulyarlaşır, birdimensiyalı hala gəlir və öz orqanik funksiyalarını icra etmək gücünü itirirlər. "İkinci dindarlıq" həm də mövcudiyyətin hakim və öncül cərəyanlarından kənarda inkişaf edərək bir qaçış, yadlaşma və dolaşıq kompensasiya fenomeni olmaqla heç bir halda ruhsuz, mexanistik və dünyəvi sivilizasiya reallığına qarşı gələ bilmir. Bu, "ikinci dindarlığın" anlamı və onun yeridir. Bu fenomenin təsviri Şpenqlerdən daha dərin doktrinaya sahib olan R.Genona istinad etməklə tamamlana bilər. Genon qeyd edir ki, XIX əsr materializmi və pozitivizminin insanı həqiqi supra-təbiilik və transendentallıqdan qoparmasından sonra "spirituallıq" və "yeni psixologiya" kisvəti altında XX əsrdə ortaya çıxan axınlar insanı insani varlığın ekzistensial səviyyəsindən daha aşağı yönəltməyə başladı[209]. Burada, "yuxarıya doğru transsendensiyaya" qarşı olaraq Aldous Hakslinin "aşağıya doğru transsendensiya" təbirindən[210] istifadə etmək məqsədəuyğun olardı. Bugün, Qərb bir sivilizasiyanın terminal mərhələsinə uyğun gələn ruhsuz, kollektivist və mexanistik fazada özünü nümayiş etdirməsi ilə ortaya çıxan yeni spirituallığın prelyüdası – başlanğıcı olaraq təhlil olunan faktlar sadəcə "ikinci dindarlığa" məxsusdur. Qarışıq, fraqmentasiyaya uğramış və sub-intellektual bir şey irəli sürən bu fenomen cəsədlərin dekompozisiyası zamanı ortaya çıxan flüoresansa bənzəyir. Beləliklə, bəhs edilən axınlar modern qürub sivilizasiyasına qarşı gələn hərəkatlar olaraq deyil, dissolyusiya və reqressiyasının daha kəskin fazasının başlanğıcı olaraq görülməlidir. Bu bir ruh halı və ya nəzəriyyələr məsələsi deyil, insan psixikasının alt-qatına doğru açılmaqla müşayiət olunan sensasionalizm və okkultizmə olan maraqdır. Qeyd olunan situasiya psixoanaliz və spiritualizmdə baş verir. Bu kontekstdə bir nüansı dəqiq

---

[209] Rene Guenon – "Spiritist Fallacy", translated by Alvin Moore and R.Coomaraswamy, Sophia Perennis, Hillsdale, NY, 2001, p, 68, 79

[210] Aldous Huxley – "The Devils of Loudun", Harper and Brothers, NY, 1953, 2. And "The Doors of Perception"

şəkildə söyləyə bilərik ki, neo-spiritualizm materializm və pozitivizmdən daha təhlükəlidir. Çünki onun primitivliyi və intellektual miopiyası insani varlığı həm qısırlaşdırır, həm də *gücləndirir.* Royal və metafizik silklərdən bəhrələnməklə ali insanlıq imtiyazına sahib olan qədim elmlərdən fərqli olaraq, medium-lar, populyar ulduz falçıları, spiritistlər, Antroposofistlər, qəzet astroloqları və ekstrasenslər, Teosofistlər, "şəfa verənlər", Amerikanlaşmış Yoqanın populyarlaşdırıcıları və s. tərəfindən verbal şəkildə mübadilə edilən bugünün yeni anti-materialist İncilləri bədahətən danışan "quru"-lar, "peyğəmbərlər" və coşğu ilə vurğulanan mistiklər ilə müşaiyət olunur. Mistifikasiya və *superstisiya* neospiritualizm daxilində iç-içə keçir. Adıçəkilən fenomenin tipik cəhətlərindən biri də, xüsusilə də Anqlo-Sakson ölkələrində üzv olanlar arasında qadınların yüksək faizidir. Faktiki olaraq, neo-spiritualizmin ümumi oriyentasiyası "qadın" spirituallığı olaraq təsvir edilə bilər.

İngilis-Hind Teosofiyasından qaynaqlanan neospiritualizm ideyaları tradisional Hind sivilizasiyasına məxsus doktrinalardan diametral şəkildə fərqlənir. Qeyd edilən Teosofiyanın ehtiva etdiyi fikirlər tradisional Hind doktrinasının saxta təqlidinə, onun qalıqları və fraqmentlərinə endirilmiş, eyni zamanda Qərbin modern xürafatları və onun fərdiyyətçi divaqasiyaları ilə qarışmış bir surroqatdır. Bu surroqat ideyaların müstəsna şəkildə aşkara çıxarılmayan ezoterik doktrinalara məxsus metafizik təlimlərlə heç bir bağlılığı yoxdur. Neospiritualistlərin məqsədi insani varlığı Qərb sivilizasiyasının dininin quruluğu və dekadensiyasında mövcud olan bazara yönəltmək, təsəlliedici təlimləri ilə onu aid olduğu kommunal bağlar və vəzifələrdən uzaqlaşdırmaqdır. Tipik nümunə, Buddist doktrinasına əlavə edilən əxlaqiləşdirici, humanitarian və pasifist dəyərlərdir (C.Nehruya görə, Hidrogen bombasına qarşı insanlığın əlində yeganə alternativ Buddizmdir). Digər tərəfdən isə, mistisist təlim və simvolları nevrotik və şizoid fərdlərin müalicəsinə psixo-analitik şərtlərdə adaptasiya edən psixoanalitik K.Q.Yunq oldu.

Hər şeydən əvvəl, parazitik tərzdə ictimailəşdirilən və propaqandize

edilən neospiritualist ideyalar təqlid etməyə çalışdıqları tradisional dünyanın ezoterik doktrinalarını nüfuzdan salmaqla və onları inamsızlaşdırmaqla praktiki olaraq son dərəcə neqativ və aşındırıcı rol oynayırlar. Bu perspektivdən, modern Mistisizm subyektiv, irrasional və "ekstatik" elementi ilə xarakterizə olunur. O, şəffaf nəzarət və aydınlıq tələblərini istisna edir. Fəaliyyət göstərən prinsip *spiritus* deyil, daha çox insan "ruhudur". İntellektual intuisiya halı mistik hala qarşı qoyula bilər: intellektual intuisiya öz aydınlığı, tərifsiz transsendensiyasının məzmunu və submersiyası ilə obyektiv şəkildə bir təcrübənin mistik formasından bəhrələnən və onu özündə ehtiva edən alov kimidir. Aktiv intellektual intuisiyadan fərqli olaraq, mistik təcrübə passiv və ekstatikdir. Tradisional *Sapiensia*-nın prinsipi ondan ibarətdir ki, bir şeyin essensiyasını bilmək üçün insan həmin şeyə transformasiya *olmalıdır.* İnsan təcrübəni idarə edən duallıq qanununu rədd etməklə yalnız özünü identifikasiya edə bildiyi şeyi essensial olaraq bilir. Buna görə də, mistik təcrübəyə heç vaxt noetik xarakter aid edilə bilməz. Şellinq qeyd edir ki, bir mistik qarşılaşdığı bütün hadisələrdə qarşısında öz obyektini qəti şəkildə yerləşdirə və aydın bir güzgüdə olduğu kimi onu özündə əks etdirə bilmir. Öz obyektinə hakim ola bilməməklə özü bir fenomen halına gələn mistik təhlil edilməli olan bir şeyə transformasiya olur. Fransız tarixçisi və ədəbi tənqidçisi Anri Masi XX əsrin əvvəllərində bu sözləri qeyd edirdi:

"Modernizm eyni zamanda spiritualist xaosu materialist sensuallıq ilə qarışdıran hər növ yanlış mistisizmlərin macəralarının nümayişi ilə özünəməxsusluq qazanır. Spiritual qüvvələr hər yeri işğal edir. Modern dünyanın supra-təbii qüvvələrdən məhrum olduğunu söyləyə bilmərik. Günümüzün ən böyük xəstəliyi nə materializmdir, nə də ki sientizm; bu xəstliyin adı hər yerə sürətsiz sürətlə irəliləyən içiboş spiritualizmdir. Lakin, həqiqi supra-təbiilik əsla dərk edilmədiyi və tanınmadığı üçün hər yerdə cücərib inkişaf edən, Eqonun qaranlıq regionlarında yerləşməklə həm Eqonun özünü, həm də onun mühakimə qabiliyyətini öz dominantlığı altında əzən Mistisizmdir. Modern insan ilahi düzəndən başqa hər yerə

bir misteriya daxil edir"[211].

Onu tərəddüdsüz şəkildə qeyd etməliyik ki, günümüzdə özlərini okkultizm və supra-təbiiliyə adayan saysız qruplar, sektalar və hərəkatlar üzə çıxıb. Qərb dünyasının yaşadığı böhranın kəskinləşməsi ilə bu növ hərəkatların üzvləri substansial saya çatıb. Milyonlarla insan sadəcə primitiv heyranlıq təlqin edən hər növ ekzotik doktrinalar, misteriyalar idxal edən bu hərəkatların üzvləridir. Yoqa və Zen Buddizminin liberal – Qərb prinsipləri daxilinə adaptasiyası, Mason lojaları, neo-Rosikurisianizm[212], fundamental olaraq panteist növlü naturalist və primitivist reqressiyalar, neo-qnostisizm, astroloji divaqasiyalar, para-psixologiya, mediumizm və s. bu hərəkatların tərkib hissələridir. Onların irrasional, okkultist və mistik xarakterizasiyası həyatında essensial keyfiyyəti var edə bilməyən modern insanı çox asanlıqla özünə cəlb edə bilir. Psixoanaliz və "dərinlik psixologiyası" ilə modern elm (və ya psevdo-elm) də insanda mərkəzi eqo və şüurlu şəxsiyyət prinsiplərini aradan qaldıran bu hərəkatların canlanmasında və genişlənməsində müstəsna rol oynayır. Supra-sensual elementlərdən ibarət olan hər bir dünyabaxışını sistematik şəkildə inkar etməklə onlar yalnız primitiv neo-spiritualizm formalarını təlqin etdikləri üçün şirnikləndirmə və propaqandanın təhlükəli alətlərinə transmutasiya ediliblər. Spiritizm xüsusunda ingilis fizikləri Oliver Loc və Vilaym Kruks xüsusi önəm kəsb edir. Spiritual xaos içərisində qıvrılan Qərb dünyasının böyük seqmentləri Ellin dekadensiyasının Asiatizasiya olmuş dünyasına bənzəyir.

Neo-spiritualist hərəkatların başlıca cəhəti onun özündə qaçış impulsunu ehtiva etməsidir. Öz aspektlərindən birində heç şübhəsiz ki, neo-spiritualizmin rolu insanın öz çevrəsindən, modern Qərb sivilizasiyasının və onun karnival "mədəniyyətinin" boğucu formalarından qaçışında (bu, ekstrim hallarda narko vasitələrdə, anarxik qəsd aktlarında, seks pandemiyası və nevrotik hiper-kompensasiya formalarında özünü göstərir) istifadə

[211] Henri Massis – "Défence de l'Occident", Paris, 1927, p, 245

[212] Rosikurisianizm və ya Rozenkreyserlər ordeni – XVII əsrin əvvəllərində Avropada ortaya çıxan, Kabbala, Hermetizm, Əlkimya və mistik Xristianlığa əsaslanmaqla dünyaya naməlum bir ezoterik doktrina elan edən spiritual və kultural hərəkat.

etdiyi cəhdlər ilə analoji xarakterə sahibdir. Heç də təsadüfi deyil ki, öz səfalətində, ruhsuzluğunda neo-spiritualizmin kökləri insanın və dünyanın materialist-pozitivist baxışları ilə eyni dövrə məxsusdur. Abstrakt ağıl psixikanın və varlığın ən dərin qatlarına aid olan hər şeyi tənzimləyə və ya onları sürgün edə bilər. Buna paralel olaraq, insanı insani aliliyə - metafizik və transsendental reallıqlara yönləndirə biləcək tradisional sivilizasiyalara məxsus forma və doktrinaların yoxluğu da vurğulanmalıdır. Hər şeydən əvvəl, modern Qərbdə dominant olan Xristianlıqdır ki, bu din öz pozitivliyini, canlılığını, transsendensiyasını itirməklə inferiyor-burjua xarakterli əxlaqa və konfessional "ibadətə" bağlı qeyri-dinə transformasiya edilib. Bu dinin mifsizləşdirilməsini xarakterizə edən "Allah ölüdür" ifadəsi Xristianlığın sadəcə sosial praksisə transformasiyasının göstəricisidir. Bu səbəblə də, modern Qərbdə pozitiv dinin öz ali funksiyasını itirdiyini, sadəcə "inanc", burjua əxlaqı və animalizasiyaya uğramış insanın sosial əhliləşdirilməsindən başqa heç nə ifadə edə bilmədiyini nəzərə alsaq neo-spiritualizm hərəkatlarının maksimalarından ortaya çıxan fenomenlərin yalnız anarxik üsyan və daxili formasızlıqdan ibarət olduğunu dərk edə bilərik. Onların ehtiva etdiyi prinsiplərə əsasən, insanın son məqsədi və prinsipi bu dünyaya aiddir, onun yaşadığı cəmiyyətin qayəsi isə rifah və kütləvi istehsal-istehlakdır. Şərtləndirmələri ilə insan şəxsiyyətini dezinteqrasiyaya uğradan belə bir cəmiyyət kəskin metafizik durğunluğu və solğunluğu ilə ölümə məhkumdur. Fundamental retroqressiya proseslərinin müdaxiləsini qadağan etməklə insan təbiətinin dərinliklərində "yeni - supratəbii bir qüvvəyə" ehtiyac var. Bu ehtiyac insani varlıqda yalnız müəyyən dərəcəyə qədər basdırıla bilər. Neo-spiritualizm sadəcə nəzəri deyil, eyni zamanda canlı "spiritual təcrübə" olaraq bu ehtiyacı təmin etmək iddiası ilə ortaya çıxdı. Enerjinin, qanunların və mümkünlüklərin manifestasiyasında "ekstra-normal" anlayışının geniş tətbiqat arealı qazanması əslində qaçış impulsunun özünəməxsus oriyentasiyasında digər mühüm faktordur.

Biz spiritualizmin özünü nəzəriyyələrə endirən hissəsini deyil, şüu-

run ekstranormal modallıqlarının yaradılması vasitəsilə fərdlər və qrupları bir yerə toplayan tendensiyaları araşdırmağa çalışırıq. Bu təsirlər və modallıqların fiziki reallığın formaları qədər aşkar şəkildə mövcudluğu hər bir normal sivilizasiya tərəfindən qəbul edilib. Onları son onilliklərdə inkar etməyə səy göstərən isə sadəcə Qərb “pozitivizmidir”. Ümumiləşdirilmiş psixoanaliz və psixiatriya bunun aşkar sübutudur. Neo-spiritualizm anlayışındakı “spirituallıq” daha çox ontoloji şərtlər daxilində dərk edilməlidir. Əks halda, bu növ spirituallıq və ya “ekstra-normallıq” əsla başa düşülməyə bilər. Modern “spirituallıq” ilə özünü identifikasiya edən insan öz şəxsiyyətinin, muxtar fəaliyyətinin və özünəməxsusluğunun həqiqi reallığını itirə bilər. Çünki bu zaman onun şəxsiyyəti tədricən fiziki bədəni tərəfindən şərtləndirilməyə başlanır. Spiritual müdafiə instinktinin şüuraltı nümayişi qarşısında zəif və mental olaraq davamsız şəxslər nə olduğunu dərk edə bilmədikləri ideyalar və tendensiyaları kor-koranə qəbul edirlər. Onlar inanırlar ki, yaşadıqları dünyanı aşıb keçən hər bir şey *ipso facto* ali bir hala doğru yönəlməni təmsil edir. Onların daxilində “başqa bir şey” ehtiyacından doğan fəaliyyət – qaçış impulsu – onları insandan daha ali deyil, daha inferiyor olan qüvvələrin orbitinə daxil edir. Neospiritualizm necə təzahür edir, etsin və ya hansı kisvətə bürünür, bürünsün– hər zaman reqressiv, infratəbii xarakterə sahibdir. İnsanı yuxarıya deyil, aşağıya doğru yönləndirən neospiritualizm üçün “təbiət” deyildiyi zaman sadəcə hər bir insanın fiziki hissləri və dəqiq elmlərin meyarları tərəfindən “bilinən” fiziki dünya başa düşülür. Reallıqda isə, bu yalnız təbiətin bir aspekti, insan şəxsiyyətinə münasibətdə özünü formalaşdıran bir surətdir. İnsanın fiziki reallığın bu formalarında təbiəti dərk etməsi onun təbiətin özündən qopması ilə bağlıdır. Özünü təbiətdən azad edərək onunla bütün bağlarını aradan qaldıran insan son nəticədə təbiəti “qeyri-Mən” kimi zahiri bir fenomen olaraq hiss etməyə başladı.

Bu reqressiya prosesi ilə öz formalaşmış şüurundan qaranlıq orqanik sensasiyalar ilə başlayan yol vasitəsilə alt-şüura doğru çəkilən insanın azad halında tamamilə serebral nəzarətdən çıxmış psixi avtomatizmlər, “komp-

lekslər" özünü göstərməyə başlayır. Beləcə, o tədricən alt-şüurun dərinliklərinə yuvarlanır. Psixi-mental anesteziyalar sayəsində beynin bütövlükdə fəaliyyəti aradan qaldırılana və insanın simpatetik nevroz sisteminə daxil olmasına qədər serebral korteks qatı neytrallaşdırılır. İlkin olaraq, təbiətin canlı və gerçək təcrübəsini, eləcə də şüurlu şəxsdə düşüncələrin bir-birilə bağlılığını qoruyub saxlayan zaman, məkan və kauzallıq konseptləri yox olur. Daha dərin qatda, Eqodan fərqlənən normal şüur parçalanır və insan alt-şüuri funksiyaların astanasına yaxınlaşır. Bu, şüurlu şəxsin sonu, vegetativ həyatın başlanğıcıdır. Antik dövrün *genii* adı verdiyi təbiətin Tanrıları və elementlərin ruhları sadəcə nağıllara endirilə bilməz. "Təbii" bəsirət olaraq adlandırılan, amma əslində somnabulist "bəsirətdən" başqa bir şey olmayan fenomen beynin neytrallaşdırılması və istisnası, gücü azaldılmış şüura tabellik ilə birbaşa bağlıdır. Bu zaman onun əsas pleksuslar (başda solyar pleksus olmaqla) sistemi sensoriuma transformasiya edilir və beynin funksiyalarına yiyələnməklə fiziki fakültələrin yardımı olmadan kənardan deyil, daxildən gələn stimuli və sensasiyalar əsasında özünü nümayiş etdirir.

İnsanın həqiqi spirituallığı üçün hər bir pozitiv addımın təməlində aydın, aktiv və fərqliləşmiş bir şüur olmalıdır. Bu şüur zahiri reallığı və ya zahiri formanı məntiqi mühakimə, riyazi deduksiya şərtləri daxilində obyektiv şəkildə incələyərək qərara gəlindiyi zaman fərdə varid olur. Bu, varlıqların iyerarxiyasında onu müəyyən edən bir fəthdir. Lakin o, reqressiya, psixi kollaps və trans şərtlərində baş qaldıran amorf mistisizm və ya panteist destruksiya hallarına daxili olduğu, fenomenologiyaya doğru irəlilədiyi zaman yüksəlmir, əksinə spirituallığın pillələri boyunca vertikal şəkildə enir. O, "təbiətə" üstün gəlmir, təbiətin formalarında ehtiva olunan ən inferiyor qüvvələrin alətinə çevrilir. Bu punktu müşahidə etdikdən sonra, antitetik spiritual istiqamət ideyasını formulə edə bilərik. Bu istiqamət modern insanın və dünyanın təklif etdiyindən daha aliyə - transsendentallığa doğru yüksəlməyi bir *telos-a* çevirən, özünəməxsus məslək və məziyyətə sahib olan fərd üçündür. Bu *telos* modern mövcudiyyətin irrasionallığı və şərtləndirmələrinə, eləcə də dini konfessiyaların residual for-

malarına üstün gələrək ali azadlıq üçün bir *məkan* formalaşdırmaq gücündədir. Onun istiqaməti şüuru "azaltmağa" və ya gücsüzləşdirməyə deyil, onu transsendental şüura transformasiya etməyə, *distinctus* varlığı ləğv etməyə deyil, maddi şeylər və praktiki fəaliyyətlər arasında onun sağlamlığını mühafizə etməyə, şəxsiyyətin essensiyasını təşkil edən prinsiplərin dəyərini azaltmağa deyil, onları inteqrasiya etməyə doğru yönələn bir yoldur. Bu növ təcrübələrə yönələn yol eyni zamanda gerçək supra-təbiiliyə doğru yönəlmə deməkdir. Lakin, bu yol nə rahatdır, nə də ki cəzbedici. O, neospiritualizm tərəfdarlarına, eləcə də dolaşıq impulslar tərəfindən davamlı olaraq özündən qaçışa sürüklənilənlərin davranışlarının diametral əksini tələb edir. Çünki o itaətkar, monastik düzəndən köklü şəkildə fərqliləşərək qaçış impulsunun hökmranlığında yaşayanların və "spiritualizm" entuziastlarının davranışları ilə diametral ziddiyyət təşkil edir. Bu yol sözün əsl mənasında biz *asezis* davranışı və iradəsini təlqin edir. Biologizm və Darvinizmin modern insana vurduğu zərbəni aradan qaldırmaq çox çətindir. Lakin, qeyd edilən supra-təbii təyinatın və məziyyətin doktrinal yoluna qədəm qoyan insan nə təkamülçülük yaxud Darvinizm, nə də ki panteist spiritualizm anlamında "təbiətə" məxsusdur. O artıq mistik ruhların, şeylərin və elementlərin dünyasından, fərqliləşməmiş "kosmikallıqdan" yüksələn, fiziki dünyaya qarşı aydın və bəsirətli baxışları olan, məntiqən bir-birilə birləşmiş düşüncələrin təcrübəsinə sahib olmaqla fiziki dünyadan a*zadlığın* və katarsisin ifadəsinə çevrilir.

Şərqə (xüsusilə də, Uzaq Şərq ənənələrinə) qayıdış ilə bağlı çətinlik bu fəlsəfə və ya praktikanın Qərbdə mövcud olan manifestasiyaları kontekstində dəyərləndirilməlidir. Son onilliklərdə modern Qərb sivilizasiyasının hər yerində bir partlayış kimi üzə çıxan meditasiya otaqları, Zen məbədləri, dojo və Hare Krişna cəmiyyətləri öz autentik mənşələri ilə müqayisədə son dərəcə dis-konneksiyaya uğramış və qeyri-ənənəvi keyfiyyətə malikdir. Qərbdə demokratikləşdirilmiş Buddizmin, xəfiflədilmiş Yoqanın və ya praqmatikləşdirilmiş Döyüş sənətlərinin praktikantları öz praktikalarını Şərqin obyektivləri vasitəsilə deyil, modern liberalizmin ob-

yektivləri vasitəsilə analiz edirlər. Bu da, ən xam, pasifist, eyni zamanda ən qeyri-autentik növlü yeni bir praktikanın ortaya çıxması ilə nəticələnir. Özlərini başa düşə bilməyənlər, özlərindən radikal şəkildə müxtəlif olanı necə başa düşə bilərlər?

Bu kontekstdə üzərində durulmalı olan məsələ siyasi uğursuzluğuna rəğmən Dalai Lamanın Avro-Amerikan mediasındakı uğuru və məşhurluğudur. Təəccübləndirici kimi görünsə də, bu situasiyanın əsaslı səbəbləri var. Tibet məsələsini müdafiə etmək üçün Buddizmi populyarlaşdırmağa çalışdığı iddia edilən Dalai Lama özlüyündə kəskin bir ziddiyyət yaradıb. O, Tibet məsələsini Qərbin siyasi maraqlarına uyğunlaşdırmaqla yanaşı, Buddizmi də öz mənasından boşaldıb. Fransız sosioloqu P.Brukner onu "Avro-Amerikan auditoriyalarına medianın durmadan injeksiya etdiyi "Asiyalı Musa" olaraq xarakterizə edir: "Himalay dağlarından "Asiyalı Musa" kimi enərək sürgündən gələn Dalai Lama "Qərb" mediasında essensial həqiqətlərin carçısı, möhtəşəm tarix və mədəniyyətin hamisi kimi işıqlandırılmaqla özünü bütün dünya üçün bir "mürşidə" (worldly guru) transformasiya edib"[213]. Bəzən evlilik məsləhətçisi, bəzən pəhriz məsələləri üzrə həkim, əsasən də spiritual "advisor" rolunda çıxış edən bu mövqeyi, mənsəbi bilinməyən "ruhani" hər bir suala cavabı olan və bütün cavablarını əfsanəvi gülüşü ilə nöqtələyən "müdrik" statusuna yüksəldilib. Paulo Coelho kimi onun da xüsusi istedadı sərhədsiz və qadağasız hər kəs üçün dünyamiqyaslı spiritual bir esperanto kəşf etməkdir. Onun "rəngarəng" nitqləri bütün xalqlara uyğunlaşdırıla bilər. Qeyri-zorakılığın nəhəng apostolları olan Martin Lüter Kinq və Mahatma Qandinin etik və tarixi fəzilətindən çox uzaq olan bu "xam peyğəmbər" *dini supermarketdə* imamları, ravvinləri və papaları taxtdan endirərək özünü ən yüksəkdə təqdis edib. Qədim vaizlərin sərt çöhrəsi yenilərinin hər yerdə hər zaman mövcud olan gülüşü ilə əvəzlənib. Gülüş ilə terapiya… Məhz bu, Buddistlərə Xristianlar üzərində mübahisəedilməz bazar üstünlüyü verir. Buna

[213] Pascal Bruckner– "Perpetual Euphoria: On the duty to be Happy", (Princeton University Press, 2010), p, 61

görə də, Protestantlar və Katoliklər Tropiklərin kasıb xalqlarına Xristianlığı moizə etməklə məşğul olsun, gerçək mənasından qopardılmış Buddizm (Jean Cazeneuve-ün təbiri ilə desək, "liberal Buddizm") Qərb cəmiyyətlərinin içinə doğru sürətlə nüfuz etməkdədir[214].

Bugün, modern Qərbli aid olduğu sivilizasiyada müşahidə etdiyi dərin ziddiyyət və qeyri-adekvatlığı doğru axına çevirmək üçün Şərqə "yönəlir". O, Şərqə bir tamamlayıcı, aydınlanma mənbəyi, bir panaseya olaraq yanaşır. Əgər o "öz evində" – Qərbdə tətmin olmuş olsaydı etik qaydalar, nizam prinsipləri və ya gündəlik praktikalar üçün bu qədər uzağa yönəlmək ehtiyacı duymazdı. Lakin o, Şərqə Şərqin gözləri ilə deyil, Qərbin gözü ilə baxır. Bu şəkildə, Şərqin bir hissəsi "Qərbliləşir" və ya Qərbin gözlərinə, onun təhlillərinə açıq hala gəlir. Bu yanlış istiqamətlənmə hər zaman olduğundan daha da asanlaşıb. Çünki Qərb tərəfdən "Şərqə dönüş" daha əvvəl Şərq tərəfdən "Qərbə dönüş" ilə təsirsizləşdirilib. Şərqin böyük bir hissəsi öz keçmişi perspektivindən tanınmaz haldadır. Şərqin nəhəng regionları Qərbin iqtisadi və siyasi formalarını, eləcə də sosial, dini və kultural vərdişləri, əxlaq normalarını qəbul edib. Şərqin dərin fəlsəfi doktrinalarının dərkindən uzaq olan Qərb "Şərqə dönməklə" distorsiyaya və degenerasiyaya uğramış "özünün" inikasını tapır. Bundan əlavə, modern Qərb bu degenerat refleksiya üzərində öz gündəlik xəstəliklərini müalicə etməyə qadir olan bir ekzotik panaseya kimi "gerçək Şərqi" aşkar etdiyinə inanır. Buna görə də, Qərb öz "Şərq ekspedisiyasından" yalnız özünün dekadent və tanınmaz hala gələn refleksiyasını geri qaytara bilir. Bu refleksiya Qərbə yardım etməməklə yanaşı, onu öz spiritual destruksiyasına daha da təşviq edir. Şərqdən dəyər qazanmaq istəyən Qərb bunu radikal şəkildə Qərbdən fərqliləşən Şərqdə axtarmalıdır. Lakin, Şərqdə "Qərbliləşmiş dəyərlərdən" başqa bir şey görə bilmədiyi üçün Qərbin öz məhrumiyyətlərinə üstün gəlmək və ya Şərq dəyərlərinə qarşı ədaləti bərpa etmək cəhdləri sadəcə bir səfsətədən ibarətdir. Şərqi dərk etmək üçün onun Qərblə uzlaşan və uzlaşmayan perspektivlərini, xarakteristik cəhət-

[214] Jean Cazeneuve – "Bonheur et civilisation", Gallimard, Paris, 1962, p, 202

lərini anlamaq mütləqdir.

## PSİXOANALİZ

Psixoanaliz sadəcə psixi fenomenlərin verifikasiyası və ya provokasiyasını təklif etmir. O, "dərinlik psixologiyasına" (*Tiefenpsychologie*) doğru irəliləməklə ruhun gizli və alt zonasını, eləcə də orada yerləşən və fəaliyyət göstərən qüvvələri aşkara çıxarmağa cəhd edir. Mediumluq və metafizikadakı qeyri-ənənəvi manifestasiyaları nəzərə almayan Psixoanaliz modern psixo-terapiyanın yeni qolunu formalaşdırmaqla daha çox nevrozislər, isterisizm və psixi-mental nizamsızlıqların tədqiqində formalaşdı. Lakin, bu mütəxəssisləşmiş sahə tezliklə aşılaraq psixoanalitik konsepsiyalar aqressiv bir şəkildə ümumiləşdirildi və insan, eləcə də onun ruh həyatını özündə ehtiva edən psixiatrik səbəblərin təhlilinə (kazologiyaya) transformasiya edildi. Bununla da, Psixoanaliz tibb və psixo-patologiya ilə bağlılığını itirməklə hər növ kultural və sosial təzahürlər (əxlaq, incəsənət, seksologiya, din, mifologiya, hətta siyasət və sosiologiyada belə) və fenomenlərdə *ortaya çıxan* nevrotik fenomenologiyanı kəşf etmək cəhdlərinə girişdi. Bu, psixoanalitiklərin patoloji hallar ilə bağlı olaraq özlərinin formalaşdırdıqları hipotezalar və prinsiplərin kəskin "dərinlik psixologiyası" çərçivəsində aqressiv tətbiqatı idi. Beləliklə, psixoanaliz alt-şüurun dayazlıqlarında kök salan fenomenlərin aberrant şərhlərinə doğru meyillənən bir sahəyə çevrildi. Bu kontekstdə, "analiz deliriumundan, obsessiya və maniyanın psixiatrik anlamında deliriumundan" bəhs edilirdi.

Biz sadəcə bir psixoterapiya olaraq psixoanalizi kənara qoymaqla terapevtik sahə ilə, antropoloji sahə ilə–insanın psixoanalitik nəzəriyyəsi, bir kultural fenomen olaraq psixoanaliz, onun təlqinləri, "etikası", digər neospiritualizm hərəkatları perspektivindən daşıdığı oxşar cəhətləri təhlil etməyə çalışacağıq.

Hər şeydən əvvəl onu qeyd etməliyik ki, alt-şüuru ilk dəfə kəşf edən heç də psixoanaliz deyil. Lakin, alt-şüurun modern psxiologiyada *vətəndaşlıq hüquqlarını* əldə etməsi ilk dəfə, hipnozis və şəxsiyyətin dissosiasiyası üzərində tədqiqatları ilə psixoanaliz tərəfindən mümkün edildi. Bu fenomen

qədim tradisional doktrinalara da məlum idi. Yoqa və Buddist praktikasında "alt-şüur" *samskara* və *vasana* anlayışları ilə ifadə olunur. Modern intellektualizm epoxasında şüur fenomeninə əsaslı psixoloji araşdırma sadəcə bir fiksiya olaraq qəbul edilməklə bütün diqqət qaranlıq və "spiritualist" baxışları ilə dini və mistik təcrübələrin müxtəlifliyi perspektivindən dəyərləndirilən genişəhatəli psixologiyaya yönəldi. Burada ortaya çıxan həmçinin sağlam və normal insanlıq ilə bütün bağlarını itirən anti-intellektualist reaksiyadır. Alt-şüurun modern kəşfi onu hipostatize etmək[215], onu özünəməxsus bir varlıq olaraq dərk etmək və insani varlıqda gerçək dualizm yaratmaq tendensiyasını başlatdı. Burada, alt-şüur heç də şüurun azaldılmış dərəcəsini təmsil etmir, tamamilə başqa bir domen olmaqla bütövlükdə şüurun mümkünlüyünü istisna edir. İnsani varlığın bir hissəsinin bölünməsi və substansializasiyası Kue və Boduen[216] kimi məktəblərin dinamik xarakterində öz əksini tapır. Bu iki varlıq bir-birinə qarşı qoyulduğu zaman, psixoanalitiklərə görə, öz qanunları ilə qalib gələn məhz alt-şüurdur. Qeydolunan məktəblərə görə, alt-şüura təsir etməyin yeganə yolu təlqinetmə - insanın iradəsini disfunksionallaşdırmaq və əvəzində onun *təxəyyülünü* aktivləşdirməklə mümkündür. Bu, şüurlu öz-özünə *təlqin metodunu* insan ruhunun normal həyatının itaət etdiyi passiv təlqinlərə qarşı qoymaqdır. Qədim dövrlərin ruh tədqiqatçılarına məlum olan "subliminal"-ın modern intellektualizm tərəfindən yenidən kəşfi insan şəxsiyyəti üçün misligörünməmiş bir təhlükəni özündə ehtiva edir. Orta Əsrlər fəlsəfi mətnlərinin ekspressiv simvolizminə görə, şüur və alt-şüur ali insani növün orijinal halını yenidən oyatmaq üçün işlənilməli və düzəldilməli olan bir *sınmış qılıncın* iki hissəsini simvolizə edirdi. Başda psixoanaliz olmaqla, modern psixoloji məktəblər bu parçalanmanı daha da şiddətləndirmək və bu iki prinsip arasındakı iyerarxik münasibəti inversiyaya uğratmaqdan başqa heç nə etmədi. Freyd doktrinasının müəyyənedici xarakteristikası onun mexanist və determinist şərtlərdə alt-şüurda insan

[215] Hipostatizasiya – abstrakt bir şeyi reallıq olaraq tanımaq və ona maddi mövcudiyyət vermək.

[216] Emil Kue – fransız psixoloqu və farmasisti, optimist öz-özünə təlqinə əsaslanan psixoterapiya metodunun müəllifi. Şarl Boduen – fransız psixoanalisti. Əsərlərində Freydianizmi Yunq və Adlerin ideyalarına məxsus elementlər ilə kombinasiya edir.

psixikasının əsas hərəkətverici gücünün yerləşdiyini *aşkara çıxarması* idi. Bu doktrinaya əsasən psixi alt-təbəqə "fatal yükə" sahib olduğu üçün deşarj edilməli – boşaldılmalı olan komplekslər, instinktlər və impulslardan ibarətdir. İkincisi, Freydianizm libido – həzz impulsunda (əsasən də, seksual həzzdə) alt-şüurun fundamental kökünü görməsidir. Freydə görə, komplekslərin bütöv mifologiyası Oedipus kompleksindən başlayaraq bilsə də, bilməsə də qaçılmaz şəkildə hər bir insanda mövcuddur. Freydianizmin xarakteristik mövqeyi insanda suveren spiritual mərkəzin varlığının və gücünün inkarıdır. Ona görə, bir prinsip olaraq muxtar normalar və həqiqi dəyərlərə sahib Eqo – "İch"in qəbulu sadəcə bəzi "komplekslər" tərəfindən yaradılan illüziyadan başqa bir şey deyil. Şüurlu səviyyədə insanda baş verən bu hal ətraf mühitdə mövcud olan tabular, məhdudiyyətlər və qadağaların "introyeksiyası" (içə atılma) yəni, alt-şüurun tələblərinin repressiyası, bloklanılması və senzurası aktı ilə müəyyən edilir. Lakin, reallıqda ortaya çıxan və gerçək "Mən"-in yerini alan konformist və isterik kukladır. Çünki, şüurlu prinsipə insani varlığın instinktual hissəsi üçün bir növ *vəkil* rolunu oynamaqdan başqa heç bir rol verilmir. Super-eqo və alt-şüur dyadasının insanın fundamental strukturunu müəyyən etdiyi güman edilməklə onlar arasındakı ziddiyyətin sadəcə tipik nevrotik faktların deyil, həm də, normal olaraq qəbul edilən insani davranışın təhlilində açar rolunu oynadığı düşünülür.

Qeyd edildiyi kimi, təməl psixoanalitik düşüncəyə görə, alt-şüurun yükü boşaldılmalıdır. Dolayısı ilə, insanın sahib olduğu yeganə seçim super-eqonun daxili intiqamçısı olduğu mühitin və sosial reallığın ehtiyacına qarşı gəlməklə öz impulslarını ifadə etməkdir. Freyd bu *modus vivendi*-nin faciəvi və arzuolunmaz nəticələrdən yayınmaq üçün yeganə yol olduğunu bildirir. Bu, insanın "transpozisiya" və ya "sublimasiya" – şüurun yükünün tətmini, impulsların birbaşa obyektlərindən ayrılmaqla onların yerini alan digər obyektlərə, məqsədlərə və şəxslərə doğru istiqamətlənməsidir[217]. Bu proseslərin böyük bir qismi alt-şüurda reallaşır, fərd onlardan agah olmamaqla psixoanaliz tərəfindən gözləri açılanadək ali hisslərə və ali məqsədlərə itaət etdiyinə ina-

[217] Julius Evola–"Maschera e volto dello spiritualismo contemporaneo",(Edizioni Mediterranee, Roma, 1971), p,46

nır. Digər tərəfdən, ətraf mühitin, qadağaların yaratdığı səddlərin, ya da fərd tərəfindən təcrübə olunan super-eqonun alt-şüuri fəaliyyəti və "sosial əzab" nəticəsində insan öz impulslarına qarşı gəlməklə onları basdırır. Bu halda, o, alt-şüurda özünə sipər qurur, özünü yeni komplekslərlə zənginləşdirir və ya özündə digər gizli komplekslər oyadır. Bu situasiya müxtəlif nevrozis dərəcələri ilə şüurlu həyatı zəhərləyir. Nəhayət, Freydin "nirvana prinsipi" adlandırdığı hal baş verir: insan dözülməz gərginliklərdən özünü uzaqlaşdırmağa icazə verən konstant qaçışlarda sığınacaq axtarır. Burada psixoanaliz guya ki, seksual olaraq öz konseptinin mənşəyini aydınlatmaq üçün tamamilə təhrif olunmuş bir formada *metafizik Buddist konsepti – nirvanadan istifadə edir. Bütün bu hallarda eqo*-nun senzura və öz-özünə nəzarət fakültələri gücsüzləşdirilir və ya bütövlükdə aradan qaldırılır. Psixoanalitiklər bildirir ki, şüur və yaddaşın istisnası labüddür. Onlara görə, yaddaş ruhun diurnal həyatında müxtəlif dərəcələrdə təkrar olunan və nevrotiklərin təcrübələrində kuliminasiya həddinə çatan proseslərdən ibarətdir. Alt-şüurda yerləşmiş impulsların yaratdığı gərginlik qeyd edilən sublimasiya prosedurası vasitəsilə arzuolunan istiqamətdə hərəkət etmək, bu və ya digər tərzdə öz enerjisini boşaltmaq üçün doğru məqamı gözləyir.

Qustov Lö Bonun ardınca Freyd də bildirir ki, fərd özünü kütlənin bir parçası olaraq hiss etdiyi zaman öz "sosial əzabını", ətraf mühiti qarşısında öz gücsüzlük və məsuliyyətlilik dərkini itirir. Bununla da, onun basdırılmış impulsları orjinal formada bir növ partlayışla üzə çıxır. Bu kontekstdə, "Fərdi psixologiya" məktəbinin banisi, psixoanalitik Alfred Adlerin daha fərqli istinad nöqtəsini – *Geltungstrieb*-i (fərdin dəyərli olmaq, özünü təsdiq etmək impulsu) qəbul edir. Alderə görə, özünütəsdiq impulsuna sahib olan fərd öz çevrəsi, situasiyası və ya zəifliyinin yaratdığı əngəllər ilə qarşılaşdığı zaman analoji alt-şüuri mexanizmlər müdaxilə edir. Bu zaman, ortaya çıxan "inferiyorluq kompleksi" özünə haqlılıq qazandırmaq üçün mükəmməl bir *alibi* olaraq fəaliyyət göstərir. Və ya fərd fəaliyyət göstərməkdən boyun qaçırmaq, eləcə də öz impulsunu özündən gizlətmək üçün eyni impulsun aktinal – təmsili isteriyalarına, transpozisiya edilmiş təsdiqləmələrə müraciət edir. İnsanın bu absurd çərçivələrdə *mövcudiyyətinin* gülünc bir nümunəsinə diqqət ye-

tirək. "Həyatın ritmi, Qadınlar üçün seksual harmoniya bələdçisi" adlı kitabı ilə Feminist psixologiyanın qurucusu hesab edilən, kişi və qadın arasındakı bio-psixoloji fərqləri inkar edərək iki cins arasında sadəcə "sosial" fərqlərin olduğunu bildirən Avstriya əsilli amerikalı terapist Sofiya Lazarsfeld sivilizasiya tarixində "kişi despotizmini", qadınla müqayisədə kişinin aliliyini belə izah edir: "hər iki hal nevropatiya və isteriyaya bağlı olmaqla, qadından fərqli olaraq kişinin arasıkəsilmədən seksual akta özünü verə bilməməsindən qaynaqlanan alt-şüuri "inferiyorluq kompleksinin" nevrotik "ifrat kompensasiyasıdır". Bu miopik gümana görə, qadın qarşısında öz "inferiyorluq" kompleksinin əzabını kompensasiya etmək üçün kişi digər sahələrdə üstünlük iddiasını yaradır və özünü isterik şəkildə güclü və üstün cins olaraq nümayiş etdirir"[218]. Alman psixoanalitiki Karen Hornidə də mövcud olan bu düşüncə Z.Freyd və A.Adlerdən başlayaraq, psixoanaliz və onun yan törəmələri olan digər psixoloji məktəblərin parazitik və paroxial xarakteristikasını aşkara çıxarır.

Digər Freydianist kretinizm ondan ibarətdir ki, Freyd özünəməxsus anlamında hər hansı bir etik münaqişənin nə olduğunu bilmir. Ona görə, ruhun hər bir konflikti öz etik mahiyyətini itirir və özünü isteroid faktın nəticəsi şəklində nümayiş etdirir. Əgər şüurlu şəxsiyyət impulslarına qarşı gəlir və onlarla mübarizə aparırsa bu heç də ali qanununun nümayişi deyil, ailə münaqişəsinin və ya komplekslərin toqquşmasının bir formasıdır. Çünki, əgər Eqo (İch) özü üçün muxtar və "despotik" qanunverici olaraq fəaliyyət göstərirsə, bu sadəcə olaraq "autistik" kompleksin mazoxist effektlərindən doğan əzabın nəticəsidir. Freydə görə, eqo yalnız alt-şüuri şəkildə transpozisiyalar, sublimasiyalar və adaptasiyalar əsasında harmoniya və sakitliyə nail ola bilər.

Bundan sonra, artıq fundamental tənqidi klarifikasiyaya doğru irəliləyə bilərik. Libidonu alt-şüurun fundamental kökü olaraq xarakterizasiya edən Freyd hər zaman "panseksualizm"də ittiham olnub. Lakin, Freyd "panseksualizm" anlayışında "sevgi" adı altında ehtiva olunan hər şey ilə birbaşa bağlılığa sahib olan instinktlərin enerjisinin vurğulandığını bildirməklə bu ittihamdan boyun qaçırmağa cəhd edib. O bidirir ki, bu instinktual enerji hətta

[218] Sophie Lazarsfeld – "Rhythm of Life: a Guide to Sexual Harmony for Women", Greenberg; First Edition (January 1, 1934)

"abstrakt" ideyalara və konkret obyektlərə bağlanan şairləri yaxud rəssamları da özündə birləşdirir. Panseksuallıq ilə bağlı olaraq, psixanalitik H.Zilberer simvollar və miflərin psixoanalitik şərhinə həsr edilmiş kitabında "İohanna İncilinin" ilk cümlələrinə daha "aydın variant" verir: "Başlanğıcda *Allahın Sözü* yox idi, başlanğıcda qadın və kişi cinsiyyət orqanı var idi". Faktiki olaraq, psixoanaliz öz essensial hissəsində bütün fərdi və kollektiv mövcudiyyəti seksual öncüllük perspektivdən təhlil edir. Bu distortiv yanaşmaya görə, qeyd olunan təlimə yalnız öz ağılında cinsiyyətin bir monomaniyaya çevrildiyi bir şəxs şübhə edə bilər. Modernizm əsrində böyük rola malik olan seks pandemiyası və ya sekslə obsessiya (seksual monomaniya) bu pandemiya üçün psevdo-elmi çərçivə hazırlayaraq korroborator rolunu icra edən Freydianizmin uğurudur. Ortodoks psixoanalitiklərdə seks gerçək bir *idée fixe* – təyin olunmuş ideya kimi qəbul edilir. Bu doktrinaya qarşı gələn hər kəs psixoanalizə tabe tutulmalıdır. Lakin, bunun tamamilə əksi doğrudur. Əsas məsələ insan mövcudiyyətində cinsiyyətin oynadığı böyük rolu mübahisə etmək deyil, seksual interpretasiyanı absurd və kontaminant bir şeyə transformasiya etmək cəhdlərinə son qoymaq və Freydin "libidinal daimonia" çərçivəsində cinsiyyətin yalnız ən inferiyor, ən qaranlıq və alt-insani (sub-personal) aspektlərindən başqa heç nə görə bilmədiyini vurğulamaqdır. Hər şeydən əvvəl, cinsiyyət psixi alt-qatın elementar qüvvəsindən kənarda digər və daha ali dimensiyaya malikdir. Bu, tradisional doktrinalarda vurğulanan və cinsiyyətə müqədddəs, mistik, metafizik mümkünlüklər verən transsendentallıq dimensiyasıdır. Psixoanalitik transpozisiya və sublimasiya nəzəriyyələri ilə heç bir əlaqəsi olmayan bu doktrinalarda cinsiyyət fərdi öz boyunduruğu altına alan libidonun kompulziv və kor gücü olaraq deyil, metafizik və transsendental qüvvə olaraq çıxış edir. Psixoanalizdə cinsiyyət ən bulanıq və inferiyor formalara sahib olmaqla ali impulsun involyutiv deqradasiyasıdır. Bir tərəfdən insan psixikasında özünü ümumiləşmiş seksual hermenevtikaya həsr edən Freyd, digər tərəfdən cinsiyyətin yalnız inferiyor hissəsini bilməklə və digər – superiyor hissəsini ona tabe etməklə özünü abstrakt bir dolaşığa məhkum edir. Z.Freyddən fərqli olaraq, K.Q.Yunq seksual mif fiqurlarında

bir universal xarakter və müstəqil reallığın dramatizasiyasını görsə də, o bu reallığı sadəcə psixoloji şərtlərdə dərk edərək onu kollektiv alt-şüurun mental proyeksiyalarına endirdi. Yunq bununla, insan psixikasının atavist və *noktürnal* hissəsinin şüurlu və şəxsi hissəsi üzərində aliliyini elan edirdi.

Cinsiyyəti Freyd analizinin abyeksiyasından çıxarmaqla ona kosmik xarakterli enerji – orqastik enerji verən digər psixoanalitik Vilhem Reyx oldu. Özündən əvvəlki psioxanalitiklərin blokaj nəzəriyyəsini bu enerjiyə tətbiq edən Reyxə görə, Eqo özünü orqastik enerjidən müdafiə etmək üçün impulslarını basdırmaqla "patogenik zireh" geyinir. Essensiyası etibarilə, Freydianizmdə hakim olan seksuallığın inferiyor mahiyyəti Reyxdə də davam edir. Freydin libido nəzəriyyəsində olduğu kimi burada da, seksuallıq ən primitiv şərtlər daxilində başa düşülür. Lakin, burada bir önəmli nüans vurğulanmalıdır ki, Freydin "terapevtik" iddiası Reyxdə artıq inqilabi sosial iddiaya çevrilir. Bu, Reyx və onun davamçılarının Freydə qarşı polemikalarında izlədikləri psixo-patoloji xəttdir. Reyx, "mübahisəedilməz" qərarlılıq ilə bildirir ki, əgər nevrotik həyatın başlıca səbəbi "sistem", ətraf mühit və onun təlqin etdiyi ideyalardırsa, biz bu iblisi özünün doğru yerində dağıtmalı, hakim sistemin strukturlar və düzənini yox etməliyik. Burada Reyx aşkar bir şəkildə həqiqi "terapiya" olartaq etiraz və inqilaba keçidin əsasını qoyur. Reyx, öncül apostolu olduğu "sosial inqilabın" təməlini hazırlamaqla yanaşı, daha anarxoid emansipasiyalara, "repressiv" cəmiyyətdən "permissiv" cəmiyyətə keçidin zərurətini formalaşdırdı. Beləliklə, Reyxin irəli sürdüyü fikirlər Russonun "saf təbiilik" və "bon sauvage" ideyaları ilə birləşməklə Qərb cəmiyyətlərindəki sonuncu tradisional normalar səddinin darmadağın edilməsi və pozitiv sosial düzəndə "sağlam", "mülayim" cəmiyyətin ortaya çıxmasına zəmin yaratdı. Lakin, Freyd insanların əksəriyyətinin psixi alt-qatında üstün olan elementlərin bulanıq xarakterini qəbul etməklə, "reallıq prinsipi" olaraq irəli sürdüyü qüvvənin təlqin etdiyi məhdudiyyətləri etiraf edirdi.

Seksoloji sahədə diqqət yetirilməli digər məsələ *Lustprinzip* (libidonun həzzinə doğru impuls) ilə bərabər Freydin daxil etdiyi *Todestriebe* (ölüm – destruksiya) impulsudur. Freydə görə, bu impuls orqanik dünyadan qey-

ri-orqanik dünyanın stasisinə (stasis – durğunluq) doğru qayıdışı əks etdirir. *Lustprinzip* və *Todestriebe* bir-birindən müstəqil impulslardır və ikincisinin heç bir seksual dəyəri yoxdur. O, sadizm və mazoxizm fenomenlərini izah etmək üçün ölüm prinsipindən istifadə edir. Əgər o, destruktiv impuls olaraq öz manifestasiyasında subyektin özünə doğru yönəlirsə mazoxist tendensiyalara, başqalarına doğru yönəldiyi halda isə bu impuls sadist tendensiyalara yol açır. Lakin, əksər psixoanalitiklərə görə, ikinci prinsip birincisi ilə birbaşa bağlıdır. Yəni, həzz impulsu basdırıldığı zaman nevrotik olaraq destruktiv impuls üzə çıxır. İntrovert və mazoxist forma eqonu "nirvana prinsipinə" qaytara bilər. Burada aqressivlik deyildiyi zaman həzz impulsunun təlqin etdiyi boşalmalara istinad edilir. Dolayısı ilə, *Lustprinzip* basdırılır və özünü destruktiv impuls istiqamətində qütbləşdirir. Bu ideyanın tipoloji, sosioloji və eləcə də, sosio-siyasi sahədə çoxlu tətbiqatları var: hakimiyyət, əmretmə, dominantlıq və despotizm tendensiyası bu impulsun sadist manifestasiyası, boyun əymək, xidmət etmək, riayət etmək və özünü qurban vermək tendensiyaları isə qeydedilən impulsun mazoxist manifestasiyası ilə əlaqələndirilir. Beləcə, qeyri-demokratik sistemlərin ekzistensial bazisi seksual patologiyanın basdırılması kontekstində izah edilir. Bu impulsun sosio-siyasi tətbiqatları sahəsində biz Herbert Markuzenin yanaşmalarına diqqət edə bilərik. İstehsal və istehlakın yüksək inkişafına nail olmuş cəmiyyətlərin hakim sistemini tənqid edən H.Markuze bu cəmiyyətlərin ən ortodoks Freydianizm nəzəriyyələrinə, həzz və destruksiyanın ikili impulsuna əsaslanmaqla modern "repressiv" sistemin aradan qaldırılmalı və insanın mütləq azadlığı ilə əvəz olunmalı olduğunu bildirir. Reallıqda Markuzenin irəli sürdüyü daha ali cəmiyyət deyil, instinktual və impulziv alt-şüuri "həyat" sürən sub-insani varlıqlar (atomlar) yığınıdır. Markuzenin bu yanaşması Freydian və para-Freydian ideyaların nə qədər dərin təsirə malik olduğunun göstəricisidir.

Digər tərəfdən, psixoloji sahədə ikinci impulsun qəbul edilməsi daha dərin erotologiyaya doğru bir addımdır. Həzz impulsu destruktiv impuls ilə tandem şəklində fəaliyyət göstərir. Həqiqət ondan ibarətdir ki, hər bir seksual

libido, hər bir coşğulu arzu özlüyündə "ambivalent"-dir (ambivalent – ziddiyyətli duyğulara sahib olma) və alt-şüuri olaraq destruktiv və "fani" yükə sahibdir. Lakin bu, destruksiya və stasisə doğru tendensiya olaraq başa düşülməməlidir. Hər bir gərgin şəhvət düşkünlüyündə öz-özünü dağıtma impulsu, həm nifrət, həm də sevginin zahiriləşməsi var. Ona görə də, qədim Romada bir Libitima (libido kəliməsinin kökü məhz buradan gəlir) olaraq Venera həm seksual sevgi, həm də ölüm İlahəsi kimi qəbul edilirdi. Eyni sözlər qədim Yunanlarda məhsuldarlıq və bağbanlıq İlahəsi Priapus üçün də deyilə bilər. Dionisiyanizm fəlsəfəsində də həm orqastik şəhvanilik, həm destruktivlik, həm də öz-özünə qarşı destruktivlik paroksizminin qarşığı hökm sürür. Eyni zamanda Şərqdə də, Kama, Mara və Durqa da həm seksual arzu, həm də ölüm ilahələri olaraq dərk edilirdi. Səmanın Kraliçası" İştar Akkadlar, Babillilər və Assuriyalılar tərəfindən sitayiş olunan Tanrıça idi. Daha sonralar İştar Şumerlərin sevgi və müharibə Tanrıçası İnanna ilə birləşdirildi. O, Gilqameş dastanında qəhrəman Gilqameşin xanımı olaraq özünü nümayiş etdirir. Durqa, bəzən bir şir və ya bir pələng idarə edən çoxsilahlı Tanrıça olaraq təsvir edilən savaşçı Hind Ana Tanrıçasıdır. O, həm destruksiya, həm də yaratma gücü ilə assosiasiya edilir. Hator-Sexmet Qədim Misirdə şəfa və müharibə Allahı olmaqla yanaşı, döyüş zamanı Fironların qalxanı və onların himayədarı idi[219].

Freydianizm və ortodoks psixoanaliz tamamilə yeni "insani" növün sivilizasiyasını işləyib hazırlayan modernist, psevdo-elmi, psevdo-intellektual hərəkatlardan biridir. Psixoanalitik janrın deduksiyası əsasında formalaşdırılan "dəyərlər" Qərb əxlaqının hakim olduğu demokratik sistemlər və ya sosial konvensiyalar tərəfindən təlqin edilir. Zəiflik və konformizm əzəmətli güc xarakterizasiyası əldə edir, parçalanmalar, bölünmələr və qeyri-adekvatlıq halları isə həyatın dərin qüvvələrini üstələyir. Bəşər tarixində misligörünməmiş qeyri-davamlılıq və kövrəkliyə sahib olan modern insan üçün iki yol var: ya transpozisiyalar, sublimasiyalar, qaçış və ya kompensasiyaedici dislokasiya metodlarına qayıtmaq (1), yaxu da id və libidonun impulslarını toplamaqla özünü – Eqonu onların vəkilinə, eləcə də onun birbaşa tətmininin

[219] J.Evola – "The Bow and the Club", Arktos Media Ltd., 2017, p,167

“şüurlu” və “rasional” alətinə çevirmək (2). Hər iki yol insanın özündən qaçışı, özünü mütləq surətdə tərk etməsi deməkdir. Lakin, psixoanalizin təklif edə bildiyi başqa heç bir yol yoxdur. Çünki bu düşüncə nə bir muxtar prinsip olaraq şəxsiyyət ideyasına, nə də təbii düzəndən daha ali bir prinsipə sahib deyil. Psixoanaliz çərçivəsində “zənicirlərini tərk etmək” azad olmaq demək deyil. Bu, insanın özünü sub-rasional və instinktual varlığı ilə identifikasiya etməklə alt-şüura total təslim olmasıdır.

Psixoterapiyanın fövqəladə dərəcədə xüsusi bir halı olmaqla psixoanaliz sosial konvensiyalar və tərbiyələndirmə metodları, əhliləşdirilmiş arzunun bayağı fraqmentləri, “autistik növün” isteroid partlayışları tərəfindən yaradılan zahiri və davamsız insani varlığa qarşı olaraq spiritual vəhdət və həqiqi muxtar şəxsiyyətın formalaşdırılmasına həsr edilmiş bir nizam doktrinasına sahib olmadığı müddətcə çox təhlükəlidir. Bir “dərinlik psixologiyası” kimi psixoanaliz, onun doğurduğu Freydian antropologiya və insanın Freydian konsepsiyası mərkəzi və muxtar varlıq olaraq eqonun mümkünlüyünü, onun reallığını inkar edən degenerat ideyalar yığınıdır. Çünki Freydə görə, eqonun muxtariyyəti introyeksiya olunmuş – içə atılmış dəyərlər və zahiri normaların *libido sui-generis* vasitəsilə despotik və mütləq şəkildə təsdiq olunması nəticəsində ortaya çıxan illüziyonar bir düşüncədir. İnsanı supra-təbii səviyyəyə qaldıran onun fiziki deyil, meta-fiziki varlığıdır. Lakin, modern psixoloqlar son dərəcə yanlış bir formada alt-şüuru özlüyündə bir prinsip olaraq qəbul etməklə insanın ali şüur vəzifəsini icra etməsini əngəlləyir və bunu “nevrotik hal” olaraq damğalayırlar. Şüurun ali regionlarına doğru irəliləmək fərdə yuxu, hallüsinasiyalar və monodeizmlərin hakim olduğu zonaya üstün gəlməklə supra-şüuri şəxsiyyət idealını, metafizik varlığını dərk etmək anlamına gəlir. Toxunduğu hər şeyi deformasiyaya uğradan “dərinlik psixologiyası” isə insana bu yöndə heç nə vermir. Lakin essensial reallıq *transsendental psixologiya* formalaşdırmaq, özünü instinktual və irrasional mistisizmlərə, saf naturalizmə endirən psixoanalitik əxlaqı total şəkildə aradan qaldırmaq və onu eradikasiya etməkdir.

## TƏBİİ İNQİLAB VƏ HEYVANİ İDEAL

Modernizmin ortaya çıxardığı anlayışlardan biri olan *təbii inqilab* da neo-spiritualizm məsələsində üzərində durulmalı olan başqa bir mühüm fenomendir. Bəli, Qərb insanının *təbii inqilabı.* Hər şeydən əvvəl, Qərb insanının özü haqqında sahib olduğu deqradasiyaya uğramış konsepsiya ilə tanış olmalıyıq. Modern insanı öz yaradıcısından və hər bir ontoloji, antropoloji reallıq prinsipindən qopardılmış sadəcə bir "kreatura" olduğu ideyasını böyük ölçüdə qəbul edib. İntibah və Humanizm ilə "Homo Occidentalis"ə ali şüur, düşüncə və incəsənət sahəsində hər növ yaradıcı qabiliyyət ilə birlikdə ona yalnız Yerə məxsus olduğu ideyası aşılandı. Sonda isə, sientizmin, Darvinzim və təkamülçülük Qərb insanını digər başqa heyvani növlər ilə münasibətdə heç bir substansial fərqliləşməsi olmayan, müəyyən bir bioloji növün, təbii seçmənin bir örnəyindən başqa heç nə olmadığı inancının formalaşması üçün kifayət etdi. Dolayısı ilə, modern reqessiyanın təsirlərindən biri olaraq bütün ali metafizik və tradisional prinsiplərdən "azad olan" insan özünü artıq Yaradılışın imtiyazlı varlığı olaraq deyil, digər təbii növlər arasında bir canlı, daha dəqiq desək, *heyvan* olaraq hiss edir. Bu katastrofik insani reduksiya heç də qeyri-müəyyən şəkildə baş vermədi və çox kəskin daxili böhranlar, təlatümlər doğurmaqla modern insanın bir çıxılmazlığa yaxınlaşmasında müstəsna rol oynadı.

Heyvani ideal bioloji rifah və komfort, eləcə də sağlamlıq, gənclik, fiziki güc, təhlükəsizlik, maddi uğur, seksual arzunun primitiv tətmini, atletik həyat kimi vulqar faktorlara *sine qua non* önəmlilik verən hər şeyin ideallaşdırılmasıdır[220]. Buna paralel olaraq inkişaf edən isə, dərin düşüncə və istənilən ali maraq formasının atrofiyasıdır. Modern sivilizasiyanın zirvəsinə yüksələn bu növ insan yalnız heyvani növlərə məxsus cəhətləri

---

[220] Count Hermann Keyserling – "America set free", (Butler and Tanner Ltd. Frome, London, Great Britain), p, 162

inkişaf edən insandır. Bu idealın da arxasında əsrimizin sosio-siyasi axınının təməlini təşkil edən nihilizm dayanır. "Təbiətə qayıdış" şəxsiyyətin fiziki kultuna məxsus hallardan biridir. O, sadəcə formaların deyil, orqanik həyatın bayağı kompensasiyasıdır. Bir məsələyə xüsusi diqqət edilməlidir ki, "heyvani ideala" və modern naturalizmin doğuşuna səbəb olan "təbii mənşəyə qayıdış" (neo-Russoizm, anti-Dövlət primitivizmi, *völkish* ekologizmi) ideyası primitiv matriarxal cəmiyyətin əsas xarakteristikası olan Ana Yerə və Təbiətə qayıdışdan başqa bir şey deyil. Xristianlığın teoloji doktrinası da bu ideyanı *insanın saf təbii halı* olaraq "müqəddəsləşdirməyə" başladı. Lakin, insan bu dissolyusiya prosesləri ilə endirildiyi supra-təbii (təbiətüstü) mövqeyə sahib idi və belə mövqeyə sahib insan üçün "təbii mənşəyə qayıdış" əsla bir əhəmiyyətkəsb etmirdi. İnstinktual hüquqlar, alt-şüurun aliliyi, vücudun ruh üzərində üstünlüyü və intellekt tərəfindən qadağan edilməyən həyat uğrunda mübarizə də daxil olmaqla "təbii mənşəyə qayıdış" yalnız reqressiv bir fenomen ola bilər. Bu şəkildə təbiiləşən insan, reallıqda təbiətsizləşən insandır. Ona görə də, özünü təbiətüstü mövqedə hiss edən insan ilk öncə şəhər (yaxud sivilizasiya) və təbiət arasındakı burjua antitezisinə üstün gəlməli, həm şəhər, həm də təbiətə münasibətdə ali distansiya hissinə malik olmalıdır. O, təbii ehtiyac və həzzlərə təslimçiliyi daxili dayanıqsızlıq və tükənmişlik simptomu, eləcə də heyvani və fiziki hisslərin şərtləri daxilində bir qaçış olaraq dərk etməlidir. Supra-təbii insan öz varlığının bütövlüyünü təsdiq etmək üçün nizamlılıq və nəzarət prinsiplərini bədəninə də şamil etməlidir. Məhz bu tərzdə o, kütlələrin geniş yayılmış, ən vulqar tiryəklərindən biri olan idman fetişizmindən, həmçinin fiziki şəxsiyyət kultundan özünü fərqiləşdirə, təbiətüstü dəyərləri özündə təcəssüm etdirə bilər.

Son onilliklərdə ortayan çıxan *təbiətə qayıdış* fenomeni öz essensiyası ilə bir qaçış forması, konvensional təlqinlər və noktürnal təsirlərdən asılılıq anlamına gəlir. Bu fenomen Fransa inqilabı ərəfəsində, Maarifçilik və Ensiklopedizm ilə ortaya çıxdı. Bu periodda normal, insani və sapiensial bir düzən olaraq dərk edilən geniş yayılmış təbiət mifi hökm sürürdü. Bu,

insanın faktiki olaraq və hüquqən məxsus olduğu bir düzən olmaqla tamamilə süni və zərərli olduğu güman edilən sivilizasiya, onun qanunları, eləcə də pozitiv siyasi təşkilatlanma formalarından daha əvvəl gəlirdi. Məhz bu zaman, hələ də "təbiət" ilə birbaşa əlaqədə yaşayan insanların nisbi mədhiyyəsi kontekstində "bon sauvage" konsepti ortaya çıxdı. Maarifçiliyin bütün mifləri kimi, qeydolunan mif də həmin zaman dövriyyədə olan və dəqiq praktiki məqsədlərə malik təlqinlərə itaət edirdi. Özünün inteqral tərkib hissəsi olaraq "təbii hüquq" reklamasiyası ilə çıxış edən "naturalist" nəzəriyyə tezliklə öz maskasını ataraq total spiritual destruksiya aləti şəklində özünü göstərdi və bir şəxs kimi Qərb insanının bünövrəsini təşkil edən tradisional strukturların, spiritual hakimiyyətin residual formalarının təməlini sarsıtmağa başladı. Tamamilə korroziv xarakterə malik olan təbii hüquq konsepti "insanın və vətəndaşın hüquqlarının" Yakobin bəyannaməsinin özəyini təşkil edirdi. Belə bir hüququn elan edilməsi və təsdiqi həm reqressiya, həm də primitivizm fenomenindən başqa bir şey deyildi. Təbii hüququn Ulpian tərəfindən qəbul edilmiş klassik formulu, daha sonralar Katolik kilsəsi tərəfindən qəbul edildi. Sosioloji nəticələri ilə insani varlıqların naturalist bərabərliyi konsepsiyası bizi Olimpiya sivilizasiyasına qarşı olaraq heç bir supra-təbiilik və supra-sensuallıq ideyasının mövcud olmadığı matriarxal sivilizasiyalara məxsus bir "həqiqətə" doğru yönləndirir. Olimpiya nukleusuna malik sivilizasiyaların sosial orqanizasiyaları, hüquq anlayışı tamamilə fərqli, şəxsiyyət idealı isə anti-naturalist, fədakar qəhrəmanlıq - *iroikos* əsaslı idi. Bu onu deməyə əsas verir ki, "insani görkəmə sahib hər bir varlığın" malik olduğu universal və orijinal hüquq kimi iddia və qəbul edilən "təbii hüquq" yalnız inferiyor insanlıq daxilində öz gerçək nümayişini tapırdı. Bu naturalist inqilabın xüsusi bir səciyyəsidir. Maarifçilik mifologiyasının əksinə olaraq insanın "sağlamlıq və normallığı" üçün qayıtdığına inanılan "təbiət" sadəcə süni və abstrakt bir məfhumdur. O nə qədim – tradisional insanın qavraya və dərk edə bildiyi supra-sensual enerji və dəyərlərdə ehtiva edilən bir canlı varlıqdır (*kosmos*), nə də ki bir bütövlüyün özünəməxsus dimensiyası. Modern in-

san üçün təbiət cansız formaların və fiziki qüvvələrin aqqreqatı, bütövlüyündən qoparılmış zahiri bir fenomendir. Buna görə də, insan yalnız şəxsiyyətinin spiritual vəhdətinin analoji dezinteqrasiyası və separasiyasını daxilən reallaşdırdığı, "Mən" anlayışını varlığının fiziki hissəsində cəmləşdirdiyi zaman özünü *tam rahatlıqda hiss edə bilər.* Modernizm əsrində "Təbiətin" atavistik, salutistik və sportiv formalarda dərki "rasionalizm" mifindən ortaya çıxan digər bir reqressiya prosesinin nümayişidir. Bu formalar ilkin ön şərt olaraq dözülməz və ya narahatlıqverici spiritual gərginliklərin yükündən "azadolma" ehtiyacını qəbul edirlər. Beləcə, təbiətə qayıdış bir distensiya, bir "yenidən canlanma" ilə müşayiət olunan bioloji qalvanizasiyaya qayıdışdır. Bu səbəblə də, "təbiətə qayıdış" mifindən doğan "inqilab" essensiyası etibarilə insanı şəxsiyyət dəyərlərinə əsasən deyil, modern şəhər həyatı daxilində darmadağın olaraq reinteqrasiyaya və bioloji kompensasiyalara ehtiyac duyan sinirləri və fiziki orqanizminə əsasən nəzərə alır. Modern naturalist-sportiv kontekstdə ortaya çıxan yeni insani növ mübahisəolunmaz şəkildə primitiv və reqressiv bir növdür, bədəni etibarilə *kişicə* və atletik olsa da, ruhən steril və boşdur. Ona görə də, "təbiətə qayıdış" mifində əsas diqqət yetirilməli məqam mövcudiyyətin fiziki primitivizasiyasıdır.

Əgər "təbii hüququn" Maarifçi iddiası bir primitivizmi simvolizə edirsə, "alicənab vəhşinin" Ensiklopedist mifi digər primitivizm növünün xəbərçisi idi. Artıq, bu yeni mifə əsasən vəhşi xalqların həyatı dərindən öyrənilir və onların modern insanlığın orijinal olaraq mövcud qalıqları olduğu düşünülürdü. Saf hallarından doğan xüsusi şərtlərinə görə onlar bizim əcdadlarımız idi. Bu məsələyə proqressivist mif müdaxiləsindən sonra isə bugünün sivilləşmiş humaniziminin primitiv mərhələdən "təkamül etdiyi" güman edilməyə başlandı. Lakin bu heç də bütövlükdə qəbul edilmiş ümumi düşüncə tərzi deyildi. Fəlsəfə və sosiologiyada magisterial əsərləri ilə Emil Dürkheym və Lüsiyen Levi-Brül "primitiv" zehniyyət ilə "modern – sivilləşmiş" zehniyyətin heç də iki müxtəlif "təkamül dərəcəsini" təmsil etmədiyini təsdiqlədilər. Onlar essensial olaraq bir-birinə

endirilə bilməyən iki heterogen mentallıqlardır. Jozef de Mestr və Rene Genon da vurğulayır ki, bioloji bir irq və bir sivilizasiya olaraq primitivlər çox qədim olan insanlığın tsikllərinin qürub izləri olduğu üçün biz onların yaddaşını itirmişik. Dolayısı ilə, onlar bir tsiklin başlanğıcını deyil, sonunu, onun gəncliyini deyil, ifrat yaşlılığını təmsil edir[221].

*Həqiqi* orijinal insanlıq ilə "təkamül etməyən" amma normal insanlıq arasındakı münasibət güman edildiyindən daha ali davamlılıq dərəcəsini nümayiş etdirir. Bizim "normal insanlıq" olaraq adlandırdığımız fenomen ilə özlərinin dünya və institutlarının konsepsiyasında, eyni zamanda həssaslıqlarında böyük tradisional sivilizasiyalara uyğun gələn və mənşələrinin yox olmuş dünyasının irsini mühafizə edən insanlıqdan bəhs edirik. Başqa bir sözlə, primitiv olaraq adlandırılanlar ali deyil amma normal insanlığın əcdadlarıdır. Buna görə də, qarşı çıxdığımız sadəcə modern incəsənət, eləcə də modern musiqi və rəqs domenlərində dominant olan primitivizm formasıdır. Bugün ABŞ-da geniş kütlələrin sahib olduğu düşüncəyə görə, qaradərililərin təsiri qitə sivilizasiyasının oyanışında müstəsna rol oynayıb. Onlar "inteqrasiyionizm" ilə Ağların irqçiliyinə qarşı mübarizə aparıb. Şimali Amerikalıları "cavan xalq" olaraq təsdiq etmək əsrimizin ən böyük yanlışlarından biridir. Onlar qədim Avropa irqlərinin requrgitasiyası və ən sonuncu qoludur. Ona görə də, Amerikan ruhunun əksər aspektlərində gənclik deyil, kəskin reqressiya və yaşlılıq müşahidə edilir. Diqqət çəkmək istədiyimiz digər məqam isə ondan ibarətdir ki, Freydianizm kimi primitivist düşüncələr var olmasaydı bu şəkildə aberrant "ideyalar" belə üstünlük qazanmazdı. İlkin olaraq, Darvinin ideyasına görə, "primordial sürü" insan assosiasiyasının orijinal formasını təmsil edir. Habelə, qəbul edilən ortaq düşüncəyə əsasən ibtidai həyatın müəyyən formaları (sekualist psixoanalitik interpretasiya tərəfindən deformasiya edilmiş) hər bir insanın özündə daşıdığı ilkin irsi təmsil edir. Bu, kollektiv qruplaşma üçün nümunəvi prinsipdir. Fedor Vergin "*Das Unbewusste Europa*" adlı əsərində Avropa siyasi ideyalarını ibtidai və infantil psixikanın

[221] Julius Evola – "Maschera e volto dello spiritualismo contemporaneo", (Edizioni Mediterranee, Roma, 1971), p,152

"kompplekslərinin" ortaya çıxmasının nəticəsi olaraq təhlil edir.

*Təbiətə qayıdış* mifinin bir təzahürü olaraq modern Amerika sivilizasiyası üzərində primitv neqroizmin təsirlərinin təhlil edilməli olduğunu düşünürəm. Amerika sivilizasiyası və Amerikalılarda sadəcə irqi və demoqrafik baxımdan deyil, eləcə də davranışlar və zövqlər perspektivindən də dərin neqrifikasiya özünü göstərir. Neqro təsiri  kolonial ruhun daxilində kənardan doldurulmalı olan emosional vakuum məsələsidir. Digər mühüm məsələ isə Amerikalının bir primitiv olaraq konstant şəkildə ibtidailiyə doğru dönüşü və ya yenidən dönüşü, daima cavanlaşma ehtirasıdır. Amerikan auditoriyalarını öz ağuşuna alan neqro rəqsləri, jazz musiqisi və jazz əsaslı bütün mahnılar Vətəndaş Müharibəsindən bəri Amerika məmləkətində inkişaf edən qara dərlininin – emansipasiya etmiş neqronun autentik ifadələridir. Reseptivlik və imitasiya mərhələlərini keçə bilməyən ağdərili Amerikalının ruhu mövcud ola bilmək üçün öz ifadəsini yalnız neqro tərzlərində tapa bilir. Amerikalı öz qabalığı və infantilizmini yalnız neqro yoldaşları ilə bölüşə bilər. Qabalığa olan libido amerikan təfəkkürünə həkk olub. Bütün idman növlərinin ən kobudu olan boksinq İngiltərədə yaransa da, onun ən aberrant formaları məhz Amerikada ortaya çıxıb və məhz orada digər xalqlara da nəql olunan kollektiv obsessiya obyektinə çevrilib. Bu libido ilə bağlı olaraq ən vəhşi tərzdə döyüşlərə getmək Amerikan filmləri və populyar detektiv hekayələrinin ayrılmaz bir parçasıdır. Vulqar yumuruq döyüşü Amerikalıların gözündə gerçək kişiliyin simvoludur.

Amerikan psixikasına hakim olan neqro komponenti psixoanalitik K.Q.Yunq tərəfindən də müşahidə edilir: "Amerikalılar arasında mənim diqqətimi çəkən ilk şey qan qarışığı olmadan psixoloji neqro təsiridir. Amerikada emosiyaların ifadəsi, amerikalının, xüsusilə də təqlidsiz Ruzvelt gülüşünün kökü Amerikan neqrolarının ilkin formasında aşkar edilə bilər. Amerika musiqisi və rəqsinin mənşəyi də bütövlükdə primitv neqro tərzi ilə bağlıdır. Dini emosiyaların ifadəsi, Holy Rollers və digər abnormallıqlar, eləcə də onların bəsit saflığı tam olaraq uşaqsı neqro təsiri al-

tındadır. Özünü sadəcə beyzboll oyunlarında deyil, həddən ziyadə çox söz bolluğuna (bu, Amerikan qəzetlərində müşahidə edilən sözlərin sonsuz və sərhədsiz selində müşahidə edilə bilər) olan ehtirasda göstərən orta statistik amerikalının aktiv temperamenti əsla qitənin Alman əcdadları ilə əlaqələndiriə bilməz. Bu, neqro qəsəbələrinə xass olan durmadan danışmaq, hərəkətdə olmaq xarakterindən fərqlənmir. İntimliyin total şəkildə qeyri-mövcudluğu və Amerikalıların dominant kütlə-sosiallığı mənə açıq daxmasında öz tayfa qohumları ilə özünü tam şəkildə identifikasiya edən bir fərdin ibtidai həyatını xatırladır. Hasarsız ev bağları hər şeyin küçənin bir parçası olduğunu əks etdirir. Amerikalının qəhrəman fantaziyalarında Hindu xarakteri aparıcı rol oynayır. Amerikalıların idman konsepti də Avropa mənşəli Amerikaların təbiəti ilə heç bir halda uyğunlaşa bilməz. Qabalığı və kobudluğu ilə yalnız Hindu inisiasiya mərasimləri Amerikalıların sərt atletik təlimləri ilə rəqabət apara bilər. Amerikan iradəsinin cəlb olunduğu hər şeydə Hindu motivi aşkar bir şəkildə öncül funksiyaya sahibdir. Amerikalı xəstələrim arasında qəhrəman-fiqurunun Hindu dini aspekti ilə sıx bağlılığını müşahidə etdim. Hindu dini ritualında ən mühüm fiqur şaman, şəfaverici və pis ruhların qovucusudur. Bu sahədə Amerikanın ilk kəşfi spiritualizm, ikincisi Xristian elmi və digər "mental sağlamlaşdırma formalarıdır". Xristian elmi ekzorsistik ritualdır, xəstəliyə səbəb olan ruhların – demonların mövcudluğu qadağandır. Spiritual yoxsulluğun mövcudluğuna rəğmən Xristian Elmi Amerikada çox güclüdür. Yerə əsaslı gücə malik olan Xristian Elminin rəsmi Kilsələrdən daha çox "möcüzələr doğurma" qüdrətinə inanılır. Beləcə, bir amerikalı belə kuriyoz şəkildə təsvir edilə bilər: neqro tərzlərinə və hindu ruhuna sahib Avropalı. Avstraliya aborigenləri iddia edirlər ki, yad bir torpağı işğal etmək qeyri-mümkündür. Çünki ansestral ruhlar o torpaqda yaşayır və işğalçının yeni doğulmuş uşaqları yad əcdadların ruhunu və ağılını inkarnasiya edəcəklər. Bu özlüyündə böyük psixoloji həqiqətə malikdir. Fəth edilmiş yad məmləkət işğalçını fəth – assimilyasiya edir. Mərkəzi və Cənubi Amerikanın işğalçılarından fərqli olaraq Şimali Amerikalılar ən qatı Puritanizm ilə öz

*avropalı köklərini* qoruyub saxlasalar da, bu, Hindu ruhunun Amerikalılar tərəfindən assimilyasiyasının qarşısını ala bilmədi"[222]. Amerikalı filosof və siyasi nəzəriyyəçi Ceyms Börnham da bildirir ki, amerikan həyatında gərgin bir qəddarlıq hökm sürür və bu, daxildə qanqsterizm və linçləmə olaraq, ölkə xaricində isə amerikalı əsgərlər və turistlərin arroqantlıq və xuliqanizmində özünü nümayiş etdirir. Amerikan ağılının provinsializmi digər xalqlar və mədəniyyətlərə qarşı anlayışsızlıqda, ideyalar, tarix və ənənələrə qarşı cahil nifrətdə və sadəcə maddi zəfər ilə tətmin olunmaqda özünü göstərir.[223]

Reqressiv bir tip olaraq modern Qərb insanı – Homo Occidentalis müxtəlif perspektivlərdən bir qabıqlı ilə müqayisə edilə bilər: O, kənardan "sərtdir" – təşkilatçı, "fəaliyyət adamı", rəhmsiz təşəbbüskar, amma daxili substansiyasında "yumuşaq", dayanıqsız və formasızdır. Bu, degenerat Qərb insan tipinin ən ali səviyyəsini özündə əks etdirən Amerikalılarda ifrat dərəcədədir. Davamsız sentimentallıq, bayağı patos (xüsusən də, sevgi məsələlərində) Amerikalıları sivil Avropalılara deyil, daha çox Neqrolara yaxınlaşdırır. Bu reallıq Amerikan romanlarında, filmlərində, mahnılarında, bütövlükdə onların gündəlik həyatında asanlıqla müşahidə edilə bilər. Onların seksuallıq və erotisizm anlayışı klassik Avropada *ars armatoria* (sevgi sənəti) adlanan fenomendən tam olaraq məhrumdur. Onların durmadan tərifllədikləri yüksək seksual performans arzusu priapik xarakterli olmaqla, ən erkən neqro primitivizmi ilə assosiasiya olunmalıdır. Amerikalıları "gənc irq – gələcəyin irqi" olaraq düşünmək reqressiv uşaqlığı gerçək gənclikdən ayırd edə bilməyən miopik baxışın nəticəsidir. Onlar qitəyə sonradan gəlmələrinə baxmayaraq, öz köklərindən qopmuş ən yaşlı və dekadent xalqlar yığınıdır. İkinci Dünya Müharibəsindən sonra bir sıra Avropa ölkələrində, xüsusilə də Fransada ekzistensialistlər, bəzi "ziyalılar" və "proqressiv sənətkarlar" tərəfindən *Négritude* anlayışının mədhinə başlanıldı. Başda Amerikalılar olmaqla, qeyri-Avropalı sivilizasiyalara

---

[222] J.Evola–"the Bow and the Club",(translated by Sergio Knipe, 2018,Arktos Media Ltd.,), p, 31
223 James Burnham–"The Struggle for the World",John Day Company Inc., NY,1947, p,212

heyranlıq duyan Avropalılarda kəskin primitivizm və primitivliyə qayıdış özünü göstərirdi. "Amerikanlaşma" eyni zamanda tərəqqi ilə ayaqlaşma, "azadlıq" və "açıqfikirlilik" simvolu olaraq qəbul edildi. Neqroların sosio-kultural "inteqrasiyası" ilə ayaqlaşma Avropa ölkələrini də fəth edirdi. Bununla da, irqin təbii anlayışı və distansiya hissi aradan qalxırdı. Neqressa Ella Fitzceraldın Avropadakı konsertləri formasız, durmadan qışqıran vücud kütləsinin səbəb olduğu isteriya ilə müşayiət olunurdu. Primitiv *Négritude* mədəniyyətinin mədhi xüsusən də alman Yanhaynz Yan-ın "Muntu" adlı kitabında zirvə nöqtəsinə çatdı. Səhraaltı Afrikanı dərindən öyrənən alman araşdırmaçısı ümumiləşdirilmiş Səhraaltı Afrika "mədəniyyəti" və onun Qərb sivilizasiyası ilə interaksiyasını triumfal şəkildə təsvir edir. Bu kitab yazıldıqdan dərhal sonra sürətlə digər Avropa dillərinə tərcümə edilməyə başlandı. Y.Yan bildirir ki, Neqro "mədəniyyəti" Qərbin materialist sivilizasiyasını canlandırmaqda müstəsna bir vasitə olacaq[224]. Qaradərililərlə abnormal "qardaşlaşma", Neqro jazz-in dini ilə xarakterizə olunan nihilist, anarxist, üsyankar və anti-konformist ekzistensializmin, Bitniklər və Hippilərin Amerikada ortaya çıxması da bu baxımdan heç də təsadüfi deyildi. Başda Amerikalı jurnalist və esseyist Norman Mailer olmaqla, "inteqrasiyonizm" və "qardaşlaşma" eksponentləri ağdərili Amerikalıları "ağdərili neqro" olaraq müəyyən edirdilər. İtaliyan yazarı Fausto Cianfrançeski "L'uomo in allarme" adlı kitabında qeyd edir: "Mailer tərəfindən təsvir edilən bəsit Neqro mədəniyyətinin təlqin etdiyi heyranlıq ilə əsrin sonunda Fridrix Nitzşenin messajının nəticəsi arasında bir paralel mövcuddur. Başlanğıc nöqtə konformizm vasitəsilə insani varlığın fossilləşərək destruksiyasıdır. Jazz və seksual orqazmı ilə Neqronun "Supra-İnsan"ın təməli üzərinə qoyulması necə böyük deqradasiyadır!"[225]

---

224 Janheinz Jahn - "Muntu. African culture and Western wordl", Grove Press, NY, 1990, p,234 ,

225 Fausto Gianfranceschi – "L'uomo in allarme", (Edizioni dell'Albero, Torino, Italia, 1963), p, 61

## NEOMİSTİSİZM və KRİŞNAMURTİ

İnsanın bir obyekt ilə mistik identifikasiyası zamanı həmin obyektin yaratdığı "mərkəz" nəticəsində şəxsiyyətin daxili formasiya prosesi dayanır. Mistik identifikasiya prosesi insana öz şəxsiyyətini aradan qaldırmasına və effektiv şəkildə özündən uzaqlaşmasına səbəb olur. Bu proses eyni zamanda həm azadlıq, həm də şəxsiyyətin dissolyusiyasıdır. İnsanı öz yolu ilə istiqamətləndirən bu proses onda azadlıq hissini təmin etməklə yanaşı, formadan qopmuş vital – instinktual qüvvələrin şirnikləndirici sensasiyasını doğurur. Dünyəvi obyektlərin mistisizmi fundamental olaraq bir mistik identifikasiya və ekstatik parçalanma yaratmaq gücündədir. Faktiki olaraq, mistik obyekt artıq bir ilahlilik deyil, bir ideologiya, siyasi partiya, müəyyən bir şəxsiyyət (daha çox siyasi fiqur olaraq) bir idman, və ya Modernizm əsrinin bir "dünyəvi dini" ola bilər. Burada hər zaman spiritual destruksiya, subyektiv forma və vəhdətin bir sərbəstləşmə, *détente* və ekstatik animasiya ilə əvəzlənməsi baş verir[226]. Mistik fenomenlərin diqqətlə analizi bir reallığı göstərir ki, onlar psixoanalizdən kütlələrin psixologiyasına, eləcə də modern kollektivizmin müxtəlif formalarına və demaqogiya metodlarına qədər uzanır. Psixoanalitik praktikanın hədəfi *transfert* adlanan halın baş verməsidir. Bu zaman psixoanalitik özünü subyekt ilə əvəzləyərək onu öz psixi gərginliklərindən azad etmək və alt-şüurunda toplanmış və basdırılmış hər şeyin "requrgitasiyasına" yardım etmək üçün onu "yüklərindən azad ola bildiyi" bir istinad nöqtəsi ilə təmin edir.

Demaqogiya texnikası da ümumi şəkildə bir *transfert*-ə və *ekstatik* emansipasiyaya əsaslanır. Geniş anlamda transfert prosesi zamanı azad hala keçən nəhəng psixo-vital potensialın aşkar və konkomitant qüvvələri ilə birlikdə insanın öz daxili mərkəzi özündən kənara proyeksiya olunur. "Xarizmatik" xarakter aldıqları hər yerdə demaqojik liderlər bir mistik identifikasiya yaratmaqla fərdlərinin daha ali həyatda yaşadığına inandığı izdihamlı

---

[226] Julius Evola–"Maschera e volto dello spiritualismo contemporaneo", (Edizioni Mediterranee, Roma, 1971), p,110

kütlələri mobilizasiya edə bilirlər. Öz eqosundan azad olmuş kütlə daxilində təsirsiz bir elementə çevrilmiş fərdi düşünmək, habelə mühakimə etmək qabiliyyətlərini başqalarına transfert edərək xoşbəxt olduğunu zənn etməklə bir şücaət, fədakarlıq və qəhrəmanlıq təcəssüm etdirdiyinə inanan paroxiala çevrilir. Modernizm əsrində - xüsusən də, Fransa İnqilabından bu yana – bu mistik fenomenlər daha məşum xarakter nümayiş etdirirlər. Çünki zamanın spesifik bir dövründə kollektiv hərəkatları müəyyən edən və onlara rəhbərlik edənlər özləri noktürnal qüvvələrin alətlərinə çevrilirlər.

Modern mistisizmin özünəməxsus səciyyəsi özlüyündə *messianik fenomeni* ehtiva etməsidir. Lakin, bu Məsih artıq bir xilaskar deyil, müstəqil şəxsiyyətin qüvvələrini öz məqsədinin realizasiyasından "ekstatik" olaraq sapdıran şüuraltı bir idealdır. Bu hal zamanı da, eqonun inteqrasiyası və formasiyası prosesinin sinkopasiyası vasitəsilə *transfert* fenomeni meydana çıxır. Öz degenerat formasında qeyd edilən Messianik fenomen Qərb insanının *bir spiritual öndər* axtarışında olduğu hər yerdədir. Burada ruhları cəlb edən "okkultun" heyranediciliyi və qəribəliyi deyil, "Master" və ya "Adept"in[227] möcüzəvi halo efekti ilə özlərini əhatələyən spiritist sekta və məktəb rəhbərlərinin təlqin etdiyi anlaşılmaz messianik arzudur. Bu, Teosofizmdə şüurlu və sistematik xarakter alır. "Dünyanın yeni Müəlliminə" ehtiyac olduğuna inanmaqla, Teosofizm onun – Şərq Ulduzu Düzəninin – gəlişini hazırlamağa özünü həsr edib. Britaniya sosialist teosofisti Anni Besant bu *Ulduzun düzənini* uzun müddətdir gözlənilən gənc bir hindunun *zühuru* ilə əlaqələndirirdi. Bəhs edilən bu gənc hindu – Şərqin yeni parlayan *Ulduzu* Ciddu Krişnamurtidir. Ortaya çıxması ilə total şəkildə yeni bir istiqamət götürən Krişnamurti neospiritualizmin simvoluna çevrildi. İlk əvvəl, onun söylədiyi bir cümləyə diqqət edək:

"Mənim sadəcə bir məqsədim var. İnsanı azad etmək, onu öz azadlığına qovuşdurmaq, bütün məhdudiyyətlərdən onu ayırmaq. Çünki yalnız bu ona əbədi xoşbəxtlik verməklə, özünün qeyd-şərtsiz realizasiyasını təmin edəcək."

Bu özlüyündə nəinki Messianik Teosofizmə, ümumilikdə bütün eks-

---

[227] Adept – neospiritualist hərəkatlarda dörd inisiasiya mərhələsini keçməklə Beşinci Planetar İnisiasiyanı tamamlayan Müdriklik Ustadı, spiritual müəllim.

trovert davranışlara qarşı təsirli bir reaksiya olaraq meydana çıxdı. Tədricən çox geniş entuziastlardan ibarət konvensiyalar və toplanışlar onu özlərinin istinadgahı kimi qəbul etməyə başladılar. Onun ideyalarının geniş yayılması üçün İngiltərədə "Krişnamurti Fondu" yaradıldı. "Krişnamurti, Dünya Müəllimi" (müəllif – L.Renol), "Krişnamurti, İnsanların güzgüsü" (müəllif – Y.Akard), "Yeni eranın psixoloqu" (müəllif R.Linssen) adlı kitablar nəşr edilməyə başlandı. Sadəcə "Master" olaraq deyil, həyata yeni baxışın carçısı kimi fəaliyyət göstərən "Krişnamurti mifi" formalaşdırıldı. O, fərdi əvəzləməyi deyil, onu öz dərin şüurluluğunun dərkinə sövq etməyi qarşısına məqsəd qoymaqla dinləyiciləri üçün yalnız bir "spiritual katalist" rolunda çıxış edirdi. Bundan əlavə o, geniş publika qarşısında dünyanın hər yerində - universitetlərdə konfranslar keçirməyə, hətta teatrlarda belə özünü göstərir, intellektuallıq və dünyəvilik arasında dayanan kütlənin snobist maraqlarını coşdururdu. "Master"in rolunu disfunksionallaşdırmaqla Krişnamurti insanın heç bir "Master"ə ehtiyacı olmadığını elan etdi.

Dərin paradokslarla xarakterizə olunan Krişnamurti doktrinasının təməli belədir: Həyatı "Eqo"dan azad etmək. Onun üçün həqiqət Həyat, Həyat isə Saflıq, Əbədilik və Xoşbəxtlik deməkdir. Bundan əlavə, Həyatı azad etmək ilə Eqonu azad etməyin sinonim olduğunu söyləmək mümkündür. Çünki Krişnamurti təkid edir ki, yanlış şəxsi Eqo və özünü Həyat, eləcə də digər hər şeyin prinsipi ilə unifikasiya edən "əbədi Mən" arasında fərqliləşmə - differensiasiya olmalıdır. Məhz burada Krişnamurtinin paradoksal uyğunsuzluğu və qeyri-reallığı özünü göstərir. O bildirir ki, əbədi Eqoya yəni Həyata hər növ məhdudiyyətlər – inanclar, ürəyin və ağılın atavist vərdişləri, bağlılıqlar, konvensiyalar, dini vicdan, qorxu, ön-konsepsiyalar, nəzəriyyələr və s. təlqin edən bütün bu səddlər "insanın fərdi özünəməxsusluğunu aşkar etməsinin" qarşısında dayanan və yox edilməli olan səddlərdir. Krişnamurtiyə görə, insan bu separasiya hissini aradan qaldırmaq üşün *hər şeylə* mütləq ittifaq içində olmalıdır. Burada, şeylərin çox kompleks tərzdə öz-özünü təşkil etməsi və onların spontan morfogenezisini təsvir edən Berqsonian[228] *élan vital* ideyası və irrasional panteist-naturalist dinlərin pri-

[228] Anri Berqson – Fransız-yəhudi filosofu, Kontinental fəlsəfə ənənəsinin davamçısı, Ədə-

zumpsiyaları ilə qarşılaşırıq. Krişnamurtinin vurğuladığı "Eqo" sadəcə bir neqativ prinsip, bir superstrukturdur, yalnız *Həyatın* həqiqətən "real" olması isə psixoanalizdə də müşahidə edə bildiyimiz bir ideyadır. İnsanın "şəxsi Öz"ü və ya onun "fərdi özünəməxsusluğu"-nun dərk edilməsi üçün heç bir yol irəli sürə bilməyən Krişnamurtidə "mükəmməlləşmə" və "ali məqsəd-daima axan və heç vaxt dayanmayan, mütləq formaya malik hər şeyi yox edən, formadan formaya dəyişən, səbatsız, heç nə tərəfindən sərhədlənə, nəzarət edilə və idarə oluna bilməyən bir fərqliləşməmiş həyat - protean olaraq dərk olunur. Hər şeyə üstün gəlindiyi, hər bir məhdudiyyət aradan qalxdığı zaman Həyata Xoşbəxtlik, azad və ekstatik sevinc attributunu bəxş etmək mümkündür. Yalnız bu zaman Həyat saf spontanlıq olaraq sonsuz şəkildə özünü genişləndirə - ekspansiya edə bilər. Məhz buna görə də, Krişnamurti prinsiplərinə əsasən, insan şəxsiyyətinin bölünməzliyindən, əbədilikdən və ya zamanın qanunundan həqiqi azadlıq barəsində danışmaq qeyri-mümkündür. Perennial olaraq dəyişən ilə əbədi və bölünməz olan haqqında eyni anda danışmaq kəskin bir absurdluqdur. Halbuki, biz bilirik ki, bütün tradisional *sapiensia* təlimləri iki regiona, iki hala xüsusilə önəm verirlər: dünya və supra-dünya, həyat və supra-həyat, formaların dəyişkənliyi (samsara) və bir spiritual mərkəzin mövcudluğu. Lakin, Krişnamurti qeyd edilən iki regionu eyni bir xəmirdə qarışdırmaqla Hindu *atma - brahman* təlimini Qərb düşüncəsi üçün xarakterik olan "becoming"in irrasioanllığının şərtlərinə daxil edir.

"Dünyanın yeni Müəlliminə" görə, insan özü ilə qayəsi arasındakı məsafəni ləğv etməli və özünü ali məqsədə transformasiya etməlidir. Dolayısı ilə o, keçmiş ilə gələcək arasında bir kölgə olmadığı zaman real identikliyini qazana bilər. Əslində, bu prinsip hələ irəlidə gözlənilən zamana doğru tərəqqi illüziyasını özündə ehtiva edən təkamülçülüyə qarşı təsirli bir reaksiya ola bilərdi. Lakin, insanın öz-özünü identifikasiyasının sərxoşluğu və Həyatın sadəcə dolayısızlıq və aniliyə ekstatik reduksiyası ilə Krişnamurti də eyni spiritual reqressiyanın ehtivasıdır. Ona görə, əgər bir fərd öz şəxsi varlığında bir formaya və spiritual mərkəzə malikdirsə, bu onun azadlığı qarşısında

biyyat üzrə Nobel mükafatı laureatı.

bir məhdudiyyətdir. Həyatın azadlığını hətta *Həyatdan* azadlıq olaraq belə xarakterizə edən Krişnamurti təliminə əsasən əgər "həqiqi mükəmməlləşmənin" heç bir qanunu yoxdursa bu xaos halı deyil, qanun və xaos qarşısında alilik, hər şeyin rüşeyminə doğru konvergensiya - yaxınlaşmadır. Bundan əlavə, o qeyd edir ki, biz *tradisiya, autocritas* və ya qorxuya deyil, hər bir fərdin "daxili düzəninə" əsaslanmaqla düzənsizlik və superstisiyalar dolu əsrimizdə ilğım yaratmalıyıq. Lakin, bu ideyanın heç bir istinadı, metodu və ya nizam prinsipləri yoxdur. Çünki Krişnamurtiyə görə, Həqiqətin – Həyatın realizasiyasında hər hansı bir yol yoxdur və Xoşbəxtliyə doğru bir arzu və ya aspirasiya bir həyat üçün deyil, *həyatın özü* üçün, bir varlıq üçün deyil, varlığın *özü üçün* qeyri-məhdud fərdisizləşmiş sevgidir. Bu səbəblə də, onun vurğuladığı yeganə yol eqo və onun essensiyasını təşkil edən diktumları aradan qaldırmaq, spiritual davamlılıq prinsipinin mental axınını dayandırmaqdan ibarətdir. Əgər heç bir sədd, daxilimizdə keçmiş və ya indi tərəfindən müəyyən edilən heç nə yoxdursa, fərd "özünün həqiqi şüuruna" varid ola bilər. Krişnamurti bu halı bir intizamlılığın, bir metodun və ya eqonun özünün bir təşəbbüsünün nəticəsi olmayan, qəfil xarakterli spontan fakt olaraq mistik şəkildə izah edir. Bu hipotetik oyanış zamanı eqo bütövlükdə aradan qalxır və *həyata çevrilir*.

Krişnamurti təlimlərini diqqətlə nəzərdən keçirdiyimiz zaman qarşılaşdığımız sadəcə teosofik edifisə qarşı reaksiya və ya psixoanaliz ideyalarının qarışıq putrefaksiyasıdır. Ümumiyyətlə, Krişnamurti təlimləri psixoanalitiklərlə eyni tərzdə, istənilən növ ali spiritual hakimiyyəti rədd etməsi ilə xarakterizə olunmalıdır. O öz anarxist fərdiyyətçiliyində eqonun formasiyasını Xristianların bəhs etdiyi "ilkin günah" ilə eyni səviyyəyə qoyur. Yalnız rədd yolu – *via remotionis* və "qədim insanın destruksiyası" tələbləri ilə hərəkət edən Krişnamurti spiritual reinteqrasiyasının gerçək mahiyyətinin nə anlama gəldiyini bilmir. Bu degenerat təlimlərə Hermetizmdən qaynaqlanır. Hermetizmdə xüsusi olaraq vurğulanan *eqo prinsipinin qızıl simvolunu*[229] və dissolyusiya proseslərinə üstün gələn daxili spiritual substansiyanı

[229] Qədim əlkimyaçılara, Pifaqor və Platon kimi filosoflara görə, qızıl metallik quruluşlar arasında ən mükəmməlidir. Ona görə də, fərdin spiritual mərkəzliliyi və mükəmməlliyi "eqo prinsipinin qızıl simvolu" ilə identifikasiya olunur.

dərk etməkdən də uzaqdır. Bu substansiya olmadan fərdin mükəmməlləşməsi və "Magnum Opus"un reallaşması qeyri-mümkündür. Bu zaman fərd albedo mərhələsinə həbs olunur. Krişnamurtinin paradoksal ideyalarının əksinə olaraq, Hermetizm daha aydın və dolğun oyanış yolunu nümayiş etdirir. Krişnamurti düzənində spiritual muxtariyyətə sahib olan Eqo anlayışı mövcud deyil, Eqo özünü "Həqiqətin" qarşısıalınmaz essensiyasını təşkil edən davamlı mutasiya və konstant transformasiyaya qarşı qoyan bir statik faktor, bir "ətalət elementi" olaraq düşünülür. Krişnamurti düşüncəsindəki "azadlıq" xaos və spiritual olaraq detrimental anarxiyaya doğru demonik meyildir. Onun ideyalarında spiritual və sapiensial ənənələr, simvollar, miflər, ritualist və asketik strukturlar hələ də mövcud olan boş formalardan başqa bir şey deyil və onların düzənsiz dünyaya qarşı bir "ilğım yaratmaqda" heç bir rolu olmamalıdır. Demokratik tərzdə hər kəsi böyük üsyana, bütün qadağaları qadağan etməyə çağıran Krişnamurti 68-lər hərəkatı zamanı Fransada – "insanın azad nailiyyəti" adı ilə böyük universitetlərin tələbələrinin tradisional sistemlər və dəyərlərin rəddini tələb etdikləri nümayişlərdə nəzərəçarpacaq populyarlığa sahib oldu. Nihilist və ikonoklast fikirləri ilə Krişnamurti Qərb dünyasının gənc yaşlı fərdlərinin ekstatik və şüuraltı "boşalmalarının" istinadgahına çevrildi. Xaotik, bəzən isə vəhşicə ekstaziya metodlarına – LSD, marixuana və həşişdən istifadə, ekstatik Neqro ritmləri altında konstant sinkopasiyalardan ibarət rəqslər, psixedelik tamaşalar - baş vuran Bitnik-Hipster çevrələrində Krişnamurti düşüncələri aşkar şəkildə özünü biruzə verir. Neqroların sayının getdikcə artdığı bu çevrələrdə rok və jazz-ın ağuşunda performansçılar və improvizorlar hər iki cinsdən (seksual cütlüklər formasımnda) minlərlə gənci bir yerə toplayaraq "mütləq azadlıq" kimi fəaliyyət göstərən kollektiv possessiya atmosferində onlarda frenetik entuziazmı coşdurur. Braziliyada keçirilən *macumba və cadombe* şənlikləri ilə analoji olaraq qeyd edilən hallarda da ekstra-fərdi inferiyor qüvvələrin nəzarəti altında fərdi şəxsin bütövlüyü sadəcə olaraq psixi alt-qatın ekstatik və ya frenetik azadlığına endirilir. Bu dünyanın sərhədlərində baş verən absurd və kriminal fəaliyyətlər də fərdlə yaxud bir ideologiyanın təsirləri ilə deyil, qeyd olunan inferiyor noktürnal qüvvələr ilə əlaqələndirilməlidir.

## TEOSOFİYA

Modern teosofiyanın təhlilinə başlamazdan öncə tradisional və çağdaş teosofiya arasındakı fundamental differensiasiya vurğulanmalıdır. Qədim teosofiya ilahi (teos) biliyin (sofia) tələbkarlığından irəli gəlirdi. Özünü bir "inanma", bir mifologiya və ya bir teologiya ilə məhdudlaşdırmayan tradisional teosofiya İlahi qüvvənin effektiv təcrübəsinin və biliyinin mümkünlüyünü təsdiq edirdi. Həm Qərb, həm də Şərqə məxsus qədim spirituallığın bütün böyük axınlarında teosofiya çox görkəmli yerə sahib idi. Yunan patristikləri, xüsusilə də Klement Aleksandria bir inisiator səciyyələri olan "gnosticos" (bilən) və"pistikos"u (inanan) bir-birindən fərqliləşdirdiyi və bir-birinə qarşı qoyduğu zaman orijinal Xristianlığın özündə də teosofiyanın üstünlüyü tanındı[230].

Lakin, bizim burada təhlil etməyi qarşıya məqsəd qoyduğumuz tradisional deyil, modern teosofiyadır. Bu yeni hərəkat, bir tərəfdən Şərq müdrikliyi motivlərinə, digər tərəfdən isə Qərbin liberal-demokratik prinsiplərinə əsaslanmaqla Yelena Petrovna Blavatski tərəfindən 1875-ci ildə formalaşdırıldı. Bu hərəkat dominant materializmə qarşı bir reaksiya olaraq meydana çıxsa da, eyni zamanda insanlığın spiritual susuzluğuna qarşı anlaşılmaz ümidlərdən və ya ehkamlardan başqa heç nə təklif edə bilməyən Kilsə əleyhinə polemikal gərginlik nümayiş etdirir. Teosofistlər öz hərəkatına "yüksəklərdən gələn oyanış" adını şamil etməyi çox sevirlər. Annie Besant qeyd edir ki, modern insanların mental məhdudiyyətləri qarşısında "İnsanlığın Böyük Mühafizləri" öz müdrikliyi ilə qədim həqiqətlərin Modernizm əsrində ən uyğun şəkildə yenidən dirçəldilməsi prosesini müəyyən etdilər.[231]. Bu konsepsiyaya görə, bəzi mistik varlıqlar – *Mahatmalar* – bu hərəkatın doktrinasını onun banilərinə nəql ediblər. "İnsanlığın Bö-

---

[230] Julius Evola – "Maschera e volto dello spiritualismo contemporaneo", (Edizioni Mediterranee, Roma, 1971), p, 72

[231] Annie Besant – "Les lois fondamentales de la théosophie", Hachette Livre BNF (1 mai 2013), p, 3

yük Mühafizləri" ilə məşğul olduqlarına inanan Teosofistlər spiritistlər və mediumistlər üçün xarakterik olan passivlik, sadəlövhlükdən fərqli heç bir davranış sərgiləyə bilmirlər. Blavatski qeyd edir ki, mediumluq adeptliyin əksidir. Medium xarici təsirlərin passiv bir alətidir, adept isə özünü və inferiyor qüvvələri aktiv şəkildə nəzarətdə saxlaya bilir[232]. Teosofiya Cəmiyyətinin əsasını qoyan Blavatskinin irihəcmli amma xaotik əsərləri onun heç vaxt oxumadığı kitablardan əldə etdiyi sitatlara əsasən "avtomatik yazı" formasında yazılıb. Məhz buna görə, onun teosofik təlimlərində güclü Şərq motivləri ilə yanaşı modern kollektivist Qərb psixologiyasının yanlış mental kompleksləri də özünü nümayiş etdirir. Lakin, onun ilkin və ya yenidən düzənlənmiş nəzəriyyələri müxtəlif teosofistlər tərəfindən Teosofiyanın *materia prima*-sı olaraq qəbul edilir. 1898-ci ildə Teosofiya Cəmiyyəti daxilində baş verən parçalanmadan sonra iki bir-birinə zidd qrup yarandı. Birinci qrupun *spiritual mənbəyi* keçmişin və Qərbin böyük metafizik baxışları (hərçənd, düzgün dərk olunmasa da) olduğu halda, ikinci qrup, doktrinanın sadəcə bir simptomatik fakt olduğunu düşünən modern Qərb təfəkkürünün "reallıqlarından" asılı idi. Lakin, bütövlükdə demokratiya və eqalitarianizm "delirium"unu ehtiva edən Teosofizm "irq, inanc, cins, silk və rəng" differensiasiyasının olmadığı "İnsanlığın Universal Qardaşlığının" qurulmasını təşviq etməyə çalışırdı. Heç bir tənqidi müşahidənın olmadığı, müxtəlif doktrinalara məxsus elementlərin heteroklit və sinkretist komplekslərindən ibarət olan modern *Teosofiya* şəxsi təcrübə və "visum"u ali həqiqətlər xarakterində təqdim edirdi. Məşhur teosofistlərdən biri olan Çarlz Lidbiter Kundalini yoqa vasitəsilə "mütləq aydınlığa" nail olduğunu və atomları dərk edə bildiyini elan etdi. Nyu-Eycizm-in (New Ageism) öncüllərindən biri olan digər teosofist Alis Beylinin isə C.Krişnamurtinin "aşkar olunmasında" müstəsna rolu olduğuna inanılır. Adları çəkilən teosofistlərə görə, *supra-normal inkişaf* yolunda hər hansı bir öz-özünə nəzarət və ya nizamlılıq kriteriyası yoxdur. Fərd öz sentimental motivasiyası üçün "gizli doktrina" olaraq təqdim edilən bu "vəhyləri" və sink-

[232] E.P.Blavatsky – "The Secret Doctrine", 2005, p, 2

retist kompleksləri qəbul etməli idi. Bu səbələrə görə, fərdi mahiyyətsiz "inanclardan" və gündəlik şüurun vərdişlərindən azad edərək mükəmməl öz-şüur formalaşdıracağı və onun görünməyən reallıqlarla bağlılğını təmin edəcəyi zənn edilən Teosofizm modern elmə aid ideyalar ilə birlikdə sekulyarlaşmış Xristianlığın vulqar formasında özünü göstərirdi[233]. Sükunət, dəqiq müəyyən edilmiş doktrinal intizamlılığa əsaslı praktika, *post laborem scientia* (əməkdən sonra bilik) kimi hermetist prinsiplərindən məhrum olan Teosofiya "planetar səyahətlər", varlıqların təkamülü və ya qeyri-təkamülü, irqlər, alt-irqlər, kosmik epoxalar arasında qayəsiz şəkildə atomist hərəkətindən başqa heç nə bilmir. Həm Teosofiya, həm də Antroposofiyada tarixi-providensial determinizm iç-içə keçir və daha da kəskinləşir. "Dünyanın təkamülü" fatalitik, öncədən müəyyən olunmuş və ali qanuna çevrilir. Hər bir hadisə, formasiya və transformasiya öz varoluş səbəbini və naturalist-rasionalist izahını özündə tapır. Hegel, "dünyanın tarixini" İdeyanın essensial zərurətindən inkişaf etdirmişdi. Lakin, antroposofistlər və teosofistlər bir məntiqi deduksiya deyil, insanın fiziki və spiritual mövcudiyyətinin tabe olduğu güman edilən bəsit *faktların* xarakterizasiyasını irəli sürür. Zaman kateqoriyası despotik şəkildə hər şeyə hökm edir. *Tarixdə* insanın ali məqsədləri, eləcə də transsendental mümkünlüklər rədd edilir. Bütün təbii və supra-təbbi enerji insana deyil, insanlığa – insani kollektivə aid edilir. Qərb "humanizminin" demonu teosofik və antroposofik "spiritualizm" üzərində bariz bir dominasiyaya sahibdir. Xristianlıq bu neospiritualist hərəkatların kollaboratorudur. Avstriyalı ezoterist, Teosofiya cəmiyyətindən ayrılaraq "Antroposofiya" cəmiyyətinin əsasını qoyan Rudolf Ştayner bildirir ki, İsanın Yer üzünə gəlişi ilahi qüvvənin ixtiyari determinasiyası deyil, doğru və müqəddər bir zamanda baş vermiş, insani, həm də kosmiko-planetar təkamül idi. İsanın – "Solyar Loqos"un gəlişinə qədər ilahilik və spirituallıq insandan "kənarda" idi. Yəni, yalnız "Solyar Loqos"un zühuru ilə spiritual insan doğuldu.

---

[233] J.Evola "The Doctrine of Awakening" (Buddist asezis üzərində), Luzac and Company, Ltd., London, 1951 p, 3

"Qədim biliyin öyrənilməsini" özündə ehtiva etdiyini təkidlə bildirən teosofiyanın əsas istinad nöqtələrindən biri – reinkarnasiya üzərində refleksiyalarımızı qeyd etməliyik. Tradisional reinkarnasiyanı atrofiyaya uğradan modern Teosofiyanın məqsədi insanda onun çox uzaqdan gəlmiş olduğunu, bir çox həyat və ölüm yaşadığını, bədəninin solğunlaşmasına üstün gəlməklə bir dünyadan digərinə irəliləyə biləcəyi hissini oyatmaqdır. Teosofizmdə hər şeyi gücsüzləşmiş cismaniliyin intervalları tərəfindən separasiya olunmuş dünyəvi mövcudiyyətlər zəncirinə tabe etməkdir. Buna görə də, bu ideya modern insanın məhdudiyyətini aradan qaldırmaq gücündə deyil. Qədim doktrinaya istinad etdiyini deyən Teosofizm bu doktrinanın sadəcə ekzoterik və populyar formalarına bağlıdır. Teosofistlərin bəyan etdikləri reinkarnasiya ideyası Vedanta-da müşahidə edilə bilər. Lakin, Vedantanın bu ideya üçün əsası var. Bu, *Brahman* ilə, hər bir şeyin metafizik prinspi ilə identik olan "Eqo" nəzəriyyyəsi, ölümsüz və əbədi *atma*-dır. Bu nəzəriyyə insan şüurunun spiritual halı ilə bağlıdır. Buddizmdə qarşımıza çıxan eyni zamanda *anatma* – ruhun və bütövlükdə daxili davamlılığın essensiallığının inkarı – doktrinasıdır. Vedantanı Buddizmə qarşı qoymaqla, biz bir-birinə zidd iki fəlsəfi yanaşmanı deyil, iki müxtəlif spiritual şərtə istinad edən iki nəzəriyyə haqqında bəhs edirik. Buddizmin inkar etdiyi ruh Vedantanın təsdiq etdiyi ruh ilə eyni deyil. Buddizmin təsdiqlədiyi ruh Vedantik ruhdan başqa bir şey deyil. Bu ruh hər bir insanda mövcud olan bir reallıq deyil, yalnız asezis ilə müstəsna hallarda nail olunan bir son məqsəddir. Reinkarnasiya bir universal prinsip olaraq bir "Eqo"ya (*atman – brahman*) sahib olan insan üçün müəyyən bir əhəmiyyət kəsb edə bilərdi. Lakin, Modernizmin irrasional və qeyri-real eqosu üçün bunu söyləmək qeyri-mümkündür. "Modern eqo" anlayışı təktərəfli olaraq bir bədənin və ya bir beynin dəstəyinə bağlı olduğu üçün onun fərdiləşmiş şüurunun davamlılığı kəskin atrofiyaya məruz qalır. "Şəxsiyyət" olaraq *spiritus* da fundamental risk ilə üzləşir. Buna görə də, qarşımıza çıxan Vedantik anlamda reinkarnasiya deyil, müəyyən dərəcəyə qədər bu dünyada qərar verdiyimiz "əbədi xilas" və "ruhun cəhənnəm

əzabı" arasındakı alternativdir. Bu, Katolik və İslam ənənələrində uğur qazanmış "əbədi xilas" və "ruhun əbədi əzabı" ilə bağlı təlimin konkret və tarixi varoluş səbəbidir. Bu iki dini ehkam arasındakı alternativ Katolisizmə qarşı gələn Protestantizmdə də müşahidə edilə bilər. Protestantizmdə bu alternativ Reformasiya dövründən etibarən Eqonun yiyələndiyi fiziki xarakter ilə izah edilir. Orta statistik Qərb insanı üçün Vedantik reinkarnasiya deyil, məhz qeyd edilən təlim daha doğrudur. Dolayısı ilə, əgər reinkarnasiyadan bəhs edilirsə, ondan şəxsiyyət olaraq ruh, insani varlıqda şəxsi şüurun davamlılığını istisna edən digər prinsiplər nəzərdə tutulur[234]. Modernizm şərtləri daxilində perennial olan və varlıqdan varlığa nəql edilən "ölümsüz atma" (supra-şəxsiyyət) deyil, "arzu" olaraq sadəcə *Həyatdır*. Katolisizmdə *cupiditas* və ya a*ppetitus innatus* olaraq insan vücudunun daşıdığı "günah" irsi nəzəriyyəsi də məhz bu *Həyat* ilə uyğunluq təşkil edir. Bu, hər bir ölümlü eqonun matriksi olan alt-insani varlığın dərin və heyvani yaşama iradəsi olmaqla ali dünyaya yüksəliş qarşısında bir səddir. Buddizmə görə, daxili oyanış və spiritual illuminasiyaya nail ola bilməyən insan öz düşüncələri və fəaliyyələtləri (karma) ilə *antarabava* və ya *vijnana* adlanan başqa bir varlıq – "daemon" meydana gəlməsinə səbəbiyyət verir. Durmayan *həyat* istəkləri ilə reallaşan bu daemon öz fundamental tendensiyalarını məhz bu "laktaro"dan (laktaro – həsrəti çəkilən, coşğulu istək) alır. Onu təşkil edən meyilliliklərin fatalist gücü valideynləri tərəfindən ona verilən fiziki və vitalist elementlərlə birləşərək "arzu" tərəfindən saflığından məhrum edilmiş digər varlıqların manifestasiyasının əsasına çevrilir. Müxtəlif irsiliklərdən ibarət olduğuna inanılan bu *yeni insani şüurluluğa* malik olan varlığın ali bir identiklik – *atman - brahman* ilə heç bir bağlılığı mövcud deyil.

234 Rene Guenon – "The spiritist fallacy", Sophia Perennis, NY, 2001

# MODERN “İŞ ETİKASI” VƏ İQTİSADİYYATIN DEMONİK TƏBİƏTİ

Modernizm əsrində sosio-siyasi formasiya həyatın vital, maddi tərəflərinin daha ali – superiyor qüvvələrə, qabiliyyətlərə və qayələrə tabe olduğu mərhələdən kəskin inversiya vasitəsilə superiyor dimensiyanın bütövlükdə aradan qalxdığı mərhələyə yuvarlandı. İqtisadiyyatın ali müstəvidə dəyərləndirildiyi era fundamental olaraq anarxik və anti-iyerarxik eradır. Bu kontekstdə, modern kapitalizm Marksizm qədər destruktivdir. Hər iki sistemin əsaslandığı materialist həyat baxışı identikdir: texnologiyanın, modern anti-teleoloji pozitiv elmin, iqtisadi imperativlərin və istehsalın aliliyi. Yalnız gəlirdən, maaşdan, istehsaldan və iqtisadi siniflərdən danışdığımız, həqiqi insani tərəqqinin sərvət və malların distribusiyasının xüsusi bir sistemi tərəfindən müəyyən edildiyinə inandığımız zaman həyatın essensiallığından məhrum oluruq. Nəticədə, bütün sosial məsələlər və siyasi problemlər mütləq və ali maraqlardan qopmuş şəkildə, fiziki mövcudiyyətin ən primitiv şərtlərində müəyyən edilir. Ədalət anlayışı iqtisadi malların düzgün bölüşdürülməsi sisteminə endirilir; sivilizasiya anlayışı maddi rifah və istehsalın gücü ilə eyniləşdirilir. Bu, modern sivilizasiyanın həqiqi patologiyasının sübutudur. İqtisadi faktor modern insan üzərində bir hipnozisə və tiraniyaya malikdir[235]. Klassik və tradisional sivilizasiyalar tərəfindən aberrasiya olaraq dəyərləndirilən hər şey modern insan tərəfindən yerinə yetirilməli olan ümdə qayə olaraq dərk edilir.

*İqtisadiyyat insanın müqəddəratıdır* aksiomasını təcəssüm etdirən modern sivilizasiyada bu və ya digər iqtisadi sistemi deyil, bütövlükdə iqtisadiyyatın özünün dəyərini sorğu-sual etmək vacibdir. Marksizm başda olmaqla, Solyönlü ideoloji baxışlar ilə Kapitalizm arasındakı antitezis onillərdir aktual olsa da, bu antitezis deyil, psevdo-antitezisdir. Çünki hər iki ideoloji baxış təməl olaraq istehsal mifi, standartlaşdırma, texnokratiya və mexanikləşmiş insan üzərində dayanır. Hər iki ideoloji yanaşma əmək və istehsala əsaslanmayan sivilizasiyaları reqressiv olaraq damğalamaqla "insanlığın ali tərəqqisi" üçün iqtisadiyyatın hegemoniyasını, mövcudiyyətin maddi şərtlərini (yaxud şərtləndirmələrini) *primaria* faktor olaraq

[235] J.Evola – "Man among Ruines", p, 167

qəbul edir. Buna görə də, həqiqi antitezis Kapitalizm və Marksizm arasında deyil, iqtisadiyyatın ali mövqeyə sahib olduğu sistem ilə iqtisadiyyatın supra-iqtisadi faktorlara tabe olduğu sistem arasında olmalıdır. Bu antitezisi aparmaq üçün ilk əvvəl iqtisadi fenomenlərin "neytral" interpretasiyasını rədd etmək mütləqdir. İqtisadi həyatın bədəni və ruhu, eləcə də onun essensiyasını müəyyən edən "daxili əxlaqi faktorları" var. Qədim sivilizasiyaların hakim prinsiplərindən fərqli olaraq, degenerat mütəxəssisləşmənin ortaya çıxardığı yan məhsul və ya sadəcə bir uydurma olan *homo oeconomicus* üçün iqtisadiyyat sadəcə vasitələr düzəni (klassik dərkdə olduğu kimi) deyil, onun öz fəaliyyətlərini həsr etdiyi *ali maraqlar* düzənidir[236]. Klassik və tradisional sivlizasiyalarda iqtisadi insan inferiyor sosial ekstraktsiya insanı olaraq nəzərə alınırdı. Proletarian və sinfi mentallığın yüksəlişinə səbəbiyyət verməklə "sinfi şüuru yenidən canlandırmağa" çalışan Marksizm fərdlərin öz dəyər, tradisiya və idealları ilə yaşadıqları cəmiyyətlərdə primitiv həyəcanlanma, sosietal *ressentment* və qeyri-tətminlik doğurdu. Bu cəmiyyətlərdəki "yadlaşmaya" üstün gəlmək üçün, Marks "yadlaşmadan" daha təhlükəli bir anlayışı - şəxsin mexanikləşmiş bir kollektivə tabe edildiyi "inteqral humanizm"-i irəli sürdü.

Marksizmin eskotoloji baxışları yalnız maddi-iqtisadi rifaha fokuslanan modern Qərb baxışlarından təməl olaraq heç nə ilə fərqlənmir. Hər iki *Weltanschauungen* (dünyabaxışları) praktik tətbiqatlarında essensial olaraq eynidir. Həm Marksizm, həm də azad-bazar iqtisadiyyatlarında sosial düzəni ali düzən və prinsiplərdən məhrum edən, fiziki-vegetativ-dünyəvi anlamda dərk edilən məqsədləri insanın "son məqsədi", *telosu* olaraq görən materialist, anti-siyasi və sosial baxışı müşahidə edə bilərik. Başqa bir sözlə, atomik mövcudiyyəti ilə fərd produktiv mexanizmə kölə edilir, Dövlət yalnız "İş və işçilərə" əsaslanır, cəmiyyət isə "istehlak cəmiyyətinə" doğru deqradasiyaya uğrayır. Nəticədə, "qəhrəman" davranışı, hər bir spiritual həssasiyyət və məziyyətlər iyerarxiyası dərin atrofiyaya məruz qalır. Heyvaniləşən insan üçün xoşbəxtlik sadəcə asan

[236] J.Evola – "Man among Ruines", p, 168

və komfortlu həyatdan, texnomagiyadan, sosial şəbəkə fenomenlərindən, demokratiyanın "çörək və sirklərini"[237] təşkil edən vulqar Hollivud təqlidçiliyindən, idman arenalarından və pop-mədəniyyət məhsullarından ibarət hala gəlir.

İqtisadi era insanının ən plebey və dar xarakteristiklarından biri onun "iş"-i bir etik dəyər və essensial vəzifə olaraq mədh etməsindən ibarət olan öz-özünə qarşi sadizmidir. Mütləqləşdirilən və özlüyündə bir dəyər olaraq görülən iş eyni zamanda paroksismal və produktiv fəaliyyət mifi ilə assosiasiya edilir.

İtalyan idealist filosofu, neo-Hegelianizmin nümayəndələrindən biri olan Covanni Centilenin "iş humanizmi" ("tarixin mənası") adlı formulasiyası solyönlü ideologiayaların üslubunda intrepretasiya olunurdu. Renessansda qeydolunan insan ruhunun emansipasiyasından sonra liberal inqilab eyni istiqamətdə ikinci *mərhələni* təmsil edirdi. Onun ən sonuncu tərəqqisi isə "iş etikası" ilə birlikdə "iş ləyaqəti və spirituallığının" təsdiqi demək idi. Bu ideyaların tarixin Marksist fəlsəfəsi ilə birləşməsi daha açıq ola bilməzdi. Centilenin humanzimi Marksist-Leninist "gerçək humanizm" ilə birləşdi. İş, sadist bir şəkildə hər kəs üzərinə təlqin edilmiş vəzifə olaraq deyil, bir "şərəf" olaraq başa düşülürdü. Digər tərəfdən, hər kəs "Maarifçiliyə" doğru yönələn tendensiyaları bilsə də, "işçi sinfinin yüksəlişinə" mədhiyyələr oxuyan retroqradasiyaya məruz qalan Katolisizminin də eyni axının bir parçası olduğunu heç kəs bilmir. Jak Mariten də, insani tərəqqinin mərhələlərini C.Centilenin düşüncələri daxilində dərk edir. Bu filosoflara görə, tarixin kuliminasiyası "iş sivilizasiyasi" və işçinin mistisizmi idi. Tarixin bu yeni subyektinə, onun tabusu və müqəddəs varlığına heç kim toxuna bilməzdi. Onu qeyd etmək mütləqdir ki, Tradisional perspektivdən güman edilən tərəqqinin mərhələləri tədrici deqradasiya və inversiya anlamına gəlirdi. Bu, total inversiyanın yekun mərhələsi idi – spiritual və transsendental dəyərlər ətrafında hərəkət edən siviliza-

---

[237] Hans-Jürgen Syberberg–"On the Fortunes and Misfortunes of Art in post-war Germany", (translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017), p,65

siyalardan aristokratik rıtsarlıq dəyərlərinə məxsus sivilizasiyaya, daha sonra isə iqtisadiyyat, material orqanizasiya, gəlir və pul üzərində qurulan sivilizasiya və nəhayət sonuncu mərhələdə saf iş və işçi mifi ətrafında hərəkət edən qlobal cəmiyyətə doğru reqressiya baş verdi. "İş" anlayışı mahiyyətinin generalizasiyası bu reqressiyanın yekun fazasının xarakteristikasıdır. O yalnız bir anlam daşıya bilər: hər bir spiritual fəaliyyəti bu inferiyor "iş" kəliməsi altında dərk etmək tendensiyası. O bütün fəaliyyətləri deqradasiyaya uğratmaqla onları eyni bir ümumi denominatora endirir. "İş" və "işçilərə" əsaslı dövlət və ya cəmiyyət konseptinin absurdluğu qeyd olunmaqla yanaşı, işin sadəcə iş, yəni başqa heç bir şey olmadığı da vurğulanmalıdır. "İşçi" sözünü bir ixtiraçıya, bir diplomata, bir keşişə, bir elm adamına, böyük bir təşkilatçıya şamil edilməsi cəfəngiyyatdır sadəcə. Onların fəaliyyəti əsla "iş" olaraq müəyyən edilə və ya onlar heç bir halda "İşçi sinfi" kateqoriyasına daxil edilə bilməz. Hətta, pul ödənilməyən və irsi ənənəyə əsasən öz torpağına, fermasına sadiq qalan kəndli də işçi adlandırıla bilməz. Katoliklər unudurlar ki, mifik Bibliya ənənəsinə görə, iş bir kəffarə forması kimi insanın çöküşünün simvolu olaraq dərk edilirdi. Günah işləyən Adam və Həvvanın timsalında bütün insanlığın cəzalandırılması olaraq Genezisdə qeyd edilir: "çörəyinizi alnınızın tərində yeyəcəksiz"[238]. Klasssik, antik Avropa da öz legitim və spesifik, eyni zamanda maddi dəyəri olan işə total şəkildə mənfi yanaşırdı. *Laborare* sözü əziyyət və cəza sözləri ilə sinonim olaraq işlədilirdi. Məsələn, *laborare ex capite* – baş ağrısından əziyyət çəkmək – deməkdir. *Labor və negotium-a* qarşı olaraq qeyri-maddi, intellektual fəaliyyətlərə, ədəbiyyat və fəlsəfi araşdırmaya yönəlmiş fəaliyyətləri təyin etmək üçün *otium-dan* (otium – latınca asudəlik. Lakin, bu "asudəlik" başıboş vaxt keçirmək mənasında deyil, spiritual və ali fəaliyyətlər üçün tələb olunan daxili sükutluq, rahatlıq halı üçün işlədilirdi.), kontemplativ (dərin düşüncə) fəaliyyətlər üçün isə dini və asketik terminologiyada *otium sacrum*-dan istifadə edilib. Burada bir ispan atalar sözünü qeyd etmək doğru olardı: *el hombre que trabaja pierde*

[238] Genesis 3:19

*un tiempo muy precioso* - işləyən (*labor* və ya *negotium* olaraq) insan ən dəyərli vaxtını itirir.

Hər bir normal və doğru düşünə bilən cəmiyyətdə, iş ali fəaliyyəti yerinə yetirmək qabiliyyətində olmayan varlıqlar üçün *yaşamını təmin etmək* vasitəsi olaraq dərk edilməlidir. İşin özlüyündə bir son – ali məqsədə çevrilməsi və *yaşamını təmin etmək* vasitəsindən daha yüksək dəyərləndirilməsi sadəcə bir aberrasiyadır, eləcə də "işçi" başa düşməlidir ki, "iş humanizmi", "iş etikası" və ya "şərəf olaraq iş" kimi *ideyalar* tamamilə avtomatik proses halına gəlmiş istehsal mexanizminə işçini daha möhkəm zəncirləmək üçün istifadə edilən boş bir mistifikasiyadır. *Otium-d*an əlavə klassik Avropada *labor* sözünə antitezis olaraq *opus*-dan istifadə edilirdi. *Labor* yalnız qul əməyinə şamil edilirdi. Lakin, özünü ədəbi, sənət və intellektual fəaliyyətlərə həsr etmiş insanlar üçün isə *opifex* ibarəsindən istifadə edilib. Şpenqler də bu son dərəcə əhəmiyyətli mutasiyanı öz əsərində qeyd edərək vurğulayır ki, *labor*-a meyilli modern insana qarşı olaraq tradisional insan üçün yarada bildiyi və daxilən fəaliyyət göstərdiyi *vocatio* (məslək) xüsusi önəm kəsb edirdi. Tradisional sənətkarlıq sahəsində bu keyfiyyət xarakteri uzun müddət saxlanılmışdı[239].

Başqa bir paradoks ondan ibarətdir ki, işin mədhiyyəsi və Dövlətin sadəcə "İşçilər Dövlətinə" endirilməsi ilə keyfiyyət və şəxsi xarakterli iş öz dəyərini itirməklə yalnız zərurət və gəlir məqsədilə icra edilən bir şeyə çevrilib. Bununla da, iş azad insanın fəaliyyətləri arasında ən aşağı həddə enib. Bu prosesə müvafiq olaraq da "işçi sinfinin işinə bağlı üzvü", heç bir ümumi xeyir gözləməyən, heç bir obyektiv və aristokratik motivə tabe olmayan, sadiqlik, fədakarlıq dəyərləri nədir bilməyən, treyd-yuniyonlarda təşkilatlanaraq yalnız "maaş" və yaxud "marağını" düşünən "iş satıcısı" olaraq işçinin total deqradasiyasını müşahidə edə bilərik. Anodin və mexaniki sistemlə çevrələnmiş dünyada belə insanlarını varlığını təsəvvür belə etmək qeyri-mümkün hala gəlib. Məhz işin və işçinin bu ali səviyyəsinə görə, artıq İşçilər Dövlətindən və ya "İşçilər Dövlətində re-

[239] Oswald Spengler–"Decline of the West", Volume I, Form and Actuality, Random Shack, 2016

allaşdırılan sosial millət" kimi anlayışlardan bəhs edilirdi. İşçilər dövləti dövlətin tradisional konseptinin bütöv şəkildə inkarıdır. Marksist tarixşünaslığın "tərəqqi" adı ilə təqdim etdiyi bütün hərəkatların modelində gizlənmiş reqressiv xarakter tradisional Dövlət konsepsiyasını aradan qaldırmaq üçün müəyyən edilib. Spiritual və aristokratik dəyərlərə əsaslanan sivilizasiyaların qürubu ilə effektiv hakimiyyət kapitalist və merkantil burjuaziyanın əlinə keçdiyi üçün dövlətin təməl əsasları *kontrakt prinsiplərinə endirildi.* Sadəcə maddi üstünlük güdən bu "təbii konsept" bütün etik faktorları və orqanik *nexus*-u sıxışdırdı. "İdarəetmə", özəl bir administrasiyada yaxud biznessdə olduğu kimi "yönətmə" ilə sinonim hala həldi. Heç də təəccüblü deyil ki, ABŞ-da prezidentlərin hakimiyyəti deyil, prezidentlərin administrasiyası ifadəsindən istifadə edilir. Deməli, model artıq kontrakt tərəfindən yaradılan cəmiyyət yaxud şirkət modeli deyil, sosiallaşmış və rasionallaşmış fabrik modelidir. "İşçilər dövlətinin" arasıkəsilmədən yaşadığı deqradasiya ilə bugün məxsus olduğu səviyyə məhz budur.

Maddi fəaliyyətlərin, iqtisadiyyatın, istehsalın və "işin" sahib ola biləcəyi kəmiyyət əsaslı inkişafın intişarı daha ali həyata məxsus olan və fərdi orqanizmin maddi funksiyalarına uyğun gələn iyerarxik məkanın konstant varlığına əngəl olmamalıdır. Yalnız bu şərt daxilində normal düzən mövcud ola bilər. Həqiqi Dövlət insanda mərkəzi və suveren elementlə uyğunluq təşkil edən, onu daha ali həyata, təbii və fiziki sferanı transsendental məqsədlər və təcrübələrə yönləndirən bu prinsiplər və funksiyaları vücuda gətirir. Dövlətə məxsus spiritual hakimiyyət və gücü rədd etmək onun essensiyasını inkar etmək deməkdir. Bununla, Dövlətdən geridə qalan sadəcə onun kollektiv mövcudiyyət üzərinə təlqin olunan mexanist, ruhsuz, boş və anlaşılmaz karikaturası olacaq. Siyasi olaraq önəliyin "cəmiyyətə" verilməsi bu inkarın ilk mərhələsini təşkil etdi. Flora Monkorbiye bu mərhələni "insanlıq dinindən proletariat dininə keçid" olaraq xarakterizə edir. Sonrakı faza isə fərdin sadəcə "işçi vətəndaş" olaraq düşünüldüyü "İşçilər Dövləti" ilə xarakterizə olunmalıdır. Bu mərhələ

üçün sosiallaşmış və kollektivləşdirilmiş rejim altında işləyən fabrik əsas modeldir. Marksist utopiyada olduğu kimi, qlobal Kosmopolis daxilində mövcud olan kapitalist proletarianlar üçün də "millilik" anlayışı heç bir mahiyyət kəsb etmir. Çünki, modern mənada "işin" hər hansı bir milli xarakteri yoxdur. Texniki və keyfiyyət parametlərindən qopardılmış işin bir vətəni də yoxdur. O hər yerdə eynidir, ona nəinki cinslər, hətta xalqlar yaxud dövlətlər belə hər hansı fərqli xüsusiyyət verə bilmir. Bir millətə milliliyi nə iş, nə də ki "işçilər dünyası" bəxş edə bilər. "Bazar kommunizmi"nin egidası altında proletariat qloballaşır, zombiləşmə İnsanlığın dininə çevirir[240].

Alman filosofu Ernst Yünger modern "iş etikasını" texnologiyanın formalaşdırdığı başlıca konseptlərdən biri olaraq dəyərləndirir. Alman filosofuna görə, "iş" varlığın ekspressiyasına transformasiya olmuş texnologiya tərəfindən yaradılan qüvvələrin mobilizasiyasıdır[241]. Bu konsepsiyaya görə, modern "iş etikası" fərdi və iqtisadi maraqlara xidmət etməyən tradisional və klassik, makrokosmik Dövlət düzənində insanın yaradıcı iştirakını təsdiqləyən *sənət – tekne* ideyasından təməl şəkildə fərqlidir. Məhz buna görə də, vurğulanan ideya modern texnoloqa, mühəndisə, elm adamına və ya texnokrata şamil edilə bilməz. Sivil cəmiyyətdə hakim professionalizm daxilində öz varlığının xaosu – "elemental qüvvələr" ilə üzləşə bilməyən modern "işçi" effektivlik, nəzarət, təhlükəsizlik, komfort və sistematizasiyadan istifadə etməklə bu qüvvələrin repressiyasına köklənir. Bu praktiki nəticələr ən absurd, tiranik və totalitar "formalar" qəbul edən texnoloji essensiyanın bir ideyaya, varlığın özünə-nəzarət və özünüifadə formasına çevrilə bilməməsi ilə nəticələnir. Amerikalı iqtisadçı və sosial nəzəriyyəçi Ceremi Rifkin qeyd edir ki, VI əsrdə əsası qoyulan Benediktin Ordeni maksimal faydalılığa tabe edilmiş "iş etikasının" ortaya çıxmasında pioner rolunu oynadı. Benediktin ordenin kardinal qaydası belə idi:

---

[240] Flora Montcorbier – "Le Communisme de Marché : De l'utopie marxiste à l'utopie mondialiste », (Editions l'Age d'Homme, Lausanne, Suisse, 2000), p, 131

[241] Ernst Jünger – "The Worker: Dominion and Form", ((translated by Bogdan Costea and Laurence Paul Hemming) Northwestern University Press, Evanston, Illinois, 2017), p, 97

"tənbəllik və işsizlik ruhun düşmənidir". Bununla da, Benediktinlər öz əbədi xilasını təmin etmək vasitəsi və bir tövbə forması olaraq davamlı aktivliyə daxil oldular. Tacir sinfi kimi zamana məhdud resurs kimi yanaşan Benediktinlərə görə, zaman Allaha məxsus olduğu üçün essensialdır və Allahın şərəfinə xidmət etmək üçün zamandan maksimum istifadə etmək, eləcə də faydalanmaq müqəddəs bir vəzifədir. Bu məqsəd üçün Benediktinlər həyatın hər bir anını müntəzəm *fəaliyyət* daxilində təşkil edirdilər. Dua etmək, yemək yemək, yuyunmaq, işləmək, oxumaq və yatmaq üçün xüsusi zaman ayrıldı. Hər bir aktivlik gün ərzində dəqiq müəyyən edilmiş saat ilə təyin edilirdi. Hər kəsin müəyyən edilmiş zamanda öz fəaliyyətinə başlamasına əmin olmaq üçün Benediktinlər zənglərdən istifadə edirdilər. Cınqıldayan, ahəngsiz səsələr çıxaran zənglər gün ərzində rahibləri (keşişləri) təyin olunmuş vəzifələrinə doğru tələsdirirdi. Onlar həftələri, ayları eyni zaman nizamlılığı daxilində tənzimləyirdi. Hər bir fəaliyyət üçün təyin edilmiş zaman ideyası inqilabi bir ideya idi. Benediktinlər bu yeni radikal konsepti əxlaqi prinsip səviyyəsinə yüksəltdilər. Onlara görə, dəqiqləşmiş zaman oriyentasiyasına bağlılıq həm Kilsənin, həm də Allahın gözündə təqdirəlayiqdir. Keşişlərə hər zaman hazırlıqlı olmaları, heç bir gecikmə olmadan oyanmaları və *Allaha xidmət etmələri* üçün paltarları ilə yatmaq təlimatı verilirdi[242]. Zaman düzəninə bu şəkildə məhkum edilmiş keşişlər üçün fərdi təşəbbüs deyə bir şey yox idi. Rutgers Universitetinin professoru Eviatar Zerubavel qeyd edir ki, öz fəaliyyətlərinin icrasında spesifik saatlara kəskin şəkildə tabelikləri ilə Benediktinlər insani təşəbbüsün maşının ritmlərinə və kollektiv ölçüyə məhkum edilməsində xüsusi rol oynadılar. Tarixçi Raynhard Bendiks vurğulayır ki, Benediktin keşişləri Qərbin ilk peşəkar mütəxəssisləridir[243].

Bir daha təkrar edək ki, iş yalnız işdir, başqa heç nə. İşçi sinfi yalnız bütövlüyün inferiyor hissəsidir. Həm marksist, həm də kapitalist anılamda iş və yaxud işçilər iyerarxiyanın ən essensial dərəcələrində heç bir ali

[242] Jeremy Rifkin – "Time Wars: The Primary Conflict in Human History", Henry Holt and Company, 1997, p,82

[243] Reinhard Bendix – "Work and Authority in Industry", Routledge; first edition ( 2001)

mövqeyə sahib ola bilməzlər.

Staxanovizm[244], "rifah sivilizasiyası", "istehlak cəmiyyəti" və tarantik iqtisadi aktivizm (Qədim italyan ənənəsinə görə, tarantulanın dişləməsi dəlilik həddində ifrat hərəkətlənməyə və isteriyaya səbəb olur. Buna uyğun olaraq, tarantizm bu hala verilən ümumi ad olmaqla XVI-XVII əsrlər, İtalyanın cənubunda ortaya çıxmışdı. Tarantella rəqsi də öz mənşəyini bu xəstəlikdən götürür. Çünki tarantizmə tutulan hər kəs frenetik fiziki aktivliyə ümidsiz ehtiyacı hiss etməyə başlayır. Daha sonra bu ehtiyac qeyd edilən xəstəlik üçün terapevtik olaraq qəbul edilən bir rəqs formasına formalizasiya edildi. Modern dünyada çılğınca işləmək, məhsuldar olmaq, ticari və ya bizness fəaliyyətinə daxil olmaq bu qədim xəstəliyə bənzədilir.) ilə xarakterizə olunan Modernimz əsri çılğınca işləyən, istehsal edən və eyni zamanda istehlak edən insanın əsridir.

Rifah sivilizasiyası, eləcə də iqtisadi tarantizmin təlqin etdiyi və insan ruhunu əsir alan sürət qarşısında Klassik dünyada öz əksini tapan bir sapiensial aksiomanı qoya bilərik: *abstine et substine* (geriyə çəkil və möhkəm dayan). Delfi məbədində yer alan "ifrat heç nə" – *meden agan* aksioması da bu perspektivdən mütləq qeyd edilməlidir.

[244] Rus mədənçisi Aleksey Staxanovun adı ilə bağlıdır. Diqqətəlayiq staminası ilə A.Staxanov bir günə 227 ton kömür hasilatı ilə dünya rekorduna sahib olduğu deyilirdi. Lakin, sonralar işçilər üçün propaqanda yaratmaq məqsədilə Sovet hakim dairələri tərəfindən yardım ediliyi düşünülərək bu rekorda şübhə edilməyə başlanıldı. Buna rəğmən, staxanovizm yorulmaz iş etikası insanını vəsifləndirən epitom olaraq qəbul edilir

# MAHAPRALAYA VƏ MOİRALARIN YER ÜZÜNƏ YENİDƏN ÇIXIŞI

Bu gün özünü "Qərbləşdirən" mədəniyyətlər prinsipial olaraq iqtisadi profili ilə müəyyən edilən modern dünyada total iqtisadiyyatın kommunikasiya və distribusiyasının saysız şəbəkələri tərəfindən ehtiva olunan, qlobal bazarın texno-iqtisadi məkanının bir zonasıdır. Bazar imperativlərinə tabe olmuş bir xalq artıq özünəməxsus bir məkan anlayışını ifadə etmir. Belə təşkil olunan texno-iqtisadi məkanda bir xalq tədricən standartlaşmış həyat tərzlərinin məcburedici təzyiqinə, media, reklam və *təhsil* kimi çeşidli manipulyasiyalar ilə identitarian müxtəlifliklərin öz-özünü tənzimləməsi və rəddinə tabe edilir. Texno-iqtisadi məkan xalqı öz təbiəti və mədəniyyətindən məhrum edir, onun identikliyini aradan qaldırır, onları spiritual olaraq sterilizasiyaya uğradır, onların etno-kultural şüurunun yenidən oyanışı istiqamətində hərəkət edən bütün prosesləri sistematik olaraq kriminallaşdırmaqla xalqların tarixi şüurunu eradikasiya edir. Texno-iqtisadi iradə hələ radikalizmi insanlığa məlum olmayan və bütün insan irqinə qarşı həqiqi müharibə elanına bərabər olan iradənin bəşəriyyəti standartlaşdırmaq niyyətindən doğur. "Multikultural cəmiyyət" adlı kitabında Hayner Qayssler qeyd edir ki, bugün hər kəs hər yerdə: Frankfurtda, Sinqapurda, Madriddə və yaxud Tokiyoda özünü evdəki kimi hiss edir. Eyni insan simaları ilə qarşılaşır, eyni musiqiyə qulaq asır, eyni dildə danışır və hər yerdə eyni mədəniyyəti tapır". Qloballaşma fenomenini üzərində yazdığı "Müxtəlifliyə əlvida" adlı kitabında Klod Karnou bildirir ki, universal nihilizmin köksüzləşdirməsinə, texno-elmə, qloballaşmış bazar iqtisadiyyatına, eləcə də əbədi dəyişiklik və innovasiyalara tabe edilmiş dünyada keçmiş sadəcə indinin bir siyasi alətidir[245]. İdentitarian strukturların daxilən partlama (implosion) dərəcəsi istehlakçı tendensiyaların artan inkişafı, davranış və təfəkkürün standartlaşdırılması mexanizmlərinin sürətlənməsi, həmçinin atomlaşma, planlaşdırma və rasionallaşmanın çatdığı hədd ilə proporsionaldır. Modernizm əsrində müşahidə edilən digər bir fakt da ondan ibarətdir ki, identitarian şüurun yox olma prosesi siyasətin zəifləməsinin arasıkəsilməz prosesi ilə üst-üstə düşür. Siyasi aktivliyin mərkəzində dayanan *decisionism*

---

[245] Claude Karnoouh – "Adieu à la différence : Essais sur la modernité tardive", Arcantères (Janvier 1999), p, 91

menecmentin texnokratik funksiyasına öz metamorfozisini tamamlayıb. Başqa sözlə, siyasi iqtisadiyyat siyasəti boşaldaraq administratorların, menecerlərin və maliyyə qərarvericilərinin qlobal texnokratik sinfinin medium vasitəsilə onu yenidən qurmağa başlayıb. İdentitarian xarakteristikaların universal bazar cəmiyyəti tərəfindən tamamilə aradan qaldırılması ilə zirvə nöqtəsinə çatan eqalitarian əsr "bütün planeti öz ağuşuna alan bir boşluğu" (Piyer Driö La Roşell)[246] ortaya çıxardı. Bu, xalqların kultural qürubu, spiritual lobotomiyaya tabe edilən daxilən formasız, bəşəriyyətin çoxüzlü və plüralist essensiyasını dərk edə bilməyən, donuq, texnomorfik və mexaniki insan tipinin hökmranlığının yaratdığı boşluqdur. Planetimizin etno-kultural müxtəlifliyinin orijinallığını inkişaf etdirmək üçün hər şeydən əvvəl essensial olaraq plüralist dünyanın (pluriversum) təbii müxtəlifliklərini *Eyninin* birformalı qəlibində boğan eqalitarian universalizmdən dünya xalqlarını qorumaq mütləqdir. Bu elə bir dünyadır ki, yalnız onu təşkil edən fərdlərin bütün müxtəliflikləri və şəxsiyyətlərinə hörmət edildiyi zaman onun çoxüzlülüyü öz canlılığını qoruya bilər. Bütün fərdlər müxtəlifliyin mövcudluğuna ehtiyac duyarlar və həqiqət odur ki, Birisinin mövcudluğu digərinin müxtəlifliyini yaradır, çünki yalnız Digərinin identikliyinə münasibətdə identiklik var ola bilər. Dünyanın differensialist intellekti bəşəriyyətə essensial olaraq açıq olan çoxdimensiyalı qavrayışdan qaynaqlanır. Məhz bu konsepsiya Hind-Avropa monizmi və politeizminin əsasını təşkil edirdi. Messianizm və proselitizm anlayışlarına, monoteist dinlərin xarakteristikası olan qeyri-toleranslıq və fanatisizmə fundamental olaraq yad olan Hind-Avropa politeizmi mütləq şəkildə kin, intiqam və cəza iztirablarını rədd edir. Onun irəli sürdüyü *dünyanın unitar dərki* tək Allah və vəhy olunan həqiqət dinlərinə aid edilən doqmatik prizmaları darmadağın edir. Monoteizmin Allahı insanlardan ayıraraq ortaya çıxardığı və insanı parçalayan dualist yarasından, dünyanı müqəddəsizləşdirməkdən, həyatın mərhələləri arasında bütün təbii uyğunluqları yox etməkdən tamamilə uzaq olan politeizm dünyanı ziddiyyətlərin birliyində və Yunanların dərk etdiyi kimi müxtəlif-

---

[246] Pierre Drieu la Rochelle – "Le jeune européen, Gallimard, Paris, 1927, Chapitre V, Décadence et Destruction"

liklərin fluktuasiyasından doğan harmoniyanın sirrində qavrayır. Bu Yunan harmoniyası (*concordantia* və ya *simfonia*) spiritual dəyişikliyin bir-birini izləməsi, öz-özünə üstün gəlmə və antaqonist tamamlayıcılığa əsaslanırdı. Heraklitus yazır ki, ziddiyyətlər uyğunluğu tapır və gözəl harmoniya müxtəlifliklərdən doğur. Alman kilsə kardinalı Nikolas de Kuza bu Yunan fəzilətini *coincidentia oppositorum* (ziddiyyətlərin üst-üstə düşməsi) olaraq xarakterizə edirdi. Aryan Hinduizminə daxil edilən Şiavit fəlsəfəsi də yalnız ziddiyyətlərin birgə mövcud olduğu yerdə İlahinin varlığını qeyd edir. Daha sonra, irqlərin vahid bir əcdada sahib olmadığını və onların separat bir şəkildə yaradıldığına inanan, panteist idealar daşıyıcısı Cordano Bruno və alman filosofu Fridrix Şellinq də bu ideyadan öz əsərlərində istifadə etməyə başladılar. Ernest Renan da qeyd edir ki, dünya açıq bir şəkildə demarkasiya olunmuş bölmələrə ayrılan bir bütövlük deyil, o, rəngləri hiss edilə bilir şəkildə incə dərəcələrlə fərqlənən bir rəsm əsəridir.

Universal Amerikanosentrik eqalitarian cəmiyyətin qeyri-orqanik modelində xalqlar kütlələrə transformasiya edilir, kütləyə məxsus fərd şəxs üzərində hegemon üstünlük qazanır. İnsan kütlələri daha inteqral rol oynamağa başlayırlar. Kütlələr həlledici faktora çevrilib. Spiritual fərd getdikcə gücsüzləşdiyi halda, kütlənin üzvü olaraq fərd daha böyük güc qazanmaqdadır. Fərdin iradəsi anonim kütlə daxilində özünəməxsus şəkildə inkişaf edə bilməz. Onun iradəsi propaqanda və konstant manipulyasiyalar ilə coşdurulur və nəzarət altında saxlanılır. Kütlələrin ideallara və şüarlara ehtiyacı vardır. Onlara istədikləri söylənilməlidir. Dövlət xadimi, sənətkar, yazar, hətta bir ziyalı belə nəticə əldə etmək üçün kütlədaxili qüvvələrə müraciət etməlidir. Liderlər müraciət etdikləri impulslar, dəyər mühakimələri və coşğular ilə xarakterizə olunurlar. Onların kütlələrdə stimullaşdırdığının özləri üzərində də retroaktiv effektləri var. Liderlərin necə olmalı olduğunu kütlələr özləri müəyyən edir. Bu liderlər istiqamətləndirilən qullar kütləsinin diktatoru olmadıqca, onların iradəsinin eksponentləri rolunda çıxış edirlər. Kütlə ilə xalq arasında fərq belə aydınlaşdırıla bilər: Müəyyən iyerarxik nizam prinsipləri daxilində bir xalq (*demos* deyil, *Volk* olaraq) öz həyat tərzinin, düşüncə formalarının və kultural irsinin fərqində olur. Xalq

kommunal atmosferaya sahib substansial və keyfiyyət varlığıdır. Kommunal ruhun fərdi içərisində doğulduğu xalqın qüdrətindən və gücündən qaynaqlanan şəxsi xarakterə sahibdir. İyerarxik struktura və özünəməxsus bir şüura sahib olmayan, eyni zamanda spesifik xarakter və kultural irsindən məhrum olan kütlə isə birformalı kəmiyyət varlığıdır[247]. Məsuliyyət dərkindən yoxsul propaqanda obyekti olan kütlə şüurun ən aşağı səviyyəsində yaşayır. Köksüz monada çevrilmiş insanların mübadilə edilə və istifadə edilib atıla bildiyi yerdə kütlə ortaya çıxır. Həyatın texnolojiləşməsi nəticəsində bu sosial şərtlər sürətlə böyüyür və bütün dünyaya yayılır: getdikcə darlaşdırılan üfüq, "burada və indiyə" tabe edilən həyat hafizədən və effektiv xatırlama gücündən məhrumdur, mahiyyətsiz əməyin kompulsiyası (kompulsiya - qarşıgəlinməz istək), asudə vaxtın ifrat istismarında əyləncə, sinirlərin ekstaziyası xüsusən gənclərin sevgi, inam və sədaqət illuziyasında dərin yanlışlığa və xəyanətə səbəb olur. Canlılıq və inadkarlıq qiyafəsində gizlənən bu çarəsizlik apatiyaya və unutqanlığa yol açır, ortaq insan həyatının istifadə edilə, işlədilə və kənara atıla bilən qum yığınına çevrilməsinə səbəb olur. Yaşayan mədəniyyətlərin əridilib yox edilməsi üçün monoteist mehvər və kosmopolitan köksüzləşdirmənin həlledici birliyi mövcud olmalıdır. Öz "Gemeinschaft"ına bağlılığını itirmiş, bir xalqa mənsubiyyətdən və onun tarixi-kultural layihəsində iştirakdan məhrum edilmiş bazar cəmiyyətinin amerikanlaşmış fərdi öz həyatına minimum əhəmiyyət verə biləcəyi sonuncu şans olaraq özünün bayağı "Mən"inin sonsuz tələblərinin tətmininə çalışmalıdır. Öz eqoizminə doğru getdikcə sterilləşən bu fərd intim və gizli münasibətlərinin sferasını təbii olaraq şişirtməyə başlayır. Çünki ətrafındakı anonim kütlə tərəfindən təhrik olunan mental-psixoloji problemləri kompensasiya edə biləcəyi yeganə sığınacaq məhz budur. Gemeinschaft ruhundan ayrılmış bu kütlə fərd tərəfindən yad bir qrup olaraq görülür. Narsissizmə məhkum olmuş bu fərd eqalitarian cəmiyyətin yaratdığı zədələrin simptomları olan ən ağır mental disharmoniyanın, daimi depressiyalar və xroniki iztirabların qurbanına çevrilir. Eqalitarian cəmiyyətin kulminasiya paradoksunda xalqlar kütlələşərkən, milyonlarla "Mən"-in izdihamında tən-

247 Karl Jaspers - "The Origin and Goal of History", Yale University Press, 1953, p,128

halıqların ən pis ssenariləri ortaya çıxır. Əhəmiyyətsiz və eqotist həyatın *müqəddəratına* daxil edilən hər kəs getdikcə solan *mikro-xoşbəxtliyin* iztirablı axtarışı içərisindədir. Ancaq, eqalitarian cəmiyyət öz köçərilərinə hər hansı digər ekzistensial seçim imkanı vermir. Lakin, yalnız maddi sərvətin fərdi məmnuniyyəti üçün çalışan eqoist kredonun hakim olduğu dünyada insan bir xalqın yaşayan birliyinə, onun kollektiv müqəddəratına, siyasət və mədəniyyətinin tarixi layihəsinə mənsubiyyət hissi ilə hələ də öz həyatına mahiyyət verə, öz-özünə üstün gələ bilər. Şəxsiyyətlər iyerarxiyasını aradan qaldıraraq, fərdləri atomlaşdıran eqalitarianizm mənsubiyyət hissini yox edən və identitarian şüurun məhvinə köklənən cəmiyyətdə özündən daha üstün bir şeyi yaratmağı arzulayan "hakimiyyət iradəsinə" sahib insan üçün heç bir yer yoxdur. Çünki o, hamının hamıya bərabər olduğu dünyada yalnız qarışqaların varlığını görür.

Özlərini iqtisadi liberalizmin, multikulturalizmin və insan hüquqları ideologiyasının nümayəndələri elan edən xalqlar ideyaları və üslublarında "Nyu-Yorklaşmanın" dəyirmanından keçmiş, Kaliforniyanın cansızlığında hamarlaşdırılmış, mədədən öncə beyində "fast-foodlaşdırılmış" Yankilərdir. İncəsənətin neo-primitivizmi tərəfindən "fast-foodlaşdırılanlar" pop mədəniyyətin və qarışıq əsərlərin, *hard edge* və *yes art*-ın cızma-qara çəkənləridir. Fast-foodlaşan musiqiçilər musiqidə harmoniyanı monoton disharmoniya ilə əvəz ediblər. Onlar heç vaxt transsendental prinsiplərin yaxud dəyərlərin refleksiyası deyillər, sadəcə efemeral trendlərin və snobizmin keçici məhsullarıdır. XX əsrin birinci yarısında Piyer Driö La Roşell qorxu ilə elan edirdi: "Heç şübhə yoxdur ki, bizi gözləyən gələcək qəribə, abstrakt, mexaniki və sürrealist, idman və narkomaniya istiqamətli Maltuzian, incəsənətsiz, "elmi" və həm də batil inanclara qapılıb gedən bir gələcək olacaq"[248]. Tunisdə xidməti zamanı Amerika ordusu ilə sıx əlaqədə olan Antuan de Sent-Eksyüperi də fərqliləşmənin çatışmadığı və robotlaşdıran amerikanizasiyaya qarşı nifrətini gizlətmirdi. "İki milyard insan yalnız robotu eşidir, robotu başa düşür, onlar robot olublar. Universal bürokratiya əsrində ABŞ hara gedir? Yaxud, Biz Avropalılar hara gedirik? Yaradıcılıq

[248] Pierre Krebs,– "Fighting for the Essence", (Arktos Media Ltd., London, 2012), p, 63

gücündən, yeni rəqs yaxud yeni musiqi yaratmaq gücündən yoxsul robot-insan... Dünya tarixinin ən qaranlıq zamanlarına doğru hərəkət etdiyimi hiss edirəm. Bu əsrdən nifrət edirəm." Alman ədibi və novelisti Herman Hesse də sürətlə Amerikanlaşan sivilizasiyanın inferiyor və merkantil instinktlərindən partlayaraq ortaya çıxan vulqarlığın oppressiv işarələrinə nifrətini ifadə edirdi: "Zavallı Amerikanlaşmış Avropalılar şişman bayağılığın köləsi olublar". Knut Hamsun isə "spiritual səhranın" hökmranlıq etdiyi essensial olaraq maddi həyat axtarışında olan Amerika cəmiyyətində monster epoxasının doğacağını xəbər verirdi. Amerikanomorfik insan faunası vasitəsi ilə qloballaşan və planetin bütün bucaqlarında qarşımıza çıxan bu təhlükə sadəcə Avropanın deyil, bütün dünya xalqlarının ən təhlükəli düşmənidir.

Dr. Piyer Krebs Amerkanlaşan Avropanı belə xarakterizə edir: "Bir məsələdə razılaşmalıyıq ki, aramızdan çıxan xainlərin yaratdığı bu mürtəd Avropa öz tarixinə arxa çevirərək Yunan-Roma irsinə yiyələnməyi, etnik köklərinə sahib çıxmağı rədd edib". Pol Valeri hələ 1948-ci ildə bildirirdi ki, Avropa bir Amerikan komitəsi tərəfindən idarə olunmağa can atır[249]. 1945-ci ildən bəri Amerikan ideyaları, dəbləri, musiqisi və fantzasiyalarını narkotik kimi qəbul edən və özünü insan hüquqları, liberalizm və istehlak cəmiyyətinin eqalitarian asfaltında *Big Brother*[250] qarşısında alçaldan Avropanın bu qeyri-sağlam istəyi bugün sadomazoxist vərdişə çevrilib. Tomaş Molnar da vurğulayır ki, daimi olaraq Amerikan hipnozisi ilə yaşayan Avropa Hind-Avropalıların etnik, spiritual və ontoloji reallığını tərk edib. Fransız ezoterist yazarı və Raymon Abellionun dostu Jan Parvülesko qeyd edir ki, 1945-ci ilin siyasi-tarixi fəlakətindən bəri Avropa bir ölümdə və ölüm ilə yaşayır. Bu ölüm hətta onun öz ölümü deyil, onun nihilizminin nihilizmindən doğan və köhnə dünyaya kənardan – anti-Avropa qüvvələri, qeyri-varlığın buzlu okeanının ölümcül suları tərəfindən təlqin olunan bir

---

[249] Paul Valery – "Regards sur le monde actuel et autres essais, notes sur la grandeur e la décadence de l'Europe, (Editions Gallimard, Paris, 1945)

[250] Big Brother – Orvellin "1984" romanında istifadə etdiyi hər yerdə var olan, lakin hələ görülməyən və mütləq hakimiyyətini öz subyektləri üzərinə diktə edən Okeaniyanın totalitar diktatoru.

ölümdür[251]. Tarixin sonu mifi ilə getdikcə quruyan və solğunlaşan, "Hollivud təqlidinin" mərkəzinə çevrilən Avropa bazar cəmiyyəti, tamaşa cəmiyyəti və kosmopolitanizmin asimptotik çılğınlığının irinləyən yarasını təşkil edir. Avropa aqoniyası və Amerikan ölümü arasında öz şeytani intişarını planetin bir ucundan digər ucuna doğru genişlədən Qərb "Avropalı Avropanı" aradan qaldıraraq identitarian yox olmanın anti-Yunan məkanını hazırlayıb. Amerikanın monqreli olan bu Avropa bütün ideallarını tarixən Amerikanı idarə edən Mammon-a (Mammon – Şumer panteonunda sərvət Allahı, Xristianlar bu termini maddi hərislik və materializm ilə assosiasiya edərək qəbul ediblər) qurban verib. H.Y.Ziberberq İkinci Dünya Müharibəsindən sonrakı Avropa, xüsusilə də Almaniya haqqında bildirir ki, biz Avropa kultural tarixinin yəhudi epoxasında yaşayırıq və biz bu epoxanı apokaliptik tərzdə, sanki öz Sonuncu Mühakiməmizi gözləyirmiş kimi qəbul etdik[252]. Roje Qarodinin dili ilə ifadə etsək, özünü "bazarın monoteizminə" konversiya edən bu Avropa siyasi hakimiyyəti bazar hakimiyyəti ilə qarışdıraraq eyni zamanda siyasətin degenerasiyasına yuvarlanıb. Kristof Ştedinq bildirir ki, hər zaman *zoon politikon* olaraq müəyyən edilən insanın reallığı ona dəlalət edir ki, insani varlıq siyasi heyvan olduğu müddətcə insani varlıqdır. Buna görə də, qeyri-siyasi neytralizmə doğru degenerasiya insanın insani dimensiyasının məhv oluşu deməkdir. Siyasi korpusda iqtisadiyyatın soyuq canavarı kök salıb. Fransız biznessmeni və prezident N.Sarkozinin məsləhətçisi Alen Mink qeyd edir ki, qlobal bazarın qələbəsinin yekun mənası odur ki, siyasət cəmiyyət qarşısında öz taxtından əl çəkdirilmişdir. Avropa maşınının yenidən işləməsinə icazə verən bu dəyişiklik metodoloji inqilabın nəticəsidir: dövlətlər bazarın mənfəətinə uyğun olaraq geri çəkilirlər, onlar qurmaq, yaratmaq və spiritual təlqinetmə kimi qədim tendensiyalarını tərk edirlər, siyasətin yoxluğu banallaşan kommersializmə transformasiya olub. Gəlirin müqəddəsləşdirilməsi və gəlirlilik bütünə anti-kultural tabellik şəxsin fərdə, mədəniyyətin bazara və bir xalqın motivasiyaedici miflərinin bütün kultu-

---

[251] Jean Parvulesco – "Le soleil rouge de Raymond Abellio", Guy Trédaniel, Paris, 1987, p, 31

[252] Hans-Jürgen Syberberg – "On the Fortunes and Misfortunes of Art in post-war Germany", (translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017), p,64

ral paradiqmalarını mövcudluğun kommersial tərzlərinə endirən iqtisadi və mexaniki sxemlərə transmutasiya olması ilə nəticələnib. Dünyaya və təbiətə maddi olaraq sahiblənmə arzusu bu totalitar sivilizasiyanın qidalandırdığı yekun layihənin mərkəzi olub. Amerikanın monqreli olan bu Avropa özünü eqalitarian messianik patomaniyanın və liberal utopiyaların tiranlığına tərk edərək yaratmaq yaxud var olmaq ilə deyil, sahib olmaq ilə xoşbəxtdir. İki-başlı liberalizmin ortaya çıxardığı köksüzləşən fərdiyyətçilik və kütlələşən kollektivizm dünənin Bolşevik tərzi kollektivləşdirməsinin replikasıdır. Bu baxımdan, Georq Vayppert bildirir ki, kommunizm liberalizmin məhsu-ludur. Liberal iqtisadiyyat beyinsiz bədən, Marksist iqtisadiyyat isə taxta ayaqlar (plan) üzərində dayanan beyindir. Hər ikisi həyatın qanunları ilə ziddiyyət təşkil edir[253].

Bu Amerikan monqreli Avropa özünü insan hüquqları və qlobalizmin siyasi, leqal diktatorluğuna tabe edərək xalqların hüquqlarına qarşı gündə-lik olaraq aparılan müharibənin bir hissəsi olub. Fransız jurnalisti və Jan Pol Sartrın katibi olmuş Jan Ko “Les écuries de l’Occident” adlı kitabın-da yazır: “Dünya heç vaxt bütün sahələrdən bu qədər elm adamı, doktor, sosioloq, psixoloq, ideoloq və professorlar ilə məskunlaşmamışdı. Siklot-rondan kompüterə, tranzistordan roketə qədər maşın heç vaxt bu qədər ge-niş istifadəyə verilməmişdi. İnsan, hücumuna məruz qaldığı demoqrafik, irqi və siyasi problemlər qarşısında heç vaxt bu qədər silahsız və gücsüz olmamışdı. İncəsənətin başlıca vəzifəsi bir kardinal prinsip zirvəsinə yük-səldilən çirkinliyi təcəssüm etdirməsidir. Avropa estetikada bütün pataloji fenomenləri və gözəlliyin supressiyasını təşviq edərək “müqəddəs” kimi təqdis edilən “Schmutz incəsənətin” triumfal zəfərini alqışlayır[254]. Ameri-kanın monqreli, bu Avropa tarixdə ən böyük genetik manipulyasiyaları və çoxirqli aberrasiyaları dəstəkləməklə xalqların ölümü və planetin bio-kul-tural zənginliyinin məhvinin keşiyində durur. Amerikanosferanın putre-faksiyasında solan Avropa özünü Avropa ruhunun dünyasından, Avropanın

[253] Pierre Krebs – “Fighting for the Essence”, (Arktos Media Ltd., London, 2012), p, 69

[254] Hans - Jürgen Syberberg – “Vom Unglück und Glück der Kunst in Deutschland nach dem letzten Kriege”, Münich, 1990, p, 57, ( On the Fortunes and Misfortunes of Art in post-war Germany”, translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017)

kultural məkanından əks-dünyaya transformasiya edib. Alman incəsənət tarixçisi və filosofu Auqust Yulius Lanqben vurğulayır ki, modern dünya bir təbiət deyil, anti-təbiətdir. Texno-iqtisadi canavarın doğuşuna səbəb olaraq artıq özünü tanımayan Avropa tarixi dəyərlərini üçmərhələli intellektual monqrelizasiya prosesi ilə Amerikan tərzi nevrotik biznessə, Amerikan tərzi vəhşi kommersializmə, Amerikan tərzi reklam hiylələrinə qurban verməklə üslubunun Yunan instinktini, eleqantlığının Roman zövqünü, əzəmətinin Faustian cəsarətini itirib. Monqrelizasiyanın birinci mərhələsində istehlak cəmiyyətinin kommersial modelində Big Brother onun iç orqanlarını yeyib uda bildi. İkinci mərhələsində, tamaşa cəmiyyətinin daxili modelində *Big Brother* onun həyat enerjisini qısırlaşdırdı. Üçüncü mərhələdə isə, Avropa öz müxtəlifliklərini, tarixi köklərinin yaddaşını, ana maddəsini, ağılını və identitarian şüurunu itirməklə post-Avropanın çoxirqli cəmiyyətinin etnosidal amerikan modelində etnik *thanatos*-un[255] Amerikanosentrik qaranlığına qərq oldu. Əritmə səbəti (melting-pot) cəmiyyətin əsas tərkib hissəsinə çevrilib. Multirasializm (çoxirqlilik) vasitəsilə Amerikan xilası (redemption) Yəhudi-Xristian sekulyarlaşmasının sonuncu mərhələsini müjdələyir. Bu mərhələdə eqalitarian *delirium* panmiksia prosesinin normallaşdırılmasını leqalizə edir və tədricən xalq anlayışı aradan qalxaraq cəmiyyət anlayışı ilə əvəzlənir. Milli tarix bir tabuya çevrilir. Əcdadların mədəniyyətinə qayıdışa doğru istənilən işarə "əcnəbilərin ləyaqətinə toxunur" adı ilə siyasi, pedaqoji və kultural diskursdan tamamilə çıxarılır. İncəsənət öz içərisinə doğru partlayaraq (implosion) çökür. Millətin etnikliyi üzərində formalaşan institutların fasadını bəzəyən heykəltəraşlıq muzeylərin dərinliyinə yuvarlanır. Avropanın yeni əhalisinin qeyri-Avropalı stratası tərəfindən irqçi aqressiyanı təqdim etməkdə günahlandırılan Yunan-Roma və Kelt-Alman formaları heç bir identikliyi olmayan modellərə və universal, arxetipal insanın saf, formasız proyeksiyalarından ibarət olan abstrakt, şəffaf və neytral surətlərin üstünlüyünə icazə verməlidir.

İnsan hüquqları idealogiyasının əsaslandığı ideya ondan ibarətdir ki,

---

[255] Thanatos – qədim Yunanlarda ölüm Allahı, Freyd tərəfindən fərdləri öz-özünü məhvə sürükləyən davranışlara səbəb olan şüuraltı ölüm impulsunu ifadə etmək üçün istifadə edilib.

yer və məkandan asılı olmayaraq planetin bütün xalqları və kulturaları tərəfindən eyni tərzdə dərk olunan "təbii hüquq" mövcuddur. Təbiəti etibarilə bu ideologiyanın essensiyası tamamilə doqmatikdir. Çünki bu konsepsiya kultural relativizmi və aid olduqları kultural padadiqmaya uyğun şəkildə xalqların hüquq, bərabərlik və ədalət anlayışlarını müxtəlif formada dərk edə bilməkdən uzaqdır. Bu məntiq multikultural cəmiyyət formasının niyə belə sərt monokultural qanunverici və icraedici hakimiyyətdən qaynaqlandığını nümayiş etdirir. Buna görə də, Ştefan Ulbrix, "kultural olaraq zəngin" və "cənnət kimi" cəmiyyət formalaşdırmaq ideyası ilə qəbul edilən Multikulturalizmin uğursuz və zərərli ideya olduğunun sübuta yetirildiyi cəmiyyət yaxud dövlət üçün *Multikultopia* terminindən istifadə edir. Multikulturalizmin ən alovlu partizanlarından biri olan Hayner Qaysler bildirir ki, multikultural cəmiyyətin başlandığı yerdə kultural identiklik sona çatır. Hər kəs, universal İnsan Hüquqlarına Avropanın spiritual tarixində müəyyən olunduğu kimi saygı göstərməyə məcburdur.

Xalqların tarixi onların əsrdən əsrə daşıdğı ruh ilə birlikdə başa düşülməlidir. Biz onların mədəniyyətlərinin dinamik intellekti üzərində parıldadığı və onun siyasi liderlərinin cəsarətli qərarlarını işıqlandırdığı zaman yaxud da, onların qürubunun qaranlığında bu ruhu yenidən kəşf edirik. Siyasi hakimiyyətin kommersial-oliqarxik sinfin iradəsinə tabe edilməsi ilə yenidən doğmasına icazə verilməyən bir mədəniyyətin ruhunun varlığına xitam verilir.  Bu, sivilizasional seçimlərin idarəedici siniflər tərəfindən qərara alındığı nəhəng, eyni zamanda efemeral və astrid əsrdir. Bu siniflər heç bir spirituallığı və kultural məziyyəti olmayan pul üçün edilən kirli zövqləri həyəcanlandıran kommersial gəlir strategiyalarına özlərini tabe edərək başqa bütün dəyərlər üzərində gəlir aliliyinə inanmaqla siyasət, mədəniyyət və cəmiyyət üzərində *Homo Oeconomicus*-un üstünlüyünə yol açıblar. Adam Smitdən Fridrix fon Hayekə qədər uzanan bu ənənə bəşər tarixinin ən nihilist epoxasını ortaya çıxarmaqla yanaşı, Yer üzündə *Moiraların* (Moiralar - Qədim Yunan dini və mifologiyasına görə, doğuşdan ölümə qədər hər bir insanın həyat ipinə nəzarət edən Tale İlahələri. Kloto – insanların həyat ipini əyirir, Lahesis – həyat ipini hər bir insan üçün bölüşdürür - təyin

edir, Atropos - öz qayçısı ilə insanların həyat ipini kəsirdi. Bütün Tanrılar və insanlar onlara tabe olmalı idi. Zevsin Moiralar ilə münasibəti isə hər zaman gərgin bir müzakirə mövzusudur. Heziodun "Teoqoniya" əsəri də daxil olmaqla bəzi mənbələrə görə, Zevs onlara əmr verə bilirdi (Zeus Moiragetes), digər mənbələrə əsasən isə, hətta Zevs də Moiraların diktələrinə tabe idi) yenidən meydana çıxmasına səbəb oldu. Bu əsr fərdin öz tarixindən ayrılaraq dəyərsiz fərdi müqəddəratını qorxaqca narsissizmə tabe etdiyi ya da Evolanın sözləri ilə desək "məziyyət, spirituallıq, yaşayan tradisiya və irqin hökm etdiyi bir xalqın müqəddəratına mənsub olaraq doğulduğunu hiss etdiyi bir əsr olacaq. O, özünü təlatümlərindən səhm bazarında bir hissədar kimi əziyyət çəkdiyi universal klubun anonim, qayəsiz, entropik cəmiyyətinə həsr edəcək və ya dəyərlərini özümləşdirdiyi bir siyasi-tarixi və kultural birliyin irqi ənənəsinin bir parçası olacaq. Bu fərd ya texno-iqtisadi menecerial cəmiyyətə özünü təslim edəcək, ya da onu öz daxilində yeni həll yolları, adekvat alternativlər və yeni həyat tərzləri axtarışına ilhamlandıran kultural mübarizə insanı olacaq.

Donuq üzlü, kosmopolitan, planetin etnik və kultural identikliklərini, eləcə də hələ də determinativ faktorlar olaraq qalan xalqlar və millətlərarası fərqləri parçalayan bu barbarizm epoxası Hinduların *Mahapralaya* adlandırdıqları tsiklin (Mahapralaya – Hind kosmologiyası və Veda ənənəsində bəşəriyyətin böyük dissolyusiyasını tərif edir), eyni zamanda yeni bir Dünya Düzəninin və universal hökumətin müjdəçisidir. Modernizm Əsrinin digər entropik xüsusiyyəti Qərb sivilizasiyasının universalist əxlaqıdır. Dünən, Qərb sivilizasiyası dünya xalqlarını öncə Xaç Yürüşləri vasitəsilə öz dininə, daha sonra kolonializm vasitəsilə özünün siyasi prinsiplərinə tabe etməyə çalışırdısa, bugün developmentalism və insan hüquqları vasitəsilə bütövlükdə dünyanı özünün sosio-iqtisadi, eləcə də əxlaqi prinsiplərinə konversiya etdirməyə çalışır. Bu, bütün xalqları və mədəniyyətləri de-kulturalize edilmiş planetar kütlənin BMT modeli içərisində əritməyə, homogenləşdirməyə və köksüzləşdirməyə çalışan Amerika epoxasıdır. Bu kütlənin insanı ən insani təbiətindən kastrasiya edilmiş, əhliləşdirilmiş, ruhən steril, hallüsinasiya insanıdır. Yeni planetar modelin ən alovlu peyğəmbərlərindən biri olan

Jak Attali bu humanoid abortunu belə təsvir edir – "ünvansız, stabil ailəsiz, özündə heç bir sosial dəyər nişanəsi daşımayan bir köçəri"[256]. Narsissizm bu köçərinin bələdçisi olacaq. Bu tacir düzənində özünün protezi olan insan əmtəə kimi istehsal olunacaq. Həyat bir qabiliyyət obyektinə, iqtisadi-madiyyatçı dəyər və rentabellik yaradıcısına çevriləcək. Köçəri obyektlərin dünyasında insan ilə artefakt, ali mədəniyyət ilə barbarlıq, həyat ilə ölüm arasındakı fərq aradan qalxacaq. Fransız sosioloqu və kultural nəzəriyyəçisi Jan Bodriyar "Qeyri-mümkün Mübadilə" adlı əsərində modern insanı belə vəsfləndirir: "Bir Jivaro adamı - Yeni "planetar köçərinin" yanından əskik etmədiyi mobil telefonlar, dizüstü kompyuterler, planşetler "vade mecum" olaraq ona sanki Yer kürəsi ilə anlaşmasına, kiminlə, harada və nə zaman olur, olsun danışmasına imkan verir. Kiçildilib miniatürləşdirilmiş və bir gün bədənimizə yerləşdirilmiş kiçicik reseptorlara çevriləcək bu apparatuslar ilə dünya özü miniatürləşməkdə, Yer planeti kiçik oyuncaq ölçüsünə endirilməkdədir. Həqiqət, insanın öz zövqünə görə forma verə biləcəyi bir xəmirə bənzəyir. Mikronun zəfəri - hər şeyi ən kiçiciyə qədər kiçildərək bizi bir Titan böyüklüyüne yüksəldir. Teleskopun, qramafonun, göz eynəklərinin ixtirasından danışaraq, Z.Freud "Sivilizasiyada xəstəlik" adlı əsərində "insanın içindən şirin nağıl demək gəlir" - deyə hayqırırdı. Çünki bu ixtiralar keçmişdə yalnız Şamanlara verilən gücü hər kəsin xidmətinə verir. Dünyaya uzaqdan təsir etmək, qravitasiya qanununa üstün gəlmək istəkləri yalnız bir düyməyə basmaqla ya da fotoelektrik hücrəsindən keçməklə tətmin edilə bilər. Qapılar belə özlüyündən açılır qarşımızda, sanki şüurumuz obyektlərə birbaşa nəzarət edə bilir. Bir istehlakçının gözündə tərəqqi nədir: Magiyanin daha üstün forması. Bu süni orqanlar elə üstün bir texnologiya ilə hazırlanıb ki işləyişlərini anlaya bilmirik və onlara inanmaqdan başqa çarəmiz yoxdur. Əlbəttə, bütün bu yardımçı vasitələrə güvənilməsə və bu inam istifadə ilə gücləndirilməsəydi onları əsla mənimsəyə bilməzdik. Texnologiya eyni zamanda bir inanc işidir. Bu kiçik mexanik kölələr işləmədiyi anda qəzəbdən dəliyə dönürük. Çünki onlardan əksiksiz bir bağlılıq tələb edirik. Deməli, sahib olduğumuz alətlərə biz hökmran deyilik və köləlş-

[256] Jacques Attali – "Lignes d'Horizon", (Librairie Artheme Fayard, 1990), p, 132

dirdiyimizin köləsi olmuşuq. Bir əsrdən bəri reallaşdırılan texnoloji inkişafı görmürük, gördüyümüz sadəcə çatışmazlıqlardır. Ardı-arası kəsilməyən ixtiralar möcüzəsi adi bir şeyə çevrilib. Hər gün hər sahədə təkmilləşmələr istəyirik. Texnologiya bizi həsəd və doymamazlıq dini içində saxlayır. Onun sayəsində mümkün olan arzuolunana, arzuolunan məcburi olana çevrilir. Sənaye və modern elm bizi elə bir bolluğu öyrəşdirdi ki, icadlar seyrəkləşdiyi, tətminolma ehtiyacını təxirə salmağa məcbur olduğumuz zaman "bu dözülməzdir" deyə bağırmaq istəyirik. Bu, bir oyuncağın qarşısında ayaq dirəyən və "istəyirəm onu" deyə bağıran kaprizli bir uşağın qəzəbidir"[257].

Avropa qeyri-varlığın abismal dərinliyinə toxunmuşcasına öz degenerasiyasında siyasi və kultural olaraq daşlaşıb. Bir letargiyada solmağın və xalqların öz-özünü yox etməsinin işarəsi olaraq Avropanın dekadensiyasının mimezisi bir qanqrena kimi onun siyasi bədənini də öz ağuşuna alıb. İncəsənətin essensiyasını da işğal edən bu dekadensiya çirkinliyin malformasiyalarını, ruhən qeyri-sağlam təhrifləri ifadə edir. Yalnız kulturisidal nəzəriyyələr prizmasından baxılan bu dünya "xoşbəxtlik sadəcə maddi rifaha bağlıdır" – pinsipi üzərində dayanır. Bu tamaşa cəmiyyətinə üsyan edən H.Y.Ziberberq, Avropanın özünü ən ağır şəkildə cəzalandıraraq demokratiya tiranyasında kultural olaraq tükəndiyini bildirirdi[258].

Dekadensiya özlüyündə yeni bir fenomen deyil. Onun spektrinə bütün mədəniyyətlərn irsində rast gəlinir. Platon qeyd edir ki, insanların fəaliyyətləri öz bəsirətini itirmədikcə dekadensiyanın təkamülü müşahidə edilmir. Şpenqlerin "dekadensiya qaçılmaz bir fenomendir" fikrinə qarşı gələrək Jülien Froynd vurğulayır ki, bir mədəniyyət öz normalarının imperativinə sadiq qaldığı müddətcə dekadensiyadan danışmaq olmaz. O yalnız bu normaların imperativindən qopduğu zaman bu fenomen baş qaldırır. Xalqların qocaldığına inanmaq da yanlışdır. Biologiya kateqorikal və dəqiqdir: Yalnız Çin mədəniyyəti istisna olmaqla bütün mədəniyyətlər bir inkişaf və çiçəklənmə dövründən sonra yox olublar. Maddi-iqtisadi rifah dövrlərinin sol-

---

[257] Jean Baudrillard – "Impossible Exchange", Verso; Reprint edition (January 16, 2012)
[258] Hans-Jürgen Syberberg – « On the Fortunes and Misfortunes of Art in post-war Germany", translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017) p,90

ğunlaşma və ölüm periodları ilə əvəzləndiyi tarixi-sivilizasional həqiqətdir. Lakin, irq əsla qocalmır, irsi xətt qocalmır. Bir xalq yalnız neqativ kultural təsirlərə tabe olunduğunda yaxud demoqrafik qürub yaşadığında *irqin qətli* baş verir. İnsan etologiyasının banisi İrenaus Aybl-Aybesfelt də "mədəniyyətlərin qocalmağa məhkum olmadığını və onların özlərini yenidən yarada (regenerasiya) bildiyini" yazırdı[259].

İ.Aybl-Aybesfelt və J.Froyndun dekadensiya haqqında fikirləri Şpenqlərdən fərqlənsə də, xalqların və mədəniyyətlərin həyatında böhran fazasının normal olduğu ümumi şəkildə qəbul edilir. Dünya mövcudluğundan bəri böhran içərisində olub. Böhran, həyatdan ayrılmaz, mühüm və normal bir faktordur. Ancaq, bir *meydanoxuma* olarq dərk olunmalı olan böhran xalqların və mədəniyyətlərin həyat enerjisini azaltmaq əvəzinə daha da aktivləşdirməli, onun təşəbbüslərini neytrallaşdırmaq əvəzinə daha da artırmalıdır. Bugün köhnə qitənin üzləşdiyi dekadensiyanın toxumlarından biri də odur ki, Avropanın müasirləri böhrana bir meydanoxuma olaraq deyil, əvvəlcədən müəyyən edilmiş bir müqəddərat, dünya məsələləri üzərinə çökən qaçılmaz bir son – status-kvo olaraq yanaşırlar. İnsan dialektikanın qütblərini tərsinə çevirmiş kimi görünür: Keçmişdə, insan böhranın onun qarşısına qoyduğu meydanoxumaya və onun təlatümlərinə, ən əsası da böhrana üstün gəlməklə ondan sonra doğulacaq dünyaya münasibətdə özünü müəyyən edirdi. Bugün isə əksinə, insan böhran fazası şərtlərində özünü müəyyən etməyə, ona üstün gəlməyə deyil, onun hakim şərtlərinə özünü daha adekvat uyğunlaşdırmağa çalışır. Keçmişdə, insan öz fəaliyyətləri, spiritual təşəbbüsləri, hakimiyyət və özünütəsdiq iradəsi üçün böhranda bir motivasiya tapırdı. İnsanın müqəddəratına müdaxil olan böhran onu yeni müqəddəratının doğacağı bir dünyada dəyərlər yaratmaq üçün reaksiya verməyə məcbur edirdi. Bugün isə, insan öz passivliyinin, qeyri-təşəbbüskarlığının və geri çəkilməsinin legitimləşməsini məhz böhranda aşkar edib. J.Froynd izah edir ki, modern dekadensiyanın mərkəzində dayanan paradoks insan təbiəti səviyyəsində nəhəng reqressiya və təbiət üzərində misli-

[259] Irenaus Eibl-Eibesfeldt – "Wider die Mißtrauensgesellschaft. Streitschrift für eine bessere Zukunft", Pier, Munich, 1994, p, 230

görünməmiş texnoloji ağalıqdan ibarətdir. Cəmiyyəti transformasiya edən total azadlıq cəmiyyəti instinktlərinə, zorakılığa, irrasional fəaliyyətlərə və özünə nəzarət çatışmazlığına məhkum etməkdən başqa heç bir nəticə vermədi[260]. İqtisadi ideologiya özlüyündə bir son olaraq görülən istehsal və böyümə məqsədlərinə nail olmaq üçün texnoloji gücdən yanlış yöndə istifadə etdi. İstismar iradəsinin partlayıcı giqantizmi texnologiyanı öz imkanlarının hüdudunu aşmağa məcbur etdi. Təbiətin istismarında bu ifrat sürət planetimizin destruksiyası prosesinə də impuls vermiş oldu. Lakin, öz ağlımızda İliadanın əzəmətli və müqəddəs mətnini açsaq modern dekadensiya tamaşası deyil, Yer üzünə Moiraların triumfal qayıdışının təəssüratı bizi daha çox təəccübləndirəcək. Dissolyusiya əsrlərinin başlanğıcından bəri fəaliyyətdə olan bu qaranlıq və yeraltı qüvvələr dəfələrlə Olimpiya Tanrıları tərəfindən məğlub edilərək Yerin mərkəzinə geri göndərilib. Bugün, onların qaranlığın dərinliyindən qayıdışı tarixi və ideoloji təkamülün nəticəsidir. Bir faktı bilmək çox əhəmiyyətlidir ki, çöküşün faciəvi miqyası qürub yaşayan Avropanın yalnız bir fraqmenti olduğu Qərb sivilizasiyasının mental və coğrafi məkanı ilə sərhədlənir. Avropa? Yox, Bu Avropa onillər boyu sosialist və liberal, marksist və kapitalist, kollektivist və individualist, bürokratik və texnokratik qütblərə bölünmüş və hələ də bölünməyə davam edən, paqan ruhundan çox uzaq Yəhudi-Xristian – eqalitarian Avropadır[261]. Qərb sivilizasiyasının Avropası essensial olaraq Avropa deyil. Zigrid Hunke, Avropa ruhunun bu kardinal aspektinə qayıdaraq vurğulayır ki, Avropada qeyri-dualist din həmişə mövcud olub və hətta iki min il davam edən Qərbin Xristian mərhələsi ərzində belə bu qeyri-dualist din yox olmayaraq yad dinə üsyan edən böyük zəkaların spontan və cəsarətli impulsu ilə Xristianlaşmanın süni maskasını darmadağın edib. Yəhudi-Xristianlığın iyirmi əsri ərzində gerçək Avropa ruhunun arasıkəsilməz ənənəsini nəql edən bu ikonoklast dühalar sırasına Cordana Bruno, İ.V. fon Höte, Mayster Ekart, Nikolas de Kuza, Yakob Böheme, Plagius, Hölderlin, Beethoven, Angelus Silesius, A.

[260] Julien Freund - La Décadence : Histoire sociologique et philosophique d'une catégorie de l'expérience humaine", Sirey, 1997, p, 3

261 Pierre Krebs - "Fighting for the Essence", (Arktos Media Ltd., London, 2012)

de Sent-Ekzüperi və Haydegger daxildir. Qərb və Avropa arasındakı demarkasiyanın əhəmiyyəti ondan ibarətdir ki, bu hüdud Yəhudi-Xristian və onun modern avatarlarının, eqalitarian demokratiyanın, individualizmin, Marksizm və onun derivativlərinin, liberalizm və *Homo Oeconomicus*-un merkantil ideologiyasının linear mehvəri üzərində fossilləşdiyi düşünülən Tarixin hərəkətverici gücünü özünə qaytarır. Qərb və Avropanın sinonim olduğun düşünülsə də, Qərb Avropaya tamamilə yad olan zidd ideyaya sahibdir. Qərb sivilizasiyasının radikal və ekzogen xarakteri onu Avropanın etnik, mental və spiritual kulturasından ayıran təbii uyğunsuzluqlar əsasında dərk olunmalıdır. Məhz bu əsasda dərk ekzoqam Avropa-Qərb cütlüyünün spiritual boşanmasını aşkara çıxarır. Faktiki olaraq, Avropanın Qərb olaraq dərki Qərbin Avropa olaraq dərkinə transformasiya olub. Bu Avropanın dekadensiyasının müasir konsepsiyasının bütöv yanaşmasıdır. Yeni Sağ hərəkatının üzvləri – Gresistlər bildirirlər ki, Qərbin bir hissəsi kimi Avropanın ləğv olunması prosesi tərsinə çevrilə və Qərbin bütövlükdə yaşadığı böhran çərçivəsində yeni Avropanın doğuşuna zəmin yaradacaq şərtləri formalaşdıra bilər. Ümumilikdə Qərblilər, xüsusi olaraq isə Qərbi Avropalılar batan günəş torpağında öz sivilizasiyalarının geriçevrilməz bir şəkildə ölümə məhkum olduğunu müjdələyə bilərlər, ancaq digər dünya xalqları bu qürub və ya dissolyusiya çağında öz dəyərlərinə yenidən sahib çıxmalı, öz müqəddəratlarının yenidən canlandırmalı və tarixlərini yenidən başlatmalıdırlar. Onlar dərk etməlidirlər ki, öz mədəniyyətlərinin Qərb simulakrumu sona çatacağı zaman onlar öz müqəddəslərinə qayıtmaq, dəyərdən düşürülən öz identiklik şüuruna sahib çıxmaq, azad ruhları ilə unudulmuş transsendentallığın və köklərinin həyəcanını yenidən yaratmaq imkanı var olacaq. Bu, mədəniyyətlərin müqəddəslərinin, spiritual krallarının, kultural məziyyət sahiblərinin xalqların müqəddərat qılıncını yenidən ələ keçirmək üçün meydana çıxacaqları gün olacaq.

# EPİLOQ

İtalyan filosofu Auqusto del Noçenin təbiri ilə desək, “entropik Modernizm” Qərb tarixinin son dörd əsrində baş verən siyasi və fəlsəfi hərəkatların nəticəsidir. O əsasən beş birləşik proses ilə müəyyən olunur. Kommunal həyatın qədim formalarının dağıdılması vasitəsi ilə - fərdiləşdirmə (individualizasiya) və atomlaşdırma; standartlaşmış davranış və həyat tərzlərinin qəbul edilməsi vasitəsi ilə - kütlələşdirmə (massifikasiya); dünyanın pozitiv texno-elmi prizumpsiyaları tərəfindən böyük dini narrativlərin əvəzlənməsi vasitəsi ilə - müqəddəssizləşdirmə (desekralizasiya); instrumental ağılın, azad bazarın və texnoloji effektivliyin hökmranlığı vasitəsi ilə - rasionallaşdırma və yeganə rasional mümkünlük (və beləcə, alilik) olaraq güman edilən bir cəmiyyət modelinin planetar ekspansiyası vasitəsi ilə - universallaşdırma.

Bu hərəkatların qədim kökləri var. Onlar transsendental dimensiyanın inkar olunmasından sonra dünyəvi həyata yayılan Xristianlığın subyektiv metafizikasından götürülmüş ideyalar və perspektivlərin sekulyarlaşmasını təmsil edir. Birinci post-inqilabi eranın sekulyar ideologiyalarının doğuşuna səbəb olan böyük mutasiyaların kökləri məhz Xristianlıqda gizlidir. Fərdi salamət, eləcə də Yer üzərində bütün münasibətlərə üstün gələn bir fərd və Allah arasındakı imtiyazlı münasibət analyışlarında artıq fərdiyyətçilik mövcud idi. Eqalitarianizmin kök saldığı ideyaya əsasən hər kəs mütləq dəyəri bütün insanlıq tərəfindən bölüşülən fərdi ruha sahib olaraq doğulur. Proqressivizm isə Tarixin bir mütləq başlanğıcı və zəruri sonu olduğu ideyasından ortaya çıxıb və bir ilahi - providensial plana uyğun olaraq qlobal şəkildə davam edir. Nəhayət, universalizm bütün insanlar üçün keçərli olduğu düşünülən vəhy edilmiş həqiqəti nümayiş etdirdiyini iddia edən bir dinin təbii ifadəsidir. Modern siyasi həyat sekulyarlaşmış teoloji konseptlərə əsaslanır. Başladığı hərəkatın qurbanı olan Xristianlıq Qərb tarixində dindən kənar bir yolun dininə, daha dəqiq desək “qeyri-dinin dininə” çevrilib. Modernizmin bir-birilə rəqabət aparan və ziddiyyətli fəlsəfi məktəbləri bir məsələ üzərində tam razılaşırlar: bütün sosial, əxlaqi və siyasi problemlər üçün yeganə və universal həll yolu var. Bu perspek-

tivdən dünyanın müxtəlifliyi bir əngələ çevrilir və insanları fərqliləşdirən hər şey təsadüfi, zamanı keçmiş və hətta təhlükəli olaraq dərk olunur. Modernizm sadəcə ideyalar toplusu deyil, bir fəaliyyət tərzidir. O, bütün mümkün vasitələr ilə fərdləri aid olduqları sosio-etno-kultural birliklərdən (*Gemeinschaft* yaxud *communitas*) qoparmağa və onları rasional assosiasiyanın universal tərzinə tabe etməyə çalışır. Praktik olaraq, bunu etməyin ən effektiv vasitəsi bazar məkanıdır.

Liberalizm, Modernizm əsrinin özündə ehtiva etdiyi dominant ideologiyadır. İlkin olaraq, liberalizm muxtar iqtisadiyyatı əxlaqa, siyasətə və cəmiyyətə qarşı qoyaraq ortaya çıxmışdı. Daha sonra o, ticari dəyəri bütün kommunal həyatın essensiyasına çevirdi. "Kəmiyyətin aliliyinin" yüksəlişi bazar iqtisadiyyatlarından bazar cəmiyyətlərinə keçid anlamına gəlirdi. Bu isə, "görünməz əl" tərəfindən idarə olunan ticari mübadilə qanunlarının mövcudluğun bütün sferalarına ekstensiyası deməkdir. Digər tərəfdən də, liberalizm yanlış antropologiyadan və birölçülü insana əsaslanan deskriptiv və normativ baxış perspektivindən modern fərdiyyətçiliyi ortaya çıxardı. Bu birölçülü insan rasional hesablama ilə uyğunluq təşkil etməyən bütün dəyərləri aradan qaldıraraq öz mənfəətlərini maksimallaşdırmağa çalışmaqla "inkarolunmaz hüquqlarını" essensial olaraq asosial təbiətindən qazanır. Bu dualist fərdiyyətçi və iqtisadi impuls Darvinst sosial baxış ilə müşaiyət olunur. Yekun analizində Darvinizm sosial həyatı ümumiləşmiş mübarizəyə və "ən yaxşısını" seçmək üçün "hamının hamıya qarşı müharibəsinin" yeni versiyasına endirir. Bu sosial baxış seçilənin dəyəri haqqında heç nə söyləmir. Təkamül sağ qalmağa ən münasib olanı seçir. Lakin, insan sadəcə sağ qalmaqla kifayətlənmir. O öz həyatını liberalların neytral qaldığı dəyərlərin iyerarxiyasında düzənləyir.

XX əsrdə liberal hegemoniyanın ədalətsiz xarakterinə etiraz olaraq ortaya çıxan sosial hərəkat – Marksizm ilə düşmənçiliyinə rəğmən hər iki ideologiya Maarifçi düşüncənin varisidir. Onlar eyni fərdiyyətçiliyi, eyni universal eqalitarianizmi, eyni rasionalizmi, iqtisadiyyatın eyni aliliyini, əmək üzərində eyni sərbəstləşdirici dəyəri, tərəqqiyə eyni inancı

və Tarixin sonunun eyni ideyasını bölüşürlər. Liberalizm sadəcə olaraq Marksizm ilə bölüşdüyü bir neçə məqsədi daha effektiv şəkildə reallaşdırdı: kollektiv identikliklər və tradisional mədəniyyətlərin eradikasiyası, *dünyanın sehrinin pozulması* (Entzauberung) və istehsal sisteminin universallaşdırılması.

Liberal bazar qanunları rifah dövlətinin yüksəlişi və böyüməsini sürətləndirdi. Tarix boyu, bazar və dövlət bərabər səviyyədə mövcud olublar. Bu gün isə, bazar maddi olmayan inter-kommunal və qeyri-bazar mübadilələrini maddi qanunlara tabe etməyə, homogen iqtisadi məkanı hakimiyyət alətinə çevirməyə çalışır. Sosial münasibətlərin ticariləşməsi nəticəsində kommunal bağların aradan qalxması rifah dövlətinin proqressiv yüksəlişini zəruriləşdirdi. Tradisional həmrəyliyin uğursuzluqlarını minimallaşdırmaq üçün rifah dövlətinə redistribusiya həvalə edildi. Liberalizmin öz doktrinalarında ekstrim xarakter almasına əngəl ola bilməkdən uzaq olan bu dövlət müdaxilələri onun daha da güclənməsinə icazə verdi. Beləliklə, mücərrəd, anonim və donuq redistributiv strukturdan başqa bir şey olmayan rifah dövləti cəmiyyət üzvlərini sadəcə sosial yardım alan fərdlər yığınına çevirməklə sosio-etno-kultural prinsiplərə məsuliyyətsizliyi və nihilizmi ümumiləşdirdi. Qloballaşma əsrində, Liberalizm bir ideologiyanı deyil, insanların və əmtəələrin istehsalının (və yenidən istehsalının) bir qlobal sistemi kimi özünü təmsil edir.

Bu entropik sivilizasiyanın digər mühüm xarakterizasiyası sərhədsiz texno-tərəqqidir. Texnologiya həmişə bizim ətrafımızda var olub və onun varlığını essensial olaraq inkar etmək qeyri-mümkündür. Lakin, texnologiya hər zaman qeyri-texnoloji imperativlər ilə, yəni insan, onun şəhəri və kosmosunun harmoniyası ilə, Varlığın evi olaraq təbiətə və onun misteriyalarına sayğı ilə, Promotey qüvvəsinin tabe edilməsi, Olimpiya fəziləti, "hubris"in[262] rəddi və məhsuldarlıq deyil, keyfiyyət üzərində maraqlar ilə tənzimlənirdi. Modenizmin texnoloji partlayışı etik, simvolik və dini məcəllələrin yox oluşu ilə izah olunur. Onun dərin kökləri Bibliya impe-

[262] *Hubris* – Qədim Yunan mifologiyasında Olimpiya Tanrılarına meydan oxuyan ifrat təkəbbür.

rativinə aiddir: "Dünyanı yenidən doldur və onu zəbt et" (Genesis). Məhz bu imperativ ilə Dekart, "insanı təbiətin ağası və sahibi olmağa" məcbur edirdi. Yaradılmış dünya ilə yaradılmamış varlıq arasında dualist teosentrik bölünmə subyekt və obyekt arasında dualist antroposentrik bölünməyə metamorfoza olundu. Modernizm həmçinin elmi (dərin düşüncə) texnologiyaya (operativliyə) tabe edərək dünyanın transformasiyasını daha da sürətləndirən birləşmiş "texno-elmin" yaranmasına səbəb oldu. XX əsr əvvəlki 15 mil il ərzində görülən təlatümlərdən daha çox təlatümə şahidlik etdi. İnsan tarixində ilk dəfədir ki, hər bir yeni nəsil əvvəlki nəslin təcrübə etmədiyi bir dünyaya özünü inteqrasiya etməyə məcbur edilir.

Texnologiya öz-özünü idarə edən bir sistemi inkişaf etdirir. Hər bir yeni kəşf onu daha kompleks edən və gücləndirən operativin qlobal gücü tərəfindən absorbsiya olunur. Kompüterlər və kibernetika sistemik inteqrasiyanı fövqəladə dərəcədə sürətləndirir. İnternet şəbəkəsinin nə qərarverici mərkəzi, nə də ki girişi yaxud çıxışı var. Lakin, o özünə qoşulu olan milyonlarla terminalların interaksiyasını qoruyur və onu daimi olaraq genişləndirir. Reqressiya deyil, staqnasiya dövrlərini yaşayan texno-elmi inkişafın kumulativ təbiəti insanın təbiət üzərində gücünün artmasını nümayiş etdirməklə və riskləri, qeyri-müəyyənlikləri azaltmaqla tərəqqi ideologiyasını uzun illərdir ki dəstəkləyir. Beləliklə, insana mövcudiyyətin yeni vasitələrini verən texnologiya, eyni zamanda insanın yaşamaq üçün səbəbini itirməsi ilə də nəticələnib. Bu mənəvi yoxsulluq Yer üzündə həqiqi insan həyatının yox oluşu kimi getdikcə daha dərindən dərk edilir. Sonsuz kiçiyi və sonsuz böyüyü kəşf etməklə, texno-elm insanın özünü, eyni anda onun manipulyasiyalarının subyekt və obyektini (klounlama, süni mayalanma, genetik barmaqizi və s.) nəzarət altına alır. İnsan özünün kövrəkliyini artıran texnomorf təfəkkürü qəbul etməklə yaratdığı texnoloji alətlərin bəsit intişarına çevrilir.

İş (fransız dilində *travail*, Latın dilindən *tripalium* – işgəncə aləti) qədim və tradisional cəmiyyətlərdə əsla mərkəzi mövqeyə sahib olmadı. Zərurətin qadağalarından doğan iş (tripalium) azadlığımızı icra etmir. Tra-

disional cəmiyyətlərdə isə bir fərd işi özünün ifadəsi olaraq görürdü. Total şəkildə bütün resurslardan istifadə edərək produktivist məqsədinə kilidlənən modernist düşüncə işi özlüyündə bir dəyərə, sosiallaşmanın əsas tərzinə, fərdin sərbəstləşməsi və muxtariyyətinin illüziyasına çevirdi ("iş vasitəsilə azadlıq"). Bu funksional, rasional və pula çevrilmiş heteronom iş fərdlər tərəfindən bir məslək yaxud qabiliyyət olaraq deyil, məcburiyyət olaraq yerinə yetirilir. İstehsal işdə sərf olunan vaxtın kompensasiyası üçün ehtiyac duyulan istehlakın stimullaşdırılmasına xidmət edir. Heç bir şeyin dəyəri olmadığı, amma hər şeyin qiyməti olduğu bir dünyada monetar şərtlər daxilində hesablanıla bilməyən hər şey qeyri-mövcudluğa tərk edilir. Maaşlaşmış cəmiyyətdə hər kəs həyatını qazanmaq üçün öz zamanından vaz keçib.

G.Deborun tərifi ilə desək, bu "tamaşa cəmiyyətində" muxtar şəkildə inkişaf edən separat güc əməyin sürətlə parselizasiyaya uğramış hərəkətlərə bölünməsindən qaynaqlanan və getdikcə artan produktivliyə əsaslanır. Bu bölünmə maşının muxtariyyəti və durmadan genişlənən bazar tərəfindən diktə olunur. Bu inkişaf kursunda bütün sosial dəyərlər və tənqidi şüur dezinteqrasiyaya uğrayır. İşçinin və məhsulun ümumi separasiyası istehsalçılar ilə onların istehsal etdikləri arasındakı dərk edilə bilən anlamı aradan qaldırmağa köklənib. Modern cəmiyyətlərdə qeyri-fəaliyyət heç bir halda istehsal fəaliyyətindən azad deyil. İstehsal fəaliyyətindən asılı qalan qeyri-fəaliyyət istehsal sisteminin nəticələri və tələblərinə heyranlıqla tabellik içərisindədir. Modern qeyri-fəaliyyətin özü belə produktiv sistemin məhsullarından biridir. İstehsal prosesindən kənarda heç bir azadlığın mümkün olmadığı tamaşa cəmiyyətində müstəqil fəaliyyət keçərsizləşdirilir. Bütün real fəaliyyət texno-iqtisadi tamaşanın qlobal konstruksiyasına yönəldilir. "İşdən azadlıq" (və ya asudə zamanda artım) istehsal prosesi ilə paralel inkişaf edən istehlak prosesinin modern istehlakçıya təlqin etdiyi şərtlər daxilində mümkündür.

İnsanın bioloji limitasiyalarının ikincidərəcəli əhəmiyyətə malik olduğu bu produktiv sistemdə modern istehsalçı özündən müstəqil güc istehsal edir və onun yadlaşmış məhsulları artdıqca bütün zaman və məkan

anlayışı istehsalçıya yadlaşır.

Avstraliyalı sosioloq, Modernizmin sosiologiyasının tədqiqatçısı Con Kerroll Modernizm daxilində hər zaman öz dinamik əhəmiyyətini qoruyan üçqatlı neo-Kalvinist məntiqi belə izah edir: fərdi vicdan, dünyəvi məslək və *anima mundi* (dünya ruhu)[263]. Modernizm kultural olaraq Protestant xarakterlidir, Lüterin və Kalvinin Allahı çoxdan qeyri-müəyyənliyə doğru çəkilsə də, bu reallıq dəyişmir. Reformasiyanın Kilsə iyerarxiyasının təməlini sarsıtdığı doktrina belə vurğulanmalıdır : həm əxlaqi, həm də spiritual olaraq fərdlərə yalnız onların öz vicdanı rəhbərlik edə bilərdi. Miltonun söylədiyi kimi, "Allah insanda öz nümayəndəsi olan vicdan vasitəsilə birbaşa danışdı". Beləcə, insanın nə etməli və necə yaşamalı olduğu üzərində ən ali hakimiyyət yaşından, cinsindən, irqindən və ya sosial statusundan asılı olmayaraq hər bir insana qədər demokratikləşdirildi. Nəinki yepiskoplar və keşişlər, eləcə də krallar, baş nazirlər, dövlət məmurları və magistratlar da öz imtiyazlarını itirdi. Nəhayət, eyni məntiq XX əsrin ikinci yarısında ailə dəyərlərinə də zərbə vuraraq valideynlərin öz uşaqlarına nizam-intizam təlqin etmə qabiliyyətlərini eroziyaya uğratdı. Artıq, yalnız bir nəzarətedici hakimiyyət olmalı idi – fərdin vicdanı. Kalvinə görə, fərdi ruhun əsas göstəricisi insanların öz mərkəzi həyat fəaliyyətlərini (məsləklərini) icra etdikləri tərz olacaqdı. Klavinizmin inqilabi xarakteri məhz bu təlimdə gizlidir. İnsanlar bu təlimi sanki bir ideal kimi, fədakarlıq, ciddilik, intizam və bacarıq ilə yerinə yetirməli idilər. Bununla da, iş duanın yeni formasına çevrildi. Dolayısı ilə, başıaşağı şəkildə, sakit bir konsentrasiyada, günbəgün, saatbasaat işləyən modern fərdin spiritual kredosu məhz Kalvinizm oldu. İohann Vermeer və Piter de Hoox kimi XVII əsr holland rəssamları bu mömin fədakarlığın ruh halını təsvir edirdilər. Məslək ibadətin dünyəviləşməsinin bir aspekti idi. Digər aspekti isə "anima mundi" adlanır. Təbiilik və primitiv şəkildə "təbiətə qayıdış" protestant "anima mundi"nin əsasını təşkil edir. Sivilizasiyadan

[263] John Carroll – "Ego and Soul: The Modern West in search of Meaning", (Counterpoint, Berkeley, California, USA, 2008), p, 4-9

uzaqlaşmaqla əlçatmaz bir *beyond* daxilində müqəddəslik axtarışında olan modern insanın özünü bakirə təbiətə, landşaftlara və dəniz mənzələrinə qərq etməsinin spiritual mentoru da məhz Kalvinizmdir.

Modernizmin məzmunu və simvolları azadlıq və bərabərlik arzuları ilə müəyyən olunub. Lakin, bu iki kardinal dəyəri inkar edən də məhz Modernizmdir. Onları qoruyan, mövcudiyyətlərinə forma və mahiyyət verən sosio-kultural birliklərdən uzaqlaşdırılmış fərdlər artıq dominasiya və qərarvermənin nəhəng mexanizminə tabe edilib. Onlar öz həyatına təsir etmək imkanından yoxsul olaraq bazar məkanı, texno-elm və kommunikasiyaların qlobal gücünün nəzarəti altındadır. Kommunizm tarixdə ən qanlı totalitar rejimləri yaratmaqla, kapitalizm isə "imkanlar bərabərliyi" adı ilə ən nifrətdoğurucu sosio-iqtisadi bərabərsizlikləri legitimləşdirməklə bərabərlik anlayışına xəyanət edərək onu dəyərsizləşdirdi. Modernizm "hüquqlar" deyə hayqırsa da, onları yerinə yetirmək üçün hər hansı bir vasitə göstərmir. Əksinə, bütün ehtiyacları kəskinləşdirir və davamlı olaraq yenilərini yaradır, bu ehtiyacların tətmin edilməsini yalnız kiçik bir azlıq üçün mümkün etməklə digər hər kəsin nifrət və ümidsizliyini bəsləyir. Getdikcə qeyri-müəyyənləşən və qabaqcadan görülə bilməyən gələcək ümid vermək bir yana, hər kəsi qorxudur. Hər bir nəsil atalarının yaşadığından tamamilə müxtəlif bir dünyada yaşayır. Canlı kontekstlərin və həyat tərzlərinin sürətlənmiş transformasiyaları ilə toplanan bu yenilik insan əcdadlarını və onların qədim təcrübələrini inamsızlaşdırmaqla xoşbəxtlik deyil, "səfalət mədəniyyətini" meydana çıxarıb. İnstrumental ağıl, iqtisadi böyümə və maddi inkişaf üçün gerçək insan həyatının yox edilməsi ruhun misligörünməmiş dərəcədə kasıblaşması, qeyri-müəyyən "əbədi indi"də mövcudiyyətlə bağlı olaraq iztirabın ümumiləşməsi, keçmiş və gələcəkdən yoxsul bir dünyanın ortaya çıxması ilə nəticələnib. Modernizm bəşəriyyətin bildiyi və yaşadığı ən boş və dekadent sivilizasiyanın zəfərinə səbəb olub: Reklamçılıq dili bütün sosial diskursun paradiqması halına gəlib, pulun aliliyi əmtəələrin hər yerdə var olmasını təlqin edir, hedonizm kontekstində insan mübadilə obyektinə transformasiya edilib,

texnologiya bir rasionalizm şəbəkəsində "Lebenswelt"i bütünlüklə absorbsiya edib. Cinayətkarlıq və zorakılıq ilə dolu bir dünyada insan özü ilə və digər tərəfdə, hamı hamıya qarşı müharibədədir. Virtual reallıq və media tərəfindən şişirdilmiş fəaliyyətlərinin qeyri-real dünyasında yalnız qalan fərd anonim və düşməncə bir kütləyə inkorporasiya edilir, ənənəvi sosial, siyasi, kultural və dini meditasiyalar getdikcə qeyri-müəyyən və fərqliləşməmiş hala gətirilir. Bu ümumi böhran Modernizmin öz sonuna çatdığını işarə edir. XX əsrin sonu həm Modernizm Əsrinin sonu kimi xarakterizə olunur. Yeni və həqiqi *post-modern* əsri isə yalnız inteqral ekologiya üzərində düşünmək, fəzilətli həyat prinsiplərinə fokuslanmaq, dünyanın *pluriversum* olaraq dərki, tradisional sosio-kultural birliklərin yenidən oyanışı, qrup identikliklərinin siyasəti vasitəsilə ortaya çıxa bilər. Yeni heç bir şey söyləməyərək və modernist cəmiyyətlərin xəstəliyini müşahidə edərək hakim ideologiyanın aktyorlarının fikirləri *implosion* (daxilə doğru partlayış) tərəfindən təhdid edilən dünyada media tərəfindən ümumiləşdirilən klişelərlə dolu diskursa endirilib. Bir "grand soir" (İsanın ikinci gəlişinin sekulyar versiyası) ilə deyil, məhz minlərlə "aurora"ların, yəni Modernizmin və onun yaratdığı entropiyanın hegemoniyasından azad olunmuş suveren məkanların meydana çıxması və keçmişə deyil, tamamilə anti-modern dimensiyada ontoloji-spiritual bütövlüyünə yenidən yiyələnən insanın Modernizmdən əvvəlki dəyərlərə qayıtması ilə bu entropiyaya üstün gəlinəcək.

# BİBLİOQRAFİYA

ARENDT, Hannah – “The Origins of Totalitarianism”, (New York: Meridian Books, 1958)

ATTALI, Jacques – “Lignes d’Horizons”, (Librairie Artheme Fayard, 1990)

BACHOFEN, Johann Jakob – “II Matriarcato. Ricerca sulla Ginecocrazia del Mondo Antico nei suoi aspetti Religiosi e Giuridici”, (Tradizione di Furio Jesi e Giulio Schiavoni, Giulio Einaudi editore, Torino, Italia, 1988)

BAUMAN, Zygmunt – “Liquid Modern Challenges to Education”, Lecture given at the Coimbra Group, Annual Conference, Padova, 2011, p, 3-7

BELL, Daniel – “The Cultural Contradiction of Capitalism”, (Basic Books, Inc, Publishers, New-York, 1978)

BENDA, Julien – “The Treason of the Intellectuals”, (translated by Richard Adington, Transaction Publishers, New-Brunswick, New-Jersey, USA, 2007)

BENDIX, Reinhard– “Work and Authority in Industry”, Routledge; 2001

BERNANOS, Georges– “La France contre les Robots” , Le Castor Astral, Collection “Galaxie” , 2017, Paris

BESANÇON, Alain– “La falsification du Bien” , (Paris, Commentaire, Julliard, 1985)

BESANT, Annie– “Les lois fondamentales de la théosophie”, Hachette Livre BNF, 1 mai 2013

BLAVATSKY, Helena Petrovna – “The Secret Doctrine”, 2005

BOLTON, Kerry– “Stalin; the Enduring Legacy”, Black House Publishing September, 2012

BOMAN Thorleif– “Hebrew Thought Compared with Greek”, W.W. Norton Company, London, 1960

BOSCH, Paul van den– “Les Enfants de l’absurde”, La Table Ronde, 1 juin 1958

BRUCKNER, Pascal– “Perpetual Euphoria: On the duty to be Happy”, Princeton University Press, 2010

BRUCKNER, Pascal– “The Temptation of Innocence: Living in the Age of Entitlement”, Algora Publishing, New-York, USA, 2000

BRUCKNER, Pascal – “The tyranny of Guilt”, translated by Steven Rendall, Princeton University Press, 2010

BRUNO, Giordano – “Spaccio della bestia trionfante”, Milano, 2000

BURNHAM, James–“The Struggle for the World”, John Day Company Inc., NY, 1947

CALINESCU, Matei–“Five Faces of Modernity: Modernism, Avant-garde Decadence, Kitsch Postmodernism” , Duke University Press, Durham, 1987

CAMPBELLE, Colin – “The Romantic Ethic and the Spirit of Modern Consumerism”, Alcuin Academics, Great Britain, 2005

CAMPBELLE Joseph– “Myth, Religion and Mother Right”, Selected Writings of J.J.Bachofen, Princeton University Press

CARDUCCI, Giosue (Enotrio Romano) – “Inno a Satana”, Libreria Nazionale Centrale Firenze, 1872

CARROLL John– “Ego and Soul: The Modern West in search of Meaning”, Counterpoint, Berkeley, California, USA, 2008

CAZENEUVE Jean– “Bonheur et civilisation”, Gallimard, Paris, 1962

CICERO, Marcus Tullius – “On Duties”, edited by M.T. Griffin and E.M.Atkins, Cambridge University Press, 1991

COX, Harvey– “The Secular City – Secularization and Urbanization in Theological Perspective”, Princeton University Press, 2013

DE BENOIST, Alain – “I Demoni del Bene: Dal nuovo ordine morale all’ideologia del genere” , traduzione di Giuseppe Giaccio, Controcorrente edizioni, Napoli, Italia, 2015

DE BENOIST, Alain – “On being a Pagan”, translated by John Graham, edited by Greg Johnson, Ultra, Atlanta, Georgia, USA, 2004

DE BENOIST, Alain– “Beyond Human Rights”, Arktos Media Ltd., 2011, London

DE COULANGES, Numa Denis Fustel – “The Ancient City; A study on the Religion, Laws and Institutions of Greece and Rome”, Batoche Books, Kitchener, Ontario, Canada, 2001

DE MAISTRE, Joseph– “Considérations sur la France », Librairie de la Société bibliographique, Paris, 1880

DELSOL, Chantal – “Icarus Fallen: The Search for Meaning in an Uncertain World”, translated by Robin Dick, Intercollegiate Studies Institute, Wilmington, Delaware, USA, 2003

DRIEU LA ROCHELLE, Pierre – « Le jeune europeen », Gallimard, Paris, 1927

EIBL-EIBESFELDT, Irenaus -– “Wider die Mißtrauensgesellschaft. Streitschrift für eine bessere Zukunft”, Pier, Munich, 1994

EIBL-EIBESFELDT, Irenaus – “Human Ethology”, Routledge, New-York, 2017

ELIAS, Norbert – “The Society of Individuals”, translated by Edmund Jephcott, Continuum International Publishing Group Inc., New-York, 1991

ELLUL, Jacques – “New Demons”, Seabury Press Inc., New-York, 1975

ELLUL, Jacques– "The technological bluff", Pasadena, Pentercost, USA, 1989

LEVINAS, Emmanuel– "Difficile liberté", Albin Michel, Paris, 1973

EVOLA, Julius – "Chevaucher le tigre", La Colombe, Paris, 1964

EVOLA, Julius – "Imperialismo Pagano", Edizioni Mediterranee, Via Falminia, Roma, 2004

EVOLA, Julius – "Men among Ruines: Post-War Reflections of a Radical Tradistionalist", translated by Guido Stucco, iİnner Traditions, Rochester, Vermont, 1953

EVOLA, Julius– "Metaphysics of War", Battle, Victory and Death in the World of Tradition, Arktos, 2011

EVOLA, Julius–"Recognitions: Studies on Men and Problems", Arktos, London, 2019

EVOLA, Julius– "Revolt against modern World", translated by Guido Stucco, Rochester Vermont, 1995

EVOLA, Julius– "the Bow and the Club", translated by Sergio Knipe, 2018, Arktos Media Ltd.,

FAYE, Guillaume – "Sex and Deviance", Arktos Media Ltd., London, 2014

FREUND, Julien – "La Décadence : Histoire sociologique et philosophique d'une catégorie de l'expérience humaine", Sirey, 1997

GAUCHET, Marcel – "The Disenchantment of the World: A Political History of Religion", Translated by Oscar Burge, Princeton University Press, Princeton, New Jersey, 1997

GAUCHET, Marcel– "La démocratie contre elle- même », (Paris, Gallimard, 2002),

GIANFRANCESCHI, Fausto – "L'uomo in allarme", Edizioni dell'Albero, Torino, Italia, 1963

GUÉNON, Rene – "East and West", translated by Martin Lings, Sophia Perennis, NY, 2001

GUÉNON, Rene– "Initiation and Spiritual Realization", trans. Henry D. Fohr, Sophia Perennis, Hillsdale, NY, 2001

GUÉNON, Rene– "Spiritist Fallacy", translated by Alvin Moore and R. Coomaraswamy, Sophia Perennis, Hillsdale, NY, 2001

LUKACS, Georg– "Soul and Form", translated by Anna Bostock, The MIT Press Edition, Cambridge, Massachusetts, USA, 1974

HAMILTON, Clive– "The Freedom Paradox: Towards a post-secular ethics", Allen and Unwin, Australia, 2008

HAROUEL Jean-Louis– "La grande falsification. L'art contemporain", Jean-Cyrille Godefroy, 2009, Paris

HEARD, M.P. Brendan – "The Decline & Fall of Western Art" , CreateSapce Indepenedent Publishing Platform, South Carolina, USA, 2018

HEGEL, Georg Wilhelm– "The Philosophy of History", Batoche Books, Kitchener, Ontario, 2001

HOLM, Lars Holger– "Homo Maximus, Reflections on on the Relationship between Man and the Universe created in his image", Arktos Media Ltd., UK, 2013

HUME, David– "A Treatise of Human Nature", ISN, ETHZurich, Reprinted from the original edition Oxford Clarendon Press, 1896

HUXLEY, Aldous– "The Devils of Loudun", Harper and Brothers, NY, 1953

IBSEN, Henrik – "The Wild Duck", Blackmask Online, 2001

JAHN, Janheinz - "Muntu. African Culture and the Western World", Grove Press, NY, 1990

JASPERS, Karl - "The Origin and Goal of History", Yale University Press, 1953

JÜNGER, Ernst–"The Worker–Dominion and Form", translated by Bogdan Costea and Laurence Paul Hemming, Northwestern University Press, Evanston, Illinois, 2017

EYSENCK, Jürgen Hans– "The Inequality of Man", Maurice Temple Smith, Great Britain, 1973

KANDINSKY, Wassily– "Du spirituel dans l'art, et dans la peinture en particulier", Paris, 2007

KARNOOUH, Claude– "Adieu à la différence : Essais sur la modernité tardive", Arcantères, Janvier 1999

KERENYI, Karoly– "La religione antica nelle sue linee fondamentali", Libreria Cultonline, 1951

KERENYI, Karoly– "The Gods of Greeks", Pickle Partners Publishing, London, 2016

KEYSERLING, Count Hermann - "The Recovery of Truth", Translated by Paul Fohr, Harper Brothers Publishers, USA, New-York, 1929

KEYSERLING, Count Hermann– "America Set Free", Butler and Tanner Ltd. Frome, London, Great Britain

KEYSERLING, Count Hermann– "America set free", Butler and Tanner Ltd. Frome, London, Great Britain

KOESTLER, Arthur – "The Ghost in the Machine", Hutchinson & CO (Publishers) Ltd., London, 1967

KREBS, Pierre "Fighting for the Essence", Arktos Media Ltd., London, 2012

LASCH, Christopher– "Women and the Common Life: Love, Marriage and Feminism", W.W. Worton & Company, New-York, 1997

LAZARSFELD, Sophie– "Rhythm of Life: Guide to Sexual Harmony for Women", Greenberg; First Edition, January, 1934

LEAKEY, L.S.B.– "The progress and evolution of Man in Africa", Oxford University Press, 1961

LE GOFF, Jacques – "History and Memory", translated by Steven Rendall and Elisabeth Claman, Columbia University Press, 1992

LEDDIHN, Erik von KUENHELDT – "Liberty or Equality", The Challenge of ou Time", The Caxton Printers Ltd., Caldwell, Idaho, 2014

LUDOVICI, Anthony Mario – "A Defence of Aristocracy: A Text-Book for Tories", London: Constable, 1933

MACINTYRE, Alasdair– "After Virtue: A Study in Moral Theory", Notre Dame: University of Notre Dame Press, 1981

MARCEL, Gabriel – "Man against Mass Society", translated by G.S. Fraser, St. Augustine's Press, South Bend, Indiana, 2008

MARX, Karl– "German-French Annals", Paris, 1844

MASSIS, Henri– "Défence de l'Occident", Paris, 1927

MELUCCI, Alberto– "The Playing Self: Person and Meaning in Planetary Society", Cambridge University Press, Great Britain, 1996

MEREZHKOVSKY, Dmitry– "Les Mystères de l'Orient", Égypte, Babylone", l'Age d'Homme, 2012

MONTCORBIER, Flora – "Le Communisme de Marché : De l'utopie marxiste à l'utopie mondialiste" , Editions l'Age d'Homme, Lausanne, Suisse, 2000

MORIN, Edgar– "Method: Towards a Study of Humankind, Volume1, The Nature of Nature", translated by Roland Bélanger, American University Studies, New-York 1992

MORIN, Edgar– "Science avec conscience", Librairie Arthème Fayard, 1982

NIETZSCHE, Friedrich – "Basic Writings of Nietzsche", translated by Walter Kaufmann, New York: Random House, 2000

NIETZSCHE, Friedrich – "The Gay Science", trans. Walter Kaufmann, New York: Random House, 1974

NIETZSCHE, Friedrich – "Thus Spoke Zarathustra", trans. R. J. Hollingdale London:

Penguin Classics, 1961

NOBERT, Elias – "The Society of Individuals", The Continuum International Publishing Group Inc. 370 Lexington Avenue, NY, 10017, 1991

BERDYAEV, Nicolas - "The Philosophy of Inequality: Letters to my contemners concerning social philosophy" , Translated by Fr.S. Janos, frsj Publications, Fr. Stephen J. Janos, Pennsylvania, 2015

OTTO, Fridrich Walter – "The Homeric Gods: The Spiritual Significance of Greek Religion" , translated by Moses Hadas, Thames and Hudson, London, 1954)

PAOLI, Paul-François– "La tyrannie de la faiblesse : La féminisation du monde ou l'éclipse du guerrier", François Bourin Editeur, 23 septembre 2010)

PARVULESCO,Jean-"Le soleil rouge de Raymond Abellio",Guy Trédaniel,Paris,1987

PLATO – "Republic", idph.net, 18 de maio de 2002

PTOLEMY – "Centiloquium", translated and annotated by Deborah Houlding, 2006

DARANTIER, Philippe– « Le techno-nihilism », Presses de la Délivrance, 2016

REICH, Wilhelm– "The Function of the Orgasm", Sex-Economic Problems of Biological Energy", translated by Vincent F.Carfagno, A Condor Book, Souvenir Press, (E & A, Ltd), 1983

REICH, Wilhelm – "The mass psychology of Fascism", translated by Theodore Wolfe, NY, 1946

RICHTER, Hans– "Dada, Art and anti-Art", Thames and Hudson Ltd., London, 1964

RIFKIN, Jeremy– "Time Wars: The Primary Conflict in Human History", Henry Holt and Company, 1997

ROUGIER, Louis – "Du paradis à l'Utopie", Editions Copernic, Paris, 1979

SCHOPENHAUER, Arthur– "Pensées et Fragments", Felix Alcan Editeur, Paris, 1906

SCHMITT, Karl– "The concept of Political", Chicago University Press, 2007

SHARPLES, Robert W.– "Stoics, Epicureans, and Sceptics: An Introduction to Hellenistic Philosophy", New York, NY: Routledge, 1996

SIMPSON, William Gayley– "Which way Western Man?", The estate of William and Harriet Simpson, 1978

SOLJENITSYNE, Alexandre – "Le Déclin du courage. Le discours visionnaire de Harvard », 1978

SOMBART, Werner– "The Quintessence of Capitalism: A Study of the History and Psychology of the Modern Business Man", Hardpress, Miami USA, 2017

SPENGLER, Oswald– "Decline of the West", Vol 1 and Vol 2, translated b Charles

Francis Atkinson, Random Shack, 2016

SUNIC, Tomislav – "Against Democracy and Equality", Arktos Media Ltd., London, 2011

SYBERBERG, Hans-Jürgen – "On the Fortunes and Misfortunes of Art in post-war Germany", translated by Alexander Jacob, Arktos Media Ltd., London, 2017

TALMON, Jacob Leib– "The Origins of Totalitarian Democracy", Mercury Books, London, 1919

THUILLIER, Pierre– "D'Archiméde à Einstein – Les faces cachées de l'invention scientifique" , Librairie Arthéme Fayard, 1988

TILGHER, Adriano– "Homo Faber: Storia del concetto di lavoro nella civiltà occidentale, analisi filosofica di concetti affini" , Libreria di Scienze e Lettere, Roma, 1929

TILGHER, Adriano – "La Visione Greca della Vita" , Rivista Bilychnis, Roma, 1922

VALERY, Paul– "Regards sur le monde actuel et autres essais, notes sur la grandeur e la décadence de l'Europe, Editions Gallimard, Paris, 1945

VATTIMO, Gianni – "Dopo la Cristianita. Per un Cristianesimo non religioso", Garzanti, Italia, 2002

VENNER, Dominique – "Un samouraï d'Occident", Le Bréviaire des insoumis", Pierre-Guillaume de Roux, 2013, Paris, 2013

VIRILIO, Paul – "The Information Bomb", translated by Chris Turner, Verso, UK, 2005

VIRILIO, Paul – "The Lost Dimension", Semiotext(e), New-York, 1991

VICO, Giambattista– "The New Science", Cornell University Pres, NY, 1948

VON SCHILLER, Friedrich– "On the Aesthetical education of Man", Blackmask Online, 2002

WARREN, James– "Epicurus and Democritean Ethics: An Archaeology of Ataraxia", New York, NY: University of Cambridge, 2002

WEININGER, Otto– "Sex and Character", William Heinemann, London

WERTHEIM, Margaret– "The Pearly Gates of Cyberspace: A History of Space from Dante to Internet", W.W. Norton and Company, NY, 2000

WHITE, JR Lynn., - "Historical Roots of our Ecological Crisis", in Science, 10 March, 1967

WOLFF H. Kurt – "The Sociology of Georg Simmel", The Free Press, Illinois, 1950

ZEMMOUR, Eric– "Le Premiere Sexe", (Editions Denoel, Paris, 2004)

# ENTROPİK

# DÜNYA

## XAOSUN KOSMOS ÜZƏRİNDƏ ZƏFƏRİ

SÜBHAN PADAROV

Çapa imzalanmışdır: 19.08.2019
Nəşrin ölçüsü: 60x90 1/16
Çap vərəqi: 23
Sifariş: 001/19
Sayı: 500

İZƏ nəşriyyatı